**Azərbaycan Respublikası**
**Milli Təhlükəsizlik Nazirliyinin**
**Heydər Əliyev adına Akademiyası**

**Cəlal Qasımov, Nicat Nağıyev**

# MİLLİ TƏHLÜKƏSİZLİYİN ƏSASLARI

***(dərslik)***

***Dərslik MTN-in Heydər Əliyev adına Akademiyasının Elmi şurasının 14 may 2014-cü il tarixli qərarı ilə nəşrə tövsiyə olunmuşdur.***

- 19517 -

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

**Bakı – 2015**

*Baş məsləhətçi:* Azərbaycan Respublikasının Milli Təhlükəsizlik naziri, general-polkovnik **Eldar Mahmudov**

*Elmi redaktor:* MTN-in Heydər Əliyev adına Akademiyasının rəisi, general-leytenant **Ziya Yusif-zadə**

*Müəlliflər:* **Cəlal Qasımov, Nicat Nağıyev**

*Rəyçilər:* Azərbaycan Respublikasının Prezidentinin Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri, tarix elmləri doktoru, professor **Əli Həsənov**

Azərbaycan Respublikasının Prezidentinin Administrasiyasının qanunvericilik və hüquq ekspertizası məsələləri şöbəsinin müdiri, hüquq elmləri namizədi **Şahin Əliyev**

AMEA-nın vitse-Prezidenti, Milli Məclisin deputatı, akademik **İsa Həbibbəyli**

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının I prorektoru, fəlsəfə elmləri doktoru, professor **Əlikram Abdullayev**

"Milli-təhlükəsizliyin əsasları" dərsliyində qloballaşan dünyada, xüsusilə də Azərbaycanın ictimai-siyasi həyatında olduqca aktual olan təhllükəsizlik problemləri tədqiqatın predmetinin əsasını təşkil edir.

MTN-in Heydər Əliyev adına Akademiyasının kursant və dinləyiciləri üçün nəzərdə tutulmuş dərslikdən siyasətçilər, diplomatlar, tarixçilər, politoloqlar, sosioloqlar və başqaları da faydalana bilər.

**© Milli Təhlükəsizlik Nazirliyinin Heydər Əliyev adına Akademiyası, 2015**

# MÜNDƏRİCAT

**RƏYLƏR** ........ 8
**GİRİŞ** ........ 21

**I FƏSİL**
**Milli təhlükəsizliyin əsasları fənninin yaranması və inkişafı**

1. Milli təhlükəsizliyin əsasları fənninin predmeti ........ 26
2. Milli təhlükəsizliyin əsasları fənninin metodları, funksiyaları və digər elmlərlə əlaqəsi ........ 28
3. Milli təhlükəsizliyin əsasları fənninin kateqoriyalar sistemi ........ 32

**II FƏSİL**
**Milli maraqlar**

1. Milli maraqlar, onların mahiyyəti və təsnifatı ........ 44
2. Azərbaycan Respublikasının milli maraqları və onların ümumi xarakteristikası ........ 47
3. Beynəlxalq təhlükəsizliyin təmin olunması kontekstində milli maraqlar ........ 55

**III FƏSİL**
**Milli təhlükəsizliyə təhdidlər**

1. Milli təhlükəsizliyə təhdidlər, onların mahiyyəti və təsnifatı ........ 64
2. Azərbaycan Respublikasının milli təhlükəsizliyinə təhdidlər ........ 66
3. Terrorçuluq milli təhlükəsizliyə təhdid kimi ........ 72
4. Narkomaniya milli təhlükəsizliyə təhdid kimi ........ 104

## IV FƏSİL
**Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunması sistemi**


1. «Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası»nın ümumi səciyyəsi ............ 112
2. «Azərbaycan Respublikasının Dəniz Təhlükəsizliyi Strategiyası»nın ümumi səciyyəsi ............ 115
3. Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunması sisteminin vəzifələri, məqsədləri və prinsipləri ............ 120
4. Azərbaycan Respublikasının milli təhlükəsizliyini təmin edən qüvvələr və dövlət orqanları ............ 123
5. Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunmasının tərkib hissələri. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin anlayışı ............ 130
6. Milli Təhlükəsizlik Nazirliyinin yaranması və tarixi inkişaf təkamülü ............ 134
7. Milli Təhlükəsizlik Nazirliyinin vəzifələri və fəaliyyətinin normativ-hüquqi bazası ............ 142
8. Milli təhlükəsizlik orqanlarının kadr potensialının gücləndirilməsində MTN-in Heydər Əliyev adına Akademiyasının rolu ............ 151


## V FƏSİL
**Siyasi sahədə milli təhlükəsizliyin təmin olunması**


1. Siyasi təhlükəsizlik anlayışı ............ 156
2. Azərbaycan Respublikasının siyasi sahədə milli maraqları və milli təhlükəsizliyinə təhdidlər ............ 158
3. Azərbaycan Respublikasının siyasi sahədə milli təhlükəsizliyin təmin olunması tədbirləri ............ 160
4. Ermənistanın etnik təmizləmə siyasəti və Azərbaycan Respublikasına qarşı təcavüzü. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ............ 174




## VI FƏSİL
**İqtisadi sahədə milli təhlükəsizliyin təmin olunması**


1. İqtisadi təhlükəsizlik anlayışı ............ 182
2. Azərbaycan Respublikasının iqtisadi təhlükəsizlik mühiti. İqtisadi sahədə milli maraqlar və milli təhlükəsizliyə təhdidlər ............ 184
3. Ərzaq təhlükəsizliyi ............ 190
4. Vergi və gömrük siyasətinin iqtisadi sahədə milli təhlükəsizliyin təminatında rolu ............ 195
5. Nəqliyyat və enerji təhlükəsizliyi ............ 200
6. Beynəlxalq iqtisadi təhlükəsizlik ............ 205


## VII FƏSİL
**Sosial sahədə milli təhlükəsizliyin təmin olunması**


1. Sosial sahədə milli təhlükəsizliyin təmin olunması tədbirləri ............ 208
2. Səhiyyə sahəsində milli təhlükəsizliyin təmin olunması ............ 212
3. Miqrasiya proseslərinin tənzimlənməsinin milli təhlükəsizliyin təmin olunmasında rolu ............ 218
4. Demoqrafik sahədə milli təhlükəsizliyin təmin olunması ............ 223


## VIII FƏSİL
**Hərbi sahədə milli təhlükəsizliyin təmin olunması**


1. Hərbi siyasət və onun əsas istiqamətləri ............ 232
2. «Azərbaycan Respublikasının Hərbi Doktrinası»nın ümumi səciyyəsi ............ 236
3. Azərbaycan Respublikasının hərbi sahədə milli maraqları və milli təhlükəsizliyinə təhdidilər ............ 242
4. Hərbi sahədə milli təhlükəsizliyin təmin olunması tədbirləri ............ 245
5. Dövlət sərhədlərinin təhlükəsizliyinin təmin olunması ............ 249

6. Ordunun şəxsi heyətinin ideya-siyasi və psixoloji hazırlığı ........ 252

**IX FƏSİL**
**İnformasiya sahəsində milli təhlükəsizliyin təmin olunması**

1. Azərbaycan Respublikasının informasiya sahəsində milli maraqları və onlara yönələn təhdidlər ........ 266
2. Azərbaycan Respublikasında informasiya sahəsində milli təhlükəsizliyin təmin olunması tədbirləri ........ 271
3. Kütləvi informasiya vasitələri və informasiya sahəsində milli təhlükəsizliyin təmin olunması ........ 275
4. Dövlət sirlərinin qorunması informasiya sahəsində milli təhlükəsizliyin təmin olunmasının tərkib hissəsi kimi ........ 280
5. İnformasiya müharibəsi ........ 285
6. Azərbaycan Respublikasının kosmik gücünün formalaşması və ölkənin milli təhlükəsizliyinin təmin olunmasına təsiri ........ 289

**X FƏSİL**
**Ekoloji sahədə milli təhlükəsizliyin təmin olunması**

1. Azərbaycan Respublikasının geocoğrafi mövqeyi və onun xüsusiyyətləri ........ 296
2. Ekoloji təhlükəsizlik anlayışı və ekoloji sahədə milli təhlükəsizliyin təmin olunması tədbirləri ........ 298
3. Azərbaycan Respublikasında ekoloji sahədə qanunvericilik və dövlət təşkilatlarının funksiyaları ........ 304
4. Ekoloji təhlükəsizlik sahəsində beynəlxalq əməkdaşlıq və təcrübə ........ 308



**XI FƏSİL**
**Təhsil, elm, mədəniyyət və mənəviyyat sahələrində milli təhlükəsizliyin təmin olunması**

1. Təhsil sahəsində milli təhlükəsizliyin təmin olunması ........ 318
2. Elm sahəsində milli təhlükəsizliyin təmin olunması ........ 323
3. Mədəniyyət və mənəviyyat sahələrində milli təhlükəsizliyin təmin olunması ........ 327

**XII FƏSİL**
**Beynəlxalq təhlükəsizlik**

1. Qlobal təhlükəsizlik ........ 338
2. Regional təhlükəsizlik ........ 345
3. Beynəlxalq təhlükəsizliyin yeni parametrləri ........ 350
4. Beynəlxalq təhlükəsizliyin təminat sistemləri ........ 353

**XIII FƏSİL**
**Ümummilli lider Heydər Əliyevin Azərbaycanın milli təhlükəsizlik sisteminin formalaşması və inkişafında rolu**

1. Ümummilli lider Heydər Əliyevin fəaliyyətinin ümumi səciyyəsi ........ 362
2. Ümummilli lider Heydər Əliyev Azərbaycanın daxili təhlükəsizliyinin təminatçısı kimi ........ 375
3. Ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikasının xarici təhlükəsizliyinin təmin olunmasında rolu ........ 387

**İstifadə edilmiş mənbə və ədəbiyyat ........ 399**

**Professor Cəlal Qasımov və Nicat Nağıyevin birgə hazırladıqları «Milli təhlükəsizliyin əsasları» dərsliyinə**

**R Ə Y**

Məlumdur ki, SSRİ-nin dağılması nəticəsində dünyanın geosiyasi və hərbi-geostrateji vəziyyətinin dəyişməsi, müstəqillik əldə etmiş yeni dövlətlərin bir siyasi sistemdən digərinə keçidi və transmilli proseslər bütün postsovet respublikalarında olduğu kimi, Azərbaycan dövləti qarşısında da təhlükəsizlik siyasətinin formalaşdırılması və vahid təhlükəsizlik strategiyasının yaradılması vəzifəsini irəli sürdü. Yeni tarixi mərhələnin başlanması, demokratik sosial-iqtisadi və ictimai-siyasi münasibətlərin formalaşması ilə yanaşı, sabit və elmi cəhətdən əsaslandırılmış milli təhlükəsizlik paradiqmasının müəyyən edilməsi vəzifəsinin həllini labüd etdi.

Dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikasının milli təhlükəsizliyinin subyekt və obyektləri ilə bağlı SSRİ dövründə mövcud olmuş ənənəvi elmi-metodoloji yanaşmalar dəyişdi, müstəqil dövlətə xas milli təhlükəsizlik sisteminin formalaşdırılması istiqamətində mühüm işlər görüldü. Milli təhlükəsizliyin təmin olunmasının əsas istiqamətləri, milli təhlükəsizlik siyasətinin vəzifələri, mexanizmləri, üsul və vasitələrinin işlənib hazırlanması sahəsində müxtəlif dövlət qurumları səviyyəsində, akademik dairələrdə çoxsaylı diskussiya və araşdırmalar aparılmış, bunun nəticəsi kimi bir sıra məqalə, monoqrafiya, metodik vəsait və s. ərsəyə gəlmişdi. Bu gün də təhlükəsizlik problemləri ilə bağlı müxtəlif tədqiqatların aparılması, monoqrafiyaların, dərsliklərin yazılması da mühüm aktuallıq kəsb edir. Professor Cəlal Qasımovun və Nicat Nağıyevin birgə müəllifləri olduqları «Milli təhlükəsizliyin əsasları» kitabı da bu sahədə atılmış addımlardan biri kimi əhəmiyyətlidir.



Azərbaycan Respublikası milli təhlükəsizliyinin nəzəri əsasları və istiqamətlərinin formalaşması ümummilli lider Heydər Əliyevin 1993-2003-cü illərdə dövlət başçısı kimi əməli fəaliyyəti, çıxış və nitqlərində öz əksini tapmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə 2004-cü ildə Milli Təhlükəsizlik Konsepsiyasının hazırlanması üzrə işçi qrup yaradılmış, həmin il «Milli təhlükəsizlik haqqında» Qanun qəbul edilmiş və daha sonra 23 may 2007-ci il tarixində Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası təsdiq edilmişdir. Beləliklə, milli təhlükəsizlik sahəsində praktik fəaliyyətin və nəzəri araşdırmaların keyfiyyətcə yeni səviyyəyə yüksəlməsi üçün zəmin yaradılmışdır.

Rəyə təqdim olunan dərslik milli təhlükəsizlik məsələlərinin elmi tədqiqi və tədrisinin təkmilləşməsi istiqamətində uğurlu nümunələrdən sayıla və bu sahədəki mövcud boşluğu aradan qaldıra bilər. 13 fəsli özündə ehtiva edən kitabda milli təhlükəsizliyin əsasları fənninin mövzusu, milli maraqlar və milli maraqlara təhdidlərin tədqiqi ilə yanaşı, milli təhlükəsizliyin təmin olunması sisteminin yaranması və təşəkkül tapması, milli təhlükəsizliyin tərkib komponentləri, siyasi, iqtisadi, sosial və s. sahələrdə milli təhlükəsizliyin təmin olunmasının əsas problemləri araşdırılmışdır. Təqdirəlayiq haldır ki, hər bir ictimai həyat sahəsi üzrə milli maraqlar, milli təhlükəsizliyə təhdidlər və milli təhlükəsizliyin təmin olunması tədbirləri dərslikdə öz əksini tapmışdır. Həmçinin kitabın hazırlanılmasında milli təhlükəsizlik sahəsində qəbul edilmiş Azərbaycan Respublikasının qanunlarından, Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası və hərbi doktrinasından geniş şəkildə istifadə olunmuşdur. Müəlliflər tərəfindən Azərbaycan Respublikasının milli təhlükəsizliyi baxımından beynəlxalq təhlükəsizlik, qloballaşma şəraitində dövlətlərarası münasibətlər kontekstində Azərbaycanın milli maraqlarının təmin olunmasının problemlərinə xüsusi diqqət yetirilmişdir.

Dərslikdə ulu öndər Heydər Əliyevin müstəqil Azərbaycanın milli təhlükəsizlik sisteminin memarı kimi tarixi missiyanın işıqlandırılmasına da xüsusi yer ayrılmış və haqlı olaraq bu məsələyə ayrıca bir fəsil həsr olunmuşdur. Fəsildə ulu öndərin Azərbaycan Respublikasının milli təhlükəsizliyinin nəzəri əsaslarının formalaşması, eyni zamanda dövlətimizin daxili və xarici təhlükəsizliyinin təminatı sisteminin yaranması və inkişafında misilsiz xidmətlərinin politoloji aspektləri konseptual şəkildə tədqiqatın predmetinə çevrilmişdir. Ümummilli liderin qlobal və regional xarici siyasət kursu Azərbaycanın geosiyasi maraqlarına müvafiq olaraq, həm region ölkələri, həm də dünya dövlətləri ilə münasibətlərin praqmatik və balanslı siyasi strategiyasını formalaşdırmışdır. Bu siyasət keçid dövrü ərzində Azərbaycan dövləti üçün praktik fəaliyyət proqramına çevrilmişdir. Bütövlükdə qeyd olunmalıdır ki, dərslikdə yer almış mövzuların məntiqi ardıcıllığı və daxili quruluşu fənnin tədrisinin səmərəli təşkili üçün yaxşı imkanlar yaradır.

Göründüyü kimi, dərslik müəllifləri məsələnin sistemli və qarşılıqlı əlaqəli şəkildə nəzərdən keçirilməsinə xüsusi əhəmiyyət vermiş və nəticə olaraq buna nail olmuşlar. Hesab edirəm ki, zəngin mənbəşünaslıq bazası olan bu dərslik milli təhlükəsizlik problematikasının dərindən öyrənilməsi və mənimsənilməsi üçün də kifayət qədər samballı əsas yaradır. Deyilənləri nəzərə alaraq professor Cəlal Qasımovun və Nicat Nağıyevin hazırladıqları «Milli təhlükəsizliyin əsasları» dərsliyinin çap olunmasını məqsədəuyğun hesab edirəm.

**Əli Həsənov**

**Azərbaycan Respublikasının**
**Prezidentinin Administrasiyasının**
**İctimai-siyasi məsələlər şöbəsinin müdiri,**
**tarix elmləri doktoru, professor**



## Professor Cəlal Qasımov və Nicat Nağıyevin birgə hazırladıqları «Milli təhlükəsizliyin əsasları» dərsliyinə R Ə Y

Ötən əsrin 90-cı illərinin əvvəllərindən etibarən keçmiş SSRİ məkanının bəzi ali təhsil müəssisələrində siyasi elmlərin müstəqil elm sahəsi və ixtisas kimi formalaşmağa başlasa da, bunun əhatə dairəsi həm məhdud, həm də dövrün real tələblərindən uzaq idi. Lakin ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə XX əsrin 90-cı illərinin ortalarından etibarən yeniliklərin mənimsənilməsi ilə davamlı inkişaf fazasına qədəm qoyan Azərbaycan elmi artıq bütün akademik profillərə açıq olan yaradıcılıq və tədqiqat potensialına yiyələnməyə başladı. Bu mənada, professor Cəlal Qasımovun və Nicat Nağıyevin mili təhlükəsizlik problemlərinə həsr olunmuş «Milli təhlükəsizliyin əsasları» kitabı nəinki artıq formalaşmış müsbət ənənənin davamına mühüm bir töhfə olacaq, həmçinin bu silsilədə özünün xüsusi mövqeyi və əhəmiyyəti ilə seçiləcəkdir. Müvafiq məxsusilik ilk növbədə praktiki araşdırmaların fonunda bir qədər arxa planda qalmış elmi-nəzəri boşluğun aradan qaldırılması baxımından müstəsna əhəmiyyət kəsb edir. Elmi müstəvidə praktika və nəzəriyyə bir-birini tamamlayan, qarşılıqlı olaraq şərtləndirən iki vacib cəbhə rolunda çıxış edir. Praktika və nəzəriyyənin qarşılıqlı əsaslarda adekvat tarazlığının təmini elmi rasionalizmin uğurunun fundamental əsasını təşkil edir. Hesab edirəm ki, haqqında bəhs açdığımız bu kitab mürəkkəb praktiki formulların nəzəri əsaslarının düzgün işlənilməsi, bu və ya digər problemin düzgün qavranılması baxımından olduqca əhəmiyyətlidir. Bu amil xüsusən tələbə-kursant kontingentinin təlim və tədrisi müstəvisində öz səmərəliliyini aydın büruzə verir.

«Milli təhlükəsizliyin əsasları» kitabında milli təhlükəsizliyin əsasları anlayışının Azərbaycan Respublikasının real milli maraqları müstəvisində bütün cəhətlərinin əhatə olunması müəlliflərin elmi-praktiki yanaşmasının olduqca mühüm nailiyyəti kimi çıxış edir. Belə ki, «milli təhlükəsizliyin əsasları» anlayışının «milliləşdirilməsi», yəni milli müstəviyə gətirilməsi ilə kursantların diqqətinə ölkəmizin real praktiki ehtiyacları fonunda çatdırılması bu kitabı dar çərçivədən (kursant-dinləyici auditoriyasından) çıxarıb müvafiq istiqamətlərdə çalışan çoxsaylı mütəxəssislər üçün də dəyərli istinad mənbəyi səviyyəsinə qaldırır.

«Milli təhlükəsizliyin əsasları» kitabında spesifik sahələr üzrə tədqiqat ardıcıllığının milli maraqlar və milli təhlükəsizliyə təhdidlər problemlərinin nəzəri mahiyyətinin açılması ilə başlanması, daha sonra Azərbaycan Respublikası müstəvisində müvafiq anlayışların praktiki tərəflərinin təqdimi hazırkı vəsaitin olduqca düzgün seçilmiş tədqiqat metoduna dəlalət edir. Çünki milli maraq və təhdidlər anlayışlarını hərtərəfli əhatə etmədən, milli təhlükəsizliyin bu və ya digər probleminin mahiyyətinə varmaq mümkün deyil. Milli maraq və təhdid kateqoriyası milli təhlükəsizliyin bu və ya digər istiqamətinin aktuallıq səviyyəsini müəyyən edən başlıca anlayışlardır. Ən sadə deyimlə, milli təhlükəsizlik məhz milli maraqların təhlükəsizliyini nəzərdə tutur və bu maraqlara yönələn təhdidlərə qarşı əks-tədbirlər kompleksini ehtiva etdirir.

Hesab edirik ki, kitab sayəsində kursantlar və dinləyicilər (eləcə də bu sahə ilə maraqlananlar) Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təminatı sisteminin bütün struktur komponentləri barəsində müfəssəl məlumat əldə etmək imkanına yiyələnəcəkdir. Siyasi, iqtisadi, sosial, hərbi, informasiya, ekoloji, təhsil, elm, mədəniyyət və mənəviyyat sahələrində ölkəmizin milli təhlükəsizliyinin təmini problemlərinin ayrı-ayrı fəsillər üzrə nəzərdən keçirilməsi aidiyyəti istiqamətlərdə sistemli və mahiyyətli biliklərin aşılanması baxımından olduqca düzgün seçilmiş tədqiqat taktikasının məhsuludur. Digər tərəfdən, kitabın «Beynəlxalq təhlükəsizlik» başlığı ilə təqdim edilən fəsli Azərbaycan Respublikasının milli təhlükəsizliyi haqqında təsəvvürlərin həm daxili, həm də xarici səviyyələrdə əhatə edilməsi ilə problemin tam mənzərəsinin formalaşdırılmasına xidmət edir.



Kitabda milli təhlükəsizliyin təmin olunması sahəsində mövcud çoxşaxəli qanunverici bazanın əks olunması kitabın elmi-tədqiqat və tədris vəsaiti kimi dəyərini daha da artırmışdır. Belə ki, Azərbaycan dövlətinin bu sahədə strateji hədəflərini əks edən «Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası», «Milli təhlükəsizlik haqqında», «Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında», «Dövlət sirri haqqında» və s. qanunların, çoxsaylı normativ sənədlərin tədqiqata cəlb olunması milli təhlükəsizliyin təmin olunmasının normativ-hüquqi əsasları və praktik istiqamətləri haqqında dolğun təsəvvürün formalaşması üçün zəmin yaradır. Bütün bunlar deməyə əsas verir ki, mövcud dərslik milli təhlükəsizlik probleminin hüquqi aspektlərinin tədqiqi baxımından da əhəmiyyətlidir.

Kitabda ümummilli lider Heydər Əliyevin Azərbaycanın milli təhlükəsizlik sisteminin formalaşması və inkişafında rolu xüsusi tədqiqat müstəvisində nəzərdən keçirilir. Müəlliflər tərəfindən çox düzgün vurğulanır ki, *«Azərbaycanda müstəqil, demokratik, hüquqi dövlət quruculuğu prosesinin yalnız 1993-cü ildən, yəni Heydər Əliyevin yenidən hakimiyyətə qayıdaraq ölkə prezidenti seçilməsindən sonra başlandığını qeyd edə bilərik. Məhz bundan sonra ölkədə qanunçuluğun möhkəmləndirilməsi, sosial-psixoloji gərginliyin tədricən aradan qaldırılması, cəmiyyətdə baş verən proseslərin həqiqi demokratik məcraya keçirilməsi, müstəqil dövlətin siyasi və hüquqi əsaslarının möhkəmləndirilməsi sahəsində mühüm tədbirlər görülməyə başlanıldı. Bu tədbirlərin əsasında isə ilk növbədə dövlətin mövcudluğunun başlıca şərti olan onun milli təhlükəsizliyinin təminatı dururdu... 1993-cü ildə hakimiyyətə qayıdışından sonra Heydər Əliyevin daxili təhlükəsizliyin təminatı istiqamətində həyata keçirdiyi siyasət kursunun iki mərkəzi elementini – ictimai-siyasi sabitliyin bərpa olunması və*

*ölkə iqtisadiyyatının dirçəlişi istiqamətində reallaşdırılan fəaliyyət təşkil etdi*». Ulu öndərin qeyd etdiyi kimi – «Azərbaycanın dövlət müstəqilliyi əbədidir, dönməzdir». Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və bu gün Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən son dərəcə uğurla və rasional əsaslarda yürüdülən milli təhlükəsizlik siyasəti məhz bu «əbədiliyin və dönməzliyin» təmininə hesablanıb.

Kitabın mənbə-ədəbiyyat bazasının kəmiyyət və keyfiyyət rəngarəngliyi də diqqəti cəlb edir. Azərbaycan Respublikasının milli təhlükəsizliyinin kompleks təmini müstəvisində istinad oluna biləcək konseptual sənəd və milli qanunvericilik nümunələrinin mütləq əksəriyyətinin, eyni zamanda yerli və əcnəbi tədqiqat işlərinin, dövrü mətbuatdan geniş istifadə edilməsi «Milli təhlükəsizliyin əsasları» kitabını həm hüquqi, həm də politoloji baxımdan təkmil vəsait statusuna qaldırır.

«Milli təhlükəsizliyin əsasları» kitabı ilk növbədə bir tədris vəsaitidir. Bir tədris vəsaiti kimi bütün meyar və standartlara cavab verməsi də məhz hazırkı kitabın ən mühüm üstünlüklərindən biri kimi çıxış edir. Bu mənada, zəngin ədəbiyyat bazasına istinad edən vəsaitdə tədqiqat materiallarının olduqca anlaşılan tərzdə təqdimi xüsusi qeyd oluna bilər. Müvafiq məqam ilk növbədə milli təhlükəsizliyimizin təminatı sahəsində gələcəyin kadrları olan kursantların tədrisinin düzgün metodoloji əsaslarda təşkili baxımından diqqətə layiqdir. Fikrimizcə, məhz bu məqam «Milli təhlükəsizliyin əsasları» kitabının ən mühüm funksiyasını təşkil edir. Deyilənləri nəzərə alaraq haqqında bəhs açdığımız kitabın çapını məqbul hesab edirəm.

**Şahin Əliyev**

**Azərbaycan Respublikasının Prezidentinin Administrasiyasının qanunvericilik və hüquq ekspertizası məsələləri şöbəsinin müdiri, hüquq elmləri namizədi**



## Professor Cəlal Qasımov və Nicat Nağıyevin birgə hazırladıqları «Milli təhlükəsizliyin əsasları» dərsliyinə
## R Ə Y

Azərbaycan XX əsrdə ikinci dəfə müstəqilliyə nail olduğu ilk gündən insan, cəmiyyət və dövlətin təhlükəsizliyinin təmin olunması, dünya təhlükəsizlik sisteminə inteqrasiya istiqamətində tədbirlərin həyata keçirilməsi dövlət quruculuğunun mühüm vəzifələrinə çevrilmişdir.

Belə bir həyati vacib məsələnin araşdırılması, onun elmi-nəzəri prinsiplərinin çağdaş zamanda tədqiqata cəlb edilməsi olduqca vacib bir məsələdir. Bu baxımdan uzun axtarışların məhsulu kimi ortaya çıxan «Milli təhlükəsizliyin əsasları» dərsliyi indiyədək bu sahədə mövcud olan boşluğun doldurulmasına xidmət edən maraqlı mənbələrdəndir. Belə olduğu halda müstəqil Azərbaycanın milli təhlükəsizliyinin təminatı sahəsində əldə edilən nailiyyətlərlə ötən tarixi təcrübə arasındakı irslə varislik əlaqəsini, eləcə də milli təhlükəsizlik strategiyasının qlobal təhlükəsizliklə vəhdətini üzə çıxarmaq mühüm əhəmiyyət kəsb edir.

Kitabda Azərbaycan Xalq Cümhuriyyəti dövründə demokratik əsasları qoyulan, sovet hakimiyyətinin gəlişi ilə milli maraqların nəzərə alınmadığı bir dövrə daxil olan, dövlət müstəqilliyinin bərpası ilə keyfiyyətcə yeni mərhələyə, dünya təhlükəsizlik sisteminə inteqrasiya edən Azərbaycanın milli təhlükəsizliyinin əsaslarının inkişaf dinamikasını araşdırmaq nöqteyi-nəzərdən də dəyərlidir.

Müasir dünyanı gərginlikdə saxlayan beynəlxalq terrorçuluğa və onun tərkib hissəsi olan erməni terroruna qarşı hər bir insanın sayıq olması nöqteyi-nəzərindən də problemin öyrənilməsi aktualdır. XIX əsrdən etibarən günü-gündən artan və 11 sentyabr 2001-ci il tarixli terror hadisəsi

ilə bəşəri faciə səviyyəsinə qədər yüksələn terrorçuluqla mübarizə indi dünya ictimaiyyətini, eləcə də aparıcı dövlətləri narahat edən bir nömrəli problemə çevrilmişdir. Bəşəriyyəti vahiməyə salan terrorçuluq Azərbaycan Respublikasından da yan keçməmiş, tarixin müxtəlif mərhələlərində ermənilərin törətdiyi qanlı terror aktları və yeritdiyi soyqırım nəticəsində minlərlə adam həlak olmuş, maddi-mənəvi zərbələr almış, dövlətçiliyimizin tarixi və taleyi təhlükə altında qalmışdır. Ona görə də, Azərbaycanın dövlətçiliyi əleyhinə yönələn hər bir təxribat-pozuculuq aktının – daxili və xarici təhdidlərin qarşısının alınması milli təhlükəsizlik orqanlarında çalışacaq yüksək ixtisaslı peşəkar əməliyyatçı kadrların hazırlanması işinin keyfiyyətcə daha da yüksəldilməsini tələb edir. Fikrimizcə, «Milli təhlükəsizliyin əsasları» dərsliyi Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Heydər Əliyev adına Akademiyasının kadr hazırlığı sahəsindəki mövcud boşluğun aradan qaldırılmasında mühüm rol oynayacaqdır.

Dərslikdən və orada toxunulmuş problemlərdən aydın görünür ki, təhlükəsizlik orqanlarında çalışan hər bir əməkdaşla yanaşı, cəmiyyətin hər bir üzvünün dünyanın təhlükəsizliyinin təmin edilməsində öz məsuliyyətini dərk etməsi və ayıq olması zəruridir. Fikrimizcə, bugünkü beynəlxalq terrorçuluğa qarşı birgə mübarizə ehtiyacı da bunu təsdiq edir. Deməli, qloballaşan dünyada təhlükəsizliyin təminatı məsələsi, müəlliflərində qeyd etdiyi kimi, bir və ya bir neçə dövlətin yox, həm də bəşəriyyətin müştərək, ortaq problemi kimi gündəmə gətirilməli və beynəlxalq təhlükəsizliklə yalnız müvafiq qurumlar deyil, dünya ictimaiyyəti birgə mübarizə aparmalıdır. Çünki fərdin təhlükəsizliyi bəşəriyyətin, bəşəriyyətin təhlükəsizliyi isə fərdin təhlükəsizliyinə təminat verir. Ona görə də, təhlükəsizlik orqanlarında fəaliyyətə başlayacaq gənc nəslə, xüsusilə də kursantlara milli təhlükəsizliyin elmi-nəzəri və metodoloji əsaslarının tədris prosesində öyrədilməsi olduqca vacib amillərdəndir.



-18517-

Şübhəsiz ki, sağlam siyasi-hüquqi təməllər üzərində qurulmuş milli təhlükəsizlik xalqın və dövlətin milli maraqlarını təmin etməklə yanaşı, bəşəri dəyər və maraqlara da zidd olmamalıdır. Bu məqsədin reallaşması üçün müəlliflər milli təhlükəsizliklə bağlı çoxsaylı mənbələri, eləcə də MTN-in fəaliyyətindəki müxtəlif məqamları dərindən izləmiş və çalışmışlar ki, MTN-in Heydər Əliyev adına Akademiyasının tədris planına və proqramına uyğun olaraq kursant və dinləyicilər üçün belə bir dərsliyi hazırlasınlar. Onu da qeyd etməliyik ki, «Milli təhlükəsizliyin əsasları» fənni ölkəmiz üçün gənc bir sahə olduğundan mövzu ilə bağlı bu istiqamətdə Azərbaycanda kifayət qədər material yoxdur. Lakin müəlliflər Azərbaycanın qanunvericilik bazasını, ayrı-ayrı təhlükəsizlik orqanlarının fəaliyyət istiqamətlərini, mövcud elmi-nəzəri ədəbiyyatı, aidiyyəti monoqrafiyaları dərindən öyrənməyə çalışmış və bu dərsliyi ərsəyə gətirmişlər. Hesab edirəm ki, Azərbaycanın təhlükəsizlik orqanlarının fəaliyyətində mühüm rol oynayacaq bu dərsliyin nəşri məqsədəuyğundur.

**İsa Həbibbəyli**

**AMEA-nın vitse-prezidenti,**
**Milli Məclisin deputatı, akademik**

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

**Professor Cəlal Qasımov və Nicat Nağıyevin birgə hazırladıqları «Milli təhlükəsizliyin əsasları» dərsliyinə**

**R Ə Y**

Ümummilli lider Heydər Əliyevin memarı və qurucusu olduğu müasir Azərbaycan dövləti xalqımızın keçdiyi çoxəsrlik mübarizə yolunun şah əsəridir. Azərbaycanın dövlətçilik tarixi mürəkkəb və bəzən faciəli olduğu qədər, şücaət və qəhrəmanlıq salnaməsidir. Bu mənada 20-ci əsrin payına xüsusən tarixi hadisələr düşmüşdür. Bir əsrdə həm müstəqil dövlət qurmaq, həm də uzun onilliklərdən sonra bu müstəqil dövləti və dövlətçiliyi bərpa etmək həqiqətən nadir tarixi hadisə kimi qiymətləndirilməlidir. Lakin milli azadlıq hərəkatı tarixini nəzərdən keçirərkən rəhbər, lider amilinin əhəmiyyətini dönə-dönə vurğulamaq lazım gəlir. Qloballaşan dünyada milli inkişafın qaçılmaz şərti kimi nüfuzlu və uzaqgörən liderin mövcudluğu bütövlükdə milli təhlükəsizliyin təminatında mühüm rol oynayır ki, bu da Azərbaycanın müasir tarixində çox bariz şəkildə öz əksini tapmışdır. Millətin sabit və ardıcıl inkişafına manea və təhdidlərin mürəkkəb xarakter alması dövrümüzün digər önəmli xüsusiyyətlərindəndir. Həm siyasi, həm iqtisadi, həm sosial-mədəni, həm intellektual sahələrdə milli təhlükəsizliyin qorunması məxsusi vasitə və üsulların sisteminin yaradılması güclü dövlətin mövcudluğunu şərtləndirən amil kimi çıxış edir. Bu baxımdan milli təhlükəsizlik istiqamətində aparılan elmi-nəzəri axtarışların əhəmiyyəti həqiqətən çox yüksəkdir. Azərbaycanda son illərdə bu sahədə kifayət qədər sanballı və uğurlu nəticələr əldə olunmuşdur. Bütün bunlarla yanaşı milli təhlükəsizlik probleminin elmi-nəzəri əsaslarının hərtərəfli tədqiqi, öyrənilməsi, tədrisi və inkişafı baxımından hələ çox işlər görülməlidir. Bu mənada professor C.Qasımov və



N.Nağıyevin hazırladıqları «Milli təhlükəsizliyin əsasları» dərsliyi uğurlu nümunə kimi qeyd olunmalıdır. Dərslik milli təhlükəsizlik problematikasının araşdırılması və öyrənilməsi istiqamətində sistemli yanaşmanın təzahürü kimi qarşımıza çıxır. Belə ki, burada milli təhlükəsizliyin müxtəlif komponentlərinin təhlili və açıqlanması ilə yanaşı Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunması sahəsində prioritetləri ətraflı və əsaslandırılmış şəkildə tədqiq olunmuşdur.

Qeyd etmək lazımdır ki, dərslik bütövlükdə 13 fəsildən ibarətdir. «Milli təhlükəsizlik» anlayışının yaranmasından başlayaraq, milli maraqlar, təhdidlər, milli təhlükəsizlik sisteminin elementləri, o cümlədən siyasi, iqtisadi, hərbi və digər sahələrdə milli təhlükəsizliyin təmin olunmasının prinsipial və aktual məsələləri dərsliyin əsas tədqiqat obyektidir. Bu baxımdan bir sıra məsələlər xüsusilə diqqəti cəlb etməkdədir. İlk növbədə, qeyd etmək lazımdır ki, dərslikdə iqtisadi sahədə təhlükəsizliyin təmin olunması məsələləri xüsusən diqqət mərkəzindədir, iqtisadi təhlükəsizlik mühiti, ərzaq təhlükəsizliyi və sair bu kimi məsələlər pratiki olaraq ilk dəfə dərslik səviyyəsində sistemli şəkildə tədqiqata cəlb olunurlar. Müəlliflər haqlı olaraq vurğulayırlar ki, iqtisadi təhlükəsizlik ölkənin sabit inkişafının təməl daşı olmaqla yanaşı, beynəlxalq nüfuzun və əməkdaşlığın başlıca şərti rolunda çıxış edir. Xüsusi olaraq informasiya və elm sahəsində milli təhlükəsizliyin təmin olunmasının taleyüklü əhəmiyyətinin dərslikdə vurğulanması ayrıca dəyər kəsb edir. Qlobal informasiya və qlobal rəqabət şəraitində gənc müstəqil dövlət olaraq Azərbaycanın layiqincə təmsil olunması, kosmik sənayenin inkişafından qabaqcıl elm istiqamətlərinə qədər dünyada baş verən proseslərə adekvat cavab vermək imkanı milli təhlükəsizlik baxımından həyati əhəmiyyət kəsb edir. İlk növbədə, insan resursunun, insan kapitalının inkişafı baxımından elmi tərəqqinin milli təhlükəsizliyin komponenti kimi əhəmiyyəti getdikcə artmaqdadır.

Dərsliyin digər dəyərli cəhəti ümummilli lider Heydər Əliyevin Azərbaycanın milli təhlükəsizlik sisteminin formalaşması və inkişafında rolu məsələlərinin tədqiqinə ayrıca fəslin həsr olunmasıdır. Müasir Azərbaycanın dövlətçilik modeli, daxili və xarici siyasətinin konturları məhz ümummilli lider tərəfindən cızılmış, bu siyasi xətt Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən əzmlə və yaradıcılıqla davam etdirilməkdədir. Milli təhlükəsizlik sahəsində ulu öndər Heydər Əliyevin siyasi xəttinin tədqiqi və tədrisi həm elmi-nəzəri, həm də siyasi-ideoloji cəhətdən fövqəladə əhəmiyyət kəsb edir.

Dərslikdə mövzuların tarixi-xronoloji, eləcə də məntiqi ardıcıllığı, verilən anlayış və məfhumların lokanikliyi ilə yanaşı, onların dəqiqliyi və əhatəli açıqlaması, izahat dilinin səlisliyi, elmiliyi və eyni zamanda, sadə və anlaşılan olması, müasir pedaqoji metodların tətbiqi, ən başlıcası isə kursantların yaş xüsusiyyətlərinin nəzərə alınması tədris vəsaiti kimi dərsliyi uğurla istifadəsi üçün yaxşı zəmin yaratmaqla yanaşı həm də dərsliyin tələblərinə cavab verir.

Geniş və hərtərəfli mənbə və ədəbiyyat siyahısı dərslikdə təqdim olunmuş məlumatların daha ətraflı təhlili və müxtəlif elmi müqayisələrin aparılmasının mümkünlüyü baxımından təqdirəlayiqdir.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, professor C.Qasımov və N.Nağıyevin müəllifləri olduqları «Milli təhlükəsizliyin əsasları» dərsliyinin çap olunmasını məqsədəuyğun hesab edirəm.

**Əlikram Abdullayev**

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının I prorektoru, fəlsəfə elmləri doktoru, professor**



## Giriş

Tarixin bütün dövrlərində təhlükəsizliyin təminatı məsələsi aktual olmuş, cəmiyyətin iqtisadi, ictimai-siyasi inkişaf səviyyəsinə uyğun olaraq müəyyən təkamül yolu keçmiş və müasir vəziyyətə çatmışdır.

Kökləri tarixin dərinliyində olsa da, «Milli təhlükəsizlik» ifadə kimi ilk dəfə 1904-cü ildə Prezident T.Ruzveltin ABŞ Konqresinə göndərdiyi məktubda işlədilmişdir. Şübhəsiz ki, bəşəriyyət yarandığı gündən təhlükəsizlik məsələsi mağara adamından sivil insana, qədim qəbilə və tayfadan dövlətə və cəmiyyətə qədər hamını düşündürmüşdür.

Təhlükəsizliyin təminatında dövlətlərin rolu müstəsna əhəmiyyətə malikdir. Təsadüfi deyildir ki, təhlükəsizliyin konstitusiya təminatçısı hər bir ölkədə dövlət və onun başçısıdır. Təhlükəsizliyin təmin edilməsinin səviyyəsi məhz dövlətin və dövlət rəhbərinin bu prosesi necə təşkil etməsindən və onun icrasına nəzarətindən asılıdır. Dövlət ictimai həyatın müxtəlif sahələri, komponentləri arasında əlaqə yaradır, onların fəaliyyətinin uzlaşdırılmasına nəzarət edir, bunun nəticəsində ölkənin kompleks xarakter daşıyan milli təhlükəsizlik sistemi yaradılır.

Təhlükəsizlik problemi bir çox dövlətlərin milli maraqlarının kəsişdiyi məkanda yerləşən Azərbaycan Respublikası üçün xüsusilə əhəmiyyətlidir. Ona görə də Azərbaycan XX əsrdə ikinci dəfə müstəqilliyə nail olduğu ilk gündən insanın, cəmiyyətin və dövlətin təhlükəsizliyinin təşkili, dünya təhlükəsizlik sisteminə inteqrasiya istiqamətində tədbirlərin həyata keçirilməsi dövlət quruculuğunun mühüm vəzifələrinə çevrilmişdir.

Belə bir həyati vacib məsələnin araşdırılması, onun elmi-nəzəri prinsiplərinin çağdaş zamanda tədqiqata cəlb edilməsi olduqca vacib bir məsələdir. Bu baxımdan uzun ax-

tarışların məhsulu kimi ortaya çıxan «Milli təhlükəsizliyin əsasları» dərsliyi indiyədək bu sahədə mövcud olan boşluğun doldurulmasına xidmət edən maraqlı mənbələrdəndir. Belə olduğu halda müstəqil Azərbaycanın təhlükəsizliyinin təminatı sahəsində əldə edilən nailiyyətlərlə ötən tarixi təcrübə arasındakı irslə varislik əlaqəsini, eləcə də milli təhlükəsizlik strategiyasının qlobal təhlükəsizliklə vəhdətini üzə çıxarmaq mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə demokratik əsasları qoyulan, sovet hakimiyyətinin gəlişi ilə milli maraqların nəzərə alınmadığı bir dövrə daxil olan, dövlət müstəqilliyinin bərpası ilə keyfiyyətcə yeni mərhələyə, dünya təhlükəsizlik sisteminə inteqrasiya edən Azərbaycanın milli təhlükəsizliyinin əsaslarının inkişaf dinamikasını araşdırmaq nöqteyi-nəzərdən də əhəmiyyətlidir.

Müasir dünyanı gərginlikdə saxlayan beynəlxalq terrorçuluğa və onun tərkib hissəsi olan erməni terroruna qarşı hər bir insanın sayıq olması nöqteyi-nəzərindən də problemin öyrənilməsi aktualdır. XIX əsrdən etibarən günü-gündən artan və 11 sentyabr 2001-ci il tarixli terror hadisəsi ilə bəşəri faciə səviyyəsinə qədər yüksələn terrorçuluqla mübarizə indi dünya ictimaiyyətini, eləcə də aparıcı dövlətləri narahat edən bir nömrəli problemə çevrilmişdir. Bəşəriyyəti vahiməyə salan terrorçuluq Azərbaycan Respublikasından da yan keçməmiş, tarixin müxtəlif mərhələlərində ermənilərin törətdiyi qanlı terror aktları nəticəsində minlərlə adam həlak olmuş, maddi-mənəvi zərbələr almış, dövlətçiliyimizin tarixi və taleyi təhlükə altında qalmışdır. Ona görə də Azərbaycan Respublikası dövlətçiliyi əleyhinə yönələn hər bir təxribat-pozuculuq aktının – daxili və xarici təhdidlərin qarşısının alınması milli təhlükəsizlik orqanlarında çalışacaq yüksək ixtisaslı peşəkar əməliyyatçı kadrların hazırlanması işinin keyfiyyətcə daha da yüksəldilməsini tələb edir. Fikrimizcə, «Milli təhlükəsizliyin əsasları» dərsliyi Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Heydər Əliyev adına Akademiyasının kadr



hazırlığı sahəsindəki mövcud boşluğun aradan qaldırılmasında müəyyən rol oynayacaqdır.

Dərslikdən və orada qoyulmuş problemlərdən aydın görünür ki, təhlükəsizlik orqanlarında çalışan hər bir əməkdaşla yanaşı, cəmiyyətin hər bir üzvünün dünyanın təhlükəsizliyinin təmin edilməsində öz məsuliyyətini dərk etməsi və ayıq olması zəruridir. Bugünkü beynəlxalq terrorçuluğa qarşı birgə mübarizə ehtiyacı da bunu təsdiq edir. Deməli, qloballaşan dünyada təhlükəsizliyin təminatı məsələsi bir və ya bir neçə dövlətin yox, həm də bəşəriyyətin müştərək, ortaq problemi kimi gündəmə (siyasi müstəviyə) gətirilməli və beynəlxalq təhlükəsizliklə yalnız müvafiq qurumlar deyil, dünya ictimaiyyəti birgə mübarizə aparmalıdır. Çünki fərdin təhlükəsizliyi bəşəriyyətin, bəşəriyyətin təhlükəsizliyi isə fərdin təhlükəsizliyinə təminat verir. Ona görə də, təhlükəsizlik orqanlarında fəaliyyətə başlayacaq gənc nəslə milli təhlükəsizliyin elmi-nəzəri əsaslarının tədris prosesində yuxarıda qeyd olunan baxımdan öyrədilməsi olduqca vacib amillərdəndir.

Şübhəsiz ki, sağlam siyasi-hüquqi təməllər üzərində qurulmuş milli təhlükəsizlik siyasəti xalqın və dövlətin milli maraqlarını təmin etməklə yanaşı, bəşəri dəyər və maraqlara da zidd olmamalıdır. Bu məqsədin reallaşması üçün müəlliflər milli təhlükəsizliklə bağlı çoxsaylı mənbələri, eləcə də MTN-in fəaliyyətindəki müxtəlif məqamları dərindən öyrənmiş və çalışmışlar ki, MTN-in Heydər Əliyev adına Akademiyasının tədris planına və proqramına uyğun olaraq kursant və dinləyicilər üçün belə bir dərsliyi hazırlasınlar.

Respublikamızda ilk addım olan «Milli təhlükəsizliyin əsasları» dərsliyi əsasən Akademiyanın kursant və dinləyiciləri üçün nəzərdə tutulmuşdur. Qeyd etməliyik ki, milli təhlükəsizlik məsələsi ilə Azərbaycan Respublikasının bir çox qurumları məşğul olur. Lakin biz onların ölkəmizin milli maraqları naminə gördüyü işin əhəmiyyətini azaltmadan üstünlüyü MTN-in fəaliyyət istiqamətlərinə veririk. Bunun əsas səbəbi bu fənnin MTN-in Heydər Əliyev adına Akade-

miyasında tədris edilməsi, yəni MTN-in kadr təminatıdır. Onu da qeyd etməliyik ki, «Milli təhlükəsizliyin əsasları» fənni ölkəmiz üçün gənc bir sahə olduğundan mövzu ilə bağlı bu istiqamətdə Azərbaycanda kifayət qədər material yoxdur. Müəlliflər Azərbaycanın qanunvericilik bazasını, ayrı-ayrı təhlükəsizlik orqanlarının fəaliyyət istiqamətlərini, mövcud elmi-nəzəri ədəbiyyatı, aidiyyəti monoqrafiyaları dərindən öyrənmiş və dərsliyi ərsəyə gətirmişlər.

Təqdim edilən dərslikdən siyasətçilər, diplomatlar, tarixçilər, politoloqlar, sosioloqlar və başqaları da faydalana bilərlər.



# I FƏSİL

## Milli təhlükəsizliyin əsasları fənninin yaranması və inkişafı

1. **Milli təhlükəsizliyin əsasları fənninin predmeti**
2. **Milli təhlükəsizliyin əsasları fənninin metodları, funksiyaları və digər elmlərlə əlaqəsi**
3. **Milli təhlükəsizliyin əsasları fənninin kateqoriyalar sistemi**

## 1. Milli təhlükəsizliyin əsasları fənninin predmeti

**Milli təhlükəsizliyin əsasları fənninin məqsədi nəinki təhlükəsizlik sahəsində baş verən proseslər haqqında ümumi elmi təsəvvürlərin təşəkkülünü, həm də təhlükəsizlik problemlərinin təhlilinə kompleks və konseptual şəkildə yanaşmanı, eyni zamanda cəmiyyətin mühüm həyati maraqlarına təhlükə törədən xoşagəlməz təsirlərdən qorunması ilə bağlı məsələləri hərtərəfli və sistemli öyrənməkdir.**

Hazırkı şəraitdə insanın təhlükəsizlik haqqında təsəvvürləri konkret təhlükələrlə əlaqədar olaraq tətbiqi xarakter daşıyır. Ona görə də, «təhlükə» və «təhlükəsizlik» anlayışa görə deyil, özünün daşıdığı konkret məzmununa və mahiyyətinə görə müəyyən edilir.

Milli təhlükəsizliyin əsaslarının predmetini konkret obyektin (şəxsiyyət, dövlət və cəmiyyətin) təhlükəsizliyi üzrə fəaliyyət təşkil edir.

Təhlükəsizlik fenomeninə konkret təşkilatların prizmasından baxıldığına görə, bu halda təhlükəsizlik anlayışı birtərəfli, tətbiqi xarakter daşıyır. Yəni, tətbiqi təsəvvürlərin ümumiləşdirilməsinin nəticəsi kimi meydana gələn təhlükəsizlik anlayışı emprik (təcrübi) anlayış formasını alır.

Konkret obyektin təhlükəsizlik anlayışı təhlükəsizliyin nəzəri anlayışının inkişafı ilə formalaşa bilmədiyinə, yalnız konkret obyektin və onun təbiətinin başa düşülməsinin nəticəsi olduğuna görə, fənnin inkişafının mühüm mərhələsini, emprik və nəzəri anlayışların sintezi təşkil edir. Təhlükəsizlik nəzəriyyəsi bu halda konkret obyektin (şəxsiyyətin, cəmiyyətin, dövlətin və s.) təhlükəsizlik nəzəriyyəsi formasını əldə edir. Təhlükəsizlik obyektlərinin çoxluğu, təhlükəsizliyin xüsusi nəzəriyyələrinin çoxluğunu da şərtləndirir.



Təhlükəsizlik haqqında biliklərin müxtəlif formalarının məcmusu, təhlükəsizlik və onun təmin olunması üzrə fəaliyyət haqqında təhlükəsizliyin ümumi nəzəriyyələrinin və ya dəqiq desək, təhlükəsizlik haqqında nəzəri biliklərin tam sisteminin fomalaşdırılmasını nəzərdə tutur.

Məsələnin mahiyyətinə onun təzahürləri və təhlükəsizliyin təmin olunması üzrə fəaliyyət baxımından yanaşsaq, təhlükəsizlik haqqında nəzəri biliklər sisteminin əsas komponentlərinin təsnifatını aşağıdakı kimi qruplaşdırmaq olar:

1) təhlükəsizlik nəzəriyyəsi:
- təhlükəsizlik fəlsəfəsi;
- təhlükəsizliyin ümumi nəzəriyyəsi;
- təhlükəsizliyin xüsusi nəzəriyyələri (fenomenin mahiyyətinin təzahür olunması).

2) obyektin təhlükəsizlik nəzəriyyəsi:
- obyektin ümumi nəzəriyyəsi;
- obyekt üçün təhlükə (təhdid) nəzəriyyəsi;
- obyektin təhlükəsizlik nəzəriyyəsi.

3) obyektin təhlükəsizliyinin təmin olunması nəzəriyyəsi:
- təhlükənin dəf edilməsi nəzəriyyəsi (obyektin mühafizəsi nəzəriyyəsi);
- obyektin təhlükəsizliyinin təsdiq olunması nəzəriyyəsi (obyektin təsdiq olunması nəzəriyyəsi).

Təhlükəsizliyin təminatında dövlətlərin rolu müstəsna əhəmiyyətə malikdir. Təsadüfi deyildir ki, təhlükəsizliyin konstitusiya təminatı hər bir ölkədə dövlət və onun başçısıdır. Təhlükəsizliyin təmin edilməsinin səviyyəsi məhz dövlətin və dövlət rəhbərinin bu prosesi necə təşkil etməsindən, eləcə də onun icrasına nəzarətindən asılıdır. Dövlət ictimai həyatın müxtəlif sahələri, komponentləri arasında əlaqə yaradır, onların fəaliyyətinin uzlaşdırılmasına nəzarət edir, bunun nəticəsində ölkənin kompleks xarakter daşıyan milli təhlükəsizliyinin təmin olunması sistemi yaradılır.

## 2. Milli təhlükəsizliyin əsasları fənninin metodları, funksiyaları və digər elmlərlə əlaqəsi

Metod hər bir elmin öz predmetinə yanaşma vasitəsidir. Milli təhlükəsizlik nəzəriyyəsində sistem, müqayisəli təhlil, modelləşdirmə, tarixi müqayisəli, biheviorçu (davranış), analiz və sintez, qərarların qəbul edilməsi, oyun və s. metodlardan istifadə olunur.

**Sistem metodunun** köməyi ilə tədqiq olunan hər hansı bir obyekt bütöv şəkildə götürülür və müxtəlif komponentlərə ayrılaraq öyrənilir.

**Müqayisəli təhlil metodu** vasitəsi ilə müxtəlif proseslər arasında təhlil aparılır və onların oxşar və fərqli cəhətləri üzə çıxarılır.

**Modelləşdirmə** vasitəsi ilə müəyyən hadisə və prosesin nəzəri layihələşdirilməsi həyata keçirilir, mümkün perspektivlər araşdırılır.

**Tarixi müqayisəli metod** vasitəsi ilə müxtəlif tarixi zamanlarda baş vermiş hadisə və proseslər arasında müqayisəli təhlil aparılır və müvafiq nəticələr çıxarılır.

**Biheviorçu metodun** köməyi ilə baş verən müxtəlif hadisə və proseslərin insanların davranışındakı təzahürü öyrənilir.

**Analiz və sintez** vasitəsi ilə hər hansı bir hadisə və prosesin müxtəlif komponentləri ayrıca tədqiq olunur və tədqiqatın nəticələri birləşdirilərək sonradan müəyyən nəticələr əldə edilir.

**Qərarların qəbul edilməsi metodunun** köməyi ilə qərarın qəbul edildiyi mərkəzin fəaliyyəti, qərarın qəbul edilməsi prosesi və müvafiq qərarın reallaşdırılması öyrənilir.

**Oyun metodunun** vasitəsi ilə müxtəlif vəziyyətlərin yaradılması nəzərdə tutulur.



Hər bir elmin cəmiyyətdə oynadığı rol onun funksiyalarında öz əksini tapır. **Milli təhlükəsizlik nəzəriyyəsi bir elm sahəsi olaraq təsvir, izahetmə, təşkilati, idraki, proqnozlaşdırma və s. funksiyaları yerinə yetirir.**

**Təsvir funksiyası** reallıqda baş verən hadisə və proseslərin qeydə alınmasını həyata keçirir və beləliklə də aparılacaq tədqiqatların əsasını qoyur.

Digər funksiya olan **izahetmə** hadisə və proseslərin daxili aləmini açmağı qarşısına məqsəd qoyur. Həmçinin bu funksiya vasitəsi ilə hər hansı bir problemin yaranma səbəbləri də araşdırılır və onun xarakterik xüsusiyyətləri izah olunur.

**İdarəetmə funksiyası** milli təhlükəsizlik sisteminin idarə olunması, səmərəli fəaliyyəti üçün müvafiq informasiyalar və tövsiyələr verir.

**İdraki funksiya** reallıqda baş verən təhlükəsizliklə bağlı proseslərin dərk olunmasını xarakterizə edir.

**Proqnozlaşdırma funksiyası** təhlükəsizliklə əlaqədar hadisə və proseslərin gələcək inkişaf meyillərini müəyyənləşdirir. Bu funksiyanın köməyi ilə hadisə və proseslərin gələcək inkişafı ilə əlaqədar əvvəlcədən göstərişlər verilə bilər.

Milli təhlükəsizlik nəzəriyyəsi müxtəlif sahələrdə təhlükəsizliyin təmin olunmasını öyrənərkən bir çox elmlərlə qarşılıqlı əlaqədə çıxış edir. Milli təhlükəsizlik nəzəriyyəsi hüquq, tarix, politologiya, sosiologiya, iqtisadiyyat, informatika, hərb, mədəniyyətşünaslıq və s. elmlərlə əlaqəlidir.

İlk olaraq milli təhlükəsizlik nəzəriyyəsinin **hüquq elmi** ilə əlaqəsini nəzərdən keçirək. Milli təhlükəsizlik nəzəriyyəsi yuxarıda qeyd etdiyimiz kimi, müxtəlif sahələrdə təhlükəsizliyin təmin olunmasının problemlərini tədqiq edir. Hüquq elmi isə bu sahələrdə hüquqi cəhətdən tənzimetməni həyata keçirmək üçün müvafiq normalar, qanunlar təklif edir. Müxtəlif sahələrdə təhlükəsizliyin təmin olunması hüquqi

mexanizmlərin köməyi ilə həyata keçirilir. Milli təhlükəsizlik nəzəriyyəsi milli maraqlara müxtəlif tərəflərdən olan təhdidləri, onların səbəblərini, aradan qaldırılması problemlərini tədqiq edirsə, hüquq elmi bu sahələrdə səmərəli tətbiq oluna bilən qanunvericiliyin yaradılması üçün baza rolunu oynayır.

Milli təhlükəsizlik nəzəriyyəsinin **tarix elmi** ilə sıx əlaqəsi vardır. Tarix hadisə və prosesləri post-faktum öyrənir, müəyyən nəticələr çıxarır. Milli təhlükəsizlik nəzəriyyəsi isə müasir şəraitdə baş verən hadisə və prosesləri öyrənərkən tarix elminin nailiyyətlərindən bəhrələnir. Tarixi prosesləri araşdırmadan, onların nəticələrini təhlil etmədən müasir hadisə və proseslərə düzgün qiymət vermək mümkün deyildir. Bu baxımdan qarşılıqlı əlaqənin vacibliyi özünü göstərir.

Milli təhlükəsizlik nəzəriyyəsinin ən yaxın olduğu elm **politologiyadır.** Politologiya siyasət sahəsinin, milli təhlükəsizlik nəzəriyyəsi isə siyasi sahədə təhlükəsizliyin təmin olunması problemlərini tədqiq edir. Bu baxımdan milli təhlükəsizlik nəzəriyyəsi siyasi sahədəki milli maraqlara olan təhdidlərin üzə çıxarılması və aradan qaldırılmasının yollarını tədqiq edərkən siyasi elmlərlə qarşılıqlı əlaqədə çıxış edir. Ümumilikdə yanaşsaq, milli təhlükəsizlik nəzəriyyəsi politologiya elminin bir qolu kimi meydana çıxmış, sonradan təkamül nəticəsində müstəqil olmuşdur.

Politologiya ilə yanaşı **sosiologiya elmi də** milli təhlükəsizlik nəzəriyyəsi ilə sıx əlaqədardır. Sosiologiya elmi cəmiyyətin ümumi inkişaf qanunauyğunluqlarını tədqiq edir. Milli təhlükəsizlik nəzəriyyəsini isə maraqlandıran cəmiyyətin sabit, təhlükəsiz inkişafıdır. Sosial proseslərin mahiyyətini sosiologiya elmi izah edir, bu proseslərin sabit, təhlükəsiz inkişafı üçün isə milli təhlükəsizlik nəzəriyyəsi müəyyən elmi biliklər verir.



Milli təhlükəsizlik nəzəriyyəsinin **iqtisadiyyat elmi** ilə də qarşılıqlı əlaqəsi mövcuddur. Milli təhlükəsizlik nəzəriyyəsi iqtisadiyyatın normal inkişafı üçün, bu sahəyə ola biləcək daxili və xarici təhdidləri araşdırıb, onların aradan qaldırılması yollarını və vasitələrini öyrənir. İqtisadiyyat elmi isə iqtisadi prosesləri elmi cəhətdən izah edir və müəyyən nəticələr əldə edir, həmçinin müxtəlif iqtisadi sahələrin inkişafı üçün elmi tövsiyələr verir. Beləliklə, həm iqtisadiyyat elmi, həm milli təhlükəsizlik nəzəriyyəsi sabit iqtisadi inkişafa nail olmaq üçün elmi baza rolunu oynayır.

**İnformatika elmi** ilə milli təhlükəsizlik nəzəriyyəsinin qarşılıqlı əlaqəsi bu gün ən aktuallıq kəsb edən bir məsələdir. İnformasiya sahəsində təhlükəsizliyin təmin olunması üçün müasir informasiya texnologiyalarının tətbiqi zəruridir. Bu iş informatika elminin üzərinə düşür. Milli təhlükəsizlik nəzəriyyəsi isə təbii ki, bir təhlükəsizlik sahəsi olaraq informasiya sahəsində təhlükəsizliyin təmin olunması problemlərini öyrənir.

Milli təhlükəsizlik nəzəriyyəsinin **hərb elmi** ilə də sıx əlaqəsi mövcuddur. Hərb elmi ölkənin müdafiə qabiliyyətinin yüksəldilməsi, lazımi müdafiə potensialının formalaşdırılması, silahlı qüvvələrdə döyüş ustalığının artırılması istiqamətində biliklər verirsə, milli təhlükəsizlik nəzəriyyəsi ölkənin hərbi sahədəki milli maraqlarına olan təhdidlər və onların dəf edilməsi problemlərini tədqiq edir. Həmçinin silahlı qüvvələrdə hərbi vətənpərvərlik işinin aparılmasında elmi tövsiyələr verir.

Milli təhlükəsizlik nəzəriyyəsinin **mədəniyyətşünaslıq elmi** ilə də sıx əlaqəsi vardır. Mədəniyyətşünaslıq cəmiyyətdə gedən mədəni prosesləri, ümumilikdə mədəniyyətin tarixini və nəzəri əsaslarını öyrənir. Mənəvi-mədəni sahədə təhlükəsizliyin təmini problemləri isə milli təhlükəsizlik nəzəriyyəsinin tədqiqat predmetinə daxildir. Mədəniyyətşünaslıq mədə-

ni proseslərin mahiyyətini izah edirsə, milli təhlükəsizlik nəzəriyyəsi bu prosesin milli maraqlara uyğun, təhlükəsiz inkişafını təmin etmək üçün müəyyən elmi tövsiyələr verir.

Milli təhlükəsizliyin əsaslarının **psixologiya və fəlsəfə elmi** ilə əlaqəsi də az əhəmiyyət daşımır. Deyilənləri nəzərə alaraq milli təhlükəsizliyin əsaslarını tədris və ya tədqiq edərkən bu elmlərin də imkanları nəzərə alınmalıdır.

### 3. Milli təhlükəsizliyin əsasları fənninin kateqoriyalar sistemi

Milli təhlükəsizlik anlayışı haqqında danışarkən əvvəlcə təhlükəsizlik anlayışına nəzər salmaq lazım gəlir. Təhlükəsizlik - cəmiyyətin və onun strukturlarının daxili və xarici təzyiqlərdən, təsirlərdən, təhdidlərdən qorunması problemidir. Təhlükəsizlik dövlətin, cəmiyyətin və şəxsiyyətin təhlükəsizliyini təmin edən sosial fəaliyyətin nəticəsidir. Bu fəaliyyətdə milli dəyərlər, ölkənin maddi, intellektual mülkiyyəti, eyni zamanda milli həyat tərzi, yəni tarixən qəbul olunmuş cəmiyyətin, millətin davranışının sosial, fərdi mahiyyət və formasının qorunması prinsipi əsas götürülür. Real təhlükəsizlik təhdidi - təhlükəsizlik obyektlərinin fəaliyyətinə qorxu yaradan hədədir. Təhlükəsizliyin təmin olunması təhdidlərin azaldılmasına və ya aradan qaldırılmasına yönəlmiş təhlükəsizlik sisteminin səmərəli fəaliyyəti nəticəsində mümkündür. Milli təhlükəsizliyin obyektləri kimi bütövlükdə, şəxsiyyət, onun hüquq və azadlıqları, cəmiyyət, onun maddi və mənəvi dəyərləri, dövlət və onun konstitusiya quruluşu, suverenliyi, ərazi bütövlüyü götürülür.

**Təhlükəsizlik anlayışı çox mürəkkəb sosial-siyasi mahiyyətə malik olmaqla, müxtəlif sahələrin mütəxəssislərinin tədqiqat obyektini təşkil edir.** Psixoloqlar ona insanların öz



həyati tələbat və mənafelərinin müdafiəsində hiss və həyəcanları, hüquqşünaslar şəxsiyyətin və cəmiyyətin müdafiəsinin hüquqi təminatı olan qəbul edilmiş qanunlar sistemi, insanların həyat fəaliyyətinin, hüquq və azadlıqlarının normal təminatı, filosoflar cəmiyyətin həyat fəaliyyətinin inkişaf meyilləri və şərtlərinin vəziyyətinin, strukturunun, institut və qaydalarının, onların müəyyən keyfiyyətlərinin, optimal azad və zəruri münasibətlərinin qorunub saxlanılması, politoloqlar isə müəyyən bir sistemin xüsusiyyəti və bir sıra dövlət orqanlarının fəaliyyətinin nəticəsi, həmçinin şəxsiyyətin, cəmiyyətin və dövlətin müdafiəsinin təmin edilməsində qarşıya qoyulmuş vəzifələri yerinə yetirməyə istiqamətlənmiş fəaliyyət prosesi kimi yanaşırlar.

**Azərbaycan Respublikasının Konstitusiyasının 31-ci maddəsində təhlükəsiz yaşamaq hüququ aşağıdakı kimi təsbit olunmuşdur:**

**I. Hər kəsin təhlükəsiz yaşamaq hüququ vardır.**

**II. Qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla, şəxsin həyatına, fiziki və mənəvi sağlamlığına, mülkiyyətinə, mənzilinə qəsd etmək, ona qarşı zor işlətmək qadağandır.**

Bu gün leksikona və həyata, müasir cəmiyyətə və dövlətçiliyə sıx şəkildə daxil olan «milli təhlükəsizlik» anlayışı heç kimdə şübhə doğurmur.

Milli təhlükəsizlik – ölkənin milli maraqlarının, geniş mənada, yəni, siyasi, sosial, iqtisadi, hərbi, ekoloji aspektlərin, xarici iqtisadi fəaliyyətin, kütləvi qırğın silahlarının yayılması, eləcə də xalqın mənəvi və intellektual dəyərlərinin məhv edilməsi təhdidi ilə bağlı risklər də daxil olmaqla qorunması deməkdir.

Obyektindən asılı olaraq, söhbət «insanın təhlükəsizliyindən», «bir qrup insanın təhlükəsizliyindən» (məsələn, etnik qrupların), «cəmiyyətin təhlükəsizliyindən», dövlətin təhlükəsizliyindən və bir qrup dövlətin «kollektiv təhlükə-

sizliyindən» (məsələn, hər hansı regionu və ya ittifaqı təşkil edən), nəhayət, bir tamlıq kimi bütün dünya birliyi üçün «qlobal təhlükəsizlikdən» gedə bilər.

Təhlükəsizlik təhdidlərdən tamamilə kənarlaşmaq demək deyil, həyatın mühafizəedici gücünün vəziyyətidir, həyat təhlükəsizdir, deməli, onda mühafizə gücü, immunitet vardır. Beynəlxalq və milli təhlükəsizliyin təzahür və təmin olunması sahələri aşağıdakılardır:

- ekoloji təhlükəsizlik;
- hərbi təhlükəsizlik;
- ehtiyatların təhlükəsizliyi;
- informasiya təhlükəsizliyi;
- sosial təhlükəsizlik;
- elmi-texniki təhlükəsizlik;
- enerji təhlükəsizliyi;
- nüvə təhlükəsizliyi;
- maliyyə təhlükəsizliyi;
- siyasi təhlükəsizlik;
- innovasiya təhlükəsizliyi;
- hüquqi təhlükəsizlik;
- mədəni təhlükəsizlik;
- texniki təhlükəsizlik və s.

«Təhlükəsizlik» fəlsəfi kateqoriya kimi maddi dünyanın obyektlərinin, həyat qabiliyyətinin və həyata davamlılığının ifadə forması kimi çıxış edir. Milli təhlükəsizlik isə sosial obyektlərin həyat qabiliyyətini ifadə edir və şəxsiyyətin, cəmiyyət və dövlətin həyati vacib maraqlarının daxili və xarici təhdidlərdən qorunması vəziyyətidir. Real həyatda təhlükəsizlik obyektləri üçün müxtəlif növlü təhdidlər həmişə olub, var və olacaqdır. Ona görə də təhlükəsizlik kateqoriyası mütləq deyildir, yalnız nisbidir və məna dəyərini insan qabiliyyətinin və ətraf mühitin konkret obyektləri və ya sahələri ilə əlaqədar əldə edir. Təhlükəsizlik anlayışı postsovet məkanında ilk dəfə Rusiya Federasiyasının «Təhlükəsizlik haqqında» Qanununda işlədilmişdir. Bu qanunda təhlükəsizlik şəxsiyyətin, cəmiyyətin və dövlətin həyati əhəmiyyətli maraqlarının daxili və xarici təhdidlərdən qorunması kimi səciyyələndirilir.



Təhlükəsizlik məsələsi görkəmli Azərbaycan mütəfəkkirlərinin də diqqət mərkəzində olmuşdur. Orta əsr müəlliflərindən Nizamülmülk özünün «Siyasətnamə» əsərində qeyd edirdi ki, həmişə hər tərəfə sövdagər, səyyah, sufi, əttar, dərviş libasında casuslar göndərilməlidir: bunlar eşitdiklərini xəbər verməlidirlər, beləliklə, heç bir şey gizli qalmamalıdır, bir iş baş versə, yenidən baş qaldırsa, vaxtında tədbir görülsün. Çox vaxt olub valilər, iqtidarlar, məmurlar və əmirlər qiyam fikrinə düşmüş, şaha qarşı üsyan xəyalında olmuşlar, lakin casus gəlib şaha xəbər verdikdən sonra şah vaxtında atı minərək hücuma keçmiş, qəflətən onların başı üstünü alaraq həbs etmiş, arzularını puça çıxarmışdır. Başqa bir hökmdar xarici qoşunla birlikdə ölkəni tutmaq qəsdində olmuşsa, şah hazırlaşıb onun hücumunu dəf etmişdir».

Digər görkəmli Azərbaycan mütəfəkkiri Xacə Nəsrəddin Tusi qeyd edir ki, hökmdar öz sirlərini gizli saxlamalıdır ki, yerində onlardan istifadə edə bilsin və müqavimətə rast gəlməsin, eləcə də düşmən xəbər tutmuş olsa, özünü qorumaq, onu dəf etmək üçün tədbirlər hazırlaya bilsin. Sirri saxlamaqla köməyə və məşvərətə ehtiyacı olan ağıllı adamlar yalnız iradəli, heysiyyətli, sədaqətli, şərəfli, ağzıbütöv, uzaqgörən, tədbir görməyi bacaran, sirr verməyən şəxslərlə məsləhətləşə bilər, hər halda kəmağıllara, uşaq-muşaqlara heç bir şey deməməlidir. Xəfiyyə və kəşfiyyatçılar həmişə gizli işlərdən xəbər tutmağa çalışmalı, xüsusilə düşmənlərin vəziyyətini yaxşı öyrənməli, onların gizli fikirlərini aşkara

çıxarmalıdır, çünki zidd qüvvələrə müqavimət göstərməkdə ən qüdrətli silah onların nə edəcəklərini əvvəldən bilməkdir.

Türkiyə Cümhuriyyətinin birinci Prezidenti M.K.Atatürk qeyd edirdi ki, vətənin hər yerində ictimai rahatlığı pozan hadisənin yalnız oradakı vətəndaşlara deyil, ən uzaq yerlərdəki vətəndaşların dincliyinə, xoşbəxtliyinə və iş həyatına, iqtisadiyyat və istehsalına təsir göstərdiyi və zərər verdiyi aydındır. Buna görə də, hər xoşbəxtliyin və hər fəaliyyətin, xüsusən iqtisadiyyat və ticarətin inkişafının ilk şərti rahatlıq və sükut, habelə təhlükəsizlik və asayişin pozulması mümkün olmayan bir əmniyyətin qüvvədə olmasıdır. M.K.Atatürk təhlükəsizliyi təmin edən əsas subyekt kimi dövləti əsas götürürdü. O daha sonra qeyd edirdi ki, hökumətin varlığının səbəbi ölkənin asayişini, millətin huzur və rahatlığını təmin etməkdir. Bütün ölkədə gerçək bir asayiş hakim olmalıdır. Millət böyük bir huzur və asayişin içində rahat olmalıdır. Onun fikrincə, ölkənin hər hansı bir guşəsində xalqın təhlükəsizliyini, dövlətin bütövlük və asayişini pozmağa qalxanlar dövlətin bütün qüvvələrini qarşısında görməlidirlər.

Milli təhlükəsizlik ifadəsinin rəsmi işlənmə tarixi XX əsrin əvvəllərinə gedib çıxır. **Bir çox müəlliflər bu ifadənin ilk dəfə olaraq 1904-cü ildə ABŞ Prezidenti T.Ruzveltin konqresə göndərdiyi məktubunda işlədildiyini qeyd edirlər.** Milli təhlükəsizliyin hüquqi bazasının yaradılmasında ilk mühüm və praktiki addım ABŞ Konqresi tərəfindən «Milli təhlükəsizlik haqqında» qanunun qəbul edilməsi və Prezident N.Trumenin 1947-ci ilin iyulun 26-da 253 saylı qərarı ilə qanun layihəsini təsdiq etməsi olmuşdur. ABŞ-da «milli təhlükəsizlik» anlayışının kifayət qədər dəqiq tərifi vardır. 1994-cü ilin iyulunda ABŞ konqresinə Prezidentin ünvanladığı «ABŞ-ın milli təhlükəsizlik strategiyası»na uyğun olaraq burada göstərilmişdir. Xalqın, ərazinin və həyat tərzinin milli təhlükəsizliyi hökumətin (yəni Prezidentin) ən başlıca vəzifəsi və konstitusiya borcudur.



Onun əsas məqsədi aşağıdakılardır:

1) döyüş hazırlıqlı silahlı qüvvələrə arxalanmaqla təhlükəsizliyin etibarlı müdafiə olunması;
2) Amerika iqtisadiyyatının çiçəklənməsinə şərait yaradılması;
3) xaricdə demokratiyanın güclənməsinə yardım göstərilməsi.

Milli təhlükəsizlik strategiyası ABŞ maraqları və dəyərləri baxımından formalaşır, siyasi, hərbi və iqtisadi sahələrə şamil edilir və prioritet məqsədlərin əldə olunmasına yönəldilmişdir:

1) təhlükəsizliyin möhkəmləndirilməsi,
2) ölkənin çiçəklənməsinin təmin olunması,
3) demokratiyanın inkişafı.

«ABŞ yeni yüzillik üçün milli təhlükəsizlik strategiyasında» qeyd olunur ki, ölkə yaranandan milli təhlükəsizliyin strategiyasına olan bəzi tələblər dəyişməz qalmışdır. Biz həm ölkəmizdə, həm də xaricdə Amerikalıların həyatını və şəxsi təhlükəsizliyini qorumalıyıq. Biz Birləşmiş Ştatların suverenliyini, siyasi azadlığını və müstəqilliyini qorumalıyıq. Bizim dəyərlərimiz, institutlarımız, ərazimiz toxunulmaz qalmalıdır və biz çalışmalıyıq ki, xalqın tərəqqisi, inkişafı, rifahı artsın.

**«Milli təhlükəsizliyin» leksik mənası milli təhlükəsizlik anlayışının özünün genezisini ifadə edən latın sözü olan natio (nəsil, tayfa) sözünə əsaslanır. Bu terminin müasir anlayışı isə, Qərbdə ümumi qəbul olunmuş «national security» (milli təhlükəsizlik) ifadəsindən alınmışdır.** Bu ad altında həyati vacib milli maraqların təmin olunmasına yönəlmiş strategiya başa düşülür. Bu zaman həyati vacib maraqları ayırarkən, onların müdafiəsi ilə bərabər, şəxsiyyətin, cəmiyyətin və dövlətin zəifldilməsini özündə ehtiva edən böhranlı vəziy-

yətlərin, ictimai münasibətlərin deformasiyasının nəzərdən keçirilməsi mühüm əhəmiyyət kəsb etməlidir.

Milli təhlükəsizlik sosial-fəlsəfi kateqoriyadır və onun əsasında insana layiqli həyatı təmin edən sabit sosial inkişaf dayanmalıdır. Məhz belə bir yanaşmada o, cəmiyyətin və şəxsiyyətin maraqlarını, əxlaqi və mənəvi dəyərləri müdafiə edəcək, həmçinin əhalinin geniş təbəqələri tərəfindən başa düşüləcək, dəstəklənəcək və ümummilli iş olacaqdır.

Milli təhlükəsizlik təbiətinə görə (siyasi, hərbi, iqtisadi, informasiya, ekoloji və s.) müxtəlif xarici və daxili təhdidlərin geniş spektrindən, şəxsiyyətin, cəmiyyət və dövlətin, eləcə də, milli dəyərlərin, həyati vacib maraqların qorunmasıdır. Deməli, milli təhlükəsizlik - ölkənin milli maraqlarının reallaşdırılmasına və müdafiəsinə istiqamətlənmiş siyasətdir. Mövcud siyasət müxtəlif formalara malik olmaqla, iqtisadi, siyasi, hərbi və s. vasitələrdən istifadə edə bilir. Bütün dövlətlər milli təhlükəsizlik siyasətini həyata keçirərkən öz maraqlarını müdafiə edirlər.

«Milli təhlükəsizlik haqqında» Azərbaycan Respublikasının Qanununda milli təhlükəsizlik anlayışı aşağıdakı kimi təsbit olunmuşdur: **«Azərbaycan Respublikasının milli təhlükəsizliyi dövlətin müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün, konstitusiya quruluşunun, xalqın, ölkənin milli maraqlarının, insanın, cəmiyyətin, dövlətin hüquq və mənafelərinin daxili və xarici təhlükələrdən qorunmasının təmin edilməsidir».** Həmin qanunun 5-ci maddəsində Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına riayət edilməsi, Azərbaycan Respublikasının milli təhlükəsizliyinin vahid dövlət siyasətinə əsaslanması və onun təmin olunması istiqamətlərinin tarazlaşdırılması və əlaqələndirilməsi, Azərbaycan Respublikasının milli təhlükəsizliyini təmin edən orqanlar arasında səlahiyyətlərin dəqiq müəyyən edilməsi, onların fəaliyyətinin əlaqələndirilməsi və həmin orqanların



bir-birini qarşılıqlı surətdə operativ məlumatlandırması, Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təminatı ilə əlaqədar fəaliyyətin həyata keçirilməsinə nəzarət, beynəlxalq təhlükəsizlik sistemlərinə inteqrasiya, insan, cəmiyyət və dövlətin maraqları arasındakı tarazlığın saxlanılması və onların qarşılıqlı məsuliyyəti, Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunmasının əsas prinsipləri kimi təsbit olunmuşdur.

Dövlət təhlükəsizliyi milli təhlükəsizliyin tərkib hissəsi kimi götürülür. Dövlət təhlükəsizlliyi daha konkretdir və onun gerçəkləşdirilməsi çeviklik, konkret şəraitə adekvat reaksiya və münasibət tələb edir. Dövlət təhlükəsizliyi milli təhlükəsizliyin konseptual tərəflərinə, zamanın, dövrün tələblərinə müvafiq şəkildə gerçəkləşdirilməsidir.

Təhlükəsizlik anlayışı haqqında danışarkən beynəlxalq təhlükəsizlik anlayışına da diqqət yetirmək lazımdır. Konkret mənada beynəlxalq təhlükəsizlik ümumi sülhün, yaxud xalqların təhlükəsizliyi naminə beynəlxalq münasibətlərin durumu kimi başa düşülür.

Beynəlxalq təhlükəsizliyin təmin olunmasının əsas vasitələri aşağıdakılardır:

– maraqlı dövlətlər arasında qarşılıqlı təhlükəsizliyi təmin edən ikitərəfli və çoxtərəfli müqavilələr;

– dövlətlərin çoxtərəfli ittifaqlarda birləşməsi;

– beynəlxalq təhlükəsizliyə kömək edən dünya miqyaslı beynəlxalq, regional strukturlar və təşkilatlar;

– tərksilah, beynəlxalq siyasi qaydaların humanistləşməsi və demokratikləşməsi.

Beynəlxalq təhlükəsizlik miqyasına görə aşağıdakı səviyyələrə ayrılır:

– milli (dövlət səviyyəsində);

– regional (müvafiq kontekstdə subregional səviyyə də qeyd edilə bilər. Məs: Avropanın təhlükəsizliyi regional sə-

viyyəni, bu qitənin ayrı-ayrı bölgələrinin – Qafqazın, Qara dəniz hövzəsinin, Şimali Avropa və sairin təhlükəsizliyi isə subregional səviyyəni nəzərdə tutur);

– qlobal (ümumdünya səviyyəsində).

Bu tipologiya geosiyasətin dövlət ərazisi, geostrateji və geosiyasi region, dünya geosiyasi məkanı kimi əsas məkan kateqoriyaları ilə sıx əlaqəlidir.

Milli təhlükəsizlik qeyd etdiyimiz kimi həm beynəlxalq əlaqələr, həm də ölkənin daxilində dövlətin və millətin maraqlarının təminatının vasitə, forma və üsullarını özündə ehtiva edir. Beynəlxalq təhlükəsizlik isə dünya siyasətinin bütün subyektlərinin fundamental milli maraqlarını reallaşdıran beynəlxalq münasibətlərin mövcud vəziyyətini ifadə edən kateqoriyadır. Hər hansı konkret ölkə üçün beynəlxalq təhlükəsizliyin bu və ya digər formulasına üstünlük onun milli maraqlarından asılıdır. Müxtəlif dövlətlərin maraqları isə çox vaxt eyni olmur. Özlüyündə labüd olan bu məqam antoqonizm səviyyəsinə çatdıqda bu təhlükələr, müharibələr, münaqişələr və gərginliyin mənbələrinə çevrilirlər. Məhz buna görə də milli maraqlar konsepsiyasının və bu maraqlara təhdidlərin dürüst müəyyən edilməsi milli təhlükəsizlik siyasətinin həyata keçirilməsində öndə olan məsələdir.

Göründüyü kimi, müasir ədəbiyyatlarda milli təhlükəsizlik müxtəlif cür izah olunur. Deyilənləri yekunlaşdıraraq bu kateqoriyanın təsnifini aşağıdakı kimi qruplaşdırmaq olar:

– sosial, iqtisadi, ekoloji, mədəni, siyasi, hüquqi, mənəvi və digər şərtlərin məcmusu. Həmin şərtlər cəmiyyətin vəziyyətini elə təmin edir ki, bu kateqoriya millətlərə, cəmiyyətə, şəxsiyyətlərə maddi, mənəvi, intellektual, siyasi, psixoloji cəhətdən inkişaf etmək və cəmiyyətdə sosial gərginliyi, sosial münaqişələri minimuma endirən mədəni münasibətləri hərtərəfli mühafizə etmək imkanı verir;



– şəxsiyyətin və cəmiyyətin mövcudluğunun və inkişafının optimal şərtlərinin saxlanması ilə bağlı səmərəli fəaliyyəti təmin edən sosial institutların vəziyyətini səciyyələndirən siyasi elmlərin kateoriyası kimi;

– ölkənin sabit inkişafını, baza dəyər və maraqlarını, mənəvi və maddi rifah mənbələrinin daxili və xarici təhdidlərdən müdafiəsini təmin edən dövlət və ictimai zəmanətlər sistemi;

– insanların fundamental dəyərlərini və əsas institutlarını qoruyub saxlayan zaman onların yaşaya bilməsinə, azad, sərbəst fəaliyyət göstərməsinə zəmanət verən millətin inkişaf meyillərinin və həyat fəaliyyəti şərtlərinin vəziyyəti;

– ölkənin təhlükəsizliyinin müxtəlif növlərinin (siyasi, iqtisadi, hərbi və s.) məcmusu, politoloji aspektdən ifadə olunması;

– daxili və xarici təhdidlərdən müdafiə olunma, xarici arzuolunmayan təsirlərin dəf edilməsi, davamlılıq, ölkənin movcudluğu üçün cəmiyyətin və onun vətəndaşlarının sabit hərtərəfli inkişaf imkanlarına zəmanət verən daxili və xarici şəraitin təmin olunması;

– ölkənin müstəqilliyinə, ərazi bütövlüyünə, müdafiə potensialına və konstitusiya quruluşuna təhdidlərə əks təsirlə bağlı dövlət təhlükəsizliyi məcmusu;

– ölkənin inkişafı, dövlətin həyat qabiliyyəti, onun fundamental dəyər və ənənələrinin məqsədyönlü inkişafı və qorunub saxlanması, şəxsiyyət və dövlətin normal münasibətləri, hər hansı xarici təhdidləri səmərəli dəf etmək qabiliyyəti, öz milli maraqlarını əsas tutmağı, milli məqsədlərə nail olmağa zəmanət vermək üçün əlverişli şəraiti təmin edən aktual amillərin məcmusu;

– siyasi, sosial, iqtisadi, hərbi, ekoloji, eləcə də kütləvi qırğın silahlarının yayılmasının qabaqlanması sahəsində milli maraqların qorunması, dövlətin vətəndaşlarının hüquq

və azadlıqları, habelə xalqın, cəmiyyətin, dövlətin və beynəlxalq aləmin mənəvi və intellektual dəyərlərinə, sosial sistemlərə və onlar tərəfindən formalaşan sosial münasibətlərə təhdidlərin aradan qaldırılması şərtlərinin mühafizə olunması vəziyyətidir.

Göründüyü kimi, milli təhlükəsizlik nəzəriyyəsi özünəməxsus kateqoriyalar sisteminə malikdir. Kateqoriyaları elmin «dili» də adlandırmaq mümkündür. Hər bir elmin tarixi inkişafı onun kateqoriyalarının meydana gəlməsi və inkişafı ilə sıx bağlıdır. Əslində elə elmin yaranışı kateqoriyaların üzərində gerçəkləşir. Milli təhlükəsizlik nəzəriyyəsinin kateqoriyaları sistemi uzun müddət müxtəlif elmlər, əsasən də siyasi elmlərdə istifadə olunmuş kateqoriyaların ayrılması və inkişafı nəticəsində formalaşmışdır.

**Ümumilikdə milli təhlükəsizlik nəzəriyyəsinin kateqoriyaları bazasına milli maraqlar, dövlət, hakimiyyət, geosiyasət, konflikt, siyasi strategiya, ordu, daxili təhlükəsizlik, xarici təhlükəsizlik, siyasi təhlükəsizlik, iqtisadi təhlükəsizlik, hərbi təhlükəsizlik, informasiya təhlükəsizliyi, mənəvi-mədəni təhlükəsizlik, ekoloji təhlükəsizlik, şəxsiyyətin təhlükəsizliyi, cəmiyyətin təhlükəsizliyi, dövlətin təhlükəsizliyi, sabitlik, hərbi-siyasi tarazlıq, milli təhlükəsizlik sistemi, təhdid, beynəlxalq təhlükəsizlik və s. kateqoriyalar daxildir.**

Qeyd edilən kateqoriyalar sistemi milli təhlükəsizlik nəzəriyyəsinin tədqiqat predmetini özündə əks etdirir.



# II FƏSİL

## Milli maraqlar

1. **Milli maraqlar, onların mahiyyəti və təsnifatı**
2. **Azərbaycan Respublikasının milli maraqları və onların ümumi xarakteristikası**
3. **Beynəlxalq təhlükəsizliyin təmin olunması kontekstində milli maraqlar**

## 1. Milli maraqlar, onların mahiyyəti və təsnifatı

Bəşər övladı ilə birgə doğulan maraq və mənafe əsasən XIX əsrdən bir elmi istilah kimi təşəkkül tapmağa və formalaşmağa başlamışdır. Milli maraqlar şəxsiyyətin, cəmiyyətin və dövlətin maraqlarının məcmusudur. Hər hansı bir ölkənin milli təhlükəsizliyinin təminatı onun milli maraqları ilə sıx bağlıdır. Başqa sözlə, milli təhlükəsizlik məhz milli maraqların həyata keçirilməsi üçün əlverişli şəraitin təminatını nəzərdə tutur. Hər bir konkret vəziyyətdə milli maraqların təmin olunması üçün dövlətin müvafiq qurumlarının qüvvə və vasitələrinin tətbiqi tələb olunur.

Milli maraqlar yalnız milli hüdudlarla məhdudlaşmır, məkan baxımından daha böyük ərazini əhatə edir. Regional və qlobal miqyasda inkişaf edən proseslər millətin milli inkişaf perspektivlərinə, imkanlarına, bunun nəticəsində maraqların qorunmasına əsaslı surətdə təsir göstərə bilir. Milli maraqların təmin olunması üçün ölkənin beynəlxalq statusu, potensialı, regional və qlobal səviyyədə yeri və rolu olduqca mühüm əhəmiyyət kəsb edir.

Milli təhlükəsizlik siyasəti və ölkənin milli maraqları vəhdət təşkil etdiyindən onları bir-birindən ayrı təsəvvür etmək mümkün deyildir. Bu baxımdan hər hansı bir ölkənin milli təhlükəsizliyinə olan təhdidlər elə həm də milli maraqlara olan təhdidlər kimi başa düşülməlidir.

Hər bir ölkənin milli maraqları əhəmiyyətinə görə iki qrupa ayrılır:

– Həyati vacib maraqlar;
– Dəyişkən maraqlar.

Həyati vacib maraqlar milli strateji maraqlardır. Buraya qlobal və regional səviyyədə ölkənin milli təhlükəsizliyinin təmin edilməsi, ərazi, sosial-iqtisadi, milli-tarixi, mədəni-mənəvi bütövlüyün və s. qorunması daxildir. Bunların təmin edilməsi üçün diplomatik, iqtisadi, mədəni əlaqələrdən və hətta lazım gələrsə hərbi gücdən istifadə olunur. Bu maraqlar güzəşt və ya sövdələşmə predmetinə çevrilə bilməz. Belə maraqlarda dəyişikliklər o zaman baş tuta bilər ki, beynəlxalq aləmdə və ölkə daxilində köklü dəyişikliklər baş versin.



Dəyişkən maraqlar isə həyati vacib maraqlara nisbətən ikinci dərəcəlidir. Bu maraqlar həyati vacib maraqları təmin etmək üçün lazım gələrsə güzəştə gedilə bilər. Ona görə də belə maraqlar dəyişkən maraqlar adlanır. Qlobal layihələr həyata keçirilərkən həyati vacib layihələrin reallaşması üçün dəyişkən maraqlardan yan keçilməsi faktına Azərbaycanın, eləcə də dünyanın təcrübəsində rast gəlmək olar. **Hansı şəraitdə olursa-olsun həyati vacib maraqlar müdafiə edilməlidir. Təsadüfi deyildir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizin həyati vacib maraqlarını rəhbər tutaraq dəfələrlə bəyan edib ki, Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu ola bilməz və Dağlıq Qarabağın statusuna yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində baxıla bilər.**

Tarixi siyasi təcrübə də təsdiq edir ki, milli maraqların, milli təhlükəsizliyin təmin edilməsi üçün güclü təməli olan milli dövlətin mövcudluğu vacib şərtdir. Demokratik dövlətin əsas vəzifəsi millətin, cəmiyyətin, fərdin təhlükəsiz yaşamasını təmin etmək, onun dilini, dinini, mədəniyyətini, elmini, adət-ənənələrini qorumaqdan ibarətdir.

Ümumiyyətlə, dövlətlərin həyata keçirdikləri daxili və xarici siyasətlərin mərkəzində həmin ölkələrin milli maraqları dayanır. Bütövlükdə milli maraqlar xaricində heç bir siyasət aparılmır.

Bəşəriyyətin ümumi təcrübəsinə əsaslanaraq belə bir nəticəyə gəlmək olar ki, insanların təhlükəsiz yaşamasını təmin etmək mümkündür. Beynəlxalq münasibətlər sahəsində

yaranan iqtisadi, sosial-siyasi birliklər bu siyasi-strateji məqsədə xidmət edir. Lakin mütləq qlobal təhlükəsizlik bəzən qeyri-real, bəzən də nail olunması həddindən artıq mürəkkəb görünən bir hədəfdir. Bunun səbəbini yenə də milli maraq konsepsiyasında, başqa sözlə, müxtəlif dövlətlərin fərqli, bəzən bir-biri ilə ziddiyyət təşkil edən milli maraqlarında axtarmaq lazımdır. Onu da qeyd etmək lazımdır ki, ölkələrin milli maraqlarının müxtəlifliyi mövcud ziddiyyətlərin aradan qaldırılmasını çətinləşdirir.

**Milli maraq millətin özünüdərk prosesi ilə də sıx bağlıdır. Milli maraqların əsasında milli şüur və milli təfəkkür dayanır.** Milli şüur və milli təfəkkür əsasında formalaşan milli xarakter nə qədər möhkəm və dayanıqlı olarsa milli maraqların qorunması və müdafiəsi də bir o qədər etibarlı olar. Milli təhlükəsizlik siyasəti isə milli maraqların təşkilatlanmış formada müdafiəsidir. Milli dövlətlərin meydana gəlməsi ilə milli maraq siyasi strateji məqsədə çevrildi. Deməli, beynəlxalq münasibətlərdə başlıca fundamental qüvvə xalqın iradəsini ifadə edən milli dövlətdir. Eyni zamanda milli dövlətin iqtisadi, siyasi və hərbi cəhətdən güclü olması, milli maraqların həyata keçirilməsinə imkan verir. Milli maraqların qorunması prinsipini əldə rəhbər tutub bəşəri maraqları da unutmaq olmaz. Milli maraqların müdafiəsi zamanı bəşəri maraqlara da zərər dəyməməlidir. Bu da onu deməyə əsas verir ki, milli maraqların təminatı dövlətlərarası münasibətlərdə bərabərliyin gözlənilməsini tələb edir. Bərabərliyin gözlənilməsi beynəlxalq sistemin fəaliyyətində qanunauyğun mexanizm yaradır və ona təkan verir. Beynəlxalq sistemdə bərabərliyin pozulması digər ölkələrin milli maraqlarının nəzərə alınmaması nəticəsində baş verir, nəticədə dövlətlərarası münaqişə yaranır. Tarixən dövlətlər arasında müharibələr də əsasən milli maraqların toqquşması nəticəsində baş verirdi. Ölkənin milli maraqları onun sosial-iqtisadi təbiətindən və sistemin siyasi struktur səviyyəsindən irəli gəlir.



Dövlətin xarici siyasəti başqa dövlətlərlə münasibətdə maraqların qarşılıqlı nəzərə alınmasını da nəzərdə tutur. Maraqların ziddiyyətli olması etibarlı və monolit təhlükəsizlik sisteminin yaradılmasına çətinlik törədir.

Milli maraqlara dair deyilənləri yekunlaşdırarkən bir məqama da diqqəti yönəltmək məqsədəmüvafiq olardı. Bu rasionallıq məfhumu ilə bağlıdır. Dövlət institutları cəmiyyətdə milli maraqların rasionallaşdırılmasına nail olmalıdır. Başqa sözlə, müxtəlif strategiya və konsepsiyalarda ifadə olunan milli maraqlar dövlətin mövcud potensialına müvafiq, yəni real olmalıdır. Real milli maraqlar onların təmini baxımından real icra mexanizmlərini doğurur. Bu zaman qarşıya qoyulan məqsədə çatmaq şansı da yüksək olur. Əks təqdirdə uğursuzluqlar dövlət aparatının böhranı, hətta sistemin süqutu ilə nəticələnə bilər.

## 2. Azərbaycan Respublikasının milli maraqları və onların ümumi xarakteristikası

Hüquqi, demokratik dövlətin yaradılması, iqtisadiyyatın və sənayenin daima inkişaf etdirilməsi, qlobal layihələrin, daxili və xarici siyasətin uğurla həyata keçirilməsi istiqamətində Azərbaycan Respublikasının atdığı addımlar milli maraqların qorunması kimi mühüm strateji xətti də təmin edir.

2007-ci ildə qəbul olunmuş «Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası»nda göstərilir ki, Azərbaycan Respublikasının milli maraqları Azərbaycan xalqının fundamental dəyər və məqsədlərini, habelə insan, cəmiyyət və dövlətin tərəqqisini təmin edən siyasi, iqtisadi, so-

sial və digər tələbatların məcmusundan ibarət olmaqla aşağıdakılardır:

– Azərbaycan dövlətinin müstəqilliyinin və ərazi bütövlüyünün qorunması, onun beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığının təmin edilməsi;

– Azərbaycan xalqının vahidliyinin qorunub saxlanılması, azərbaycançılıq ideyasının təşviqi;

– vətəndaş cəmiyyətinin formalaşdırılması, insan hüquq və əsas azadlıqlarının təmin olunması;

– demokratik və vətəndaş cəmiyyəti təsisatlarının inkişafı, qanunun aliliyi, asayişin təmini yolu ilə dövlətin funksiyalarının yerinə yetirilməsinin gücləndirilməsi, əhalinin təhlükəsizliyinin qorunması;

– beynəlxalq öhdəlikləri yerinə yetirmək, qlobal və regional təhlükəsizlik və sabitliyə töhfə vermək üçün dəyərlərini bölüşdüyü beynəlxalq təşkilatlarla inteqrasiyaya yönəlmiş əməkdaşlığın inkişaf etdirilməsi;

– bazar iqtisadiyyatının inkişafı, onun hüquqi əsaslarının təkmilləşdirilməsi, iqtisadi sabitliyin təmin olunması məqsədilə daxili və xarici sərmayələr üçün əlverişli şəraitin yaradılması;

– təbii sərvətlərdən tam səmərəli istifadə edilməsi, davamlı iqtisadi inkişaf, ətraf mühitin qorunması, tədris, elmi və texnoloji potensialın artırılması yolu ilə Azərbaycan xalqının gələcək inkişafının, əhalinin layiqli həyat səviyyəsinin və fiziki sağlamlığının təmin edilməsi;

– dünya azərbaycanlılarının bölüşdüyü dəyərlərə əsaslanan milli özünəməxsusluğun və həmrəyliyin möhkəmləndirilməsi;

– Azərbaycan xalqının mədəni-tarixi irsinin və mənəvi dəyərlərinin qorunması, eləcə də ümumbəşəri dəyərlərlə zənginləşdirilməsi, dilinin, özünüdərk, vətənpərvərlik və milli iftixar hissinin, intellektual potensialının inkişaf etdirilməsi.



Müstəqil Azərbaycanın milli maraqlar kompleksinin formalaşmasını şərti olaraq **iki mərhələyə** bölmək olar: 1991-1993 və 1994-dən sonrakı illər.

**Birinci mərhələdə** ümumi prioritetlər məlum olsa da, ölkənin milli maraqlarının müəyyənləşdirilməsi, həmçinin onların təmin olunması istiqamətində demək olar ki, elə bir fundamental iş görülməmişdir. Bu sahənin müəyyən bir sistemə salınması, milli maraqları təmin edəcək milli təhlükəsizlik sisteminin formalaşmasına başlanması haqqında danışmaq belə tez idi. **Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi «sabitlik, təhlükəsizlik Azərbaycanda bütün məsələlərin həlli üçün başlıca şərtdir». Sabitlik təmin olunmayan hər hansı bir ölkədə milli maraqların təminatından danışmaq olmaz.**

**İkinci mərhələdə** artıq milli təhlükəsizlik sisteminin formalaşdırılması istiqamətində müvafiq əməli işlər görüldü, milli maraqların təmin olunması üçün daxili və xarici siyasət kursunda ciddi dönüş yaradıldı.

Ümummilli lider Heydər Əliyev çıxışlarının birində deyirdi: **«Güman edirəm ki, Azərbaycan Respublikası demokratik dövlət kimi bütün dövlətlərlə bərabərhüquqlu münasibətlər yaratmalıdır. Hansı dövlətin daxili quruluşu, daxili siyasəti hansı istiqamətdə getməsindən asılı olmayaraq, biz normal münasibətlər yaratmalıyıq. Birinci növbədə, bizim yaxın qonşularımızla lazımi mədəni, iqtisadi, dövlət münasibətləri yaradılmalıdır. Bu baxımdan Türkiyə Cümhuriyyəti ilə olan əlaqələr, şübhəsiz ki, respublikanın əhalisi tərəfindən bəyənilir. Qonşu İran İslam Respublikası ilə bizim münasibətlərimiz yaxınlaşdırılmalıdır, inkişaf etdirilməlidir. Rusiya çox böyük dövlətdir, bizim şimalda olan qonşumuzdur. Şübhəsiz ki, Rusiya ilə Azərbaycan arasında müstəqil prinsiplər əsasında münasibətlər bundan sonra daha da yaxşı, daha da geniş səmərəli olmalıdır. Keçmiş Sovetlər İttifaqına daxil olan, indi**

**müstəqil dövlət olan bütün dövlətlərlə – Ukrayna, Belorus, Gürcüstan, Orta Asiya dövlətləri, Qazaxıstan, Pribaltika dövlətləri, Moldova ilə biz daha geniş qarşılıqlı əlaqələr yaratmalıyıq. Bizim üçün bu çox lazımlıdır. Çünki bu dövlətlərlə bizim iqtisadi əlaqələrimiz, mədəni əlaqələrimiz, insani əlaqələrimiz uzun illər, yüzilliklərlə çox yaxın olub. Bunları qırmaq olmaz, əksinə, inkişaf etdirmək lazımdır. Şübhə etmirəm ki, məhz belə siyasət Azərbaycan Respublikasının müstəqil dövlət kimi formalaşmasına və inkişaf etməsinə kömək edəcəkdir.**

**Azərbaycan Respublikası artıq ümumi dünya miqyasına çıxıbdır. Azərbaycan Respublikasına ABŞ tərəfindən son zamanlar müsbət münasibətlər hamımızı sevindirir və güman edirəm ki, bu münasibətlər daha da genişlənib inkişaf etdirilməlidir. Bütün Avropa ölkələri ilə bizim əlaqələrimiz genişlənməlidir. Xüsusən İngiltərə, Fransa, Almaniya və başqa Avropa ölkələri ilə. Bütün müsəlman ölkələri ilə, ərəb ölkələri ilə, türkdilli ölkələrlə bizim əlaqələrimiz daha sürətlə inkişaf etməlidir».**

Milli maraqların qorunması dövlətin əsas vəzifəsi olsa da, onun mühafizəsini yalnız dövlətlə məhdudlaşdırmaq olmaz. Dövlətin milli maraqların təminatındakı rolunu və əhəmiyyətini azaltmadan qeyd edilməlidir ki, bu işin təminatında Azərbaycan Respublikasının hər bir vətəndaşı fasiləsiz və təmənnasız, həm də fəal iştirak etməlidir.

Azərbaycan Respublikasının milli maraqlarını **ictimai həyatın sahələri** üzrə aşağıdakı kimi qruplaşdırmaq olar:

– Siyasi sahədəki milli maraqlar dövlətin suverenliyinin, ərazi bütövlüyünün və konstitusiya quruluşunun qorunub saxlanılmasını, cəmiyyət həyatında ictimai-siyasi sabitliyin, həmrəyliyin, insanların hüquq və azadlıqlarının təmin olunmasını, həmçinin xaricdə yaşayan eyni soy-kökdən olan insanların təşkilatlandırılmasını, dünya miqyasında ölkənin nüfuzunun artırılmasını, ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişaf etdirilməsini əhatə edir;

– İqtisadi sahədəki milli maraqlar iqtisadi sabitliyin yaradılması və qorunub saxlanılması, ölkənin iqtisadi potensialının artırması, xarici investisiya axınının ölkəyə cəlb edilməsi, iqtisadiyyatın qanunvericilik bazasını möhkəmləndirilməsi, ölkənin ərazisində olan təbii sərvətləri qoruyub saxlanılması və ondan səmərəli şəkildə istifadə edilməsi və sairədir;

– Ölkənin hərbi sahədəki milli maraqları güclü ordunun yaradılmasını, lazımi şəkildə təmin edilməsini, ümumiyyətlə, ölkənin müdafiə qüdrətinin artırılmasını əhatə edir;

– İnformasiya sahəsindəki milli maraqlara ölkənin təhlükəsiz informasiya məkanının formalaşdırılması, inkişaf etdirilməsi və qorunması aiddir;

– Mədəni sahədəki milli maraqlar xalqın dili, dini, milli mənlik şüuru, milli yaddaşı, intellektual potensialı, milli-mənəvi dəyərləri və həyat tərzinin qorunmasını əhatə edir.

Bu müddəalardan da aydın görünür ki, Azərbaycanın milli maraqları digər dövlətlərin maraqlarına qarşı çevrilmir və onun heç bir qonşu dövlətə qarşı ərazi iddiası yoxdur. Burada ölkənin ərazisinin bölünməzliyi, sərhədlərinin toxunulmazlığı və milli iqtisadiyyatının inkişafı əsas strateji hədəf hesab olunur. **Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev çıxışlarının birində deyir: «Bizim siyasətimiz milli maraqlarımıza xidmət etməlidir. Biz heç bir başqa ölkənin daxili işlərinə qarışmırıq və belə niyyətimiz də yoxdur. Amma ona da imkan verə bilmərik ki, kimsə bizim daxili işimizə qarışsın, bizə göstəriş versin, təlimat versin, yaxud da təzyiq etməyə çalışsın. Biz buna heç vaxt imkan vermərik. Buna nail olmaq üçün bizim gücümüz olmalıdır.**

**Bizim gücümüz iqtidarla xalqın birliyindədir. Bizim gücümüz iqtisadi siyasətimizdədir. Bizim gücümüz müstəqilliyimizin əbədi olmasındadır. Azərbaycan xalqı öz taleyini özü müəyyən etməlidir və özü də müəyyən edir. Bütün bu müsbət meyillərin güclənməsində milli təhlükəsizlik orqanlarının çox mühüm rolu var və mən əminəm ki, gələcəkdə bu orqanlar daha da möhkəmlənəcək və qarşıda duran bütün vəzifələri həll etməyə qadir olacaqdır».**

Məlum həqiqətdir ki, dünya siyasətinə inteqrasiya olunmaq üçün ilk növbədə ölkədaxili sabitlik olmalı, dövlət müstəqilliyi möhkəmləndirilməli, cəmiyyətdə mövcud sosial, siyasi, mənəvi münasibətlər müasir və sivil dəyərlər hesabına səmərəli biçimdə yeniləşməlidir. Hazırda beynəlxalq münasibətlər sisteminin xarakteri daha üstün mövqeyə malik olmaq uğrunda dövlətlərarası rəqabətlə müəyyən edilir.

Azərbaycanın mövcud milli təhlükəsizlik strategiyasının əsas hədəflərindən biri ona qarşı düşmənçilik siyasəti yeridən Ermənistanın siyasi və hərbi təcavüzlərini, milli maraqlarına qarşı yönəldilmiş təhdidlərini zəiflədib neytrallaşdırmaqdan, münaqişəni beynəlxalq hüququn prinsiplərinə uyğun şəkildə həll etməkdən ibarətdir. Bunları reallaşdırmaq üçün aşağıdakı əsas prinsiplər nəzərə alınmalıdır:

– təcavüzkar qüvvələri zəiflətmək məqsədilə fəal xarici siyasətin aparılması;

– dünya birliyində fəal mövqe qazanmaq üçün geostrateji üstünlükdən istifadə edilməsi;

– ölkənin iqtisadi, siyasi və elmi potensialının inkişaf etdirilməsi;

– Azərbaycan dövlətinin və millətin müsbət beynəlxalq imicinin daha da inkişaf etdirilməsi;

– Azərbaycan əleyhinə aparılan qərəzli və çirkin informasiya siyasətinin qarşısının alınması və əsl həqiqətin dünya ictimaiyyətinə çatdırılması.



Azərbaycan Respublikasının milli maraqları ölkənin coğrafi və geosiyasi vəziyyətindən, iqtisadi, hərbi gücündən və mənəvi-ideoloji fəaliyyətindən irəli gəlir. Hazırda Azərbaycan Avrasiya bölgəsinin əsas tranzit ölkələrindən biri olaraq Şərq-Qərb əmtəə, enerji-yanacaq və başqa əlaqələrinin əsas mərkəzləri sırasında mühüm yer tutur. Bu mövqe getdikcə güclənir və Azərbaycan özünün tranzit imkanlarım daha da genişləndirir. Ən başlıcası isə dünyanın əsas regional inteqrasiya mərkəzləri, o cümlədən dünyanın güclü dövlətləri Azərbaycanın tranzit ölkə mövqelərinin güclənməsində maraqlı olmaqla yanaşı, hər zaman bu cür əlverişli məkanı öz nəzarəti altına almağa çalışır. Bu amil regionda mövcud olan milli dövlətlər, regionun və dünyanın aparıcı dövlətləri arasında tarazlaşdırılmış siyasət yeritməyi, kəsişən və üst-üstə düşən maraqları nəzərə almağı tələb edir. Əhəmiyyətli ərazi (məkan), geostrateji (təhlükəsizlik) və geoiqtisadi (karbohidrogen ehtiyatları və s.) üstünlüklərdən ölkənin milli maraqları çərçivəsində bəhrələnmək ölkənin milli təhlükəsizlik siyasətinin əsas vəzifələrindəndir.

Azərbaycanın milli maraqları onun vətəndaşlarının məqsədlərini birləşdirir, fəaliyyətlərini sistemləşdirir, cəmiyyətin fəaliyyətini pərakəndə deyil, ümumi maraqların – milli birlik, ərazi bütövlüyü, siyasi və mənəvi sərvətlərin, tarixi idrak yaddaşının mühafizəsi və sair məqamların təmininə yönəldir. Bütün bunlar gələcək inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi və dövlətçiliyə inamın güclənməsinə xidmət edir. Hər bir ölkə beynəlxalq siyasi şəraitin dəyişməsi ilə müxtəlif dövlətlərin geosiyasi maraqlarının toqquşduğu şəraitdə özünün milli maraqlarını qorumağı bacarmalıdır.

**Azərbaycan Respublikasının milli maraqları insanların (fərdlərin), qrupların, cəmiyyətin və dövlətin razılaşdırılmış sağlam düşüncə və maraqlarının məcmusudur.** Bu milli maraqlar öz-özünə yaranmır, hazır stereotip kimi təqdim olun-

mur, mücərrəd şəkildə mövcud deyildir, o dövlətin ərazisində (həm də xaricdə) yaşayan müxtəlif azərbaycanlı qrupların maraqlarının məcmusu kimi meydana çıxır. Ölkənin milli maraqlarının formalaşması həmçinin sosial inteqrasiyanın dərəcəsindən də asılıdır.

Azərbaycan Respublikasının milli maraqları sadəcə dövlətin yeritdiyi siyasətin məqsəd və prioritetləri sistemi deyil, o həmçinin vətəndaşların razılaşdırılmış maraq və rəylərinin məhsuludur. Cəmiyyətdə azlığın və çoxluğun maraqlarının razılaşdırılması siyasi prinsip kimi bir tərəfdən manipulyativ texnologiyaların həyata keçirilməsini çətinləşdirir, digər tərəfdən isə hakimiyyəti və bütün cəmiyyəti həmrəylik ehtiyatları ilə təmin edir. Azərbaycanın milli maraqları ayrı-ayrı etnik qurumların maraqlarını inkar etmir, onu da nəzərə alır. Bu məsələ Azərbaycanın Konstitusiyasında öz təsbitini tapmışdır. Dünyəvi, hüquqi və sivil dövlət kimi Azərbaycanın milli maraqları həm də dinindən, irqindən, cinsindən asılı olmayaraq bütün Azərbaycan vətəndaşlarının maraqlarıdır. Bu mənada Azərbaycan Respublikasının milli maraqları cəmiyyətin birliyi funksiyasını yerinə yetirir. Azərbaycan Respublikasının milli maraqları ölkə vətəndaşlarını milli, dini, ideya, sosial fərqlərindən asılı olmayaraq birləşdirmək gücünə malikdir. Azərbaycan Respublikasının milli maraqlarında əsaslı dəyişikliklər regionda və dünyada yeni strukturlaşma yaranan, köklü dəyişikliklər baş verən, həmçinin bu dəyişikliklər həmin cəmiyyətin də maraqlar sistemini özündə ehtiva edən zaman baş verə bilər. Milli maraqlardakı dəyişməzlik və sabitlik onun təhlükəsizliyinə yönəlmiş daxili və xarici təhdidləri də zəifldir. Əks təqdirdə o, dövlətin qeyri-sabitliyinin göstəricisi kimi meydana çıxaraq ona qarşı təhdidləri də artırır.



## 3. Beynəlxalq təhlükəsizliyin təmin olunması kontekstində milli maraqlar

Beynəlxalq münasibətlər sistemində dövlətlər aparıcı rol oynayır. Dövlət beynəlxalq münasibətlərin əsas subyektidir. Dövlətin və digər siyasi təşkilatların yaradıcısı millətdir. Bu mənada, milli xarakter, intellektual səviyyə, tarixi, siyasi təcrübə xarici siyasətdə mühüm əhəmiyyət kəsb edir. Millət daxili sosial təbəqələrin və peşə qruplarının vəhdətini yaradır. Buna görə də milli maraqlar dedikdə, insanın, cəmiyyətin və dövlətin maraqları nəzərdə tutulur. Dövlət siyasi təşkilati struktura malik olduğuna görə xarici siyasətə əsaslı təsir göstərə bilir. Beynəlxalq münasibətlər siyasi xarakter daşıyır və əsasən dövlətlərarası münasibətləri özündə ehtiva edir. Dövlətlərarası münasibətlərin təsiri nəticəsində iqtisadi, siyasi, hərbi əlaqələr yaranır. Xarici siyasət milli maraqlar əsasında beynəlxalq münasibətlərdə əlaqələndirici rol oynayır.

Hər bir ölkənin milli maraqları ilk növbədə, özünəməxsus ictimai-iqtisadi inkişafın tələbləri, eləcə də beynəlxalq münasibətlər sistemində heç də həmişə dövlətlərin ehtiyacları ilə uyğunlaşmayan vəziyyət ilə müəyyən olunur. Bununla əlaqədar, ayrı-ayrı ölkələrin milli maraqlarının qarşılıqlı əlaqələrinin xarakterindən asılı olaraq beynəlxalq əlaqələr sistemində müxtəlif subyektlərin milli maraqlarının aşağıdakı növlərini müəyyənləşdirmək mümkündür:

– **paralel maraqlar** – bu halda bir dövlətin xarici siyasət maraqlarının həyata keçirilməsi digər ölkənin maraqları ilə uyğun gəlir;

– **müştərək (ümumi) maraqlar** – bunların həyata keçirilməsi iki və ya artıq sayda dövlətlərin əlaqələndirilmiş kollektiv hərəkətləri əsasında mümkündür;

– **toqquşan maraqlar** – digər ölkələrin maraqlarını məhdudlaşdırmadan onların həyata keçirilməsi mümkün deyildir.

Müxtəlif dövlətlərin tələblərinin eyni dərəcədə nəzərə alınmasına imkan yaradan (paralel və ya müştərək maraqlar əsasında) müəyyən maraqların nisbətinin əldə edilməsi, qarşı duran tərəflərin razılığa gəlməsinə şərait yaradan əsas vasitədir. Maraqlar nisbəti ticarət sazişləri ilə yaradılmış ittifaqlar əsasında formalaşmış, eləcə də xalqlar arasında dostluq münasibətlərinin qurulması, sabit beynəlxalq əlaqələr sisteminin formalaşmasını təmin edən siyasi, diplomatik, iqtisadi və mədəni əlaqələrin inkişafına köməklik göstərir.

Bununla yanaşı, maraqlar nisbəti bir qayda olaraq məhdudlaşdırılmış məkan və zaman çərçivəsində olur. Maraqlar nisbətinin pozulması dövlətlərarası münasibətlərin digər səviyyəyə keçməsinə səbəb olur. Nəticədə sazişlər, ölkələr və xalqlar arasındakı əlaqələr ləğv olunur, beynəlxalq münasibətlərdə soyuqluq yaranır.

Maraqların təmin olunması meyli dövlətləri dağıdıcı müharibələrə sövq edir. Nəticədə hər bir tərəf rəqibin hərbi, iqtisadi və insan ehtiyatlarına maksimal zərbə endirməklə, onun cavab hərəkətlərini azaltmağa çalışır.

Beləliklə, qədim zamanlardan güc beynəlxalq əlaqələrdə daima hərəkətdə olan amil kimi həmin ideologiyanın tərəfdarları olan tədqiqatçıların da əsərlərində öz əksini tapmışdır. Həmin tədqiqatların əsasını beynəlxalq səhnədə müxtəlif dövlətlərin milli maraqlarının uyğunlaşmaması nəticəsində yaranan bu və ya digər dərəcəli beynəlxalq münaqişələrin həll olunması, həmçinin xarici siyasətin nəticələrinə ölkə imkanlarının həlledici təsiri fərziyyəsi təşkil etmişdir. Həmin fərziyyədə milli imkanlar silahlı qüvvələr, əhali və texnologiyaların səviyyəsi, coğrafi amillər, təbii sərvətlər,



dövlət idarəetməsi və ideologiya növlərinin xarakteristikalarının geniş spektri üzrə qiymətləndirilir.

Universal konsepsiyasının işləyib hazırlanmasına edilən cəhdlər zamanı gücün (insan ehtiyatları, ordu, geosiyasi vəziyyət və s.) kəmiyyət ölçüsünü tapmaq çox çətindir. Beynəlxalq əlaqələrin təcrübəsi əsaslı surətdə təsdiq etmişdir ki, güc hər hansı ictimai təzahür kimi kəmiyyətcə lazımi qədər hesablana bilməz. Lakin güc təsirinin xüsusiyyətlərinin müəyyən olunması üçün çox zaman kifayət olan kəmiyyət xarakteristikaları verilir.

Bu məqsədlə sistemli yanaşmanın tətbiqi əvəzolunmazdır. Beynəlxalq əlaqələrin təhlilinə sistemli yanaşma dövlətlər arasında əlaqələrin mahiyyəti və xarakterinin, habelə nəticədə hazırkı sistemin daxilində dövlətlərin fəaliyyətinin qanunauyğunluqlarının müəyyən olunması üçün imkanlar yaratmışdır.

Özünü qoruma və inkişafa meyil göstərmiş beynəlxalq əlaqələr sisteminə daxil olarkən, müstəqil dövlət beynəlxalq əlaqələr sisteminin obyektiv vəziyyəti və daxilində qurulmuş struktur əlaqələrinin xarakterinə uyğun olaraq öz maraqları və məqsədlərini müəyyən etməyə məcburdur. Buna görə də, beynəlxalq əlaqələr sistemi dövlətin xarici siyasətinə, onun konkret formalarına (bunlar beynəlxalq əlaqələr sisteminin inkişafının hər bir konkret tarixi dövründə yaranmış obyektiv şərtlərə uyğun olmalıdır) müəyyən təsir göstərir. Beləliklə, dövlətin xarici siyasəti siyasi hakimiyyət tərəfindən milli maraqlar qismində təqdim edilmiş tələblərlə yanaşı, həmçinin beynəlxalq əlaqələr sisteminin vəziyyətinin törəməsidir.

Sistemin özünü müdafiəsi onun tərkibində olan elementlərin-dövlətlərin müxtəlif, bəzən ziddiyyətli meyilləri arasında dinamik tarazlığın saxlanılması yolu ilə təmin olunur. Dövlətlər arasında müəyyən tarazlığın saxlanılması bütün əlaqələr sisteminin normal fəaliyyətinin əsas şərtidir.

Daxilində ayrı-ayrı struktur elementlərinin hərəkətlərini əlaqələndirmə və istiqamətləndirmə üçün imkan yaradan hər hansı vahid idarəetmə orqanın olmaması səbəbindən dövlətlərarası əlaqələr sistemi təbii yolla tənzimlənən mexanizmə malik olan sistemlərə aid edilmişdir. Buna görə də, beynəlxalq əlaqələr sistemində tarazlıq vəziyyəti müxtəlif maraqların və onları müşayiət edən dövlətlərin müxtəlif hərəkətlərinin beynəlxalq səhnədə toqquşması yolu ilə əldə edilir.

Öz milli maraqlarını maksimal dərəcədə həyata keçirməyə cəhd göstərərkən, dövlət beynəlxalq əlaqələr sisteminə və ya ona daxil olan ayrı-ayrı strukturlarına dövlətin ümumi qüdrəti təsiri gücləndirir. Bu təsirin dərəcəsi və gərginliyi, bir tərəfdən, ölkənin daxili tələbləri, digər tərəfdən isə, beynəlxalq əlaqələr sisteminin obyektiv vəziyyəti ilə tənzimlənir. Beləliklə, dövlət ilə beynəlxalq əlaqələr sistemi və ya onun elementləri arasında olan qarşılıqlı əlaqələr haqqında söhbət açarkən, beynəlxalq əlaqələr sistemi və ya onun ayrı-ayrı elementlərinə ümumi qüdrətin təsirinin dərəcəsi və gərginliyində ifadə olunmuş dövlətin xarici siyasət gücündən danışmaq lazımdır.

Bununla belə, beynəlxalq əlaqələrdə dövlətin gücü ümumi qüdrətin səviyyəsindən bilavasitə asılı olsa da, ona bərabər deyildir. Hazırkı halda əlaqə genetikdir – əmələ gəlməsi üzrə xarici siyasət gücü onun imkanlarını müəyyən edən dövlətin ümumi qüdrətindən çıxış edir. Eyni zamanda funksional nöqteyi-nəzərdən dövlətin xarici siyasət gücü beynəlxalq əlaqələr sistemində iqtisadi, siyasi, hərbi və digər məsələlərin həllinə yönəlirsə, dövlətin ümumi qüdrəti, axırıncılarla yanaşı, ölkənin daxili siyasət inkişafı və fəaliyyətini təmin edir.

Beynəlxalq əlaqələr sisteminin xüsusiyyəti ondan ibarətdir ki, o dövlətlər arasında əlaqələrin təmin olunmasından başqa, onların xarici siyasət fəaliyyətinin obyekti qismində də çıxış edir.



Beynəlxalq aləmdə öz spesifik maraqlarını rəhbər tutan hər bir dövlət subyekt güc daşıyıcısı kimi çıxış edərək burada müəyyən təsir göstərir.

Beynəlxalq əlaqələr sisteminin dinamik tarazlığı iki ziddiyyətli məqama – bir tərəfdən, onun ayrı-ayrı elementlərinin, yəni milli maraqlarının təkamülünü və xarici siyasət fəaliyyətinin xarakterini müəyyən edən fasiləsiz iqtisadi, siyasi, ictimai və mədəni inkişafı prosesində olan dövlətlərin dəyişkənliyinə, digər tərəfdən isə dövlətlər arasında əlaqələrin, yəni dövlətlərarası münasibətlər sisteminin nisbi sabitliyinə əsaslanır.

Dövlətlər arasında əlaqələr sistemi güc tarazlığının pozulması vasitəsi ilə əldə edilən inkişafa meyillidir. Beynəlxalq əlaqələr sistemi ictimai sistem olduğuna görə ictimai inkişaf qanunlarına əsaslanır.

Dövlətlərarası əlaqələr sistemində daima **iki meylin** toqquşması baş verir: **siyasi sabitlik (güc nisbəti) meyli və siyasi sabitliyin (güc nisbətinin) pozulması meyli.** Siyasi sabitliyin saxlanılması – dövlətlərarası əlaqələr sisteminin hazırkı keyfiyyət vəziyyətində, yaranmış güc nisbətinin səviyyəsində saxlanılmasıdır. Siyasi sabitliyin pozulması – dövlətlərarası əlaqələr sisteminin nisbətinin pozulmasına, müharibələr vasitəsi ilə dünyanın yenidən bölüşdürülməsi və güc nisbətinin keyfiyyətcə yeni səviyyəsində sabitliyin bərpasına atılan addımdır.

Dövlətlər arasında qarşılıqlı əlaqələrin əsasını təşkil edən güc nisbətinin təhlili belə nəticəyə gətirir ki, güc tarazlığı siyasi sabitliyin gücləndirilməsinə, müharibələrin qarşısının alınmasına deyil, əksinə sürətli silahlanma, əhalinin yoxsullaşması, dövlət quruluşunun demokratik prinsiplərinin ləğv olunması, dövlətlər arasında permanent («soyuq müharibə») vasitəsi ilə sabitliyin pozulmasına təkan verir.

Nüvə əsrində güc nisbətinə ümid bəsləmək, yalnız ümumi məhvə səbəb ola bilər. Buna görə də, həyat təhlükəsizlik probleminə tamamilə yeni yanaşmanı tələb edir.

Nüvə əsrində bəşəriyyətin sağ qalma problemi ilə əlaqədar narahat olan alim və siyasətçilərin birgə axtarışları "Yeni siyasi təfəkkür" kimi tanınan müxtəlif dövlətlərin «mənafelərin nisbəti» konsepsiyasının formalaşmasına gətirib çıxarmışdır.

1980-90-cı illər ərəfəsində yeni siyasi təfəkkür ideyalarının uğur qazanması heç də təsadüfi hal deyildir. Əsasına qoyulmuş dünyanın qarşılıqlı əlaqəliliyi, bütövlüyü konsepsiyası XX əsrin sonunda yaranmış ictimai-siyasi reallığı nəzəri baxımdan tamamilə düzgün əks etmişdir.

Yeni siyasi təfəkkür – ilk növbədə, dövlətlər və millətlər arasında qarşılıqlı asılılığın, qarşılıqlı əlaqənin gücləndirilməsində özünü büruzə verən dünyanın iqtisadi, ictimai-siyasi və mədəni bütövlüyünün təşəkkülü prosesinin nəzəri cəhətdən dərk olunmasının nəticəsi hesab edilir. Beləliklə, yeni siyasi təfəkkür nüvə əsrində bəşəriyyətin sağ qalmasının təmin olunması üsullarına siyasətçilər və ideoloqların elmi cəhətdən əsaslandırılmış rəylər sistemi kimi təqdim olunmuşdur.

Dünya birliyini fəlakətə aparan nüvə müharibəsindən, ekoloji böhranların ağlasığmaz fəsadlarından söhbət açarkən, biz dünyanın bütövlüyünün formalaşması prosesinin səbəbindən yox, onun nəticəsindən danışırıq. Dünya sosiumunun formalaşması səbəbləri daha dərində – insanın yaranmasının, maddi və mənəvi istehsalın, bütün bəşəriyyətin tarixi taleyinin ümumiliyindən irəli gəlmişdir.

Müasir dünyanın bütövlüyü təkcə qlobal ekoloji problemlərin mövcudluğunda, dövlətlərarası əlaqələrin tamamlanmış sisteminin formalaşmasında və iqtisadiyyatın qloballaşmasında özünü büruzə vermir. Bütövlük müxtəlif dövlətlərin qarşısında duran mədəni, mənəvi problemlərin ümumiliyində də özünü göstərir. Mənəviyyatın, əxlaqın, ümumbəşəri mədəniyyətin qorunması məsələsi dövlət sərhədləri çərçivəsindən çox genişdir.



Dünyanın qarşılıqlı asılılığı, bütövlüyü ondan ibarətdir ki, mədəni böhran, qloballaşma problemləri hər hansı ölkə, ölkələr qrupu və hətta, ayrılıqda götürülmüş ictimai-iqtisadi formasiya çərçivələrində həll oluna bilməz. Nə vaxtilə mövcud olan sosializm, nə də bütün onun modifikasiyalarında kapitalizm dünyanın təcrid olmuş hissələri heç vaxt olmadıqlarına görə, birgə yaşama və birgə səylərlə qarşıda duran problemləri həll etməyə məcbur idilər.

**Dövlətlərarası əlaqələr nöqteyi-nəzərindən maraqlar nisbəti – maraqlarına digər ölkələrin maraqlarını tabe etmək deyil, maraqları dairəsinə onları daxil etməkdir.** Başqa sözlə, maraqlar nisbətinin saxlanılması həm müxtəlif dövlətlər, ictimai-siyasi sistemlər, həm də bu dövlətləri təşkil edən müxtəlif ictimai təbəqələr və qrupların müştərək tələblərinin əsasında mümkündür.

Milli, sinfi, dini və hər hansı digər bir ideologiyadan üstün duran nüvə müharibəsinin, ümumdünya ekoloji fəlakətinin qarşısının alınması, şübhəsiz ki, hər bir insanın və ümumiyyətlə, bütün bəşəriyyətin tələbləri olaraq müxtəlif dövlətlərin maraqlarında öz əksini tapmışdır.

Bütün ölkələr və millətlərə məxsus tələblərdən biri mədəni səviyyənin əldə edilməsi və təkmilləşdirilməsi, əxlaq və mənəviyyat kimi ümumbəşəri prinsiplərin geniş yayılması vasitəsi ilə insanın Homosapiens nəslinin nümayəndəsi kimi ardıcıl inkişaf etdirilməsidir. Hətta müxtəlif mədəni modellərin mövcudluğu şəraitində, dünya mədəniyyəti prosesinin ümumiliyi müasir dünyada maraqlar nisbətinin axtarışı üçün obyektiv əsas kimi çıxış edir. Bu maraqlar nisbətindən kənar hər hansı bir millətin və ya ümumiyyətlə, bəşəriyyətin mədəni tərəqqisi haqqında söhbət açmaq qeyri-müm-

kündür. Mədəniyyətin inkişafı maddi istehsalın, elm və texnikanın tərəqqisindən kənar mümkünsüzdür.

Ümumdünya təsərrüfatının, beynəlmiləlləşdirilmiş iqtisadiyyatın mövcudluğu müasir dövlətlərin maraqlar nisbətinin formalaşması üçün obyektiv əsas kimi çıxış edir. İstehsal və bazar inkişafının xüsusiyyəti ondadır ki, bu gün dünyanın heç bir ölkəsi, hətta ən zəngini və güclüsü, qarşısında duran bütün problemləri təkbaşına həll etmək iqtidarında deyildir.

Bununla belə, maraqlar nisbətinin əsasında dövlətlərarası maraqlar sisteminin formalaşması üçün mahiyyəti olan obyektiv səbəblərin mövcudluğuna baxmayaraq, ziddiyyətlər dünyanı dağıtmaqda, müharibələr davam etməkdə, əsas məsələlərin çoxu isə həll olunmamış qalmaqdadır.

Hazırkı vəziyyətin səbəbləri ondadır ki, qlobal sosiumun mürəkkəb və ziddiyyətli formalaşması prosesi hələ yaranma mərhələsindədir. İqtisadi, ictimai, siyasi və mədəni inkişafları eyni səviyyədə olmadığı üçün, tarixi inkişafın məntiqi ilə tələb olunmuş yenidən yaranmış tələblərin dərk olunmasına dövlətlərin hamısı hazır deyildir.



# III FƏSİL

## Milli təhlükəsizliyə təhdidlər

1. **Milli təhlükəsizliyə təhdidlər, onların mahiyyəti və təsnifatı**
2. **Azərbaycan Respublikasının milli təhlükəsizliyinə təhdidlər**
3. **Terrorçuluq milli təhlükəsizliyə təhdid kimi**
4. **Narkomaniya milli təhlükəsizliyə təhdid kimi**

## 1. Milli təhlükəsizliyə təhdidlər, onların mahiyyəti və təsnifatı

Təhdid – konkret təzahür forması və təsir üsulu ilə xarakterizə olunan, vətəndaşların, cəmiyyətin və dövlətin maraqlarına təhlükə yaradan şərait, proses və amillərin məcmusudur. Milli təhlükəsizliyə olan təhdidlər **müxtəlif sahələri (siyasi, iqtisadi, sosial, hərbi və s.)** əhatə edir.

**Siyasi sahədəki təhdidlərə** ilk növbədə dövlətin suverenliyi və ərazi bütövlüyü əleyhinə qəsdlər daxildir. Ölkədə milli-etnik və dini münasibətlərin kəskinləşməsi, ictimai-siyasi sabitliyin pozulması, dövlət əleyhinə silahlı qiyamların baş verməsi, çevriliş cəhdləri, terrorçuluğun genişlənməsi, süni münaqişələrin yaradılması, dövlət idarəetmə aparatının fəaliyyətsizliyi, həmçinin xarici xüsusi xidmət orqanlarının ölkə ərazisində kəşfiyyat, təxribat pozuculuq fəaliyyəti və s. kimi təhdidlər də siyasi təhdidlərə aiddir.

**İqtisadi təhdidlər** dedikdə, hər hansı bir ölkənin digər xarici dövlətlərdən iqtisadi asılılığı, ümumiyyətlə, iqtisadi potensialın tükənməsi, iqtisadi əlaqələrin pozulması, maliyyə sahəsində kütləvi qanunsuzluqlar, maddi sərvətlərdən məqsədyönlü istifadə olunmaması başa düşülür.

**Sosial sahədəki təhdidlərə** kütləvi işsizlik və yoxsulluq, sosial təbəqələşmədə tarazlığın pozulması, demoqrafik artımın ölkə üçün mənfi sayılan inkişafı, müəyyən xəstəliklərin kütləviləşməsi və s. daxildir.

Hərbi gücün zəiflədilməsinə yönəlmiş qəsdlər, daxili və xarici hərbi münaqişələr, regionda qüvvələr nisbətinin pozulması (məsələn, Cənubi Qafqazda Ermənistan kimi təcavüzkar dövlətin qanunsuz silahlandırılması), qonşu ölkələrdə arzuolunmaz hesab edilən sabitsizliyin olması, hərbi manevrlərin keçirilməsi, kütləvi qırğın silahlarından istifadənin mümkünlüyü **hərbi təhdidlər** hesab olunur.



Ölkənin informasiya blokadasına alınmasına cəhd, dövlət sirlərinin öyrənilməsinə yönəlmiş fəaliyyət, efir məkanının pozulması, ölkə haqqında yalan məlumatları (dezinformasiyaları) dünya ictimaiyyətinə çatdırmaqla onun imicinə zərər vurulması və s. **informasiya sahəsindəki əsas təhdidlər** sayılır.

**Ekoloji təhdidlər** dedikdə, ölkə ərazisində yaşıllıqların, meşələrin kütləvi surətdə məhv edilməsi, su hövzələrinin, atmosferin, torpağın və s. çox geniş surətdə çirklənməsi başa düşülür. Başqa təhdidlərlə müqayisədə ekoloji təhdid daha qlobal xarakterə malikdir. Belə ki, ekoloji təhdidlər konkret bir məkanda (hər hansı bir dövlətin ərazisində) baş versə də onun törətdiyi fəsad yalnız həmin məkanla məhdudlaşmır və qlobal ekoloji təhlükəsizlik üçün təhlükə mənbəyinə çevrilir.

**Mənəvi sahədəki təhdidlər** dedikdə, xalqın dilinə, dininə, milli-mənəvi dəyərlərinə, adət-ənənələrinə, intellektual potensialına qarşı təcavüz nəzərdə tutulur. Mənəvi təhdidlərin hədəfi əsasən milli yaddaş, genetik kod və şəcərə olur.

Milli təhlükəsizliyə təhdidlərin tədqiq olunması obyektin (obyektlərin) ilkin, qabaqcadan identifikasiyasından irəli gəlir. Başqa sözlə, yalnız təhdid nə deməkdir sualına cavab vermək azdır, eyni zamanda konkret olaraq o nəyə yönələ bilər sualına da cavab axtarmaq lazımdır.

Əvvəlki dövrlərdə təhdidləri yalnız hərbi çərçivə ilə məhdudlaşdırırdılar. Lakin təhlükəsizliyin təmin olunması xarici hərbi təhdidlərdən qorunma məsələsindən daha genişdir. Qeyri-hərbi problemlər, məsələn, iqtisadi təhlükəsizlik, enerji təhlükəsizliyi və ekoloji təhlükəsizlik də milli təhlükəsizliyin anlayışına daxildir. Onu da qeyd etmək lazımdır ki, qeyri-hərbi təhdidlər də milli təhlükəsizlik obyektləri üçün ciddi təhlükədir.

## 2. Azərbaycan Respublikasının milli təhlükəsizliyinə təhdidlər

Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin edilməsində əsas vəzifə onun milli təhlükəsizliyinə təhdidlərin aradan qaldırılması və ya nəzarətdə saxlanılmasıdır. **«Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası»nda milli təhlükəsizliyə təhdidlər aşağıdakı kimi ifadə olunmuşdur:**

- Azərbaycan Respublikasının müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və konstitusiya quruluşu əleyhinə qəsdlər;
- qanunun aliliyinə nail olunması, ictimai asayişin qorunması və insan hüquq və əsas azadlıqlarının müdafiəsi sahəsində dövlət funksiyalarını yerinə yetirməyə qarşı fəaliyyət;
- separatçılıq, etnik, siyasi və dini ekstremizm. Separatçılıq, etnik, siyasi və dini ekstremizm özünün istənilən formasında dövlətin və cəmiyyətin fundamental əsaslarını sarsıtmaqla, ölkənin milli təhlükəsizliyinə ciddi təhlükə mənbəyidir;
- terrorçuluq və kütləvi qırğın silahlarının yayılması;
- Azərbaycan Respublikasının enerji infrastrukturuna qarşı fəaliyyət;
- xarici siyasi, hərbi və ya iqtisadi asılılıq;
- iqtisadi sabitsizlik;
- peşəkar insan ehtiyatlarının çatışmazlığı;
- regional hərbiləşdirmə;
- ekoloji problemlər.

Bu gün milli və beynəlxalq səviyyədə mövcud olan təhdidlər əsasən beynəlxalq terrorçu təşkilatlardan, transmilli cinayətkar birləşmələrdən, habelə geostrateji maraqları toqquşan, enerji daşıyıcıları və kommunikasiya xətlərinə nəzarət üstündə rəqabət aparan bəzi qüvvələrdən gəlir. Regionda Şərqlə Qərbi qovuşduran geostrateji tranzit xətlərinin, beynəlxalq enerji layihələrinin əsas təminatçısına çevrilən



Azərbaycan üçün bu təhdidlər ikiqat ağırlığı ilə səciyyəvidir. Şübhəsiz, Azərbaycanın neft strategiyasının uğurla həyata keçirilməsi və iqtisadiyyatın davamlı inkişafı regionda sabitliyin pozulmasına çalışan bir sıra pozucu qüvvələri, hətta bəzi dövlətləri, xüsusilə də Ermənistanı daim narahat edir. Onlar müxtəlif üsul və vasitələrlə Azərbaycan dövlətinin xalqın maddi rifah halının yüksəlişinə, ölkənin qüdrətlənməsinə xidmət edən səmərəli iqtisadi layihələrin gerçəkləşməsi istiqamətindəki siyasətini əngəlləməyə, regiondakı və dünyadakı nüfuzuna xələl gətirməyə cəhd göstərirlər. Bu cəhdlər, ilk növbədə, Azərbaycan Respublikasına qarşı hərbi güc nümayişi, onun ərazi bütövlüyünün bərpasına maneçilik törədilməsi, yeni separatçılıq meyllərinin qızışdırılması, eləcə də terrorçu və transmilli mütəşəkkil qrupların ölkəmizə, xüsusilə də, strateji obyekt və sahələrə istiqamətləndirilməsində özünü biruzə verir.

Müxtəlif ölkələrin ərazisində təşkilatlanmış cinayətkar qruplar öz maraqları naminə demokratiya və inteqrasiya proseslərinin yaratdığı imkanlardan sui-istifadə etməklə külli miqdarda gəlir, müxtəlif maddi sərvətlər əldə etməyə çalışır. Transmilli cinayətkar şəbəkələr demokratik proseslərdən, insan hüquq və azadlıqlarından, xüsusilə də sərhədlərin şəffaflığından, eləcə də ölkələrarası iqtisadi əlaqələrdən məharətlə istifadə etməyə can atırlar.

Bu qrupların cinayətkar əməlləri bütün bəşəriyyət, o cümlədən Azərbaycan Respublikası üçün ciddi təhdidlər yaradır. Ən gəlirli cinayətkar sahələri əhatə edən bu cinayətkar fəaliyyət bir tərəfdən minlərlə insanın həyatı üçün təhlükə doğurur, digər tərəfdən daha ağır cinayətlərin törədilməsinə, o cümlədən terrorçu qrupların maliyyələşdirilməsinə xidmət edir. Eyni zamanda, belə hüquqazidd əməllər dövlətlərarası münasibətlərin pozulması, müxtəlif sahələrdə ölkələr və təşkilatlararası əməkdaşlığın zəifləməsi kimi mənfi meyillərə gətirib çıxara bilər.

Azərbaycan Respublikasında milli təhlükəsizliyə təhdidlərin mürəkkəbliyi ölkəmizin **aşağıdakı xüsusiyyətləri** ilə bağlıdır:

- Azərbaycanın mühüm geostrateji mövqeyi;
- Azərbaycanda təhdidlərə həssas bütün nəqliyyat infrastrukturlarının (avtomobil, dəmir yolu, hava və dəniz) mövcudluğu;
- ölkə ərazisinin 20 faizinin Ermənistan dövləti tərəfindən işğalı nəticəsində yaranmış nəzarətdən kənar ərazilərin olması;
- dini müxtəliflik;
- polietniklik.

Azərbaycanda həyata keçirilən siyasi kursa uyğun olaraq milli maraqların təmin edilməsi, insanın, cəmiyyətin və dövlətin cinayətkar qəsdlərdən qorunması, habelə müasir dövrdə meydana çıxmış təhdidlərin qarşısının alınması məqsədilə milli təhlükəsizlik oqranları bütün qüvvə və imkanlarını səfərbər edərək məqsədyönlü fəaliyyət həyata keçirir. Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri, general-polkovnik Eldar Mahmudovun dediyi kimi: **«Ölkəmizdə həyata keçirilən milli təhlükəsizlik siyasətinin əsas daşıyıcılarından və aparıcı qüvvəsi olan Milli Təhlükəsizlik Nazirliyinin başlıca vəzifələri milli maraqların etibarlı qorunması, təhlükəsizliyin hərtərəfli təmin edilməsi, ölkə həyatının bütün sahələrində, o cümlədən iqtisadiyyatda dinamik inkişafa nail olunmasına, ümumən sosial-iqtisadi və xarici siyasətin uğurla həyata keçirilməsinə əlverişli şərait yaratmaqdır».**

Ölkənin milli təhlükəsizliyini etibarlı təmin etmədən davamlı iqtisadi inkişaf və tərəqqiyə nail olmaq, qlobal enerji və kommunikasiya layihələrini gerçəkləşdirmək mümkün deyildir. Azərbaycanın iqtisadiyyatı hazırda sabit və davamlı inkişaf yolundadır və bu baxımdan iqtisadi təhlükəsizliyimizə yönələn təhdidlər də artmışdır. Lakin bu təhdidlər güc strukturları tərəfindən mütəmadi olaraq izlənilməli, onların mənbələri, mövcud və perspektiv hədəfləri, eləcə də bu təhdidlərin qarşısının alınması üzrə əsas fəaliyyət istiqamətləri müəyyənləşdirilməlidir.



Müasir dövrdə **enerji təhlükəsizliyi** məsələsi dünya dövlətləri üçün daha prinsipial məsələ kimi önə çıxmışdır. Xaricdən enerji asılılığının minimal həddə endirilməsi məsələsi hazırda ayrı-ayrı dövlətlərin yalnız milli təhlükəsizliyinin deyil, həm də müstəqil siyasət yeritməsinin vacib şərtinə çevrilmişdir. Bakı-Tbilisi-Ceyhan neft kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəməri dünya əhəmiyyətli strateji layihələr olmaqla nəinki Azərbaycan Respublikasının, o cümlədən bütövlükdə Avropanın iqtisadi və enerji təhlükəsizliyinə mühüm töhfədir. Qeyd edilən tranzit vasitələrinə yaxın gələcəkdə Orta Asiya dövlətlərinin də inteqrasiyası Azərbaycanın Qərbin enerji təminatı və təhlükəsizliyində rolunun daha da artmasına təsir etmişdir.

Yanacaq-energetika kompleksində yaradılması nəzərdə tutulan və fəaliyyət göstərən infrastrukturların təhlükəsizliyinin təmini, eləcə də xarici xüsusi xidmət orqanlarının mümkün nüfuzetmə cəhdlərinin, terror-təxribat və kəşfiyyat-pozuculuq niyyətlərinin, həssas nöqtələrin və risklərin müəyyənləşdirilməsi, sistemləşdirilməsi, əməliyyat şəraitinin perspektiv inkişafı və onun proqnozlaşdırılması, qabaqlayıcı tədbirlərin həyata keçirilməsi mühüm əhəmiyyət təşkil edən məsələlərdəndir.

**Narkotiklərin qanunsuz dövriyyəsi** hazırda bütün bəşəriyyəti narahat edən transmilli mütəşəkkil cinayətkarlığın əsas növlərindən biridir. Ən gəlirli kriminal sahələrdən olan narkobiznesdən əldə olunan qanunsuz gəlirlərin terrorçuluğun maliyyələşdirilməsinə yönəldilməsi onun təhlükəlilik dərəcəsini daha da artırır. Azərbaycan Respublikası üçün bu təhdid əsasən işğal altında olan ərazilərdəki tranzit daşımaların mövcudluğundan irəli gəlir. Ermənistan tərəfindən işğal olunmuş Dağlıq Qarabağ və ətraf ərazilərdə – milli və beynəlxalq yurisdiksiyadan kənar «boz zonalar»da narkotiklərin becərilməsi,

emalı və daşınması, habelə bunun qarşısınm alınması məqsədilə beynəlxalq aləmin səylərinin artırmasının zəruriliyi barədə Azərbaycan Respublikasınm aidiyyəti dövlət qurumları tərəfindən dəfələrlə bəyanatlar səsləndirilmişdir.

**Milli təhlükəsizliyin təmin olunmasında qeyri-leqal miqrasiya ilə əlaqəli cinayətlərin aşkarlanması və qarşısının alınması da mühüm yer tutur.** Bu növ cinayətlərin qurbanlarının terrorçuların təsiri altına düşmələri və alətə çevrilməsi istisna deyildir. Digər tərəfdən, asılılıq baxımından qeyri-leqal mühacirlərdən insan alveri, qanunsuz silah-sursat ticarəti və narkobiznesdə istifadə olunması faktları da mövcuddur. Ermənistan tərəfindən götürülmüş əsir və girovların bədən üzvlərinin satılması deyilənlərə sübutdur.

Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunmasında miqrasiya proseslərinin ölkənin milli təhlükəsizliyinə doğura biləcəyi təhdidlərin operativ öyrənilməsi və qiymətləndirilməsi, bu yönümdə işin səmərəli təşkili istiqamətində müxtəlif dövlət orqanları ilə fəaliyyətlərin düzgün əlaqələndirilməsi üzrə mütəmadi olaraq konkret və zəruri tədbirləri mühüm əhəmiyyət kəsb edir.

**Hazırda beynəlxalq təhlükəsizliyə təhdidlər arasında qanunsuz silah-sursat ticarəti xüsusi yer tutur.** Dünyada belə cinayət əməllərindən əldə olunan qanunsuz gəlirlərin miqdarı milyardlarla dolları aşır. Digər tərəfdən, dünyanın bir sıra regionlarında çirkin ideyalarını reallaşdırmağa çalışan separatçı-ekstremist rejimlər, beynəlxalq terrorçu təşkilatlar məhz qanunsuz silah ticarəti sahəsində «ixtisaslaşmış» transmilli mütəşəkkil cinayətkar qrupların «xidmətlərindən» yararlanırlar. Nəticədə isə ayrı-ayrı ölkələrin özünümüdafiə məqsədi ilə istehsal etdikləri müasir silah və texnologiyalar cinayətkar birliklərin əlinə keçir. Xüsusən də ekstremist-terrorçu dairələrin kütləvi qırğın silahları əldə etməsi nəticəsində hansı mənfi proseslərin baş verəcəyini təsəvvür etmək mümkündür. Qeyd edilən faktlar ölkəmiz



tərəfindən də bu sahədə müvafiq tədbirlər kompleksinin həyata keçirilməsini zəruri etmişdir.

**Xalqımızın genofondu və milli-mənəvi dəyərlərimiz üçün real təhlükə doğuran təhdidlərdən biri də, insan ticarəti ilə əlaqəli əməllərdir.** İnsan alveri xalqın milli mentaliteti, çoxəsrlik adət-ənənələri ilə bir araya sığmayan təzahürdür. İnsan alveri, yəni şəxsin alqı-satqısı və ya ona sahibliklə əlaqədar digər əqdlərin bağlanması, yaxud onun istismar edilməsi məqsədilə Azərbaycan Respublikasının dövlət sərhədindən keçirilməsi və ya eyni məqsədlə digər şəxslərə verilməsi üçün cəlb edilməsi, əldə olunması, saxlanılması, gizlədilməsi, daşınması deməkdir. Ermənistanın Azərbaycan Respublikasına təcavüzü nəticəsində əsir düşmüş və girov götürülmüş Azərbaycan vətəndaşlarının beynəlxalq humanitar təşkilatlardan gizlədilərək işğal olunmuş ərazilərdə saxlanılması və onlara qarşı amansız cəza metodlarının tətbiq edilməsi, bu şəxslərin qeyri-insani məqsədlər üçün istifadə edilmələri danılmazdır. Azərbaycana qarşı təcavüzün nəticələrindən yararlanmağa çalışan Ermənistanın rəsmi orqanları əsir və girov götürülmüş, itkin düşmüş azərbaycanlıları gəlir məqsədilə alver predmetinə çevirərək müxtəlif cinayətkar qruplaşmalarla işbirliyi qururlar. Bu təzahürlərə qarşı mübarizə strateji əhəmiyyət kəsb edir.

Əsas məqsəd bu təhdidləri dəf etməklə insanların hüquqlarının pozulmasının və vətəndaşların insan tacirlərinin əlinə düşməsinin qarşısını almaqdır.

İnsan ticarəti artıq müasir dünyanın qlobal problemləri dairəsinə daxil olub. Bu sahədə əhalinin maariflənməsi və məlumatlandırılması mühüm məsələdir. Bu sahədə telekanalların rolu əhəmiyyətli ola bilər. Hazırda ölkə əhalisinin böyük qisminin daha çox telekanalları izlədiyini nəzərə alıb insan ticarəti ilə bağlı xüsusi reklam çarxlarının efirdə nümayişini təşkil etmək, problemə həsr olunmuş verilişlər, telelayihələr hazırlamaq daha məqsədəuyğundur.

Bütün dünyada insan alverinin qurbanlarının 75 faizi qadın və uşaqlardır. Qeyri-qanuni miqrantlar da insan alverinin qurbanlarıdır. Ölkəyə qanunsuz yollarla gətirilib, yaşayır, əmək fəaliyyətilə məşğul olurlar. Statistik göstəricilərə əsasən, qanunsuz əmək fəaliyyətilə məşğul olanlar kriminal qrupların təsiri altına tez düşürlər.

### 3. Terrorçuluq milli təhlükəsiziyə təhdid kimi

XX əsrdə milli və beynəlxalq təhlükəsizliyə prioritet, yeni keyfiyyətlərə malik təhdidlər kompleksi formalaşır. Bu təhdidlərdən biri terrorçuluqdur. Son 20 ildə terrorçuluq ayrı-ayrı ölkələrdəki lokal təzahürlərdən sərhəd tanımayan qlobal transmilli hərəkata çevrilmişdir.

Bəşəriyyət XXI əsrə terrorçuluğun daha da güclənməsi, geniş əraziləri əhatə etməsi, terror metodlarından istifadə edən təşkilatların sayının və onların maliyyə imkanlarının artması şəraitində qədəm qoymuşdur. Terror, terrorçu, bununla əlaqədar digər terminlər və ifadələr, praktiki olaraq hər gün dünyanın kütləvi informasiya vasitələrində öz əksini tapır. Bu gün 70-dən artıq ölkədə fəaliyyətlərində terrorçuluq metodlarından istifadə edən 1000-dən çox təşkilat və qrup mövcuddur.

**Terror latın sözü olmaqla, qorxu, vahimə, təlaş mənasını ifadə edir. Terrorçuluq anlayışının dəqiqləşdirilməsində çətinlik ondan ibarətdir ki, tərəflər müxtəlif şəraitlərdə bu cinayətkar fəaliyyəti fərqli mövqelərdən qiymətləndirirlər.** Məsələn, hər hansı bir təşkilat üçün terror fəaliyyəti milli azadlıq mübarizəsidirsə, ölkənin rəsmi dairələri və əhalisi üçün isə bu, qanunçuluğun kobud şəkildə pozulması və cinayət hadisəsidir. Bəzən terrorçuluq quldurluqla məhdudlaşdığından bu və ya digər dövlətin daxili işi olaraq qalır. Digər hallarda, terrorçuluq beynəlxalq mütəşəkkil cinayətkar srukturları tərəfindən istifadə olunur və ümumi təhlükəli hal kimi



çıxış etdiyinə görə, onu qabaqlamaq üçün birgə səylər tələb olunur.

Tarixi təcrübə göstərir ki, terrorçuluğun yaranması və yayılması daxili sosial və xarici ziddiyyətlərin, xüsusilə də ictimai böhranların, müharibələrin, inqilabların genişlənməsi şəraiti ilə daha çox şərtlənir. Terrorçuluğun dağıdıcı nəticələrində hər bir ölkənin konkret tarixi şəraiti, milli xarakterin və ənənələrin xüsusiyyətləri, xalqın tarixi yaddaşı mütləq əks olunur.

Terrorçuluğun dinc vətəndaşlara qarşı yönəlmiş cinayətlər ilə yanaşı, enerji daşıyıcıları ilə zəngin və qiymətli nadir faydalı qazıntı növlərinə malik ərazilərə nəzarəti ələ keçirmək, dünyanın müxtəlif ölkələrində baş verən siyasi proseslərə təsir etmək, kütləvi qırğın silahlarma yiyələnmək cəhdləri bəşəriyyət üçün təhlükəlidir. Ən gəlirli kriminal sahələrdən olan narkobiznesdən əldə olunan qanunsuz gəlirlərin terrorçuluğun maliyyələşdirilməsinə yönəldilməsi onun təhlükəlilik dərəcəsini daha da artırır.

Müasir terrorun XIX əsrdə və XX əsrin birinci yarısında həyata keçirilən terrorçuluqdan fərqli xüsusiyyəti ondan ibarətdir ki, bir qayda olaraq bu terrorun hədəfində mülki vətəndaşlar olur. O dövrlərdə isə törədilən terror aktları, bir qayda olaraq hökumət nümayəndələrinə qarşı yönəlirdi və bu halda əhali arasında təsadüfi qurbanlar olsa da, o, məqsəd kimi deyil, sadəcə insan itkisi kimi nəzərdə tutulurdu.

Müasir anlayışda terrorçuluq – terrorun tətbiqi, yəni vahimə yaratmaq, hədə-qorxu gəlmək, şəxsiyyətə, cəmiyyətə və dövlətə qarşı güc tətbiq etməkdir. Sonuncu halda terror milli sərhədlərdən kənara çıxır və beynəlxalq xarakter alır.

Terrorçuluğun geniş spektrləri «Azərbaycan Respublikasının terrorçuluq haqqında» Qanununda və Cinayət Məcəlləsində ətraflı şərh olunmuşdur.

Azərbaycan Respublikası Cinayət Məcəlləsində göstərilir: «**Terrorçuluq, yəni ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, yaxud dövlət hakimiyyət orqanla-**

**rı və ya beynəlxalq təşkilatlar tərəfindən qərar qəbul edilməsinə təsir göstərmək məqsədilə insanların həlak olması, onların sağlamlığına zərər vurulması, əhəmiyyətli əmlak ziyanının vurulması və ya başqa ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və ya digər hərəkətlər törətmə, habelə həmin məqsədlə bu cür hərəkətlərin törədiləcəyi ilə hədələməkdir».**

Terroru təhlil edən mütəxəssislər **terrorçuluq fəaliyyətinin məzmununa** aşağıdakıları daxil edirlər:

– terror aktlarının təşkili, planlaşdırılması, hazırlanması və həyata keçirilməsi;

– terrorçuluq məqsədilə terror aktlarına təhrik etmək, fiziki şəxslərə və yaxud təşkilatlara fiziki güc tətbiq etmək;

– terror aktları törətmək, belə əməllərdə iştirak etmək üçün qeyri-qanuni mütəşəkkil qruplar, silahlı dəstələr, cinayətkar təşkilatlar təşkil etmək;

– terrorçuları qruplara cəlb etmək, silahlandırmaq, öyrətmək və istifadə etmək;

– terror təşkilatları və terror qruplarını maliyyələşdirmək, yaxud başqa yollarla onlara köməklik etmək.

Terror aktının tətbiq edilmiş ərazidə pozucu amillərə və onların yayılmasına görə daxili və beynəlxalq terrorçuluq fərqləndirilir. Daxili terrorçuluğun həyata keçirilməsi zamanı terror mühiti ona görə yaradılır ki, zorakılıq aktlarının köməyilə əhalinin mənəvi vəziyyətinə təsir etmək mümkün olsun. Terrorçuların yaratdığı bu vəziyyət adətən sosial strukturlarda pozğunluq yaratmaqla müşayiət olunur və bu da məqsədin reallaşdırılması üçün başlıca faktor sayılır. Daxili terrorçuluq yeni ölçülər, formalar almışdır. O, terrorçu qrupların gücünün, zorakılığının şəxsiyyətə və mülkiyyətə qarşı qeyri-leqal istifadəsi kimi başa düşülür. Bu da hökumətin nüfuzunun zəiflədilməsi, mülki əhalinin qorxudulması məqsədini daşıyır.



Dünya ictimaiyyəti üçün daha böyük təhdid beynəlxalq terrorçuluqdur. Onun sürətlə genişlənməsi çoxlu sayda insanlara məşəqqət və ölüm gətirir. Praktiki olaraq son illərdə Afrika, Asiya və Yaxın Şərqdə, MDB ərazisində yaranmış bütün silahlı münaqişələr təxribat-terror fəaliyyəti ilə müşahidə edilir və bunun nəticəsində ilk növbədə dinc əhali zərər çəkir. Hazırda beynəlxalq terrorçuluğun subyektləri – leqal siyasi mübarizəni kifayət hesab etməyən, yaxud, tamamilə inkar edən radikal yönümlü siyasi partiyalar, ekstremist istiqamətli siyasi qruplar və ya təşkilatlardır. Bu partiya və təşkilatlar öz fəaliyyətlərini müxtəlif formalarda həyata keçirməklə əsasən silahlı güc tətbiq etməyə üstünlük verirlər.

Müasir terrorçuluq üçün **aşağıdakı cəhətlər** səciyyəvidir:

– terror hadisələrinin artması, onların dəhşətli qəddarlıqla icra olunması;

– terrorçuluq fəaliyyətinin böyük miqdarda maliyyələşdirilməsi;

– geosiyasi təsir dairələrini genişləndirmək üçün bəzi dövlətlərin ayrı-ayrı terrorçu qruplardan istifadə etməsi;

– beynəlxalq terrorçu təşkilatların müxtəlif regionlarda təsirinin güclənməsi, yanacaq və enerji ehtiyatlarına, faydalı qazıntılara malik ərazilər üzərində nəzarət cəhdləri;

– müxtəlif münaqişələrdə iştirak edərək, böyük təcrübə qazanmış terrorçuların peşəkarlığı və hazırlığı;

– terrorçu qruplaşmaların transmilli xarakter daşıması;

– kütləvi qırğın silahlarına yiyələnmə və ondan mümkün istifadə olunması cəhdlərinin güclənməsi;

– terrorçularla muzdlu döyüşçülərin əlaqəsi;

– terrorçu qruplaşmaların texniki təchizat imkanlarının artması;

– ölkədaxili və beynəlxalq terrorçuluq arasında sərhədlərin götürülməsi;

– terrorçu təşkilatlarla transmilli mütəşəkkil cinayətkarlıq, xüsusilə də narkobiznes arasında davamlı əlaqələrin qurulması;

– bəzi terrorçu təşkilatların liderlərinin fəaliyyətlərinə milli azadlıq mübarizəsi görüntüsü vermək cəhdləri;

– terrorçuluğun yeni növlərinin, xüsusilə informasiya və elektron növlərinin yaranması;

– mübarizənin xüsusilə son dərəcə kəskin formalarından istifadə etməklə güc və hədə tətbiq etmək;

– siyasi rəqiblərin zəifl ədilməsi, siyasi məqsədlərə nail olunmasına yönəldilməsi;

– bilavasitə insanların həyatına təhlükə, idarə və təşkilatların fəaliyyəti, qeyri-legitimliklə əlaqədar ictimai təhlükənin yüksəldilməsi;

– terrorçu strukturların və onların fəaliyyətinin son nəticə etibarilə səmərəliliyinin təmin edilməsi məqsədilə məxfilik üsullarından istifadə edilməsi;

– insanların həyat və sağlamlığına qəsd etmək vasitəsilə dolayısı yolla siyasi nəticələrə nail olmaq.

Müasir şəraitdə terrorçuluğun çox müxtəlif meyillər, onların isə konkret səbəbləri və məqsədləri mövcuddur. Terrorçuluğun yayılmasında ölkələrin daxilindəki və beynəlxalq aləmdəki bir çox amillər mühüm rola malikdir. Ölkələrin inkişafının mövcud olan iqtisadi, sosial, siyasi, mənəvi-əxlaqi vəziyyəti və kriminogen şəraiti onun ictimai həyatının (millətlərarası, əmək və digər siyasi münasibətlər) müxtəlif sahələrində sosial gərginliyə səbəb olur və bu terrorçuluğun müxtəlif istiqamətlərinin yayılmasına gətirib çıxarır. Dünya ölkələrində müxtəlif səviyyəli dövlət hakimiyyəti orqanlarının, maliyyə-bank, istehsalat strukturlarının nümayəndələrinin, ictimai xadimlərin, KİV işçilərinin sağlamlığına və həyatına təcavüzlə və girovların tutulması ilə əlaqəli olan cinayətlərin artımı müşahidə edilir.



Terrorun iki əsas hərəkətverici qüvvəsi var: maliyyə və mənəvi. Maliyyə tərəfi qüvvə tətbiq etməklə digər şəxsin əmlakının özününküləşdirilməsi, eləcə də müxtəlif qanunsuz yollarla qazanc əldə edilməsi, mənəvi tərəfi isə digər şəxslərə öz həyat tərzini təbliğ etməklə onları azadlığından, dinindən imtina etməyə yönəltməyə xidmət edir.

Milli təhlükəsizliyə terrorçuluqdan gələn təhdidlər bazar islahatları və sosial-iqtisadi ziddiyyətlərin güclənməsi şəraitində 1990-cı illərdə kəskin gücləndi. Hələ yaxın keçmişdə postsovet cəmiyyətlərində terrorçuluğa möhkəm immunitet vardı. Amma indiki zamanda o pozulmuşdur. Bu onunla izah edilir ki, öz mahiyyətinə görə terrorçuluq sosial-siyasi hadisə sayılaraq, özündə bu cəmiyyətlərdə münaqişə səviyyəsinə çatmış sosial ziddiyyətləri toplayır. Odlu silahın partlayıcı və yandırıcı qurğuların istifadəsi və onların tətbiqi təhdidləri ilə, həmçinin zorakılıq hərəkətlərinin, girovların, nəqliyyat vasitələrinin və silah-sursatın, nüvə şantajının və kimyəvi bioloji silahların komponentlərinin tətbiqi təhdidlərinin sayına görə postsovet məkanı dünyada ilk yerlərdən birini tutur.

**Terrorçuluğun bir məqsədi də ictimai sabitliyi pozmaq və hakimiyyət orqanlarının qəbul etdiyi qərarlara təsir göstərməkdir. Terrorçuluq suverenliyə, ərazi toxunulmazlığına, dövlət təhlükəsizliyinə və ölkənin müdafiə qabiliyyətinə, siyasi və iqtisadi sistemə qəsd edərək çox vaxt sülhü və dövlətlərin dinc yanaşı yaşamasını təhlükə altına alır.** Qoyulmuş məqsədlərin əldə edilməsi üçün terrorçuluqdan həm ayrı-ayrı adamlar, həm də qruplar tərəfindən istifadə edilə bilər. O müəyyən subyektlərin onların fəaliyyətinə və ya onların tələblərinə cəmiyyətdə geniş reaksiyanın verilməsi üçün vasitə sayılır. Bir çox hallarda terrorçuluğa o vaxt müraciət edirlər ki, artıq digər aksiyalar (siyasi danışıqlar, kütləvi nümayişlər) nəticə verməmişdir.

İndiki zamanda tədqiqatçılar xüsusi diqqəti müasir terrorçuluğun növbəti əsas iki xüsusiyyətinə yetirirlər: birin-

cisi, terror aktlarının obyektləri əsasən siyasi xadimlər yox, adi vətəndaşlar, hətta uşaqlar sayılırlar. **Terror aksiyalarının səmərəliliyi qurbanların statusu ilə yox, onların kəmiyyəti ilə əlaqələndirilir. Deməli, terror əvvəllər olduğu kimi, yararsız ideyanın və ya mövqeyin daşıyıcısı olan fiziki şəxslə mübarizə forması kimi yox, qorxutma və əhalidə şüur pozğunluğu yaratmaq vasitəsi kimi çıxış edir.** Şüur pozğunluğu dedikdə, yəni onu elə vəziyyətə çatdırmaq nəzərdə tutulur ki, orada üstün mövqedə şüur yox, kollektiv şüursuzluqdur. Başqa sözlə, terrorçuluq xalqı çaxnaşma içində olan, xaosa məruz qalmış, təşkil edilmiş konstruktiv hərəkətlərə qadir olmayan kütləyə çevirmək məqsədini güdür. Daha dəqiq desək, terrorçuluğun hədəfi cəmiyyətin inkişafının müəyyənedici amili olan millətin mənəvi yaradıcılıq potensialıdır. Bu nöqteyi nəzərdən terrorçuluğa əks təsir mənəvi yaradıcılıq potensialının gücləndirilmiş təkrar istehsalının zəruriliyini müəyyən edir. Burada inkişaf etmiş dəyər və sərvət dairəsi ilə öz-özünü nəzarətə qadir, məsuliyyəti və dözümlülüyü ilə fərqlənən şəxsiyyətlərin cəmiyyətdə mövcudluğu zəruridir.

İkincisi, müasir vəziyyəti bu və ya digər terror aksiyasında iştirak edən ancaq ideoloji cəhətdən terrorla əlaqələri olmayan köməkçilərin böyük sayı fərqləndirilir. Terrorçuluqda iştirakın motivlərindən biri maddi motivdir. Bu fakt dünyada yoxsulluğun aradan qaldırılmasının legitim vasitələrinin son dərəcə məhdud olmasını sübut edir. Terror aktlarında iştirak pul qazanmağın və ya sosial uyğunlaşması vasitəsi olan əlavə qazanc vasitələrindən biri kimi nəzərdən keçirilir. Bu acı həqiqət nöqteyi-nəzərindən dövlətlərin müasir iqtisadi siyasətini qiymətləndirmək lazımdır. Amma təkcə onu yox. Vətəndaşların sosial aktivliyinin maddi motivlərinin üstünlük təşkil etməsi cəmiyyətdə olan sərvətin nüfuzluluğu haqqında olan təsəvvürün nəticəsidir. Bu da mənəvi məzmundan tamamilə məhrum olan sosial ideyaların geniş yayılmasının əyani sübutudur.



Müasir terrorçuluğu sosial-iqtisadi səbəblərin kompleksi ilə şərtləşdirilmiş hadisə kimi nəzərdən keçirərkən ekspertlər onu göstərirlər ki, indiki zamanda öz təsirinə görə yeni fenomen yaranır və o, nə dövlət məfhumuna, nə də etnik birliklər məfhumuna sığışmır. Söhbət qeyri-formal şəbəkələrdən – diaspora, radikal fundamentalist və ya narkokriminal koalisiyalardan gedir və onlar bugün böyük rol oynayırlar. Özü də onlar mütləq hər hansı bir etnik qrupa bağlı deyildir, transmilli səciyyə daşıyır. Burada həmrəylik əcaib prinsiplərə əsasən düzülür. Bundan savayı terror aktlarının xüsusi yeni funksiyası təzahür edir. Klassik terrorçuluq hakimiyyətin və ya cəmiyyətin şantaj forması idi, o, açıq şəkildə öz tələblərini irəli sürürdü, məsələn, girovu geri almaq üçün ödəniş, öz həmfikirlərini həbsxanalardan azad etdirmək, hərbi əməliyyatları saxlamaq və s. Amma son vaxtlar daha tez-tez qeyri-aşkar məqsədlərlə anonim terror aktları həyata keçirilir.

Terror təşkilatları öz fəaliyyətləri zamanı öz mövqelərini möhkəmləndirmək üçün cəmiyyətin diqqətini cəlb edəcək bir sıra metodlardan istifadə edirlər.

Terror təşkilatları ilk növbədə ictimai vahimə yaradır və özünün dövlətdən güclü olduğunu göstərməyə çalışır. Eyni zamanda dövlətin rəhbərliyində təmsil olunan bəzi şəxslərlə əlaqələrinin olduğu illuziyasını yaratmaqdan çəkinmir. Dövlətin həll edə bilmədiyi problemlərin onlar tərəfindən həll ediləcəyi fikrini formalaşdırırlar. Həmçinin terror aktları ilə vətəndaşları dövlətə qarşı qoymağa cəhd edirlər. Dövlətin onların təhlükəsizliyini təmin edə bilmədiyini göstərməyə çalışırlar. Terrorçular hətta cəmiyyətdə olan bəzi problemləri şişirdərək onun gələcəkdə vətəndaşlar üçün ciddi mənfi nəticələr doğuracağını əsaslandırmağa çalışır və öz hərəkətlərini qabaqlayıcı tədbir kimi qələmə verirlər.

Bunlarla yanaşı terror təşkilatları dövlət orqanlarının onlarla mübarizəsi zamanı maksimum səhvlər buraxmasına şərait

yaradır. Çünki bu səhvlər buraxıldığı zaman dövlətin nüfuzu zəifləyir və terrorçuların ictimai rəydə mövqeləri möhkəmlənir.

Terror aktlarının baş verməsinə gətirib çıxaran **başlıca səbəblər** aşağıdakılardır:

- Cəmiyyətdə vətəndaş cəmiyyətinin zəif olması və qanunun aliliyinin ikinci plana keçirilməsi;
- Terrorçuların bir sıra ölkələrdə özlərinə məkan tapa bilməsi;
- Bir sıra ekstremist cərəyanların ciddi təsiri;
- İctimai-siyasi sabitliyin olmaması, zorakılığın adi hala çevrilməsi;
- Korrupsiyanın geniş yayılması;
- İrqi-milli və dini ayrı-seçkilik və s.

Qeyd etdildiyi kimi, bir sıra terrorçu təşkilatların proqram və məqsədlərində bəzi dəyişikliklər baş vermişdir. Belə ki, çox vaxt bu təşkilatlar terror törədərək, özlərini açıqlamır və heç bir şərt qoymurlar. Onların əsas vəzifəsi daha çox insan ölümünə nail olaraq, böyük mənəvi və maddi ziyan vurmaq, cəmiyyətdə təşviş, qorxu, həyəcan hisslərini gücləndirərək, dövlətin öz vətəndaşlarının təhlükəsizliyini qoruya bilməməsi barədə fikirləri əhalidə formalaşdırmaqdan ibarətdir. Belə genişmiqyaslı terror fəaliyyəti terrorçu təşkilatların liderləri tərəfindən öz siyasi məqsədlərinə çatmaq üçün əsas vasitə hesab edilir.

Terrorçuluq separatçılıq, mütəşəkkil cinayətkarlıq, narkobiznes, silah və insan alveri ilə sıx əlaqəlidir. Münaqişəli, xüsusən zəbt olunmuş və nəzarətdən kənar ərazilərin mövcudluğu terrorçu və cinayətkar qruplaşmaların «çiçəklənməsi» üçün əlverişli zəmin yaradır.

Məqsədinə görə konkret terrorçuluq formalarını fərqləndirmək olar. Bunlardan biri siyasi terrorçuluqdur. Siyasi terrorçuluq ölkədə hakim rejimi güc yolu ilə devirmək məqsədilə həyata keçirmək məqsədi daşıyır. Bu halda onlar hakimiyyətə gəldikdən sonra ölkədə köklü sosial-siyasi dəyişikliklərin həyata keçirilməsini qarşılarına məqsəd qoymurlar.



Siyasi terrorçuluq üçün xarakterik xüsusiyyət ondan ibarətdir ki, o, dar istiqamətdə təzahür edir: onun qəsd obyekti regionun konkret ölkəsinin rəhbəri və onun yaxın ətrafı olur. Törədilən terror aktları dövlət başçısının, onun ailə üzvlərinin, nazirlərin, ictimai xadimlərin fiziki məhvinə, ölkə daxilində siyasi, ayrı-ayrı hallarda isə iqtisadi vəziyyətin sabitliyinin pozulmasına yönəlir. **Siyasi terrorçuluğun başlıca məqsədi dövlətlər arasında münasibətlərin pozulması, konkret siyasi liderlərin və ya dövlət başçılarının aradan götürülməsidir.** Belə aktlara misal olaraq ABŞ-da Con Kennedinin, Misirdə Ənvər Sadatın, Hindistanın keçmiş baş nazirləri – İndra və Raciv Qandilərin, İsraildə İsxak Rabinin, Pakistanda Bənazir Bhuttonun qətllərini sadalamaq olar.

**Məqsədinə görə terrorçuluğun digər bir forması milli terrorçuluqdur.** Millətçi terrorçular özlərinin etnik qrupları üçün ayrıca, bəzən ikinci dövlətin yaradılmasını qarşılarına məqsəd qoyurlar. Onlar bunu «milli qurtuluş», yaxud millətlərin öz müqəddəratını təyinetmə adlandırırlar. Buna misal olaraq Gürcüstanda Cənubi Osetiyanı və Abxaziyanı, Böyük Britaniyada İrlandiya, İspaniyada ETO-nu, Türkiyədə Kürdüstan Fəhlə Partiyasını, Şri-Lankada Tamil İlamın Azadlıq Pələnglərini göstərmək olar. Bir çox millətçi terrorçular iddia edirlər ki, onlar terrorçu deyil, öz xalqının azadlığı uğrunda mübarizə aparan mücahidlərdir. Bu növ terrorçu təşkilatların çirkin fəaliyyəti nəticəsində yüz minlərlə insan həyatını itirmişdir. Təkcə Türkiyədə Kürdüstan Fəhlə Partiyasının törətdiyi əməllər nəticəsində 30 mindən çox adam həlak olmuşdur.

**Müasir şəraitdə dini terrorçuluq anlayışı da tez-tez işlədilir. Dini separatçılıq, yaxud dini ideyalar məqsədilə həyata keçirilən terrorçuluq dini terrorçuluq adlanır.** Bu müxtəlif dinə itaət edənlər (məsələn, müsəlman və iudistlər), yaxud da eyni dinə itaət edənlər (məsələn, müsəlmançılıqda sünni-şiə, xristianlıqda katolik-provaslav-protestant) arasında

mübarizə ilə əlaqədar olan terrorçuluqdur. Belə terrorçuluğun məqsədi dünyəvi dövləti dağıtmaq və dini hökumət yaratmaqdır. Bu özünü müasir qloballaşma dövründə daha bariz şəkildə göstərir.

Bu növ terrorçuluq digər terror növlərinə nisbətən daha geniş yayılmışdır. Belə ki, 90-cı illərin ortalarında ən məşhur 56 terror təşkilatından demək olar ki, yarısı dini motivlərlə bağlı olduqlarını bəyan etmişlər.

Dini terrorçuluq dini ekstremizmlə sıx əlaqəlidir. Dini ekstremizmin ən qorxulu cəhətlərindən biri ondan ibarətdir ki, o dinlərarası anlaşılmazlıqları özünəməxsus, təhrif olunmuş formada təqdim edir və qızışdırır, dini zəmində müxtəlif millətlər və xalqlar (eyni millətin müxtəlif təşəkkürlü qrupları) arasında nifaq salır, dinlərarası dözümsüzlük yaradır ki, bu da nəinki ayrı-ayrı ölkələr, hətta bəşər sivilizasiyasına təhlükəlidir.

**Müasir şəraitdə KQS (Kütləvi Qırğın Silahları) terrorçuluğu anlayışı da tez-tez işlədilir.** Yüksək təhlükə potensialı ilə əlaqədar olaraq, bu terror təhdidin və onunla mübarizənin sahəsi çox genişlənmişdir. Əgər əvvəllər bu cür təhdidlərin mənbəyini müəyyən dövlətlər təşkil edirdisə, indi isə söhbət başlıca olaraq dövlət nəzarətindən kənar şəxslərdən və təşkilatlardan gedir. Əvvəllər dövlətlərə KQS-nın yayılmaması üçün sanksiyalar tətbiq edilirdisə, indi onları müstəqil fəaliyyət göstərən şəxslərə və təşkilatlara aid etmək çox çətindir. Çünki təhdid mənbəyində cəza göndərildiyi ünvan yoxdur. Terrorçularla bu silahlardan imtina etmək haqqında razılığa gəlmək olmaz. Onlar bu silahlardan çirkin məqsədlərinə çatmaq üçün istifadə edə bilərlər. Bir sözlə, bu sahədə əvvəllər dövlətlərarası formatda fəaliyyət göstərən silahların yayılmasınm qarşısının alınması sistemi müasir şəraitdə demək olar işləmir. Hətta müxtəlif təşkilatlar və şəxslərin kütləvi qırğın silahlarına yaxın gələcəkdə malik ola biləcəyi ehtimalı, bu təhdidləri kəskin surətdə artırmışdır. Nəticədə belə silahların və onun komponentlərinin fiziki qorunmasının prinsipial olaraq yeni vəzifələri ortaya çıxmışdır. Əgər əvvəllər söhbət yalnız bu silaha sahib olmaqdan gedirdisə, bu gün ona KQS-nin tətbiq olunması ilə hansı obyektlərin qəsdən dağıdıla biləcəyi təhdidi də əlavə olunmuşdur. Eyni zamanda nüvə silahının yayılması, yeni dövlətlərin nüvə silahına malik olmasının ənənəvi sistemi çərçivəsində yeni çalarlar əmələ gəlmişdir. Bu nüvə silahının regional yayılmasına təkan verir, əvvəllər bu planları olmayan ölkələr tərəfindən nüvə silahının istehsalı haqqında məsələ ön sıralara çəkilir. Bununla yanaşı yeni sahiblərində olan nüvə silahının aqibəti ciddi narahatlıq doğurur. Bəzi ölkələr nüvə silahının yayılması, beynəlxalq terrorçuluğa rəğbəti və hətta onlarla əməkdaşlıq sahəsində özünün irrasional davranışı ilə seçilirlər. Son vaxtlar KQS-nin yayılmasının yarıdövlət gizli transmilli şəbəkələrinin formalaşması təhdidləri yaranmışdır.



**Terrorçuluğun ən mühüm qolllarından biri dövlət terrorçuluğudur. Dövlət terrorçuluğu hər hansı bir dövlətə, hərəkatlara və ya konkret şəxslərə qarşı dövlətin terror aktlarından istifadəsini müəyyən edən terrorçuluğun formasıdır.** XX əsrin sonunda terrorçuluq problemi xüsusilə genişlənməyə və diqqət çəkməyə başladı. O nəinki ekstremist təşkilatlar və cinayətkarlar tərəfindən, hətta bir sıra totalitar dövlətlərdə – onların xüsusi xidmətləri tərəfindən də həyata keçirilirdi. Dövlətlər özünün xarici siyasət aləti kimi beynəlxalq terrorçuluqla fəal əməkdaşlıq edir və dövlət terrorçuluğu siyasətini həyata keçirirlər.

Terrorçuluqda iştiraketmə səviyyəsinə görə dövlətlər aşağıdakı kateqoriyalara bölünürlər:

– Terror aktlarını özlərinin rəsmi idarələri, kəşfiyyat xidmətlərinin əməkdaşları və ya agentləri vasitəsilə həyata keçirən dövlətlər. Bu halda dövlət özünün siyasi məqsədinə çatmaq üçün digər ölkələrdə mülki əhalini bilərəkdən terrora məruz qoyur. Mütəxəssislərin əksəriyyətinin fikrincə, bir dövlətin rəsmi agentlərinin digər ölkənin mülki əhalisinə qarşı müharibə dövründə və ya zəbt olunmuş ərazilərdə həyata

keçirilməsindən asılı olmayaraq, bilərəkdən güc tətbiq etməsi hər şeydən əvvəl, hərbi cinayət kimi tövsif olunmalıdır;

– Rəsmi dövlət strukturlarına daxil olmayan təşkilat və qrupların köməyi ilə terrorçuluq fəaliyyətini planlaşdıran, istiqamətləndirən və həyata keçirən dövlətlər.

Beynəlxalq terrorçuluğu dəstəkləyən dövlətlər terror təşkilatlarına maliyyə və ideoloji yardım, hərbi və texniki kömək göstərirlər.

Qeyd etmək lazımdır ki, Ermənistan dövlətinin və erməni diasporasının maliyyə və təşkilati yardımı ilə dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən erməni terrorçu təşkilatlarının Azərbaycana qarşı apardıqları terror müharibəsi 1980-ci illərdən başlayaraq ardıcıl xarakter almışdır. Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və onun ətrafındakı rayonların işğalı zamanı kütləvi vahimə yaratmaq, çoxlu insan tələfatına nail olmaq məqsədi ilə Ermənistanın xüsusi xidmət orqanları hərbi əməliyyatların getdiyi ərazilərdən xeyli uzaqda, dinc azərbaycanlı əhalisinin yaşadığı məntəqələrdə terror aktları təşkil etmiş, nəticədə minlərlə günahsız insan həlak olmuşdur.

**Ermənistan Respublikası terroru dəstəkləyən dövlətdir. SSRİ dağıldıqdan sonra müstəqillik qazanmış Ermənistan Respublikası dövlət səviyyəsində terroru dəstəkləyərək, terrorçuluğu təcavüzkar siyasətinin əsas vasitələrindən birinə çevirmişdir.** Çoxsaylı faktlar, məhkəmə materialları sübut edir ki, Azərbaycanın dinc əhalisinə qarşı, o cümlədən nəqliyyat vasitələrində törədilən terror aktları Ermənistan hökuməti tərəfindən maliyyələşdirilərək, bu ölkənin xüsusi xidmət orqanları tərəfindən həyata keçirilmişdir. XX əsrin 90-cı illərinin əvvəllərində Ermənistanın rəsmi dairələri «Daşnaksütyun», ASALA, MAQ, «Erməni birliyi», «Erməni Azadlıq Cəbhəsi» və digər erməni terror təşkilatlarının fəaliyyətlərinin reabilitasiyası məqsədi ilə genişmiqyaslı kampaniyaya başlamış, onlara sığınacaq verməklə yaşayış və fəaliyyətləri üçün şərait yaratmış, müvafiq maliyyə dəstəyi göstərmişlər. Hələ 1990-cı illərə qədər də bu erməni təşkilatları bir sıra terror aktlarını həyata keçirmişlər.



1983-cü ilin iyul ayında Parisdə Orli aeroportunda 8 nəfərin ölümü və 60 nəfərin yaralanması ilə nəticələnmiş terror aktına görə ömürlük həbs cəzasına məhkum edilmiş terrorçu Varucan Karapetyanın azad olunması üçün Ermənistanda dövlət səviyyəsində imzatoplama kampaniyası keçirilmişdir. 2001-ci ilin aprelində Fransa məhkəməsi tərəfindən azad olunan terrorçu Ermənistanda rəsmi sığınacaq tapmışdır.

Məşhur terrorçu, Qərbi Avropada «ASALA-nın inqilabi hərəkatı» adlı qruplaşmasının rəhbəri, 28 noyabr 1985-ci ildə 6 il müddətinə həbs olunmuş Monte Melkonyan 1990-cı ildə Fransa həbsxanasından buraxılaraq Ermənistana gəlmiş və terror fəaliyyətini davam etdirmək üçün buradan Dağlıq Qarabağa göndərilmişdir. M.Melkonyan Azərbaycanın Xocavənd rayonunun işğalı zamanı erməni terror dəstəsinin komandiri olmuşdur. 1993-cü ildə Dağlıq Qarabağda öldürülən terrorçunun Yerevanda dəfn mərasimində rəsmi şəxslər, o cümlədən Ermənistan Prezidenti də iştirak etmişdir. Ermənistanın milli qəhrəmanı elan olunmuş bu beynəlxalq terrorçunun adı Müdafiə Nazirliyinin təxribat mərkəzlərindən birinə verilmişdir.

Məşhur terrorçu, Daşnaksütyun Partiyasının «Dro» terror qrupunun üzvü Qrant Markaryan Dağlıq Qarabağda terrorçu dəstələri yaradanlardan və Ermənistandan gətirilən silahlar vasitəsilə buradakı terrorçu qrupların silahlandırılmasında fəal iştirak edənlərdən biri olmuşdur.

1981-ci ildə Parisdə Türkiyə səfirliyinə basqının təşkilatçısı Vazqen Sislyan 1992-ci ildə Yerevandan Xankəndinə göndərilmişdir. Vazqen Sislyan azərbaycanlılara qarşı terror aktlarının keçirilməsində fəal iştiraklarına görə özü də Xocalı terrorunun müəlliflərindən olan Prezident Robert Koçaryan tərəfindən «Qarabağ müharibəsinin qəhrəmanı» adına layiq görülmüşdür.

Qarabağın dinc azərbaycanlı əhalisinin öldürülməsində Ermənistan xüsusi xidmət orqanlarının himayə etdiyi Əbu Əli və Hilbert Minasyan kimi Yaxın Şərq mənşəli terrorçular da fəal iştirak etmişlər.

Erməni terroru dünyanın demək olar ki, bütün guşələrinə yayılmış terror təşkilatları şəbəkəsinə malikdir. Belə yayılma coğrafiyasına malik digər bir şəbəkəni təsəvvürə gətirmək çətindir: ABŞ, Kanada, Fransa, Avstriya, Lüksemburq, İspaniya, İtaliya, Türkiyə, Rusiya və nəhayət, Azərbaycan erməni terrorçularının kütləvi terror aktları keçirdikləri ölkələrin heç də tam olmayan siyahısıdır. Qurbanlar sırasında isə çoxlu millətlərin nümayəndəsi vardır: ingilis, fransız, türk, yəhudi, alman, rus, ərəb, isveçrəli, iranlı, azərbaycanlı və i.a. Bununla belə, onun başlıca hədəfləri türklər və azərbaycanlılardır. XX əsrin 70-80-ci illərində dünyanın müxtəlif ölkələrində təkcə Türkiyə diplomatlarına qarşı erməni terror təşkilatları tərəfindən 200-dək terror aktları törədilmişdir.

Nə qədər qəribə olsa da qeyd edilməlidir ki, məqsədlərinə çatmaq üçün erməni terrorçular onlara qarşı çıxan və bu işə əngəl törədən erməniləri öldürməkdən belə çəkinmirlər. Erməni ictimaiyyətinə qarşı yönəlmiş bu terror kompaniyası dinc erməniləri qorxutmağa yönəlmiş və onları öz fəaliyyətləri barədə susmağa məcbur etmək üçün düşünülmüş addımdır.

Məlumdur ki, marksist-leninçi terrorçu təşkilat olan «Ermənistanın azadlığı uğrunda erməni gizli təşkilatı»nın (ASALA) yaradıcısı Akop Akopyan öz «kariyerasına» 1972-ci ildə Münhen Olimpiya oyunlarında İsrail atletlərini qətlə yetirmiş terrorçu qrupun tərkibində başlayıb.

Erməni terrorçuları bir çox ölkələrdə fəaliyyət göstərir, ancaq onlar əsasən erməni icmasının narkotik maddələrin daşınması ilə açıq məşğul olduğu Livanda, xüsusən Beyrutda yerləşir. Vaxtilə Fransa mətbuatı narkotik maddələrin satışından əldə edilən gəlirin bir hissəsinin terrorçuların büdcəsinə axdığını təsdiq edirdi. Beynəlxalq terrorçuluq üzrə ekspertlər də erməni terrorçularının narkotik maddələrin



gəlirindən cinayətkar əməllərinin maliyyələşdirilməsini təmin etmək üçün istifadə etdiklərini təsdiqləyirlər.

Azərbaycan ərazilərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalı ilə yanaşı, bu ölkənin xüsusi xidmət orqanları döyüş zonalarından uzaq mülki obyektlərdə, sərnişin nəqliyyatında onlarla terror aktı törətmiş, nəticədə 2000-dən artıq günahsız insan həlak olmuşdur. Belə ki, 1988-ci ilin fevral ayında Dağlıq Qarabağdakı separatçı qüvvələrin Azərbaycanın ərazi bütövlüyünə qarşı açıq çıxışlarından dərhal sonra Ermənistan, erməni terrorçu təşkilatlarının fəal iştirakı ilə ölkənin dinc əhalisinə qarşı terror fəaliyyəti başlanmışdır. Hələ 1989-cu ilin sentyabr ayında «Tbilisi-Bakı» marşrutu ilə hərəkət edən sərnişin avtobusunda 5 nəfərin həlak olması, 25 nəfərin yaralanması ilə nəticələnən terror aktı törədilmişdir. Hadisədən bir qədər sonra, 1990-cı ilin avqust ayında həmin «ssenari» ilə «Tbilisi-Ağdam» marşrutu ilə hərəkət edən sərnişin avtobusu partladılmış, nəticədə 20 nəfər həlak olmuş, 30 nəfər yaralanmışdır. Bu partlayışları törətmiş erməni terrorçuları – Armen Avanesyan və Mixail Tatevosov Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi tərəfindən ifşa olunaraq cinayət məsuliyyətinə cəlb edilmişlər.

1988-1992-ci illərdə Ermənistanın bilavasitə iştirakı ilə Dağlıq Qarabağdakı terrorçu dəstələr dinc əhaliyə qarşı yönəlmiş yüzlərlə terror aktları həyata keçirmişlər. SSRİ dağıldıqdan sonra, 1992-1994-cü illərdə Azərbaycana qarşı terror, xüsusilə sərnişin nəqliyyat vasitələrində partlayışlar müntəzəm xarakter almışdır:

– 1991-ci ilin noyabr ayının 20-də Ağdərə rayonunun Qaradağlı kəndi üzərində Azərbaycan Respublikasının 20-dən çox dövlət və hökumət işçiləri olan vertolyot erməni terrorçuları tərəfindən partladılmış və onların hamısı həlak olmuşdur;

– 8 yanvar 1992-ci il tarixdə «Krasnovodsk-Bakı» marşrutu üzrə sərnişin daşıyan dəniz bərəsində törədilmiş terror aktı nəticəsində 25 nəfər həlak olmuş, 88 nəfər yaralanmışdır;

– 28 yanvar 1992-ci il tarixdə Şuşa şəhəri yaxınlığında «Ağdam-Şuşa» marşrutu üzrə sərnişin daşıyan mülki vertolyot erməni terrorçuları tərəfindən vurulmuş, əksəriyyəti qadın və uşaqlardan ibarət olan 41 nəfər sərnişin və 3 ekipaj üzvü həlak olmuşdur;

– 28 fevral 1993-cü il tarixdə Dağıstan Respublikası ərazisində, Qudermes stansiyası yaxınlığında «Kislovodsk-Bakı» sərnişin qatarı partladılmış, 11 nəfər həlak olmuş, 18 nəfər yaralanmışdır;

– 2 iyun 1993-cü il tarixdə Bakı dəmir yolu vağzalında ehtiyat sərnişin qatarının vaqonu yolda partladılmışdır, həlak olan və yaralanan olmamışdır;

– 1 fevral 1994-cü il tarixdə Bakı dəmir yol vağzalında «Kislovodsk-Bakı» sərnişin qatarında terror aktı törədilmiş, 3 nəfər həlak olmuş, 20 nəfər yaralanmışdır;

– 19 mart 1994-cü il tarixdə Bakı metropoliteninin «20 yanvar» stansiyasında elektrik qatarında törədilmiş terror aktı nəticəsində 14 nəfər həlak olmuş, 49 nəfər müxtəlif dərəcəli bədən xəsarəti almışdır;

– 13 aprel 1994-cü il tarixdə Dağıstan Respublikasının «Daqestanskie Oqni» stansiyasının yaxınlığında «Moskva-Bakı» sərnişin qatarında törədilmiş terror aktı nəticəsində 6 nəfər həlak olmuş, 3 nəfər yaralanmışdır;

– 3 iyul 1994-cü il tarixdə Bakı metropoliteninin «28 may - Gənclik» stansiyaları arasında elektrik qatarında törədilmiş terror aktı nəticəsində 13 nəfər həlak olmuş, 42 nəfər müxtəlif dərəcəli bədən xəsarəti almışdır.

Sübut edilmişdir ki, yuxarıda qeyd olunan və dinc əhaliyə qarşı törədilmiş onlarla digər terror aktları Ermənistanda dövlət səviyyəsində hazırlanmış və həyata keçirilmişdir.

Belə ki, AR MTN-in Rusiya Federal Təhlükəsizlik Xidməti ilə birlikdə keçirdiyi kompleks agentura-əməliyyat tədbirləri nəticəsində sərnişin qatarlarında partlayışların Ermənistan Milli Təhlükəsizlik Baş İdarəsinin (indiki MTX)



Kəşfiyyat İdarəsinin Azərbaycan üzrə şöbəsinin rəisi, polkovnik Caan Ohanesyan, onun müavini, mayor Aşot Qaloyan və Rusiya FTX-nın terrorizmə qarşı mübarizə idarəsinin baş əməliyyat müvəkkili, mayor Boris Simonyanın (hər üçü 1994-cü il mayın 13-də Moskvada həbs olunaraq, mühakimə edilmişlər) başçılığı ilə terrorçu qrup tərəfindən həyata keçirildiyi müəyyənləşdirilmişdir. Ermənistan kəşfiyyatının həmin zabitləri Rusiyadan Azərbaycana gələn sərnişin qatarlarına partlayıcı qurğuların qoyulmasını təşkil etmiş, Şimali Qafqaz, Dağıstan və Gürcüstan ərazisindən Azərbaycan Respublikasına qarşı fəal kəşfiyyat-pozuculuq və terror-təxribat fəaliyyəti həyata keçirmişlər.

AR MTN-in həyata keçirdiyi əməliyyat-axtarış tədbirləri nəticəsində metropolitenin «20 yanvar» stansiyasında törədilən terror aktının Ermənistan xüsusi xidmət orqanlarının rəhbərliyi ilə separatçı «Sadval» təşkilatı üzvləri tərəfindən törədildiyi müəyyən edilmişdir. Bu terrorçu dəstənin həmin gün Bakı şəhərinin «Nizami» kinoteatrı, Respublika sarayı (indiki Heydər Əliyev sarayı) və Bakı Lampa zavodunda da partlayışlar törətmək niyyətində olduqları məlum olmuşdur.

Məlum olmuşdur ki, «Sadval»ın təşkilat kimi formalaşmasında, maliyyələşdirilməsində və silahlandırılmasında Ermənistan xüsusi xidmət orqanları yaxından iştirak etmişlər. Belə ki, 1992-ci ildən etibarən Ermənistan xüsusi xidmət orqanları «Sadval»ın liderləri ilə sıx əlaqələr yaratmış və təşkilatın üzvlərini Azərbaycanda təxribat xarakterli aksiyaların keçirilməsinə təhrik etmişlər. Azərbaycanın şimal-şərq regionunda yeni münaqişə ocağının yaradılması, «ikinci cəbhə»nin açılması məqsədilə ermənilər sadvalçılarla müntəzəm hazırlıq işləri görmüşlər.

Sadvalçıların bir qismi Ermənistanın Nairi rayonunun Lusoker qəsəbəsindəki erməni XXO-nun təlim-məşq bazasında xüsusi terror-təxribat hazırlığı keçmiş və bu ölkənin Milli Təhlükəsizlik Nazirliyinin Kəşfiyyat İdarəsi tərəfindən

məxfi əməkdaşlığa cəlb edilmişlər. «20 yanvar» stansiyasında partlayış törədilməsində ittiham olunan və Ermənistanda xüsusi terror-təxribat hazırlığı keçmiş 30 sadvalçı həbs olunaraq ifşa edilmişlər.

3 iyul 1994-cü il tarixdə Bakı metropoliteninin «28 may - Gənclik» stansiyaları arasında elektrik qatarında törədilmiş terror aktının Ermənistanın və separatçı Dağlıq Qarabağ rejiminin xüsusi xidmət orqanlarının tapşırığı ilə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin «N» saylı hərbi hissəsinin hərbi qulluqçusu, erməni əsirliyində olmuş Aslanov Azər Salman oğlu tərəfindən törədildiyi müəyyən edilmişdir.

Azər Aslanov 1994-cü ilin yanvar ayında Füzuli istiqamətində gedən döyüşlərdə ermənilərə əsir düşmüş və Xankəndində saxlanılarkən «Omar-75» ləqəbi ilə məxfi əməkdaşlığa cəlb edilmişdir. Onun mənəvi-psixoloji cəhətdən hazırlanması və məxfi əməkdaşlığa cəlb edilməsi prosesində daşnak ideoloqu Zori Balayan bilavasitə iştirak etmişdir. Ermənilər Azər Aslanova Bakının metro stansiyalarının birində partlayış törədilməsinə dair tapşırıq vermiş və bunun üçün onun anasını Yerevana çağıraraq, Xankəndində girov qismində saxlamışlar. A.Aslanov Ermənistandan əvvəlcə Rusiyanın Mineralnıye Vodı şəhərinə, oradan isə gizli surətdə Bakıya gəlmiş, 3 iyul 1994-cü il tarixdə metropolitenin «28 may - Gənclik» stansiyaları arasında elektrik qatarında partlayış törətmiş və həmin gün Azərbaycanı tərk etmişdir. Törətdiyi terror aktı müqabilində ermənilər tərəfindən ona 10.000 ABŞ dolları məbləğində mükafat vəd edilsə də, həmin pullar verilməmişdir. A.Aslanov Ermənistana döndükdən bir həftə sonra, onun anası girovluqdan azad edilərək Bakı şəhərinə yola salınmış, özü isə törədilmiş terror aktına aidiyyatını gizlətmək və AR MTN-in diqqətindən yayınmaq məqsədilə, 4 ay müddətinə yenidən digər azərbaycanlı əsir və girovlarla birlikdə saxlanılmışdır. Terror aktının həyata keçirilməsinə həmin dövrdə separatçı rejimin



rəhbəri olmuş Robert Koçaryan şəxsən sanksiya vermişdir. 1998-ci ilin mart ayında Azər Aslanov törətdiyi cinayətlərə görə Azərbaycan Respublikasının Ali Məhkəməsi tərəfindən ömürlük həbs cəzasına məhkum edilmişdir.

Daxil olan məlumatlar və realizə edilmiş işlərin təhlili göstərir ki, Ermənistanın xüsusi xidmətləri ölkəmizə qarşı terror niyyətlərindən əl çəkməmişlər. Regionda vəziyyətin gərginləşəcəyi, müharibənin başlayacağı təqdirdə terror müharibəsinin də yenidən alovlanması istisna edilmir. Bu istiqamətdə düşmən tərəfindən hazırlıq işlərinin görülməsi, o cümlədən, mühüm əhəmiyyətli obyektlərin seçilməsi, mühafizə rejiminin öyrənilməsi (Bakı Hava Limanı, Metropoliten, beynəlxalq neft və qaz kəmərləri və s.) terrorçuların hazırlanması (Ariz Xəlilov, Əlizadə Babayev) buna əyani sübutdur. Digər tərəfdən nəzərə alınmalıdır ki, münaqişənin həlli variantından asılı olmayaraq, Ermənistanda, Dağlıq Qarabağda, ya da xaricdə erməni diasporu arasında bu və ya digər narazı qrupların olması labüddür. Bu da onlar tərəfindən terrorun həyata keçirilməsini istisna etmir.

Gürcüstan vətəndaşı Ariz Xəlilov Ermənistan Təhlükəsizlik Nazirliyinin polis zabiti örtüyü altında fəaliyyət göstərən əməkdaşı Karen Antonyan tərəfindən əməkdaşlığa cəlb edilmişdir. A.Xəlilov Gürcüstan-Ermənistan sərhəddində xırda alver zamanı düşmənin diqqətini özünün tamahkar, iradəsiz xarakteri, yaxın ətrafına xəyanətə meyilli şəxs kimi cəlb etmişdir. Əvvəlcə o, həmyerliləri barədə məlumat yığmaq istiqamətində istifadə edilmişdir. Sonralar Xəlilov dəfələrlə Azərbaycana gələrək, kəşfiyyat məlumatları toplamış, “Binə” hava limanı, Bakı metropoliteninin ayrı-ayrı stansiyaları, neft kəmərləri, yanacaq bazaları, “Qırmızı körpü” keçid məntəqəsi və digər strateji obyektlərdə təhlükəsizlik rejimini öyrənərək, düşmənə çatdırmışdır. Görüşlərin birində Karen Antonyan ona partlayıcı qurğu göstərərək, onun işləməsi mexanizmini öyrətmiş, zərurət yarandıqda, qeyd olunan obyektlərin birində istifadə olunacağını

qeyd etmişdir. Ariz Xəlilov həbs edilmiş və layiqli cəzasını almışdır.

Azərbaycan vətəndaşı Əlizadə Babayev 1992-ci ildə ermənilər tərəfindən Dağlıq Qarabağda əməkdaşlığa cəlb edilmişdir. Əməkdaşlığın ilk aylarında o, əsasən gizli yollarla Milli Ordunun yerləşdiyi ərazilərə keçmiş, buradakı mövqelər, hərbi texnika, silah-sursatın sayı və vəziyyəti barədə düşmənə məlumatlar çatdırmışdır. Sonrakı illər Ə.Babayev lazım olduqda terror törətmək üçün Bakı metropoliteninin "Əzizbəyov", "Gənclik" stansiyaları, Bakıdakı çörək kombinatı, Neftçala yod zavodu və digər obyektlərdə mühafizə sisteminin vəziyyəti barədə məlumat vermişdir. Xəyanətkar həbs edilmiş və uzun müddətə azadlıqdan məhrum edilmişdir.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri, Dağlıq Qarabağ ərazisindəki ermənilərin qeyri-qanuni silahlı dəstələri keçmiş SSRİ-nin Xankəndində yerləşən 366-cı motoatıcı alayının şəxsi heyətinin və hərbi texnikasının bilavasitə iştirakı ilə Xocalı şəhərini zəbt edərək, Azərbaycan xalqına qarşı soyqırımı həyata keçirmişdir. Xocalının işğalı zamanı bir gecədə dinc əhalidən 613 nəfər, o cümlədən 63 uşaq, 106 qadın, 70 qoca xüsusi amansızlıqla, işgəncələrlə öldürülmüş, yüzlərlə insan əsir və girov götürülmüş, itkin düşmüşdür.

Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində 5000-dən artıq Azərbaycan vətəndaşı, o cümlədən 55 uşaq, 326 qadın, 409 qoca itkin düşmüşdür. Erməni əsirliyində olmuş 1500-ə yaxın Azərbaycan vətəndaşı, o cümlədən uşaq, qadın və qocalara işgəncələr verilmiş, onlar ömürlük şikəst edilmişlər.

Erməni əsirliyindən qayıdan şəxslərin ifadələri əsasında itkinlərin siyahısında olan 783 nəfər Azərbaycan vətəndaşının ermənilər tərəfindən əsir götürüldüyü, lakin onların beynəlxalq təşkilatlardan gizlədildiyi müəyyən edilmişdir. Əksəriyyəti uşaqlar, qadınlar və qocalardan ibarət olan bu şəxslər barəsində Ermənistan tərəfi bu gün də məlumat verməkdən imtina edir.



Ermənistan ərazisində azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti həyata keçirilmişdir. 1988-ci ilin yanvarından etibarən Ermənistanın 185 yaşayış məntəqəsindən 250 mindən artıq azərbaycanlı zorla qovulmuş, 217 nəfər ermənilər tərəfindən xüsusi qəddarlıqla qətlə yetirilmişdir.

Azərbaycan Respublikasının Dağlıq Qarabağ ərazisi və onun ətrafındakı 7 inzibati rayonun Ermənistan Respublikası silahlı qüvvələri tərəfindən işğalı nəticəsində 20 mindən çox insan qətlə yetirilmiş, 50 mindən artıq adam yaralanmış və şikəst olmuşdur. Bir milyondan artıq insan isə qaçqın və məcburi köçkünə çevrilmişdir.

Terrorçuluğun formalarından biri də bioterrorçuluqdur. Bioterrorçuluğun milli təhlükəsizliyə təhdid kimi nəzərdən keçirilməsi aşağıdakı amillərlə bağlıdır:

- Bioloji silah yaratmaq üçün onun tərkib hissələrinin asan tapılması;
- Bioterrorçuluğun həyata keçirilməsi üçün vasitələrin və obyektlərin geniş yayılması;
- Terror aktının törədildiyi vaxt ilə onun nəticəsi arasında uzun müddətin olması və s.

Terrorçuluğun bütün növləri kimi, **bioterrorçuluq** da ideoloji-siyasi köklərə malikdir. Bioterrorçuluğun məqsədləri qismində müasir dünyada hakimiyyət və iqtisadi-siyasi təsir uğrunda mübarizənin çıxış etməsi, XXI əsrdə terrorçulardan müxtəlif ölkələrin əhalisi və hökumətlərinə ciddi şəkildə təsir edə biləcək vasitələrdən istifadə etməyə sövq edir. Prinsip etibarilə bioterrorçuluq terrorrun bir növüdür. Lakin onun vasitələri kimi bioloji agentlər, o cümlədən xüsusən təhlükəli infeksiyaların oyadıcıları çıxış edirlər. Bu mənada terrorun yalnız forma və metodları dəyişir, mahiyyəti isə dəyişməz qalır.

Bəşər tarixində işğalçı müharibələr zamanı taun və çiçək xəstəliyinin dəhşətli şəkildə yayılmasına səbəb olan bioloji daşıyıcılardan istifadəsi haqqında məlumatlar mövcuddur.

Sonralar terrorçular və ya cinayətkar dəstə üzvləri tərəfindən bioloji silahın istifadəsi, alınması, bioloji silahla təhdid və yaxud bu cür silaha maraq göstərmələri ilə bağlı 110 şübhəli epizod qeydə alınmışdır.

Bir qayda olaraq ikili təyinatlı səciyyə daşıyan biotexnologiyaların geniş yayılması, bioloji daşıyıcıların istehsalı və onlardan istifadə üzərində nəzarətin çətinliyi, bioloji silahların üçüncü dünya ölkələri tərəfindən lokal hərbi münaqişələrdə, eləcə də təxribat və terror məqsədləri ilə istifadə etmələri ehtimalını artırır. Bununla yanaşı, bioloji silahın nüvə və kimyəvi silahlara nisbətən üstünlüyü də qeyd olunur. Belə ki, bioloji silahların istifadəsi kənd təsərrüfatı bitkiləri və heyvanlara qarşı gizli şəkildə istifadə edilir. Belə aksiyalar «iqtisadi müharibə» məqsədilə həyata keçirilə bilər.

Bioloji daşıyıcıların terrorçular üçün əlverişli olmasının digər səbəbləri də mövcuddur. İlk növbədə bioloji daşıyıcıların kifayət qədər asan istehsalı, saxlanılması və ötürülməsi, ondan gizli şəkildə istifadənin mümkünlüyü amilləri mövcuddur. Bioterror təhlükəsi təhlükəli daşıyıcıların və onlardan qəsdən istifadənin üzə çıxarılması baxımından səhiyyə sisteminin kifayət qədər yüksək səviyyədə inkişaf etməsini tələb edir.

Hal-hazırda heç bir ölkə təkbaşına bioterrorçuluq təhlükəsinə qarşı durmaq iqtidarında deyildir. Dünya Səhiyyə Təşkilatının qeyd etdiyi kimi, bütün dünyada ictimai səhiyyə sistemi təbii mənbəli yoluxucu xəstəliklərlə mübarizədə maksimum imkanları daxilində mübarizə aparır və bioterrorçuluq təhlükəsi bu sistemin iflicinə gətirib çıxara bilər.

**Müasir dövrdə terrorçuluğun formalarından biri də kiberterrorçuluqdur.**

Bu gün aparıcı ölkələrdə informasiya məkanında mübarizənin aparılma mexanizmlərinin təkmilləşdirilməsi, yeni üsulların tətbiqi ilə rəqib tərəfin kompüter şəbəkələrinin, informasiya məkanına daxil olan elementlərin sıradan çıxarılması istiqamətində fəal surətdə işlər həyata keçirilir. Aparıcı



dövlətlərin geosiyasi maraqlarını təmin etmələri üçün hərbi müdaxilədən daha çox, məhz informasiya məkanında aparılan müharibələrdən istifadə edəcəkləri proqnozları mövcuddur. Həyata keçirilən kiber hücum faktları problemin aktuallığını göstərir.

Kiberterrorçuluğun əlverişliliyi ondadır ki, kompüter hücumlarını proqnozlaşdırmaq və real vaxt rejimində izləmək praktiki olaraq mümkünsüzdür. Bu hücumlar istənilən zamanda, dünyanın istənilən yerindən başlaya bilər və bunun düşmən dövlətlərin xüsusi xidmət orqanları, terrorçu təşkilatlar, ayrı-ayrı cinayətkarlar və ya kiberxuliqanlıq edən gənclər tərəfindən törədildiyini müəyyənləşdirmək çətindir. Həmçinin kiberterrorçuluq yeni bir anlayış olduğundan tam şəkildə öyrənilməyib və ona görə də ona qarşı tam mübarizə aparmaq çətindir.

Ümumilikdə kiberterrorçuluğu insanların həyat fəaliyyətinə, sağlamlığına təhlükə yaradan vətəndaşlara təzyiq göstərilməsi və münaqişəyə təhrik edilməsi məqsədilə kompüterdə yerləşən məlumata, kompüter sisteminə və ya şəbəkəyə törədilən hücum kimi xarakterizə etmək mümkündür. Həmçinin kiberterrorçuluq dedikdə, kompüterdə emal olunan informasiyaya, kompüter sisteminə və şəbəkəsinə düşünülmüş, siyasi motivlərə əsaslanmış hücum başa düşülür. Əgər belə hərəkətlər ictimai təhlükəsizliyin pozulması, əhalinin qorxudulması, hərbi münaqişələrin, təxribatlarının törədilməsi məqsədilə həyata keçirilmiş olarsa, onda bu hücum insanların həyatı və sağlamlığı və ya digər ağır fəsadların baş verməsi üçün daha böyük təhlükə yaradır. Bu, müəyyən siyasi və ya digər məqsədlərin əldə olunması, şəxslərin, təşkilatların və ya hakimiyyət strukturlarının müəyyən hərəkətlərə məcbur edilməsi, kiberterrorçunun şəxsiyyətinə və terrorçu təşkilata diqqətin yönəldilməsi məqsədilə əhalinin təhlükəyə məruz qoyulması, daimi qorxu vəziyyətində saxlanması şəklində özünü göstərir.

Kiberterrorçu – kiberterrorçuluğu həyata keçirən və ya bu işdə iştirak edən şəxs, yəni xüsusi təyinatlı xakerdir. Öz məqsədlərinə çatmaq üçün partlayıcı maddələr və atıcı silahlardan istifadə edən adi terrorçudan fərqli olaraq, kiberterrorçu kompüter sistemlərinə icazəsiz soxulmaq və informasiya ehtiyatlarına uzaq məsafədən hücumlar təşkil etmək üçün müasir informasiya texnologiyalarım, kompüter sistemlərini və şəbəkələrini, xüsusi proqram təminatını istifadə edir. Kibercinayət ictimai təhlükəsizliyin pozulması, əhalinin qorxudulması və ya hakimiyyət orqanları tərəfindən cinayətkarlara sərfəli olan qərarların qəbuluna təsir edilməsi, özlərinin maddi və digər maraqlarının qanunsuz yolla təmin olunması məqsədi ilə telekommunikasiya sistemlərinin, kompüter şəbəkələrinin və onların komponentlərinin sıradan çıxarılması, şəbəkə mühitində fəaliyyət göstərən kompüter proqramlarının işinə, kompüter məlumatlarına icazəsiz (qanunsuz) müdaxilə etməklə və digər yollarla dövlətin xüsusilə vacib infrastruktur seqmentlərinin işinin pozulmasına, insanların tələf olmasına, əhəmiyyətli maddi ziyanın vurulmasına səbəb olan və ya digər ciddi ictimai təhlükə yaradan əməllərdir.

Terrorçuların internet şəbəkəsindən istifadəsi geniş yayılmışdır. Onlar internetdən potensial məqsədlər üçün geniş və hərtərəfli informasiya əldə edə bilərlər (məsələn, nəqliyyat infrastrukturları, atom elektrik stansiyaları, hava limanları, metro və sair barədə). İnternetdə partlayıcı maddələrin, kimyəvi, sadə bioloji silahların yaradılması və onların yayılması ilə bağlı çoxlu sayda saytlar mövcuddur. Hətta bu silah növlərinin maskalanması və dövlət sərhədlərindən keçirilməsi məqsədilə də məsləhətlər verilir.

Ekstremistlər internetdən qeyd olunanlarla yanaşı, terror fəaliyyətinin planlaşdırılması və əlaqələndirilməsi məqsədilə də istifadə edirlər. Belə ki, məlumata əsasən «Əl-Qaidə» terror təşkilatının üzvləri 11 sentyabr 2001-ci il tarixdə terror aktlarının həyata keçirilməsində internetdən fəal şəkildə istifadə etmişlər. Amerikalılar tərəfindən terror-



çuların minlərlə şifrələnmiş danışıqları qeydə alınmışdır. Terrorçular tərəfindən İnternet bitərəf təəssübkeşlərinə təsir vasitəsi kimi də istifadə edilir.

İnternet vasitəsilə geniş auditoriyaya informasiya-təbliğat təsirlərinin aparılması ciddi narahatçılıq törədərək, ekstremist ideyaları qəbul etmiş yerli vətəndaşların iştirakı ilə kütləvi terrorçu yuvalarının yaranmasına gətirib çıxara bilər.

Təbliğat məqsədilə bir çox terror təşkilatları hər hansı dövlət tərəfindən dəstək almaqda maraqlı olduqda ölkənin dövlət dilində sayt yaradaraq, orada məqsədləri, daxili və xarici siyasətləri haqqında dəqiq məlumatları yerləşdirirlər. Bu saytlar özündə cəlbedici ritorik məlumatlar, xüsusi şüarlar əks etdirərək, bəzi məlumatların satışına da yönələ bilər (bu əsasən, nişanlar, bayraqlar, videoyazılar, audiokasetlər ola bilər).

Müasir dövrdə terrorçuluq fəaliyyətinin həyata keçirilməsi zamanı bir sıra metodlardan istifadə edilir. Beləliklə, **terrorçuluğun təsir metodlarını** aşağıdakı şəkildə qruplaşdırmaq olar:

- fiziki zorakılığın (ayrı-ayrı şəxslərin və hətta bütöv qrupların həyatdan məhrum edilmələri, şikəstliklərin və digər bədən xəsarətlərinin yetirilməsi, azadlığın məhdudlaşdırılması) istifadəsi ilə həyata keçirilən terrorçuluq;
- maddi obyektlərin (yanğın, dövlət obyektlərinin, ictimai, kollektiv və ya xüsusi mülkiyyətin dağıdılması) məhvi ilə əlaqədar terrorçuluq;
- mənəvi-psixoloji zorakılıq (təhdidlər, şantac, güc nümayiş etdirilməsi, ultimativ tələblər, çaxnaşma, şayiələrin yayılması və s.) metodlarının tətbiqi ilə həyata keçirilən terrorçuluq.

Bir sıra metodların mahiyyətinə nəzər yetirək.

**Təxribat** – zərərin vurulması və insan qurbanlarının olması məqsədi ilə nəqliyyat vasitələrinin və ya binaların partladılması, bəzən isə insanların məhv edilməsi üçün (məsələn, münaqişə zonasında zəhərləyici maddələrin yayılması) açıq şəkildə həyata keçirilir. Təxribat ilə dərəcəsinə görə

ən güclü psixoloji səmərə əldə edilir. Terrorçular tez-tez müxtəlif mağazaları, bankları, yaşayış binalarını, mehmanxanaları, aeroportları, nəqliyyat magistrallarını, istehsalat qurğularını və s. minalayırlar.

**Oğurlama** – bir qayda olaraq buna ictimaiyyətin diqqətini cəlb etməyə qadir olan əhəmiyyətli şəxslər məruz qalırlar: məşhur siyasətçilər, məmurlar, jurnalistlər, diplomatlar. Bu aktlar siyasi tələblərin yerinə yetirilməsinə nail olmaq, hakim təbəqələrin qorxudulması və ya təşkilatın fəaliyyətinə vəsaitlərin alınması məqsədləri üçün (bu məqsəddən çox vaxt Bask terrorçuları, Latın Amerikası partizanları istifadə edirlər) həyata keçirilir.

**Nəqliyyat vasitələrinin tutulması** - nəqliyyat vasitəsi olan təyyarənin, dəmir yolu qatarının, avtomobilin, gəminin tutulması.

**Təyyarələrin tutulması** - bu akt xüsusi istiqamət təşkil edir və daha tez-tez baş verir. Belə aksiyalar öz zirvəsinə 1960-cı illərdə çatmış (bütün aktların 38%-ni aviaxətlərə olan hücumlar təşkil edirdi), əsrin sonunda isə 12%-ə qədər azalmışdır. Təyyarələrin tutulması digər nəqliyyat vasitələrinin tutulmasından daha çox səmərəlidir. Belə ki, birincisi, girovlara zərər vurulması ehtimalına görə xüsusi xidmətlərin terrorçulara qarşı hücumunun həyata keçirilməsi ehtimalını azaldır. İkincisi, təyyarə təqibdən xilas olmaq üçün daha sərfəli vasitə sayılır. Bir çox belə aktlar hər hansı bir ölkədə aparılan mübarizəyə diqqətin cəlb edilməsi üçün həyata keçirilmişdir.

**Qəsd etmə və qətl** – terrorçuluğun əsas metodlarıdır. Onlar silahlı qruplar tərəfindən həyata keçirilir, nümayişkaranə ünvanlığı ilə fərqlənirlər. Ona görə də dar auditoriyaya məqsədyönümlü psixoloji təsir üçün daha səmərəlidirlər. Bu halda terrorçunun həyatı təhlükəyə məruz qalır, ona görə də zəif hüquq mühafizə strukturuna malik dövlətlərdə belə aktlar yüksək peşəkar terrorçular tərəfindən həyata keçirilir.



**Qarət (ekspropriasiya)** – indiki zamanda «qırmızı» meyilli ekstremistlərin terrorçu fəaliyyətinin həyata keçirilməsi üçün vasitələrdən biridir. Həm mübarizənin aparılması üçün vəsaitlərin alınması, həm də təbliğat məqsədləri ilə aparılır. Daha çox təzahürü inqilabi sabitsizlik dövrləridir.

**Silahlı hücum** - bir qayda olaraq insanlara və mülkiyyətə əhəmiyyətli zərərin vurulmasıdır. Xüsusiyyəti ondadır ki, terrorçu təşkilatlar tərəfindən təşəkkülü mərhələsində hələ irimiqyaslı əməliyyatların aparılması təcrübəsinin olmadığı zaman baş verir. Həmçinin aktiv fəaliyyət göstərən təşkilatlar tərəfindən silahlı əməliyyatların aparılması bacarığının nümayişi kimi həyata keçirilir.

**Binaların tutulması** – daha çox terrorçuların hücumlarına səfirliklərin binaları, hökumət müəssisələri, partiya ofisləri, kinoteatrlar, məktəblər və s. məruz qalır. Təbiidir ki, binanın tutulması ilə terrorçuluq hərəkətləri məhdudlaşmır. Terrorçular üçün işlərin uğurlu gedişi halında onlara tutulmuş binanı tərk etmək imkanı verilir. Bu da bir qayda olaraq girovların ötürülməsi prosesi zamanı baş verir.

Terrorçuluğa qarşı müxtəlif dövlətlərin koalisiyası mövcuddur. Bu sahədə iki və çoxtərəfli çərçivələrdə əməkdaşlıq həyata keçirilir. Bu təhdidlərin səbəbləri, mahiyyəti və imkanları araşdırılır, müvafiq adekvat tədbirlər görülürsə də, terrorçuluq anlayışını müəyyənləşdirən, onun beynəlxalq xarakterini açıqlayan vahid, razılaşdırılmış mövqe yoxdur.

Terrorçuluqla mübarizə probleminin həll edilməsinin mürəkkəbliyi çox halda onunla şərtləndirilir ki, o, nadir hadisə kimi meydana çıxır və sosial-siyasi, iqtisadi, mədəni inkişafın tamamilə müxtəlif səviyyələrində olan, müxtəlif problemlərlə toqquşan cəmiyyətlərə zərbə endirir. Prinsipcə istənilən ictimai problem terror kampaniyaları üçün bəhanə, istənilən ideologiya onun əsası, istənilən cəmiyyət isə onun fəaliyyət sahəsi ola bilər. Hər hansı bir siyasi, sosial, milli və ya dini problemin birbaşa qeyri-legitim zorakılığın köməyi ilə həllinə nail olmaq məqsədi o zaman zərurətə çevrilir ki, bü-

tün siyasi və ideoloji konstruksiyalar terrora bəraət qazandırma vasitəsi kimi nəzərdən keçirilə bilir.

Qeyd olunduğu kimi, terrorçuluğun artmasının qarşısının alınması və ona qarşı daha müvəffəqiyyətli mübarizə aparmaq üçün mühüm şərtlərdən biri də bu sahədə milli qanunvericiliyin beynəlxalq standartlara uyğunlaşdırılmasıdır.

Terrorçuluğa qarşı mübarizə probleminin həllində beynəlxalq hüquq normalarına gəldikdə, qeyd etmək lazımdır ki, antiterror aksiyaları ilə əlaqədar konkret vəziyyətlərə aid fəaliyyət taktikaları beynəlxalq hüquqla reqlamentləşdirilmir. Bu onunla əlaqədardır ki, konkret halda mücərrəd planlarla hərəkət etmək məhsuldar olmaz. Ona görə də beynəlxalq hüquq sənədlərində terrorçulara qarşı hərəkətin hazır «qaydaları» yoxdur və ola da bilməz. Lakin onlar belə hərəkətlərin hüquqi əsaslandırılmasını özündə birləşdirir.

Terrorçuluğa qarşı mübarizənin taktika və texnologiyasına gəldikdə isə qeyd etmək lazımdır ki, hər bir antiterror xidməti üçün bunlar onun özünə məxsus olan qaydalardır. Həm də bu taktika və texnologiyalar hər bir xüsusi xidmət orqanı tərəfindən çoxillik praktiki fəaliyyət nəticəsində işlənilmiş olur, heç vaxt açılıb söylənilmir və gizli saxlanılır. Buna baxmayaraq bir sıra ölkələrin xüsusi xidmət orqanlarının antiterror əməliyyatlarını həyata keçirilməsində ümumi prinsiplər də mövcuddur. Bu prinsiplər aşağıdakılardır:

– qabaqlama; terrorçuluğun ilkin mərhələdə təcrid olunması, onun təşəkkül tapmasına və strukturlaşmasına imkan verilməməsi;

– «millətin hüququnun müdafiəsi», «dinin müdafiəsi» altında terrorun ideoloji pərdələnməsinə yol verilməməsi;

– kütləvi informasiya vasitələrinin imkanlarından istifadə etməklə terrorçuluğun ifşa edilməsi;

– antiterror fəaliyyəti sahəsində bütün idarəetmə işlərinin daha peşəkar xüsusi xidmət orqanlarına verilməsi; bu



halda onların işinə digər idarəetmə orqanlarının qarışmasına yol verilməsi;

– terrorçularla danışıqların yalnız bu xüsusi xidmət orqanları tərəfindən həyata keçirilməsi;

– kütləvi informasiya vasitələrinin fəaliyyətinin məqsədyönlü istiqamətləndirilməsi.

Antiterror sahəsində qarşılıqlı əlaqənin beynəlxalq hüquqi əsaslarının formalaşdırılması üzrə ilk təşəbbüs hələ İkinci Dünya müharibəsinə qədər edilmişdir. 1937-ci ildə Millətlər Birliyinin himayəsi altında terrorçuluğun qarşısının alınması, terrorçuluq fəaliyyətinə görə cəza tədbirlərinin tətbiq olunması və Beynəlxalq Cinayət Məhkəməsinin yaradılması barədə Konvensiya hazırlanmışdı. Bu sənədlərdən heç birinin qüvvəyə minməməsinə baxmayaraq, onlar terrorçuluğa qarşı mübarizənin beynəlxalq hüquqi norma və prinsiplərinin təşəkkül tapmasında müəyyən rol oynamışlar.

Terrorçuluğa qarşı çoxtərəfli əməkdaşlıq sistemi əsasən son əlli ildə formalaşmışdır. Qlobal səviyyədə o, terrorçuluğun quruda, suda və havada müxtəlif təzahürlərinə qarşı mübarizə sahəsində qəbul olunmuş universal Konvensiya və protokollar əsasında BMT və onun ixtisaslaşmış qurumlarının himayəsi altında həyata keçirilir.

Terrorla mübarizədə bir çox dövlətlərin siyasəti aşağıda qeyd olunan prinsiplərə söykənir:

– terrorçulara heç bir güzəşt edilməməsi;

– terrorçuluğa dəstək verən dövlətlərə maksimum təzyiq göstərilməsi;

– terrorçuları cəzalandırmaq üçün qüvvə və vasitələrdən tam istifadə olunması;

– hərbi gücdən istifadə etməklə digər dövlətlərə yardım göstərilməsi.

Terrora qarşı mübarizədə digər şərtlərlə yanaşı mühüm əhəmiyyət kəsb edən məsələlərdən biri də qətiyyət, terrora qarşı cavab kimi adekvat hərəkətlərin amansızlığı, texniki

cəhətdən yaxşı təchiz olunmuş və təlim görmüş xüsusi təyinatlıların olmasıdır.

Terrorla mübarizə proqramı özündə aşağıdakıları birləşdirir:

– terror və mütəşəkkil cinayətkarlığa qarşı mübarizəni əks etdirən hüquqi, beynəlxalq Konvensiyalar;

– terrora qarşı həyata keçirilən inzibati və rejim tədbirləri;

– terror hərəkətlərinin qarşısını almaq məqsədilə hyata keçirilən xüsusi əməliyyat-axtarış və texniki mühafizə;

– bütün ölkələrin xüsusi xidmət orqanlarının fəaliyyətlərinin əlaqələndirilməsi.

Dövlət orqanları ilə yanaşı terrora qarşı mübarizədə ictimaiyyət, siyasi partiyalar, təşkilatlar və hərəkatlar da vacib rol oynaya bilər. Mübarizənin əsas şərtlərindən biri də bütün qeyri-qanuni hərbiləşdirilmiş və silahlı qruplaşmaların ləğvindən ibarətdir. Terror və ekstremizm üçün mənbə hesab olunan sosial təzyiqlərin, qarşıdurmaların aradan qaldırılması ictimaiyyət arasında olan hörmətli şəxslərin köməyi ilə də həyata keçirilə bilər.

Terrorçuluğu qidalandıran maliyyə mənbələrinin kəsilməsi mühüm əhəmiyyətə malikdir. Bunun üçün bütün ölkələrdə vahid yanaşma və standartlar tətbiq olunmalıdır və burada ikili standartlara yol vermək olmaz. Hər şeydən əvvəl, pul köçürmələrinin monitorinqi keçirilməli, terrorçuluqda və ya ona dəstək verməkdə şübhəli bilinən şəxslərin və təşkilatların maliyyə vəsaitlərinin hərəkəti barədə müntəzəm informasiya mübadiləsi aparılmalıdır.

Beynəlxalq vəziyyət getdikcə daha çox ölkələrin terrorçuluğun hədəfinə çevrilməsi, dünya birliyinə qarşı terrorçuların yeni-yeni hədə və çağırışları ölkələrin xüsusi xidmət orqanlarının daha əlbir fəaliyyət göstərməsi zərurətini meydana çıxarır. Beynəlxalq terrorçuluq, mütəşəkkil cinayətkarlıq, narkotik vasitələr və silahların qanunsuz dövriyyəsi və



beynəlxalq xarakter daşıyan digər cinayətlərlə mübarizədə əməli nəticələrə nail olmaq üçün əldə olan imkanlardan qarşılıqlı istifadə etmək imkanlarını fəallaşdırır.

Beynəlxalq terrorçulara qarşı mübarizə aparmağın mürəkkəbliyi onun harada, nə zaman, məhz hansı təşkilat və ya şəxs tərəfindən həyata keçiriləcəyi barədə səhih məlumatın çox çətinliklə alınmasındadır. İndiyədək olan təcrübənin təhlili göstərir ki, terror aktlarının keçirilməsi bir ölkənin ərazisində hazırlanır, digər bir ölkənin ərazisində həyata keçirilir. İcraçılar isə adətən üçüncü ölkənin ərazisində gizlənirlər.

Yuxarıda deyildiyi kimi, bu amillər ona qarşı mübarizəni çətinləşdirməklə yanaşı, həm də bəzi hallarda antiterror koalisiyasma daxil olan ölkələr arsında fikir ayrılığna da səbəb olur. Bu da beynəlxalq terrorçuluğun qarşısının alınması üçün birgə mübarizədə daha səmərəli və təsirli tədbirlərin hazırlanmasına və həyata keçirilməsinə mane olur.

Qeyd edildiyi kimi, terrorçuluğa qarşı mübarizənin səmərəliliyi yalnız dövlət strukturları, o cümlədən hüquq-mühafizə və xüsusi xidmət orqanlarının fəaliyyəti ilə bağlı deyil, həm də bütövlükdə cəmiyyətin bu mübarizədə nə dərəcədə iştirak etməsindən asılıdır. Dövlət qurumları terrorçu təşkilatların təxribatçı fəaliyyəti barədə daha səmərəli izahat işləri aparmalı, onların ideologiyası, məqsədləri haqqında əhalini məlumatlandırmalıdır. Dövlət orqanları çalışmalıdırlar ki, informasiya yayımını tezləşdirməkdə, informasiya «müharibəsi»ndə irəlidə olsunlar. Ona görə ki, bu məsələdə informasiya qıtlığı dövlətin əleyhinə işləyir və müxtəlif yalan məlumatların yayılmasına səbəb olur.

Azərbaycan Respublikasında terrorçuluğa qarşı mübarizənin hüquqi bazasının formalaşdırılması istiqamətində də mühüm işlər görülmüşdür. Milli təhlükəsizlik siyasətinin və strategiyasının hüquqi əsaslarının yaradılmasına yönəlmiş Azərbaycan Respublikasının «Milli təhlükəsizlik haqqında» Qanununda terror təhdidi və ona qarşı səmərəli mü-

barizə vəzifəsi haqqında konseptual müddəalar əksini tapmışdır. Qanunda beynəlxalq terrorçuluq Azərbaycan Respublikasının milli təhlükəsizliyinə əsas təhdidlər kimi nəzərdə tutulmuş, müvafiq olaraq, beynəlxalq terrorçuluğa və transmilli cinayətkarlığa qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığın həyata keçirilməsi Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunması üçün əsas təhdidlər qismində müəyyən edilmişdir.

Terrorçuluqla mübarizə məsələləri üzrə Azərbaycan Respublikasının qanunvericiliyi beynəlxalq hüquq sənədlərinə uyğunlaşdırılmış və onun təkmilləşdirilməsi istiqamətində işlər aparılır. **Bu sahədə ən mühüm dövlətdaxili normativ-hüquqi akt Azərbaycan Respublikasının 1999-cu il 18 iyun tarixli «Terrorçuluqla mübarizə haqqında» Qanunu hesab olunur.** Bu qanun Azərbaycan Respublikasında terrorçuluqla mübarizənin hüquqi və təşkilati əsaslarını müəyyənləşdirir, bu mübarizəni həyata keçirən dövlət orqanlarının fəaliyyəti istiqamətlərini və vəzifələrini dəqiq ifadə edir.

## 4. Narkomaniya milli təhlükəsizliyə təhdid kimi

Milli təhlükəsizlik məsələlərindən bəhs açarkən narkomaniya ilə əlaqədar problemlərə də diqqət yetirilməlidir. Narkomaniya müxtəlif ictimai həyat sahələrinə mənfi təsir edir, şəxsiyyətin, cəmiyyətin və dövlətin maraqlarına ciddi ziyan vurur. **Narkomaniya siyasi, sosial, hüquqi, iqtisadi, bioloji və ekoloji aspektləri əhatə edir.** Onu narkomaniya xəstəliyinə tutulma və narkotiklərlə bağlı, sonradan narkotik almaq məqsədilə vəsait əldə etmək üçün və ya narkotik sərxoşluq vəziyyətində törədilmiş hüquqazidd əməllər məcmusunda ifadə olunan mənfi sosial hadisə kimi müəyyənləşdirmək olar. Belə əməllərə narkotik vasitələrin istifadəsi, hazırlanması, saxlanması, daşınması, göndərilməsi, satılması, oğurlanması; digər şəxslərin bunlardan istifadəyə təhrik edilməsi; tərkibində narkotik maddələr olan bitkilərin əkilməsi və becərilməsi; narkotik vasitələrin istehsalı, əldə edilməsi, saxlanması, uçotu, verilməsi, daşınması, göndərilməsinin müəyyən edilmiş qaydalarının pozulması; narkotik vasitələr qaçaqmalçılığı, həmçinin narkotik vasitələrlə bağlı olmayan, lakin sonradan bunların alınması üçün vəsait əldə etmək məqsədilə törədilən (quldurluq, dələduzluq və s.) müxtəlif qərəzli (o cümlədən, qərəzli-zorakı) cinayətlər və narkotik sərxoşluq vəziyyətində törədilən zorakı cinayətlər (şəxsiyyətə qarşı cinayətlər, xuliqanlıq və s.) aid edilir. Belə müəyyənetmə narkomaniyanın mahiyyətini əks etdirir, hüdud və təzahür sahələrini təyin edir, həmçinin miqyaslarının müəyyən edilməsi və ona qarşı mübarizə tədbirlərinin işlənib hazırlanması istiqamətlərini göstərir. Bununla bərabər, bu hadisənin əsl miqyasları həm narkomaniya xəstəliyinə tutulmanın, həm də narkotik vasitələrlə bağlı hüquqazidd əməllərin yüksək dərəcədə latentliliyi ilə pərdələnir.

**Narkomaniyanın siyasi aspekti** narkobiznes dairələrinin dövlət hakimiyyəti və idarəetmə orqanlarına təsir imkanlarını özündə birləşdirir.

**Narkomaniyanın sosial aspekti** konkret olaraq narkotik vasitələrlə və onların ictimai münasibətlərə vurduğu və vura biləcəyi ziyan şəklində ictimai nəticələrlə bağlı olan sosial mənfi təzahürlər məcmusu kimi səciyyələndirilə bilər.

Narkomaniyanın mənfi sosial təzahürləri narkotik vasitələrlə bağlı aşağıdakı müxtəlif əməllərdə əks olunur: tərkibində narkotik maddə olan bitkilərin becərilməsi, narkotik vasitələrin hazırlanması, əldə olunması, saxlanılması, satılması, istifadə edilməsi, başqalarının bunlardan istifadəyə təhrik edilməsi və s.

**Narkomaniyanın hüquqi aspekti** tərkibində narkotik olan bitkilərin qanunsuz yetişdirilməsi, narkotik vasitələrin həkim təyinatı olmadan əldə edilməsi, saxlanılması, daşınması, göndərilməsi, satılması, narkotiklərlə rəftar qaydalarının pozulması, bunlardan istifadə üçün şərait yaradılması,

başqalarının bunlardan istifadəyə təhrik edilməsi ilə bağlı cinayət və digər hüquq pozuntuları, həmçinin sonradan narkotiklər almaq məqsədilə vəsait əldə etməkdən ötrü və ya narkotik sərxoşluq vəziyyətində törədilmiş cinayətlər məcmusundan ibarətdir. Narkomaniyanın hüquqi aspekti, həmçinin vətəndaşlar tərəfindən narkotik vasitələrin qeyri-tibbi istifadəsi ilə bağlı meydana çıxan müxtəlif hüquqi münasibətlərin qanunvericiliklə tənzimlənməsini də əhatə edir.

**Narkomaniyanın iqtisadi aspekti** dövlətin iqtisadiyyatına vurulan zərəri əks etdirir. Bu zərərin bir sıra ünsürlərindən əsaslarını göstərmək olar: narkobiznes işbazlarının külli miqdarda pul vəsaitlərini ələ keçirmələri və bunlardan cinayətkar məqsədlərlə istifadə etmələri nəticəsində dövlətin büdcəsini təşkil edən və iqtisadiyyatın inkişafı üçün nəzərdə tutulan pul fondlarının azalması; narkotik vasitələrdən istifadə edənlərin əmək məhsuldarlığının aşağı düşməsi nəticəsində istehsal olunan maddi nemətlərin də həmçinin aşağı düşməsi; narkotik vasitələrlə bağlı cinayətlərlə mübarizəni həyata keçirən hüquq-mühafizə orqanlarının saxlanması və fəaliyyət göstərməsi üçün dövlət məsariflərinin verilməsi; narkomanların müalicə və reabilitasiyası məqsədilə müxtəlif tədbirlər görülməsi üçün dövlət büdcəsindən xərclərin ödənilməsi.

**Narkomaniyanın ekoloji aspekti** narkotik bitkilərin becərilməsini, məqsədli əkilən və yabanı şəkildə bitən bu cür bitkilərin olduğu sahələrin geniş yayılmasını özündə birləşdirir. Narkomaniyanın ekoloji aspekti, bir tərəfdən, təbiətdə tərkibində narkotik maddə olan yabanı bitkilərin mövcud olması, digər tərəfdən, tərkibində narkotik olan bitkilərin süni surətdə yetişdirilməsi ilə xarakterizə olunur. Həmin bitkilər narkotik vasitələrin alınması, hazırlanması mənbəyidir.

**Narkomaniyanın bioloji aspekti** ondan ibarətdir ki, narkomaniya «kiçik dozalarda eyforiyaya, böyük dozalarda gicəllənmə, narkotik yuxuya səbəb olan narkotiklərə (məsələn, morfiyə) qarşı dəfedilməz meyilliliklə xarakterizə olunan xəstəlikdir. Narkomaniya zamanı daxili orqanlar



zədələnir, nevroloji və psixi pozuntular meydana çıxır, sosial tənəzzül inkişaf edir. Bioloji aspektin ifadəsi kimi narkomaniya tamamilə tibb dairəsindədir.

Antinarkomaniya narkomaniyanın aradan qaldırılmasına yönəldilmiş müxtəlif tədbirlər kompleksindən ibarətdir. «Antinarkomaniya» anlayışı «narkomaniya ilə mübarizə» anlayışına uyğun gəlir.

**Antinarkomaniyanın siyasi aspektinin** əsasını narkobiznes işbazlarının və onların əlaltılarının dövlət hakimiyyəti və idarəetmə orqanlarına təsir göstərmə imkanının tamamilə istisna olunması təşkil edir. Bunun üçün belə şəxslərin göstərilən orqanlarda əsas vəzifələrə irəli çəkilməsinin qarşısını almaq lazımdır. Bu aspektdə antinarkomaniya göstərilən dövlət orqanlarının möhkəmləndirilməsini və qanunvericiliyə, hökumət qərarlarına və digər qanunqüvvəli aktlara müvafiq olaraq dövlət siyasətinin həyata keçirilməsini təmin edir.

**Antinarkomaniyanın sosial aspekti** narkotik vasitələrin cəmiyyətə vura biləcəyi ziyanın aradan qaldırılması, həmçinin yarada biləcəyi mənfi sosial dəyişikliklərin qarşısının alınmasını özündə ehtiva edir.

**Antinarkomaniyanın hüquqi aspekti** bu sahədəki cinayətkarlığa qarşı mübarizə tədbirlərini özündə birləşdirir.

**Antinarkomaniyanın iqtisadi aspekti** retrospektiv və perspektiv istiqamətlərdə təzahür edir. Retrospektiv istiqamət, bir tərəfdən, dövlətin narkomaniya ilə mübarizəyə birbaşa maliyyə, maddi və başqa vəsaitləri sərf etməsindən və narkobiznes səbəbindən itirilmiş mənfəətlərdən ibarətdir. Antinarkomaniyanın iqtisadi aspektinin perspektiv istiqaməti narkobiznesə qarşı duran iqtisadi vasitələrin işlənib hazırlanması və istifadəsindən ibarətdir.

**Antinarkomaniyanın ekoloji aspekti** tərkibində narkotik olan bitkilərin saxlanması və yayılmasını məhdudlaşdıran, bunların becərilməsinin qadağan olunması, təbiətə zərər yetirmədən məhv edilməsi, yalnız xüsusi sahələrdə və

*yalnız tibbi məqsədlərlə becərilməsinə icazə verilməsindən* ibarət dövlət-hüquq tənzimlənməsi ilə bağlıdır.

**Antinarkomaniyanın bioloji aspekti** tibbi nöqteyi-nəzərdən narkomaniyaya qarşı mübarizə tədbirlərini əhatə edir.

Göründüyü kimi, narkomaniya hər üç milli təhlükəsizlik obyektinin maraqlarına qarşı yönəldilmişdir. Bu da onu göstərir ki, narkomaniyanın ictimai həyatın bütün sahələ-rinə mənfi təsirləri labüddür. Bütün bunlar narkomaniyanı *milli təhlükəsizlik problemi* kimi nəzərdən keçirməyə imkan verir.

Azərbaycan Respublikasında narkomaniya problemlərin, xüsusən narkotik vasitələrin tranziti məsələsi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə sıx bağlıdır. Münaqişə nəticəsində Dağlıq Qarabağ və ona bitişik ərazilər erməni qüvvələri tərəfindən zəbt olunmuş və hal-hazırda narkotranzit məkan kimi bir çox qüvvələr tərəfindən istifadə olunur. Həmçinin bu ərazilərdə narkotik məhsulların becərilməsi də geniş vüsət almışdır. Belə bir məkanın mövcudluğu Azərbaycan Respublikasının digər əraziləri üçün də narkomaniyanın ciddi bir təhdid kimi çıxış etdiyini göstərir.

Bununla yanaşı, Azərbaycan Respublikasının nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşməsi, onun tranzit ölkə kimi narkobiznes dairələrinin marağında olmasını şərtləndirir. Son illər MTN-in həyata keçirdiyi əməliyyat tədbirləri narkotiklərin qanunsuz dövriyyəsinə qarşı səmərəli fəaliyyət göstərən milli təhlükəsizlik sisteminin olduğunu göstərir. Həyata keçirilən tədbirlərin məqsədi təkcə Azərbaycanı deyil, həmçinin digər ölkələrin də bu bəladan qurtarılmasıdır.

Transmilli mütəşəkkil cinayətkarlığın, beynəlxalq terrorçuluğun maliyyələşdirilməsində əsas rol oynayan narkotiklərin qanunsuz dövriyyəsi onunla mübarizəyə kompleks yanaşılmasını, bu işə bütün qüvvə, imkan və vasitələrin səfərbər olunmasını tələb edir. Qeyd edilənlərlə əlaqədar, eləcə də Azərbaycan ərazisindəki narkotiklərin Asiyadan Avropaya daşınması üçün istifadə olunmasına göstərilən cəhdlər, habelə narkoşəraitin təhlili nəzərə alınmaqla, respublikada narkotiklərin qanunsuz dövriy-



yəsi ilə mübarizənin gücləndirilməsinə xidmət edən qanunvericilik bazasının təkmilləşdirilməsinə, beynəlxalq əməkdaşlığın genişləndirilməsinə, hüquq-mühafizə orqanlarının fəaliyyətinin səmərəliliyinin artırılmasına böyük diqqət yetirilir.

Azərbaycan Respublikasında narkomaniya ilə bağlı müxtəlif qanunvericilik aktları qəbul edilmişdir. Azərbaycan Respublikası Prezidentinin «Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı tədbirlər haqqında» 1996-cı il 26 avqust tarixli Fərmanı, «Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə 2006-cı ilədək «Ümummilli proqram» və digər qanunlar, fərmanlar, normativ-hüquqi aktlar narkotiklərlə mübarizənin əsas strateji xəttini müəyyənləşdirmişdir.

2005-ci ildə qəbul olunmuş «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında», «Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün kifayət edən narkotik vasitələrin və psixotrop maddələrin miqdarına, habelə onların külli miqdarına görə» və «Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilmiş, məhdudlaşdırılmış və nəzarət edilən narkotik vasitələrin, psixotrop maddələrin, habelə Azərbaycan Respublikasının ərazisində idxalına ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya (xüsusi razılıq) tələb olunan prekursorların siyahılarının təsdiq edilməsi haqqında» Qanunlar bu sahədə dövlət orqanlarının, fiziki və hüquqi şəxslərin hüquq və vəzifələrinin mövcud ictimai münasibətlərə uyğun şəkildə tənzimlənməsində mühüm əhəmiyyət kəsb edir.

2004-cü ilin yanvar ayında Bakıda keçirilmiş «Böyük İpək yolu dövlətlərində narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə» mövzusundakı beynəlxalq konfransın iştirakçılarına müraciətində **Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qeyd etmişdir ki, coğrafi mövqeyindən, ictimai-iqtisadi quruluşundan, inkişaf səviyyəsindən, mədəni və tarixi əlaqələrindən asılı olmayaraq, elə bir ölkə yoxdur ki, dövrümüzün qlobal**

**problemlərindən biri olan narkotiklərin qanunsuz dövriyyəsi ilə qarşılaşmasın.**

Narkomanlığa qarşı mübarizədə səmərəliliyə nail olmaq üçün aidiyəti dövlət orqanları arasında qarşılıqlı əlaqələrin təşkil edilməsi və nəzarət mexanizminin həyata keçirilməsi məqsədilə yaradılmış Dövlət Komissiyası və ölkə Prezidentinin 2007-ci il 28 iyun tarixli Fərmanı ilə təsdiq edilmiş, 2007-2012-ci illəri əhatə edən «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsinə qarşı, narkomanlığın yayılması ilə mübarizə üzrə Proqram» ölkəmizdə narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizənin təşkilinə xüsusi təkan vermişdir. Eləcə də, İlham Əliyevin 2005-ci il 28 iyun tarixli Fərmanı ilə təsdiq olunmuş «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» Qanun narkotiklərlə mübarizə istiqamətində müvafiq dövlət və ictimai qurumlar qarşısında konkret vəzifələr qoymuş və bu istiqamətdə fəaliyyətin hüquqi bazasını təşkil etmişdir.

Beynəlxalq əməkdaşlığın aktuallığı və vacibliyi nəzərə alınaraq, Azərbaycan Respublikası BMT-in «Narkotik vasitələrə dair» 1961-ci il, «Psixotrop maddələrə dair» 1971-ci il və «Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə mübarizəyə dair» 1988-ci il tarixli Konvensiyalarına qoşulmuşdur.

XX əsrin əvvəllərindən etibarən dünyada beynəlxalq narkomafiya intensiv formalaşma və inkişaf mərhələsindədir.

Qeyd etdiyimiz kimi, Azərbaycan Respublikası coğrafi mövqeyinə görə narkotiklərin ən çox istehsal olunduğu Asiya dövlətləri ilə narkotiklərin ən çox istehlakçısı olan Avropa dövlətlərinin arasında yerləşir. Ərazisindən keçən dəmir və avtomobil yolları, Xəzər dənizi vasitəsilə Orta və Mərkəzi Asiyadan gələn yük daşımalarının bu ərazidən həyata keçirilməsi narkotiklərin daşınması üçün də əlverişlidir. Bütün bunlar ölkədə onunla mübarizəni zəruri edir.



# IV FƏSİL

## Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunması sistemi

1. **«Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası»nın ümumi səciyyəsi**
2. **«Azərbaycan Respublikasının dəniz təhlükəsizliyi strategiyası»nın ümumi səciyyəsi**
3. **Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunması sisteminin vəzifələri, məqsədləri və prinsipləri**
4. **Azərbaycan Respublikasının milli təhlükəsizliyini təmin edən qüvvələr və dövlət orqanları**
5. **Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunmasının tərkib hissələri. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin anlayışı**
6. **Milli Təhlükəsizlik Nazirliyinin yaranması və tarixi inkişaf təkamülü**
7. **Milli Təhlükəsizlik Nazirliyinin vəzifələri və fəaliyyətinin normativ-hüquqi bazası**
8. **Milli təhlükəsizlik orqanlarının kadr potensialının gücləndirilməsində MTN-in Heydər Əliyev adına Akademiyasının rolu**

## 1. «Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası»nın ümumi səciyyəsi

**Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası dövlətin müstəqilliyini, ərazi bütövlüyünü və demokratik inkişaf yolunu, strateji seçimi kimi Avratlantik məkana inteqrasiyasını, bununla yanaşı tarazlaşdırılmış xarici siyasətinin çoxşaxəliliyini vurğulayan, Azərbaycan Respublikasında şəxsiyyət, cəmiyyət və dövləti xarici və daxili təhdidlərdən qorumağa yönəlmiş siyasət və tədbirlərin məqsəd, prinsip və yanaşmalarının məcmusudur.**

Qərblə Şərqin qovuşduğu coğrafi məkanda yerləşən Azərbaycan Respublikası bir çox sivilizasiyaların müsbət məqamlarını özündə cəmləşdirmişdir. Avropanın mütərəqqi dəyərlərini paylaşan və Avratlantik təhlükəsizlik arxitekturasının ayrılmaz hissəsi olan Azərbaycan Respublikası bu məkanın təhlükəsizliyinə öz töhfəsini verməkdədir. Eyni zamanda, islam dünyasının bir hissəsi kimi Azərbaycan Respublikası bu mədəniyyətin irs və təfəkkürünü bölüşür.

Azərbaycan Respublikasının yerləşdiyi və hazırda qeyri-sabit olan region dostluq və əməkdaşlıq ruhlu regional və beynəlxalq tərəfdaşlarla birlikdə inkişaf üçün səmərəli istifadə oluna biləcək geniş potensiala və imkanlara malikdir. Azərbaycan Respublikasının zəngin təbii ehtiyatları ölkənin çiçəklənməsi və milli rifahın təmin olunması üçün perspektivlər açır, onu beynəlxalq əhəmiyyətli enerji mənbəyi və beynəlxalq enerji təchizatı şəbəkəsinin mühüm tərkib hissəsinə çevirir. Azərbaycan Respublikasının və tərəfdaş ölkələrin iqtisadiyyatlarının inkişafına artıq töhfə verən beynəlxalq əhəmiyyətli nəqliyyat və kommunikasiya dəhlizlərinin inkişaf etdirilməsi, neft və qaz boru kəmərlərinin inşası region ölkələrinin əməkdaşlığının bariz nümunəsidir.



Ölkənin yerləşdiyi coğrafi şərait ona mühüm üstünlüklər verməklə yanaşı, eyni zamanda, onu bir sıra təhlükəsizlik problemləri ilə də üzləşdirir. Bu problemlərin ən ağır və bariz nümunəsi Azərbaycan Respublikasının qonşu Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalması, bunun nəticəsində ölkə ərazisinin bir hissəsinin işğal olunması və təxminən bir milyon azərbaycanlının məcburi köçkün və qaçqına çevrilməsidir. Təcavüz zamanı Azərbaycan Respublikasının vətəndaşlarına qarşı soyqırımı və terror aktları daxil olmaqla, sülhə və insanlığa qarşı ən ağır cinayətlər törədilmişdir. Bu gün də işğal olunmuş ərazilərdə transsərhəd mütəşəkkil cinayətkar, o cümlədən beynəlxalq terrorçu qruplar tərəfindən qeyri-qanuni fəaliyyət həyata keçirilməkdədir. İndiki Ermənistan və Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində azərbaycanlılara məxsus tarixi, mədəni və arxeoloji abidələr kütləvi surətdə dağıdılmış, təbii sərvətlər talan edilmiş, ətraf mühitə ciddi ziyan vurulmuşdur. Azərbaycan Respublikasının məruz qaldığı bu təcavüz onun hazırkı təhlükəsizlik mühitində və milli təhlükəsizlik siyasətinin müəyyən edilməsində əsas amildir.

Eyni zamanda, Azərbaycan Respublikasının təhlükəsizlik mühiti üçün beynəlxalq terrorçuluq, qeyri-qanuni miqrasiya, transmilli mütəşəkkil cinayətkarlıq, insan alveri, narkotik vasitələrin qaçaqmalçılığı və kütləvi qırğın silahlarının yayılması kimi təhdidlərin mövcudluğu dövlət qarşısında müəyyən vəzifələr qoyur.

Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasında **Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasətinin əsas istiqamətləri** aşağıdakı kimi öz əksini tapmışdır:

Təhlükəsizliyin xarici siyasət vasitələri ilə təmin edilməsi:

– Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa olunması;

– Avropa və Avratlantik strukturlara inteqrasiya;

– Beynəlxalq təhlükəsizliyə töhfə;
– Beynəlxalq təşkilatlarla əməkdaşlıq;
– Regional əməkdaşlıq və ikitərəfli münasibətlər;
– Region ölkələri ilə əməkdaşlıq;
– Qeyri-region ölkələri ilə əməkdaşlıq;
– Müdafiə qabiliyyətinin möhkəmləndirilməsi;

Təhlükəsizliyin daxili siyasət vasitələri ilə təmin edilməsi:
– Demokratiyanın möhkəmləndirilməsi;
– Milli və dini tolerantlıq mühitinin qorunması;
– Elm, təhsil, mədəniyyət və mənəviyyatın qorunması;
– İqtisadi və sosial inkişaf;
– Daxili təhlükəsizliyin möhkəmləndirilməsi;
– Sərhəd təhlükəsizliyinin möhkəmləndirilməsi;
– Miqrasiya siyasəti;
– Enerji təhlükəsizliyi siyasəti;
– Nəqliyyat təhlükəsizliyi siyasəti;
– Fövqəladə idarəetmə, ətraf mühitin və əhalinin sağlamlığının mühafizəsi;
– İnformasiya təhlükəsizliyi siyasəti.

Konsepsiyada qeyd edilir ki, suveren dövlət kimi, Azərbaycan Respublikası daxili və xarici siyasət vasitələrindən istifadə edərək mövcud təhlükəsizlik mühitində təhdidlərin nəzarət altında saxlanılmasına və aradan qaldırılmasına, habelə ölkənin milli maraqlarının təmin edilməsinə yönəlmiş milli təhlükəsizlik siyasətini formalaşdırır və həyata keçirir. **Milli təhlükəsizlik konsepsiyası Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasətinin əsasını təşkil edir və dövlətin milli maraqlarının qorunması məqsədi ilə müvafiq dövlət strukturlarının üzərinə xüsusi vəzifələr qoyur və bu kontekstdə onların əlaqələndirilmiş fəaliyyətini zəruri edir.** Konsepsiyada ölkənin daim dəyişən təhlükəsizlik mühiti, Azərbaycan Respublikasının milli maraqları və təhlükəsizlik siyasətinin əsas istiqamətləri də öz təsbitini tapmışdır.



Konsepsiyada daha sonra qeyd edilir ki, dövlətin daxili və xarici siyasətinə uyğun olaraq ölkənin təhlükəsizliyinin daha etibarlı təmin edilməsinə şərait yaradılması məqsədi ilə müntəzəm qaydada yeniləşdirilə bilər.

Həmçinin konsepsiya, hərbi doktrina, xarici siyasət strategiyası, müdafiə icmalı, iqtisadiyyat, mədəniyyət, elm, təhsil, səhiyyə və nəqliyyat strategiyaları da daxil olmaqla, dövlət fəaliyyətinin müxtəlif sahələri ilə bağlı daha müfəssəl sənədlərin hazırlanması üçün əsasdır.

Təhlükəsizlik sahəsində hazırlanacaq digər konseptual sənədlər ümumi ictimai konsensusu əks etdirməli, real olmalı və «Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası» ilə birlikdə, ölkədə demokratik, hüquqi dövlət, vətəndaş cəmiyyəti, demokratik nəzarət altında olan güclü və səmərəli təhlükəsizlik quruculuğuna, davamlı iqtisadi və sosial tərəqqiyə kömək etməlidir.

## 2. «Azərbaycan Respublikasının Dəniz Təhlükəsizliyi Strategiyası»nın ümumi səciyyəsi

«Azərbaycan Respublikasının Dəniz Təhlükəsizliyi Strategiyası» Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 11 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir. XXI əsrdə ölkəmizin təhlükəsizliyinə əsas təhdid Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda və onun ətrafında baş verən münaqişənin mövcudluğudur. Azərbaycan ərazisinin 20%-i işğal altındadır və milli müdafiə ehtiyatlarının əksər hissəsi münaqişənin həlli üçün sərf olunur. Eyni zamanda, Azərbaycanın iqtisadi və enerji təhlükəsizliyi, əsasən, dəniz təhlükəsizliyinin təmin olunması və xüsusilə dənizdə enerji infrastrukturunun mühafizəsi ilə əlaqədardır. Bu baxımdan dəniz təhlükəsizliyi Azərbaycan üçün vacib əhəmiyyət kəsb edir. **Azərbaycan Respubli-**

**kasının Xəzər dənizi regionunda milli maraqları** aşağıdakılardan ibarətdir:

- dənizdə sülh şəraitinin təmin olunması və dənizdən qanunvericilik çərçivəsində istifadə;
- Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub hissəsindən və oradakı sərvətlərdən dövlətin istifadə imkanları;
- dənizdə Azərbaycan Respublikasının əleyhinə yönəlmiş hər hansı diskriminasiya aktının qarşısının alınması;
- Xəzər dənizinin sərvətlərindən istifadəyə və onların tədqiqinə aid olan beynəlxalq hüquqi problemlərin əlverişli şəkildə tənzimlənməsi;
- sosial-iqtisadi inkişaf məqsədi ilə Xəzər dənizinin təbii sərvətlərindən məqsədyönlü istifadə olunması və onların inkişaf etdirilməsi;
- dənizdə effektiv nəqliyyat şəbəkəsinin yaradılması, bu şəbəkəyə nəzarət və onun təhlükəsizliyinin təmin olunması.

**«Azərbaycan Respublikasının Dəniz Təhlükəsizliyi Strategiyası»nın məqsədi Azərbaycan Respublikasının milli təhlükəsizliyi və milli maraqları əleyhinə yönəlmiş, dənizdə mövcud olan və gələcəkdə ehtimal olunan təhdidlərin qarşısının alınması üçün bütün səyləri birləşdirməkdən ibarətdir.** Dəniz təhlükəsizliyi strategiyası dənizdə təhdidlərə qarşı zəruri və effektiv tədbirlərin həyata keçirilməsi məqsədi ilə müvafiq qurumların vəzifə və məsuliyyətlərini müəyyən edir. Dənizdə mövcud olan və ehtimal olunan təhdidlərə qarşı effektiv mübarizə fəaliyyətinin təmin edilməsi və dənizdəki vəziyyətdən müfəssəl şəkildə xəbərdar olmaq məqsədi ilə bütün səylərin birləşdirilməsi strategiyası bu sənəddə öz əksini tapmışdır. **Dəniz təhlükəsizliyi strategiyası ölkənin dənizdəki milli təhlükəsizlik aspektlərini, Azərbaycan Respublikasının ərazi bütövlüyü, suverenliyi və milli maraqlarının hər bir təhdid və təhlükədən müdafiəsi məsələlərini özündə ehtiva edir.** Dəniz təhlükəsizliyi strategiyası aşağıdakı **prinsiplər** əsasında formalaşır:



- beynəlxalq hüququn norma və prinsiplərinə, o cümlədən BMT Nizamnaməsində təsbit olunmuş prinsiplərə, xüsusilə müstəqillik, suverenlik, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı prinsiplərinə hörmət, bir-birilərinin daxili işlərinə qarışmamaq və dövlətlərin əməkdaşlığı;
- Dəniz təhlükəsizliyi strategiyası məsələlərində müvafiq dövlət orqanlarının qarşılıqlı fəaliyyəti;
- Xəzər dənizindən sülh məqsədi ilə istifadə;
- Xəzər dənizində Azərbaycan Respublikasının siyasi və iqtisadi maraqlarının təmin olunması;
- Xəzər dənizində Azərbaycan Respublikasının dövlət bayrağı altında üzən gəmilərə dövlət nəzarətinin həyata keçirilməsi.

Azərbaycan Respublikasının milli təhlükəsizliyinə dənizdən olan təhdidlər, onun ərazi bütövlüyünə və suverenliyinə qarşı dənizdən yönəlmiş istənilən təcavüzkar hərəkətlər, terror aktları və kütləvi qırğın silahlarından istifadə, regional münaqişələr və onların yayılması, transmilli qaçaqmalçılıq və qeyri-qanuni ticarət, mütəşəkkil cinayətkarlıq, enerji infrastrukturlarına qarşı hərəkətlər, regional silahlanma və ekoloji problemlərdir. Əsas xarici təhdidlər:

- Xəzəryanı dövlətlərin hərbi-dəniz imkanlarının artması. Qüvvələr və döyüş imkanları balansının Azərbaycan Respublikasının xeyrinə olmayan şəkildə dəyişməsi;
- Azərbaycanın daxili işlərinə xaricdən istənilən potensial müdaxilə, təbii ehtiyatlarına və dəniz kommunikasiya xətlərinə çıxış və istifadə imkanlarının məhdudlaşması;
- Azərbaycan Respublikasına qarşı dənizdə ərazi iddialar;
- dövlətlərarası münaqişələr, dənizdə döyüş əməliyyatları və onların genişlənməsinin mümkünlüyü;
- Azərbaycan Respublikasının dəniz sərhəd rejiminin pozulması, dəniz-sərhəd mübahisələrinin gərginləşməsi;

- Xəzər dənizinin Azərbaycana mənsub ərazi sularında təbii sərvətlərdən qeyri-qanuni istifadə;

- müxtəlif ölkələrin hərbi-siyasi ambisiyaları kontekstində nüvə və digər kütləvi qırğın silahlarının, onların komponentlərinin və nəqli vasitələrinin, müasir hərbi texnologiyaların dənizdə qanunsuz yayılması;

- terrorçu təşkilatlarının, dəniz quldurlarının və digər cinayətkar qrupların fəaliyyəti;

- qonşu dövlətlər tərəfindən silahların qanunsuz yayılması üzrə beynəlxalq müqavilə və sazişlərin birtərəfli şəkildə pozulması.

**Əsas daxili təhdidlər (terrorçuluq, digər cinayətlər, transmilli cinayətkarlıq):**

- terrorçu qrupların niyyətləri kontekstində nüvə və digər kütləvi qırğın silahlarının, onların komponentlərinin və nəqli vasitələrinin, müasir hərbi texnologiyaların dənizdə qanunsuz yayılması;

- terror təşkilatlarının, dəniz quldurlarının və digər cinayətkar qrupların fəaliyyəti;

- dənizdə qeyri-qanuni daşımalar, qaçaqmalçılıq və insan alveri;

- qeyri-qanuni balıq ovu və sərvətlərdən qeyri-qanuni istifadə;

- dəniz mühitinin qurudan, nəqliyyat vasitələrindən və dənizdə quraşdırılmış qurğulardan çirkləndirilməsi.

**Fəlakətlər nəticəsində yaranan təhdidlər (təbii, sənaye, ətraf mühitlə bağlı):**

- təbii fəlakətlər (zəlzələ və başqa seysmik hadisələr, tufanlar və ya digər meteoroloji təhlükələr);

- texnogen qəzalar (sərnişin və ya ticarət gəmiçiliyi sahəsində bədbəxt hadisə və fəlakətlər, sənaye tipli fəlakətlər).

Azərbaycan Respublikasının dəniz təhlükəsizliyinin təmin olunmasında iştirak edən **qurumlar** aşağıdakılardır:



- Müdafiə Nazirliyinin Hərbi Dəniz Qüvvələri, Hərbi Hava Qüvvələrinin dəstəyi ilə;

- Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsi, Aviasiya Dəstəsinin dəstəyi ilə;

- Fövqəladə Hallar Nazirliyi;

- Milli Təhlükəsizlik Nazirliyi;

- Dövlət Dəniz Administrasiyası;

- Xəzər Dəniz Gəmiçiliyi;

- Dövlət Neft Şirkəti və digər neft şirkətləri;

- Dövlət Gömrük Komitəsi;

- Dövlət Miqrasiya Xidməti;

- Ekologiya və Təbii Sərvətlər Nazirliyi;

- Bakı Beynəlxalq Dəniz Ticarət Limanı;

- Daxili İşlər Nazirliyinin Nəqliyyatda Baş Polis İdarəsi, digər əlaqədar qurumların (Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi, Baş Narkotiklərlə Mübarizə İdarəsi, Baş Cinayət Axtarış İdarəsi, ərazi polis orqanları və sair) dəstəyi ilə.

Azərbaycan Respublikasının dəniz təhlükəsizliyinin təmin edilməsi üçün əsas vəzifələr aşağıdakılardır:

- ərazi bütövlüyünün və suverenliyin qorunması;

- terrorçuluqla mübarizə;

- dənizdə hərbi balansın saxlanılması məqsədi ilə zəruri tədbirlərin həyata keçirilməsi;

- dənizdə enerji infrastrukturunun mühafizəsi;

- dənizdə dövlət sərhədinin mühafizəsi və sərhəd nəzarətinin həyata keçirilməsi;

- limanların infrastrukturunun mühafizəsi;

- minalar əleyhinə müdafiə fəaliyyətinin həyata keçirilməsi;

- dənizdə məlumatların toplanması və təhlili;

- naviqasiya, hidroqrafiya və hidrometeoroloji təminatın həyata keçirilməsi;

- dənizdə hüquq mühafizə fəaliyyəti (üzmə rejiminə riayət, narkotik vasitələrin qeyri-qanuni daşınması, insan alveri və qeyri-qanuni miqrasiya, kütləvi qırğın silahlarının yayılması və digər cinayətkar fəaliyyətə qarşı mübarizə);
- axtarış və xilasetmə fəaliyyəti;
- dənizdə suüstü və sualtı müşahidənin aparılması;
- ətraf mühitin mühafizəsi;
- təbii və texnogen xarakterli fəlakətlərin, qəzaların nəticələrinin aradan qaldırılması;
- Azərbaycan Respublikasının ərazi sularında dənizdə üzmənin təhlükəsizliyinin təmin olunması;
- Azərbaycan Respublikası donanmasının səfərbərlik hazırlığının təmin edilməsi.

Dəniz təhlükəsizliyi strategiyası Azərbaycan Respublikasının dənizdə təhdidlərin bütün spektrinə qarşı Xəzəryanı dövlətlərlə birgə və razılaşdırılmış fəaliyyət göstərməyə hazır olduğunu bildirir. Azərbaycan Respublikası Xəzər dənizinin hüquqi statusunun beynəlxalq hüquq normalarına, beynəlxalq dəniz hüququ normalarına və prinsiplərinə riayət etməklə və bütün Xəzəryanı dövlətlərin maraqlarına və mövqelərinə hörmətlə yanaşmaqla təyin edilməsinin tərəfdarı olduğunu bir daha bəyan edir. «Azərbaycan Respublikasının Dəniz Təhlükəsizliyi Strategiyası», təhlükəsizlik mühitinin daim dəyişən dinamikası nəzərə alınmaqla, yenidən baxılma, dəqiqləşdirilmə və əlavələr üçün açıq sənəddir.

### 3. Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunması sisteminin vəzifələri, məqsədləri və prinsipləri

Ümumiyyətlə, təhlükəsizliyi təmin etmək üçün səmərəli fəaliyyət göstərən milli təhlükəsizlik sisteminin olması vacibdir. Yalnız bu halda təhlükəsizliyin tam təminatı haqqında danışmaq mümkündür.

**Azərbaycan Respublikasının milli təhlükəsizliyinin subyektləri insanların, cəmiyyətin və dövlətin təhlükəsizliyi maraqlarının və tələbatlarının təmin edilməsi məqsədilə yaradılmış dövlət hakimiyyəti orqanlarıdır.**

**Milli təhlükəsizliyin obyektləri – müdafiəsi strateji məqsəd daşıyan insan, cəmiyyət və dövlətdir.**

Bu tərifə uyğun olaraq deyə bilərik ki, milli təhlükəsizliyin obyektlərini insan, cəmiyyət, dövlət və onlar arasında qarşılıqlı münasibətlər, eləcə də onların qarşılıqlı münasibətlərini müşayiət edən təzahür və proseslər təşkil edir.

**Milli təhlükəsizlik sistemi – ölkədə xüsusi olaraq yaradılmış və milli maraqların daha etibarlı müdafiəsinin təmin olunması ilə bağlı hüquqi normaların, qanunverici və icra orqanlarının, eləcə də onların fəaliyyətinin vasitə, metod və istiqamətlərinin müəyyən edilmiş məcmusudur.** Milli təhlükəsizlik sisteminin yüksək səmərəliliyi təhlükəsizliyin qlobal və regional sistemləri arasında qarşılıqlı fəaliyyət nəticəsində əldə olunur.

Milli təhlükəsizliyin bütün baza kateqoriyaları yalnız mühüm ümumi əlamətləri deyil (tələbat, dəyərlər), onları təmin etmək üçün lazım olan vasitə və üsulları da özündə əks etdirməlidir.

Azərbaycanda milli təhlükəsizliyin təmin olunması sisteminin tam formalaşdırılması və onun hüquqi bazasının yaradılması istiqamətində mühüm, təxirəsalınmaz işlər görülür. Belə ki, «Milli Təhlükəsizlik haqqında», «Kəşfiyyat və Əks-kəşfiyyat fəaliyyəti haqqında» Qanunların, «Milli Təhlükəsizlik Nazirliyi haqqında» Əsasnamənin qəbul edilməsi milli təhlükəsizliyin təmin olunması sisteminin hüquqi bazasının yaradılmasında mühüm addımdır.

Azərbaycan Respublikasının Konstitusiyası və qanunları əsasında qarşılıqlı fəaliyyət göstərən və səlahiyyətləri çərçivəsində milli təhlükəsizliyin təmin olunmasına cavabdeh olan

qüvvələr və digər dövlət orqanları Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunması sistemini təşkil edir və milli təhlükəsizliyin təmin olunmasına görə məsuliyyət daşıyırlar. Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunması sistemi vahid dövlət siyasətinin hazırlanması, siyasi, iqtisadi, sosial, hərbi, informasiya, ekoloji, elm, mədəniyyət və mənəviyyat, habelə digər sahələrdə milli maraqların qorunması prosesinin kompleks fəaliyyət şəklində səmərəli tətbiqi üçün yaradılır.

«Milli təhlükəsizlik haqqında» Azərbaycan Respublikasının Qanununda ölkənin milli təhlükəsizliyinin təmin olunması sisteminin **əsas vəzifələri** kimi aşağıdakılar göstərilmişdir:

– Azərbaycan Respublikasının milli təhlükəsizliyinə təhdidlərin aşkarlanması, təhlili və proqnozlaşdırılması;

– Azərbaycan Respublikasının milli təhlükəsizliyinə təhdidlərin qabaqlanması üzrə tədbirlərin hazırlanması və həyata keçirilməsi;

– Azərbaycan Respublikası milli təhlükəsizliyini təmin edən qüvvə və vasitələrin formalaşdırılması və hazırlığının təmin edilməsi;

– Azərbaycan Respublikasının milli təhlükəsizliyinə bilavasitə təhdid və qəsdlərin yarandığı təqdirdə bütün qüvvə və vasitələrin səfərbər edilməsi, müvafiq əks tədbirlər kompleksinin həyata keçirilməsi, yaranmış vəziyyətin mümkün nəticələrin lokallaşdırılması və aradan qaldırılması;

– Azərbaycan Respublikasının beynəlxalq öhdəliklərinə müvafiq olaraq ümumi və regional təhlükəsizlikdə iştirak.

Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunması məqsədləri aşağıdakılardır:

– insanın təhlükəsizliyi – insanın hərtərəfli inkişafı üçün əlverişli şəraitin mövcudluğu, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində ümumdövlət tədbirlərinin həyata keçirilməsi;



– cəmiyyətin təhlükəsizliyi – Azərbaycan xalqının həyati əhəmiyyətli maraq və tələbatlarının, habelə ictimai dəyərlər sisteminin təhlükə və təhdidlərdən qorunması;

– dövlətin təhlükəsizliyi – Azərbaycan Respublikasının müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün, konstitusiya quruluşunun və həyati əhəmiyyətli digər maraqlarının təhdidlərdən qorunması.

Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunmasının əsas prinsipləri aşağıdakılardır:

– Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına riayət edilməsi;

– Azərbaycan Respublikasının milli təhlükəsizliyinin vahid dövlət siyasətinə əsaslanması və onun təmin olunması istiqamətlərinin tarazlaşdırılması və əlaqələndirilməsi;

– Azərbaycan Respublikasının milli təhlükəsizliyini təmin edən orqanlar arasında səlahiyyətlərin dəqiq müəyyən edilməsi, onların fəaliyyətinin əlaqələndirilməsi və həmin orqanların bir-birini qarşılıqlı surətdə operativ məlumatlandırması;

– Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təminatı ilə əlaqədar fəaliyyətin həyata keçirilməsinə nəzarət;

– beynəlxalq təhlükəsizlik sistemlərinə inteqrasiya;

– insan, cəmiyyət və dövlətin maraqları arasındakı tarazlığın saxlanılması və onların qarşılıqlı məsuliyyəti.

## 4. Azərbaycan Respublikasının milli təhlükəsizliyini təmin edən qüvvələr və dövlət orqanları

Azərbaycan Respublikasının milli təhlükəsizliyini təmin edən qüvvələr və dövlət orqanları – dövlət tərəfindən yaradılan, qanunvericilik çərçivəsində fəaliyyət göstərən və Azərbaycan Respublikasının milli təhlükəsizliyini təminetmə qabiliyyətinə malik olan qurumlardır.

Azərbaycan Respublikasının milli təhlükəsizliyini təmin edən qüvvələr və dövlət orqanları aşağıdakılardır:

- Azərbaycan Respublikasının silahlı qüvvələri və qanunvericilikdə nəzərdə tutulan başqa silahlı birləşmələr;
- Azərbaycan Respublikasının xüsusi xidmət orqanları;
- polis, prokurorluq, gömrük, vergi və digər hüquq mühafizə orqanları;
- sənaye, energetika, nəqliyyat sahəsində işlərin təhlükəsiz görülməsi qaydalarına məsuliyyət daşıyan, rabitə və informasiya təhlükəsizliyini, ətraf mühitin mühafizəsini və əhalinin sağlamlığının qorunmasını təmin edən dövlət orqanları və milli təhlükəsizliyinin təmin olunmasında iştirak edən digər dövlət orqanları.
- Azərbaycan Respublikasının milli təhlükəsizliyini təmin edən qüvvələr və dövlət orqanları Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq qaydada qarşılıqlı fəaliyyət göstərir və səlahiyyətləri ilə bağlı məsələlərlə əlaqədar bir-birini qarşılıqlı surətdə məlumatlandırırlar.

Azərbaycan Respublikasının milli təhlükəsizliyini təmin edən qüvvələr və dövlət orqanları səlahiyyətləri daxilində:

- Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunması ilə əlaqədar tədbirlər planlaşdırır və həyata keçirirlər;
- Azərbaycan Respublikasının milli təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi ilə bağlı təkliflər verirlər;
- Azərbaycan Respublikasının milli təhlükəsizliyi sahəsində qanunlara və digər normativ hüquqi aktlara riayət olunmasını təmin edirlər;
- Azərbaycan Respublikasının milli təhlükəsizliyini təhdid edən, milli maraqlara zərər vura bilən fəaliyyətin qarşısının alınması üçün müvafiq tədbirlər görürlər.

Ölkə konstitusiyasına əsasən **Azərbaycan Respublikasının Prezidenti** dövlət müstəqilliyinin, ərazi bütövlüyünün təminatçısıdır. Dövlət başçısı səlahiyyətləri çərçivəsində milli təhlükəsizliyi təmin edən qüvvələri və dövlət orqanlarını yaradır, həmin qurumlara rəhbərlik edir. Prezident ordu quruculuğuna, hərbi əməliyyatların aparılmasına rəhbərlik edir, hərbi doktrinanı parlamentin təsdiqinə verir, silahlı qüvvələrin (SQ) Ali Baş Komandanının funksiyalarını həyata keçirir, SQ-nin ali komanda heyətini vəzifəyə təyin və vəzifədən azad edir, ali hərbi və ali xüsusi rütbələr verir.



Dövlət başçısı ümumi və qismən səfərbərlik elan edir, habelə səfərbərlik üzrə çağırışçıları tərxis edir. O həmçinin Silahlı Qüvvələrin təyinatı ilə bağlı olmayan vəzifələrin icrasına cəlb edilməsinə razılıq verilməsi barədə ölkə parlamentinə təqdimat verir və sonuncunun razılığı ilə müharibə elan edir və sülh bağlayır. Prezident Azərbaycan Respublikasının müəyyən hissəsi faktiki işğal olunduqda, xarici dövlət və ya dövlətlər Azərbaycan Respublikasına müharibə elan etdikdə, respublikaya qarşı real silahlı hücum təhlükəsi yarandıqda, ölkənin ərazisi blokadaya alındıqda, habelə belə blokada üçün real təhlükə olduqda Azərbaycan Respublikasının bütün ərazisində və ya ayrı-ayrı yerlərində hərbi vəziyyət elan edir və bu barədə fərmanı 24 saat müddətində parlamentin təsdiqinə verir.

Dövlət başçısı təbii fəlakətlər, epidemiyalar, böyük ekoloji və başqa qəzalar baş verdikdə, habelə Azərbaycan Respublikasının ərazi bütövlüyünün pozulmasına, dövlətə qarşı qiyama və ya dövlət çevrilişinə yönəldilən hərəkətlər edildikdə, zorakılıqla müşayiət olunan kütləvi ixtişaşlar yarandıqda, vətəndaşların həyatı və təhlükəsizliyi, yaxud dövlət təsisatlarının normal fəaliyyəti üçün qorxu törədən digər münaqişələr meydana gəldikdə ölkənin ayrı-ayrı yerlərində fövqəladə vəziyyət tətbiq edir və bu barədə qəbul etdiyi fərmanı 24 saat müddətində parlamentin təsdiqinə verir.

**Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 27-ci bəndinə uyğun olaraq Azərbaycan Respublikasının Prezidenti Təhlükəsizlik Şurası yaradır.** Təhlükəsizlik

Şurasına əsas dövlət strukturları rəhbərləri daxildir. Mühüm siyasi məsələlər, xarici strategiya Təhlükəsizlik Şurasında müzakirə edilir. Milli müdafiə, təhlükəsizlik, siyasi, iqtisadi, informasiya, ekologiyanın strateji problemləri, yeraltı və yerüstü sərvətlərin, mənəvi dəyərlərin, dövlət quruluşunun qorunmasına nəzarət edir.

Təhlükəsizliyi təmin edən dövlət qurumlarına ümumi rəhbərliyi Azərbaycan Respublikası Prezidenti həyata keçirir.

Azərbaycan Respublikası Prezidenti:

– Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasına rəhbərlik edir;

– Təhlükəsizliyi təmin edən dövlət qurumlarının fəaliyyətinə nəzarət edir və onların fəaliyyətini əlaqələndirir;

– Təhlükəsizliyin təmin olunması üzrə qanunla müəyyən olunmuş səlahiyyət çərçivəsində operativ qərarlar qəbul edir.

– Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının əsas vəzifələri aşağıdakılardır:

– Şəxsiyyətin, cəmiyyətin dövlətin həyatı üçün vacib maraqların müəyyən edilməsi, daxili və xarici təhdidlərin aşkarlanması;

– Sosial-siyasi, iqtisadi, hərbi, ekoloji və başqa fəlakətlərlə nəticələnə biləcək fövqəladə şəraitin qarşısının alınması istiqamətində qərarların qəbulu;

– Təhlükəsizliyin təmin olunması üçün icra hakimiyyəti orqanlarının fəaliyyətinin əlaqələndirilməsi.

**Azərbaycan Respublikasının Nazirlər Kabineti (NK)** ölkə hökuməti olaraq, mərkəzi icra hakimiyyəti orqanlarına rəhbərlik edir; müxtəlif sahələrə dair məqsədli proqramların həyata keçirilməsini, eləcə də milli təhlükəsizliyi təmin edən qüvvələri və orqanları maddi və maliyyə ehtiyatları ilə təmin edir. Nazirlər Kabineti SQ-nin vəziyyətinə görə məsuliyyət daşıyır. Nazirlər Kabineti SQ-nin silah, hərbi texnika, döyüş sursatı və s. başqa ehtiyat və xidmətlərlə təchiz olunmasını təşkil edir. Hökumət həmçinin ölkə iqtisadiyyatının səfərbərlik



hazırlığına və səfərbərlik üzrə işə başlamasına, onun hərbi vəziyyət şəraiti rejiminə keçirilməsinə rəhbərlik edir, mülki və ərazi müdafiəsinin ümumi planlaşdırılmasını təşkil edir, silahların və strateji materialların ixracı üzərində nəzarəti təşkil edir, hərbi qulluqçuların, hərbi qulluqdan ehtiyata və ya istefaya buraxılmış şəxslərin, onların ailələrinin sosial və hüquqi təminatlarına dair qanunvericiliyin icrasını təmin edir.

Qanunvericiliyə uyğun olaraq, Azərbaycan Respublikasında **məhkəmələr** ədalət mühakiməsini həyata keçirir və bu zaman ölkə konstitusiyasında təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını, mülkiyyət formasından asılı olmayaraq bütün müəssisə, idarə və təşkilatların, siyasi partiyaların, ictimai birliklərin, digər hüquqi şəxslərin hüquqlarını və qanuni mənafelərini hər cür qəsdlərdən və qanun pozuntularından müdafiə edir.

Azərbaycan Respublikasında məhkəmə sisteminə daxil olmaqla **prokurorluq** cinayət işi başlayır və ibtidai istintaq aparır; cinayət işi üzrə ibtidai araşdırmaya prosessual rəhbərlik edir və qanunlara riayət olunmasını təmin edir; təhqiqat və əməliyyat-axtarış orqanlarının fəaliyyətində qanunların icra və tətbiq olunmasına nəzarət edir; məhkəmədə mülki və iqtisadi mübahisələrə dair işlərə baxılmasında iddiaçı kimi iştirak edir; məhkəmədə cinayət işlərinə baxılmasında tərəf kimi iştirak edir, dövlət ittihamını müdafiə edir. Azərbaycan Respublikasının silahlı qüvvələri və qanunvericilikdə nəzərdə tutulan başqa silahlı birləşmələr; xüsusi xidmət orqanları; polis, prokurorluq, gömrük, vergi və digər hüquq-mühafizə orqanları; sənaye, energetika, nəqliyyat sahəsində işlərin təhlükəsiz görülməsi qaydalarına görə məsuliyyət daşıyan, rabitə və informasiya təhlükəsizliyini, ətraf mühitin mühafizəsini və əhalinin sağlamlığının qorunmasını təmin edən dövlət orqanları və milli təhlükəsizliyinin təmin olunmasında iştirak edən digər dövlət orqanları – dövlət tərəfindən yaradılan, qanunvericilik çərçivəsində fəaliyyət

göstərən və ölkənin milli təhlükəsizliyini bilavasitə təminetmə qabiliyyətinə malik olan qurumlardır.

**Azərbaycan Respublikasının milli təhlükəsizliyini təmin edən qüvvələr və dövlət orqanları öz səlahiyyətləri daxilində milli təhlükəsizliyin təmin olunması ilə əlaqədar tədbirlər planlaşdırır və həyata keçirirlər; milli təhlükəsizlik sisteminin təkmilləşdirilməsi ilə bağlı təkliflər verirlər; milli təhlükəsizlik sahəsində qanunlara və digər normativ-hüquqi aktlara riayət olunmasını təmin edirlər; milli təhlükəsizliyi təhdid edən, milli maraqlara zərər vura bilən fəaliyyətin qarşısının alınması üçün müvafiq tədbirlər görürlər.**

**Azərbaycan Respublikasının** Milli **Təhlükəsizlik Nazirliyi** (MTN) **-** Azərbaycan Respublikasında milli təhlükəsizliyi təmin edən qurumlar sistemində əsas yerlərdən birini Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi tutur. «Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi haqqında» Əsasnamədə deyilir:

**«Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi kəşfiyyat, əks-kəşfiyyat fəaliyyəti, dövlət sirrinin mühafizəsi, cinayətlərin aşkarlanması, qabaqlanması, qarşısının alınması və açılması sahəsində Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş səlahiyyətləri həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.**

Nazirlik fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarını, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, bu əsasnaməni və nazirliyin normativ hüquqi aktlarını rəhbər tutur».

**Ümummilli lider Heydər Əliyev Milli Təhlükəsizlik Nazirliyinin qarşısında duran vəzifələri belə xarakterizə etmişdir: «Azərbaycanın müstəqil dövlət kimi yaşamasına mane olmaq istəyənlər var. Ona görə də indi müstəqilliyi yaşatmaq,**



**inkişaf etdirmək və onu dönməz etmək ən çətin vəzifədir, eyni zamanda şərəfli vəzifədir. Bu bizim üzərimizə düşən tarixi missiyadır. Biz bu tarixi missiyanı həyata keçiririk və keçirəcəyik. Bu gün mən bir daha bəyan edirəm ki, Azərbaycan müstəqillik yolundan heç vaxt dönməyəcəkdir, müstəqilliyini göz bəbəyi kimi qoruyacaqdır. Buna heç kəsin şübhəsi olmasın. Bunun keşiyində bizim xalqımız və xalqın seçdiyi Prezident durur. Amma bu hamıdan asılıdır. O cümlədən, birinci növbədə bizim xüsusi orqanlarımızdan, hüquq-mühafizə orqanlarımızdan, ordumuzdan, Milli Təhlükəsizlik Nazirliyindən, sizdən asılıdır».**

**Ümummilli lider Heydər Əliyev daha sonra qeyd edirdi: «Öz peşəkarlıq səviyyənizi yüksəltmək sizin vəzifəniz olmalıdır. Bu, hər bir ölkənin təhlükəsizlik orqanı üçün vacib olan amildir. Dövlətin təhlükəsizlik, yaxud kəşfiyyat orqanı o vaxt qalib gəlir, öz vəzifəsini layiqincə yerinə yetirir ki, orada peşəkar əhval-ruhiyyə olsun, peşəkar kadrlar və iş üslubu olsun. Peşəkarlıq səviyyəsinin artırılmasının sərhədi, hüdudu yoxdur».**

**Milli Təhlükəsizlik Nazirliyinin fəaliyyətini, Azərbaycan Respublikasının Prezidenti, Ali baş komandan İlham Əliyev cənabları yüksək qiymətləndirərək, demişdir: «Ölkəmizin normal, hərtərəfli inkişafı, Azərbaycan xalqının rifah, sülh şəraitində yaşaması üçün sabitlik, ictimai-siyasi asayiş qorunmalıdır. Bu işdə Milli Təhlükəsizlik Nazirliyinin xüsusi funksiyası var, xüsusi rolu var və Milli Təhlükəsizlik Nazirliyi bu vəzifənin öhdəsindən şərəflə gəlir».**

**Azərbaycan Respublikası Milli Təhlükəsizlik naziri cənab Eldar Mahmudov milli təhlükəsizlik orqanlarının fəaliyyət istiqamətlərini aşağıdakı kimi xarakterizə etmişdir: «Bu gün biz qürurla bəyan edirik ki, milli maraqların qorunmasında Heydər Əliyev ənənələrinin, amallarının yaşadılması ən başlıca uğurumuz və hazırda fəaliyyətimizin əsas prioritet istiqamətidir. Onların ən əsasları aşağıdakılardır: Azərbaycanda**

**sabitliyin, dövlət müstəqilliyinin əbədiliyinin və dönməzliyinin qorunması, Ermənistanın işğal etdiyi ərazilərin azad olunması, Azərbaycan Respublikasının hərtərəfli inkişaf etdirilməsi»** (növbəti paraqraflarda MTN haqqında ətraflı məlumat veriləcəkdir).

**Azərbaycan Respublikasının Müdafiə Nazirliyi (MN)** – Azərbaycan Respublikası SQ-ə və yerli hərbi idarəetmə orqanlarına rəhbərlik edən dövlət orqanıdır və onların inkişafına, həmçinin müdafiə vəzifələrinin yerinə yetirilməsinə hazırlıq üçün tam məsuliyyət daşıyır.

**Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti (DSX)** – dövlət sərhədinin mühafizəsi sahəsində ölkə qanunvericiliyi ilə müəyyən edilmiş səlahiyyətləri həyata keçirir.

**Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti (XDMX)** – Azərbaycan Respublikasının Prezidentinin, digər dövlət mühafizə obyektlərinin, həmçinin xarici ölkələrin dövlət və hökumət başçılarının ölkədə olduqları vaxt onların təhlükəsizliyinin təmin edilməsi, dövlət başçısının iqamətgahının, Milli Məclisin, Nazirlər Kabinetinin, Konstitusiya Məhkəməsinin, Xarici İşlər Nazirliyinin və Mərkəzi Seçki Komissiyasının obyektlərinin mühafizəsinin təşkilini, göstərilən obyektlərdə buraxılış rejimini həyata keçirir.

## 5. Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunmasının tərkib hissələri. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin anlayışı

Milli təhlükəsizliyin daxili və xarici aspektləri fərqləndirilir. Təhdidlərin yaranması mənbəyinə və onlardan müdafiə vasitələrinin yönəldilməsinə görə təhlükəsizlik daxili və xarici ola bilər. Aydındır ki, belə təsnifat sadələşdirilmişdir. Reallıqda hərbi, iqtisadi, siyasi və s. qarşılıqlı fəaliyyətin müxtəlif obyekt və subyektlərinin – insanların, cə-



miyyətin, dövlətin, bir qrup dövlətlərin, bütün bəşəriyyətin müdafiə olunması bir-birilə sıx bağlıdır.

**Daxili təhlükəsizlik** şəxsiyyətin, cəmiyyətin və dövlətin daxili təhdidlərdən qorunması və sabit inkişafının təmin edilməsidir. Geniş mənada, milli təhlükəsizliyin daxili aspektlərini əhatə edir. Daxili təhlükəsizlik sahəsində tədbirlər aşağıdakılardır:

– suverenlik və dövlətin ərazi bütövlüyünün təmini;

– xalqların və milli azlıqların azad inkişafına şərait yaradılması;

– ətraf mühitin qorunmasının təmin edilməsi;

– insanların xüsusi mülkiyyətinin toxunulmazlığı və informasiya azadlığının qorunması;

– daxili-siyasi, iqtisadi sabitliyə nail olunması;

– cəmiyyətin sağlam mənəvi-psixoloji inkişafı və təhsil səviyyəsində mütləq pozitiv nisbətin təmini;

– ümummilli həmrəyliyin təmin olunması.

Bütün bunlar təmin edildikdən sonra tam daxili təhlükəsizlikdən danışmaq olar.

**Xarici təhlükəsizlik** isə ölkənin həyati vacib maraqlarının kənardan olan təhdidlərdən mühafizə edilməsidir. Milli həyati vacib maraqlara ölkənin suverenliyinin və ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığının, müsbət iqtisadi dinamikanın, sabit mədəni inkişafın, vətəndaşların təhlükəsizliyinin və hüquqlarının təmin edilməsi, qorunub saxlanılması aid edilə bilər. Xarici təhlükəsizliyin təmini siyasi-diplomatik, iqtisadi və hərbi tədbirlərin kompleksini şərtləndirir.

Dövlətin xarici siyasəti sahəsində öz təhlükəsizliyini təmin etməsi aşağıdakı amillərdən asılıdır:

1) Xarici amillər:

Qlobal amillər:

– Dövlətin xarici siyasi prioritetlərinin (həm istiqamətlər, həm də sahələr üzrə) düzgün müəyyən edilməsi və səmərəliliyi;

– Diplomatik ehtiyatların yetərliliyi və sair.

Regional amillər:

– mövcud regional münasibətlərin dinamikası, mənfi və ya müsbət:

– regional qüvvələr nisbəti.

2) Ölkədaxili amillər:

– dövlətin milli gücünün (xüsusən iqtisadi, hərbi və insan ehtiyatları üzrə) real göstəriciləri;

– ictimaiyyət-dövlət münasibətlərinin təşkilinin vəziyyəti.

Milli təhlükəsizliyin təmin edilməsi məqsədilə müvafiq dövlət orqanları tərəfindən xüsusi fəaliyyətlər həyata keçirilir. Bu fəaliyyətlər geniş mənada kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinə bölünür. 29 iyun 2004-cü ildə «Kəşfiyyat və Əks-kəşfiyyat fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul edilmiş, 3 avqust 2004-cü il Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə tətbiq edilir. Həmin qanunda kəşfiyyat və əks kəşfiyyat fəaliyyətlərinin anlayışı aşağıdakı kimi təsbit olunmuşdur:

**Kəşfiyyat fəaliyyəti** – Azərbaycan Respublikasının müvafiq dövlət orqanlarının ölkənin siyasi, iqtisadi, sosial, elmi-texniki, hərbi və digər sahələrdə milli maraqlarının müdafiəsi ilə bağlı məlumatların əldə edilməsinə və təhlilinə yönəlmiş, milli təhlükəsizliyin təmin edilməsi məqsədi ilə həyata keçirilən xüsusi fəaliyyətdir.

**Əks-kəşfiyyat fəaliyyəti** – Azərbaycan Respublikasının müvafiq dövlət orqanları tərəfindən xarici xüsusi xidmət orqanlarının və ayrı-ayrı şəxslərin Azərbaycan Respublikasının müstəqiliyinə, suverenliyinə, ərazi bütövlüyünə, konstitusiya quruluşuna, iqtisadi, müdafiə, elmi-texniki potensialına və digər milli maraqlarına zərər vura biləcək terror-təxribat və s. pozuculuq əməllərinin aşkarlanması və qarşısının alınması məqsədi ilə həyata keçirilən xüsusi fəaliyyətdir.

Kəşfiyyat və əks-kəşfiyyyat fəaliyyətinin **əsas prinsipləri** aşağıdakılardır:



– qanunçuluq;

– insan və vətəndaş hüquqları və azadlıqlarına riayət edilməsi;

– humanistlik;

– konspirasiya, aşkar və qeyri-aşkar üsul və vasitələrin uzlaşdırılması;

– Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının bilavasitə tabeliyində və nəzarətində olması.

Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin hüquqi əsasını Azərbaycan Respublikasının Konstitusiyası, «Milli təhlükəsizlik haqqında», «Əməliyyat-axtarış fəaliyyəti haqqında», «Kəşfiyyat və Əks-kəşfiyyat fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunları və digər normativ hüquqi aktlar, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr təşkil edir.

**Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin subyektləri – Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətini həyata keçirən xüsusi xidmət orqanlarıdır.**

Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin subyektləri və onların səlahiyyət dairəsi Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Həmin subyektlərin işinin əlaqələndirilməsi Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada həyata keçirilir. Digər müvafiq icra hakimiyyəti orqanları da Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş səlahiyyətləri çərçivəsində kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin müraciəti əsasında kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin həyata keçirilməsində iştirak edirlər.

## 6. Milli Təhlükəsizlik Nazirliyinin yaranması və tarixi inkişaf təkamülü

1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında «Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı» yekdilliklə qəbul edildi. Qısa bir müddətdə müstəqilliyimiz dünya dövlətlərinin böyük əksəriyyəti tərəfindən tanındı. Buna baxmayaraq, Azərbaycana qarşı yönəlmiş təzyiqlər, daxili və xarici təhdidlər daha da güclənməyə başladı. Bu isə öz növbəsində Azərbaycanda onsuz da mürəkkəb olan ictimai-siyasi vəziyyəti bir qədər də ağırlaşdırdı. Azərbaycandakı gərgin vəziyyət milli təhlükəsizlik sisteminin yenidən yaradılması, milliləşdirilməsi, milli maraqların müdafiəçisi olmaq kimi prioritet vəzifələrin həyata keçirilməsi zərurətini yaratdı. Bu vəzifələri layiqincə həyata keçirmək və 70 il formalaşmış sovet təhlükəsizlik sistemindən imtina etmək, mövcud stereotipləri dağıtmaq, əvəzində hər hansı bir dövlətdən idarə asılılığı olmayan, Azərbaycan xalqının maraqlarının təhlükəsizliyi keşiyində dayanmaq iqtidarında olan milli təhlükəsizlik orqanını yaratmaq olduqca ciddi və həyati bir məsələ idi. Ən böyük çətinlik onda idi ki, Azərbaycanda maraqları olan dövlətlər müstəqilliyin elan edilməsinə mane olmaq istədikləri kimi, burada yaranan hər hansı bir milli quruma və ya təşkilata da əngəl törətməyə çalışırdılar.

Çətinliklərə baxmayaraq, **Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə 1991-ci il noyabrın 1-də Dövlət Təhlükəsizlik Komitəsi Milli Təhlükəsizlik Nazirliyi (MTN) ilə əvəz olundu.** Həmin qərara əsasən MTN bilavasitə Azərbaycan Respublikasının Prezidentinə tabe edildi.

Məlumdur ki, Milli Təhlükəsizlik Nazirliyi Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitəsinin bazası əsasında yaradılmışdı. Ona görə də, ilk növbədə bu qurumun qarşısında duran vəzifələrin məzmunu və mahiyyəti dəyişməli idi. Əgər respublika Dövlət Təhlükəsizlik Komitəsinin bütün imkanları və potensialı ümumilikdə Sovet imperiyasının mövcudluğunun və strateji maraqlarının təminatına yönəlmişdisə, Milli Təhlükəsizlik Nazirliyinin qarşısında duran başlıca vəzifə Azərbaycan Respublikasının suverenliyinə, konstitusiya quruluşuna, iqtisadi, müdafiə və elmi-texniki potensialına, həmçinin dövlət sirri təşkil edən məlumatların qorunmasına, korrupsiyaya, terrorçuluğa, qaçaqmalçılığa, narkotik vasitələrin, psixotrop və radioaktiv maddələrin, odlu silah və döyüş sursatının beynəlxalq qanunsuz dövriyyəsinə, mütəşəkkil transmilli cinayətkarlığa, xarici dövlətlərin xüsusi xidmətlərinin və təşkilatlarının, cinayətkar qrupların və ayrı-ayrı şəxslərin kəşfiyyat və digər təxribat-pozuculuq fəaliyyətinin qarşısının alınmasına yönəlmişdi. Başqa sözlə, MTN-in ən ümdə və təxirəsalınmaz vəzifəsi Azərbaycan xalqının milli maraqlarını müdafiə və mühafizə etməkdir.

MTN-in qarşısında səlahiyyətlərinə daxil olan vəzifələri yerinə yetirmək üçün kadr potensialını milliləşdirmək, strukturu təkmilləşdirmək, təhlükəsizlik orqanlarının fəaliyyət istiqamətlərini müəyyənləşdirmək, onları xalqın maraqlarına cavab verən səviyyədə hazırlamaq və həyata keçirmək kimi mühüm işlər dururdu. Mövcud daxili və xarici təhdidlərə baxmayaraq MTN-in əməkdaşları işlərini məhz bu istiqamətdə qurmağa və həyata keçirməyə çalışırdılar. Lakin müəyyən obyektiv və subyektiv səbəblərdən 1991-1993-cü illərdə qarşıya qoyulmuş vəzifələri yüksək peşəkarlıqla həyata keçirmək, ölkə daxilində sabitliyi təmin etmək, eyni zamanda vaxtı ilə dağıdılmış, yararsız vəziyyətə salınmış sərhəd zolağında sərhədi qanunsuz keçən qaçaqmalçıların, təxribatçıların, pozucu qüvvələrin qarşısını lazımınca almaq mümkün olmurdu.

Daha acınacaqlısı isə təhlükəsizlik orqanlarında milli maraqlara xidmət etməyən ünsürlərin fəaliyyət göstərməsi

idi. Heç təsadüfi deyildir ki, ümummilli lider Heydər Əliyev belə qüvvələrlə mübarizə aparmaq üçün Naxçıvan Dövlət Təhlükəsizlik Komitəsinin fəaliyyətini müvəqqəti dayandırdı. **Bununla bağlı Ümummilli lider deyirdi: «1991-ci ilin axırında mən Naxçıvanda parlamentin, Ali Məclisin sədri olarkən Naxçıvan Dövlət Təhlükəsizlik Komitəsinin işinin dayandırılması və o komitənin bağlanması haqqında qərar qəbul etdim. Bunu da mən etmişəm, mən qərar qəbul etdim, nə üçün qərar qəbul etdim? Baxmayaraq ki, bu, vaxtı ilə mənim üçün doğma bir orqan olubdur və orqanda işlədiyim dövrdə çox böyük təcrübə yolu keçmişəm, böyük təhsil almışam... ancaq bu orqan ki, burada da, Naxçıvanda da bizim millətimizin əleyhinə işləməyə başlamışdır, buna görə də mən qərar qəbul etdim, onu bağladıq. O vaxt Mütəllibov burada hakimiyyətdə idi. Çox hay-küy saldılar, amma heç bir şey edə bilmədilər. Naxçıvan Muxtar Respublika idi, mən də qərar qəbul etdim, bağladım. Mütəllibov hakimiyyətdən gedəndən, Xalq Cəbhəsi hakimiyyətə gələndən sonra biz qərar qəbul etdik, bu orqanı açdıq. Amma təəssüflər olsun ki, onlar da o birilərdən betər oldular».**

1991-1993-cü illərdə MTN-in məsul şəxslərinin tez-tez dəyişdirilməsi ictimai-siyasi vəziyyətin gərginliyi və daxili sabitliyin pozulması ilə bağlı idi.

Müstəqilliyin möhkəmləndirilməsinə mane olan qüvvələr Azərbaycanın milli təhlükəsizliyinin təminatına əngəl törətməyə, ölkədəki siyasi gərginliyi bir qədər də dərinləşdirməyə başladılar. Nəticədə, nəinki təhlükəsizlik orqanlarının, hətta müstəqilliyimizin taleyi şübhə altına alındı. Ümummilli lider Heydər Əliyev Azərbaycan xüsusi xidmət orqanlarının 1991-1994-cü illərdəki fəaliyyətini tənqid edir, bu qurumun öz işini düzgün qurmadığını bildirməklə yanaşı, əsas günahkarların da adlarını qeyd edirdi: «Bunun bir hissəsi Mütəllibovun və onun hakimiyyəti vaxtı işləyən adamların günahıdır, bir hissəsi Xalq Cəbhəsinin hakimiyyəti vaxtı olan adamların



günahıdır, o biri hissəsi isə bizim dövrümüzdə – 1993-94-cü illərdə buraya təyin etdiyimiz Nəriman İmranov və onu idarə edən Surət Hüseynovun günahıdır».

Ümummilli lider Azərbaycan təhlükəsizlik orqanlarının müstəqillik illərindəki tarixini şərti olaraq iki dövrə bölürdü: 1991-1993-cü illər və ondan sonrakı dövr. «Birinci dövrdə qəfildən öz xidmət təyinatını dəyişmiş şəxsi heyət üçün bütün dəyərlərin yenidən qiymətləndirilməsi; yenidən təşkilatlanma ilə əlaqədar şaşqınlıq vəziyyəti səciyyəvi idi və bunlar obyektiv çətinliklər idi. Lakin bu dövrdə ölkəyə rəhbərlik etmiş şəxslərin naşılığı üzündən Milli Təhlükəsizlik Nazirliyinin də fəaliyyəti nəzarətdən kənarda qalmışdı, bu orqan dürüst istiqamətləndirilmirdi, peşəkarlıq tələblərinə görə yox, qrup və partiya maraqlarına görə formalaşdırılırdı. Odur ki, nazirlik ölkənin başı üstünü almış çox ciddi fəlakətlər barədə qabaqlayıcı məlumatlar əldə edib, onların qarşısını almaq üçün tədbirlər görmək əvəzinə, əksər hallarda artıq törədilmiş cinayətlərin və milli maraqlara vurulmuş ağır zərbələrin qeydiyyatçısına çevrilmişdi».

Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin fəaliyyətinin dirçəliş və yüksəliş, sözün əsl mənasında milli maraqlara xidmət dövrü məhz ümummilli lider Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı, nazirliyin işinin yenidən qurulması və nizamlanmasına göstərdiyi tələbkarlıq, eyni zamanda gündəlik qayğı və diqqətlə bilavasitə bağlı idi. Onun yeritdiyi siyasət nəticəsində ölkədə sabitlik tədricən bərqərar oldu, eləcə də hüquq-mühafizə orqanlarının qarşısında qoyduğu tələblər nəticəsində əhalidə və ayrı-ayrı qanunsuz dəstələrdə olan silah-sursat yığıldı. Qonşu dövlətlərlə münasibətlər tənzimləndi, daxildəki pozucu, separatçı qüvvələrlə mübarizə gücləndi və onların qanunsuz fəaliyyətlərinin qarşısı alındı. Nəticədə, milli təhlükəsizliyin təminatı prosesi artıq sistemli, uzunmüddətli və fasiləsiz xarakter almağa başladı. 1990-94-cü illərdə müstəqilliyə və döv-

lətçiliyə qarşı yönəlmiş qəsdlər, terror aktlarının və digər ağır cinayətlərin istintaqı təhlükəsizlik orqanlarının fəaliyyətində üstünlük təşkil etdi. Həmin illərin ortalarında daxili sabitliyin təmin olunmasında digər hüquq-mühafizə orqanlarının iştirakı, irimiqyaslı silahlı əməliyyatların keçirilməsi vasitəsi ilə terror-təxribat aktları və digər ağır cinayətlərin qarşısının alınması istiqamətində əsaslı işlər görüldü. Belə ki, ümummilli lider Heydər Əliyev «Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında» 9 avqust 1994-cü il tarixli Fərmanında Azərbaycan Respublikasının güc strukturları qarşısında mühüm vəzifələr qoydu. Dövlətin iqtisadi, siyasi əsaslarının təhlükəsizliyi, vətəndaşların həyatı, səhhəti və mülkiyyət hüquqları əleyhinə yönəldilən və əsasən mütəşəkkil cinayətkar dəstələr, qanunsuz silahlı birləşmələr və digər cinayətkar ünsürlər tərəfindən törədilən terror aktları, təxribat, qəsdən adam öldürmə, banditizm, silahın, döyüş sursatının və partlayıcı maddələrin talanması, eləcə də digər cinayətkarlıq hallarına qarşı mübarizəni gücləndirdi.

Bundan başqa, Daxili İşlər və Milli Təhlükəsizlik Nazirliklərinə ağır cinayətlərin qarşısının alınması və üstünün açılması üçün əməliyyat-axtarış fəaliyyəti üzrə xidmət sahələrinin işini əsaslı şəkildə yaxşılaşdırmaq məqsədi ilə kompleks tədbirlərin hazırlanması və həyata keçirilməsi tapşırığı verildi. Cinayətkar dəstələrin ləğv edilməsi, pozucu qüvvələrin təxribat aksiyalarının qarşısının alınması və s. istiqamətlərdə görülən işlər ölkədə sabitliyin və milli təhlükəsizliyin təmin edilməsinə tam zəmin yaratdı.

Sabitlik əldə edildikdən sonra Heydər Əliyevin təhlükəsizlik orqanları qarşısında yeni reallıqlardan irəli gələn vəzifələr qoyması ilə artıq qabaqlayıcı məlumatlar əsasında cinayətlərin hazırlıq, yaxud başvermə ərəfəsində qarşısının alınmasına nail olundu. Heydər Əliyevin Azərbaycanın milli təhlükəsizlik



siyasətinin aparıcı istiqamətlərini işləyib hazırlaması, Azərbaycan xüsusi xidmət orqanları qarşısında duran taleyüklü vəzifələri müəyyənləşdirməsi, Azərbaycan Respublikasının digər dövlətlərlə təhlükəsizlik sahəsində strateji tərəfdaşlıq münasibətlərinin təşəkkülü yönümündə ardıcıl fəaliyyəti, Azərbaycanın təhlükəsizlik siyasətinin yaxın və uzaq perspektivi üçün konseptual müddəalarını açıqlaması tam məsuliyyətlə bunu deməyə əsas verir ki, çağdaş dönəmdə Azərbaycanın təhlükəsizlik strategiyası onun adı ilə bilavasitə və əbədi olaraq bağlıdır. Heydər Əliyev nəinki bu strategiyanı formalaşdırmış, eyni zamanda, onun əməli surətdə həyata keçirilməsi üçün konkret istiqamətləri dəqiq müəyyənləşdirmişdir.

Müstəqilliyini əzmlə möhkəmləndirən, demokratik prinsiplərə söykənərək sivil, hüquqi dövlət quruculuğu yolunda dönməzliyini sübuta yetirən Azərbaycan Respublikası bu gün öz dövlətçilik ənənələrini daha da inkişaf etdirərək etibarlı gələcəyi, əbədiyaşarlığı üçün sarsılmaz təməl yaradır. Bu sahədə üzərinə mühüm vəzifələr düşən Milli Təhlükəsizlik Nazirliyi Azərbaycan xalqının ən böyük nailiyyəti olan dövlət müstəqilliyinin qorunub saxlanılmasında və daha da möhkəmləndirilməsində mühüm işlər görmüşdür. Milli Təhlükəsizlik Nazirliyi ölkənin və xalqın təhlükəsizliyinin təmin edilməsi ilə yanaşı, Azərbaycan Respublikasının sələfi olan Azərbaycan Xalq Cümhuriyyətindən miras qalmış milli-mənəvi dəyərlərin qorunması, irslə varis arasındakı bağların bərpası istiqamətində də xeyli uğurlar qazanmışdır. Belə demək mümkünsə, MTN milli öndər Heydər Əliyevin rəhbərliyi altında yalnız keçmişin mütərəqqi ənənələrinin və Azərbaycan Respublikasının təhlükəsizliyinin keşiyində dayanmamış, həm də sabahın, gələcəyin təminatçısı funksiyasını ləyaqətlə yerinə yetirməyə çalışmışdır.

İnamla demək olar ki, məhz Heydər Əliyevin siyasi kursu Azərbaycanı hüquqi, demokratik, dünyəvi dövlət kimi Avropaya inteqrasiya edir, qloballaşmaya aparır. Müa-

sir, çağdaş sivilizasiyalı yol da qloballaşmadan keçir. Bəşəriyyət vahid vücud və vahid orqanizm kimi təhlükəsizliyinə ən demokratik təminatı da qloballaşmada görür.

MTN-in dünyanın bir çox ölkələrinin xüsusi xidmət orqanları ilə terrorçuluğa, narkobiznesə, mütəşəkkil cinayətkarlığın digər formalarına qarşı mübarizə sahəsində beynəlxalq əlaqələrini ildən-ilə genişləndirməsi də bu təhlükənin tamamilə aradan qaldırılmasına xidmət edir.

Ölkədə sabitlik təmin olunduqdan sonra Milli Təhlükəsizlik Nazirliyində işlər məcrasına düşdükcə onun təşəkkülü ilə bağlı lazımi hüquqi sənədlər də imzalanırdı. «Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında» Azərbaycan Respublikası qanununun tətbiq edilməsi barədə Fərman (1 fevral 1999-cu il), «Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanları (4 avqust 1999-cu il, 24 avqust 2002-ci il), «Terrorizmə qarşı mübarizə haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı (30 avqust 1999-cu il), «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanları (11 noyabr 1999-cu il və 24 avqust 2002-ci il) və sair hüquqi sənədlərin qəbul edilməsi MTN-in fəaliyyətinin istiqamətlənməsində, hüquqi bazanın yaradılmasında əvəzsiz rol oynadı.

Belə bir hüquqi bazanın yaradılması, eyni zamanda əməkdaşların sosial şəraitinin yaxşılaşdırılması, MTN-in əhali arasında nüfuzunun daha da qaldırılması baxımından 2004-cü il Azərbaycan Respublikası xüsusi xidmət orqanlarının tarixində yeni bir mərhələnin başlanğıcı oldu. Məhz bu ildən başlayaraq nazirliyin hüquqi bazasının yaradılması istiqamətində yeni tədbirlər planı həyata keçirildi. «Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Əsasnaməsi»nin, «Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında», «Milli təhlükəsizlik haqqında», «Poçt rabitəsi haqqında», «Dövlət sirri haqqında» Azərbaycan Respublikası Qanunlarının və «Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası» kimi mühüm sənədlərin qəbul olunması və tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamları, digər normativ-hüquqi aktların qəbulu artıq MTN-in fəaliyyət istiqamətlərinin qanunvericilik, eyni zamanda hüquqi bazasının yaradılmasına funksional vəzifələrimizin daha səmərəli həyata keçirilməsinə təminat verir.

Bu qanunvericilik aktları MTN-in fəaliyyətini və onun hüquqi bazasını tənzimləməklə yanaşı, Azərbaycan Respublikasının milli maraqlara və bəşəri dəyərlərə sədaqətini də ifadə edir. Şübhəsiz ki, hüquqi baza gücləndikcə MTN-in strukturunun təkmilləşdirilməsi istiqamətində də müəyyən işlərin görülməsi zərurəti yaranır.

MTN-in Əsasnaməsinə uyğun olaraq nazirliyin strukturu, hərbi qulluqçuların və əməkdaşların ümumi say tərkibi Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilir. Milli Təhlükəsizlik Nazirliyinin təsdiq edilmiş strukturuna, hərbi qulluqçuların, bütövlükdə şəxsi heyətin ümumi say tərkibinə uyğun olaraq milli təhlükəsizlik naziri baş idarə, idarə, mərkəz, şöbə və digər qurumların, o cümlədən MTN-in Heydər Əliyev adına Akademiyasının strukturunu, ştat cədvəllərini təsdiq edir və onlarda lazımi dəyişikliklər aparır.

Azərbaycan Respublikasının dövlət təhlükəsizliyini gücləndirmək, sərhəd mühafizəsi orqanlarının dövlət təhlükəsizliyi orqanları ilə üzvi əlaqəsini təmin etmək, dövlət sərhədinin mühafizəsini idarəetmə strukturlarını təkmilləşdirmək məqsədi ilə 9 noyabr 1992-ci ildə Azərbaycan Respublikasının Dövlət Sərhədini Mühafizə Komitəsi Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Sərhəd Qoşunlarının Baş İda-

rəsi adlandırıldı. Milli Təhlükəsizlik Nazirliyi Sərhəd Qoşunlarının Baş İdarəsinin rəisi eyni zamanda milli təhlükəsizlik nazirinin müavini hesab edildi. Təxminən 10 ildən sonra – 31 iyul 2002-ci ildə Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin yaradılması haqqında Azərbaycan Respublikasının Prezidenti fərman imzaladı. Həmin fərmana uyğun olaraq Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Sərhəd Qoşunları Baş İdarəsinin əsasında Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti yaradıldı. Bu fərmanla Dövlət Sərhəd Xidməti müstəqil bir qurum kimi fəaliyyət göstərməyə başladı.

31 iyul 2002-ci ildə Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanına əsasən həyata keçirilən struktur islahatlarından biri də «Hərbi Əks-Kəşfiyyat Xidməti»nin MTN-in tərkibinə daxil edilməsi oldu. Aparılmış struktur islahatları Azərbaycanın xüsusi xidmət orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi və səmərəliliyinin artırılmasına xidmət edən mühüm addımlardan idi.

## 7. Milli Təhlükəsizlik Nazirliyinin vəzifələri və fəaliyyətinin normativ-hüquqi bazası

Geostrateji mövqelərinə və zəngin təbii sərvətlərinə görə daim diqqət mərkəzində olan Azərbaycan Respublikası müxtəlif dövlətlərin maraqlarının toqquşduğu ölkədir. Ötən dövr ərzində nazirliyin şəxsi heyəti mahiyyətcə milli mənafelərimizə qarşı yönəlmiş kəşfiyyat-pozuculuq, terror-təxribat və digər cinayətkar cəhdlərlə üzləşmişdir.

Ümummilli lider Heydər Əliyev müxtəlif vaxtlarda etdiyi çıxışlarda MTN qarşısında hansı vəzifələrin durduğunu dəqiqliklə göstərmişdir. 1997-ci il iyunun 28-də milli təhlükəsizlik orqanları əməkdaşlarının peşə bayramı gününün təsis edilməsinə həsr olunmuş mərasimdəki çıxışında Ümummilli lider Heydər Əliyev MTN-in qarşısında aşağıdakı vəzifələri qoyurdu: «**...Azərbaycanın Milli Təhlükəsizlik Nazirliyi artıq dirçəlib, formalaşıb, öz gücünü toplayıb və həqiqətən müstəqil Azərbaycan Respublikasının dövlət təhlükəsizliyini təmin etməyə, qorumağa qadirdir. Ancaq eyni zamanda sizin qarşınızda hələ çox böyük vəzifələr var. Birinci vəzifə ondan ibarətdir ki, sovet dövründə də, müstəqillik dövründə də bu orqanda buraxılmış səhvlər bundan sonra bir daha buraxılmasın. Sizin ən əsas məqsədiniz ondan ibarətdir ki, heç bir vətəndaşa qarşı ədalətsiz hərəkət edilməsin. Hər bir vətəndaşın hüquqlarının qorunması bizim dövlətimizin və Prezident kimi mənim əsas vəzifəmdir. Bu vəzifənin də böyük bir hissəsini siz həyata keçirməlisiniz. İnsanların hüquqlarının qorunması, təhlükəsizliyinin təmin olunması, təkcə dövlətin yox, cəmiyyətin, xalqımızın da təhlükəsizliyinin təmin edilməsi sizin vəzifənizdir**».



Ümummilli lider daha sonra demişdir: «**... Sizin qarşınızda duran əsas vəzifələrdən biri əks-kəşfiyyat işini gücləndirməkdir. Çünki artıq ayrı-ayrı ölkələrin kəşfiyyat orqanlarının Azərbaycana qarşı pozucu, təxribatçı, casusluq hərəkətləri və tədbirləri meydana çıxıbdır. Bunun qarşısı alınmalıdır. Ona görə də əks-kəşfiyyat işi güclənməlidir. Biz heç bir ölkənin əleyhinə iş aparmırıq, amma bizim ölkəmizin də əleyhinə heç kəs iş aparmamalıdır. Bizimlə qonşu olan dövlətlər Rusiyadır, Gürcüstandır, Türkiyədir, İrandır. Bu ölkələrlə bizim qonşuluq, dostluq əlaqələrimiz var və əməkdaşlıq etmək lazımdır. Hesab etmirəm ki, bu ölkələrdən Azərbaycana qarşı casusluq, təxribatçılıq, yaxud başqa hərəkətlər baş verməlidir. Təəssüf ki, bəzilərindən artıq belə hərəkətlər baş veribdir. Ona görə də əks-kəşfiyyat işi gücləndirilməlidir**».

1999-cu il martın 27-də Azərbaycanın milli təhlükəsizlik orqanlarının yaradılmasının 80 illik yubileyinə həsr edilmiş təntənəli mərasimdə çıxış edən Ümummilli lider Heydər Əliyev MTN qarşısında duran vəzifələrə bir daha aydınlıq gətirmişdir:

**«Belәliklә, Milli Tәhlükәsizlik Nazirliyinin qarşısında çox böyük vәzifәlәr durur. Bu vәzifәlәr, birinci növbәdә Azәrbaycanın dövlәt müstәqilliyini qorumaq, mühafizә etmәkdәn ibarәtdir. Azәrbaycanın dövlәt müstәqilliyinә tәcavüz halları davam edir vә dövlәtimizin müstәqil siyasәti bәzi dairәlәri narahat edir. Bu müstәqil siyasәtin sapması üçün hәmin siyasәtә zidd hәrәkәtlәr hәyata keçirilir vә Azәrbaycanı bu müstәqillik yolundan müxtәlif tәrzli vasitәlәri ilә çәkindirmәyә çalışırlar. Ona görә dә Azәrbaycanın müstәqil siyasәtinә xidmәt etmәk, dövlәt müstәqilliyimizi qorumaq, mühafizә etmәk Milli Tәhlükәsizlik Nazirliyinin әsas vәzifәsidir.**

**Bizim qarşımızda duran vәzifә Azәrbaycanın әrazi bütövlüyünü bәrpa etmәkdir. Qeyd etdim ki, biz Ermәnistan-Azәrbaycan münaqişәsinin sülh yolu ilә hәll olunmasına çalışırıq. Burada Milli Tәhlükәsizlik Nazirliyinin dә vәzifәlәri var. Bu vәzifәlәri layiqincә yerinә yetirmәk lazımdır».**

MTN-in hüquq vә vәzifәlәri «Azәrbaycan Respublikası Milli Tәhlükәsizlik Nazirliyinin Əsasnamәsinin, strukturunun vә hәrbi qulluqçularının vә işçilәrinin ümumi say tәrkibinin tәsdiq edilmәsi haqqında» Azәrbaycan Respublikası Prezidentinin 27 mart 2004-cü il tarixli Fәrmanı ilә tәsdiq olunmuş MTN-in Əsasnamәsindә, elәcә dә Azәrbaycan Respublikasının 29 iyun 2004-cü il tarixli «Kәşfiyyat vә әkskәşfiyyat fәaliyyәti haqqında» vә «Milli Tәhlükәsizlik haqqında» Qanunlarında tәsbitini tapmışdır.

Ümumiyyәtlә, MTN hazırda öz fәaliyyәtindә Azәrbaycan Respublikasının Konstitusiyasını, Azәrbaycan Respublikasının qanunlarını, Azәrbaycan Respublikası Prezidentinin fәrman vә sәrәncamlarını, Azәrbaycan Respublikası Nazirlәr Kabinetinin qәrar vә sәrәncamlarını, habelә Azәrbaycan Respublikasının tәrәfdar çıxdığı beynәlxalq müqavilәlәri vә nazirliyin normativ hüquqi aktlarını rәhbәr tutur, fәaliyyәt istiqamәtlәrini dә bu normativ-hüquqi aktlara әsasәn müәyyәnlәşdirir vә hәyata keçirir.



Qanunvericilikdә milli tәhlükәsizlik anlayışı ilk dәfә olaraq «Milli Tәhlükәsizlik haqqında» Qanunda öz әksini tapmışdır. Qanunun 1-ci maddәsinә görә, Azәrbaycan Respublikasının milli tәhlükәsizliyi – dövlәtin müstәqilliyinin, suverenliyinin, әrazi bütövlüyünün, konstitusiya quruluşunun, xalqın vә ölkәnin milli maraqlarının, insanın, cәmiyyәtin vә dövlәtin hüquq vә mәnafelәrinin daxili vә xarici tәhdidlәrdәn qorunmasının tәmin edilmәsidir.

Qanunda MTN-in әsas fәaliyyәt istiqamәti olan kәşfiyyat Azәrbaycan Respublikasının siyasi, iqtisadi, elmi-texniki, hәrbi vә digәr sahәlәrdә milli maraqlarının müdafiәsi ilә bağlı mәlumatların әldә edilmәsinә vә tәhlilinә yönәlmiş, milli tәhlükәsizliyin, milli maraqların tәmin edilmәsi mәqsәdi ilә hәyata keçirilәn, elәcә dә milli tәhlükәsizlik siyasәtinin müvәffәqiyyәtli tәtbiqi üçün әlverişli şәraitin yaradılmasına yönәldilәn fәaliyyәt növü kimi müәyyәn edilmişdir.

Qanunvericilik aktları MTN-in qarşısında duran vәzifәlәri sistemlәşdirmiş vә konkretlәşdirmişdir. MTN Azәrbaycan Respublikasının milli tәhlükәsizliyinә qarşı yönәldilmiş tәhdidlәri aşkarlamalı, tәhlil etmәli vә proqnozlaşdırmalı, onların qabaqlanması vә qarşısının alınması üzrә tәdbirlәri hazırlamalı vә hәyata keçirmәlidir. Bundan әlavә, milli tәhlükәsizliyi tәmin edәcәk qüvvә vә vasitәlәrin formalaşdırılması vә onların hazırlığının tәmin edilmәsi, bilavasitә tәhdid vә qәsdlәrin yarandığı tәqdirdә bütün qüvvә vә vasitәlәrin sәfәrbәr edilmәsi, müvafiq әks tәdbirlәr kompleksinin hәyata keçirilmәsi, yaranmış vәziyyәtin mümkün nәticәlәrinin lokallaşdırılması vә aradan qaldırılması da MTN-in sәlahiyyәtlәrinә daxildir. MTN-in әsas funksiyalarından biri dә Azәrbaycan Respublikasının beynәlxalq öhdәliklәrinә müvafiq olaraq ümumi vә regional tәhlükәsizliyin tәmin olunmasında iştirak etmәkdir.

Yuxarıda göstәrilәn vәzifәlәri yerinә yetirmәk üçün qanunvericilik MTN orqanlarına bir sıra hüquqlar vermişdir.

MTN Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunması ilə əlaqədar tədbirlər planlaşdırmaq və həyata keçirmək, milli təhlükəsizlik sisteminin təkmilləşdirilməsi ilə bağlı təkliflər vermək, təhlükəsizlik sahəsinə aid qanunlara və digər normativ-hüquqi aktlara riayət olunmasını təmin etmək kimi səlahiyyətlərə malikdir.

Azərbaycan Respublikasının milli təhlükəsizliyini təhdid edən, milli maraqlara zərər vura bilən fəaliyyətin qarşısının alınması üçün müvafiq tədbirlərin görülməsi MTN-in səlahiyyətinə aid edilmiş əsas məsələlərdən biridir.

MTN-in fəaliyyətinin kəşfiyyat və əks-kəşfiyat istiqamətləri arasında da dəqiq sərhədlər müəyyən edilmiş və kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin vəzifələri fərqləndirilmişdir.

MTN-in kəşfiyyat fəaliyyəti ilə məşğul olan subyektlərinin əsas vəzifəsi xarici dövlətlərin, təşkilatların və ayrı-ayrı şəxslərin Azərbaycan Respublikasının milli maraqlarına təhlükə olan real və potensial imkanları, hərəkətləri, planları və niyyətləri barədə məlumatların əldə edilməsi, təhlili və təhdidlərin proqnozlaşdırılmasından, eləcə də milli təhlükəsizliyinin təmin edilməsi istiqamətində dövlət siyasətinin həyata keçirilməsi üçün əlverişli şərait yaradılmasından ibarətdir. Bundan əlavə MTN-in kəşfiyyat strukturları müvafiq dövlət orqanlarını siyasi, iqtisadi, hərbi, elmi-texniki, ekoloji və milli təhlükəsizliyin təminatı ilə bağlı qərarların qəbul edilməsi üçün zəruri kəşfiyyat məlumatları ilə təmin etməli və Azərbaycan Respublikasının iqtisadi inkişafına, elmi-texniki tərəqqisinə və təhlükəsizliyinin hərbi təminatına köməklik göstərməlidir. Həmçinin, Azərbaycan Respublikasının xarici ölkələrdə fəaliyyət göstərən idarə və təşkilatlarında dövlət sirlərinin mühafizəsinin və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin kəşfiyyat məlumatları ilə təmin edilməsi, kəşfiyyat tədbirlərinin tətbiqi zamanı əks-kəşfiyyat



təminatının və texniki kəşfiyyatın həyata keçirilməsi MTN-in kəşfiyyat strukturlarının vəzifələrinə aiddir.

«Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında» Qanunla MTN-in əks-kəşfiyyat orqanları qarşısında daha geniş vəzifələr qoyulur. Əks-kəşfiyyat orqanlarının əsas vəzifəsi xarici dövlətlərin xüsusi xidmət orqanlarının və təşkilatlarının, habelə cinayətkar qrupların və ayrı-ayrı şəxslərin Azərbaycan Respublikasının müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə və konstitusiya quruluşuna, iqtisadi, müdafiə, elmi-texniki potensialına və sair milli maraqlarına zərər vurulmasına yönəlmiş kəşfiyyat, terror-təxribat və digər pozuculuq fəaliyyətinin aşkarlanması, qabaqlanması və qarşısının alınmasından və müvafiq dövlət orqanlarına ölkənin milli təhlükəsizliyinə və milli maraqlarına zərər vura biləcək təhdidlər barədə məlumat verilməsindən ibarətdir. Azərbaycan Respublikasının silahlı qüvvələrinin və başqa silahlı birləşmələrinin hərbi və iqtisadi potensialının, hərbi hazırlığının və döyüş qabiliyyətinin zəifləıdilməsinə yönəlmiş fəaliyyətin aşkarlanması, qabaqlanması və qarşısının alınması başqa sözlə hərbi sferanın əks-kəşfiyyat təminatı MTN-in əks-kəşfiyyat orqanlarının mühüm vəzifələrindən biri kimi müəyyən edilmişdir. Bununla yanaşı, əks-kəşfiyyat orqanları xüsusi xidmət orqanlarının texniki kəşfiyyatına qarşı mübarizə aparmalı, öz səlahiyyətləri daxilində dövlət sərhədinin mühafizəsinin əməliyyat təminatını və ali dövlət hakimiyyəti orqanlarının və xüsusi obyektlərin mühafizəsinin əks-kəşfiyyat təminatını həyata keçirməli, səlahiyyətləri daxillində müdafiə kompleksi, energetika, nəqliyyat, rabitə və digər sahələrdə strateji əhəmiyyətli obyektlərin, həmçinin milli təhlükəsizlik baxımından əhəmiyyət kəsb edən elmi-texniki araşdırmaların və bu kimi fəaliyyətlərin nəticələrinin, o cümlədən məlumatların, sənədlərin və proqram təminatı vasitələrinin təhlükəsizliyini təmin etməlidir.

Azərbaycan Respublikasının ərazisində yerləşən xarici dövlətlərin diplomatik və digər nümayəndəliklərinin təhlükəsizliyinin başqa dövlət orqanları ilə qarşılıqlı əlaqədə təminatı, qulluq mövqeyinə görə dövlət sirri təşkil edən məlumatlar, sənədlər və texniki vasitələrlə işləməyə buraxılan şəxslərin öyrənilməsi və kəşfiyyat fəaliyyəti subyektlərinin əks-kəşfiyyat məlumatları ilə təmin edilməsi də qanunvericiliklə əks-kəşfiyyat orqanlarının qarşısında qoyulmuş vəzifələrdəndir.

Qanunvericilikdə bu özünəməxsus vəzifələrlə yanaşı, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin ümumi vəzifələri də müəyyən edilmişdir. MTN-in müvafiq strukturları kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin təminatı ilə bağlı hadisələrin, faktların, əşyaların və digər informasiya mənbələrinin əməliyyat uçotunu aparmalı, informasiya təhlükəsizliyini, əməkdaşlarının və onlara kömək edən şəxslərin məxfiliyini təmin etməli, onların özlərinin və yaxın qohumlarının şəxsi təhlükəsizliyini və əmlaklarını hüquqazidd qəsdlərdən qorumalıdır. Bundan əlavə, qanunvericiliyə uyğun olaraq dövlət sirri təşkil edən məlumatların mühafizəsinin, məxfilik rejiminin, xüsusi rabitə növlərinin və şifrləmə işinin təhlükəsizliyinin təmin edilməsi, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin müəyyən edilmiş qaydada daxili təhlükəsizliyinin təminatı da xüsusi əhəmiyyət kəsb edir.

MTN-in kəşfiyyat və əks kəşfiyyat strukturlarının ümumi vəzifələrinə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən xarici dövlətlərin xüsusi xidmət orqanlarının və müvafiq beynəlxalq təşkilatların sorğularının icrası və milli təhlükəsizlik məsələləri ilə bağlı elmi tədqiqatlar və araşdırmaların aparılması da daxildir.

Qarşıya qoyulmuş vəzifələri yerinə yetirmək üçün «Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında» Qanun ilə MTN-in kəşfiyyat və əks-kəşfiyyat strukturları geniş hüquqlarla səlahiyyətləndirilmişdir:



MTN Azərbaycan Respublikasının təhlükəsizliyinin təmin olunmasına, onun milli maraqlarına zərər vura biləcək əməllərdən qorunmasına dair dövlət proqramlarının işlənib hazırlanmasında, habelə milli təhlükəsizliklə bağlı qanunların və digər normativ-hüquqi aktların, beynəlxalq saziş və müqavilə layihələrinin öyrənilməsi və müvafiq təkliflərin verilməsi prosesində yaxından iştirak edə bilər.

Yerinə yetirilən vəzifələrin xarakterindən asılı olaraq MTN-in müvafiq strukturları Azərbaycan Respublikasına qarşı kəşfiyyat-pozuculuq fəaliyyəti aparan xarici xüsusi xidmət orqanlarına və təşkilatlarına nüfuzetməni həyata keçirmək, qanunvericiliklə nəzərdə tutulmuş qaydada rabitə kanallarından və digər mənbələrdən məlumatları çıxarmaq, informasiya sistemlərindən, radioelektron, video, audio vasitələrdən, kino-fotoçəkilişlərdən və digər metod və vasitələrdən istifadə etmək, kriminalistik tədqiqatlar aparmaq, könüllülük və məxfilik prinsiplərinə əsasən kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinə kömək edə bilən şəxslərlə əməkdaşlıq münasibətləri qurmaq, qarşılıqlı razılıq, o cümlədən müqavilə əsasında, dövlət və yerli özünüidarə orqanlarının, mülkiyyət formasından asılı olmayaraq müəssisə, idarə və təşkilatların binalarından, həmçinin vətəndaşların yaşayış və digər tikililərindən zəruri müddətlərdə istifadə etmək hüququna malikdir.

Bundan əlavə, zərurət yarandığı anda Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məlumatların toplanması, təhlili və istifadəsi, o cümlədən dövlət və yerli özünüidarə orqanlarından, mülkiyyət formasından asılı olmayaraq müəssisə, idarə və təşkilatlardan və onların vəzifəli şəxslərindən tələb olunan məlumatların əvəzsiz alınması, onların sənədlərindən və informasiya blanklarından istifadə edilməsi də mümkündür.

MTN kəşfiyyat, əks-kəşfiyyat fəaliyyətini və ibtidai istintaqı səlahiyyətlərinə aid edilmiş cinayətlərə qarşı mübari-

zəni həyata keçirərkən, həmçinin Azərbaycan Respublikası Prezidentinin 27 mart 2004-cü il tarixli Fərmanı ilə təsdiq edilmiş yeni əsasnaməsində nəzərdə tutulmuş hüquqlara malik olur və vəzifələri yerinə yetirir.

Azərbaycan Respublikası Konstitusiyasına görə, insan və vətəndaş hüquqlarının azadlıqlarının təmin edilməsi dövlətin ali *məqsədidir (maddə 12)*. «Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası»na, «Milli təhlükəsizlik haqqında» Qanuna, «Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında» Qanuna və «MTN-in əsasnaməsi»nə uyğun olaraq insan və vətəndaş hüquq və azadlıqlarına hörmət edilməsi MTN-in fəaliyyətində rəhbər tutulmalı olan əsas prinsiplərdən biridir. «Milli təhlükəsizlik haqqında» Qanunun 13-cü maddəsinin 2-ci bəndinə görə, Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunmasında insan hüquq və azadlıqlarının məhdudlaşdırılmasına yalnız qanunla müəyyən edilmiş hallarda yol verilə bilər. Hər bir şəxs hüquq və azadlıqlarının məhdudlaşdırılması ilə bağlı milli təhlükəsizliyi təmin edən subyektlərdən qanunvericiliklə müəyyən edilmiş qaydada məlumat almaq hüququna malikdir.

Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətində insan və vətəndaş hüquq və azadlıqlarının təminatları «Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında» Qanunun 4-cü maddəsində də göstərilmişdir. Ümumiyyətlə, qeyd olunduğu kimi, qanunvericilikdə insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində aparılan islahatlar MTN-in imkanlarını nəinki məhdudlaşdırmır, əksinə onun fəaliyyətinin hüquqi baxımdan daha əsaslı şəkildə aparılması üçün şərait yaradır.

**Azərbaycanda maraqlı dövlətlərin kəşfiyyat orqanları həm lazımi məlumatları toplamaq, həm də dövlətin mühüm qərarlarına təsir göstərmək üçün burada mövqelərini yaratmağa çalışırlar. Onlar bu istiqamətdəki fəaliyyətlərini əsasən güc strukturlarına, iqtisadi qurumlara, ictimai-siyasi təşkilatlara yönəldirlər. Belə halların aşkarlanması, qarşısının alınması və onlara nəzarətin təşkili hazırda nazirliyin prioritet iş istiqamətlərindəndir.**



2001-ci il sentyabrın 11-də ABŞ-da törədilmiş terror aksiyaları dünya dövlətlərinin beynəlxalq terrorçuluğa və təcavüzkar separatizmə daha həssaslıqla yanaşması, terrora və onu dəstəkləyən dövlətlərə qarşı barışmaz mövqeyinin təşəkkül tapması, qlobal cinayətlər əleyhinə mübarizədə beynəlxalq səylərin birləşdirilməsi üçün zəmin yaratmışdır. Terrorçuluqla mübarizə Azərbaycan dövlətinin həyata keçirdiyi ardıcıl, məqsədyönlü xətdir. Antiterror koalisiyasının tərkibində Azərbaycan Respublikasının əldə etdiyi önəmli nəticələr dünya birliyi tərəfindən yüksək qiymətləndirilir.

Azərbaycan xüsusi xidmət orqanları son illər mütəşəkkil cinayətkarlığın ən təhlükəli təzahürü olan terrorçuluqla mübarizədə əhəmiyyətli göstəricilər əldə etmişdir.

Azərbaycan Respublikasında terrorçuluqda şübhəli bilinən, yaxud ona dəstək verdiyi ehtimal edilən şəxslər və təşkilatlar əməliyyat nəzarətinə götürülməklə barələrində müvafiq əməliyyat-istintaq tədbirləri aparılır, fəaliyyətləri zərərsizləşdirilir.

Milli Təhlükəsizlik Nazirliyinin qlobal antiterror əməliyyatlarındakı fəaliyyəti informasiya mübadiləsi sahəsində qarşılıqlı əməkdaşlıqla yanaşı, beynəlxalq terrorçuların aşkarlanması və tərəfdaşlara təhvil verilməsində bilavasitə iştirakı ilə müşayiət olunur.

## 8. Milli təhlükəsizlik orqanlarının kadr potensialının gücləndirilməsində MTN-in Heydər Əliyev adına Akademiyasının rolu

Hər bir qurumun uğurlu fəaliyyətini müasir dünyada gedən prosesləri dərindən izləyən, zəngin erudisiyaya malik olan, ixtisasını dərindən mənimsəyən, qarşıya qoyulmuş vəzifələrə olduqca məsuliyyətlə yanaşan və onları yüksək sə-

viyyədə həyata keçirməyi bacaran peşəkar kadrlar təmin edir. Milli təhlükəsizlik orqanlarında isə, bütün bunlarla yanaşı, vətənə, xalqa, millətə sədaqətdə nümunə olan, xalqın adət-ənənələrinə, milli mənəvi dəyərlərinə hörmət və ehtiramla yanaşan, mənəviyyatca təmiz, cəsarətli, yüksək mədəniyyətə və ünsiyyət yaratmaq bacarığına, xarakter bütövlüyünə malik olan kadrlar lazımdır.

Şübhəsiz ki, yuxarıda sadalanan keyfiyyətlərə Azərbaycanın təhsil müəssisələrində yiyələnmək olar. Lakin təhlükəsizlik orqanlarının spesifik xüsusiyyətlərini mənimsəmək üçün mütləq xüsusi təyinatlı məktəbdə təhsil almaq lazımdır. Bunun əhəmiyyətini dərindən dərk edən ümummilli lider Heydər Əliyev Azərbaycan Respublikasının milli təhlükəsizlik orqanlarını xüsusi ixtisaslı ali təhsilli zabit kadrlarla təmin etmək məqsədi ilə 1 dekabr 1998-ci ildə «Milli Təhlükəsizlik Nazirliyinin Akademiyasının yaradılması barədə» Sərəncam imzaladı. Bununla da Azərbaycanda ilk dəfə olaraq xüsusi xidmət orqanları üçün milli kadrların hazırlanması işinin təməli qoyuldu.

Bu xüsusi təyinatlı hərbi məktəbin qarşısında mühüm vəzifələr qoyan ümummilli lider Heydər Əliyev təhlükəsizlik orqanlarının 80 illik yubileyindəki çıxışında bildirirdi: «**Sizin məktəbiniz var, bu məktəbin işinə fikir verməlisiniz. Çox ciddi məsələdir. Mən deyə bilərəm ki, keçmiş SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin çox yüksək səviyyəli ali məktəbləri vardı, çox yüksək səviyyəli biliklər verirdilər. Mən özüm biliklərin əksəriyyətini həmin o ali məktəblərdə almışam. Mən Leninqradda oxuyarkən təkcə o ali məktəbin müəllimləri deyil, Leninqrad Universiteti professorlarının əksəriyyəti bizim ali məktəbdə mühazirələr oxuyurdu – həm tarixdən, həm fəlsəfədən, həm ədəbiyyatdan, həm mədəniyyətdən, həm dildən, həm coğrafiyadan, bütün başqa fənlərdən, xüsusən humanitar fənlərdən. Yəni, demək istəyirəm, nazirliyin belə yüksək səviyyəli məktəbləri var idi. Hamısı 1953-54-cü illərdən sonra yaranmış məktəblər idi. Sizin belə məktəbiniz olmalıdır, kadrlar hazırlamalı, işləyən kadrları təkmilləşdirməlisiniz. Amma o məktəbdə dərs verənlər də çox səviyyəli adamlar olmalıdır**».



MTN-in Akademiyası milli öndərin qarşıya qoyduğu tələb və vəzifələri ləyaqətlə, eyni zamanda böyük məsuliyyət hissi ilə yerinə yetirir. Akademiya fəaliyyətə başladığı dövrdən təşkilati, tədris, elmi-metodiki və ideya-tərbiyəvi iş sahəsində mühüm tədbirlər planı hazırlanmış və həyata keçirilmişdir.

Milli Təhlükəsizlik Nazirliyinin Akademiyası nazirlik üçün kadrların ixtisaslarının artırılmasını, yüksək ixtisaslı xüsusi ali təhsilli mütəxəssislərin hazırlanmasını həyata keçirən qapalı xüsusi təyinatlı təhsil müəssisəsidir. Burada əməliyyat işçilərinin hazırlanması, informasiya təhlükəsizliyi, kadrların yenidən hazırlanması və təkmilləşdirilməsi, eyni zamanda qiyabi təhsil verən fakültələr fəaliyyət göstərir. Bu fakültələrdə tədrisi milli təhlükəsizlik orqanlarında uzun illər xidmət etmiş və böyük təcrübəyə malik yüksək rütbəli zabitlər, elmlər namizədləri və doktorlar, dosent və professorlar həyata keçirirlər. Bu da müdavimlərin və dinləyicilərin gələcək xidməti fəaliyyətləri üçün zəruri fundamental nəzəri biliklər almasını və xüsusi hazırlığını təmin edir. Bununla yanaşı akademiyada xüsusi fənlər üzrə mühazirələr oxumaq və praktik dərslər aparmaq üçün Milli Təhlükəsizlik Nazirliyinin rəhbər işçiləri və ixtisaslı mütəxəssisləri də tədris prosesinə cəlb olunurlar.

Milli Təhlükəsizlik Nazirliyinin Akademiyasında tədris prosesinin yüksək səviyyədə təşkil edilməsi üçün müasir kompüterlər, audio-video texnika, proyektorlar və stendlərlə təchiz edilmiş xüsusi təyinatlı siniflər və kabinetlər, kompüter zalları, zəngin fonda malik xüsusi və ümumi kitabxanalar, mədəni-kütləvi tədbirlərin keçirilməsi üçün gözəl tərtibata, audio-video qurğulara malik klublar, zəruri avadanlıq və trenajorlar quraşdırılmış idman zalları, mey-

dançaları kursant və dinləyicilərin ixtiyarına verilmişdir. Akademiyanın qarşısında duran əsas vəzifə kursant və dinləyiciləri fiziki cəhətdən sağlam, Vətənə, milli maraqlara, dövlətçiliyə və azərbaycançılıq ideologiyasına sədaqət ruhunda tərbiyə etməkdir.

Akademiyanın elmi-pedaqoji kollektivi tərəfindən hazırlanmış dərsliklər, tədris vəsaitləri, metodiki təlimatlar, monoqrafiyalar, elmi araşdırmalar və s. akademiyanın müasir poliqrafiya avadanlığı ilə təchiz edilmiş nəşriyyat bazasında, irihəcmli xüsusi dərsliklər isə Milli Təhlükəsizlik Nazirliyinin Nəşriyyat-Poliqrafiya Mərkəzində çap edilir. Akademiyaya qəbul olunmuş kursantlar dövlət təminatına götürülür, hərbi geyimlə, gündə üç dəfə yeməklə və yüksək səviyyədə məişət şəraiti yaradılmış yataqxana ilə təmin edilir və kursantlara təhsil aldıqları dövrdə yüksək səviyyəli tibbi xidmət göstərilir. Akademiyada təhsil alan hər bir kursanta təqaüd verilir. 2004-2005-ci tədris ilindən isə ümummilli lider Heydər Əliyevin adına xüsusi təqaüd təsis edilmişdir. Nazirliyin rəhbərliyi tərəfindən daim diqqət mərkəzində olan akademiyanın ölkənin təhlükəsizlik orqanlarının gələcək fəaliyyətində əhəmiyyətli dərəcədə rol oynayır.



# V FƏSİL

## Siyasi sahədə milli təhlükəsizliyin təmin olunması

**1. Siyasi təhlükəsizlik anlayışı**

**2. Azərbaycan Respublikasının siyasi sahədə milli maraqları və milli təhlükəsizliyinə təhdidlər**

**3. Azərbaycan Respublikasının siyasi sahədə milli təhlükəsizliyinin təmin olunması tədbirləri**

**4. Ermənistanın etnik təmizləmə siyasəti və Azərbaycan Respublikasına qarşı təcavüzü. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi**

## 1. Siyasi təhlükəsizlik anlayışı

Siyasi təhlükəsizlik anlayışına müxtəlif sosial-siyasi proseslərin nəticəsi kimi bir sıra aspektlərdən baxıla bilər. Bu aspektlərdən biri siyasi təhlükəsizliyin ölkənin və vətəndaşların siyasi maraqlarının təmin olunması üçün dövlətin və cəmiyyətin həyata keçirdikləri tədbirlərin nəticəsi kimi ifadə olunur. Digər yanaşmaya görə, siyasi təhlükəsizlik – siyasi və sosial gərginliyin aradan qaldırılması və yaxud azaldılması ilə bağlı siyasi və hüquqi problemlərin həlli deməkdir. Bu mənada siyasi təhlükəsizlik anlayışının iki aspekti – daxili və xarici siyasi təhlükəsizlik aspektləri nəzərdən keçirilməlidir.

Daxili siyasi təhlükəsizlik anlayışına konstitusiya quruluşunun, dövlət hakimiyyəti institutlarının sabitliyi, vətəndaş və milli həmrəylik, ərazi bütövlüyü, hüquqi sistemin vahidliyi (hüquqi məkanın vahidliyi) və hüquqi qaydanın təmin olunması, insan hüquq və azadlıqlarının aliliyi, siyasi və dini ekstremizmin, etnik separatizmi doğuran səbəblərin (sosial, etnik, dini münaqişələr, terrorçuluq) aradan qaldırılması başa düşülür.

Xarici siyasi təhlükəsizlik dövlətin suverenliyi, dünyada mövqelərinin möhkəmlənməsi, digər ölkələrlə bərabərhüquqlu qarşılıqlı faydalı münasibətlərin formalaşmasını özündə ehtiva edir.

Siyasi təhlükəsizliyin təmin olunması baxımından siyasi sistemin və onun institusional tərkib hissələrinin təhlükəsizliyi son dərəcə önəmlidir. Siyasi təşkilatlanmanın mərkəzi halqaları qismində isə dövlət çıxış etməkdədir. Bununla yanaşı siyasi partiyalar və ictimai təşkilatlar siyasi sistemin ən önəmli subyektləridir. Lakin siyasi təhlükəsizliyin təmin olunması baxımından məhz dövlətin imkan və səlahiyyətləri həlledici rol oynayır.



Siyasi sistemin təhlükəsizliyi üçün əsas təhdidlər qismində müxtəlif sosial-siyasi subyektlərin (dövlətlər, partiyalar, hərəkatlar, elitalar, sosial qruplar, şəxslər) siyasi sabitliyin pozulmasına, siyasi rejimin laxladılmasına yönəlmiş hərəkətləri çıxış edir.

Hər bir cəmiyyətin siyasi sistemini möhkəmlədən sabitlik siyasi sistemin dinamik inkişafını təmin edir. Ümummilli lider Heydər Əliyev haqlı olaraq göstərirdi: **«Əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz... Bizim böyük məsuliyyətimiz var. Biz müstəqil Azərbaycan dövləti yaradırıq və onu elə yaratmalıyıq ki, daim yaşasın, heç bir qüvvə onu heç vaxt, heç bir yana əyə bilməsin, heç bir böyük dövlət gəlib bizim, Azərbaycan xalqının milli azadlığını, müstəqilliyini əlindən ala bilməsin».**

Siyasi sistemlərin təbiətindən asılı olaraq onların sabitliyinin təmin edilməsi də müxtəlif olur. Totalitar siyasi sistemlər çərçivəsində siyasi sabitliyin təmin edilməsi fikir və ifadə azadlığının məhdudlaşdırılması, total nəzarətin bərqərar edilməsi ilə təmin olunur. Totalitar siyasi sistemə malik olan ölkələrdə təhlükəsizliyini təmin etmək məqsədilə siyasi hakimiyyət tabeliyində olan müxtəlif vasitələrdən, ordudan, xüsusi orqanlardan, manipulyasiyadan geniş istifadə edir.

Demokratik siyasi sistemlərdə isə əksinə siyasi təhlükəsizliyin təmin edilməsi hüquqi dövlətin və vətəndaş cəmiyyətinin mövcudluğu, yüksək siyasi mədəniyyət, demokratiyanın inkişafı ilə əlaqələndirilir. Cəmiyyətin siyasi sisteminin sabitliyinin, eləcə də daxili siyasi təhlükəsizliyin təminatçısı kimi hakimiyyət bölgüsü prinsipinin də mühüm rolu vardır. Siyasi təhlükəsizliyin möhkəm olmasının əsas şərtlərindən biri də ictimai həmrəyliyin bərqərar olmasıdır. Belə ictimai həmrəylik dövləti və cəmiyyəti konfliktlərdən, hərbi toqquşmalardan qorumaqla, si-

yasi sistemin səmərəli fəaliyyətini və inkişafını, ən əsası isə legitimliyini təmin edir. Həmçinin ictimai həmrəylik əsas insan hüquq və azadlıqlarının qorunmasına təminat verməklə, cəmiyyətin azad inkişafı üçün perspektivlər açır. Bununla yanaşı hər bir ölkənin xarici və daxili siyasətində baş verən dəyişiliklər, cəmiyyətin mənəvi-əxlaqi dəyərləri də cəmiyyətdə siyasi təhlükəsizliyin təmin olunmasında mühüm rol oynayır.

Bütün bunları qeyd edərək belə bir nəticəyə gəlmək mümkündür ki, siyasi təhlükəsizliyin təmin olunması baxımından hüquqi dövlət və vətəndaş cəmiyyətinin normal inkişafını təmin etmək, ilk növbədə cəmiyyətin siyasi sisteminin daxili sabitliyinə nail olmaq ən başlıca şərtlərdən biridir. Yalnız daxili sabitliyə nail olunduğu bir şəraitdə milli təhlükəsizlik obyektlərinin normal inkişafını təmin etmək mümkündür.

## 2. Azərbaycan Respublikasının siyasi sahədə milli maraqları və milli təhlükəsizliyinə təhdidlər

Azərbaycan Respublikasının **siyasi sahədə əsas milli maraqları** aşağıdakılardır:

– dövlət müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü;

– konstitusiya quruluşunun qorunması, demokratik, hüquqi, dünyəvi dövlətin mövcudluğu;

– Azərbaycan xalqının vahidliyinin qorunub saxlanılması;

– vətəndaş cəmiyyətinin formalaşdırılması, insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunması;

– ictimai-siyasi sabitliyin təmin edilməsi;

– kəşfiyyat, terror-təxribat və digər pozuculuq fəaliyyətinin qarşısının alınması;

– dünya azərbaycanlılarının həmrəyliyi;



– xaricdə yaşayan həmvətənlərimizin hüquqlarının müdafiəsi;

– Azərbaycanın dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşaması, bərabər tərəfdaşlıq əsasında beynəlxalq əməkdaşlığın inkişafı, Avropa və dünya birliyinə inteqrasiya;

– beynəlxalq aləmdə Azərbaycan Respublikasının nüfuzunun artırılması.

**Siyasi sahədə əsas təhdidlər** aşağıdakılardır:

– Azərbaycan Respublikasının dövlət müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və konstitusiya quruluşu əleyhinə qəsdlər;

– ictimai-siyasi sabitliyin pozulması;

– insan və vətəndaş hüquq və azadlıqlarının pozulması, demokratik təsisatlara qarşı daxili və xarici təzyiqlər;

– dövlət orqanlarının təşkilat strukturunun dağıdılması, onların fəaliyyətlərinin pozulması, ölkədə idarəetmə səviyyəsinin aşağı düşməsi;

– milli və dini münasibətlərin kəskinləşməsi, separatçılıq, etnik, dini və siyasi ekstremizm hallarının yayılması;

– ictimai təhlükəsizliyin pozulması, hüquqpozmaların sosial profilaktikasının səmərəsizliyi, cinayətkarlığın, xüsusən onun mütəşəkkil, transmilli formalarının artması;

– qanunvericilikdə nəzərdə tutulmayan silahlı birləşmələrin yaradılması, silahlı qiyamın təşkil edilməsi;

– xarici xüsusi xidmət orqanlarının və başqa təşkilatların, həmçinin ayrı-ayrı şəxslərin Azərbaycan Respublikasına qarşı kəşfiyyat, terror-təxribat və digər pozuculuq fəaliyyəti;

– dövlət xadiminin və ya ictimai xadimin xidməti və ya siyasi fəaliyyətinə görə onun həyatına sui-qəsd edilməsi;

– digər dövlətlər tərəfindən Azərbaycan Respublikasının daxili işlərinə müdaxilə;

– Azərbaycan Respublikasının maraqlarına toxuna bilən mövcud və potensial regional münaqişələrin olması;

– beynəlxalq terrorçuluq.

## 3. Azərbaycan Respublikasının siyasi sahədə milli təhlükəsizliyinin təmin olunması tədbirləri

Siyasi sahədə milli təhlükəsizliyin təmin olunması məqsədilə milli təhlükəsizliyin subyektləri bir sıra tədbirlər həyata keçirir. Siyasi sahədə milli təhlükəsizliyi təmin etmək üçün ölkə daxilində milli-etnik münasibətlərin normal inkişafına nail olmaq əsas vəzifələrdən biridir. Daxili sabitliyi qorumaq və milli-etnik münasibətləri normal məcraya salmaq məqsədilə etnik azlıqların yaşadığı bölgələrdə daimi monitorinqlər keçirmək məqsədəuyğundur. Monitorinqlərin keçirilməsi zamanı əsasən aşağıdakı prosesləri izləmək lazımdır.

– ümumilikdə bərabərhüquqlu vətəndaşlıq prinsipinə əməl edilməsini;

– ölkənin iqtisadi siyasətinin onlara təsirini;

– etnik azlıqların nümayəndəlik orqanlarında təmsil olunmasının və siyasətdə iştirakını;

– etnik azlıqların dövlət dilindən və eləcə də ana dillərindən hansı səviyyədə istifadə etməsini;

– etnik zəmində baş verən cinayətlərin dinamikasını;

– müxtəlif etnik azlıqların davranışındakı dəyişiklikləri.

Bu sahədə ayrı-seçkilik və etnik təcridolunma kimi meyillər müşahidə olunarsa, tam yəqinliklə ehtimal etmək olar ki, bu proseslər qarşılıqlı münasibətlərdəki gərginliyi artırmaqla, müxtəlif səviyyəli münaqişələrə gətirib çıxara bilər.

Burada bir məsələni də diqqətdən qaçırmaq olmaz ki, milli-etnik münasibətlər süni şəkildə də gərginləşdirilə bilər



və bunun qarşısını almaq üçün qabaqlayıcı tədbirlərin görülməsi vacibdir.

**Etnik separatizm** sosial-siyasi hadisə kimi qəbul edilmişdir. Bu hadisə özündə milli xüsusiyyətlərin inkişafına yönəlmiş əməllərin və baxışların sistemini ehtiva edir. **Ekstremizm** isə etnik separatçıların siyasətində ifrat tədbir və metod kimi çıxış edir. Göründüyü kimi, bu anlayışlar bir hadisəni – etnik əlamətə görə dövlətlərin yaradılmasını və ayrılmaya olan cəhdi ehtiva edirlər.

Müasir şəraitdə müxtəlif ölkələrdə konstitusiya quruluşuna etnik separatizm qəsdləri üçün müəyyən baza mövcuddur və bu da ölkələrin siyasi təhlükəsizliyi üçün təhdid yaradır. Siyasi təhlükəsizliyə təhdid kimi **etnik separatizm** ölkənin aşağıdakı **maraqlarına** qəsd edir:

**– şəxsiyyətin maraqlarına** – vətəndaşların şəxsi və mülkiyyət təhlükəsizliyinə, onların siyasi və sosial hüquqlarına və azadlıqlarına;

**– cəmiyyətin maraqlarına** – ölkənin xalqlarının bərabərhüquqluluğunun və milli özünəməxsusluğunun müdafiəsi, beynəlxalq, millətlərarası və konfessiyalararası sağlam mühitin və razılığın saxlanılması, müxtəlif ictimai qrupların ölkənin maddi və mənəvi vəsaitlərindən birgə istifadəsi zamanı sosial ədalətin təmin edilməsi;

**– dövlətin maraqlarına** – Azərbaycan Respublikasının ərazi bütövlüyünün və suverenliyinin təmini, konstitusiya quruluşunun, siyasi təhlükəsizliyin mühafizəsi, hüquq qaydasının və ictimai siyasi sabitliyin təmini, MDB ölkələri və dağılmış SSRİ-nin digər respublikaları ilə qarşılıqlı sərfəli əlaqələrinin inkişafı və saxlanılması, beynəlxalq təhlükəsizlik.

Siyasi təhlükəsizlik ölkənin daxili sabitliyi ilə əlaqədar olsa da **ölkənin xarici siyasəti** ilə də bağlıdır. Uğurlu xarici siyasətin həyata keçirilməsi ölkənin beynəlxalq hüququn subyekti kimi ikitərəfli və çoxtərəfli münasibətlərdə bərabərhüquqlu

əməkdaşlığını təmin edir, onun beynəlxalq nüfuzunun formalaşmasına şərait yaradır. Xarici siyasət kursu dövlətin beynəlxalq aləmdə maraqlarını təmin etmək üçün əlverişli şərait yaradır və ölkənin xarici təhdidlərdən qorunmasını dinc, diplomatik yollarla həyata keçirir. Dövlətin xarici siyasətinin əsas vəzifələri kimi ölkənin heç bir xarici asılılığına imkan verilməməsi, onun suverenliyinə olan təhdidlərin aradan qaldırılması, daim xarici əlaqələrdə yeni imkanların axtarılıb tapılması və s. məsələləri göstərmək mümkündür.

Siyasi sahədə milli təhlükəsizliyin təmin olunmasında ölkənin xarici siyasət kursu və xarici siyasətin həyata keçirilməsi üsul və metodları mühüm rol oynayırlar. Diplomatik üsul və metodlar vasitəsilə dinc yolla ikitərəfli və çoxtərəfli münasibətlər yaradılmaqla, ölkənin müxtəlif sahələri əhatə edən milli maraqları təmin edilir.

Xarici siyasət vasitəsilə ölkənin beynəlxalq imicinin möhkəmləndirilməsi, ölkə haqqında lazımi informasiyaların beynəlxalq aləmə ötürülməsi təmin edilir.

Siyasi təhlükəsizliyin təmin edilməsində **insan hüquq və azadlıqlarının qorunması** mühüm yer tutur. Hər bir vətəndaşın qanun qarşısında bərabərliyi, mövcud hüquqlardan eyni səviyyədə istifadə etməsi cəmiyyətin sabit inkişafını şərtləndirən əsas amillərdən biridir. Bu cəmiyyətdə süni münaqişələrin qarşısını almaqla, vətəndaş həmrəyliyini möhkəmləndirir və dövlətə inamı artırır.

Azərbaycan Respublikasının insan hüquqlarının qorunması sahəsində əldə etdiyi ən mühüm nailiyyətlərdən biri BMT və Azərbaycan hökuməti arasında 1998-ci ilin avqustunda imzalanmış «İnsan hüquqları və demokratiyanın dəstəklənməsi sahəsində birgə layihə haqqında» Memorandum olmuşdur. Bu memoranduma əsasən BMT insan hüquqlarını dəstəkləmək və müdafiə etmək sahəsində ümumi biliklərin və potensialın Avropa standartlarına uyğunlaşdırılması, prosedur və hesabatlar sisteminin təkmilləşdirilməsi, vətəndaş cəmiyyətinin inkişafı və digər məsələlər sahəsində Azərbaycan Respublikası hökuməti ilə birgə tədbirlər həyata keçirilir. 1998-ci ilin 22 fevralında ümummilli lider Heydər Əliyev «İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında» Fərman imzalamışdır. Fərmanda insan hüquqları sahəsində həyata keçirilən tədbirlərin istiqamətləri dəqiq müəyyən edilmişdir. Bu sahədə proqram rolunu oynayan həmin sənədlə insan hüquqları məsələsi başlıca ümumdövlət vəzifələri səviyyəsinə qaldırılmışdır. 18 iyul 1998-ci il tarixdə isə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə «İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı» təsdiq olunmuşdur. Dövlət proqramına əsasən, Azərbaycanın qoşulduğu konvensiyalara və qəbul etdiyi qanunvericilik aktlarına, eyni zamanda konstitusiyanın müddəalarından irəli gələn tələblərə müvafiq olaraq insan hüquqlarının müdafiəsi sahəsində görülən işlərin səmərəliliyi daha da artırılmışdır.

Cəmiyyətin siyasi sisteminin sabit inkişafı siyasi partiyalardan çox asılıdır. Siyasi partiyaların fəaliyyəti siyasi sistemi dinamik inkişaf etdirə, yaxud da əksinə onun normal inkişafına mane ola bilər.

Siyasi partiyaların fəaliyyətinin məzmunu ümumilikdə hər hansı bir ölkədə siyasi sabitliyi şərtləndirir. Siyasi sabitliyin yaradılması və qorunub saxlanılması isə siyasi mübarizə şəraitində siyasi partiyaların nümayiş etdirdikləri siyasi mədəniyyətlə sıx bağlıdır.

Məlum olduğu kimi, siyasi mübarizə şəraitində siyasi partiyalar təbii ki, sosial bazalarını daha da genişləndirmək istəyirlər. Bu halda bəzən siyasi partiyalar normal mübarizəni deyil «çirkin texnologiyalardan» istifadə etməklə aparılan mübarizəni əsas götürürlər. Belə mübarizə metodlarına rəqib siyasi partiyanın və yaxud partiyaların ölkədə nü-

fuzunun zəifləndilməsinə yönəlmiş tədbirlər, siyasi partiyanın liderinin, seçkilər zamanı siyasi partiyanın irəli sürdüyü namizədlərin qərəzli olaraq ləkələnməsi məqsədilə həyata keçirilən kompaniyalar, hətta kriminal nöqteyi-nəzərdən qiymətləndirilməsi mümkün olan hərəkətlər və s. daxildir.

Digər aspektdən yanaşdıqda hər hansı bir siyasi partiyanın bu sahədə qeyd edilən yönümdə fəaliyyəti təkcə rəqib siyasi qüvvənin zəiflədilməsinə deyil, hətta son nəticədə siyasi sabitliyin pozulmasına gətirib çıxarır. Belə ki, əks qütbdə dayanan siyasi partiya da eyni metodlarla siyasi mübarizəyə başlayarsa, təbii ki, müəyyən vətəndaşları arxalarınca apara bilən bu siyasi qüvvələr arasında qarşıdurmanın cəmiyyət həyatında hansı gərginliyə gətirib çıxaracağı sirr deyildir. Belə bir qarşıdurmanın seçkiqabağı dönəmlərdə baş verməsi isə daha təhlükəli nəticələrə gətirib çıxara bilər. Çünki seçkiqabağı çoxpartiyalı siyasi sistemlərdə seçkidə iştirak etmək üçün siyasi qüvvələrin blok və koalisiyalarının yaradılması labüd haldır.

Göründüyü kimi, mübarizə sahəsinin genişlənməsi, onların subyektləri arasında baş verən qarşıdurmanın da genişlənməsini qaçılmaz edir. Adətən seçki ərəfəsində müttəfiq siyasi partiyalar reytinqlərini aşağı salmamaq üçün rəqiblər tərəfindən onların hər birinə qarşı yönəldilmiş tədbirlərə birlikdə cavab verirlər. Hadisələrin bu formada inkişafı isə ölkədə ictimai-siyasi vəziyyətin gərginləşdirilməsinə, siyasi hakimiyyəti formalaşdırmaq üçün bir vasitə olan seçkilərin baş tutmamasına, baş tutsa belə, onların nəticələrinin iştirakçı subyektlər tərəfindən tanınmamasına və ən təhlükəlisi isə son nəticədə vətəndaş qarşıdurmasına gətirib çıxarmaqla, milli dövlətçiliyin inkişafını zəiflətməklə, hətta onun mövcudluğunun təhlükə altında qalmasına gətirib çıxara bilər.

Bütün bu halların Azərbaycanda aradan qaldırılması və bir daha baş verməməsi üçün ümummilli lider Heydər Əliyev



aşağıdakıları təklif edirdi: «**Ancaq bunun üçün şübhəsiz ki, bizim bütün qüvvələrin ahəngdar, bir-biri ilə səmimi əməkdaşlıq etməsi, hətta müxalifətdə olan qrupların, təşkilatların, qüvvələrin konstruktiv mövqedə durması müvafiq şərtdir**».

Siyasi partiyaların fəaliyyətinin digər bir istiqaməti kimi onların dövlətçiliyə, milli maraqlara münasibəti məsələsidir. Siyasi partiyalar müəyyən ideoloji yönümləri, siyasi xətləri, quruluşları ilə biri-birilərindən fərqlənirlər. Bu baxımdan onların siyasi mübarizə üsullarında da fərqlər ola bilər. Lakin sivil siyasi mübarizə yollarından uzaqlaşıb, digər zorakı vasitələrdən istifadə edərək siyasi hakimiyyətə yiyələnmək istəyi ilk növbədə dövlətçiliyin gələcəyi üçün təhlükəlidir. Hər hansı siyasi partiya siyasi fəaliyyətinin üsul və metodlarını seçərkən cəmiyyətdə siyasi sabitliyə və dövlətçiliyin əsaslarına zərbə vura biləcək bir yol tutmamalıdır. Siyasi partiyaların siyasi mübarizə zamanı güddüyü siyasi mənafelərdən başlıca milli maraqlara təhlükə törədəcəyi təqdirdə imtina olunmalıdır. Heç bir siyasi partiyanın maraqları dövlət maraqlarından üstün səviyyəyə qaldırılmamalıdır.

Ümummilli lider Heydər Əliyev bu haqda deyirdi: «**Əgər müxalifət olmasaydı, Azərbaycanda demokratiya olmazdı. Müxalifət olmalıdır və vardır. Ancaq mən dəfələrlə demişəm, gərək müxalifət konstruktiv olsun, ümummilli məsələlər ilə əlaqədar problemlərdə öz yetkinliyini göstərsin və iqtidarın apardığı siyasət Azərbaycanın milli mənafelərinə zidd deyilsə, onu anlaya, dərk edə bilsin, qəbul etsin, əməkdaşlıq etsin**».

Siyasi sahədə milli təhlükəsizliyin təmin olunmasında görülən əsas tədbirlərdən biri də **mütəşəkkil fəaliyyət göstərən diasporun formalaşdırılmasıdır.** Diaspor termini yunan sözü olub, dağılma, səpələnmə və yayılma anlayışlarını özündə əks etdirir, daha doğrusu, onun hərfi tərcüməsi belədir. Diaspor dedikdə, bu və ya digər xalqın, etnik birliyin müəyyən bir hissəsinin vətənlərindən kənarda yaşaması və onların mənsub

olduğu xalqın, vətənin mənafeyi uğrunda fəaliyyəti nəzərdə tutulur. Hər bir ölkənin beynəlxalq aləmdə nüfuzunun artırılması, hər hansı bir sahədəki maraqlarının təmin olunması diaspor ilə dövlətin diplomatik kanallarının qarşılıqlı fəaliyyətindən daha çox asılıdır. Diasporun təşkil olunmasının da özünəməxsus xüsusiyyətləri vardır. Hər hansı bir ölkənin xaricdə diasporu formalaşdırılarkən, birinci növbədə həmin ölkə üçün daha çox maraq kəsb edən ölkələr seçilir. Diasporun əsas fəaliyyət istiqamətləri kimi fəaliyyət göstərilən ölkədə ölkə haqqında müsbət ictimai rəyin formalaşdırılması, ölkənin milli maraqlarına yönəldilmiş hər hansı bir tədbirlərə adekvat reaksiya göstərilməsi, ölkələr arasında müxtəlif sahələrdə əlaqələrin inkişafına kömək edilməsi və s. göstərilə bilər. Azərbaycan diasporunun əsas fəaliyyət istiqamətlərindən biri də erməni təbliğatına qarşı mübarizə aparmaqdır.

Erməni təbliğatı müasir şəraitdə əsasən aşağıdakı istiqamətlər üzrə həyata keçirilir:

- «Erməni soyqırımı»nın tanınması istiqamətində təbliğat;
- Erməni tarixi və mədəniyyəti haqqında uydurmaların dünyanın kütləvi informasiya vasitələrində yayılması, çoxsaylı kitabların nəşri və filmlərin çəkilməsi;
- Azərbaycan xalqı və dövlətinin beynəlxalq aləmdə nüfuzdan salınması və s.

2001-ci ildə Bakı şəhərində Dünya azərbaycanlılarının I qurultayının keçirilməsi Azərbaycan tarixinin ən önəmli hadisələrindən biridir. I qurultay Azərbaycan diasporunu keyfiyyətcə yeni mərhələyə çıxardı. Qurultayda dünya azərbaycanlıları və onların həmrəyliyi, xaricdə yaşayan həmvətənlərin qüvvəsinin və diqqətinin Azərbaycana yönəlməsi kimi vacib problemlərin həm nəzəri, həm də əməli tərəfləri ilə bağlı bir çox məsələlər həll edildi. Qurultay dövlət başçısının dünya azərbaycanlılarının birləşdirmək ideyasının reallığa çevrilməsi üçün əsl mərhələ



olmuşdur. Qurultayda milli birlik, həmyerlilik, xaricdə yaşayan həmvətənlərin diaspor şəklində formalaşması, təşkilatlanması və azərbaycançılıq ideyalarını geniş masştabda müdafiə etmələri üçün strateji proqram müəyyən edildi. Dünya azərbaycanlılarının I qurultayının mühüm nəticələrindən biri də Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının yaradılması oldu. Qurumun səlahiyyətlərinə dünya azərbaycanlılarının təşkilatlanması və milli-mənəvi dəyərlərin qorunub saxlanılması daxildir. 2005-ci ildə Dünya azərbaycanlılarının II qurultayının keçirilməsi də Azərbaycan dövlətinin diaspora olan qayğısının bariz göstəricisidir. Cənab İlham Əliyevin rəhbəriyi altında keçirilən II qurultayın əsas məqsədi Azərbaycan-Türk diaspor birliyinin yaradılması, lobbiçilik fəaliyyəti, azərbaycançılıq ideologiyasının təbliği və ən əsası isə dövlət-diaspor münasibətlərinin daha da güclənməsi idi. 2011-ci ilin yayında isə Dünya azərbaycanlılarının III qurultayı keçirildi.

Bu istiqamətdə aparılan işlərin məntiqi davamı olaraq Azərbaycan Respublikasının Prezidentinin 2002-ci il 5 iyun tarixli 730 saylı Fərmanına uyğun olaraq Xaricdə Yaşayan Azərbaycanlılarla İş Üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 19 noyabr tarixli 54 nömrəli Sərəncamı ilə Azərbaycan Respublikasının Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin əsasında Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi yaradıldı. «Azərbaycan Respublikasının Diasporla İş Üzrə Dövlət Komitəsi Haqqında Əsasnamə» Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 14 may tarixli Fərmanı ilə təsdiq edildi.

Komitə diasporla iş sahəsində dövlət siyasətinin həyata keçirilməsini, xaricdə yaşayan azərbaycanlılar, eləcə də onların təsis etdiyi diaspor təşkilatları, habelə Azərbaycana dost münasibət bəsləyən digər xalqların diasporları ilə əlaqələrin genişləndirilməsini və inkişaf etdirilməsini, dövlət

orqanlarının və qeyri-hökumət təşkilatlarının bu sahə ilə bağlı fəaliyyətinin əlaqələndirilməsini təmin edən mərkəzi icra hakimiyyəti orqanıdır.

Komitə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını və Əsasnaməsini rəhbər tutur.

Komitə öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən digər icra hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları, qeyri-hökumət təşkilatları, Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurası, Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəlikləri, xaricdə yaşayan azərbaycanlılar, eləcə də onların təsis etdiyi diaspor təşkilatları, habelə Azərbaycana dost münasibət bəsləyən digər xalqların diasporları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

Komitə yarandığı gündən etibarən aktiv fəaliyyət göstərməkdədir. Dövlət Komitəsi eyni ölkədə fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları arasında olan ziddiyyət və fikir ayrılıqlarının aradan qaldırılması istiqamətində bir sıra mühüm addımlar atdı. Xaricdəki diaspor təşkilatları konqres, federasiya və konfederasiya halında birləşməsi prosesini sürətləndirən Dövlət Komitəsi azərbaycançılıq ideologiyasını təbliğ etməyə önəmli yer verir. Qarabağ problemini Azərbaycan diasporunda prioritet məsələyə çevirmək üçün Dövlət Komitəsi bir sıra işlər aparır.

Beləliklə müasir şəraitdə Azərbaycan Respublikasının diaspor quruculuğu sahəsində **dövlət siyasətinin əsas istiqamətləri** kimi aşağıdakılardır:

– beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsip və normalarına, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, habelə müvafiq xarici dövlətlərin qanunvericiliyini nəzərə almaqla, xaricdə yaşayan azərbaycanlıların əsas hüquq və azadlıqlarının qorunmasına, onların milli varlığını yaşatmasına və inkişaf etdirməsinə, ana dilini öyrənməsinə və tətbiqinin genişləndirilməsinə köməklik göstərmək;

– xaricdə yaşayan azərbaycanlıları Azərbaycan Respublikasının iqtisadi, sosial və mədəni inkişafına, cəmiyyətin və dövlətlərin siyasi həyatına, həbelə Azərbaycan Respublikası ilə digər dövlətlər arasında qarşılıqlı surətdə faydalı münasibətlərin qurulması və inkişaf etdirilməsi işinə cəlb etmək;

– Azərbaycan Respublikasında həyata keçirilən müstəqil, hüquqi və dünyəvi dövlət, demokratik cəmiyyət quruculuğu, sosial-iqtisadi, ictimai-siyasi və mədəni inkişaf haqqında xarici ölkələrdə yaşayan həmvətənlər arasında zəruri məlumatlar yaymaq;

– xaricdə yaşayan azərbaycanlıların bir-biri ilə əlaqə yaratmasına, təşkilatlanması işinə dəstək vermək, yaradılan ictimai, mədəni və digər birliklərin Azərbaycan Respublikası ilə əlaqələrinə kömək göstərmək;

– Azərbaycan Respublikasının beynəlxalq aləmdə təbliğ olunması və mənafelərinin müdafiəsi işində Azərbaycanla ənənəvi müsbət münasibəti olan diasporların imkanlarından istifadə etmək və s.

Siyasi sahədə milli təhlükəsizliyin təmin olunmasının tərkib hissəsi kimi **ölkə daxilində ictimai təhlükəsizliyin təmin edilməsi** də çıxış edir. İctimai təhlükəsizlik hər bir vətəndaşın dinc şəkildə yaşayışının təmin edilməsini, ümumilikdə ictimai asayişin bərqərar olunmasını özündə ehtiva edir. Ölkə daxilində kriminogen durumun sabit qalması ölkənin daxili sabitliyini şərtləndirən mühüm amillərdən biridir.

Müstəqil dövlətin **daxili işlərinə qarışmaq cəhdlərinin qarşısının alınması** siyasi sahədə milli təhlükəsizliyin təmin olunmasında ən mühüm yerlərdən birini tutur. Ölkənin daxili işlərinə qarışmaq artıq həmin ölkənin suverenliyinə qarşı yönəldilmiş hərəkətlərdir. Dövlət hər hansı müdaxilə cəhdlərinə qarşı çıxır və xarici siyasət vasitələrinin köməyi ilə belə mənfi meyllərin qarşısını alır. Əgər dövlət bu sahədə lazımi tədbirlər görmürsə bu halda ölkənin suverenliyi təbii ki, təhlükə altında qalır.

Siyasi sahədə milli təhlükəsizliyin təmin olunmasında **ölkənin beynəlxalq əlaqələrinin** mühüm rolu vardır. Bu əsasən beynəlxalq təhlükəsizlik sistemlərində iştirakı və beynəlxalq terrorçuluq və transmilli cinayətkarlığa qarşı mübarizədə beynəlxalq əməkdaşlığı əhatə edir.

Hər bir ölkə öz təhlükəsizliyini təmin etmək üçün qarşılıqlı əməkdaşlığa üstünlük verir. Müasir şəraitdə terrorçuluğun və transmilli cinayətkarlığın geniş yayıldığı bir dövrdə onların qarşısını bir ölkənin gücü ilə almaq demək olar ki, mümkünsüzdür. Bu sahədə müxtəlif dövlətlərin qarşılıqlı əməkdaşlığı zəruridir. Həmçinin dövlətlərarası əlaqələrdə bərabərhüquqluluq prinsipinə əməl edilməsi əsas milli təhlükəsizlik məsələsidir. İmkan verilməməlidir ki, hər hansı bir müqavilə və sazişlər bağlanarkən ölkənin milli maraqlarına zidd xarakterli sənədlər meydana çıxsın, ölkənin suverenliyi təhlükə altında qalsın.

Siyasi sahədə milli təhlükəsizliyə ən mühüm təhdidlərdən biri **dini baxışlardan siyasi məqsədlərlə istifadə** etməkdir. Demokratik cəmiyyətlər üçün dinin siyasətdən və dövlətdən ayrı olması xarakterik bir haldır. Lakin bəzən müəyyən siyasi və dini qüvvələr dini ideyalardan siyasi hakimiyyətə gəlmək, siyasi mövqelərini möhkəmləndirmək, xalqın içərisində nüfuz qazanmaq üçün istifadə edir. Bu hallar daxili siyasi sabitliyə böyük təhlükədir və dövlətin müvafiq mexanizmləri vasitəsilə belə



halların qarşısının alınması zəruridir. Bununla yanaşı ölkədə vətəndaş həmrəyliyini, xalqın vahidliyini təmin etmək mühüm siyasi təhlükəsizlik məsələsidir. Cəmiyyətdə vətəndaş həmrəyliyini, milli bütövlüyü sarsıtmağa yönəldilən təhdidlərin aradan qaldırılması milli təhlükəsizlik sisteminin əsas vəzifələrindən biridir. Ölkədə vətəndaş həmrəyliyinin təminatı, milli maraqların həyata keçirilməsində dövlətə mühüm yardımçıdır.

Siyasi sahədə milli təhlükəsizliyin təmin olunması **dövlət təsisatlarının təhlükəsizliyinin təmin edilməsi** ilə sıx əlaqədardır. Dövlət təsisatlarının təhlükəsizliyi mövcud olan müxtəlif dövlət qurumlarının heç bir kənar təsir olmadan fəaliyyət göstərməsini, onların fəaliyyətinə qarşı yönəldilmiş hər hansı mənfi təsirlərin zərərsizləşdirilməsini, onlara səmərəli fəaliyyət şəraiti yaradılmasını özündə əhatə edir.

Dövlət təsisatlarının təhlükəsizliyinin təmin edilməsində başlıca yeri dövlət orqanlarına layiqli kadrların seçilib, yerləşdirilməsi tutur. Aparılan kadr siyasəti zamanı ən yüksək meyarlar əsas götürülməli, hər bir namizəd haqqında lazımi informasiyalar toplanmalı, həmin informasiyalar təhlil edilməli, hər bir kadrın keyfiyyət göstəriciləri müqayisə edilməli, vəzifənin xüsusiyyətləri ilə kadrın xüsusiyyətləri müqayisə edilməli, həmin vəzifəyə daha uyğun gələn seçilməli və vəzifəyə təyin olunmalıdır.

Yalnız ciddi meyarların əsas götürülməsi dövlət orqanlarının kadr heyətinin lazımi səviyyədə formalaşdırılmasını təmin edə bilər. Yalnız bu halda hər bir dövlət qulluqçusu fəaliyyətində milli maraqları üstün tutacaq, onları heç bir şeyə dəyişməyəcək. Bu baxımdan dövlət qulluğuna götürülən hər bir vətəndaş ciddi yoxlanmalı, vətənpərvər kadrlara üstünlük verilməlidir. Bütün ölkələrdə qanunvericiliklə dövlət qulluqçularının öz fəaliyyətlərində ümumdövlət maraqlarını rəhbər tutmağa borclu olduqları əksini tapır. Həmçinin onların dövlətin nüfuzuna xələl gətirən hər hansı bir qə-

rar verməsi yolverilməz hesab edilir. Milli təhlükəsizlik haqqında Azərbaycan Respublikasının qanununun 23-cü maddəsində deyilir: «Azərbaycan Respublikasının dövlət qulluqçuları öz fəaliyyətlərində ümumdövlət maraqlarını rəhbər tutmağa borcludurlar. Dövlət qulluqçularının dövlət hakimiyyətinin nüfuzuna xələl gətirən qərarlar qəbul etməsi və hərəkətlərə yol verməsi qadağandır».

Ümumilikdə dövlət təsisatları cəmiyyətin idarəçiliyini həyata keçirən orqanlardır. Onların fəaliyyəti konstitusiya və müxtəlif qanunlar ilə tənzimlənir. Bu orqanların ölkənin milli maraqlarına uyğun fəaliyyəti zəruridir. Dövlət təsisatlarına yad, pozucu ünsürlərin işə qəbul edilməsinin qarşısının alınması dövlət təsisatlarının təhlükəsizliyində əsas yer tutur. Dövlət orqanlarına xarici xüsusi xidmət orqanlarının fəaliyyəti nəticəsində yeridilə biləcək, onların fəaliyyətinə zərbə vurmağı qarşılarına məqsəd qoyan şəxslərin bu orqanlara daxil olmasının qarşısının alınması, həmin şəxslərin zərərsizləşdirilməsi həmin ölkənin xususi xidmət orqanlarının əsas vəzifələrindən biridir.

Dövlət təsisatlarının təhlükəsizliyi qeyd edildiyi kimi onların heç bir kənar təsir olmadan sərbəst fəaliyyət göstərməsini özündə ehtiva edir. Dövlət təsisatlarının və ya konkret vəzifəli şəxsin qərar qəbul etməsinə hər hansı bir təsirlərin qarşısı alınmalı, müəyyən şəxs və qrupların iradəsinə uyğun qərarların qəbul edilməsinə yol verilməməlidir. Hər hansı bir daxili və xarici qüvvənin dövlət təsisatlarının fəaliyyətinə təsir edərək müəyyən qərarların qəbul edilməsinə cəhd göstərmələrinin qarşısının tamamilə alınması zəruridir. Bunun mühüm cəhəti ondan ibarətdir ki, dövlət təsisatı əhali üçün qanun və qərarlar qəbul edir, bu qanun və qərarlar vətəndaşların maraqlarına cavab vermədikdə cəmiyyətdə müəyyən narazılığın yaranması labüddür.

Seçkili vəzifələrə xalqın iradəsinin ifadəçisi olan insanlar seçilməlidirlər. Seçkilərin saxtalaşdırılması xalqın iradəsinə qarşı çıxmaq, ölkənin suverenliyinə, konstitusiya quruluşuna qarşı çıxmaq hesab edilir. Hakimiyyətin hər hansı qeyri-qanuni yolla mənimsənilməsi qadağandır və bu istiqamətdə atılan hər hansı addıma qarşı dövlətin qəti tədbirlər görməsi zəruridir. Seçkili orqanların fəaliyyətinə hər hansı kənar təsirlər müvafiq orqanların köməyi ilə dəf edilir.

Siyasi sahədə milli təhlükəsizliyin təmin olunmasında **demokratiyanın möhkəmləndirilməsi** mühüm yer tutur. Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasında deyilir: «Azərbaycan Respublikası insan hüquq və əsas azadlıqlarının qorunmasına təminat kimi demokratik idarəetmə və vətəndaş cəmiyyətinin inkişaf etdirilməsini alternativsiz yol kimi seçmişdir.

Dövlət müstəqilliyinin bərpa olunmasından sonra ərazisinin bir hissəsinin qonşu Ermənistan tərəfindən davam edən işğalının mənfi təsirlərinə baxmayaraq, Azərbaycan Respublikası qanunvericilik sistemində və iqtisadi sistemdə mühüm islahatlar aparmışdır. Azərbaycan Respublikası vətəndaşlarının Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə, Avropa İnsan Hüquqları Məhkəməsinə və BMT-nin insan hüquqları üzrə müqavilə-nəzarət orqanlarına müraciət etmək hüququ təmin edilmişdir. İnsan hüquq və əsas azadlıqlarını qorumaq üçün Ombudsman təsisatı yaradılmış, məhkəmələrin müstəqilliyi təmin olunmuşdur. Bütün kütləvi informasiya vasitələri üzərində dövlət nəzarəti və senzura ləğv edilməklə söz azadlığını qoruyan müvafiq qanunvericilik tədbirləri görülmüşdür.

Eyni zamanda, davam edən demokratik islahatlar prosesi çərçivəsində ölkədə seçki praktikasının bundan sonra da inkişaf etdirilməsi, qanunların icrası mexanizmlərinin təkmilləşdirilməsi, dövlət idarələrində və bu idarələrə işəgötürmə ilə bağlı şəffaflığın yaradılması, yerli özünüidarə orqanlarının səlahiyyətlərinin aydın surətdə müəyyən olunması və onların yerli problemlərin həll edilməsində rolunun artırılması, habelə kütləvi infor-

masiya vasitələrinin və qeyri-hökumət təşkilatlarının maddi-texniki bazasının möhkəmləndirilməsi hökumətin diqqət mərkəzində olan önəmli məsələlər sırasındadır.

Bütün təhlükəsizlik strukturları üzərində demokratik mülki nəzarət, onların fəaliyyətinin şəffaflığı, korrupsiyaya qarşı səmərəli mübarizə, ümdə vəzifəsi xalqa xidmət olan yüksək vəzifəli şəxslərin məsuliyyətinin daha da artırılması və onların məsul olduğu sahələr üzrə fəaliyyətləri barədə Milli Məclis deputatlarının, kütləvi informasiya vasitələri ilə ictimaiyyətin məlumatlandırılması kimi məsələlər üzrə hökumət ardıcıl səylərini davam etdirəcəkdir.

Demokratik hüquqi dövlətin qanunun aliliyi, insan hüquq və əsas azadlıqları və sosial ədalət kimi fundamental əsaslarının təmin olunması müvafiq dövlət funksiyalarının yerinə yetirilməsi əleyhinə yönəlmiş fəaliyyətlərə qarşı mübarizəyə və milli maraqların həyata keçirilməsinə əhəmiyyətli dəstək verəcəkdir».

Siyasi sahədə milli təhlükəsizliyin təmin olunmasında **idarəçiliyin səmərəliliyinin təmin edilməsi** də mühüm rol oynayır. 1993-cü ilin ortalarından başlayaraq Azərbaycan Respublikasında demokratikləşmə, qanunçuluq, hüquqi dövlət quruculuğu xətti götürülmüş, ardıcıl məqsədyönlü tədbirlər həyata keçirilir. 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə dünya standartlarına cavab verən demokratik Konstitusiya qəbul edilmişdir.

## 4. Ermənistanın etnik təmizləmə siyasəti və Azərbaycan Respublikasına qarşı təcavüzü. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi

Azərbaycan Respublikasının tərəqqisi yolunda başlıca maneə Ermənistan Respublikasının ona qarşı əsassız ərazi iddiası səbəbindən yaranmış və genişmiqyaslı hərbi təcavüz-



lə nəticələnən Ermənistan-Azərbaycan münaqişəsidir. Azərbaycan Respublikasının xarici siyasətində ölkənin ərazi bütövlüyünün bərpa edilməsi və erməni hərbi təcavüzünün ağır nəticələrinin aradan qaldırılması xüsusi yer tutur.

Bugünkü Ermənistan-Azərbaycan münaqişəsinin dərin tarixi kökləri vardır. XIX əsrin əvvəllərində Rusiya imperiyası tərəfindən işğal olunmuş Azərbaycan torpaqlarına ermənilərin köçürülməsi ilə başlanan bu münaqişə 1905-1906 və 1918-1920-ci illərdə azərbaycanlıların kütləvi terrora məruz qalması və soyqırımı mərhələlərindən keçmişdir. Sonralar sovet dövründə əzəli Azərbaycan torpaqları hesabına indiki Ermənistan Respublikasının sələfi olan Ermənistan SSR yaradılmış və orada əsrlər boyu yaşamış azərbaycanlılara qarşı etnik təmizləmə aparılmışdır. Üstəlik, Azərbaycan SSR-in tərkibində Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 1923-cü il 7 iyul tarixli Qərarı ilə Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunmuşdur.

1937-1948-1953-cü illərin deportasiyaları da təmizləmə siyasətinin tərkib hissəsi idi. Etnik təmizləmənin davamı kimi 1987-ci ilin axırlarından Ermənistan SSR-də qalan 250 mindən çox azərbaycanlının planlaşdırılmış şəkildə qovulması Ermənistan-Azərbaycan münaqişəsinin müasir mərhələsinə təkan verdi. 1988-ci il fevralın 20-də Dağlıq Qarabağ Muxtar Vilayətinin vilayət şurasının sessiyasında erməni nümayəndələrinin qəbul etdiyi «DQMV-nin Azərbaycan SSR-in tərkibindən Ermənistan SSR-in tərkibinə verilməsi barədə Azərbaycan SSR və Ermənistan SSR Ali Sovetlərinə müraciət haqqında» Qərarı və 1989-cu il dekabrın 1-də Ermənistan SSR Ali Sovetinin indiyədək ləğv edilməmiş «Ermənistan SSR və Dağlıq Qarabağın yenidən birləşdirilməsi haqqında» Qətnamə qəbul edilmişdir. DQMV vilayət şurasının və Ermənistan SSR-in atdığı bu addımlar bütün qanun çərçivələrini birmənalı və kobud şəkildə pozmaqla nə o

zamankı SSRİ Konstitusiyasına, nə də hər hansı beynəlxalq normaya uyğun gəlirdi. Bu qərarlar yalnız və yalnız erməni tərəfinin hüquqi baxımdan təcavüzü rəsmiləşdirmək cəhdləri kimi qiymətləndirilməlidir. Buna cavab olaraq, Azərbaycan Respublikası tamamilə əsaslandırılmış şəkildə öz suveren hüququndan istifadə edərək, 1991-ci il noyabrın 26-da «Azərbaycan Respublikasının Dağlıq Qarabağ Muxtar Vilayətini ləğv etmək haqqında» Qanun qəbul etdi.

1992-94-cü illərdə daha da dərinləşən Ermənistan-Azərbaycan münaqişəsi Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı genişmiqyaslı hərbi təcavüzü formasını almışdır. Xocalı şəhərinin 1992-ci il fevralın 25-dən 26-na keçən gecə baş vermiş işğalı xüsusi qəddarlığı ilə seçilən faciə Xocalı soyqırımı kimi 20-ci əsrin bəşəriyyətə qarşı cinayətlərinin qara siyahısına daxil olmuşdur. Burada qoca, qadın və uşaq da daxil olmaqla, 613 dinc sakin vəhşicəsinə qətlə yetirilmişdir.

Bunun ardınca 1992-93-cü illər ərzində Ermənistanın xaricdən dəstəklənən silahlı qüvvələri Azərbaycan ərazisinin beşdə birini təşkil edən Şuşa, Xocalı, Xocavənd, Laçın, Kəlbəcər, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarını bütövlükdə, Ağdamın rayon mərkəzi daxil olmaqla əksər hissəsini, Füzulinin rayon mərkəzi daxil olmaqla bir hissəsini və keçmiş DQMV-nın tərkibindəki indiki Tərtər rayonunun bir hissəsini həmin ərazilərdə yerləşən 890 yaşayış məntəqəsilə birlikdə işğal edərək, oradakı bütün azərbaycanlı əhalini doğma yurd-yuvalarından didərgin salmışlar. Beləliklə, münaqişə nəticəsində təqribən bir milyon azərbaycanlı qaçqın və məcburi köçkünə çevrildi, təqribən 20 min nəfər həlak oldu, 50 min nəfər yaralandı, yaxud əlil oldu, 5 min nəfər itkin düşdü, Azərbaycanın Naxçıvan diyarı isə Ermənistan Respublikası tərəfindən blokadaya məruz qaldı.



**1994-cü il mayın 12-dən Ermənistan-Azərbaycan münaqişəsinin tərəfləri arasında atəşkəs rejimi əldə olunmuşdur.**

Bütün bölgənin təhlükəsizliyinə ciddi təhdidlər törədən Ermənistan-Azərbaycan münaqişəsi beynəlxalq ictimaiyyətin də diqqətindən kənarda qalmadı. **BMT Təhlükəsizlik Şurası 1993-cü ildə münaqişəyə dair 822, 853, 874 və 884 saylı Qətnamələr qəbul etdi.** Bu qətnamələrin hər biri Azərbaycana qarşı erməni təcavüzünün növbəti mərhələsindən sonra qəbul olunmuşdur.

Təhlükəsizlik Şurası birmənalı şəkildə Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığını dəstəkləmiş, Dağlıq Qarabağın Azərbaycan Respublikasının tərkib hissəsi olduğunu dönə-dönə vurğulamış və Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılması və didərgin düşmüş əhalinin öz yerlərinə qaytarılması üçün şəraitin yaradılması barədə ciddi tələb irəli sürmüşdür.

Lakin bu tələblərə baxmayaraq, Azərbaycan əraziləri nəinki işğal altında qalmaqda davam edir, hətta bütün beynəlxalq hüquq normalarına zidd olaraq, orada son zamanlar müxtəlif növ qeyri-qanuni fəaliyyət aparılması meyilləri güclənməkdədir. Bu, ilk növbədə, gəlmə ermənilərin məskunlaşması ilə bağlıdır. Yaranmış vəziyyətlə əlaqədar, Azərbaycan tərəfinin təşəbbüsü ilə BMT Baş Məclisi 2004-cü ildəki 59-cu sessiyasının gündəliyinə «Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət» adlı bəndin daxil edilməsi haqqında qərar qəbul etmiş və məsələ üzrə müvafiq müzakirələr keçirildi. Eyni zamanda, Azərbaycan tərəfinin müraciəti əsasında Azərbaycanın işğal olunmuş ərazilərində ermənilərin məskunlaşmasını təsdiq edən faktlar BMT sənədi kimi yayıldı.

1992-ci ildə ATƏM Xarici İşlər Nazirləri Şurası Dağlıq Qarabağ münaqişəsi üzrə ATƏM-in prinsipləri, öhdəlikləri

və şərtləri əsasında böhranın sülh yolu ilə həll edilməsinə yönəlmiş Minsk konfransının (onun işçi formatı, faktiki olaraq, Minsk qrupu ilə təmsil olunur) çağırılması haqqında qərar qəbul etməklə, Minsk prosesinə başladı. 1994-cü ildə keçirilən Budapeşt zirvə toplantısında Minsk prosesinin həmsədrlik institutu təsis olunmuşdur (1997-ci ildən etibarən, o, ABŞ, Rusiya və Fransa üçlüyü ilə təmsil olunur). 1996-cı ildə ATƏT-in Lissabon sammitində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı ATƏT-in Ermənistandan başqa bütün üzv dövlətləri tərəfindən dəstəklənmiş prinsipləri o dönəmdə ATƏT-in fəaliyyətdə olan sədrinin bəyanatında əks olunmuşdur. Bu prinsiplər aşağıdakılardır:

– Azərbaycanın və Ermənistanın ərazi bütövlüyü;

– Dağlıq Qarabağa Azərbaycanın tərkibində ən yüksək muxtariyyat statusunun təqdim edilməsi;

– Dağlıq Qarabağın azərbaycanlı və erməni əhalisinin təhlükəsizliyinin təmin edilməsi.

Lissabon sammitindən sonra 1997-ci ildə Minsk qrupu çərçivəsində danışıqlar donduruldu və həmsədrlərin bölgəyə səfərləri ilə əvəz olundu. Bu səfərlərin nəticəsində həmsədrlər tərəfindən 1997-98-ci illərdə münaqişənin həllinə dair üç təklif irəli sürüldü. Onlardan birincisi **«paket» planı** idi. Bu plan mahiyyət etibarilə iki əsas təklifdən ibarət idi: silahlı qüvvələrin işğal edilmiş ərazilərdən çıxarılması və Dağlıq Qarabağın statusunun işlənib hazırlanması. Azərbaycanın konstruktiv məsləhətləşmələrə hazır olmasına baxmayaraq, Ermənistan bu «paket» planını qəti şəkildə rədd etdi.

Həmsədrlərin ikinci təklifi münaqişənin **mərhələli həllini** nəzərdə tuturdu: əvvəl keçmiş DQMV-nin əraziləri və onları Ermənistanla birləşdirən Laçın dəhlizindən başqa bütün işğal olunmuş Azərbaycan torpaqlarının azad edilməsi və oradan didərgin düşmüş əhalinin doğma yurd yuva-



larına qayıtması, ikinci mərhələdə isə Laçın və Şuşa ilə bağlı məsələlərin həlli və Dağlıq Qarabağın statusunun əsas prinsiplərinin qəbul edilməsi. 1997-ci il oktyabrın 10-da Azərbaycan və Ermənistan Prezidentləri Strasburqda qəbul etdikləri birgə bəyanatda həmsədrlərin bu təklifinin danışıqların bərpa edilməsi üçün ümidverici əsas olduğunu təsdiqlədilər. Bu təkliflə razılaşdığına görə Ermənistan Respublikasının Prezidenti L.Ter-Petrosyan istefaya çıxdı. Ermənistan tərəfindən əvvəl verilmiş razılıq rəsmən geri götürüldü.

Həmsədrlərin 1998-ci ilin axırlarında irəli sürülmüş və **«ümumi dövlət» konsepsiyasına** əsaslanan üçüncü təklifi Azərbaycan Respublikasının sərhədləri çərçivəsində Dağlıq Qarabağın dövlət və ərazi vahidi kimi respublika formasında Azərbaycanla ümumi dövlət təşkil etməsini nəzərdə tuturdu. Azərbaycanın suverenliyini pozduğu üçün, bu təklif Azərbaycan rəhbərliyi və şəxsən Prezident Heydər Əliyev tərəfindən qətiyyətlə rədd edildi. Bundan sonra yeni təkliflər olmadığı üçün Minsk prosesi faktiki olaraq, iflic vəziyyətinə düşdü.

Danışıqlar prosesinə təkan vermək məqsədilə, 1999-cu ildən etibarən Azərbaycan və Ermənistan Prezidentləri, onların xüsusi nümayəndələri və xarici işlər nazirləri səviyyəsində birbaşa dialoqa başlandı. Praqa prosesi adlandırılan və xarici işlər səviyyəsində aparılan bu dialoq sayəsində münaqişənin həllinə dair müəyyən məsələlərlə bağlı bəzi ümidverici ilkin nəticələr əldə edildi. Bu nəticələr ATƏT-in 2004-cü ildə Sofiyada keçirilmiş xarici işlər nazirlərinin toplantısında dəstəkləndi və ATƏT-in Xarici İşlər Nazirləri Şurasında bununla əlaqədar xüsusi bəyanat qəbul edildi.

Bu gün də Azərbaycan Respublikası Dağlıq Qarabağ probleminin həlli ilə bağlı siyasi danışıqların müsbət perspektivinə inanır. Bu danışıqlar prosesində Azərbaycan Respublikasının tutduğu prinsipial mövqe ölkənin ərazi bütöv-

lüyünün bərpa edilməsindən və bu yolda heç bir güzəştə gedilməməsindən ibarətdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli və beynəlxalq hüquq norma və prinsiplərinə söykənən əsasda həlli Cənubi Qafqazın gələcəyi baxımından müstəsna əhəmiyyət kəsb edir, çünki yalnız bu başlıca şərtin yerinə yetiriləcəyi təqdirdə regional əməkdaşlıq və bölgənin perspektiv inkişafı mümkündür.



# VI FƏSİL

## İqtisadi sahədə milli təhlükəsizliyin təmin olunması

1. **İqtisadi təhlükəsizlik anlayışı**
2. **Azərbaycan Respublikasının iqtisadi təhlükəsizlik mühiti. İqtisadi sahədə milli maraqlar və milli təhlükəsizliyə təhdidlər**
3. **Ərzaq təhlükəsizliyi**
4. **Vergi və gömrük siyasətinin iqtisadi sahədə milli təhlükəsizliyin təminatında rolu**
5. **Nəqliyyat və enerji təhlükəsizliyi**
6. **Beynəlxalq iqtisadi təhlükəsizlik**

## 1. İqtisadi təhlükəsizlik anlayışı

İqtisadi təhlükəsizlik milli təhlükəsizlik problemləri içərisində mühüm aktuallıq kəsb edir. İqtisadi təhlükəsizlik ölkənin sabit iqtisadi inkişafının təmin edilməsi və onun iqtisadi maraqlarının qorunması vəziyyətidir. Konkret desək, **iqtisadi təhlükəsizlik ölkənin iqtisadiyyatının sabit inkişafının təmin edilməsi və bu inkişafı təhdid edən xarici və daxili amillərin dəf edilməsidir.** İqtisadi təhlükəsizliyi təmin etmək üçün ölkənin iqtisadi potensialı artırılmalı, iqtisadiyyatın dövlət idarəetməsi təkmilləşdirilməli, iqtisadi sahədə cinayətkarlığa qarşı mübarizə aparılmalı, daxili bazar və milli valyuta qorunmalı, enerji, ərzaq, nəqliyyat təhlükəsizliyi, həmçinin bank və maliyyə sisteminin təhlükəsizliyi təmin edilməlidir. İqtisadi təhlükəsizlik heç də ölkəni iqtisadi cəhətdən qapalı məkana çevirməkdən ibarət deyil, əksinə ölkənin dünya iqtisadiyyatına inteqrasiyası şəraitində ölkənin sabit iqtisadi inkişafını xarici dağıdıcı təsirlərdən qorumaqdır.

İqtisadi təhlükəsizliyin təmin edilməsi onu daxili və xarici təhdidlərdən qorumaqla yanaşı, həmçinin iqtisadi inkişafı təmin edən səmərəli iqtisadi siyasətin həyata keçirilməsidir. Bu siyasətin məqsədi ölkənin xarici iqtisadi əlaqələrinin daha da genişlənməsinə nail olmaq və bu əlaqələrdə ölkənin iqtisadi maraqlarını reallaşdırmaqdır. Xarici iqtisadi əlaqələrin daha geniş olması ölkənin iqtisadi inkişafının əsas göstəricilərindən biridir. İqtisadi inkişafın səviyyəsi ilə iqtisadi təhlükəsizlik anlayışı arasında da əlaqə mövcuddur. İqtisadi təhlükəsizlik sisteminin normal qurulması və fəaliyyəti iqtisadi inkişafın daha yüksək səviyyəyə qalxmasına gətirib çıxarır. Normal iqtisadi inkişafın əsasında isə doğru qurulmuş istehsal dayanır. İstehsal sahələrinin genişləndirilməsi ölkə daxilindəki bir çox iqtisadi və sosial problemlərin – işsizliyin aradan qaldırılması, azad rəqabətin yaranması, insanların yaşayış səviyyəsinin yüksəldilməsi, dövlət büdcəsinə daxilolmaların artması kimi məsələlərin həllinə səbəb olur. Bütün bunlar isə dövlətçiliyin iqtisadi əsaslarını möhkəmləndirməklə cəmiyyət və dövlət münasibətlərini də tənzimləyir.



Ölkənin iqtisadi təhlükəsizliyini təmin etmək çox çətin və uzunmüddətli prosesdir. Buna görə də hər bir dövlət iqtisadi təhlükəsizlik konsepsiyasını hazırlayır. Bir dövlətin iqtisadi təhlükəsizlik konsepsiyası digər dövlətinki ilə eyni ola bilməz. Çünki hər bir dövlətin özünəməxsus xüsusiyyətləri, imkanları, keçdiyi inkişaf yolu ilə əlaqədar olaraq spesifik cəhətləri və problemləri vardır. İqtisadi təhlükəsizlik milli iqtisadiyyatın inkişaf səviyyəsindən və ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsindən, milli maraqların əsas götürülməsindən, millətin mənəviyyatının sağlam və ya qeyri-sağlamlığının səviyyəsindən, habelə ölkənin sosial inkişaf istiqamətindən, müdafiə potensialından necə istifadə etməyi bacarmasından və s. asılıdır.

Ölkə daxilindəki müəssisələrin iqtisadi təhlükəsizliyi həmin ölkənin iqtisadi təhlükəsizliyinin bir hissəsi olub, hüquqi və iqtisadi münasibətləri özündə əks etdirir. Burada maddi, intellektual ehtiyatlar və təşkilati əlaqələr birləşir. Bu isə, maliyyədən, elmi-texniki tərəqqidən daha müvəffəqiyyətlə istifadə etməyə imkan verir. Müəssisələrin gəlirlə işləməsi və daha yaxşı inkişaf etməsi mill iqtisadiyyatın möhkəmlənməsinə şərait yaradır. Bu amil isə iqtisadi təhlükəsizliyin təmin olunmasında mühüm rola malikdir.

İqtisadi təhlükəsizlik anlayışına baxışları aşağıdakı kimi qruplaşdırmaq olar:

– ölkənin keyfiyyətcə iqtisadi vəziyyətinin müəyyən edilməsi, ən azı mövcud vəziyyəti saxlamaq, imkan daxilində cəmiyyəti mütərəqqi istiqamətdə inkişaf etdirmək;

– iqtisadiyyatı elə səviyyədə inkişaf etdirmək lazımdır ki, o vətəndaşların həyat səviyyəsini yüksəltməyə qadir olsun, cəmiyyətin və dövlətin sosial-iqtisadi və hərbi-siyasi birliyini təmin edə bilsin, həm də daxili və xarici təhlükənin qarşısını almağa iqtisadi gücü çatsın;

– əhalinin normal həyat fəaliyyətini təmin edən iqtisadi sistem yaratmaq ki, bu sistem ölkənin milli maraqlarını reallaşdıra bilsin.

İqtisadi təhlükəsizlik anlayışı iqtisadi nəzəriyyə və politologiya ilə üzvi əlaqədə olan kateqoriyadır. Bu baxımdan iqtisadi təhlükəsizlik anlayışı iqtisadi asılılıq, sabitlik, iqtisadi təzyiq, iqtisadi təxribat, iqtisadi suverenlik və başqa kateqoriyalarla sıx surətdə əlaqədardır. Bununla belə, müxtəlif səviyyələrdə olan iqtisadi təhlükəsizlik anlayışını bir-birindən fərqləndirmək lazımdır. Məsələn, beynəlxalq (qlobal və regional), milli, lokal (regional və yaxud ölkənin daxilində sahə) və xüsusi (firma və şəxs).

## 2. Azərbaycan Respublikasının iqtisadi təhlükəsizlik mühiti. İqtisadi sahədə milli maraqlar və milli təhlükəsizliyə təhdidlər

Azərbaycan Respublikasının iqtisadi sahədə milli təhlükəsizliyinin təmin olunması onun milli təhlükəsizliyinin təmin olunması sisteminin əsas vəzifələrindən biridir.

İlk əvvəl qeyd etmək lazımdır ki, milli təhlükəsizlik iqtisadi təhlükəsizlikdən daha geniş anlayışdır. Milli təhlükəsizliyin təmin olunması sahələri bir-birilə qarşılıqlı əlaqədə olmaqla onların biri digərinə müsbət və yaxud mənfi təsir göstərir. Məsələn, iqtisadiyyatı zəif inkişaf etmiş dövlət hərbi təhlükəsizliyini təmin edə bilməz. Ona görə də belə ölkədə sosial partlayışın, sosial ziddiyyətlərin olması qaçılmazdır. Eyni zamanda dövlətin müdafiə qüdrətinin möhkəm olması ölkənin milli iqtisadiyyatının inkişafı üçün əlverişli şərait yaradır. Amma əksər müəlliflərin fikrincə, milli təhlükəsizliyin əsasında iqtisadi təhlükəsizlik durur və o milli təhlükəsizliyin bazisidir.



Azərbaycanın iqtisadi təhlükəsizliyinin təmin olunmasında coğrafi və tarixi amillər bir çox dövlətlərə nisbətən daha böyük rol oynayır. Ona görə də bu amillərin nəzərə alınması zəruridir. Azərbaycanın mühüm coğrafi məkanda yerləşməsi və əlverişli təbii-iqlim şəraitinin olması səbəbindən tarix boyu dünyaya ağalıq etmək iddiasında olan dövlətlərin hücum təhlükəsinə məruz qalmışdır. Elmi-texniki inqilabın baş verdiyi dövrdə təbii xammala və enerji-yanacağa tələbatın artması ilə əlaqədar olaraq Azərbaycana sənayecə inkişaf etmiş iri dövlətlərin marağı daha da artmışdır. Bəzi dairələr Azərbaycanı iqtisadi cəhətdən özlərindən asılı vəziyyətə salmaq üçün bütün vasitələrdən istifadə etməyə çalışırlar. Dövlətin strateji məkanda yerləşməsi və buna görə də onların bu məkanda mənafelərinin toqquşmasının iqtisadi təhlükəsizliyin təmin olunmasına mənfi təsiri qarşılıqlı əməkdaşlığın təşkil olunmasında nəzərə alınmalı, rəqib dövlətlər tərəfindən törədilə biləcək iqtisadi təhlükələr və onların qarşısının alınmasının üsul və vasitələri müəyyənləşdirilməlidir.

1993-cü ildən ictimai-siyasi sabitliyin yaranması və Azərbaycanın daxilində olan bütün qanunsuz silahlı dəstələrin ləğv olunması, cinayətkar qrupların fəaliyyətinə son qoyulması Azərbaycanda dövlət quruculuğu işinin uğurla aparılmasına şərait yaratdı. Ölkədə dövlət quruculuğu prosesinin əsasını ölkə iqtisadiyyatının potensialının bərpa olunması və yeni bazar münasibətlərinə əsaslanan iqtisadi siste-

mə keçidin təmin olunması üçün islahatların həyata keçirilməsi təşkil edirdi.

**İqtisadi sahədə milli təhlükəsizliyin təmin olunmasının məqsədi Azərbaycanın sivil milli iqtisadiyyatının formalaşması və inkişafına kömək etmək, bunun əsasında ölkə vətəndaşlarının sosial-iqtisadi tələbatını daha da yaxşılaşdıraraq, istehsalın səmərəliliyini yüksəltmək, təbii sərvətlərdən qənaətlə istifadə etməklə ölkənin milli iqtisadiyyatını formalaşdırmaq və ekoloji problemin gərginləşməsinin qarşısını almaqdır.**

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ehtiyat potensialına sahib olmasına baxmayaraq, bir tərəfdən keçid dövrünün ziddiyyətləri, digər tərəfdən isə ermənilərin daxildən və xaricdən təhlükə yaratmaları milli iqtisadiyyatın inkişafına mane oldu. Nəticədə, 1991-1994-cü illərdə Azərbaycanda istehsalın həcmi kəskin şəkildə azaldı.

Bazar iqtisadiyyatına keçidin ilk dövründə Azərbaycanda milli (xüsusilə kənd təsərrüfatında) istehsalın tənəzzülə uğraması, yüngül və yeyinti sənayesinin rəqabət qabiliyyətinin aşağı olması, gömrük işinin təşkilinin zəifliyi, adı çəkilən sahələrdə vergi həvəsləndirilməsinin olmaması pərakəndə əmtəə dövriyyəsinə mənfi təsir göstərirdi.

Müasir dövrdə Azərbaycan Respublikasının milli təhlükəsizliyinin və onun iqtisadi sahədə maraqlarının təmin olunması dövlət siyasətinin prioritet istiqamətini təşkil edir. Keçən əsrin 1990-cı ilin ikinci yarısından etibarən bu istiqamətdə reallaşdırılan dövlət siyasətinin xarici aspekti – Azərbaycanın beynəlxalq birliyə iqtisadi inteqrasiyasının həyata keçməsi üçün əlverişli şəraitin yaradılması və ölkə məhsullarının dünya bazarlarına çıxarılmasının təmin olunmasından ibarətdir. Bu vəzifələrin həyata keçməsi ilk növbədə ölkə iqtisadiyyatının iqtisadi rəqabətə hazırlığı səviyyəsindən asılıdır.



Azərbaycanın nəinki iqtisadi təhlükəsizliyi, ümumiyyətlə, milli təhlükəsizliyinin təminatında neft strategiyasının rolu böyükdür. Strateji baxımdan neft XXI əsr Azərbaycan Respublikasında həyatın bütün infrastrukturlarına təsir edən əsas amillərdən biridir. Ölkənin həm daxili, həm də xarici siyasətinin əsasında neft amilinin üstünlük təşkil etməsi bütövlükdə respublikanın milli təhlükəsizliyinin təmin olunmasında neft strategiyasının üstün rolunu şərtləndirir. Ümummilli lider Heydər Əliyev qeyd edirdi ki, ümumiyyətlə, Azərbaycanın neft strategiyası və bu sahədə həyata keçirilən tədbirlər nəinki mühüm sosial-iqtisadi, həm də böyük siyasi əhəmiyyət kəsb edir. Bu da Azərbaycan dövlətinin beynəlxalq aləmdə nüfuzunun artmasına və dövlət müstəqilliyinin möhkəmlənməsinə əyani sübutdur.

Ölkənin iqtisadi təhlükəsizliyinin mühüm cəhətlərindən biri, neft və ondan gələn gəlirlərdən ölkədə regionlar arasında sosial-iqtisadi bərabərsizliyin aradan qaldırılmasında istifadə olunmasıdır. Belə vəziyyətdə Azərbaycanda sərmayə və sosial siyasətin uzlaşdırılması həddən artıq vacib məsələdir. **Ölkədə bu sahədə atılmış ilk addım ümummilli lider Heydər Əliyevin qərarı ilə Dövlət Neft Fondunun yaradılması oldu.** Bu fondun başlıca vəzifəsi neftdən gələn gəlirlərin toplanması və xalqın maddi rifahının yaxşılaşdırılması istiqamətində səmərəli şəkildə istifadə edilməsindən ibarətdir.

«Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası»nda ölkənin iqtisadi və sosial inkişaf istiqamətləri aşağıdakı kimi şərh olunmuşdur: «Ölkənin iqtisadi inkişafının davamlı olması hökumətin iqtisadi siyasətinin təməl prinsipidir. Bu həm iqtisadi, həm də sosial ölçülərin bərabər səviyyədə nəzərə alınmasını tələb edən kompleks bir məsələdir. Ona görə də Azərbaycan Respublikası bu istiqamətlərin hər biri üzrə sinxron və əlaqələndirilmiş proqram həyata keçirmək niyyətindədir.

Azərbaycan Respublikasında inflyasiya tempinin məqbul səviyyədə saxlanılması və valyuta bazarında sabit və proqnozlaşdırıla bilən vəziyyət təmin edilmiş, strateji valyuta ehtiyatları əhəmiyyətli dərəcədə artmışdır. Dövlət idarəetmə sistemində struktur islahatları həyata keçirilmiş, müəssisələrin böyük qismi öz fəaliyyətlərini bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq səmərəli təşkil edə bilmişdir. Sürətlə artan neft və qaz gəlirlərindən həddən artıq asılılıq nəticəsində yarana biləcək iqtisadi qeyri-sabitlik təhdidinin qarşısının alınması məqsədilə iqtisadi siyasət iqtisadi çoxşaxəliliyin təşviqinə yönəldilməlidir.

Sahibkarlıq fəaliyyətində mühüm inkişaf müşahidə olunmuş, iqtisadiyyatın liberallaşmasının dərinləşdirilməsi istiqamətində nailiyyətlər əldə edilmişdir. Artım tempi əhalinin rifah səviyyəsinin artması üçün görülən konkret tədbirlər, struktur-texnoloji müasirləşmənin həyata keçirilməsi və ölkənin rəqabət üstünlükləri sayəsində təmin edilməlidir. Sosial-iqtisadi inkişafda yeni nailiyyətlərin əldə edilməsi həm də islahatların aparılmasına, özəlləşdirmə zamanı şəffaflığın təmin edilməsinə, iqtisadiyyatın müasirləşməsinə, sosial dəyişikliklərin keçirilməsinə kompleks yanaşmanın davam etdirilməsini tələb edir.

Həyata keçirilən regional iqtisadi siyasətin əsas məqsədi ölkəmizin bütün bölgələrinin mövcud potensialından səmərəli istifadə etməklə qeyri-neft sahələrinin inkişafına, istehsal müəssisələrinin fəaliyyətinin daha da genişləndirilməsinə, ixracyönlü məhsul istehsalının stimullaşdırılmasına, yerli sahibkarlığın inkişafı yolu ilə əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına, gənclərin faydalı əməklə məşğulluğunun artırılmasına və ölkə iqtisadiyyatının dinamik inkişafının təmin edilməsinə nail olmaqdır. Azərbaycan Respublikasının uzunmüddətli dövrdə dayanıqlı və tarazlı inkişafının təmin edilməsində sərmayələrin cəlb edilməsi xüsusi rol oynayır. Sərmayələrin tələb olunan həcm və keyfiyyəti, ilk növbədə, özəl



sərmayələrin dəstəyi nəticəsində təmin edilə bilər. Ona görə də əlverişli sərmayə mühitinin yaxşılaşdırılması qarşıda duran ən əsas vəzifələrdəndir. Bunun üçün şəxsi mülkiyyətin qorunmasına, korporativ idarəetmənin təkmilləşdirilməsinə, mülkiyyət formasından asılı olmayaraq bütün sərmayədarlar üçün daha əlverişli rəqabət mühitinin yaradılmasına, sərmayə fəaliyyətinin normativ hüquqi bazasının daha da təkmilləşdirilməsinə, sərmayə axınının qeyri-neft sektorunun və regionların inkişafına yönəldilməsinin stimullaşdırılmasına diqqət yetirilməlidir».

Azərbaycan Respublikasının «Milli təhlükəsizlik haqqında» Qanununda Azərbaycan Respublikasının **iqtisadi sahədə əsas milli maraqları** aşağıdakı kimi təsbit olunmuşdur:

– iqtisadi potensialın artırılması;

– bazar iqtisadiyyatının inkişafı, onun hüquqi əsaslarının təkmilləşdirilməsi;

– iqtisadi sabitliyin təmin olunması;

– iqtisadiyyatın inkişafı üçün daxili və xarici investisiyalardan ötrü əlverişli şəraitin yaradılması;

– təbii və maddi sərvətlərin qorunması və səmərəli istifadə edilməsi;

– regional və dünya bazarlarının formalaşdırılmasında və fəaliyyət göstərməsində azad və bərabərhüquqlu iştirakın təmin edilməsi.

Azərbaycan Respublikasının «Milli təhlükəsizlik haqqında» Qanununda Azərbaycan Respublikasına **iqtisadi sahədə əsas təhdidlər** öz təsbitini aşağıdakı kimi tapmışdır:

– dövlətin iqtisadi potensialının tükənməsi, yaxud qeyri-səmərəli istifadəsi, milli iqtisadiyyatın digər ölkələrdən maliyyə və texnoloji asılılığının yaranması, boru kəmərlərinin, digər kommunikasiyaların və nəqliyyat dəhlizlərinin fəaliyyətinin pozulması;

– iqtisadi əlaqələri nizamlayan dövlət sisteminin pərakəndəliyi, iqtisadiyyatın qeyri-mütənasib inkişafı;

– Azərbaycan Respublikasının dünya iqtisadiyyatından təcrid olunması;

– maliyyə-kredit sisteminin pozulması, maddi və maliyyə vəsaitlərinin ölkədən qanunsuz çıxarılması;

– təbii və maddi sərvətlərin talan edilməsi və səmərəsiz istifadəsi;

– investisiya aktivliyinin zəifləməsi.

## 3. Ərzaq təhlükəsizliyi

İqtisadi sahədə milli təhlükəsizliyin təmin olunmasında ölkənin ərzaq təhlükəsizliyi mühüm yer tutur. 1996-cı ildə ərzaq problemləri ilə əlaqədar İtaliyanın Roma şəhərində yüksək səviyyədə keçirilmiş beynəlxalq konfrans zamanı Ümumdünya ərzaq təhlükəsizliyi bəyannaməsi qəbul edildi. Bu bəyannamədə göstərilir ki, **ərzaq təhlükəsizliyi bütövlükdə ölkə əhalisinin və ayrılıqda hər bir vətəndaşın şəxsiyyətinin fiziki və sosial inkişafı, eləcə də səhhətinin təmin edilməsi üçün kifayət edən həcmdə, keyfiyyətdə və çeşiddə ərzaq malları, içməli su və digər qida məhsullarının əldə edilməsini təmin edən iqtisadiyyatın vəziyyətidir.**

Əhalinin ərzaq təhlükəsizliyi **aşağıdakı amillər** əsasında qiymətləndirilir:

– ərzaq mallarının bolluğu;

– ərzağın alınması üçün kifayət qədər gəlirlərin mövcudluğu;

– əhalinin keyfiyyətli ərzaqla təminatı.

Ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün **aşağıdakı şərtlər** vacibdir:



– vətəndaşların ərzağa tələbat xüsusiyyətlərini nəzərə almaqla onların keyfiyyətli ərzaq məhsulları ilə təmin edilməsi;

– ərzaq məhsullarının qiymətlərinin ölkənin vətəndaşları üçün əlverişli olması;

– fövqəladə şəraitlər üçün strateji ərzaq ehtiyatlarının mövcudluğu;

– kənd təsərrüfatının sabit inkişafının təmin edilməsi və ərzaq ehtiyatlarının yaradılması.

Hər hansı bir ölkə əhalisinin ərzaqla, ilk növbədə taxılla təminatını həll edə bilmirsə ölkə daxilində sosial sabitlikdən danışmaq çətindir. Dövlət iqtisadi siyasətində prioritet istiqamətlərdən biri kimi taxıl istehsalının yüksək səviyyəyə çatdırılmasına nail olmalıdır. Ərzaq təhlükəsizliyinin təmin edilməsi təkcə cəmiyyətin iqtisadi sisteminin sabit inkişafının göstəricilərindən biri deyil, həm də cəmiyyətin siyasi sisteminin sabit inkişafına təsir edən mühüm amildir. Ölkənin taxıl tələbatının ödənilməsi taxıl ehtiyatı fondunun yaradılması, taxıl istehsalının sabit saxlanılması nəticəsində mümkündür. Ölkənin taxıla olan tələbatının daxili istehsal vasitəsilə tam ödənilməsi dövlətin iqtisadi siyasətinin uğurlu nəticəsi kimi, bu sahədə xarici asılılığı aradan qaldırır, belə bir ciddi məsələdə ona sərbəstlik verir. Taxıl strateji məhsul olaraq insanlar içərisində ən çox tələbat duyulan ərzaqdır.

Ərzaq təhlükəsizliyinin təmin olunmasında daxildə istehsal olunan və idxal yolu ilə ölkəyə gətirilən ərzaq məhsullarının keyfiyyəti problemi mühüm yer tutur. Ərzaq məhsullarının yoxlanılmadan ölkəyə gətirilməsi, aşağıdakı müxtəlif problemlərin yaranmasına gətirib çıxara bilər:

1. İnsanların sağlamlığını təhlükə altına alar.

2. Gələcək nəsillərin sağlam böyüməsinə mənfi təsir edər, demoqrafik təhlükələrə səbəb olar.

3. Keyfiyyətsiz ərzaq məhsulları təbii ki, məhz keyfiyyətsiz olduğu üçün çox ucuz başa gəlir və ucuz da satılır. Bu da daha keyfiyyətli olan təbii ki, qiyməti də bir qədər baha olan ərzaq məhsullarının satılmasının qarşısını alır. İlk növbədə isə daxili istehsala zərbə vurur. Bu proses son nəticədə iqtisadi inkişafı zəiflətməklə, aparılan iqtisadi siyasəti səmərəsiz hala gətirər.

4. İdxal olunan keyfiyyətsiz ərzaq məhsullarının istifadəsi əhali arasında kütləvi xəstəliklərin və epidemiyaların yayılması ilə nəticələnər.

Bu problemin həlli yalnız dövlət strukturlarının deyil, həmçinin ictimaiyyətin də nəzarətində olmalıdır. Əhaliyə keyfiyyətli ərzaq məhsullarının çatdırılmasında dövlət nəzarəti bəzən kifayət etmir. Bu problemin həllində istehlakçıların nəzarəti çox mühüm rol oynaya bilər. Hər bir istehlakçı aldığı ərzağın keyfiyyətinə diqqət yetirilməlidir. Hər bir fərdin fikri sonda ictimaiyyətin fikri kimi formalaşır. Deməli, səmərəli ərzaq təhlükəsizliyi sistemi yaratmaq üçün dövlət orqanları ilə ictimai təşkilatların, ictimaiyyətin qarşılıqlı fəaliyyəti zəruridir.

2001-ci il martın 2-də ümummilli lider Heydər Əliyevin Sərəncamı ilə «Azərbaycan Respublikasının Ərzaq Təhlükəsizliyi Proqramı» təsdiqləndi. Ərzaq təhlükəsizliyi proqramı olduqca mühüm və geniş bir konsepsiya olub makroiqtisadi və maliyyə siyasətinin ümumi strategiyasını, pul, büdcə, vergi, ticarət və gömrük siyasətini özündə birləşdirir. Kənd təsərrüfatının inkişaf strategiyası, təsisat, torpaq islahatları, torpaqdan və təbii otlaqlardan istifadənin yaxşılaşdırılması, meliorasiya və irriqasiya sisteminin yenidən qurulması, kəndin texnika təminatı, təsərrüfatlara yardım və kreditlər də proqramın tərkib hissələridir, yəni son nəticədə məhz bu məqsədə xidmət edir.



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ərzaq təhlükəsizliyi ilə bağlı demişdir: «2007-ci ildə biz eyni zamanda gördük ki, öz ərzaq təhlükəsizliyimizi də təmin etməliyik. Azərbaycan iqtisadi təhlükəsizliyini, enerji təhlükəsizliyini təmin edibdir və başqa ölkələrin enerji təhlükəsizliyində iştirak edir. Ərzaq təhlükəsizliyi də ondan az əhəmiyyət daşımayan sahədir».**

Ərzaq təhlükəsizliyi həmçinin qlobal problemdir. O bütün dövrlərdə mövcud olsa da, bazar iqtisadiyyatı sistemi üçün daha çox xarakterikdir. Məhz buna görə də dünyada ərzaq təhlükəsizliyi problemi XX əsrin 70-ci illərində Birləşmiş Millətlər Təşkilatlarının Beynəlxalq Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) tərəfindən qaldırıldı. Elə o vaxt FAO-nun daimi fəaliyyətdə olan Beynəlxalq Ərzaq Təhlükəsizliyi Komitəsi yaradıldı. Bundan sonra əksər xarici ölkələrdə «Milli ərzaq təhlükəsizliyi proqramı» işlənib hazırlanmış və hər bir dövlət onu reallaşdırmağa səy göstərir.

Ərzaq probleminin qlobal miqyasda həlli BMT-nin ən mühüm vəzifələrindən biri olaraq qalır. 1996-cı ildə bu problemə həsr olunmuş konfrans keçirildi. BMT üzvü olan dövlətlər həmin konfransda «Dünya ərzaq təhlükəsizliyi haqqında» bəyannamə qəbul etdilər. Bəyannaməyə qoşulan ölkələr bütün dünyada ərzaq təhlükəsizliyinə nail olmaq, 2015-ci ilə qədər aclıq çəkən insanların sayını iki dəfə azaltmaq barədə öhdəliklərini təsdiq etdilər. Bununla ayrı-ayrı ölkələrin ərzaq təhlükəsizliyinə dair dövlətlərin məsuliyyətləri müəyyənləşdirildi. Bu isə o deməkdir ki, bəyannaməyə qoşulan ölkələr zəruri texniki və maliyyə ehtiyatlarını səfərbər edib özlərinin ərzaq təhlükəsizliyini təmin etməlidir.

Ərzaq təhlükəsizliyi dövlətin milli və iqtisadi təhlükəsizlik sisteminin bir hissəsidir və cəmiyyətin sabit həyat fəaliyyəti üçün şərait yaradır. Dünya təcrübəsində «ərzaq təhlükəsizliyi»

anlayışı ölkənin ərzaq bazarındakı vəziyyətini qiymətləndirmək üçün istifadə edilir. Ərzaq təhlükəsizliyi anlayışı sosial-iqtisadi və siyasi-iqtisadi xarakter daşıyır. Sosial-iqtisadi xarakter ölkədə qəbul edilmiş normalara uyğun olaraq dövlətin vətəndaşlarını əsas ərzaq məhsulları ilə təmin etməyə qadir olması, siyasi-iqtisadi xarakter isə əhalinin ərzaqla təchiz olunmasını təşkil etmək üçün dövlətin daxili ehtiyatları və aqrar-iqlim şəraitini səfərbər etmək qabiliyyətidir.

Ərzaq təhlükəsizliyinin strategiya və taktikası həm inkişaf etmiş, həm inkişaf etməkdə, həm də keçid iqtisadiyyatlı ölkələrdə, o cümlədən Azərbaycanda fərqli xüsusiyyətlərə malikdir. Başqa sözlə, iqtisadi inkişaf şəxsiyyətindən və hansı sistemdə yaşamasından asılı olmayaraq bütün dövlətlərdə əhalinin ərzaq təhlükəsizliyi problemi vardır. Lakin bunların formaları müxtəlifdir. Məsələn, sənayecə inkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrdə ərzaq qıtlığı, ərzaq çatışmazlığından əsasən söhbət gedə bilməz. Burada əsas problem qida ehtiyatının strukturunu təkmilləşdirməkdir. Başqa sözlə, qidanın tərkibində yüksək kalorili məhsulu (meyvə-tərəvəz; göyərti) artırmaqdır. İnkişaf etməkdə olan dövlətlərin bəzilərində doyunca yemək, aclıq və yarımaclıqla mübarizə aparılır. Əhalisi aclıq və yarımaclıq çəkən dövlətlər əsasən Afrikanın yoxsul ölkələridir.

Bütün dünyada, o cümlədən Azərbaycanda ərzaq təhlükəsizliyi ölkənin iqtisadi inkişafından, xüsusilə kənd təsərrüfatı istehsalının inkişaf səviyyəsindən asılıdır. Hazırda ərzaq təhlükəsizliyinin təmin olunması Azərbaycanın iqtisadiyyatının inkişaf səviyyəsinə uyğundur. Bunun əsas səbəbi dövlətin əhalinin ərzaq təhlükəsizliyinin təmin olunmasında gördüyü ciddi tədbirlərlə əlaqədardır. Birincisi, Azərbaycan gözəl təbii-iqlim şəraitinə malikdir. İkincisi, Azərbaycan xalqı dünyanın ən istedadlı, yüksək intellektə malik və zəhmətkeş xalqlarından biri olduğundan ən pis şəraitdə belə, bu xalq özünün zəngin təbii sərvətindən istifadə edərək aclıqdan xilas olmaq qabiliyyətinə malikdir.



Azərbaycan dövləti ərzaq təhlükəsizliyi siyasətində əhalinin ərzaqla təmin olunması problemi xarici ölkələrdən ərzaq məhsulları gətirməklə həll etməyə deyil, öz ölkəsində istehsal olunan kənd təsərrüfatı məhsulları ilə bu təminatı həyata keçirməyə üstünlük verir. Bunun üçün kənd təsərrüfatı istehsalı sahəsinə hərtərəfli kömək göstərilir. Bu sahədə sənayecə inkişaf etmiş dünya dövlətlərinin zəngin təcrübəsi vardır. Onlardan Azərbaycanın reallıqlarına və xüsusiyyətlərinə uyğun istifadə edilir.

## 4. Vergi və gömrük siyasətinin iqtisadi sahədə milli təhlükəsizliyin təminatında rolu

Ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunmasında **dövlətin vergi siyasəti** mühüm rol oynayır. Vergi dövlət tərəfindən müəssisə, firma, təşkilat, vətəndaş və sairdən tutulan məcburi ödəmələrdir.

Vergi siyasəti vergi sahəsində dövlətin həyata keçirdiyi tədbirlər sistemidir. Dövlətin vergi siyasəti ilk növbədə dövlət büdcəsinin formalaşdırılmasına xidmət edir. Büdcə dövlətin ən mühüm maliyyə sənədidir. Belə ki, o dövlətin öz funksiyalarını həyata keçirilməsini təmin etmək üçün mərkəzləşdirilmiş maliyyə vəsaiti fondudur. Dövlət büdcəsi özünəməxsus sosial funksiyaya malikdir. O, dövlətin ehtiyaclarının təmin olunması, elmi–texniki tərəqqinin sürətlənməsi zərurətilə əlaqədar istehsalın genişləndirilməsinin həyata keçirilməsi, iqtisadiyyatın ərazi və sahə srukturlarında nəzərdə tutulan irəliləyişləri təmin etmək, dövlət miqyasın-

da ehtiyat fondunun artırılması, elm, təhsil, səhiyyə xərclərinin, sosial təminat və sosial sığorta ehtiyaclarının ödənilməsi, dövlət idarəetmə və inzibati orqanlarının saxlanılması və nəhayət, müharibə və dinc dövrdə Azərbaycanda müdafiə xərclərinin təmin edilməsi üçün mərkəzləşdirilmiş pul vəsaiti fondudur.

Dövlətin vergi siyasəti büdcə gəlirlərinin formalaşmasını təmin etməli, iqtisadi və sosial inkişafı stimullaşdırmalı, cəmiyyətdə makroiqtisadi tarazılıqların formalaşmasına, dövlətin iqtisadi maraqlarına, xalqın rifahının yüksəlməsinə xidmət etməlidir. Dövlətin vergi siyasəti ona istiqamətlənməlidir ki, vergidən yayınma hallarının qarşısı alınsın, ümumiyyətlə, vergidən yayınmanın iqtisadi faydası olmasın, bu halda vergi siyasətinin uğurlu olması haqqında danışmaq olar. Büdcə gəlirlərini artırmaq üçün vergi dərəcələrini iqtisadi cəhətdən əsaslandırılmış şəkildə aşağı salmaq və vergi yığımlarının miqyasını genişləndirmək, iqtisadi cəhətdən daha uğurlu hesab oluna bilər.

Vergi siyasəti ümumilikdə təkcə vergilərin yığılmasını özündə əks etdirməməli, eyni zamanda ölkənin iqtisadi inkişafını təmin etməlidir. Vergi sistemi elə qurulmalıdır ki, istehsalçı - vergi ödəyicisi vergini ödəməkdən yayınmaqdan daha çox, onu ödəməyə meyilli olsun. Vergi siyasətinin həyata keçirilməsi ilk növbədə ölkənin iqtisadi əsaslarının möhkəmləndirilməsinə xidmət etməlidir. Vergilərin sabit yığılması və bu dinamikanın artan sürətlə inkişafı, ölkənin sabit iqtisadi inkişafının göstəricisi hesab olunur. Vergi siyasətinin səmərəliliyi ilə yanaşı, onun uğursuzluğa düçar olması da mümkündür. Bu ilk növbədə dövlət büdcəsinin formalaşdırılmamasına gətirib çıxarmaqla, dövlətin ümumilikdə mövcudluğuna təhlükə yaradır. Dövlətin nəzarətində olan silahlı qüvvələr və digər güc orqanları dövlət büdcəsinin vəsaitləri hesabına saxla-



nılır. Həmçinin dövlət bu vəsaitlə müəyyən sosial qrupların sosial müdafiəsini təşkil edir və dövlət strukturlarının maliyyə təminatını həyata keçirir. Bu baxımdan vergi strateji bir məsələdir və iqtisadi təhlükəsizliyin təmin olunmasında mühüm rola malikdir. Qeyd etmək olar ki, ümumiyyətlə, vergisiz dövlət özünün daxili və xarici funksiyalarını normal həyata keçirmək iqtidarında deyil.

Vergi sistemi və vergi siyasəti bu və ya digər dərəcədə dövlətin, müəssisə və təşkilatların, habelə əhalinin bütün təbəqələrinin maraqları ilə əlaqədardır. Azərbaycan şəraitində vergi və vergi siyasəti bazar iqtisadiyyatına keçmək məqsədilə həyata keçirilən iqtisadi islahatların obyektlərindən biridir. Ölkənin vergi potensialı onun iqtisadiyyatının inkişaf səviyyəsindən asılıdır. Vergi də öz növbəsində ölkənin iqtisadi vəziyyətinə, büdcə sisteminə böyük təsir göstərir.

İqtisadi təhlükəsizlik sistemində vergi və vergi siyasətinin rolunu qiymətləndirməyin prinsipləri, meyarları və göstəriciləri vardır. Vergilərin yığılması nəticəsində toplanılan maliyyə vəsaiti vətəndaşın yaşayış şəraitini yaxşılaşdırmağa, cəmiyyətin sosial-iqtisadi, hərbi-siyasi sabitliyini təmin etməyə, dövlətin ərazi bütövlüyünün bərpa olunması və qorunmasına olan daxili və xarici təhdidlərin aradan qaldırılmasına yönəldilir.

Vergi və vergi siyasəti ölkənin iqtisadi və maliyyə təhlükəsizliyi sistemində obyektiv olaraq özündə aşağıdakıları ehtiva edir. Birincisi, o dövlətin əlində ehtiyat amilidir. İkincisi, iqtisadi və sosial prosesə təsir etmək vasitəsidir. Üçüncüsü, dövlətin vergi ödəyicilərindən və regionlardan asılılığını göstərən amildir. Başqa sözlə, dövlətlə vergi ödəyiciləri bir-biri ilə qarşılıqlı əlaqədə və asılılıqda fəaliyyət göstərirlər. Bu prosesdə dövlət və onun məmurları dərk edirlər ki, dövlətin iqtisadi qüdrəti, milli və iqtisadi təhlükəsizliyi vergi verən-

lərdən çox asılıdır. Ona görə də vergi ödəyicilərinə hərtərəfli qayğı göstərmək lazımdır ki, onların gəlirləri çox olsun, firavan yaşasınlar. Belə normal şərait yaradılarsa verginin hesabına dövlətin maliyyə təhlükəsizliyini təmin etmək olar.

Vergi siyasəti dövlətin iqtisadi və maliyyə təhlükəsizliyinə həm müsbət, həm də mənfi təsir göstərə bilər. Belə ki, düzgün, ölçülüb-biçilmiş, reallığı əks etdirən, ədalətli vergi siyasəti ölkənin iqtisadi və maliyyə təhlükəsizliyinin təmin edilməsinə müsbət təsir göstərdiyi halda, subyektiv amillərə əsaslanan vergi siyasəti ölkəni təhlükə qarşısında qoya bilər.

İqtisadi təhlükəsizliyin amillərindən olan verginin rolu konkret şəraitdə, iqtisadi inkişaf mərhələsinin xüsusiyyətindən, həyata keçirilən iqtisadi siyasətin xarakterindən, dövlət hakimiyyətinin sabitliyindən asılıdır. Dövlətin və iqtisadiyyatın böhran vəziyyəti, iqtisadi siyasatdə buraxılan səhvlər və dövlət aparatının ümumi zəifliyi, istər-istəməz vergi sistemində də böhranın baş verməsinə səbəb olur. Çünki vergi muxtariyyət təşkil edə bilməz, onun vəziyyəti dövlətin bütövlükdə iqtisadi inkişaf səviyyəsindən və siyasi quruluşdan asılıdır.

Vergi siyasətinin obyektiv və subyektiv meylini fərqləndirmək lazımdır. Obyektiv meyil dedikdə real vergi münasibətləri və vergi sisteminin real göstəricilərinin sayı başa düşülməlidir. Subyektiv meyil dedikdə isə şərait, məqsəd, dövlətin həyata keçirdiyi vergi siyasətinin nəticələri nəzərdə tutulur. Bundan başqa, obyektiv prosesə, dövlətin vergi sisteminə və aparılan vergi siyasətinə daxili və xarici mənbələrdən təhlükə yaranma ehtimalı da vardır.

Vergi siyasətinin obyektlv meyli subyektiv amillərlə ziddiyyətlə də qarşılaşa bilər. Bu özünü vergi siyasətinin iqtisadi təhlükəsizliyin təmin edilməsində az optimal və nisbətən səmərəsiz olmasında göstərir və bunun əksinə olması da mümkündür.



Ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunmasında **gömrük siyasəti** də mühüm rol oynayır. Gömrük siyasətini dövlətçiliyin iqtisadi cəhətdən dayağı və iqtisadi təhlükəsizliyin təminatçısı kimi də qəbul etmək mümkündür. Gömrük işi sahəsində cinayətlərin və digər hüquqpozmaların açılma faizinin yüksəldilməsinə nail olmaq üçün gömrük orqanlarının hüquq mühafizə fəaliyyətinin, məlumat təminatının avtomatlaşdırılmasına, riskin idarəolunması sisteminin təkmilləşdirilməsinə, xarici iqtisadi fəaliyyət sahəsində kriminal meyllərin qarşısının alınmasına və xəbərdar olunmasına xüsusi diqqət verilir.

Azərbaycan Respublikasının Gömrük Komitəsi aşağıdakı vəzifələri yerinə yetirir:

– ölkənin maddi və mənəvi sərvətlərini qoruyur;

– ölkənin milli iqtisadi maraqlarını təmin edir;

– iqtisadi təhlükəsizliyin təmin olunmasında müvafiq fəaliyyət göstərir.

– Azərbaycanın xarici iqtisadi əlaqələrinin genişlənməsinə şərait yaradır;

– narkotik, zəhərli məhsulların, qeyri-qanuni valyutanın ölkəyə gətirilməsinin qarşısını alır;

– qaçaqmalçılığa qarşı mübarizə aparır.

Göründüyü kimi, gömrük siyasəti iqtisadi təhlükəsizlikdə mühüm yer tutmaqla ölkənin idxal-ixrac əməliyyatlarını idarə edərək, dövlətin büdcəsinin formalaşdırılmasında əsas yerlərdən birini tutur. Gömrük siyasəti nəticəsində qeyri-qanuni, qeydiyyatdan kənar malların ölkəyə gəlməsinin qarışısı alınmaqla, həm keyfiyyətsiz malların idxalına qarşı mübarizə aparılır, həmçinin də həmin malların rüsum ödəmədən ölkəyə daxil olmasının qarşısı alınır. Gömrük siyasəti nəticəsində təkcə ölkə büdcəsinin formalaşdırılması məqsədi güdülmür, bununla yanaşı, ölkə daxilində iq-

tisadi inkişafın müxtəlif istiqamətlərinin tərəqqisinə şərait yaradılır. Bu sahədə Azərbaycan Respublikasının Gömrük Komitəsinin fəaliyyəti mühüm əhəmiyyətə malikdir.

## 5. Nəqliyyat və enerji təhlükəsizliyi

İqtisadi təhlükəsizliyin təminatında ölkə ərazisində nəqliyyat dəhlizlərinin mövcudluğu ölkəyə sabit gəlir gətirməklə yanaşı, həm də müxtəlif ölkələri və transmilli korporasiyaları ölkədə daim daxili sabitliyin mövcudluğunda maraqlı edir. Beləliklə, iqtisadi amillər həm də ümumilikdə sabit, təhlükəsiz cəmiyyətin qurulmasına və qorunub saxlanmasına əsaslı müsbət təsir göstərir.

Nəqliyyat sisteminin inkişaf etdirilməsinin əsas məqsədləri aşağıdakılardır:

– nəqliyyat xidmətləri ilə respublika əhalisinin çevikliyinin artan tələblərini qarşılamaqla həyat tərzinə olan müsbət təsirin maksimum səviyyəyə çatdırılması;

– iqtisadi artıma xidmət etmək üçün etibarlı, sağlam, əlverişli nəqliyyat siyasətinin həyata keçirilməsi;

– mal dövriyyəsi sistemində inzibati əngəllərin və ayrı-ayrı regionların nəqliyyat sisteminin inkişafında qeyri-bərabərliyin ləğv olunması və ölkədə vahid dayanıqlı nəqliyyat şəbəkəsinin yaradılması;

– nəqliyyat diskriminasiyasının ləğv edilməsi, dayanıqlı ictimai inkişaf və regionlar arası inkişafı gücləndirərək milli əmək bazarının yaradılması məqsədi ilə vətəndaşların bütün təbəqələrinin, o cümlədən ucqar ərazilərdə yaşayan vətəndaşların nəqliyyatla təmin olunması, nəqliyyat xidmətlərinin keyfiyyətinin artırılması, nəqliyyatın əhaliyə və ətraf mühitə



neqativ təsirinin azaldılması, nəqliyyat kompleksi üçün ixtisaslı kadrların hazırlanması nəqliyyat sisteminin inkişafı;

– Azərbaycan Respublikasının dünya iqtisadiyyatına inteqrasiyası və xarici ticarətin genişləndirilməsi şəraitində nəqliyyat infrastrukturunun ona uyğun yenidənqurulması, Azərbaycanın tranzit ölkəsi kimi mövcud imkanlarından tam istifadə edilməsi, ölkə yükdaşıyıcılarının rəqabətqabiliyyətliliyinin artırılması və nəqliyyat xidmətlərinin ixracı;

– geosiyasi şəraitin dəyişməsi və Azərbaycan Respublikasının dünya miqyasında müvafiq mövqe tutması şəraitində nəqliyyat növlərində yeni təhlukəsizlik standartlarının işlənməsi və tətbiqi.

Nəqliyyat təhlükəsizliyi siyasəti Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasında aşağıdakı kimi əks olunmuşdur: «Azərbaycan Respublikasında zəngin enerji ehtiyatlarının olması iqtisadiyyatın əsaslı və sürətli inkişaf etməsinə müsbət təsir göstərən, lakin müxtəlif dövlətlərin regiondakı maraqlarını şərtləndirən və münasibətlərin gərginləşməsinə səbəb olan əsas amillərdən biridir.

Müstəqillik əldə edildikdən sonra Azərbaycan Respublikası öz enerji sektorunu daha da inkişaf etdirmiş və müxtəlif növ nəqliyyat şəbəkələri yaratmışdır. Bu nəqliyyat şəbəkələrinin təhlükəsizliyinin təmin edilməsi ölkə üçün əsas vəzifələrdən biridir.

Beynəlxalq nəqliyyat dəhlizlərinin və boru kəmərlərinin təhlükəsizliyini təmin etmək üçün Azərbaycan Respublikası aşağıdakı vəzifələri həyata keçirir:

– nəqliyyatın və nəqliyyatda təhlükəsizliyin təmin edilməsi;

– nəqliyyat sistemində səfərbərlik hazırlığının təmin edilməsi;

– «Avropa-Qafqaz-Asiya» və "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizlərinin fəaliyyətinin səmərəliliyinin və rəqabət qabiliyyətinin artırılması məqsədi ilə təhlükəsizlik tədbirlərinin gücləndirilməsi;

– nəqliyyat infrastrukturlarının mühafizə sisteminin etibarlılığının təmin edilməsi;

– nəqliyyat infrastrukturlarının təhlükəsizliyinə kənardan təhdid yarada biləcək amillərin aşkarlanması və qarşısının alınması;

– nəqliyyat vasitələri və infrastrukturlarında, o cümlədən boru kəmərlərində terror aktlarının törədilməsində istifadə oluna biləcək vasitələrin dövriyyəsinin qadağan olunması və ya bu dövriyyəyə ciddi nəzarətin həyata keçirilməsi;

– nəqliyyat obyektlərinin tikintisi və istismarı zamanı sosial və ekoloji mühitə ziyan vurulmasının qarşısının alınması.

Sözügedən vəzifələr Azərbaycan Respublikasının Silahlı Qüvvələri və digər təhlükəsizlik strukturlarının, habelə aidiyyəti dövlət qurumlarının fəaliyyətində öz əksini tapmalı və onların həyata keçirilməsi üçün adekvat imkanlar yaradılmalıdır».

Azərbaycan Respublikasının nəqliyyat sahəsində milli təhlükəsizliyinin təmin olunmasında Bakı-Tbilisi-Qars dəmiryol layihəsinin gerçəkləşməsi mühüm əhəmiyyət kəsb edir. Bakı-Tbilisi-Qars dəmiryol layihəsinin reallaşdırılması Türkiyə ilə Azərbaycan arasında Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərlərindən sonra sadəcə, yeni bir nəqliyyat dəhlizinin meydana çıxması deyildir. Bu həm də iki türk dövlətinin iqtisadi baxımdan daha sıx tellərlə bağlanması, geosiyasi mövqelərinin daha da möhkəmlənməsi deməkdir.

Azərbaycan Respublikasının bu layihənin gerçəkləşməsinə xüsusi maraq göstərməsi aşağıdakı amillərlə bağlıdır:



– ikitərəfli əlaqələrin möhkəmləndirilməsi;

– təcavüzkar Ermənistanın iqtisadi cəhətdən təcridini daha da gücləndirmək;

– ölkə büdcəsinə külli miqdarda vəsaitin daxil olması və s.

Azərbaycanın milli təhlükəsizlik siyasətində təbii sərvətlərin mühafizəsi, enerji təhlükəsizliyinin təmin olunması mühüm yer tutur.

Enerji təhlükəsizliyi dedikdə, bütün ölkənin, onun vətəndaşlarının, cəmiyyətin, iqtisadiyyatın yanacaq və enerji təchizatı vasitəsilə xarici və daxili təhdidlərdən müdafiəsi nəzərdə tutulur.

Enerji təhlükəsizliyinin təmin olunması ölkənin iqtisadi inkişafına müsbət təsir etməklə, onun strateji bir gücə çevrilməsini şərtləndirir. Həmçinin təbii sərvətlərin mövcudluğu ölkəyə sərmayə axınını təmin edir, bu sərvətlərdən daxil olan vəsaitlərin hesabına ölkədə digər istehsal sahələrinin inkişafına şərait yaradır. Müasir şəraitdə Azərbaycan Respublikasının həyata keçirdiyi enerji təhlükəsizliyi siyasəti nəticəsində Azərbaycan özünün enerji təhlükəsizliyini təmin etməklə yanaşı, bəzi ölkələrin də enerji təhlükəsizliyinin təmin edilməsində fəal iştirak edir.

Ümumilikdə Azərbaycanın enerji təhlükəsizliyi siyasəti «Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası»nda aşağıdakı kimi əks olunmuşdur: «Xəzər hövzəsinin Azərbaycan Respublikasına mənsub olan sektorunda yerləşən mövcud neft və qaz yataqlarının, habelə perspektivli strukturların işlənməsi, istismarı, müasir neft-qaz özüllərinin tikintisi və quraşdırılması, əsas ixrac neft və qaz boru kəmərlərinə, terminallarına olan təhdidlərin aşkar edilməsi, qiymətləndirilməsi və adekvat tədbirlərin görülməsi Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin edilməsinin ən mühüm fəaliyyət istiqamətlərindən biridir.

Heydər Əliyev adına "Bakı-Tbilisi-Ceyhan" əsas ixrac neft boru kəməri və Cənubi Qafqaz qaz boru kəməri Xəzər dənizi ilə Qara dəniz və Aralıq dənizi arasında enerji nəqlinin, Xəzəryanı ölkələrin geostrateji və iqtisadi maraqlarını təmin edən mühüm obyektlərin təhlükəsizliyinin qorunması və bununla əlaqədar artan risklərin idarə olunması və azaldılması Azərbaycan Respublikasının milli təhlükəsizliyinin ən vacib vəzifələrindəndir.

Heydər Əliyev adına "Bakı-Tbilisi-Ceyhan" əsas neft ixrac boru kəmərinin 2006-cı ildən istifadəyə verilməsi Azərbaycan neftini dünya bazarında mühüm amilə çevirmişdir. Azərbaycan neftini Türkiyənin Ceyhan limanına, qazını isə Türkiyənin Ərzurum qaz terminalına çıxaran kəmərlərin coğrafiyası müəyyən təhlükəsizlik riskləri yaradır.

Azərbaycan Respublikası enerji ehtiyatlarının istehsalı və nəqli ilə bağlı yaradılan və istismar olunan infrastrukturun təbii fəlakətlərə, texnogen xarakterli fövqəladə hadisələrə və təxribatlara məruzqalma ehtimalına qarşı kompleks tədbirlər həyata keçirir.

XXI əsrdə dünyada enerji daşıyıcıları ilə bağlı böhran gözlənildiyindən Azərbaycan Respublikasında alternativ enerji mənbələrindən istifadə edilməsi qərara alınmışdır. Küləkli və günəşli günlərin sayına görə ölkənin əlverişli şəraitə malik olduğunu nəzərə alaraq, Azərbaycanın enerjiyə olan ehtiyacının müəyyən hissəsi külək, dəniz, günəş, biokütlə, kiçik dağ suları və su elektrik stansiyaları hesabına təmin oluna bilər».

Müasir dövrdə Azərbaycan Respublikası enerji təhlükəsizliyi və enerji ehtiyatlarının ixracı sahəsində özünün uğurlu şaxələndirmə siyasətini həyata keçirir.



## 6. Beynəlxalq iqtisadi təhlükəsizlik

Beynəlxalq iqtisadi təhlükəsizlik o vaxt təmin edilir ki, dünya birliyinin üzvü olan hər bir dövlət sərbəst olaraq öz inkişaf istiqamətini seçə bilsin, onun xaricdən olan təzyiqlərin qarşısını ala bilmək imkanı olsun, başqa dövlətlərin onun daxili işinə qarışmağına şərait yaratmasın, bütün dövlətlərlə qarşılıqlı, hər iki tərəfə faydalı olan əməkdaşlığı qurmağı və genişləndirməyi bacarsın.

Beynəlxalq iqtisadi təhlükəsizliyin yolu başqasının inkişaf modelini zorla qəbul etdirməkdən imtinadan keçir. Buna Çinin «iqtisadi möcüzəsi» nümunə ola bilər. Çin mütəxəssislərinin birmənalı fikrinə görə, iqtisadi islahatların strategiyası və taktikasına kənardan hökm edilməməlidir. Hər ölkənin öz xüsusiyyəti var, onu xarici ekspertlər yerli mütəxəssislər qədər dərindən bilmirlər. Bu reallıqdır və bununla beynəlxalq maliyyə təşkilatları da hesablaşmalıdırlar. Məhz buna görə də hər bir dövlət başqa dövlətin qanunlarına hörmətlə yanaşmalı, mülkiyyətin müxtəlif formalarının seçilməsinə, maraqların təmin olunmasına müdaxilə etməməlidir.

Beynəlxalq iqtisadi təhlükəsizliyi təmin etmək üçün hər hansı dövlətin hansı sosial və siyasi quruluşdan asılı olmayaraq onların bərabərhüquqlu olması etiraf edilməlidir. Hər bir dövlət təbii sərvətləri və iqtisadi potensialı üzərində suverenliyinə malik olmalıdır. Habelə qarşılıqlı faydalı əməkdaşlıq dövlətin azad iqtisadi inkişafına, elmi-texniki tərəqqiyə xidmət etməlidir. Dünya birliyinə daxil olan zəif inkişaf etmiş dövlətlərə inkişaf etmiş dövlətlər tərəfindən təzyiq göstərilməməli, əksinə, onlara kömək və güzəştlər edilməlidir ki, zəif və iqtisadi cəhətdən inkişaf etmiş dövlətlərin iqtisadi inkişaf səviyyələrində tarazlaşma prosesi güclənsin. Çünki bu bey-

nəlxalq iqtisadi inteqrasiyanın səmərəliliyinə müsbət təsir göstərən amildir. Mübahisəli iqtisadi məsələlər güc yolu ilə deyil, danışıqlar vasitəsi ilə həll edilməlidir.

Beynəlxalq iqtisadi təhlükəsizlik həmçinin beynəlxalq hüquq normaları və prinsipləri əsasında ikitərəfli və çoxtərəfli müqavilələr əsasında təmin olunmalıdır. Ona görə ki, beynəlxalq iqtisadi təhlükəsizlik hər bir dövlətin iqtisadi təhlükəsizliyi ilə qarşılıqlı əlaqədə və vəhdətdə olur, onlar bir-birini şərtləndirir. Vahid dünya təsərrüfat sisteminin formalaşması və inkişafı bu prosesin tənzimlənməsindən asılıdır. Bu problemin həllində dövlətlərarası təşkilatlar böyük rol oynaya bilərlər.

Beynəlxalq iqtisadi təhlükəsizliyin təmin olunmasında sabitlik və iqtisadi inkişafın sürətləndirilməsi də zəruridir. Lakin zəif inkişaf etmiş dövlətlərin iqtisadi inkişafının aşağı olması daim beynəlxalq iqtisadi təhdidlər yaradır.

Beynəlxalq iqtisadi təhdidlərin yaranmasında inzibati-amirlik iqtisadi sistemi böyük rol oynamışdır. Bu sistemə daxil olan dövlətlər istehsalın səmərəliliyini təmin edə bilmədiyinə görə onların iqtisadiyyatı tənəzzülə uğramışdır.

Müasir şəraitdə dövlətlərin iqtisadi təhlükəsizliklərinin təmin olunmasına çalışması dövlətlər arasında əməkdaşlığın genişlənməsinə gətirib çıxarır, bu isə nəinki milli, həm də qlobal iqtisadi təhlükəsizliyin təmin olunmasında mühüm rol oynayır. Belə əməkdaşlıq nüvə silahının istehsalının azaldılmasına, iqtisadiyyatın inkişafının zəifləməsinin aradan qaldırılmasına təminat verir.



# VII FƏSİL

## Sosial sahədə milli təhlükəsizliyin təmin olunması

1. **Sosial sahədə milli təhlükəsizliyin təmin olunması tədbirləri**
2. **Səhiyyə sahəsində milli təhlükəsizliyin təmin olunması**
3. **Miqrasiya proseslərinin tənzimlənməsinin milli təhlükəsizliyinin təmin olunmasında rolu**
4. **Demoqrafik sahədə milli təhlükəsizliyin təmin olunması**

## 1. Sosial sahədə milli təhlükəsizliyin təmin olunması tədbirləri

Dövlət siyasətinin ən mühüm istiqamətlərindən biri sosial siyasətdir.

Sosial siyasətin ən mühüm məqsədi ictimai həyatda tarazlığın müəyyən səviyyəsinə nail olmaqdan ibarətdir. Bu məqsədə nail olmaq üçün **əsas tədbirlər** aşağıdakılardır:

– Dövlət tərəfindən aclığın, xəstəliklərin, təbii və texniki fəlakətlərin, demoqrafik partlayışın qarşısının alınması;

– Ölkədə əldə olunmuş müəyyən həyat səviyyəsinin saxlanmasına istiqamətlənən maddi vəsaitlərin yayılması, təşkilatçılıq səyləri və cəmiyyətdə sosial gərginliyin azalmasının təmin olunması;

– Həyat fəaliyyətinin tənzim olunmasının (vergilərlə, xeyriyyəçilik tədbirləri ilə, sahibkarlıq təşəbbüsləri ilə) müvafiq tədbirlər ilə əlaqələndirilməsi.

Sosial siyasətin həyata keçirilməsi cəmiyyət üzvlərinin sosial tələbatlarını təmin edir. Demoqrafik xidmət, səhiyyə, sosial təminat, idmanın təbliği kimi sahələr bir tərəfdən sosial siyasətin differensasiyalı istiqamətinin həyata keçirilməsinə zəmin yaradır, digər tərəfdən həyat tərzi, həyat səviyyəsi, həyat keyfiyyəti və s. barədə hökumətə informasiya verilməsini təmin edir. Ümumiyyətlə, sosial siyasət cəmiyyətin sosial inkişafının idarə olunmasına, adamların maddi və mədəni tələbatının təmin edilməsinə və cəmiyyətin sosial differensasiyası prosesinin tənzimlənməsinə istiqamətlənən tədbirlər sistemidir.

Sosial siyasət tədbirlərinin işlənib hazırlanmasında sosioloqlar və demoqraflar xüsusi rol oynayırlar. Sosial siyasət ilk növbədə cəmiyyətin cari və perspektiv mənafeyi arasındakı ziddiyyətlərin həllini, sosial təbəqə və qrupların mənafelərinə dair uyğunsuzluqların aradan qaldırılmasını təmin etməlidir. Bir sözlə, sosial siyasətin başlıca məqsədi ictimai inkişafın mövcud mərhələsində ən ümdə və təxirəsalınmaz vəzifələrin həllini təmin etməkdən, meydana çıxan ziddiyyətləri cəmiyyətin ümumi mənafeyi baxımından məqsədyönlü və çevik şəkildə aradan qaldırmaqdan ibarətdir.



Güclü sosial siyasətin həyata keçirilməsi cəmiyyətin siyasi sisteminin demokratikləşdirilməsi prosesi ilə qırılmaz surətdə bağlıdır. Bu əlaqə demokratik metodlardan istifadə olunmasını, sosial siyasətin işlənib hazırlanması və həyata keçirilməsi formalarını (aşkarlığa riayət olunmasını, ictimai rəyin nəzərə alınmasını və s.) nəzərdə tutur.

Sosial siyasət dövlət tərəfindən müəyyən edilən sosial tədbirlər və sosial proqram vasitəsilə reallaşır. Sosial proqram bu və ya digər sosial problemlərin həllinə istiqamətlənən sosial tədbirlər sistemidir. Sosial proqramda şəraitin qiymətləndirilməsi, qərar, vəzifələrin həlli mərhələləri, hər mərhələnin reallaşdırılmasının konkret tədbirləri və üsulları müəyyənləşdirilir.

Sosial siyasətin mühüm istiqamətlərindən biri də əhalinin sosial müdafiəsinin təmin edilməsidir. Sosial müdafiə əhalinin dövlətin sosial siyasətinin tərkib hissəsidir. Əhalinin əsasən aztəminatlı təbəqələrinin sosiad müdafiəsinin təmin olunması xüsusilə vacibdir.

**Dövlətin sosial siyasətinin əsas prinsipi sosial ədalət prinsipidir.** Azərbaycan Respublikasında həyata keçirilən tədbirlər, o cümlədən ünvanlı sosial yardımların verilməsi, qaçqınların və məcburi köçkünlərin sosial problemlərinin həlli, əlillərin sosial müdafiəsi ilə bağlı görülən işlər ölkəmizdə sosial müdafiə sisteminin sosial sahədə milli təhlükəsizliyin təmin olunması meyarlarına cavab verdiyini göstərir.

**Azərbaycan Respublikasında yoxsulluğun azaldılması, bununla bağlı dövlət proqramlarının qəbulu, həmçinin açılan yüz minlərlə iş yeri dövlətin uğurlu sosial siyasətinin göstəricisidir.**

Azərbaycan Respublikasında sosial siyasət insan rifahına yönəldilərək, insanın sağlamlığı, mədəni məişət səviy-

yəsinin yüksəldilməsi, kifayət qədər maddi gəlirlərə sahib olmasına xidmət edir. Uğurlu neft strategiyasının həyata keçirilməsi nəticəsində ölkəyə daxil olan gəlirlərin daxili sosial iqtisadi inkişafa yönəldilərək, sosial ədalətlilik prinsipinə əməl olunması şərtilə sosial təbəqələrin rifahına xidmət etməsi sosial sahədə dövlət siyasətinin uğuru olaraq, həmçinin sosial sabitlik şəraiti yaradır, bu da sosial sahədə milli təhlükəsizliyin təminatının əsas şərti kimi çıxış edir.

**Sosial sahədə milli təhlükəsizliyin təmin olunması** milli təhlükəsizliyin təmin olunması sahələrindən biridir. Sosial təhlükəsizlik, şəxslər və sosial qrupların mühüm maraqlarının təmin olunması, onların həyat və sosial fəaliyyət sahəsində həyatı əhəmiyyətli hüquq və azadlıqlara malik olması, həmçinin həmin hüquq və azadlıqların mühafizəsi vəziyyətidir.

Sosial təhlükəsizliyin obyekt və subyektləri, cəmiyyətdə mövcud olan inkişafetmə şərtlərinin təsiri ilə dəyişikliyə məruz qalır. Lakin bu zaman konkret sosial-iqtisadi şəraitdə daha məhdud olan və sosial müdafiəyə ehtiyacı olan sosial təhlükəsizlik sahəsinin əsas obyektlərini də nəzərdən keçirmək lazımdır. Bazar münasibətlərinə keçid şəraitində sosial təhlükəsizliyin ən əsas obyektlərinin sırasına qadınlar, uşaqlar, əlillər və s. daxildir.

Sosial sahədə milli təhlükəsizliyin təmin olunmasında dövlət hakimiyyəti orqanlarının iki əsas funksiyası vardır. Birincisi, qanunla təsbit edilmiş qaydada şəxsiyyətin bütün sosial hüquq və təminatlarına zəmanət vermək, ikincisi sosial münaqişələrin qarşısını almaq. Bir sosial qrup və ya ayrı-ayrı şəxslərin digər birliklərin məhvinə və yaxud onlara zərbə vurmağa yönəlmiş fəaliyyəti cəmiyyətin sosial sabitliyinə təhdid ola bilər.

Sosial təhlükəsizliyə real təhdidlərdən biri yoxsulluqdur. Bu problemi həll etmək məqsədilə dünyanın 70-ə yaxın ölkəsində yoxsulluğun azaldılması strategiyası hazırlanmışdır. 1994-cü ildən etibarən Azərbaycanda da yoxsulluğun azaldılması istiqamətində müəyyən işlər görülməyə baş-



lamışdır. Bu məqsədlə Prezidentin 2 mart 2001-ci il Sərəncamı ilə dövlət komissiyası yaradılmış və ona «Azərbaycan Respublikasında Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramı»nın hazırlanması həvalə edilmişdir. Proqramda yoxsulluğun azaldılması strategiyasının **əsas istiqamətləri** aşağıdakı kimi müəyyənləşdirilmişdir:

- iqtisadi inkişafın sürətləndirilməsi;
- səhiyyə və təhsil xidmətinin keyfiyyətinin artırılması;
- sosial-müdafiə sisteminin təkmilləşdirilməsi;
- qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması.

Sosial sahədə **milli təhlükəsizliyə təhdidlər** aşağıdakı kimi qruplaşdırmaq olar:

- şəxsiyyətin qanuni sosial hüquqlarının (yaşamaq, əmək, təhsil, mənzil və s.) pozulmasından irəli gələn təhdidlər;
- cəmiyyətdə kriminogen vəziyyətin kəskinləşməsi, cinayətkarlığın artması, qanunçuluğun pozulması və s. ilə əlaqədar təhdidlər;
- səhiyyə sisteminin və tibbi xidmət səviyyəsinin aşağı düşməsi, narkomaniya, əyyaşlıq, xroniki və yoluxucu xəstəliklərin artması nəticəsində yaranan təhdidlər.

Sosial sahədə milli təhlükəsizliyin təmin olunması üçün cəmiyyətdə bir çox prinsiplər gözlənilməlidir. Bu prinsiplər aşağıdakılardır:

- ölkənin sosial təhlükəsizliyinin səviyyəsinin şəxsi əmlak və gəlirlərin bölüşdürülməsinin ədalətliliyindən, sosial qrup və insanların hüquq və azadlıqlarının bərabərliyindən asılılığı;
- hər bir vətəndaşın, bütün sosial qrup, təbəqələrin, ictimai-siyasi təşkilatlar və qüvvələrin fəallaşması üçün şəraitin, sosial təhlükəsizliyin təminatında dövlətin aparıcı rolunun qorunması;
- sosial sahənin müstəqilliyinin qorunması və bu sahədə xarici kapitalın rolunun azaldılması;

– konstitusiya və qanunlara uyğun olaraq sosial sahədə milli təhlükəsizliyin təmin olunmasında mənəvi-tərbiyəvi, informativ, siyasi, iqtisadi üsullardan istifadə etməyə üstünlük verilməsi.

Ümumiləşdirsək sosial sahədə milli təhlükəsizliyin təmin olunması **tədbirlərini** aşağıdakı kimi təsnif etmək olar:

– əhalinin yaşayış səviyyəsinin sabitləşməsi;

– sosial müdafiə sisteminin ünvanlı fəaliyyət göstərməsinin təmin edilməsi;

– orta təbəqənin formalaşması və stimullaşdırılması.

– tibbi xidmət səviyyəsinin yüksəldilməsi;

– sosial inkişaf proqramlarının hazırlanması;

– yoxsulluğun aradan qaldırılması;

– sosial siyasətin həyata keçirilməsi zamanı sosial ədalət prinsipinin gözlənilməsi və diskriminasiya hallarına qarşı mübarizə;

– miqrasiya və demoqrafik proseslərin tənzimlənməsi.

## 2. Səhiyyə sahəsində milli təhlükəsizliyin təmin olunması

Sosial sahədə milli təhlükəsizliyin təmin olunmasında **səhiyyə təhlükəsizliyinin** mühüm yeri vardır. İlk növbədə əhaliyə ilkin səhiyyə xidmətinin təşkili vacibdir. İlkin səhiyyə xidməti (İSX) hər bir ölkənin səhiyyə sisteminin mühüm həlqəsidir.

Dünya Səhiyyə Təşkilatının (DST) 1978-ci ildə Alma-Atada təşkil etdiyi İSX həsr olunmuş beynəlxalq konfransda qəbul olunmuş Bəyannamədə İSX-yə aid olan komponentlərin siyahısı verilib. Həmin sənəddə göstərilib:

– geniş yayılmış patoloji vəziyyətlər (patologiyalar) və onların profilaktikası üsulları haqda əhalinin məlumatlılıq səviyyəsinin artırılması;

– ərzaqla adekvat təminata yardım, düzgün və tam qidalanmanın təbliği;



– suyun təhlükəsizliyinin təmin olunması və sanitariya şərtlərinin yaxşılaşdırılması;

– ailə planlaşdırılması da daxil olmaqla ana və uşaq sağlamlığının mühafizəsi;

– əsas yoluxucu xəstəliklərə qarşı immunlaşdırma;

– lokal endemik xəstəliklərə nəzarət və onların profilaktikası;

– geniş yayılmış xəstəliklərin və zədələrin uyğun müalicəsi;

– ən zəruri tibbi preparatla təminat.

DST-nin qəbul etdiyi konsepsiyaya əsasən, İSX xəstənin səhhətinin yaxşılaşdırılmasının, xəstəliklərin qarşısının alınmasının, insanlara vərdiş etdikləri mühitdə uzun müddət təhlükəsiz yaşamaları üçün yardım göstərilməsinin və İSX-nin bütün istiqamətlərinin inteqrasiyasının təmin edilməsini nəzərdə tutur. Bu konsepsiya sağlamlığın qorunması işinə əhalinin geniş cəlb edilməsi və iştirakçılığı yolu ilə birgə fəaliyyətə üstünlük verir.

1997-ci il iyunun 26-da qəbul edilmiş «Əhalinin sağlamlığının qorunması haqqında» Azərbaycan Respublikasının Qanununun 32-ci maddəsində də ilkin tibbi-sanitariya yardımının göstərilməsilə bağlı qaydalar təsbit olunub. Bu maddədə göstərilir ki, ilkin tibbi-sanitariya yardımı hər vətəndaş üçün pulsuz göstərilən tibbi xidmət növüdür. Qanunda bu xidmətə aşağıdakılar şamil edilir:

– geniş yayılmış xəstəliklərin, eləcə də zədələrin, zəhərlənmələrin və digər təxirəsalınmaz yardım tələb edən xəstəliklərin müalicəsi;

– sanitariya-gigiyenik və eksepidemik tədbirlərin keçirilməsi, ictimai təhlükəli xəstəliklərin tibbi profilaktikası;

– ailənin, valideynlərin, uşaqların mühafizəsi və yaşayış yerində tibbi-sanitariya yardımının göstərilməsinə dair digər tədbirlər.

Qanunda göstərilir ki, ilkin tibbi-sanitariya yardımı dövlət səhiyyə sisteminin müəssisələri, eləcə də sanitariya-

epidemioloji xidmət müəssisələri tərəfindən təmin olunur. Həmçinin qeyd olunur ki, qeyri-dövlət səhiyyə sisteminin müəssisələri əhaliyə ilkin tibbi-sanitariya yardımının göstərilməsində iştirak edə bilərlər.

İSX-nin təşkil olunması səviyyəsi, burda göstərilən xidmətlərin keyfiyyəti birbaşa səhiyyə sisteminin uğurlu fəaliyyətinə təsir göstərir. Əgər ölkənin səhiyyə sistemində stasionar tibb müəssisələrinə üstünlük verilmirsə, ilkin səhiyyəyə qeyri-ciddi yanaşılırsa, bu sahəyə büdcədən az vəsait ayrılırsa, onda xəstələnmə halları çoxalır. Bu zaman səhiyyə sisteminin səmərəli fəaliyyətindən danışmaq yersizdir.

İlkin səhiyyə xidməti ilə yanaşı digər səhiyyə sahələrinin inikişafı sosial sahədə milli təhlükəsizliyin təmin olunması üçün mühüm əhəmiyyət kəsb edir.

Əhalinin sağlamlığı milli iqtisadiyyatın və ölkənin milli təhlükəsizliyinin təmin edilməsində həlledici əhəmiyyətə malik olduğundan dövlət buna xüsusi diqqət yetirir və onu qanunla tənzimləyir. 26 iyun 1997-ci il tarixdə «Əhalinin sağlamlığının qorunması haqqında» Azərbaycan Respublikasının Qanunu da bu məqsədlə qəbul olunmuşdur. Burada göstərilir ki, əhalinin sağlamlığının qorunması hər bir insanın fiziki və mənəvi sağlamlığının mühafizəsinə, onun fəal uzun ömürlüyünün artırılmasına, tibbi yardımla təminatına yönəldilmiş siyasi, iqtisadi, hüquqi, elmi, sanitariya-gigiyena xarakterli tədbirlərin məcmusundan ibarətdir.

Bu qanun əhalinin sağlamlığının qorunması sahəsində vətəndaşlara dövlət orqanları, eləcə də dövlət və qeyri-dövlət səhiyyə sistemlərinin subyektləri arasında yaranan münasibətləri tənzimləyir.

Qanunda əhalinin sağlamlığının qorunmasının **əsas prinsipləri** aşağıdakı kimi müəyyən edilmişdir:

– əhalinin sağlamlığının qorunması sahəsində insan və vətəndaş hüquqlarına dövlət təminatı və bu təminatla bağlı hüquqi və fiziki şəxslərin məsuliyyəti;



– əhalinin sağlamlığının qorunması sahəsində profilaktik tədbirlərin həyata keçirilməsi;

– tibbi-sosial yardımın hamı üçün mümkünlüyü;

– sağlamlığın itirilməsi zamanı vətəndaşların sosial müdafiəsi.

Əhalinin sağlamlığının qorunması sahəsində **dövlətin vəzifələri** də sözügedən qanunda öz əksini tapmışdır. Bunlar aşağıdakılardır:

– əhalinin sağlamlığının qorunması sahəsində dövlət siyasətinin əsaslarının müəyyən edilməsi, insan və vətəndaşların hüquq və azadlıqlarının mühafizəsi;

– sağlamlığın qorunması sahəsində dövlət proqramlarının hazırlanması və həyata keçirilməsi;

– səhiyyə sisteminin təşkili qaydalarının və fəaliyyətinin müəyyənləşdirilməsi;

– dövlət səhiyyə sisteminin maliyyələşdirilməsi;

– ətraf mühitin qorunmasının, ekoloji təhlükəsizliyin təmin edilməsi;

– məcburi sığorta üzrə sığorta məbləğinin və sığorta haqqının ödənilməsi qaydasının müəyyənləşdirilməsi;

– dövlət və qeyri-dövlət səhiyyə sistemi müəssisələri arasında sağlam rəqabətin təmin edilməsi;

– ailənin, valideynlərin və uşaqların mühafizəsi;

– səhiyyə sahəsində beynəlxalq əməkdaşlığın həyata keçirilməsi.

Elmi-texniki inqilabın doğurduğu mənfi nəticələrin biri radiaktiv şüaların geniş yayılmasıdır. Bu insanın sağlamlığına mənfi təsir göstərən, şüa xəstəliklərinin geniş yayılmasına səbəb olan və səhiyyə sahəsində təhülkəsizliyin təmin olunmasında problemlər yaradan amildir. İstehsal prosesinin intensivləşdirilməsinin gələcəkdə daha geniş miqyas alması şübhəsizdir. Şüalanma ilə əlaqədar olan xəstəliklərin digər xəstəliklərə nisbətən daha sürətlə artması bunu təsdiq edir. Ona görə də bütün dövlətlər, o cümlədən Azərbaycan

Respublikası elmi-texniki inqilabın və qloballaşma prosesinin doğurduğu şüalanma təhlükəsinin qarşısını almaq üçün lazımi tədbirlər görür. Dövlət hər şeydən əvvəl, əhalinin şüalanma təhlükəsizliyinin hüquq bazasını yaradır və onların reallaşması üçün müxtəlif tədbirlər həyata keçirir. 30 dekabr 1997-ci ildə «Əhalinin radiasiya təhlükəsizliyi haqqında» Azərbaycan Respublikası Qanununun qəbul edilməsi də bu zərurətdən doğmuşdur. Bu qanunun qəbul edilməsi ilə reaktiv şüa mənbələri sahəsində qəzasız fəaliyyətin, əhalinin radiasiya təhlükəsindən qorunması və sağlamlığının mühafizə edilməsinin hüquqi əsasları qoyulmuşdur.

Qanunda radiasiya təhlükəsizliyinin təmin edilməsinin əsas prinsipləri, radiasiya təhlükəsizliyinin təmin edilməsi, radiasiya təhlükəsizliyinin təmin edilməsinə istehsalat nəzarəti problemləri müəyyənləşdirilmiş və onun aradan qaldırılması yolları göstərilmişdir. Prinsiplərə aşağıdakılar daxil edilmişdir:

**Normalaşdırma prinsipi** - əhalinin bütün ionlaşdırıcı şüalanma mənbələrindən aldığı fərdi dozanın miqdarının yolverilən dozadan yüksək olmaması;

**Əsaslandırma prinsipi** - ionlaşdırıcı şüa mənbələrindən istifadə zamanı insan və cəmiyyətə veriləcək fayda təbii radiasiya fonuna əlavə olunan şüalanma dozası nəticəsində yarana bilən zərərin riskindən artıq olmadıqda belə istifadə ilə bağlı bütün fəaliyyət növlərinin qadağan olunması;

**Optimallaşdırma prinsipi** - ionlaşdırıcı şüa mənbələrinin istifadəsi zamanı iqtisadi və sosial amillər nəzərə alınmaqla fərdi şüalanma dozasının və şüalanmaya məruz qalan şəxslərin sayının mümkün qədər aşağı səviyyədə saxlanılması.

Radiasiya qəzası zamanı radiasiya təhlükəsizliyinin təmin olunmasında aşağadakılar əsas götürülməlidir:

– radiasiya qəzasının nəticələrini ləğv etmək üçün nəzərdə tutulan tədbirlər zərərdən çox fayda verməlidir;



– radiasiya qəzasının nəticələrinin ləğvi üzrə fəaliyyətin növləri və miqyası ionlaşdırıcı şüalanma dozasının maksimum azalmasını təmin etməlidir.

– Qanunda radiasiya təhlükəsizliyinin təmin edilməsi üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

– təşkilati-hüquqi, mühəndis-texniki, sanitariya-gigiyena, tibbi-profilaktik, təlimat və təhsil xarakterli tədbirlər kompleksi;

– dövlət və yerli özünüidarə orqanları, ictimai birliklər, hüquqi və fiziki şəxslər tərəfindən radiasiya təhlükəsizliyi sahəsində qayda, norma və normativlərə əməl olunması tədbirləri;

– radiasiya şəraiti və radiasiya təhlükəsizliyi tədbirləri haqqında əhaliyə məlumat verilməsi.

Əhalinin radiasiya təhlükəsizliyinin təmin edilməsində istehsalata nəzarət də mühüm əhəmiyyət kəsb edir. Bununla əlaqədar olaraq dövlət idarəetmə və nəzarətə geniş yer vermişdir. Qanunda göstərilir ki, ionlaşdırıcı şüa mənbələrinin istifadəsi ilə əlaqədar fəaliyyət göstərən müəssisələr və təşkilatlar radiasiya təhlükəsizliyinin təmin edilməsi üçün müntəzəm istehsalat nəzarəti keçirirlər.

İstehsalat nəzarətinin həyata keçirilməsi qaydası hər bir müəssisə və ya təşkilat üçün onun işinin xüsusiyyəti və şəraiti nəzərə alınmaqla təyin edilir və radiasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində müvafiq icra hakimiyyəti orqanları ilə reallaşdırılır.

Radiasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində pozuntular aşkar edildikdə istehsalat nəzarətini həyata keçirən səlahiyyətli şəxslərin pozuntular aradan qaldırılanadək ionlaşdırıcı şüa mənbələri ilə aparılan işləri dayandırmaq hüququ vardır.

Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq ictimai birliklər radiasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində fəaliyyət göstərən müəssisələrdə və təşki-

latlarda norma, qayda və normativlərin yerinə yetirilməsinə ictimai nəzarət etmək hüququna malikdirlər.

Ərzaq, qida məhsulları, onlar üçün xammallar, içməli su, onların emalı, istehsalı, saxlanması, daşınması, satışı (paylanması) və istifadəsi zamanı onlarla təmasda olan material və məmulatlar radiasiya təhlükəsizliyi tələblərinə cavab verməli və bu qanunauyğun olaraq istehsalat nəzarətində olmalıdır. Həmçinin radiasiya təhlükəsizliyi normalarına cavab verməyən sənaye və ərzaq məhsullarının ölkəyə gətirilməsinə yol verilmir.

## 3. Miqrasiya proseslərinin tənzimlənməsinin milli təhlükəsizliyin təmin olunmasında rolu

Miqrasiya proseslərinin tənzimlənməsi ölkənin inkişafı və milli təhlükəsizliyi baxımından mühüm əhəmiyyət kəsb edir. Hazırda dünyada hər 35 nəfərdən biri beynəlxalq miqrantdır. Bu isə 180 mln. nəfərə yaxın, yəni dünya əhalisinin 3%-nə qədər insan deməkdir. Bu rəqəmlər bir daha təsdiq edir ki, miqrasiya dünyanın qloballaşmasının aydın göstəricilərindən biridir və insanların yerdəyişmə proseslərini xarakterizə edir.

Azərbaycan Respublikasında miqrasiya proseslərinin özünəməxsus xüsusiyyətləri vardır. Ermənistanın 1988-1992-ci illərdə planlı şəkildə həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində tarixən həmin ərazidə yaşamış 250 min azərbaycanlı son nəfərədək öz doğma yurdlarından zorla qovularaq Azərbaycana pənah gətirmişdir. Eyni zamanda, 1990-cı ildə Orta Asiyadan didərgin salınmış 50 min nəfərədək məshəti türkü də Azərbaycanda sığınacaq tapmışdır.

Ermənistan silahlı qüvvələrinin 1988-ci ildən başlayaraq ölkəmizə hərbi təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizi - Dağlıq Qarabağın, eləcə də ona bitişik



olan 7 rayonun ərazisi işğal olunmuş, Dağlıq Qarabağdan 60 min, digər ətraf rayonlardan isə 600 mindən çox azərbaycanlı öz daimi yaşayış yerlərindən məhrum olmuşlar.

**Azərbaycan Respublikasında bazar münasibətlərinin inkişafı istiqamətində aparılan iqtisadi islahatlar, dünyanın aparıcı şirkətləri ilə imzalanmış və artıq öz bəhrəsini verməyə başlayan kontraktlar, tarixi «İpək Yolunun» bərpası və Azərbaycanın əlverişli geosiyasi mövqeyi respublikada miqrasiya axınlarının artmasına səbəb olmuşdur.**

Bütün bunlarla yanaşı Xəzər dənizinin səviyyəsinin dəyişməsi, torpaq sürüşmələri, sel və digər təbii fəlakətlərlə, habelə meliorasiya işlərinin həyata keçirilməsi üçün lazımi vəsait və texnikanın olmaması üzündən torpağın şoranlaşması ilə əlaqədar olaraq yaşayış yerlərini dəyişməyə məcbur olan ekoloji miqrantlar, eləcə də kənd rayonlarından əmək qabiliyyətli əhalinin iş yeri tapmaq məqsədilə iri şəhərlərə, xüsusilə Bakıya və onun yerləşdiyi Abşeron yarımadasına axını ilə bağlı sosial-iqtisadi miqrantlardır.

Azərbaycanda, həmçinin İran İslam Respublikasından, Rusiyadan, Əfqanıstandan, İraq Respublikasından olan 11 min nəfərədək qaçqın statusu almaq niyyətində olan və sığınacaq axtaran şəxslər də vardır.

1994-cü ildən başlayaraq ölkə iqtisadiyyatına xarici investisiya axınının başlanması Azərbaycana xarici işçi qüvvəsinin gəlməsi ilə, yeni iqtisadi sistemə keçid və ərazilərin 20%-in işğalından doğan səbəblər nəticəsində isə Azərbaycan vətəndaşlarının xarici ölkələrə işləməyə getməsi ilə müşayiət olunmuş və 1998-ci ildən başlayaraq respublikada əmək miqrasiyası proseslərinin tənzimlənməsi sahəsində nəzərəçarpacaq nəticələr əldə edilmişdir.

Bununla belə, respublika ərazisində müvafiq qanunvericiliyin tələblərinə uyğun olmadan işləyən və ya qalan əcnəbilər - qeyri-qanuni miqrantlar da vardır.

Azərbaycan Respublikasında xarici miqrasiyada əmək miqrasiyasının xüsusi çəkisi daha çoxdur. Ölkə iqtisadiyyatı

inkişaf etdikcə daxili əmək bazarında iştirak edən əcnəbilərin sayı artmaqdadır. Lakin onların dəqiq statistikası mövcud deyil. Çünki xarici firmalara məxsus olan və onların iştirakı ilə yaranan müəssisələrdə işləyən əcnəbilər barəsində rəsmi statistika orqanlarına verilən hesabatlar heç də ölkəmizin əmək bazarında xarici ölkələrdən gələn şəxslərin iştirakına aid məlumatları tam əhatə etmir. Azərbaycan Respublikasında işləyən əcnəbilərin faktiki sayı məlumatlarda göstərilən rəqəmdən dəfələrlə çoxdur.

Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 20 fevral tarixli 854 nömrəli Fərmanı ilə təsdiq edilmiş «2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı»nda nəzərdə tutulmuş «Dövlət Miqrasiya Proqramı»nın hazırlanması üçün, miqrasiya proseslərinin idarə olunması üzrə dövlət siyasətinin müəyyənləşdirilməsinin zəruriliyini nəzərə alaraq 13 iyul 2004-cü ildə 94 nömrəli qərarı ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti «Azərbaycan Respublikasında Miqrasiya üzrə Vahid Dövlət Proqramı»nın hazırlanması üzrə komissiya tərəfindən hazırlanmış və aidiyyəti dövlət orqanları ilə razılaşdırılmış «Azərbaycan Respublikasının Dövlət Miqrasiya İdarəetmə Siyasəti Konsepsiyası»nı təsdiq etmişdir.

Azərbaycan Respublikasında miqrasiya proseslərinin tənzimlənməsinin əsas məqsədini Azərbaycan Respublikasının milli təhlükəsizliyinin və sabit sosial-iqtisadi, demoqrafik inkişafının təmin edilməsi, əmək ehtiyatlarından səmərəli istifadə edilməsi, ölkə ərazisində əhalinin rasional yerləşdirilməsi, Ermənistan-Azərbaycan Dağlıq-Qarabağ münaqişəsinin nizamlanması, qaçqın və məcburi köçkünlərin öz doğma yurdlarına təhlükəsiz şəraitdə və ləyaqətlə qayıtmasının təmin edilməsi, beynəlxalq standartlara uyğun sığınacaq üçün milli müraciət sisteminin yaradılması, miqrantların intellektual və əmək potensialından istifadə, idarə olunmayan miqrasiya proseslərinin neqativ təsirinin aradan qaldırılması, insan ticarəti də daxil olmaqla qeyri-qanuni miqrasiyanın qarşısının alınması, gözlə-



nilməz kütləvi miqrasiyaya səbəb ola biləcək amillərin öyrənilməsi və onların optimal həlli üçün vaxtında kompleks tədbirlərin hazırlanması məsələləri təşkil edir.

Azərbaycan Respublikasında miqrasiya proseslərinin idarə olunması siyasətinin əsas istiqamətləri aşağıdakılardır:

– Azərbaycan Respublikasında miqrasiya proseslərinə nəzarətin təmin edilməsi, qeyri-leqal miqrasiyanın qarşısının alınması;

– qeyri-qanuni miqrantların Azərbaycan Respublikasından çıxarılması və mənşə dövlətlərinə qaytarılması sahəsində tədbirlər görülməsi;

– Azərbaycan Respublikasında miqrasiya proseslərinin idarə olunmasında iştirak edən müvafiq icra hakimiyyəti orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi və bu fəaliyyətin digər aidiyyəti icra hakimiyyəti orqanları ilə əlaqələndirilməsi;

– yoluxucu xəstəliklərin miqrantlar vasitəsilə ölkəyə gətirilməsinin və yayılmasının qarşısının alınması üzrə kompleks proqramlarm hazırlanması və həyata keçirilməsi;

– xarici işçi qüvvəsindən qeyri-qanuni istifadəyə görə mülkiyyət formasından asılı olmayaraq bütün müəssisə və təşkilatların rəhbərlərinin cavabdehliyinin artırılması;

– ölkədən beyin axınının, yüksək ixtisaslı mütəxəssislərin köçməsinin qarşısının alınmasına yönəlmiş həvəsləndirici dövlət tədbirlərinin həyata keçirilməsi;

– vətəndaşların miqrasiya məsələləri ilə bağlı məlumatlandırılmasını təmin edəcək Miqrasiya İnformasiya Mərkəzinin yaradılması;

– ölkənin hər il üçün immiqrasiya, o cümlədən əmək miqrasiyası kvotasının müəyyənləşdirilməsi.

Azərbaycan Respublikasında miqrasiya sahəsində dövlət siyasətinin həyata keçirilməsi, qanunvericiliyin beynəlxalq normalara və müasir dövrün tələblərinə uyğun təkmilləşdirilməsi, qanunların tətbiqində yol verilən nöqsan və sui-istifadələrin aradan qaldırılması, Azərbaycan Res-

publikasının milli təhlükəsizliyinin və sabit sosial-iqtisadi, demoqrafik inkişafının təmin edilməsi, əmək ehtiyatlarından səmərəli istifadə edilməsi, ölkə ərazisində əhalinin mütənasib yerləşdirilməsi, miqrantların intellektual və əmək potensialından istifadə edilməsi, tənzimlənməyən miqrasiya proseslərinin neqativ təsirinin aradan qaldırılması, insan alveri də daxil olmaqla, qeyri-qanuni miqrasiyanın qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 25 iyul 2006-ci il tarixində «Azərbaycan Respublikasının Dövlət Miqrasiya Proqramı» (2006-2008-ci illər) təsdiq edilmişdir. «Azərbaycan Respublikasının Dövlət Miqrasiya Proqramı»nın yerinə yetirilməsinə nəzarət Azərbaycan Respublikası Prezidentinin Adminstrasiyasına və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə həvalə edilmişdir.

Dövlət proqramında miqrasiya sahəsində dövlət siyasətinin prioritet istiqamətləri öz əksini tapmışdır. Dövlət miqrasiya siyasətinin əsas məqsədi Azərbaycan Respublikasının milli təhlükəsizliyini və milli maraqlarını qorumaqla miqrasiya axınlarının tənzimlənməsi, nəzarətsiz miqrasiya proseslərinin neqativ nəticələrinin qarşısının alınması, miqrantların öz hüquqlarını həyata keçirmək üçün şəraitin yaradılmasıdır.

Miqrasiya siyasətinin **əsas vəzifələri** aşağıdakılardır:

– miqrasiya proseslərindən ölkənin inkişafı üçün səmərəli istifadə olunması;

– miqrasiya proqramlarının və tədbirlərinin həyata keçirilməsində dövlətin, cəmiyyətin və insanların mənafelərinə riayət edilməsi;

– qeyri-qanuni miqrasiyanın qarşısının alınması;

– miqrantların mövcud sosial-iqtisadi vəziyyətə adaptasiyasını sürətləndirən şəraitin yaradılması;

– miqrantların hüquqlarının müdafiəsi.

Qeyri-qanuni miqrasiyanın qarşısının alınması Azərbaycan Respublikasının təhlükəsizliyinin təmin edilməsinin



və Azərbaycan vətəndaşlarının maraqlarının müdafiəsinin vacib şərtlərindən biridir.

Miqrasiya nəzarəti sistemi qeyri-qanuni miqrasiya ilə bağlı mövcud vəziyyətə adekvat olmalıdır. Buna görə də miqrasiya prosesləri üzrə idarəetməni təşkil edərkən Azərbaycan Respublikası tərəfindən beynəlxalq öhdəliklərin yerinə yetirilməsinin, insan hüquq və azadlıqlarının müdafiəsinin və dövlətin milli maraqlarının qorunmasının, o cümlədən onun milli təhlükəsizliyinin təmin edilməsinin zəruriliyi nəzərə alınmalıdır.

Qeyri-qanuni miqrasiyanın qarşısının alınması üçün bu problemin həllinə hərtərəfli yanaşma və aidiyyəti dövlət orqanlarının aşağıdakı istiqamətlər üzrə birgə fəaliyyəti zəruridir:

– səmərəli fəaliyyət göstərən vahid miqrasiya nəzarəti sisteminin yaradılması prosesinin sürətləndirilməsi;

– miqrantların qanuni mənafelərinin müdafiəsi ilə yanaşı, Azərbaycan Respublikasının qanunvericiliyini pozmuş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər barəsində tədbirlər görülməsi, o cümlədən onların deportasiyasını nəzərdə tutan qanunvericiliyin təkmilləşdirilməsi;

– həmsərhəd dövlətlərlə müqavilə prosesinin aktivləşdirilməsi və qeyri-qanuni miqrasiya ilə mübarizədə öhdəlikləri və məsuliyyəti nəzərdə tutan müvafiq sazişlərin bağlanması;

– əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin sayı, olma yerləri, məşğulluğu barədə və digər zəruri məlumatları özündə əks etdirən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin vahid uçotu sisteminin formalaşdırılması.

## 4. Demoqrafik sahədə milli təhlükəsizliyin təmin olunması

Demoqrafiya siyasəti nəsillərin normal təkrar istehsalının ardıcıl surətdə həyata keçirilməsinin təmin edilməsinə yö-

nəlmiş iqtisadi, sosial və hüquqi tədbirlər sistemindən ibarət olmaqla, əhalinin bütün sosial-demoqrafik təbəqələrinin köklü mənafelərinə toxunur. Ailə-nikah, doğum, ölüm, təbii artım, adamların sağlamlığının mühafizəsi və möhkəmləndirilməsi, əhalinin məşğulluq və həyat səviyyəsinin yaxşılaşdırılması, ömrünün uzadılması, miqrasiyası və s. bu kimi prosesləri özündə birləşdirən demoqrafiya siyasətində başlıca məqsəd demoqrafik hadisələrə təsir göstərən ən mühüm amilləri nəzərə alaraq, cəmiyyətin və onun hər bir üzvünün mənafeyinə uyğun olan, əhalinin normal təkrar istehsalı prosesini təmin edən şərait yaradılmasına nail olmaqdır.

Ümumilikdə demoqrafik vəziyyətin kəskinləşməsinə təsir edən əsas təhdidlər aşağıdakılardan ibarətdir:

– sosial-iqtisadi böhranla əlaqədar olaraq əhalinin əksər sosial-demoqrafik qruplarından və təbəqələrindən olan hissəsinin yaşayış səviyyəsinin pisləşməsi, onların arasında kəskin fərqlərin mövcud olması;

– sosial infrastruktur sahələrinin son dərəcə zəif inkişaf səviyyəsinin mövcud olması və əhalinin əksəriyyət hissəsinin onların xidmətindən lazımi səviyyədə istifadə etmək imkanının olmaması;

– əhalinin ölüm səviyyəsinin artması,

– ölkə əhalisi arasında xəstəliklərin artması;

– əhali tərəfindən istehlak edilən ərzaq məhsullarının keyfiyyətinə və satışına nəzarətin zəif olması;

– ekoloji tarazlığın pozulmasının sürətlənməsi və ona nəzarətin zəif olması;

– sağlam yaşayış tərzinin ləng formalaşması və onun təbliğinin aşağı səviyyədə olması;

– miqrasiya proseslərinin tənzimlənməməsi;

– demoqrafik inkişaf sahəsində dövlət siyasətinin olmaması.

Bu təhdidlərin nəzərə alınmaması hər bir ölkənin demoqrafik inkişaf vəziyyətinin daha da kəskinləşməsi ilə yanaşı, iqtisadi və sosial demoqrafik vəziyyətin nəzərəçarpacaq dərəcədə dəyişməsinə, dövlət tərəfindən sosial sığortanın və pensiya təminatının maliyyələşdirilməsinin gərginləşməsinə, azuşaqlı ailə modelinin formalaşmasına, gənclər kontingentinin azalmasına və nəticə etibarilə ölkələrin milli təhlükəsizliyinə mənfi təsir edəcəkdir.



Azərbaycan Respublikası Prezidenti 9 dekabr 1999-cu il tarixində «Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyası»nın təsdiq edilməsi haqqında Sərəncam imzalamışdır. Bu Konsepsiya milli maraqlar əsas götürülməklə və 1994-cü ildə Qahirədə keçirilmiş Əhali Sakinliyi və İnkişafı üzrə Beynəlxalq Konfransın Fəaliyyət Proqramı, 1995-ci ildə Kopenhagendə Sosial İnkişaf Naminə Ümumdünya Sammitində və Pekində qadınların vəziyyətinə həsr edilmiş Ümumdünya Konfransında qəbul edilmiş sənədlər nəzərə alınmaqla hazırlanmışdır.

**Demoqrafiya sahəsində dövlət siyasətinin əsas məqsədi demoqrafik proseslərdə yaranmış neqativ meyilləri aradan qaldırmaqla ölkənin uzunmüddətli inkişaf strategiyasına uyğun gələn əhalinin kəmiyyət-keyfiyyət artımını təmin etməkdən ibarətdir.**

Demoqrafiya sahəsində dövlətin əsas vəzifələri aşağıdakılardır:

– əhalinin kəmiyyət-keyfiyyətinə normal təkrar istehsal üçün zəruri olan doğum səviyyəsini təmin edə biləcək hərtərəfli şəraitin yaradılması;

– ölüm səviyyəsinin azaldılması, əhalinin sağlamlığının və həyatının yaxşılaşdırılması hesabına ömür müddətinin uzadılması;

– nikah və boşanma proseslərinin bütünlükdə cəmiyyətin və ayrılıqda hər bir ailənin mənafeyinə uyğun tərzdə nizamlanması;

– ictimai tərəqqinin həm yaxın, həm də uzaq gələcəyə perspektivləri nəzərə alınmaqla miqrasiya proseslərinin tənzimlənməsi;

– respublikanın sosial-iqtisadi, siyasi və demoqrafik mənafelərini rəhbər tutaraq ölkə ərazisində, o cümlədən sərhəd rayonlarında və işğal edilmiş regionlarda əhalinin məskunlaşmasının yaxşılaşdırılması və demoqrafik potensialının artırılması üçün şəraitin yaradılması;

– ailə institutunun mənəvi-əxlaqi dəyərlərinin təbliği və mübadiləsi, sağlam həyat tərzinin formalaşdırılmasının normalara uyğun tənzimlənməsi.

Demoqrafiya sahəsində **dövlət siyasətinin əsas prinsipləri** aşağıdakılardır:

– demoqrafiya siyasətinin respublika vətəndaşlarının hüquq və azadlıqlarının təmin edilməsinə tam uyğun şəkildə qurulması və hər kəsin millətindən, irqindən, cinsindən, yaşından, dini etiqadından, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən siyasi və digər əqidəsindən asılı olmadan həyata keçirilməsi;

– sabitlik və uzunmüddətlilik - demoqrafik siyasətin sabit və məqsədyönlü olub uzun müddəti əhatə etməsi;

– sosial ədalətlilik - bütün sosial-demoqrafik qruplardan və təbəqələrdən olan əhalinin (qadınların, kişilərin, gənclərin, pensiyaçıların, əlillərin, qocaların, qaçqın və məcburi köçkünlərin və s.) mənafelərinin qorunması;

– komplekslilik - görülən tədbirlərin ayrı-ayrılıqda deyil, sistem halında, maksimum mümkün olan demoqrafik nəticələr almaq məqsədi ilə demoqrafik inkişaf proqramının həyata keçirilən digər proqramlarla qarşılıqlı əlaqə və asılılıqda həyata keçirilməsi (təhsil, səhiyyə, miqrasiya, məşğulluq, məhsuldar qüvvələrin yerləşdirilməsi, ətraf mühitin mühafizəsi və s.);

– elmilik - demoqrafiya siyasətinin elmi əsaslar üzərində qurulması;



– təhsil, məşğulluq və tibbi xidmət, o cümlədən cinsi və reproduktiv sağlamlığın və ailənin planlaşdırılması sahələrində cinslər arasında bərabərliyin bərqərar olmasına yardım edilməsi;

– Azərbaycan Respublikasında ekoloji cəhətdən təhlükəsiz və sabit iqtisadi inkişafın təmin edilməsi;

– ölkənin sosial-iqtisadi inkişafının həm bugünkü, həm də gələcək nəslin hərtərəfli inkişafına yönəlməsinin təmin edilməsi.

Demoqrafiya sahəsində **dövlət siyasətinin milli prioritetləri** aşağıdakılardan ibarətdir:

– əhalinin, xüsusilə ana və uşaqların, əmək qabiliyyətli yaşında olanların ölüm səviyyəsinin ardıcıl surətdə azaldılması yolu ilə cinslər və yaşlar üzrə ömür müddətinin uzadılması;

– aztəminatlı uşaqlı ailələrə, əlillərə, qaçqın və məcburi köçkünlərə ünvanlı sosial yardımın göstərilməsi;

– əhalinin bütün sosial-demoqrafik qrupları və təbəqələri üçün sağlam həyat tərzinin təmin edilməsi;

– ana və uşaqların sosial müdafiəsi və mühafizəsinin gücləndirilməsi;

– əhalinin sağlamlığının və həyatının yaxşılaşdırılması (qida məhsullarının keyfiyyətinin yaxşılaşdırılması, suyun, havanın çirklənməsinin qarşısının alınması, ətraf mühitin sağlamlaşdırılması, yoluxucu və cinsi yolla keçən xəstəliklərin qarşısının alınması və tədricən ləğv edilməsi və s.);

– əhalinin reproduktiv sağlamlığının yaxşılaşdırılmasına yönəldilmiş tədbirlərin həyata keçirilməsi, ailənin planlaşdırılması xidmətinin inkişafı və bu barədə əhalinin məlumatlandırılması və məlumat almalarının təmin edilməsi;

– tam məhsuldar və dəyərli həyat tərzinin təmin edilməsi məqsədi ilə təhsil və məşğulluq sisteminin inkişaf etdirilməsi;

– aztəminatlı əhaliyə, o cümlədən çoxuşaqlı ailələrə, əlillərə, qaçqın və məcburi köçkünlərə və s. pulsuz səhiyyə xidmətinin göstərilməsi;

– əhalinin demoqrafiya sahəsində biliklərinin yüksəldilməsi, təhsil müəssisələrində demoqrafiyanın tədris olunması və demoqrafiya sahəsində elmi tədqiqat işlərinin genişləndirilməsi;

– miqrasiya proseslərinin tənzimlənməsi.

11 noyabr 2004-cü il tarixində «Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı»nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti Sərəncam imzalamışdır. Dövlət Proqramının icrasının əlaqələndirilməsi Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tapşırılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 23 iyun tarixli 1264 nömrəli Sərəncamına uyğun olaraq hazırlanmış «Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı» ölkədə mövcud demoqrafik proseslərin təhlili əsasında bu sahənin gələcək inkişaf istiqamətlərini və həyata keçirilməli olan zəruri tədbirləri özündə əks etdirir. Onun əsas məqsədi əhalinin optimal təkrar istehsalına nail olmaq, ölüm səviyyəsini azaltmaq, orta ömür uzunluğunu artırmaq, ana və uşaqların müdafiəsini gücləndirmək, ailələrin inkişafı üçün əlverişli sosial-iqtisadi zəmin yaratmaq və miqrasiya proseslərinin tənzimlənməsi yollarını müəyyən etməkdən ibarətdir.

Dövlət Proqramı ölkədə demoqrafiya və əhali sakinliyi inkişafının ortamüddətli strategiyasını müəyyənləşdirməklə Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafına dair qəbul edilmiş digər dövlət proqramları ilə əlaqəli şəkildə həyata keçirilir.

Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlər müvafiq dövlət orqanlarının daxili maliyyə imkanları hesabına



həyata keçiriləcəkdir. Bu işin yerinə yetirilməsinə, eyni zamanda, donor təşkilatları, BMT-nin müvafiq strukturları, o cümlədən Əhali Sakinliyi Fondu da cəlb edilir.

Azərbaycanda doğum səviyyəsinin optimallaşdırılması kütləvi orta uşaqlığın stimullaşdırılmasını, ailə planlaşdırılmasının təkmilləşdirilməsini, səhiyyə müəssisələrinin madditexniki bazasının möhkəmləndirilməsini tələb edir. Bundan irəli gələrək, analıq və uşaqlığın müdafiəsi sahəsində əsasən aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

– ixtisaslaşdırılmış mama-ginekoloji və pediatrik yardım sisteminin inkişafı;

– yetkinlik yaşına çatmış qızlara, bütün yaş qruplarından olan xəstə uşaqlara mütəmadi həkim nəzarətinin göstərilməsi və onların reabilitasiyası;

– ailədə əlverişli mənəvi-psixoloji mühitin formalaşması;

– yeni doğulmuş və bir yaşa qədər uşaqlar üçün müvafiq ixtisaslaşdırılmış şöbələrin yaradılması;

– uşaqların səmərəli qidalanmasının təşkili.

Həmçinin gənc ailə və nikahlar sahəsində əsas tədbirlər ailənin möhkəmləndirilməsi, xüsusən də gənc ailələrə uşaqların tərbiyəsində, gənclərin sosial və iqtisadi fəallığının yüksəlməsində, ailənin psixofiziki, sosial funksiyalarının yerinə yetirilməsində dövlət köməyinin artırılması kimi istiqamətləri əhatə edir.

Gənc ailənin və nikahların möhkəmləndirilməsi məqsədilə onların həyat və əmək şəraitinin, xüsusən mənzil və məişət şəraitinin, maddi rifahının yaxşılaşdırılması, gənclərin nikaha hazırlıq prosesinin inkişafı, gənc ailələrin asudə vaxtının və istirahətinin təşkili və bu sahələrlə bağlı iqtisadi, sosial, təşkilati, inzibati-hüquq və təbliğat məsələləri üzrə konkret tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

Ailənin möhkəmləndirilməsi, fiziki cəhətdən sağlam və harmonik inkişaf edən uşaqların doğulması, tərbiyə edil-

məsi və s. üçün qadınların iş və məişət şəraitinin yaxşılaşdırılmasını əhatə edən tədbirlər müəyyən edilmişdir.

Azərbaycan Respublikasında əhalinin sağlamlığının möhkəmləndirilməsinə və ömür müddətinin uzadılmasına nail olmaq məqsədilə ürək-damar, onkoloji, pulmonoloji, endokrinoloji, yoluxucu və digər daha çox yayılmış xəstəliklərin qarşısını almaq üçün profilaktik tədbirlər, ayrı-ayrı xəstəliklər, bədbəxt hadisə, zəhərlənmə və zədələnmələr nəticəsində əlillik və ölüm hallarının azaldılması tədbirləri, səhiyyə təşkilatlarının maddi-texniki bazasının möhkəmləndirilməsi, sanatoriya-profilaktoriya şəbəkəsinin inkişafı və əhaliyə göstərilən tibbi yardımın səviyyəsinin yüksəldilməsi, ətraf mühitin mühafizəsi, əmək şəraitinin və mühafizəsinin yaxşılaşdırılması, əhali arasında sağlam həyat tərzinin və aktiv fiziki istirahətin yayılması üzrə konkret tədbirlər planlaşdırılır.

Əhalinin sağlamlığının möhkəmləndirilməsini və ömrünün uzadılmasını təmin etmək məqsədilə ahıl yaşda olan insanların aktiv həyat fəaliyyəti müddətinin uzadılması ilə bağlı tədbirlər də həyata keçirilməlidir.

Ölkədə islahatların daha da dərinləşdirilməsi iqtisadi və sosial sahələrin inkişafına yeni təkan verəcək və demoqrafik proseslərin bütün istiqamətlərində, o cümlədən müasir tələblərə uyğun miqrasiya sisteminin formalaşmasında və idarə edilməsində mühüm rol oynayacaqdır. Bunun üçün müvafiq tədbirlərin hazırlanması və həyata keçirilməsi nəzərdə tutulur.



# VIII FƏSİL

## Hərbi sahədə milli təhlükəsizliyin təmin olunması

1. **Hərbi siyasət və onun əsas istiqamətləri**
2. **«Azərbaycan Respublikasının Hərbi Doktrinası»nın ümumi səciyyəsi**
3. **Azərbaycan Respublikasının hərbi sahədə milli maraqları və milli təhlükəsizliyinə təhdidlər**
4. **Hərbi sahədə milli təhlükəsizliyin təmin olunması tədbirləri**
5. **Dövlət sərhədlərinin təhlükəsizliyinin təmin olunması**
6. **Ordunun şəxsi heyətinin ideya-siyasi və psixoloji hazırlığı**

## 1. Hərbi siyasət və onun əsas istiqamətləri

Hərbi siyasət dövlət siyasətinin tərkib hissəsi olub, çox mühüm əhəmiyyətə malikdir. Müxtəlif rejimlərdə hərbi siyasətin özünəməxsus yeri və rolu vardır. Demokratik rejimlərdə hərbi siyasət təcavüzkar deyil, mütərəqqi xarakter daşıyır, işğalçılıq, təcavüzkarlıq planlarının həyata keçirilməsi məqsədi güdmür, ölkənin milli maraqlarının qoruyucusu, təminatçısı rolunda çıxış edir. Totalitar rejimdən fərqli olaraq demokratik cəmiyyətdə silahlı qüvvələr üzərində mülki nəzarət mövcuddur. Ordu mülki siyasi hakimiyyətə tam tabedir. Burada ordu totalitar, despotik rejimlərdə olduğu kimi, hakimiyyəti saxlamaq üçün vasitə deyil, dövlətin konstitusiyası və qanunlarına tabedir.

Hərbi sahədə potensial və mövcud imkanlar istənilən maraqların həyata keçməsi üçün zəmindir. Onlar əsas etibarilə iqtisadiyyatın mövcud vəziyyəti, əhalinin kəmiyyət və keyfiyyət göstəriciləri, elmi-texniki nailiyyətlərin göstəricisi, silahlı qüvvələrin, hərbi gücün kəmiyyət və keyfiyyəti ilə müəyyən olunur. Hərbi güc daha geniş anlayışdır. O, dövlət daxilində və xaricində müəyyən hərbi siyasi məqsədlərə nail olmaq üçün istifadə edilən cəmiyyətin maddi və mənəvi imkanlarının məcmusunu bildirir. Hərbi güc strukturunda hərbi potensial mühüm yer tutur. Hərbi potensial dövlətin silahlı qüvvələrinin saxlanılması və təkmilləşdirilməsi, onların döyüş gücünün və döyüş qabiliyyətinin yüksəldilməsi, təhsilli kadrlarla təminatı, müasir silahlarla hərbi texnika ilə təchiz imkanlarını bildirir.

Hərbi siyasət siyasi sistemin möhkəmləndirilməsi, müharibələrin qarşısının alınması, milli təhlükəsizliyin və həyati əhəmiyyətli maraqların təmin edilməsi, onların qorunmasında əsas, zəruri vasitədir. Lakin ordunun siyasi məqsədlərlə istifadəsi cəmiyyət həyatında qeyri-sabitliyə gətirib çıxarmaqla, ölkənin müdafiə gücünü zəiflədir. Siyasi təsirlər ordu da parçalanmaya səbəb olur və ordunun bütövlüyünü təhlükə altına alır.



Beləliklə, **hərbi siyasət dövlətin ümumi siyasətinin tərkib hissəsi olub, ölkənin milli maraqlarını təmin etmək üçün hərbi güc vasitələrinin hazırlanması və tətbiqidir.** O, ikili təbiətə malikdir. Onun daxili təbiəti hərbi zor vasitələrinin yaradılması və cəmiyyətdəki münaqişələrin həll edilməsində mümkün istifadəsi ilə bağlıdırsa, xarici təbiəti beynəlxalq münasibətlərdə güc vasitələrinin tətbiqini bildirir.

**Hərbi siyasətin subyektləri** ali qanunverici və icraedici hakimiyyət, hərbi orqanlar, hərbi siyasi ittifaqlardır. Hərbi siyasətin obyektləri kimi dövlətin hərbi gücünü, potensialını formalaşdıran ictimai həyatın bütün sahələri – iqtisadiyyat, sosial strukturlar, elm, texnika, milli şüur və s. çıxış edir. Dövlətin xarakterindən asılı olaraq hərbi siyasət militarist, irticaçı, sülhsevər, müdafiə xarakterli ola bilər.

Hərbi siyasətin strukturuna aşağıdakı elementlər daxildir:

- İdeya və prinsiplərin məcmusu olan hərbi doktrinalar;
- Hərbi-siyasi qərarlar, planlar;
- Praktiki hərəkətlər.

**Hərbi doktrinalar** ideya və prinsiplərin məcmusu kimi ölkənin ali siyasi orqanları və hərbi rəhbərliyi tərəfindən işlənib hazırlanır. Hərbi doktrinanın siyasi, iqtisadi, hərbi, texniki əsasları hərbi-siyasi təcrübənin elmi təhlili əsasında formalaşır. Orada bütün incəliklər və reallıqlar nəzərə alınır. Hərbi doktrina hərbi quruculuğun istiqamətini, ölkənin və silahlı qüvvələrin müharibəyə hazırlığını, müharibənin aparılması üsullarını və formalarını müəyyən edən rəsmi baxışlar və müddəalar sistemidir. Bu sənəd ölkənin və silahlı qüvvələrin müharibəyə hazırlanması sistemi olaraq dövlətin

siyasi rəhbərliyi tərəfindən tərtib olunur. Hərbi doktrinanın əsas müddəaları dövlətin siyasi-ictimai quruluşunun xarakteri, iqtisadi inkişaf və müharibə aparılması vasitələrinin səviyyəsi, ölkənin coğrafi mövqeyi və real düşmənin vəziyyəti barədə baxışlardan ibarətdir. Hərbi doktrina iki, bir-biri ilə sıx əlaqəli tərəfləri birləşdirir. Bunlar sosial-siyasi və hərbi-texniki tərəflərdir. Sosial-siyasi tərəf gələcək müharibədə metodoloji, iqtisadi, sosial və hüquqi əsasda qarşıya qoyulan məqsədlərə çatmaq xarakteri daşıyır. Hərbi-texniki tərəf isə sosial-siyasi tərəflə birgə hərbi əməliyyatlarda silahlı qüvvələrdən istifadə məsələlərini əks etdirir. Hərbi doktrina həmçinin milli təhlükəsizliyin qorunması istiqamətində dövlətlərarası münasibətlərin aspektlərini idarə edir. Bu səbəbdən bu və ya digər dövlətin hərbi doktrinasının məzmunu onun qonşuları üçün həmişə maraq doğurub. Son illər ərzində isə bu maraq bir sıra səbəblər üzündən fövqəladə şəkildə kəskinləşib.

Hərbi siyasətin çətin məsuliyyətli elementlərindən biri də **hərbi siyasi qərarlar və planlardır.** Bu elementlər şəraitdən asılı olaraq dəyişkən və dinamikdir. Bu, ilk növbədə, dünyadakı proseslərin mürəkkəbliyi ilə bağlıdır. Həmin elementlər hərbi doktrinanın müddəalarına cavab verməklə yanaşı, konkret vəziyyəti də nəzərə almalıdır.

Hərbi siyasətin **praktiki hərəkətlər sisteminin elementlərinə** aşağıdakılar aiddir :

– silahlı qüvvələrin quruculuğu prosesinə rəhbərlik. Hərbi quruculuq prosesi hərbi potensialla, onun maddi və mənəvi əsaslarının yaradılması ilə bağlıdır.

– başqa dövlətlərlə hərbi-siyasi münasibətlərin nizama salınması. Hərbi-siyasi münasibətlərə sərhəd məsələlərinin nizama salınması, silahların ixtisarı və nəzarəti, hərbi problemlərin əlaqələndirilməsi, hərbi təlimlərlə, məişətlə qarşılıqlı tanışlıq və s. daxildir.



– ölkə daxilində və xaricində müxtəlif xarakterli hərbi-siyasi rəhbərlik dedikdə, müharibənin aparılması və ya qarşısının alınması, təcavüzkarın geri oturdulması, daxili vəziyyətin sabitləşməsi başa düşülür. Əlbəttə ki, burada hərbi gücdən istifadə edilir.

Hərbi siyasət dövlətlərin təhlükəsizliyinin təmini rolunda çıxış edir. Son olaraq onu deyə bilərik ik, hərbi siyasət hərbi sistemin möhkəmləndirilməsi, müharibələrin qarşısının alınması, milli təhlükəsizliyin və həyati əhəmiyyətli maraqların təmin edilməsi, onların qorunmasında əsas, zəruri vasitə olaraq qalır.

Azərbaycan Respublikasının **milli müdafiə siyasətinin istiqamətləri** «Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası»nda aşağıdakı kimi ifadə olunmuşdur:

– bütün ölkələrlə dinc yanaşı yaşama;

– digər dövlətlərin suverenliyinə və müstəqilliyinə hörmət və onların daxili işlərinə qarışmama;

– mövcud dövlət sərhədlərinin bütövlüyü və onların dəyişməzliyi;

– beynəlxalq təhlükəsizliyin möhkəmləndirilməsi;

– hərbi quruculuqda konkret qüvvələr nisbətini nəzərə almaqla zəruri müdafiə kifayətliliyi məfhumunun dəstəklənməsi.

Tarixi keçmişini, təhlükəsizlik vəziyyətini, demokratik dövlət quruculuğunun əsas vəzifələrini və ərazisinin bir hissəsinin Ermənistan tərəfindən işğal olunması faktını nəzərə alan Azərbaycan Respublikasının apardığı **milli müdafiə siyasətinin əsas məqsədləri** aşağıdakılardan ibarətdir:

– Azərbaycan Respublikasının müstəqilliyinin, suverenliyinin qorunması, ərazi bütövlüyünün bərpa edilməsi və bütün əraziləri üzərində nəzarətin təmin olunması;

– xarici hərbi təcavüzün qarşısının alınması və dəf edilməsi üçün Azərbaycan Respublikası silahlı qüvvələrinin döyüşə və səfərbərliyə hazırlıq səviyyəsində saxlanılması;

– NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramının müvafiq mexanizmlərində iştirakının davam etdirilməsi, NATO dövlətləri və digər tərəfdaş ölkələrlə qarşılıqlı faydalı əsaslara söykənən ikitərəfli və çoxtərəfli hərbi əməkdaşlığın həyata keçirilməsi;

– Azərbaycan Respublikasının müdafiə sahəsində üzərinə götürdüyü beynəlxalq hüquq öhdəliklərinin yerinə yetirilməsi;

– müvafiq tədbirlərin həyata keçirilməsi yolu ilə beynəlxalq təhlükəsizliyə töhfə.

Azərbaycan Respublikasının müdafiə siyasəti aşağıdakı prinsiplərə əsaslanır:

– Azərbaycan Respublikasının silahlı qüvvələri və qanunvericilikdə nəzərdə tutulan başqa silahlı birləşmələrlə mərkəzləşdirilmiş rəhbərliyin vəhdəti və bu fəaliyyətə demokratik nəzarətin təmin olunması;

– Azərbaycan Respublikasının təhlükəsizliyinin təmin olunması sisteminə qarşı hərbi təhdidlərin vaxtında aşkarlanması və qiymətləndirilməsi;

– hərbi sahədə milli təhlükəsizliyin təmin olunması üçün qüvvə, vasitə və ehtiyatların zəruri kifayətliliyi, onların müvafiq planlaşdırılması və istifadəsi.

## 2. «Azərbaycan Respublikasının Hərbi Doktrinası»nın ümumi səciyyəsi

**«Azərbaycan Respublikasının Hərbi doktrinası» Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən bünövrəsi qoyulmuş Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təminatı strategiyasının tərkib hissəsi olaraq, insanın, cəmiyyətin və dövlətin hüquq və mənafelərinin daxili və xarici hərbi və digər təhdidlərdən qorunmasına yönəlmiş**



**hərbi təhlükəsizlik sisteminin konseptual əsasını müəyyənləşdirən sənəddir.**

Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasətinin tərkib hissələrindən biri hərbi sahədə və digər sahələrdə milli maraqların təmin edilməsinə yönəlmiş Azərbaycan Respublikasının müdafiə siyasətidir.

Hərbi doktrina hərbi təhlükəsizliyə təhdidlərin vaxtında aşkarlanması, təhlil edilməsi, qiymətləndirilməsi, qarşısının alınması, onlara yetərli müqavimətin göstərilməsi, dövlətin, əhalinin və ərazinin müdafiəyə hazırlanması, səmərəli hərbi təhlükəsizlik sisteminin yaradılması, müharibə və silahlı münaqişələrin qarşısının alınması, silahlı təcavüzün dəf edilməsi ilə bağlı məsələlərə dair Azərbaycan Respublikasının mövqeyini əks etdirir.

Hərbi doktrinanın hüquqi əsasını Azərbaycan Respublikasının Konstitusiyası, qanunları və digər normativ-hüquqi aktları, «Azərbaycan Respublikasının Milli təhlükəsizlik Konsepsiyası», milli təhlükəsizlik sahəsində digər konseptual sənədlər, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr təşkil edir.

**Azərbaycan Respublikasının təhlükəsizlik mühiti qlobal və regional səviyyələrdə hazırda mövcud olan və gələcəkdə meydana çıxa biləcək müxtəlif qarşılıqlı əlaqəli amillərlə müəyyən edilir.** Milli təhlükəsizlik konsepsiyasında əks olunmuş müasir meyillər real və potensial təhdidlərin, o cümlədən hərbi sahədə milli təhlükəsizliyə təhdid və risklərin spektrini formalaşdırır, dövlət və yerli özünüidarəetmə orqanları, Silahlı Qüvvələr və başqa silahlı birləşmələr tərəfindən onların qabaqlanması, zərərsizləşdirilməsi və aradan qaldırılması üzrə fəaliyyətin xarakterinə təsir göstərir.

Azərbaycan Respublikasının yerləşdiyi regionun təhlükəsizlik mühitinə aşağıdakı amillər təsir edir:

– siyasi, hərbi, iqtisadi və sosial xarakterli ziddiyyətlərin təsiri altında regiondakı geosiyasi vəziyyətin qeyri-sabitliyi;

– hərbi-siyasi xarakterli, o cümlədən təcavüzkar separatizmlə şərtlənən həll olunmamış münaqişələrin mövcudluğu;

– regiondakı münaqişələrin iqtisadi maraqlara mənfi təsirinin artması, o cümlədən region dövlətlərinin ərazisindən keçən enerji və nəqliyyat infrastrukturunu təhlükə altına qoyması.

Azərbaycan Respublikasının müdafiə siyasəti dövlətin hərbi təhlükəsizliyini təmin etmək məqsədi ilə hərbi, siyasi, iqtisadi və sosial tədbirlər əsasında formalaşır və Azərbaycan Respublikasının milli maraqlarının həyata keçirilməsi üçün əlverişli daxili və xarici şəraitin yaradılmasına xidmət edir.

Azərbaycan Respublikasının müdafiə siyasəti qeyri-hərbi xarakterli tədbirlərin (qonşu və digər dövlətlərlə dostluq, tərəfdaşlıq və ya müttəfiqlik münasibətlərinin qurulması, inkişafı və möhkəmləndirilməsi) döyüşə hazır müdafiə potensialının qorunub-saxlanması, inkişaf etdirilməsi, eləcə də milli təhlükəsizliyə qarşı hərbi və digər təhdidlərin aşkarlanması, qabaqlanması, qarşısının alınması, məhdudlaşdırılması və zərərsizləşdirilməsinə yönəlmişdir.

Müdafiə siyasəti regiondakı hərbi-siyasi şəraitin və onun inkişaf meyillərinin sistemli təhlilinə, Azərbaycan Respublikasına qarşı real və potensial hərbi təhdidlərin kompleks qiymətləndirilməsinə əsaslanır və hərbi təhlükəsizliyin təmin edilməsi üçün obyektiv tələbatları və real imkanları, eləcə də ölkənin coğrafi mövqeyini və ərazinin landşaftını nəzərə alır.

Azərbaycan Respublikası müdafiə siyasətini formalaşdıraraq və həyata keçirərək:

– beynəlxalq hüququn norma və prinsiplərinə riayət edir;

– bütün dövlətlərlə dinc yanaşı yaşamağa səy göstərir;



– beynəlxalq münasibətlərdə bərabərhüquqlu tərəfdaşlıq, qarşılıqlı faydalı əməkdaşlıq və mehriban qonşuluq prinsiplərinin bərqərar olunmasına çalışır;

– təcavüzə məruz qaldığı, habelə beynəlxalq-hüquqi öhdəliklərindən irəli gələn hallar istisna olmaqla, heç bir dövlətə qarşı hərbi əməliyyatlara başlamır;

– başqa dövlətlərin müstəqilliyinə qəsd vasitəsi və beynəlxalq münaqişələrin həlli üsulu kimi müharibəni rədd edir;

– işğalın nəticələrini rəsmiləşdirmək məqsədi ilə Ermənistan Respublikasına və işğal etdiyi Azərbaycan ərazilərində qurduğu separatçı rejimə hər hansı siyasi, hərbi, iqtisadi və digər dəstəyi Azərbaycan Respublikasına qarşı əməl kimi qiymətləndirir;

– Ermənistan Respublikasının Azərbaycan Respublikası ərazisinin bir hissəsini işğal altında saxlaması və problemin siyasi yolla tənzimlənməsi çərçivəsində işğal etdiyi əraziləri azad etməkdən imtina etməsi səbəbindən beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, ərazi bütövlüyünü bərpa etmək məqsədi ilə hərbi güc daxil olmaqla bütün lazımi vasitələrdən istifadə etmək hüququnu özündə saxlayır.

Azərbaycan Respublikası tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallar istisna olmaqla, öz ərazisində xarici hərbi bazaların yerləşdirilməsinə yol vermir. Bununla belə, hərbi-siyasi şəraitdə əsaslı dəyişikliklər baş verdiyi təqdirdə, Azərbaycan Respublikası öz ərazisində xarici hərbi bazaların yerləşdirilməsinə, yaxud digər formada xarici hərbi iştirakın yer almasına müvəqqəti icazə vermək hüququnu özündə saxlayır.

**Azərbaycan Respublikasının hərbi təhlükəsizliyinin təmin edilməsinə öz səlahiyyətləri çərçivəsində cavabdeh olan və müdafiə siyasətinin formalaşdırılması və həyata keçirilməsində iştirak edən dövlət orqanları, Silahlı Qüvvələr və başqa**

**silahlı birləşmələr, digər aidiyyəti qurumlar hərbi təhlükəsizlik sistemini təşkil edirlər.**

Azərbaycan Respublikasının dövlət orqanlarının, Silahlı Qüvvələrinin və başqa silahlı birləşmələrinin, digər aidiyyəti qurumlarının hərbi təhlükəsizliyin təmin edilməsi ilə bağlı səlahiyyətləri Azərbaycan Respublikasının Konstitusiyası, qanunları və digər normativ-hüquqi aktları ilə müəyyən edilir.

Hərbi təhlükəsizliyin təmin edilməsi sahəsində tədbirlər və vəzifələr Azərbaycan Respublikasının bütün qüvvə, vasitə və ehtiyatları ilə həyata keçirilir.

Müdafiə siyasətini təşkil edən, dövlət və yerli özünüidarəetmə orqanlarının qanunvericilikdə nəzərdə tutulmuş səlahiyyətləri çərçivəsində həyata keçirilən əsas tədbirlər, habelə Silahlı Qüvvələr və başqa silahlı birləşmələrin qarşısında qoyulan vəzifələr, səfərbərliyin səviyyəsi, döyüş hazırlığı dərəcəsi **«dinc dövr», «real təhdid dövrü» və «müharibə (silahlı münaqişə) dövrü» adlanan üç şərti təhlükəsizlik şəraiti** əsasında müəyyənləşdirilir.

Azərbaycan Respublikası ərazisinin bir hissəsinin Ermənistan Respublikası tərəfindən işğal altında saxlanılması Azərbaycanın milli təhlükəsizliyinə əsas hərbi təhdid mənbəyi olaraq qalmaqdadır. Bu təhdidlə bağlı hərbi fəaliyyətin təzələnməsinin mümkün variantları aşağıdakılardır:

– Ermənistan Respublikası tərəfindən fəal silahlı təcavüz fazasının qəsdən təzələnməsi;

– silahlı münaqişənin idarəolunmaz dərəcədə genişlənməsi - atəşkəs xəttindəki lokal toqquşmaların böyüyüb, daha genişmiqyaslı döyüş əməliyyatlarına çevrilməsi;

– Ermənistan Respublikasının Azərbaycanın ərazisinin bir hissəsini işğal altında saxlaması və işğal etdiyi torpaqları problemin siyasi yolla tənzimlənməsi çərçivəsində könüllü azad etməkdən daim imtina etməsi səbəbindən Azərbaycan Respublikası tərəfindən beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq öz ərazi bütövlüyünü bərpa etmək məqsədi ilə məcburən hərbi gücün tətbiq edilməsi.



Azərbaycan Respublikası öz təhlükəsizlik mühitini, real, potensial hərbi təhdidləri, eləcə də ümumi hərbi-strateji vəziyyəti qiymətləndirərək, ölkənin mövcud resurs və potensialını nəzərə alaraq, Silahlı Qüvvələrin, habelə başqa silahlı birləşmələrin müasir şəraitdə hərbi təhlükəsizliyin təmin edilməsi üzrə bütün kompleks məsələlərin həllinə maksimal dərəcədə uyğunlaşdırılmış strukturunu formalaşdırır və inkişaf etdirir.

Silahlı Qüvvələr və başqa silahlı birləşmələr aşağıdakı prinsiplər əsasında qurulur:

– Azərbaycan Respublikasının suverenliyinin, ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığının və milli maraqlarının silahlı müdafiəsi, dövlətə qarşı silahlı təcavüzün qarşısının səmərəli alınması və dəf edilməsi üçün zəruri hərbi qabiliyyətin yaradılması və saxlanılması;

– Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanının nəzarəti altında olmaqla hərbi rəhbərliyin mərkəzləşdirilməsi və vahidliyi;

– daimi və dəyişkən geosiyasi amillərin, regiondakı hərbi-siyasi vəziyyətin mövcud durumunun və inkişaf perspektivlərinin, ölkənin coğrafi mövqeyinin və ərazi landşaftının nəzərə alınması;

– Azərbaycan Respublikasının tarixi təcrübəsindən və dünyanın müasir hərbi quruculuq təcrübəsindən səmərəli istifadə edilməsi;

– qarışıq (könüllü və çağırış üzrə) sistemə uyğun olaraq komplektləşdirmə;

– daim döyüşə və səfərbərliyə hazır vəziyyətin saxlanılması;

– strukturun, döyüş heyətinin, say tərkibinin, texniki təchizatın və səfərbərlik resurslarının səmərəli yetərliyə uyğun olması;

– hərbi qulluqçuların, Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin strukturlarında qulluq edən mülki şəxslərin hüquq və azadlıqlarının təminatı, onların sosial müdafiəsinin və həyat səviyyəsinin təmin edilməsi;

– hərbi qulluqçuların ictimai-siyasi təşkilatların fəaliyyətində iştirakının yolverilməzliyi.

Hərbi təhlükəsizliyin təmin edilməsi üzrə vəzifələr Silahlı Qüvvələr və başqa silahlı birləşmələr tərəfindən Azərbaycan Respublikasının qanunvericiliyinə və Hərbi doktrinaya uyğun olaraq sıx qarşılıqlı əlaqədə yerinə yetirilir.

## 3. Azərbaycan Respublikasının hərbi sahədə milli maraqları və milli təhlükəsizliyinə təhdidlər

Azərbaycan Respublikasının hərbi sahədə əsas milli maraqları aşağıdakılardır:

– dövlətin müdafiə qüdrətinin gücləndirilməsi;

– silahlı qüvvələrin və başqa silahlı birləşmələrin komplektləşdirilməsi

– hərbi-texniki təchizatının təmin edilməsi;

– xüsusi təyinatlı qüvvələrin inkişaf etdirilməsi, onların yüksək döyüş qabiliyyətinin və çevikliyinin təmin edilməsi, şəxsi heyətin əməliyyatlar zamanı fiziki müdafiəsi və sağlamlığının qorunması sahəsində potensialın gücləndirilməsi;

– Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin qarşılıqlı fəaliyyəti çərçivəsində əlaqələndirmənin təkmilləşdirilməsi;

– beynəlxalq əməkdaşlıq formatında sülhməramlı fəaliyyətdə iştirak edilməsi, beynəlxalq əməliyyat və təlimlərin həyata keçirilməsi üçün xüsusi seçilmiş şəxsi heyətin hazırlanması;



– hərbi intizamın daim möhkəmləndirilməsi;

– şəxsi heyətin peşəkarlığının daim yüksəldilməsi, hərbi təhsil müəssisələrində kadrların hərbi elmi əsaslarla hazırlanmasının müasir standartlara uyğun təkmilləşdirilməsi;

– peşəkar xidmət hərbi qulluqçularının sayının tədricən artırılması hesabına komplektləşdirmə sisteminin təkmilləşdirilməsi;

– vətəndaşların hərbi xidmətə məqsədyönlü hazırlığı, Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin ehtiyatının hərbi hazırlığının saxlanılması, habelə əhalinin ərazi və mülki müdafiə məsələlərinin həllinə hazırlığı;

– şəxsi heyətdə Azərbaycan Respublikasına, Azərbaycan xalqına, Hərbi anda sədaqətin, habelə öz Vətəninin tarixinə və ənənələrinə dərin hörmətin, Vətənin müdafiəsi üçün yüksək şəxsi məsuliyyətin formalaşdırılması, gənclərdə hərbi xidmətə marağın artırılması;

– Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin hərbi qulluqçularının və mülki işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və onların həyat şəraitinin daim yaxşılaşdırılması.

Azərbaycan Respublikasının müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün, konstitusiya quruluşunun, xalqın və ölkənin milli maraqlarının, insanın, cəmiyyətin və dövlətin hüquq və mənafelərinin hərbi və siyasi, habelə digər təhdidlərdən qorunması dövlətin hərbi təhlükəsizliyin təmin edilməsi sahəsində başlıca vəzifələrindən biridir.

Azərbaycan Respublikasının hərbi təhlükəsizliyinə təsir göstərən real, potensial təhdidlər qismində xarici və daxili, hərbi və siyasi təhdidlər, habelə digər təhdidlər nəzərdə tutulur.

Əsas xarici hərbi və siyasi təhdidlər aşağıdakılardır:

– Azərbaycan Respublikası ərazisinin bir hissəsinin Ermənistan Respublikasının silahlı qüvvələri tərəfindən işğal altında saxlanılması;

– Azərbaycan Respublikasının daxili işlərinə hər hansı mümkün kənar hərbi müdaxilə;

– Azərbaycan Respublikasının xarici hərbi asılılığa düşməsi;

– Azərbaycan Respublikasına qarşı qonşu dövlətlər tərəfindən ərazi iddialarının irəli sürülməsi;

– Azərbaycan Respublikasının daxili siyasi və sosial-iqtisadi vəziyyətinin gərginləşdirilməsinə, sabitliyin pozulmasına yönəldilmiş hər hansı fəaliyyət növləri, o cümlədən separatçı və dini ekstremist hərəkatların dəstəklənməsi, digər dövlətlər tərəfindən Azərbaycan Respublikasının ərazisinə göndərilməsi üçün qanunsuz silahlı qrupların və terrorçuların hazırlanması;

– qonşu ölkələrin dövlətlərarası münaqişələrdə iştirakı və ya həmin ölkələrdə daxili münaqişələrin, hərbi əməliyyatların, silahlı qiyamların, yaxud hərbi və ya hərbi-siyasi qeyri-sabitliyin digər formalarının mövcudluğu;

– regional hərbi tarazlığın pozulması və müdafiə yetərliyi həddindən kənara çıxması, o cümlədən regionda və ya Azərbaycan Respublikasının dövlət sərhədlərinin və ərazi sularının bilavasitə yaxınlığında hərbi bazaların yaradılması, qoşun qruplaşmalarının cəmləşdirilməsi, silahların və digər hərbi iştirakın artırılması;

– Azərbaycan Respublikasının dövlət sərhədinin hərbi birləşmələr və silahlı dəstələr tərəfindən pozulması, sərhəd mübahisələri və ya münaqişələrinin kəskinləşməsi;

– ayrı-ayrı dövlətlərin, təşkilatların və terrorçu qrupların hərbi-siyasi iddiaları kontekstində nüvə və digər kütləvi qırğın silahı növlərinin, onların çatdırılma vasitələrinin və ən yeni hərbi istehsal texnologiyalarının yayılması.

Əsas daxili hərbi və siyasi təhdidlər aşağıdakılardır:

– daxili sabitliyin və ölkənin ərazi bütövlüyünün pozulmasına yönəldilmiş terrorçu, dini ekstremist, millətçi-separatçı təşkilat və strukturların güc tətbiq etməklə həyata keçirdikləri qanunazidd fəaliyyət;



– konstitusiya quruluşu əleyhinə qəsdlər, dövlət hakimiyyəti və idarəetmə orqanlarının təşkilati strukturunun dağıdılması və ictimai-siyasi sabitliyin pozulmasına yönəldilmiş cəhdlər;

– Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələrin və ya qrupların yaradılması cəhdləri;

– təxribat, terror aktları və digər qanunazidd əməlləri həyata keçirmək üçün istifadə oluna bilən silah-sursatın, partlayıcı maddələrin və digər vasitələrin Azərbaycan Respublikasının ərazisində qanunsuz toplanması və dövriyyəsi;

– Azərbaycan Respublikasının hərbi təhlükəsizliyinə təhdid yaradan mütəşəkkil cinayətkarlıq və digər qanunazidd fəaliyyət;

– hərbi əhəmiyyətli və mühüm dövlət obyektlərinə, kommunikasiya qurğularına və informasiya infrastrukturuna qarşı silahlı hücumlar və təxribatlar.

Azərbaycan Respublikasının hərbi təhlükəsizliyinə digər təhdidlər aşağıdakılardır:

– təbii fəlakətlər və texnogen qəzalar;

– kütləvi şəkildə qeyri-qanuni miqrasiya;

– radioaktiv, kimyəvi və bioloji materialların qeyri-qanuni dövriyyəsi.

## 4. Hərbi sahədə milli təhlükəsizliyin təmin olunması tədbirləri

Hərbi təhlükəsizlik hərbi gücün müdafiə qabiliyyətini kifayət qədər təmin edəcək səviyyədə saxlanılmasının, təcavüzkar üçün qeyri-münasib qüvvələr nisbətinin yaradılması-

nın təmin olunmasıdır. Konkret mənada, hərbi təhlükəsizlik ölkəyə qarşı yönəldilmiş hərbi təhdidlərin zərərsizləşdirilməsi vəziyyətidir. Ölkənin dövlətçiliyi və ərazi bütövlüyünə qarşı yönəldilmiş hərbi təhdidlər milli təhlükəsizliyin təmin olunması sistemi vasitəsilə dəf edilir.

Azərbaycan Respublikasının **hərbi sahədə milli təhlükəsizliyinin təmin olunmasının əsas tədbirləri** aşağıdakılardır:

– Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin hərbi hazırlıq səviyyəsinin və döyüş qabiliyyətinin artırılması, mövcud hərbi ehtiyatların səfərbərlik üçün hazır vəziyyətdə saxlanılması;

– hərbi-sənaye kompleksinin inkişafı, müasir silah və hərbi-texniki nailiyyətlərin tətbiq edilməsi;

– Azərbaycan Respublikasının dövlət sərhədləri yaxınlığında əlverişli qüvvələr nisbətinin yaranmasının əldə olunması;

– Azərbaycan Respublikasının dövlət sərhədlərinin etibarlı mühafizəsinin təmin edilməsi;

– kütləvi qırğın silahlarının işlənib hazırlanmasının, istehsalının, yayılmasının, ehtiyatlarının yaradılmasının və tətbiqinin qarşısının alınması istiqamətində fəaliyyət göstərilməsi;

– hərbi təhsil sisteminin inkişaf etdirilməsi, Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin ixtisaslı kadrlarla təminatı işinin yaxşılaşdırılması;

– hərbi xidmət əleyhinə cinayətkarlığa qarşı mübarizə aparılması;

– Azərbaycan Respublikasının hərbi sahədə milli təhlükəsizliyinin təmin olunması məqsədilə xarici ölkələr və beynəlxalq təşkilatlarla əməkdaşlığın həyata keçirilməsi;

– kütləvi qırğın silahlarının komponentlərinin və texnologiyalarının, onları hədəfə çatdırma vasitələrinin, yeni hərbi istehsal texnologiyalarının qanunsuz yayılmasında ölkə ərazisinin tranzit kimi istifadə edilməsinin qarşısının alınması;



– Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin və başqa silahlı birləşmələrinin hərbi və iqtisadi potensialının, döyüşə hazırlığının və döyüş qabiliyyətinin zəiflədilməsinə yönəlmiş fəaliyyətin aşkarlanması, qabaqlanması və qarşısının alınması;

– müdafiə kompleksi sahəsində strateji əhəmiyyətli obyektlərin, həmçinin hərbi maraqlar baxımından əhəmiyyət kəsb edən elmi-texniki araşdırmaların və bu fəaliyyətin nəticələrinin, o cümlədən məlumatların, sənədlərin və proqram təminatı vasitələrinin təhlükəsizliyinin təmin edilməsi.

– hərbi və hərbi-texniki müqavilələrin bağlanmasında və yerinə yetirilməsində Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunması tələbləri mütləq nəzərə alınır.

– Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr istisna olmaqla, ölkə ərazisində xarici hərbi bazaların yerləşdirilməsinə, habelə hərbi qüvvələrin, silah, hərbi texnika, kütləvi qırğın silahı komponentləri və texnologiyalarının tranzit daşımalarına yol verilmir.

Hərbi sahədə milli təhlükəsizliyin təmin olunmasında əsas rol orduya məxsusdur. Ordu ölkənin milli maraqlarının qorunması üçün dövlət tərəfindən formalaşdırılan güc vasitəsi kimi dövlətin və onun suveren hüquqlarının ifadəçisi olduğu millətin iradəsini həyata keçirir. Ordu həm daxili, həm də xarici təhlükəsizliklə bağlı olan milli maraqların keşiyində durur.

**Azərbaycan Respublikası Konstitusiyasının 9-cu bəndində deyilir:**

**1. Azərbaycan Respublikası öz təhlükəsizliyini təmin etmək məqsədi ilə silahlı qüvvələr və başqa birləşmələr yaradır.**

Ölkənin ordusunun gücü həmin cəmiyyətin milli-siyasi simasını əks etdirir. Ordunun gücü həmin ölkənin daxili gücünün göstəricisi olmaqla, onun iqtisadi, sosial, mənəvi inkişafının göstəricisi hesab edilir.

Hərbi təhlükəsizliyin təmin edilməsi **hərbi təhsil sisteminin inkişafı** ilə sıx bağlıdır. Hərbi təhsil sisteminin qarşısında hərbi strukturların kadrlarla təminatı vəzifəsi dayanır. Hərbi təhsil yalnız döyüş ustalığının öyrədilməsini deyil, həmçinin hərbi vətənpərvərlik tərbiyəsinin aşılanmasını özündə əks etdirir. Xalqa və dövlətə sadiq, bütün siyasi təsirlərdən uzaq kadrların yetişdirilməsi, onların yerləşdirilməsi hərbi siyasətin qarşısında duran mühüm vəzifədir.

Hərbi təhlükəsizliyin etibarlı təminatı **ordunun müasir döyüş texnikası ilə təchiz edilməsindən** də mühüm şəkildə asılıdır. Ordu hissələrinin digər dövlətlərin hərbi hissələrindən geri qalması dövlətin imicinə ciddi zərbə vuran amildir.

Ölkənin hərbi təhlükəsizliyinin möhkəmliyi eyni zamanda dövlətin güclü siyasi, iqtisadi mövqeyi, hərbi-siyasi vəziyyəti və onun müdafiə qabiliyyəti ilə xarakterizə olunur. Burada dövlətin siyasi sisteminin sabitliyi məsələsi də mühüm rol oynayır. Siyasi sistemləri zəif olan ölkələrin milli təhlükəsizliyin təmin olunması sisteminin fəaliyyəti də zəif olur. Belə siyasi sistemlər başqa dövlətlərin təsiri altında olur, öz adi gündəlik tələbatlarının ödənilməsi ilə məşğul olurlar. Ölkənin hərbi-siyasi vəziyyəti onun başqa ölkələrlə qarşılıqlı təsirini, xarici siyasət maraqları üzərində qurulan forma və metodlarının xarakterini açıqlayır. Dövlətin müdafiə qabiliyyəti xarici və daxili hərbi qüvvələrin təsirinin neytrallaşdırılması qabiliyyətidir. Müdafiə qabiliyyətinin tərkibinə dövlətin hərbi gücü, hərbi potensialı daxildir. Cəmiyyətin ifrat hərbiləşdirilməsi dövlətin hərbi təhlükəsizliyinə mənfi təsir göstərir. Məsələn, faşist Almaniyasında hərbi sistemin yaradılması ilə ictimai həyatın bütün sahələri hərbiləşdirilmiş, nəticədə işğalçı nasional-sosialist dövləti meydana gəlmişdi. Əksər tədqiqatçılar bu fikirdədir ki, ifrat hərbiləşdirmə (militarizasiya) qorxulu haldır, ölkənin inkişafına mənfi təsir göstərir.



Hərbiləşdirmə iqtisadiyyatın tənəzzülünə, milli sərvətlərin xərclənməsinə səbəb olur, iqtisadi təhlükəsizliyə zərbələr vurulur, onun daxili strukturu zəifləyir. İqtisadiyyat hərbin «qurbanına» çevrilir. Hərbiləşdirmə nəticəsində güclü hərbi-sənaye kompleksi yaranır. Hərbi-sənaye kompleksi dövlətin siyasətinə təsir edir, onun aparıcı istiqamətlərindən birinə çevrilir. Əlbəttə ki, hərbiləşdirmə zamanı silahlı qüvvələrin sayı artır, ictimai hərbi şüur, təbliğat, təşviqat, tərbiyə işi geniş vüsət alır. İfrat hərbiləşdirmə siyasəti totalitar və avtoritar rejimli dövlətlərin siyasətinin əsasını təşkil edir. Ona görə də hərbiləşdirmə zamanı bu xüsusiyyətlər nəzərə alınmalı və tənzimlənməlidir.

## 5. Dövlət sərhədlərinin təhlükəsizliyinin təmin olunması

Hərbi sahədə milli təhlükəsizliyin təmin olunmasında **dövlət sərhədlərinin mühafizəsi** mühüm yer tutur. Dövlət sərhədlərinin etibarlı mühafizəsi hər bir ölkə üçün həyati əhəmiyyətli məsələdir. Dövlət sərhədlərinin mühafizə sistemi xarici və daxili təxribatın, qaçaqmalçılığın, narkobiznesin, saxta valyuta dövriyyəsinin, qanunsuz silah satışının qarşısının alınması və s. tədbirləri həyata keçirir. Sərhədlər ölkə üçün geosiyasi məkandır. Bu sərhədlər daxilində ölkənin suverenliyi, iqtisadi həyat və mənəvi-mədəni məkanı mövcuddur. Bu baxımdan dövlət sərhədlərinin mühafizəsi həm hərbi, həm də siyasi bir məsələdir. Dövlət sərhədlərinin etibarlı mühafizəsi ilk növbədə ölkənin daxili sabitliyinə müsbət təsir edir. Əks təqdirdə ölkənin daxili sabitliyi təhlükə altına alınır, ölkə ərazisi cinayətkar ünsürlərin, narkotiklərin, qanunsuz miqrasiyanın və silah ticarətinin və s. nəqliyyat dəhlizinə çevrilir. Keçirilən qanunsuz malların bir hissəsi ölkə ərazisində qalır və burada istifadə olunur. Bu da tə-

bii ki, cinayətkarlığın, narkomaniyanın artmasına səbəb olur. Həmçinin dövlət sərhədlərinin etibarlı mühafizəsi müxtəlif təyinatlı malların qanunsuz dövriyyəsinin qarşısına sipər çəkməklə, onların vergidən yayınmasını da mümkünsüz edir.

Sərhəd təhlükəsizliyinin möhkəmləndirilməsi məsələləri «Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası»nda aşağıdakı kimi öz əksini tapmışdır: «Azərbaycan Respublikasının həssas coğrafi vəziyyəti onu beynəlxalq terrorçuluq, qeyri-qanuni miqrasiya, transmilli mütəşəkkil cinayətkarlıq, insan alveri, narkotik vasitələrin qaçaqmalçılığı və kütləvi qırğın silahlarının yayılması kimi bir sıra transsərhəd təhdidlər ilə üzləşdirir.

Ermənistan-Azərbaycan münaqişəsi nəticəsində Azərbaycan Respublikasının İran İslam Respublikası ilə 132 km və Ermənistanla 733 km uzunluğunda olan beynəlxalq sərhədləri Ermənistan tərəfindən zəbt olunmuşdur. Bu sərhədlərin nəzarətdən kənarda qalması yuxarıda sadalanan cinayətkarlıq üçün münbit şərait yaradır.

Transsərhəd təhdidlərin mövcudluğu ölkənin sərhəd təhlükəsizliyinə xüsusi diqqət yetirilməsini zəruri edir. Sərhəd təhlükəsizliyi siyasətinin səmərəli həyata keçirilməsi üçün mərkəzi dövlət orqanı kimi Dövlət Sərhəd Xidməti yaradılmışdır. Ölkədə aparılan ümumi demokratik dövlət quruculuğu və xüsusən, təhlükəsizlik sektorunun islahatı prosesi çərçivəsində sərhəd təhlükəsizliyinə konseptual olaraq yenidən baxılır və Dövlət Sərhəd Xidmətinin hərbi qurumdan hüquq-mühafizə orqanına keçidi məqsədi ilə əsaslı struktur islahatları aparılır. NATO və digər xarici tərəfdaşlarla əməkdaşlıq şəraitində aparılan islahatlar nəticəsində səmərəli sərhəd nəzarəti sistemi yaradılmaqla silahlı qüvvələrin və digər təhlükəsizlik strukturlarının sərhəd təhlükəsizliyi sahəsindəki mümkün dəstəkləyici rolu və fəaliyyətlərinin əlaqələndirilməsi mexanizmləri daha da təkmilləşdirilir.



Sərhəd təhlükəsizliyi məsələsi neft və qaz yataqlarının, nəqliyyat dəhlizlərinin təhlükəsizliyinin təmin olunmasında getdikcə daha çox əhəmiyyət kəsb etməkdədir.

Sərhəd təhlükəsizliyinin daha səmərəli təmin edilməsi üçün normativ hüquqi baza beynəlxalq standartlara uyğunlaşdırılır, idarəetmə sistemi təkmilləşdirilir və şəffaf büdcə sistemi yaradılır.

Azərbaycan Respublikası sərhəd təhlükəsizliyi sahəsində NATO, Avropa İttifaqı, Beynəlxalq Miqrasiya Təşkilatı, Atom Enerjisi üzrə Beynəlxalq Agentlik, Sərhəd Məsələləri üzrə Beynəlxalq Konfrans və digər beynəlxalq təşkilatlar çərçivəsində, habelə ikitərəfli və çoxtərəfli qaydada dövlətlərarası səviyyədə əməkdaşlığı genişləndirir.

Bu istiqamətdə islahatları daha da inkişaf etdirmək üçün havadan və dənizdə nəzarət, axtarış-xilasetmə, çeviklik imkanları müasirləşdirilir, təlim sistemi təkmilləşdirilir, quru sərhədlər və nəzarət məntəqələri müasir texniki avadanlıqlarla təmin olunur və peşəkar heyətə keçid sürətləndirilir.

Ermənistan-Azərbaycan münaqişəsi həll olunduqdan sonra sərhədlərin nəzarətdən kənarda qalmış hissəsinin Azərbaycan Respublikasının ümumi sərhəd təhlükəsizliyi sisteminə daxil edilməsi və həmin ərazilərdə ən müasir tələblərə uyğun təhlükəsizlik tədbirlərinin həyata keçirilməsi islahat və quruculuq prosesində müvafiq şəkildə nəzərə alınır».

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 12 iyun 2007-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti üçün xüsusi ixtisaslı ali hərbi təhsilli zabit kadrlarının, komandir və qərargah zabitlərinin, hərbi elmi işçilərin hazırlanmasını, onların ixtisasının artırılmasını, dövlət sərhədinin mühafizəsi və hərbi iş sahəsində elmi tədqiqatların aparılmasını təmin etmək məqsədi ilə Dövlət Sərhəd Xidmətinin Akademiyası yaradıldı.

Ümummilli liderin də daim diqqət mərkəzində saxladığı prioritet məsələlərdən biri dövlət sərhədinin təhlükəsizliyinin

təmin olunması idi. 1997-ci ildə MTN əməkdaşları ilə görüşündə Ümummilli lider Heydər Əliyev deyirdi: «**Sərhədlərdən təxribatçıların, terrorçuların keçməsinə, eyni zamanda narkobiznesin həyata keçirilməsinə, cürbəcür cinayətkar adamların keçməsinə, qaçaqmalçılıq əməliyyatlarının həyata keçirilməsinə yol verməmək olmaz. Azərbaycana giriş-çıxış yerləri çox etibarlı qorunmalıdır. Sərhəd dəstələri bizim gömrük təşkilatı ilə, polislə sıx əməkdaşlıq etməli və hamısı birlikdə müstəqil dövlətin sərhədlərini layiqli qorumalıdır**».

## 6. Ordunun şəxsi heyətinin ideya-siyasi və psixoloji hazırlığı

Müasir şəraitdə ordunun şəxsi heyətinin **ideya-siyasi tərbiyəsi və psixoloji hazırlığı**, mühüm əhəmiyyət kəsb edən bir amildir. Ordunun şəxsi heyətinin döyüş hazırlığı ilə yanaşı onun ideya-siyasi tərbiyəsi də elə şəkildə qurulmalıdır ki, onlar bir-birini tamamlasın. Çünki siyasi cəhətdən yetkin olan əsgər və zabit dünyada və ölkədə gedən siyasi prosesləri dərk etməklə onlara şüurlu münasibət bəsləyir, ən başlıcası isə hansı dəyərlərə xidmət etdiyini yüksək səviyyədə başa düşür.

Hərbi təhlükəsizlikdə təkcə hərbi texnika, döyüş vasitələri rol oynamır. Burada diqqəti həmin texnikanı idarə edən şəxsi heyətin də üzərində cəmləşdirmək lazımdır. Beləliklə, biz yenə insan, ləyaqətli vətəndaş amilinin üzərinə gəlib çıxırıq. Silahlı qüvvələri müəyyən siyasi meyillərdən təcrid etmək üçün, burada siyasət meydanı açmaq məqbul deyildir. Silahlı qüvvələrdə yalnız ideya-siyasi işi gücləndirməklə, hərbi təhlükəsizlik sahəsində nailiyyətlərə nail olmaq olar. Bu aşılanmanın sayəsində siyasi və psixoloji cəhətdən hazırlıqlı əsgər heç vaxt döyüş meydanını tərk etməyəcək,



öz vətəni, torpağı, xalqı, milli dövlətçiliyi uğrunda son damla qanına qədər mübarizə aparacaqdır. Çünki hər hansı bir əsgər və zabit ilk növbədə insandır. Əgər hər hansı bir əsgər və zabit ən yüksək səviyyədə belə peşəkar olursa olsun o nəyin, hansı dəyərin uğrunda mübarizə apardığını dərindən dərk etmirsə, onun mübarizəsi heç vaxt səmərəli nəticə verməyəcəkdir. Bu baxımdan şəxsi heyətlə iş problemi ən aktuallıq kəsb edən məsələlərdəndir.

Siyasi cəhətdən yüksək səviyyəyə malik ordu öz təyinatını yaxşı bilir və öz təyinatına uyğun olmayan heç bir fəaliyyətlə məşğul olmur. Təyinatdan kənar fəaliyyət ölkənin konstitusiya quruluşunu təhlükə altına qoyaraq siyasi hakimiyyəti qeyri-leqal, zorakı yolla dəyişdirmək təhlükəsini yaradır. Konstitusiya və qanunlarla tənzimlənən ordunun təyinatını, onun funksiyalarını şəxsi heyətə lazımi şəkildə çatdırmaq üçün siyasi-mənəvi tərbiyə işini gücləndirmək səmərəli nəticə verə bilər. Bununla yanaşı **demokratiya, azad seçki, dözümlülük, milli maraqlar kimi anlayışların məzmununun kifayət qədər təbliğ olunması** son dərəcə vacibdir. Bütün bunlar ordunun şəxsi heyətində siyasi dünyagörüşü səviyyəsinin yüksəldilməsinə kömək edən mühüm amillərdir.

**Azad seçki** anlayışının izahının məqsədi şəxsi heyətə hakimiyyətin yalnız sivil yolla dəyişdirilməsi prinsipinin aşılanmasıdır. Məqsəd ondan ibarətdir ki, xalqını və dövlətini müxtəlif təhdidlərdən qoruyan orduda siyasi hakimiyyətin xalqın iradəsi ilə formalaşdırılması haqqında sabit fikir yaradıla bilsin, seçkilərin ədalətliliyi ön plana çəkilsin. Təbii ki, ilk baxışda belə bir fikir yarana bilər ki, ordu tamamilə cəmiyyətdən kənar götürülə bilməz. Lakin onu da qeyd etmək lazımdır ki, ordu spesifik bir mühitə malikdir və o mühitin formalaşdırılmasında qeyd etdiyimiz siyasətin yürüdülməsi çox aktualdır. Qeyd olunan istiqamətdə ordunun şəxsi heyəti arasında işin gücləndirilməsi, silahlı qüvvələrin siyasətə qarışmamasını təmin etmək üçün həyata keçirilən

tədbirlər sisteminin mühüm bir amili ola bilər. Bu istiqamətdə həyata keçirilən iş ordunun siyasətdə iştirakını istisna etməklə, onun yalnız vəzifələrini icra etməyə istiqamətləndirər.

İkinci istiqamət kimi **dözümlülük (tolerantlıq)** anlayışının izahı günümüz üçün aktuallıq kəsb edir. Bu anlayışın məzmunu elə izah edilməlidir ki, onun nəticəsi orduda qarşılıqlı münasibətlərin inkişafına kömək edə bilsin. Ordu ölkənin vətəndaşlarının səfərbər edilməsi ilə formalaşdırılan və əsasən dəyişkən kontingentə malik güc strukturudur. Əhalinin tərkibi isə təbii ki, müxtəlif xalq, etnik azlıq və dini etiqada mənsub, müxtəlif sosial mənşəyə, bilik səviyyəsinə və xarakterə malik vətəndaşlardan ibarətdir. Onların qarşılıqlı münasibətlərini tənzimləmək, vahid vətən, dövlətçilik ruhunda tərbiyə etmək bir dəyər kimi dözümlülüyünköməyi ilə həyata keçirilə bilər.

Ordunun şəxsi heyəti arasında bu sahədə aparılan ideya-siyasi iş ona istiqamətlənməlidir ki, şəxsi heyət arasında dini əqidəyə, bilik səviyyəsinə, milli mənsubiyyətə görə heç bir münaqişə şəraiti yaranmasın, çünki son nəticədə bu ordunun daxili birliyini təhlükə altına ala bilən ardıcıl prosesə çevrilə bilər. Bu simptomların qarşısını almaqda dözümlülük tərbiyəsi ilə yanaşı, şəxsi heyətin idarəçilik üsullarının da mühüm əhəmiyyəti vardır.

**Demokratiyanın mənəvi-siyasi dəyər kimi** izahı şəxsi heyətin siyasi dünyagörüşü səviyyəsinin formalaşması üçün mühüm əhəmiyyət kəsb edir. Demokratiya anlayışına cəmiyyətdə bəzən olduğundan fərqli yanaşılması, ordu kimi ciddi bir qurumda bu anlayışın düzgün qavranılması üçün müəyyən məqsədyönlü işin aparılmasını tələb edir. Demokratiyanın bəzən anarxiya kimi başa düşülməsi bu günümüz üçün də mövcud olan ciddi problemlərdən hesab oluna bilər. Məhz bu baxımdan gənc əsgərlərin dünyagörüşünün bu sahədə düzgün formalaşdırılması mühüm məsələdir.



Demokratiyanın **azadlıq prinsipinin** şəxsi heyət arasında təbliğ olunmasının əhəmiyyəti kimi aşağıdakı nəticələri irəli sürmək olar.

Azadlıq bütöv ölkəyə məxsus dəyər kimi başa düşülür və ölkənin heç bir kənar təsir olmadan taleyinin özü tərəfindən müəyyənləşdirildiyini özündə ehtiva edir. Azad ölkə, azad xalq ideyasının bu səpkidə təbliği ordunun şəxsi heyəti arasında hərbi vətənpərvərlik hisslərinin daha da güclənməsi üçün mühüm əhəmiyyətə malikdir. Adətən azadlıq ideyası şəxsiyyətin hüquq və azadlıqlarının təmin olunması kimi başa düşülür. Lakin biz təkmil struktura malik, müəyyən xüsusi təyinata sahib olan ordu haqqında danışırıqsa bu sahədə təbliğat hər bir insanın azadlıqlarının məcmusu olan xalqın azadlığı istiqamətində aparılmalıdır.

Milli maraqların qorunması və təmin edilməsində ordunun müstəsna rolu vardır. Əgər bu maraqlar siyasi yollarla təmin edilmirsə və digər vasitələr tamamilə tükənibsə, bu zaman dövlət özünün silahlı qüvvələri vasitəsilə bu milli maraqları qorumalı və təmin etməlidir. Məhz bu baxımdan **milli maraqların** şəxsi heyət arasında izah edilməsi aktuallıq kəsb edir.

Milli maraqlar anlayışını izah edərkən onu şəxsi heyətə elə formada çatdırmaq lazımdır ki, verilən məlumat çox dəqiq qurulmuş cümlələr və mətnlə ifadə olunsun. Milli maraqların izahı zamanı daha optimal variant ondan ibarətdir ki, bu anlayış daha sadə, daha aydın dillə şəxsi heyətə çatdırılsın. Həmçinin bu anlayışı şəxsi heyətə izah edərkən onun nəzəri səciyyəsindən başqa, milli maraqlara ordunun müdafiəçisi olduğu ölkənin milli maraqları baxımından yanaşılmalıdır. Bunu onunla əsaslandırmaq olar ki, şəxsi heyəti müdafiə etdiyi, təhlükəsizliyini qoruduğu ölkənin milli maraqları daha çox düşündürür. Məhz buna görə də milli maraqların bu aspektdən izahına xüsusi diqqət yetirilməlidir.

Ordu ölkənin milli maraqlarının qorunması üçün dövlət tərəfindən formalaşdırılan güc vasitəsi kimi dövlətin və

onun suveren hüquqlarının ifadəçisi olduğu millətin iradəsini həyata keçirir. Ordunun şəxsi heyətində bu istiqamətdə izahat işi aparарkən milli maraqların əsas tərkib hissəsi olan ölkənin həyati vacib maraqlarına xüsusilə diqqət yetirilməlidir. Hansı həyati vacib maraqların müdafiəçisi olduğunu ordunun şəxsi heyəti arasında təbliğ etmək, bu maraqların ölkə üçün əhəmiyyətini dərindən izah etmək, onların qorunmasında və təmin olunmasında ordunun rolunun mühüm olduğunu şəxsi heyətə müntəzəm, ardıcıl olaraq aşılamaq hərbi təhlükəsizliyin təminatının mühüm amilidir.

Həyati vacib maraqlar içərisində hər bir ölkənin ərazi bütövlüyünün təmin olunması mühüm yer tutur. Hər bir əsgər və zabit ölkənin ərazi bütövlüyünün təminatçısı olduğunu dərk etməklə, bu bütövlüyü daim canı bahasına olsa belə qorumağa hazır olmalıdır. Çünki ərazi olmayan yerdə dövlət hakimiyyəti, ümumilikdə, dövlət mövcud ola bilməz. Bu nöqteyi-nəzərdən ərazi bütövlüyünün qorunması ordunun birbaşa funksiyası olduğu üçün onun şəxsi heyətinə ərazi bütövlüyünün milli maraq kimi izah edilməsi, şəxsi heyətin vətənpərvərlik tərbiyəsində, həmçinin siyasi dünyagörüşü səviyyəsinin yüksəldilməsində mühüm rol oynayır.

Şəxsi heyətin üzvləri yüksək fiziki və mənəvi–psixoloji gücə və dözümə malik olmalıdır. Onlar gərgin fiziki şəraitdə işləməyi bacarmalıdır. Məhdud şərait, qeyri–münasib məkan, pis hava şəraiti və s. onlara döyüş və təlim tapşırığını yerinə yetirməkdə maneçilik yaratmamalıdır. Əsgərin fiziki keyfiyyətlərinə, güc, çeviklik, dözümlülük, işgüzarlıq, qısa müddətdə itirilmiş qüvvəni bərpa etmək qabiliyyəti, çətin şəraitdə işləməyə uyğunlaşmaq qabiliyyəti və s. daxildir. Əsgərin psixoloji hazırlığı olmadan ümumi hazırlığı məqbul hesab edilə bilməz. Ümumiyyətlə, mütəxəssisin sənəti və peşəsi ilə bağlı psixoloji hazırlığı onun peşəkarlığının göstəricisidir. Əsgərin psixoloji hazırlığı həm özünün, həm də onun ünsiyyətdə olduğu və fəaliyyət göstərdiyi yerin xüsusiyyətləri ilə əlaqədardır.



Psixoloji hazırlığın kifayət qədər olmaması özünü onda göstərir ki, adi vaxtlarda ictimai davranış qaydalarına ciddi surətdə əməl edən əsgər döyüş və təhlükəli şəraitdə özünü düzgün apara bilmir. Bəzi döyüşçülərdə özünənəzarət motivləri pozulur, onlar əmri pis yerinə yetirir, şayiələrə uyur və onlara inanırlar. Belələrində məqsədyönlülük, fəallıq, təşəbbüskarlıq, özünəinam, təkidlilik zəifləyir, şübhə, inamsızlıq, qərarsızlıq özünü göstərir, ehtiyatlılıq qorxaqlığa çevrilir. Belə hallarda deyirlər ki, «insan çətinliyə dözməyib «sındı». Döyüş zamanı aparılan uğursuz əməliyyat nəticəsində verilən itki və tələfatlar əsgərin psixikasına güclü təsir göstərir.

Belə halların əsas səbəbi döyüş heyətinin mənəvi–psixoloji hazırlığının zəif olmasıdır. Deməli, heyətin döyüş hazırlığı, müharibənin tələb etdiyi səviyyədə olmamışdır.

Şəxsi heyətin **psixoloji hazırlığını** aşağıdakı yollarla artırmaq olar:

– onların mənəvi–psixoloji hazırlığını təkmilləşdirmək yolu ilə;

– döyüş səhnələrini adi, gözlənilən etmək yolu ilə;

– döyüş şəratinə uyğun gələn daxili gərginliklərin aradan qaldırılması üçün əsgərlərin bilik və təcrübəsini artırmaqla;

– qəfil, gözlənilməz şəraitə şəxsi heyəti hazırlamaq yolu ilə.

Əsgərlərin psixoloji hazırlığının məzmunu konkret olaraq özündə **bu cəhətləri** birləşdirir:

– öz silahına, döyüş texnikasına, yoldaşlarına, komandirinə və qələbəyə inamı;

– təcavüzkarın aparacağı müharibə variantları haqda düzgün təsəvvürün formalaşdırılması;

– hərbçini döyüş şəratinin faktları ilə bilavasitə tanış etmək, psixoloji çətinliklərə qarşı vərdişləri;

– iradi keyfiyyətlərin üzvi inkişafı və özünüidarə;

– peşəkar – döyüş psixoloji keyfiyyətlərinin inkişafı, xüsusilə təfəkkürün keyfiyyətləri (dərinliyi, çevikliyi, məntiqiliyi, tənqidiliyi və s.);

– «psixoloji etibarlılıq» kimi xüsusi keyfiyyətlərin inkişafı və formalaşdırılması (ekstremal gərginliyə, risk və təhlükəyə emosional-iradi dözüm, gözlənilən hadisəyə hazır olmaq, həyəcanlı vəziyyətdə özünü təmkinli aparmaq);

– sülh vaxtı döyüş hazırlığını təmin etmək üçün spesifik və monoton şəraitdə işləmək üçün psixoloji dözümün inkişaf etdirilməsi;

– əsgərlərin döyüşə psixoloji hazırlığı təcrid olunmuş şəkildə həyata keçirilmir. Mehriban, səmimi və qayğıkeş kollektivdə az hazırlığa malik olan əsgər özünü inamlı aparır. Yox, əgər kollektivdə qarşılıqlı münasibətlər arzu edilməyən formada cərəyan edərsə, təcrübəli döyüşçü belə orada özünü pis hiss edəcək, özünə inamsız olacaq. Ona görə də kollektivdə sağlam psixoloji iqlimin yaradılması, orada mövcud olan əsgərlərin döyüşə psixoloji hazırlığının əsas şərtidir. Döyüşən kollektivin komandirə münasibəti də bu məsələdə böyük rol oynayır.

Komandirin nüfuzu, ona olan inam, əsgərlərə göstərdiyi davranış nümunəsi onların psixoloji hazırlığının səviyyəsini yüksəldir.

Psixoloji hazırlıq mənəvi–siyasi hazırlıq əsasında həyata keçirilir. Şəxsi heyətin psixoloji hazırlığının **əsas istiqamətləri** bunlardır:

– psixoloji hazırlıq planının hazırlanması;

– bu planın kursun təlim–döyüş və döyüş hazırlığı məsələlərinə əsasən dəqiqləşdirilməsi;

– dərs, məşq, təlim və döyüş tapşırıqları keçirərkən əlavə (psixoloji) təlim məqsədlərinin qoyulması;

– güclü psixoloji təsir göstərmək üçün yeni metod, üsul, forma və vasitələrdən istifadə edilməsi;



– maddi-texniki bazanın yaradılması və təkmilləşdirilməsi (imitasiya vasitəsi, meydan, real çöl şəraitində, sahə və s.);

– psixoloji hazırlıq məsələləri ilə məşğul olan zabitlərə məsləhətlər vermək üçün metodiki vəsait hazırlamaq;

– psixoloji hazırlığın nəticələrini qiymətləndirmək və yoxlamaq üçün lazımi yol və vasitələrdən istifadə olunması.

Döyüşçülərin psixoloji hazırlığının mürəkkəb struktura malik olması ona təsir göstərən amillərin çoxplanlı, müxtəlif psixoloji hazırlıq formalarının həyata keçirilməsini zəruri edir.

Hərbi xidmət zamanı müxtəlif psixoloji hazırlıq məsələləri həyata keçirilir. İlk növbədə onu qeyd etmək lazımdır ki, nə qədər qoşun növü varsa, bir o qədər də psixoloji hazırlıq növü var. Bundan başqa hərbi texnika və silahın sirlərinə yiyələnmək, onunla işləmək və düşmənə qarşı mübarizə aparmaq üçün yüksək psixoloji hazırlıq olmalıdır.

Bu mənada psixoloji obyektlər müxtəlifdir. Döyüşçülərin psixoloji hazırlığı, komandir heyətinin psixoloji hazırlığından, təyyarəçininki tankçıdan, atıcınınki rabitəçininkindən fərqlidir. Bundan başqa, keçirilmə müddətinə görə də psixoloji hazırlığın növləri var. Ümumi hərbi fəaliyyətə hazırlıqla bağlı aparılan psixoloji iş, konkret hər hansı tapşırığın icrası ilə bağlı aparılan psixoloji hazırlıqdan fərqli olur. Psixoloji hazırlıq, xidmət illəri ərzində həyata keçirilir, əsgər və əsgər kollektivində möhkəm psixoloji keyfiyyətlər formalaşdırılır. Döyüş tapşırığını yerinə yetirməzdən əvvəl, əsgərin bütün keyfiyyət və xüsusiyyətləri fəallaşdırılır, stenik hisslər formalaşdırılır (arzu, əminlik, gümrahlıq, nikbinlik və s.).

İstifadə olunan vasitə və metodlardan asılı olaraq psixoloji hazırlığın aşağıdakı növləri var:

1. Ümumi psixoloji hazırlıq,
2. Xüsusi psixoloji hazırlıq,
3. Məqsədli psixoloji hazırlıq.

**Əsgərlərin və əsgər kollektivlərinin ümumi psixoloji hazırlığı dedikdə, onların öz vətənini düşmənlərin silahlı basqınından qorumasına, bu yolda bütün çətinlikləri dəf edərək qələbə qazanmasına hər an hazır olması başa düşülür.** Buraya hazırlığın müxtəlif tərəfləri arasındakı qarşılıqlı əlaqə və onların psixikaya təsiri də daxildir.

Mənəvi-siyasi amillər burada həlledici rol oynayır. Ona görə də ümumi psixoloji hazırlıq aşağıdakı **xüsusiyyətlərin** formalaşdırılması hesabına həyata keçirilir:

- **vətənə məhəbbət, düşmənə nifrət;**
- **öz hərbi borcunu dərindən dərk etmək;**
- **kollektivin ənənəsinə sadiq qalmaq.**

Sülh və müharibə problemini düzgün başa düşmək, hərb işindəki köklü dəyişiklikləri, qonşu dövlətlərin hərbi təcavüzə daimi meyilliliyi əsgərlərin həmişə döyüşə hazır olmasını, onlarda psixoloji hazırılığın yüksək səviyyədə qalmasını zəruri edir. Bu baxımdan keçmiş müharibə təcrübələrinin öyrənilməsi də vacibdir.

Psixoloji hazırlıq **hərbi tərbiyə və döyüş ustalığının formalaşdırılması** ilə bağlıdır. Buraya aşağıdakılar daxildir:

- hərbi xidmətə, öz ixtisasına, vətənə məhəbbət bəsləmək;
- hərbi xidmətə, nizam – intizama, kollektivdə nizamnamə əsasında qarşılıqlı münasibətə adət etmək;
- düşmən üzərində qələbəyə, öz silahının gücünə və etibarına, onun köməyi ilə tapşırığın həllinə inam;
- özünün döyüş silahına qulluq və ondan bacarıqla istifadə etməyi, hərtərəfli hərbi biliklərə yiyələnməyi öyrənmək;
- məsuliyyətli, təşəbbüskar, müstəqil, təkidli, müşahidəçilik kimi yüksək keyfiyyətlərə malik olmaq;
- möhkəm döyüş ənənələrinə inam, kollektivdə cavabdehlik və s. kimi xüsusiyyətlərə yiyələnmək.

Belə psixoloji hazırlıq hərbi tərbiyə prosesində formalaşır. İntizamlılıq-möhkəm psixikanın keyfiyyətidir. Ciddi nizam-



intizam, hərbi qayda-qanun, hərbi kollektivdə sağlam mühit, yaxşı təşkil olunmuş gündəlik xidmət əsgərin və kollektivin psixoloji hazırlıq səviyyəsinin artmasına şərait yaradır.

**Xüsusi psixoloji hazırlıq döyüşçünün müasir müharibəyə, döyüş şəraitinə hazır olması məqsədi daşıyır.** Əsgərin döyüş zamanı qarşılaşacağı çətinlikləri əvvəlcədən görə bilməsi, düzgün başa düşməsi bu işdə ən əsas məsələlərdəndir.

Ona görə də hərbi qulluqçuların ekstremal şəraitə hazırlığının mahiyyəti ekstremal (xidməti döyüş) təlim, hazırlıqdır. Öz növbəsində peşəkar hərbi qulluqçunun ekstremal hazırlığı ekstremal təlim, ekstremal hallara mənəvi-psixoloji hazırlıq, «ekstremal» inkişafdan ibarətdir. Bu istiqamətlərə nəzər salaq.

Hərbi qulluqçunun **ekstremal təliminə** daxildir:

- həll olunacaq vəzifələri və onların həlli yollarını, ekstremal vəziyyətlərin, gözlənilən çətinliklərin qarşısını alma yollarını, güc metodları və silahların istifadəsinin hüququ əsaslarını və s. bilməsi;
- istənilən ekstremal şəraitdə bütün zəruri peşəkar hərəkətləri keyfiyyətlə yerinə yetirmək bacarığı;
- güc və silahlı qarşıdurma şəraitində silah və xüsusi vasitələrin istifadəsi, döyüş üsullarının tətbiqi bacarığı;
- ekstremal şəraitdə vəzifələrin yerinə yetirilməsi üzrə birgə hərəkət etmək bacarığı;
- ekstremal şəraitin dərk olunmasında və onlar üçün xarakterik olan psixoloji çətinliklərin dəf edilməsində təcrübə qazanılması;
- şəxsi təhlükəsizliyin təminatı bacarığı;
- ekstremal şəraitdə ekstremal təcrübəyə yiyələnmək bacarığı.

Ekstremal şəraitdə davranış, mənəvi-psixoloji hazırlıq, yüksək peşəkarlıq çətin vəziyyətlərdə mənəvi davranışı təmin edən spesifik tərbiyədir. O:

– ekstremal şəraitdə istənilən siqnallar zamanı vəzifə borclarına və hərbi anda sədaqətli olmaq;

– qrupların tərkibində hərəkət zamanı yoldaşlıq borcuna sədaqətli olmaq;

– peşəkarlıq, mənəvi və psixoloji cəhətdən çətin şəraitdə özünü idarə etmək, bütün qüvvə və imkanlarını səfərbər etmək, çətinlik qarşısında özünü itirməmək, hərbi xidmətinə, işinə və özünə zərər vura biləcək impulsiv hərəkətlər etməməkdən ibarətdir.

İnsan özünü o halda sakit aparır ki, baş verən hadisələr onun gözlədiklərinə uyğun gəlir. Düzgün təsəvvür əldə olunan nəticələrin real şəkildə qiymətləndirilməsinə və tələb olunanla müqayisə edilməsinə imkan verir.

Əsgərlərə lazım olan təsəvvür və biliklər hərb tarixini, İkinci Dünya müharibəsinin və Qarabağ müharibəsinin təcrübəsini öyrənməklə, görkəmli sərkərdələrin fəaliyyətini, onların hərb elmi ilə bağlı əsərlərini oxumaqla əldə edilir. Düşmənlərin milli–psixoloji xüsusiyyətlərini, hərbi–texniki gücünü, siyasi və iqtisadi potensialını hər bir əsgər öyrənməlidir.

Hərbi nizamnamələrin, təlimatların, əmr və göstərişlərin dərindən öyrənilməsi böyük əhəmiyyət kəsb edir. Əyani vəsaitlərdən, filmlərdən istifadə etməklə təlim prosesinin məhsuldarlığını artırmaq olur. Təlim şəraiti həqiqi, real çöl döyüş şəraitinə nə qədər çox yaxın olarsa, əsgərin döyüş təsəvvürü bir o qədər dəqiq və aydın olar.

Təlim şəraitinin şərti və sadə olması, təsəvvürün pis və təhlükəli olması deməkdir. Təsəvvürləri formalaşdırarkən, döyüş əməliyyatlarının çətinliklərini necə varsa eləcə də başa düşmək lazımdır. Xüsusi psixoloji hazırlıq zamanı əsas məqsəd əsgərləri real çöl döyüş şəraitində tapşırıqları həll etməklə tanış etmək və onları belə mürəkkəb şəraitə uyğunlaşdırmaqdır. Əsgəri yalnız müəyyən sözlərin köməyi ilə döyüşə hazırlamaq mümkün deyildir. Əsgər o zaman döyüşçüyə çevrilə bilər ki, o, döyüş şəratini və çətinlikləri yaşasın, öz üzərində hiss etsin. Hər bir döyüşçü mərmi səsini, güllə vıyıltısını, mina partlayışını, torpağın dağılmasını, yanğını, əsgər yoldaşının yaralanmasını gözləri ilə görməli, qulaqları ilə eşitməli, ruhu ilə hiss etməlidir. Çünki, bütün bunlar real döyüş həqiqətləridir. Buna görə də döyüşçülərin hərbi hazırlığı quruda, suda, havada, xüsusi yaradılan yerlərdə gecə və gündüz, isti və soyuq hava şəraitində icra edilir.



**Məqsədli psixoloji hazırlıq təlim zamanı aşılanan bilik, bacarıq və vərdişlərlə əlaqədardır.** Hər bir təlim əsgər və zabitin çətin döyüş situasiyalarına hazırlığını və bu şəraitdə bələdləşməsini, özünü səfərbər etməsini təmin edir. Burada əsas məsələlərdən biri də məqsədli şəkildə əsgərin daxili çətinliklərinin modelləşdirilməsidir. Döyüşün psixoloji modelininin yaradılması, təlim şəraitini döyüş şəratinə psixoloji cəhətdən yaxınlaşdırılması, bu işin əsas mahiyyətidir.

Təlimdə döyüş şəraiti süni xarakter daşıyır. Döyüşçünün psixikasına yalnız o zaman təsir göstərmək olar ki, təlim şəraiti döyüş şəratinə psixoloji cəhətdən yaxın olsun. Bunun üçün həm xarici, həm də daxili amillər uyğun gəlməlidir. Döyüş çətinliklərindən biri də döyüşçüdə bu şərait haqqında məlumatın az olmasıdır.

Döyüşçülərdə emosional iradi keyfiyyətləri daha da inkişaf etdirmək üçün süni maneələrdən istifadə etmək lazımlıdır. Məsələn, təyyarələrin alçaqdan uçuşu, qoşun üzərindən atəş açması buna misaldır. İdrak və emosional çətinliklərin aradan qaldırılması döyüşçüdən möhkəm iradə tələb edir.

Döyüşdə əsas çətinlik güclü, ağıllı və hiyləgər düşmən qüvvələrinin qarşısını almaqdan ibarətdir. Müharibə vaxtı düşməni qiymətləndirməmək ən böyük təhlükədir. Buna görə təlim və real çöl məşğələlərində güclü və ağıllı düşmənə qarşı mübarizə aparmaq lazımdır. Əgər düşmənin planı və hərəkəti əsgərlərə məlumdursa, o fəal deyilsə və yaxud bir tərəfin məğlubiyyəti o biri tərəfin isə qələbəsi əvvəlcədən

planlaşdırılıbsa, onda bu şəxsi heyətin psixoloji hazırlığından söhbət gedə bilməz. Bəzən zabitlər şəxsi heyətin yüksək nəticələr əldə etməsi xatirinə təlim şəraitini yüngülləşdirirlər, bu da döyüş zamanı böyük uğursuzluğa gətirib çıxarır.

Təlim zamanı «düşmənin» təşəbbüsü öz üzərinə götürməsi, güclü atəş açması, əks tərəfi çıxılmaz, çaşqın vəziyyətdə qoyması əsgərlərə daha çox şey öyrədir.

Artilleriyanın, mina atanların, tankların döyüş atəşi şəraitində, əl qumbaralarının partlaması, qoşun yaxınlığındakı obyektlərin bombardıman edilməsi, psixikanın möhkəmlənməsi üçün geniş imkanlar yaradır. Qeyd olunan vasitələrdən başqa emosional iradi çalışmalar da əsgərin və ya əsgər kollektivinin psixoloji hazırlığını artırır. Hündür məsafədən suya tullanmaq, alovdan və dərin xəndək üzərindən keçmək, kanatla hündürlüyə qalxmaq, batan tankdan və ya sualtı qayıqdan çıxmaq, paraşütlə tullanmaq, əleyhiqazla qaçmaq, yanğın söndürmək, suyun altında qalmaq və s. iradi çalışmalar adlanır. Belə çalışmalar həm iradi keyfiyyətləri inkişaf etdirir, həm də psixikanı möhkəmləndirir. Şəxsi heyətin psixoloji hazırlığı yalnız döyüş tapşırıqlarını yerinə yetirərkən deyil, həmçinin fiziki və nizami hazırlıq dərslərində, döyüş növbətçiliyində də həyata keçirilir

Həyati vacib milli maraqlar kimi ölkənin təhlükəsizliyinin, ərazi bütövlüyünün, suverenliyinin, iqtisadi həyat birliyinin qorunmasında ordunun rolu tarixən əvəzsiz olmuşdur və bu gün də öz aktuallığını itirmir. Ona görə də müasir şəraitdə dövlətlərarası əlaqələrdə əxlaqi prinsiplərdən nə qədər danışılsa belə güclü ordu amili həmişə mühüm, hətta həlledici amil olaraq qalır.



# IX FƏSİL

## İnformasiya sahəsində milli təhlükəsizliyin təmin olunması

1. **Azərbaycan Respublikasının informasiya sahəsində milli maraqları və onlara yönələn təhdidlər**
2. **Azərbaycan Respublikasında informasiya sahəsində milli təhlükəsizliyin təmin olunması tədbirləri**
3. **Kütləvi informasiya vasitələri və informasiya sahəsində milli təhlükəsizliyin təmin olunması**
4. **Dövlət sirlərinin qorunması informasiya sahəsində milli təhlükəsizliyin təmin olunmasının tərkib hissəsi kimi**
5. **İnformasiya müharibəsi**
6. **Azərbaycan Respublikasının kosmik gücünün formalaşması və ölkənin milli təhlükəsizliyinin təmin olunmasına təsiri**

## 1. Azərbaycan Respublikasının informasiya sahəsində milli maraqları və onlara yönələn təhdidlər

«Milli təhlükəsizlik haqqında» Azərbaycan Respublikasının Qanununda ölkəmizin **informasiya sahəsində əsas milli maraqları** aşağıdakı kimi göstərilmişdir:

– məlumatların qanuni yolla əldə edilməsi, ötürülməsi, hazırlanması və yayılması kimi vətəndaşların konstitusiya hüquqlarının təmin edilməsi;

– informasiya ehtiyatlarının qorunması və inkişaf etdirilməsi;

– informasiya məkanının formalaşdırılması və onun qorunmasının təmin edilməsi;

– dünya rabitə və informasiya sisteminə daxilolma.

Azərbaycan Respublikasında informasiya yayımı dövlət quruculuğu ilə bağlı prosesdir. O, beynəlxalq informasiya sisteminə qoşulmaqla informasiyanın yayım coğrafiyasını daha da genişləndirir və Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq imkanı qazanır. Deməli, dünya ictimaiyyəti qlobal və regional məlumatları informasiya vasitəsilə əldə edir.

Güclü informasiya sistemi yaradan dövlət özünün milli təhlükəsizliyini də təmin edir. İnformasiyaya yiyələnə bilməyən cəmiyyət dünyanın siyasi və iqtisadi proseslərindən geri qalır. İnformasiya cəmiyyət üzvlərinin siyasi mədəniyyətini və intellektual səviyyəsini yüksəldir. Geosiyasi üstünlük intellektual informasiya ilə möhkəmləndirilir. İnformasiyanın köməyi ilə rəqib tərəfin siyasi gücü zəiflədilir.

İnformasiya xarici iş adamlarının ölkəyə gəlməsinə şərait yaradır, elm və texnika sahəsində əldə edilən nailiyyətlər öyrənilir. Dövlətin gücü onun informasiya sisteminin inkişaf səviyyəsindən çox asılıdır. İnformasiyada üstün olan dövlət xarici siyasətdə, beynəlxalq münasibətlərdə də üstünlüyə malikdir.



Ermənistan tərəfindən Azərbaycana qarşı aparılan təcavüzkarlıq siyasəti informasiya sahəsini də əhatə edir. Ölkənin sərhədləri yaxınlığında Azərbaycanın müstəqilliyini istəməyən dövlətlər güclü kanallar vasitəsi ilə efirdən siyasi böhtanlar, şayiələr yaymağa çalışırlar. Ölkənin beynəlxalq mövqeyinə qarşı çevrilən həmin kanalların qarşısını almaq üçün yüksək səviyyəli telemexaniki vasitələrdən istifadə edilməsi siyasi strategiyanın mühüm taktiki vasitələrindən biridir.

1990-cı illərin əvvəllərində Ermənistanın və erməni diasporunun həyata keçirdiyi birgə fəaliyyət nəticəsində Azərbaycan informasiya blokadasına alınmışdı. Belə bir şəraitdə Ermənistan Azərbaycan xalqına qarşı dünya ölkələrində mənfi ictimai rəy yaratmağa çalışırdı. Lakin 1993-cü ildən sonra görülən tədbirlər nəticəsində Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq mümkün oldu.

Siyasi sistemin sabit inkişafında informasiyanın rolu çox böyükdür. Öz təsnifatına görə informasiyalar müxtəlifdir. İlk olaraq siyasi hakimiyyətdə təmsil olunan, siyasi qüvvələrlə əks siyasi qüvvələr arasındakı münasibətləri tənzimləyən informasiyalara diqqət yetirmək lazım gəlir. Bu informasiyalar cəmiyyətin siyasi sisteminin sabit inkişafını şərtləndirən amillərdən biridir. Bu sahədə yayılan informasiyalar da digər sahələrdə olduğu kimi obyektiv gerçəkliyi əks etdirə də bilər və yaxud dezinformasiya xarakteri də daşıya bilər. Bu baxımdan verilən informasiyalar obyektiv gerçəkliyi əks etdirməyərək ölkədəki siyasi qüvvələr arasındakı münasibətlərin gərginləşdirilməsinə də xidmət edə bilər. Adətən bu səpkidə olan informasiyalar mətbuat, KİV vasitəsilə siyasi sabitliyi pozmaq istəyində olan qüvvələr tərəfindən yayılır.

Qeyd etmək lazımdır ki, siyasi sistemin sabit inkişafı, siyasi qüvvələrin dinc, yanaşı fəaliyyətində qlobal informasiya şəbəkəsi olan internet mühüm rol oynayır. Onun vasitəsilə informasiyaların yayılması daha asan və kimin tərəfindən yayılması baxımından müəyyən edilməsi çox çətin və hətta demək olar ki, mümkünsüzdür. Məhz bu halda siyasi qüvvələr hər bir verilən

informasiyanı diqqətlə nəzərdən keçirməli, mövqelərini bir daha bir-birilərinə bəyan etməlidirlər. Bu halda yayılan yalan informasiyalar məqsədinə çatmır. Tərəflərin mövqelərini bəyan etmələri, yayılan informasiyaların təsiri altına düşməmələri, onların siyasi mədəniyyət səviyyəsindən asılıdır. Müasir demokratik siyasi mədəniyyətin elementlərini özündə cəmləşdirən siyasi qüvvələr bu informasiyalara dözümlü yanaşır, ciddi təhlillər aparır, qeyd etdiyimiz kimi onunla bir siyasi sistemə daxil olan siyasi qüvvələrin mövqelərini bir daha dəqiqləşdirir, hətta hər hansı bir informasiya özünün müəyyən təsdiqini taparsa belə, ona tolerant münasibət bəsləyir, yalnız qanunun yol verdiyi istiqamətdə əks fəaliyyət həyata keçirir.

İnformasiyaların yayılma mənbələri daxili və xarici ola bilər. Daxili mənbələr ölkədə qeyri-sabit siyasi vəziyyətin yaradılmasında maraqlı olan, qeyri-leqal yollarla hakimiyyətə gəlmək istəyən müxtəlif qruplar və ya şəxslər, xarici mənbələr qismində isə ölkədaxilində gərginlik yaratmaqda maraqlı olan, ölkəni zəiflətmək məqsədi güdən xarici qüvvələr çıxış edə bilər.

Bu baxımdan daxil olan informasiya hər bir şəxs tərəfindən qəbul edilərkən bu informasiyaya ilk növbədə milli maraqlar baxımından diqqət yetirilməlidir. Mədəni-siyasi dəyərlərin, həmçinin milli dəyərlərin daşıyıcısı olan siyasi qüvvələr strategiya və taktikalarını müəyyənləşdirərkən mütləq milli maraqları nəzərə alır, cəmiyyətin daimi demokratikləşməsi istiqamətində fəaliyyət göstərirlər. Siyasi dəyərlərin mənimsənilməsi ümumilikdə, cəmiyyətin siyasi mədəniyyətinin formalaşmasına kömək etməklə, yayılan dezinformasiyaların da zərərsizləşdirilməsində mühüm rol oynayır.

İnformasiya sahəsində siyasi həyata yönəldilən təhdidlər ictimai-siyasi vəziyyəti gərginləşdirməklə, son nəticədə dövlətçiliyin zəiflədilməsinə xidmət edir. Daha geniş yanaşdıqda, cəmiyyətdə müəyyən sosial gərginliyin yaradılmasında maraqlı olan müxtəlif daxili və xarici siyasi qüvvələr əhali arasında müxtəlif səpkili informasiyalar yaymaqla ölkə daxilində sabitliyi, sabit inkişafı pozmaq istiqamətində iş aparır.



İnformasiya sahəsində **əsas təhdidləri** aşağıdakı kimi qruplaşdırmaq olar:

– insan və vətəndaşın mənəvi həyat və informasiya fəaliyyətinə, şəxsi, qrup və ictimai fikir, o cümlədən, ölkənin mənəvi inkişafı sahəsində konstitusiya ilə təsbit edilmiş hüquq və azadlıqlara təhdidlər;

– ölkənin dövlət siyasətinin informasiya təminatına təhdidlər;

– yerli informasiya sənayesinin, o cümlədən, informatizasiya, telekommunikasiya və rabitə vasitələri sənayesinin yaranmasına, daxili bazarın bu mallar ilə təmin olunmasına, həmçinin bu malların dünya bazarına çıxarılmasına və yerli informasiya ehtiyatlarının yığılması, qorunması və səmərəli istifadə edilməsinin təmin edilməsinə təhdidlər;

– ölkə daxilində informasiya və telekommunikasiya sistemlərinin təhlükəsizliyinə təhdidlər.

Deyilənləri ümumiləşdirərək informasiya sahəsində təhdidləri mənbəyinə görə **iki qrupa** bölmək olar:

– xarici təhdidlər;

– daxili təhdidlər.

**Xarici təhdidlər** kimi informasiya sahəsində ölkənin maraqlarına qarşı yönəlmiş xarici siyasi, iqtisadi, hərbi, kəşfiyyat və informasiya strukturlarının fəaliyyətini, bir sıra ölkələrin dominasiya cəhdi və ölkənin maraqlarına dünya informasiya məkanında zərbə vurmaq, onu daxili və xarici informasiya bazarlarından atmaq cəhdlərini, informasiya texnologiyaları və ehtiyatları əldə etmək naminə beynəlxalq rəqabətin kəskinləşməsini, beynəlxalq terrorçu təşkilatların fəaliyyətini göstərmək olar. Həmçinin dünyanın aparıcı super dövlətlərinin texnoloji sıçrayışının artımı və onların rəqabətə davamlı xarici informasiya texnologiyalarının yaranmasına qarşı imkan və fəaliyyətinin artması, xarici dövlətlərin kosmik, hava, su və yer tipli texniki və digər növ kəşfiyyatlarının fəaliyyəti, bir sıra dövlətlər tərəfindən dünyanın

digər ölkələrinin informasiya sahələrinə təhlükəli təsir vasitələrinin, həmçinin informasiya və telekommunikasiya sistemlərinin normal fəaliyyətini pozmaq, informasiya ehtiyatlarının toxunulmazlığı, onlara sanksiyalaşdırılmamış girişin əldə edilməsini nəzərdə tutan informasiya müharibəsi konsepsiyasının işlənməsi də xarici təhdidlərə aid edilə bilər.

**Daxili təhdidlər** kimi isə kriminal strukturların informasiya sahəsinə təsiri, kriminal strukturların konfidensial məlumatı əldə etməsi, mütəşəkkil cinayətkarlığın cəmiyyətin həyatına təsirinin güclənməsi meyilləri ilə müşayiət edilən qeyri-sabit kriminogen vəziyyət, informasiya sahəsində vətəndaş, cəmiyyət və dövlətin qanuni maraqlarının qorunma səviyyəsinin aşağı düşməsi, dövlətin informasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində vahid dövlət siyasətinin formalaşması və həyata keçirilməsi üzrə dövlət hakimiyyəti orqanlarının fəaliyyətinin əlaqələndirilməsinin lazımi səviyyədə olmaması çıxış edir. Bununla yanaşı informasiya sahəsində münasibətləri tənzimləyən normativ-hüquqi bazanın lazımi səviyyədə inkişaf etdirilməməsi, o cümlədən qanun tətbiqedici təcrübənin çatışmazlığı, vətəndaş cəmiyyəti institutlarının inkişaf etdirilməməsi və ölkənin informasiya bazarının inkişafına yetərsiz dövlət nəzarəti, ölkənin informasiya təhlükəsizliyinin təmin edilməsi üzrə keçirilən tədbirlərin zəif maliyyələşməsi, dövlətin zəif iqtisadi gücü, təhsil və tərbiyə sisteminin səmərəliliyinin aşağı düşməsi, informasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində yüksək səviyyəli kadrların çatışmazlığı da daxili təhdidlər kimi qeyd edilə bilər.

Dövlət hakimiyyəti orqanlarının ictimaiyyəti öz fəaliyyətləri barədə məlumatlandırmamasını, qəbul edilmiş qərarların izah edilməməsini, açıq dövlət ehtiyatlarının yaradılmamasını, əgər varsa bu ehtiyatlara vətəndaşların daxilolma sisteminin inkişafının lazımi səviyyədə olmamasını, həmçinin ölkənin, dünyanın digər aparıcı dövlətlərindən dövlət hakimiyyəti orqanlarının, yerli özünüidarə orqanlarının, maliyyə-kredit sahəsinin, sənayenin, kənd təsərrüfatının, təhsilin, səhiyyənin, vətəndaşların məişəti və xidmət sahəsinin məlumatlandırma səviyyəsinə görə geri qalmasını da informasiya təhlükəsizliyinin təmin edilməsinə mənfi təsir edən amillər kimi göstərmək olar.



«Milli təhlükəsizlik haqqında» Azərbaycan Respublikasının Qanununda **informasiya sahəsində əsas təhdidlər** aşağıdakı kimi qeyd olunmuşdur:

- informasiya texnologiyaları sahəsində geriləmə və dünya informasiya məkanına daxil olmağa maneələrin mövcudluğu;
- informasiya azadlığı əleyhinə yönəlmiş qəsdlər;
- dövlət sirlərinin aşkarlanmasına yönəlmiş qəsdlər;
- digər ölkələr tərəfindən informasiya təcavüzü, beynəlxalq aləmdə Azərbaycan həqiqətlərinin təhrif edilməsi;
- informasiya sisteminə və ehtiyatlarına qarşı qəsdlər.

## 2. Azərbaycan Respublikasında informasiya sahəsində milli təhlükəsizliyin təmin olunması tədbirləri

İnformasiya əsri adlandırılan XXI yüzillikdə informasiya bir çox proseslərlə yanaşı sosial, siyasi, iqtisadi proseslərə də güclü təsir edir. Müasir şəraitdə lazımi informasiya təminatı olmadan dövlətin sosial-iqtisadi inkişafı qeyri-mümkündür.

İnformasiya sahəsində milli təhlükəsizliyin təmin olunması dedikdə, şəxslərin, təşkilatların və cəmiyyətin maraqlarına uyğun olaraq informasiya təhlükəsizliyinin pozulması təhdidlərinin, bu təhdidlərin mənbələrinin, reallaşdırılması üsullarının və məqsədlərinin, təhlükəsizliyin pozulmasına gətirib çıxaran digər şərait və hərəkətlərin vaxtında aşkar edilməsi və qarşısının alınması vəziyyəti başa düşülür.

İnformasiya sahəsində milli təhlükəsizliyin təmin olunmasının **məqsədləri** aşağıdakılardır:

– dövlətin, cəmiyyətin və vətəndaşların təhlükəsizliyinin təmin edilməsi;

– dövlət sirri təşkil edən informasiyaların məxfiliyinin qorunması;

– informasiyanın məhvinin, itməsinin, təhrif edilməsinin, saxtalaşdırılmasının, surətinin çıxarılmasının, təcrid edilməsinin qarşısının alınması;

– informasiya proseslərində və informasiya sistemlərinin, texnologiyalarının və onların təminat vasitələrinin işlənməsi, istehsalı, tətbiqi zamanı fiziki və hüquqi şəxslərin hüquqlarının təmin olunması.

İnformasiya təhlükəsizliyi xüsusi dövlət qurumları tərəfindən təmin edilir və burada ölkənin milli maraqlarının, milli təhlükəsizliyinin qorunması əsas götürülür.

2005-ci ildə qəbul edilmiş «İnformasiya əldə etmək haqqında» Azərbaycan Respublikasının Qanununun məqsədi Azərbaycan Respublikası Konstitusiyasının 50-ci maddəsi ilə təsbit olunmuş məlumat əldə etmək hüququnun sərbəst, maneəsiz və hamı üçün bərabər şərtlərlə, açıq cəmiyyətin və demokratik hüquqi dövlətin prinsipləri əsasında təmin edilməsinin hüquqi əsaslarını müəyyənləşdirməkdən, həmçinin ictimai vəzifələrin yerinə yetirilməsinə vətəndaşlar tərəfindən nəzarət olunmasına şərait yaratmaqdan ibarətdir.

1998-ci ildə qəbul edilmiş «İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında» Azərbaycan Respublikasının Qanunu, «Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010 — 2012-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan)» informasiyanın yığılması, işlənməsi, saxlanması, axtarışı, yayılması əsasında informasiya ehtiyatlarının formalaşdırılması, informasiya sistemləri, texnologiyaları, onların təminat vasitələrinin yaradılması və onlardan istifadə olunması, informasiyanın mühafizəsi ilə əlaqədar olaraq yaranan münasibətləri tənzimləyir və informasiya proseslərində iştirak edən subyektlərin hüquqlarını müəyyən edir.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin «Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması haqqında» (4 noyabr 2008-ci il), həmçinin «Kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı» (17 avqust 2009-cu il) ilə bağlı Sərəncamları ölkədə kosmik sahənin inkişafına xüsusi zəmin yaratmışdır.

Ölkəmizin informasiya təhlükəsizliyi siyasətinin istiqamətləri «Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası»nda aşağıdakı kimi ifadə olunmuşdur: «Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi siyasəti dövlət, ictimai və fərdi informasiya ehtiyatlarının qorunmasına, habelə informasiya sahəsində milli maraqların müdafiəsinə yönəlmiş tədbirlər kompleksinin həyata keçirilməsindən ibarətdir.

Azərbaycan Respublikasının informasiya sahəsində milli təhlükəsizliyinin təmin olunması üçün ölkədə informasiyanın, həmçinin dövlət informasiya ehtiyatlarının müdafiəsi sahəsində milli sistem və informasiya infrastrukturu inkişaf etdirilir və möhkəmləndirilir. Dövlət orqanları və vəzifəli şəxslər tərəfindən qərarların qəbul edilməsinin informasiya təminatının həyata keçirilməsi məqsədi ilə obyektiv və mühüm məlumatlar toplanılır.

Kəşfiyyat və əks-kəşfiyyat qabiliyyətinin uzlaşdırılması və səmərəliliyinin artırılması, habelə məxfi informasiyanın mühafizə olunmasının əlaqələndirilməsi milli təhlükəsizlik sektorunun bu sahəsində əsas məsələlərdəndir. Azərbaycan Respublikası öz milli kəşfiyyat və əks-kəşfiyyat qabiliyyətini artıracaq və dövlət sirrinə aid edilmiş məlumatların mühafizəsi ilə bağlı fəaliyyətin təkmilləşdirilməsini davam etdirəcəkdir.

İnformasiya təhlükəsizliyini tənzimləmək məqsədi ilə dövlət sirri təşkil edən məlumatların mühafizəsinin hüquqi mexanizmləri təkmilləşdirilir və informasiya azadlığı təmin olunur. Hüquqi və inzibati mexanizmlər vətəndaşların hü-

quqlarını və dövlət strukturlarının fəaliyyəti üzərində demokratik nəzarəti təmin edir».

**«Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya» Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 2 aprel tarixli Sərəncamı ilə təsdiq edilmişdir. Milli Strategiyanın əsas istiqamətlərindən biri də informasiya təhlükəsizliyinin təmin edilməsidir.** Ölkənin informasiya məkanının təhlükəsizliyinin təmin olunması, İKT-dən istifadədə inamın artırılması, həmin sahəni tənzimləyən normativ hüquqi bazanın inkişaf etdirilməsi, məlumatlandırma və maarifləndirmənin həyata keçirilməsi bu istiqamətin əsas məqsədlərindəndir.

Bu istiqamətin məqsədlərinə çatmaq üçün aşağıdakıların həyata keçirilməsi nəzərdə tutulur:

- informasiya təhlükəsizliyi sahəsində vahid dövlət siyasətinin, hüquqi bazanın təkmilləşdirilməsi;
- ölkənin milli informasiya məkanının və kritik infrastrukturunun, o cümlədən informasiya infrastrukturunun informasiya təhlükəsizliyini təmin edən sistemin inkişaf etdirilməsi;
- ölkənin informasiya əlaqələrində xarici ölkələrdən texniki və texnoloji asılılığın azaldılması üzrə tədbirlərin həyata keçirilməsi;
- "e-hökumət" infrastrukturunun informasiya təhlükəsizliyinin təmin edilməsi;
- elektron təhlükələr barədə ölkə səviyyəsində məlumatlandırmanın həyata keçirilməsi;
- kibertəhlükəsizliyin gücləndirilməsi istiqamətində müvafiq texniki və metodiki vasitələrin yaradılması, tövsiyələrin hazırlanması və metodiki dəstəyin göstərilməsi;
- uşaqların qanunazidd və təhlükəli kontentdən qorunması üçün "təhlükəsiz internet" mexanizminin işlənilməsi və tətbiqi;



- dövlət və qeyri-dövlət informasiya infrastrukturu subyektlərinin kibertəhlükəsizlik üzrə fəaliyyətlərinin əlaqələndirilməsi;
- əhalinin, özəl və digər qurumların kibertəhlükəsizlik sahəsində maarifləndirilməsi və informasiya təhlükəsizliyi mədəniyyətinin formalaşdırılması, bu sahədə ixtisaslı kadrların hazırlanması;
- ölkənin informasiya təhlükəsizliyi sahəsində beynəlxalq əməkdaşlığın təmin olunması.

«Milli təhlükəsizlik haqqında» Azərbaycan Respublikasının Qanununda informasiya sahəsində **milli təhlükəsizliyin təmin olunması tədbirləri** kimi aşağıdakılar öz əksini tapmışdır:

– Azərbaycan Respublikasında informasiyanın, həmçinin dövlət informasiya ehtiyatlarının müdafiəsi sahəsində milli sistemin yaradılması və möhkəmləndirilməsi;

– dövlət orqanları və vəzifəli şəxslər tərəfindən qərarların qəbul edilməsinin informasiya təminatının həyata keçirilməsi məqsədilə obyektiv və qabaqlayıcı məlumatların toplanılması;

– informasiya infrastrukturunun inkişaf etdirilməsi;

– dövlət sirlərinin qorunmasının hüquqi mexanizmlərinin təkmilləşdirilməsi;

– kompüter informasiyası sahəsində cinayətkarlığa qarşı mübarizə;

– informasiya təhlükəsizliyinin və azadlığının təmin olunması.

## 3. Kütləvi informasiya vasitələri və informasiya sahəsində milli təhlükəsizliyin təmin olunması

Kütləvi informasiya vasitələri müasir cəmiyyətin ən mühüm təsisatlarından biridir. Adətən siyasi ədəbiyyatda

kütləvi informasiya vasitələri «hakimiyyətin dördüncü qolu» adlandırılır.

«KİV» anlayışının məzmunu özündə mənəvi və maddi ünsürləri təcəssüm etdirir. Həmin anlayışa dövri mətbuat (qəzet, jurnal, məlumat vərəqələri, bülletenlər, məlumat arayışları və s.) radio, televiziya, kino işləri, videoyazı və digər məlumat vasitələri daxil edilir. Son illər sputnik əlaqələrinin yayılması ilə əlaqədar olaraq kütləvi əlaqələndirmə sistemində mühüm dəyişikliklər baş vermişdir. «KİV» anlayışının maddi tərəfini isə müxtəlif texniki avadanlıq, cihazlar, aparatlar, alətlər və sair təşkil edir. Son dövrlər İnternet KİV kimi mühüm rol oynayır.

KİV cəmiyyətin bütün sahələrinə və təsisatlarına, eləcə də siyasətə, təhsilə, din və sairəyə mühüm təsir göstərir. KİV-in köməyi ilə kütləvi mədəniyyət özünün bütün variantlarında formalaşır, yayılır və saxlanılır. Kütləvi informasiya vasitələri ictimai şüurun təşəkkülü, fəaliyyəti və təkamülündə əhəmiyyətli rol oynayır. Hər bir ölkədə və dünyada baş verən ən mühüm xəbərlər və hadisələrin dərk olunması və şərhi məhz KİV-in köməyi ilə həyata keçirilir.

KİV cəmiyyətdə yüksək məlumatlandırma funksiyası yerinə yetirir, müxtəlif səpkili informasiyaları cəmiyyətə ötürür. Kütləvi informasiya vasitələri və mətbuat vətəndaşlarda siyasi mədəniyyətin formalaşmasına mühüm təsir göstərir. KİV-in özünün siyasi mədəniyyətindən də çox şey asılıdır. Çünki onun vasitəsi ilə cəmiyyətin ictimai rəyi formalaşır. KİV-in siyasi mədəniyyəti cəmiyyətə doğru və ya manipulyativ xarakterə malik informasiyalar ötürülməsini şərtləndirir. Əgər kütləvi informasiya vasitələri obyektiv mövqe tutursa bu cəmiyyətin müxtəlif növlü düzgün informasiyalarla təmin olunmasına şərait yaradır.

Kütləvi informasiya vasitələri siyasi həyatın nəinki subyektidir, eyni zamanda obyektidir. Bu cəhət onunla şərtlənir ki, KİV-in özü də sosial gerçəkliyi bütün ziddiyyətləri və münaqişələri ilə birlikdə bu və ya digər formada



təkrar istehsal edir. Elə buna görə də informasiya axını çoxlu ziddiyyətlərdən, bəzən bir-birilə bir araya sığmayan məlumat və materiallardan ibarətdir. Aydın məsələdir ki, hər hansı bir şəxs və ya ayrıca adamlar qrupu heç də bütün partiyalara və ya namizədlərə səs vermir, eləcə də reklamlaşdırılan bütün malları almır, mövcud rəylərin hamısı ilə razılaşmır. Bəzi hallarda məlumatlar və materiallar bir-birini neytrallaşdırır. Şübhəsiz, KİV-in məlumat və materiallarının məcmusu ictimai rəyin formalaşmasına təsir göstərir.

KİV həmişə ayrı-ayrı adamların və sosial qrupların şüurunda baş verən dəyişikliklərin təşəbbüsçüsü və subyekti kimi çıxış etmir. Kütləvi informasiya vasitələrinin müsbət və ya mənfi rolu onunla şərtlənir ki, bu informasiya vasitələrindən hansı qüvvələr istifadə edir, özü də hansı məqsədlərlə.

KİV-in nəinki vətəndaşların ayrı-ayrı siyasi hadisələri dərk etmələrinə, eləcə də onların bütövlükdə siyasətə münasibətinə fəal təsir göstərmək imkanları böyükdür.

Vətəndaşlar və demokratik dövlət quruculuğu üçün real təhlükə törədən siyasi amillərdən biri KİV-dən siyasi manipulyasiya məqsədilə istifadə olunmasıdır.

**Siyasi manipulyasiya (fr. manipullation – məharətli fırıldaq, yalan məlumat)** o zaman həyata keçirilə bilər ki, cəmiyyət daxilində KİV hansısa bir siyasi qüvvənin maraqlarına xidmət edir. İkinci səviyyədə isə KİV beynəlxalq həyatda hansısa dövlətin və ya transmilli korporasiyanın maraqlarını qoruyur. KİV-in bu məqsədlə istifadə olunması informasiya təhlükəsizliyi və siyasi sabitlik üçün ciddi təhlükədir. KİV-dən bu məqsədlə istifadə olunarkən ilk növbədə cəmiyyət daxilində verilən bu informasiyaların düzgün və yalan olduğunu aşkara çıxarmaq çox çətindir. Bu şəraitdə cəmiyyətin siyasi şüur və siyasi mədəniyyət səviyyəsindən çox şey asılıdır. Hər bir vətəndaşın siyasi dünyagörüşü bu sahədə mühüm rol oynayır. Siyasi mədəniyyətin tərkib ünsürü olan siyasi biliklərin zənginliyi bu sahədə mühüm kömək edə bilər.

Siyasi manipulyasiya bu və ya digər qrupun, təsisatın öz maraqları naminə adamların siyasi şüuruna və davranışına üstüörtülü, gizli şəkildə təsirini ifadə edir. Manipulyasiya yalana, riyakarlığa əsaslanır. Heç də təsadüfi deyil ki, müasir siyasi nəzəriyyədə və siyasi praktikada manipulyasiya kifayət dərəcədə elmi təhlilini tapmışdır. Ümumdövlət səviyyəsində siyasi manipulyasiyanın ümumi texnologiyası adamların kütləvi şüuruna sosial-siyasi miflərin yeridilməsinə nail olmaqdan ibarətdir.

Manipulyatorlar məqsədlərinə nail olmaq üçün kütləvi psixologiyanın qanunauyğunlaqlarından bacarıqla istifadə edirlər. Siyasi manipulyasiya nəinki totalitar və avtoritar dövlətlərdə geniş tətbiq olunur, həmçinin, müasir qərb demokratiyasında müntəzəm sürətdə ondan istifadə edilir. Bu gün qərb ölkələrində elə bir Prezident və ya parlament seçkisi yoxdur ki, orada manipulyasiya üsullarından yan keçilsin. Bu üsul və reklamlar dünyanın digər ölkələrində də tətbiq olunur. Empirik tədqiqatlar təsdiqləyir ki, Prezidentliyə və parlamentə namizədlərin seçilməsində seçicilər elə namizədlərin mövqeyini müdafiə edir ki, onların imici (obrazı) məhz kütləvi informasiya vasitələrində və xüsusilə, televiziya vasitəsilə yaradılır.

**Sərt rəqabətin təsiri altında demokratiya üçün təhlükəli olan bəzi meyillər təzahür edir. Həmin meyllərdən biri məhz KİV-in təmərküzləşməsidir.** Kütləvi informasiya vasitələrinin təmərküzləşməsi meyli əvvəl mətbuatın məhdudlaşmasında, xüsusilə yerli qəzetlərin kəskin şəkildə ixtisara düşməsində və geniş informasiya şəbəkəsinə nəzarət edən iri milli və transmilli korporasiyaların (şirkətlərin) yaranmasında nəzərə çarpır. Məsələ ondadır ki, kiçik teleradio stansiyalarının yeni təzahür edən nəhəng informasiya məkanlarından asılılığı getdikcə güclənir. Heç də təsadüfi deyildir ki, dünyanın xeyli dövləti bu prosesin qarşısını almaq məqsədilə təsirli tədbirlərə əl atırlar. Belə ki, nəhəng informasiya məkanlarının, iri milli və transmilli şirkətlərin kiçik kütləvi informasiya vasitələrini «udmasının » qarşısını almaq məqsədilə bir sıra dövlətlər xüsusi qanunlar qəbul edirlər.



KİV-in yaydığı informasiyaların xarakteri müxtəlifdir. Bu informasiyalar siyasi, iqtisadi, mədəni, sosial və s. İctimai həyat sahələrini əhatə edə bilər. Vətəndaşların siyasi mədəniyyət səviyyəsi təkcə siyasi sahədə deyil, həmçinin digər qeyd edilən sahələrdə də informasiya təhlükəsizliyini təmin edən mühüm amilə çevrilə bilər.

Dövlətin xarici siyasətini əhatə edən informasiyalar dedikdə, ümumilikdə, ölkənin xaricində hakimiyyətin həyata keçirdiyi strategiyaya aid olan məlumatlar nəzərdə tutulur. Bu sahədə də digər sahələr kimi, KİV vasitəsi ilə və yaxud dövlətçiliyə qarşı olan qüvvələr tərəfindən vətəndaşlar arasında yalan məlumatların yayılması mümkündür. Bu səpkili informasiyaların yayılması bir ölkənin ümumilikdə beynəlxalq aləmdə imicinə zərbə vurulmasına xidmət edir. İlk növbədə ümumilikdə bu sahədəki informasiyalara diqqət yetirmək lazımdır.

Dövlətin zəiflədilməsi və beynəlxalq əlaqələrin pozulmasına xidmət edən bu səviyyəli informasiyaların zərərsizləşdirilməsi və ictimai rəydə özünə yer tapa bilməməsi mühüm təhlükəsizlik məsələsi hesab olunur. Bu sahədə verilən informasiyalar dövlətin beynəlxalq münasibətlər mühitində imicinin mənfi istiqamətdə formalaşmasına, dövlətin ikitərəfli və çoxtərəfli əlaqələrinə kölgə salınmasına və həmçinin də dövlətin milli maraqların təmin edilməsində maraqlı olmaması barədə ölkə əhalisinə istiqamətlənmiş yalan məlumatları əhatə etməklə ciddi təhlükələr yaradır.

Beynəlxalq münasibətlər mühitində yayılan informasiyalar dövlətin imicini mənfi istiqamətdə formalaşdırır, ölkənin arzuolunmayanlar sırasına düşməsinə səbəb olur, ölkəyə xarici sərmayə axınını zəiflədir və ya ümumiyyətlə, dayandırır, müxtəlif ölkələr ilə dostluq münasibətlərini pozmağa xidmət edir və ən nəhayət, beynəlxalq təşkilatlarda, dünya ictimaiyyətində ölkə haqqında müsbət olmayan fikir yaradır.

Ölkənin rəhbərliyi, dövlət hakimiyyəti haqqında daxilə istiqamətlənmiş informasiyalar da xüsusi diqqət obyekti olmalıdır. Bu informasiyalar əsasən dövlətin xarici siyasətdə milli maraqları qorumadığı haqqında olan yalan məlumatları əhatə edir. Təbii ki, ilk növbədə bu informasiyalar ölkə əhalisi içərisində dövlət rəhbərliyinə inamın azaldılmasına xidmət edir. Səmərəli idarəetmə üsullarından istifadə edən siyasi hakimiyyətin əhali içərisində nüfuzunun azaldılmasına xidmət edən informasiya siyasətinin qarşısını almaq üçün isə hər bir ölkədə informasiya təhlükəsizliyi sistemi yaratmaq vacib məsələdir.

## 4. Dövlət sirlərinin qorunması informasiya sahəsində milli təhlükəsizliyin təmin olunmasının tərkib hissəsi kimi

Azərbaycan Respublikasının milli təhlükəsizliyinin etibarlı təmin olunmasında dövlət sirlərinin qorunması məsələsi mühüm yer tutur. 2004-cü il 7 sentyabr tarixində «Dövlət sirri haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Hazırkı dövrə qədər Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 3 iyun tarixli fərmanı ilə təsdiq edilmiş «Məlumatların dövlət sirrinə aid edilməsi Qaydaları»nın, Azərbaycan Respublikası Prezidentinin 27 oktyabr 2006-cı il tarixli «Milli təhlükəsizliyin və maraqların, habelə dövlət sirrinin qorunması sahəsində əlavə tədbirlər barədə» Sərəncamının, habelə digər müvafiq normativ hüquqi aktların tələblərinin icrası ilə bağlı ciddi tədbirlər görülmüşdür.

Azərbaycan Respublikasının təhlükəsizliyini təmin etmək məqsədilə məlumatların dövlət sirrinə aid edilməsi, mühafizəsi və istifadə edilməsi, onların məxfiləşdirilməsi və ya məxfiliyinin açılması ilə əlaqədar yaranan münasibətləri «Dövlət sirri haqqında» Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir. Qanunun 1-ci maddəsində deyilir: **«Dövlət sirri-dövlətin hərbi, xarici-siyasi, iqtisadi, kəşfiyyat, əks-kəşfiyyat əməliyyat-axtarış fəaliyyəti ilə bağlı olub, dövlət tərəfindən mühafizə edilən və yayılması Azərbaycan Respublikasının təhlükəsizliyinə ziyan vura bilən məlumatlardır».**



Məlumatların mühafizəsini təmin etmək üçün dövlət hakimiyyəti orqanlarında, müəssisə, idarə və təşkilatlarda məxfilik rejiminə əməl etmək lazımdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 17 oktyabr tarixli 160 nömrəli qərarı ilə təsdiq edilmiş, «Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanlarının, müəssisə, idarə və təşkilatlarının dövlət sirrinin mühafizəsi üzrə struktur bölmələri haqqında Nümunəvi Əsasnamə»də göstərildiyi kimi: «**Məxfilik rejimi – dövlət sirri təşkil edən məlumat və məlumat daşıyıcılarının mühafizəsinin təmin edilməsinin Azərbaycan Respublikasının dövlət sirri haqqında qanunvericiliyi ilə müəyyən edilmiş vahid qaydalarıdır».**

«Dövlət sirri haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun məlumatları qorumaq üçün məxfilik qrifindən istifadə olunur. **Məxfilik qrifi – məlumat daşıyıcısının özündə və ya ona qoşulan sənədlərdə qoyulan, daşıyıcısı olduğu məlumatın məxfilik dərəcəsini göstərən rekvizitlərdir.**

Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 3 iyun tarixli 249 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Məlumatların dövlət sirrinə aid edilməsi qaydaları» və «Dövlət sirri haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq məlumatlara aşağıdakı məxfilik dərəcələri verilə bilər:

**«xüsusi əhəmiyyətli»** - dövlətin hərbi, xarici-siyasi, iqtisadi, kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyəti sahələrinə aid olan və yayılması həmin sahələrdən birində və ya bir neçəsində Azərbaycan Respublikasının mənafeyinə ziyan vura bilən məlumatlara verilən məxfilik dərəcəsi;

**«tam məxfi»** - dövlətin hərbi, xarici-siyasi, iqtisadi, kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyəti sahələrinə aid olan və yayılması həmin sahələrdən birində və ya bir neçəsində Azərbaycan Respublikasının mərkəzi icra ha-

kimiyyəti orqanının mənafeyinə ziyan vura bilən məlumatlara verilən məxfilik dərəcəsi;

**«məxfi»** - dövlətin hərbi, xarici-siyasi, iqtisadi, kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyəti sahələrinə aid olan və yayılması həmin sahələrdən birində və ya bir neçəsində ayrı-ayrı dövlət müəssisə, idarə və təşkilatlarının mənafeyinə ziyan vura bilən məlumatlara verilən məxfilik dərəcəsi.

«Dövlət sirri haqqında» Azərbaycan Respublikasının Qanununun 5-ci maddəsində dövlət sirri təşkil edən məlumatların siyahısı verilmişdir. Həmin siyahıda aydın şəkildə göstərilir ki, **hərbi sahədə aşağıdakı məlumatlar dövlət sirrini** təşkil edir:

– Azərbaycan Respublikası silahlı qüvvələrinin, başqa silahlı birləşmələrinin, qanunvericiliklə nəzərdə tutulmuş digər qoşunlarının strateji, operativ və səfərbərlik üzrə yerləşdirilməsinə dair əməliyyatların hazırlanması və keçirilməsi üzrə strateji və əməliyyat planlarının, döyüşü idarəetməyə dair sənədlərinin məzmunu, onların döyüş və səfərbərlik hazırlığı, səfərbərlik ehtiyatlarının yaradılması və istifadəsi haqqında;

– Azərbaycan Respublikası silahlı qüvvələrinin və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış digər silahlı birləşmələrinin quruculuq planları, silahların və hərbi texnikanın inkişafının istiqamətləri, silah və hərbi texnika nümunələrinin yaradılması və modernləşdirilməsi üzrə məqsədli proqramların, elmi-tədqiqat və təcrübi-konstruktor işlərinin məzmunu və yerinə yetirilməsinin nəticələri haqqında;

– silah və hərbi texnika nümunələrinin taktiki-texniki xarakteristikaları və döyüşdə tətbiqi imkanları, hərbi təyinatlı yeni növ maddələrin xüsusiyyətləri, resepturaları və ya texnologiyaları haqqında;

– milli təhlükəsizlik və müdafiə mülahizələrinə görə xüsusi əhəmiyyət kəsb edən obyektlərin yerləşməsi, təyinatı, hazırlıq və müdafiə olunma dərəcəsi, tikintisi və istismarı,



habelə bu obyektlər üçün torpaq, yerin təki və akvatoriyalar ayrılması haqqında;

– qoşunların yerləşməsi, hüquqi adları, təşkilati strukturu, şəxsi heyətinin sayı və onların döyüş təminatı haqqında, həmçinin hərbi-siyasi və ya əməliyyat şəraiti haqqında;

– Azərbaycan Respublikası ərazisinin müdafiə və mühüm iqtisadi əhəmiyyətli geodeziya məntəqələrinin və coğrafi obyektlərinin koordinatorları haqqında.

**İqtisadi sahədə aşağıdakı məlumatlar dövlət sirrini təşkil edir:**

– Azərbaycan Respublikasının və onun ayrı-ayrı bölgələrinin mümkün hərbi əməliyyatlara hazırlıq planlarının məzmunu, silah və hərbi texnikanın istehsalı və təmiri üzrə sənayenin səfərbərlik gücü, hərbi sahədə istifadə edilən xammal və materialların strateji növlərinin göndərilməsi həcmi, ehtiyatlarının yerləşdirilməsi, faktik həcmi və istifadəsi haqqında;

– Azərbaycan Respublikasının müdafiə qabiliyyətinin və təhlükəsizliyinin təmin olunması məqsədi ilə onun infrastrukturundan istifadə olunması haqqında;

– mülki müdafiə qüvvələri və vasitələri, inzibati idarəetmə obyektlərinin yerləşməsi, təyinatı və müdafiə olunması dərəcəsi, əhalinin təhlükəsizliyinin təminolunma dərəcəsi, dövlətin təhlükəsizliyinin təmin olunması üçün nəzərdə tutulan nəqliyyat və rabitənin fəaliyyəti haqqında;

– dövlət müdafiə sifarişlərinin həcmləri, planları (tapşırıqları), silah, hərbi texnika və digər hərbi məhsulların buraxılması və göndərilməsi (pul və ya natura ifadəsində), onların buraxılışı üzrə mövcud güc və bu gücün artırılması haqqında, göstərilən silah, hərbi texnika və digər hərbi məhsulları işləyib hazırlayan və ya istehsal edən müəssisələr, onların kooperasiya üzrə əlaqələri haqqında;

– dövlətin təhlükəsizliyinə təsir edən mühüm müdafiə və ya iqtisadi əhəmiyyəti olan elmi və texniki nailiyyətlər, el-

mi-tədqiqat, təcrübi-konstruktor, layihə işləri və texnologiyaları haqqında;

– siyahısı qanunvericiliklə müəyyənləşdirilən strateji növlü faydalı qazıntıların ehtiyatlarının, istehsalının, idxalı və ixracının, satışının həcmi, dövlət ehtiyatları haqqında, pul əskinaslarının, qiymətli kağızların hazırlanması, saxtalaşdırmadan qorunması, həmçinin dövlətin maliyyə fəaliyyətinin digər xüsusi tədbirləri haqqında.

**Xarici siyasət sahəsində aşağıdakı məlumatlar dövlət sirrini təşkil edir:**

– Azərbaycan Respublikasının xarici-siyasi və xarici-iqtisadi fəaliyyəti haqqında, əgər onların vaxtından əvvəl açıqlanması dövlətin təhlükəsizliyinə ziyan vura bilərsə;

– Azərbaycan Respublikasının digər dövlətlərlə hərbi, elmi-texniki və başqa sahələrdə əməkdaşlığı haqqında, əgər onların vaxtından əvvəl açıqlanması tərəflərdən heç olmasa biri üçün diplomatik fəaliyyətinin həyata keçirilməsində çətinlik yaranmasına səbəb ola bilərsə.

**Kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyəti sahəsində məlumatlar:**

– kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyətinin qüvvə və vasitələri, mənbələri, metodları, planları və nəticələri haqqında, habelə bu fəaliyyətin maliyyələşdirilməsinin göstəriciləri haqqında, əgər bu göstəricilər sadalanan məlumatları açıqlayırsa;

– kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanlarla konfidensial əsaslarla əməkdaşlıq edən və əməkdaşlıq etmiş şəxslər haqqında;

– dövlət mühafizəsi obyektlərinin təhlükəsizliyinin təmin olunmasının təşkili, qüvvə və vasitələri, metodları haqqında, habelə bu fəaliyyətin maliyyələşdirilməsinin göstəriciləri haqqında, əgər bu göstəricilər sadalanan məlumatları açıqlayırsa;

– şifrlənmiş, o cümlədən kodlaşdırılmış və məxfiləşdirilmiş rabitə sistemləri haqqında, şifrlər, şifrlərin işlənməsi



və hazırlanması, onlarla təminat, şifrələmə və xüsusi mühafizə vasitələri haqqında, xüsusi təyinatlı informasiya-analitik sistemləri haqqmda;

– məxfi məlumatların mühafizəsi metodları və vasitələri haqqında;

– dövlət sirrinin mühafizəsinin təşkili və faktiki vəziyyəti haqqında;

– Azərbaycan Respublikasının dövlət sərhədinin mühafizəsi haqqında;

– Azərbaycan Respublikasında dövlətin müdafiəsinin, təhlükəsizliyinin və hüquq-mühafizə fəaliyyətinin təmin olunması ilə əlaqədar dövlət büdcəsinin xərcləri haqqında;

– dövlətin təhlükəsizliyinin təmin olunması məqsədilə keçirilən tədbirləri açıqlayan kadr hazırlığı haqqında».

Yekun olaraq qeyd etmək olar ki, dövlət sirrinə aid olan məlumatların qorunması təkcə informasiya sahəsində milli təhlükəsizliyin təminatında deyil, həmçinin ümumilikdə milli təhlükəsizliyin təmin olunmasında mühüm rol oynayır.

## 5. İnformasiya müharibəsi

Beynəlxalq inteqrasiyanın güclənməsi beynəlxalq terrorçuluğun, o cümlədən müasir informasiya texnologiya və vasitələrinə malik kiberterrorçuluğun artması ilə müşayət olunur. Belə cinayətlərin həyata keçirilməsi üçün terrorçuda kompüterin və kompüter şəbəkəsinə çıxışın olması kifayətdir.

Bütün bunlar milli təhlükəsizliyin təmin edilməsi üçün prinsipcə bir sıra yeni problemlərin həll edilməsini qarşıya qoyur.

İnformasiya müharibəsi anlayışı 80-ci illərin ortalarında soyuq müharibədən sonrakı dövr üçün ABŞ-ın silahlı qüvvələrinin yeni vəzifələri ilə bağlı meydana gəlmiş, informasiya texnologiyaları isə bir silah kimi ilk dəfə 1991-ci ildə ABŞ tərə-

fındən İraqa qarşı keçirilən hərbi əməliyyatda tətbiq edilmişdir. **İnformasiya müharibəsi anlayışı Pentaqonun 21 dekabr 1992-ci il tarixli direktivində rəsmi olaraq təsbit edilmişdir.**

İnformasiya müharibəsini **səciyyələndirən xüsusiyyətlər** aşağıdakılar hesab edilə bilər:

– informasiya və informasiya sistemlərinin hamısı informasiya müharibəsinin obyekti hesab edilə bilər. Həmçinin bu obyektlər eyni zamanda əks təsir üçün də istifadə oluna bilər;

– digər müharibələrdən fərqli olaraq informasiya müharibəsinin ərazisi və məkanı çox genişdir və müharibə elan edilib-edilməməsindən asılı olmayaraq həyata keçirilə bilər;

– informasiya müharibəsi ixtisaslaşmış xüsusi qurumlar tərəfindən aparılır.

**İnformasiya müharibəsinin məqsədləri** aşağıdakılardır:

– dövlət hakimiyyəti orqanlarının, silahlı qüvvələrin, təhlükə potensiallı obyektlərin, bankların və digər obyektlərin idarəolunma infrastrukturunun dağıdılması;

– radioelektron təsirlərin həyata keçirilməsi;

– texniki kəşfiyyatın aparılması;

– müxtəlif obyektlərə gizli daxilolma vasitəsi ilə oradakı informasiya ehtiyatlarının təhrifi, məhvi və oğurlanması.

İnformasiya müharibəsi zamanı informasiya silahları tətbiq olunur. İnformasiya silahları adi silahlardan tətbiqinin gizliliyinə, miqyasının genişliyinə və dəfələrlə tətbiq olunma imkanına görə fərqlənir.

İnformasiya silahları **aşağıdakı məqsədlər** üçün tətbiq edilir:

– idarəetmə strukturlarının, kommunikasiya vasitələrinin fəaliyyətinin pozulması;

– texnoloji əlaqələrin və qarşılıqlı ödəmə sistemlərinin pozulması, habelə maliyyə dələduzluqlarının həyata keçirilməsi yolu ilə müəssisələrin və bankların fəaliyyətinin iflic edilməsi;



– yüksək təhlükə potensiallı obyektlərdə texnoloji proseslərin və obyektlərin idarə edilməsi proseslərinin pozulması yolu ilə böyük texnogen qəzaların yaradılması;

– insanların baxışlarına, davranışlarına mənfi təsirlərin edilməsi;

– əhali arasında narazılıq, təşviş yaradılması, insanların ayrı-ayrı sosial, etnik, dini qrupların pozucu hərəkətlərə təhrik edilməsi.

İnformasiya silahları **təyinatına görə şərti olaraq iki qrupa** bölünür:

– bilavasitə insanlara mənfi təsir üçün nəzərdə tutulan silahlar;

– texniki vasitələrə və sistemlərə təsir üçün nəzərdə tutulan silahlar.

**Bilavasitə insanlara təsir üçün nəzərdə tutulmuş silahlara kütləvi informasiya vasitələri və psixotrop preparatlar aid edilir.** Bu qrupa daxil olan silahların hədəfi bilavasitə insanlardır.

İnformasiya silahı kimi kütləvi informasiya vasitələri daha geniş əhatə dairəsinə malik və hədəfə daha rahat çatan vasitədir. Son illərdə baş verən hərbi konfliktlərin istər hazırlıq, istərsə də sonrakı mərhələlərində məhz bu silahdan istifadə edilməklə, beynəlxalq ictimaiyyətdə bu və ya digər radikal addımların atılmasının zəruri olması barədə rəy formalaşdırılması istiqamətində işlər aparılır və bir çox hallarda buna nail olunur.

İnsanlara mənfi təsir göstərilməsi üçün nəzərdə tutulmuş digər vasitə **psixotrop preparatlardır.** Dərman (narkotik) vasitələr olan bu pereparatların təsiri ilə insanların, insan qruplarının düşünmək qabiliyyəti pozulur, əhval-ruhiyyəsi və davranışı dəyişir.

Texniki vasitələrə və sistemlərə təsir göstərmək üçün nəzərdə tutulan informasiya silahlarına **radioelektron mübarizə vasitələri və xüsusi proqram-texniki təsir vasitələri** aid edilir.

**Radioelektron mübarizə vasitələri** düşmənin kəşfiyyat, naviqasiya, idarəetmə sistemlərinin, silahlarının, komplekslərinin müəyyən edilməsi və sıradan çıxarılması üçün tətbiq edilən vasitələrdir.

**Xüsusi proqram-texniki təsir vasitələri** isə informasiyanın qeyri-qanuni əldə edilməsi, gizlədilməsi, təhrif və ya məhv edilməsi məqsədi ilə informasiya sistemlərinə və şəbəkələrinə, informasiya ehtiyatlarına icazəsiz müraciətin həyata keçirilməsi üçün istifadə edilən proqram, aparat və ya proqram-aparat vasitələrdir.

Texniki kəşfiyyat yalnız təhlükəsizliyi təmin olunmayan, kompleks mühafizə edilməyən informasiya sistemlərindən və informasiya obyektlərindən informasiyanı gizli yolla əldə etmək imkanına malik olur. Bu məqsədlə texniki kəşfiyyat öncə informasiya obyektlərinin, sistemlərinin zəifliklərini, mühafizə sistemindəki boşluqları, təhlükəsizlik xidmətlərinin xətalarını öyrənir və potensial texniki sızma kanallarını müəyyən edir, informasiyanın gizli yolla əldə edilmə modellərini işləyib hazırlayır.

Bu gün informasiya elmi-texniki tərəqqini, iqtisadi və sosial inkişafı, bütövlükdə cəmiyyətlərin inkişafını stimullaşdıran hərəkətverici qüvvəyə çevrilib. İnformasiya texnologiyalarının yaratdığı imkandan, inkişafın hərəkətverici qüvvəsinə çevrilmiş informasiyadan maksimum faydalanmaq istəyən dövlət orqanlarında, müəssisə və təşkilatlarda, özəl sektorda texniki imkanların artırılmasına, yeni texniki vasitə və sistemlərin yaradılmasına, tətbiqinə prioritet vəzifə kimi baxılır.

**Son illər informasiya təhlükəsizliyinin təmin olunması məqsədilə ölkəmizdə bir sıra ixtisaslaşmış qurumlar yaradılmışdır. Onlardan biri olan Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 26 sentyabr tarixli 708 nömrəli Fərmanı ilə yaradılmışdır.** Agentlik dövlət orqanları üçün xüsusi dövlət rabitəsini, Prezident rabitəsini, xüsusi təyinatlı



informasiya-telekommunikasiya sistemlərini və şəbəkələrini idarələrarası elektron sənəd dövriyyəsini, dövlət orqanlarının internet şəbəkəsi ilə əlaqəsini, onların internet informasiya resurslarının məlumat və resurs mərkəzində yerləşdirilməsinin təşkilini, istismarını, təhlükəsizliyini və inkişafını təmin edən, dövlət orqanlarının informasiya sistemlərinin təhlükəsizlik parametrləri üzrə monitorinqini həyata keçirən, dövlət mühafizəsi obyektlərinin və mühafizə olunan obyektlərin təhlükəsizliyini təmin etmək məqsədi ilə xüsusi texniki tədbirləri hazırlayıb həyata keçirən qurumdur.

## 6. Azərbaycan Respublikasının kosmik gücünün formalaşması və ölkənin milli təhlükəsizliyinin təmin olunmasına təsiri

İnformasiya və kommunikasiya texnologiyalarının (İKT) tətbiqinin səviyyəsi hər bir ölkənin sosial-iqtisadi inkişafı ilə yanaşı, onun intellektual və elmi potensialının, dövlət idarəçiliyində şəffaflığın və səmərəliliyin, həmçinin cəmiyyətin inkişafının əsas göstəricilərindən biri hesab olunur.

İnformasiya və kommunikasiya texnologiyaları sahəsi prioritet sahə elan edilmişdir. Rabitə və informasiya texnologiyaları neft sahəsindən sonra Azərbaycan iqtisadiyyatının ən inkişaf etmiş sektoru hesab oluna bilər. İnformasiya və kommunikasiya texnologiyalarının geniş tətbiqi ölkənin hərtərəfli inkişafına xidmət etməklə yanaşı, informasiya sahəsində milli təhlükəsizliyin təmin olunması baxımından da xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasının Avropa və Asiya qitələri arasında əlverişli geoiqtisadi, coğrafi, eləcə də informasiya magistrallarının kəsişdiyi məkanda yerləşməsi informasiya mübadiləsinin xarici ölkələrdən asılılığının aradan qaldırılması, iqtisadi və informasiya təhlükəsizliyinin əsas kom-

ponentlərindən olan telekommunikasiya peyklərinin hazırlanması və orbitə çıxarılması Azərbaycanın regionda informasiyanın ötürülməsi sahəsində lider ölkəyə çevrilməsi baxımından böyük əhəmiyyət kəsb edir.

Dövlətin iqtisadi və hərbi gücünün inkişafı zərurəti kosmik tədqiqatlar sahəsində fundamental elmi biliklərin genişləndirilməsini tələb edir. Kosmik fəzanın fəth edilməsi iqtisadiyyatın və milli təhlükəsizliyin səviyyəsini müəyyənləşdirən amillərdəndir. Aerokosmik fəzada yerləşdirilmiş cihazlar və komplekslər öyrənilən obyektlər haqqında genişmiqyaslı və keyfiyyətcə yeni olan məlumatları operativ şəkildə əldə etməyə, aerokosmik laboratoriyalar isə komponentlərin, dünya okeanının, planetlərin və digər xüsusi obyektlərin öyrənilməsinə geniş imkanlar yaradır.

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 17 avqust 2009-cu il tarixli Sərəncamı ilə «Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı» təsdiq edilmişdir.** Dövlət Proqramının **əsas məqsədi** respublikada kosmik sənayenin yaradılması və inkişaf etdirilməsi, dövlət strukturlarının peyk rabitəsinə olan tələbatının ödənilməsi, regionlarda əhalinin teleradio yayımına artan tələbatının təmin edilməsi, ölkənin beynəlxalq rabitə kanallarının artırılması və kosmik fəzadan səmərəli istifadə etməklə iqtisadi, sosial, elmi, mədəni, təhlükəsizlik və s. sahələrin inkişaf etdirilməsidir. Kosmik sənaye sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi, respublikanın kosmik sənaye potensialının möhkəmləndirilməsi, kosmik sənaye texnikasının inkişafı, yeni rabitə xidmətlərinin təşkili, teleradio yayımı, Yerin məsafədən zondlanması, hidrometeorologiya, ekoloji monitorinq, fövqəladə hallara nəzarət, kosmik tədqiqatlar, axtarış və xilasetmə üzrə proqramlar və s. bu sahənin inkişafına geniş perspektivlər yaradacaqdır.

Dövlət Proqramında aşağıdakı **əsas strateji məqsədlər** nəzərdə tutulur:



- gələcək inkişaf üçün potensialın yaradılması;
- milli və informasiya təhlükəsizliyinin təmin olunması və gücləndirilməsi;
- qlobal informasiya məkanına inteqrasiyanın genişləndirilməsi;
- dövlət orqanlarının, hüquqi və fiziki şəxslərin peyk şəbəkələrinə qoşulma imkanlarının təmin edilməsi;
- peyk sistemləri, onların idarə edilməsi və istismarı, eyni zamanda, kosmik sənayenin yaradılması və inkişafı üzrə normativ hüquqi bazanın təkmilləşdirilməsi;
- kosmik sənaye sahəsinə investisiyaların cəlb edilməsinə şəraitin yaradılması;
- respublika ərazisinin peyk rabitəsi, radio və televiziya yayımı ilə təmin edilməsi;
- dövlət strukturlarının xüsusi rabitəyə olan tələbatının ödənilməsi;
- respublika ərazisində ətraf mühitin monitorinqi və texnogen mənşəli fövqəladə halların proqnozlaşdırılması və tədqiqi üzrə araşdırmaların aparılması, dənizdə və quruda neft dağılmalarının miqyasının qiymətləndirilməsi;
- respublikanın beynəlxalq kosmik proqramlarda iştirakına şəraitin yaradılması;
- kosmik sənayenin inkişafının təmin edilməsi, yerli istehsalın stimullaşdırılması və onun ixrac potensialının dəstəklənməsi;
- kosmik sənaye və peyk sistemləri sahəsində mütəxəssislərin hazırlanması;
- strateji əhəmiyyətli infrastruktur obyektlərin təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə monitorinqin aparılması.
- kosmik sənayenin yaradılması və inkişafı.

Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması, kosmik informasiyanın qəbulu və emalı Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin Milli Aerokosmik

Agentliyi, telekommunikasiya peykinin idarə edilməsi və istismarı isə «Azərkosmos» ASC tərəfindən həyata keçirilir.

Azərbaycanda kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin, o cümlədən digər çoxməqsədli peyklərin orbitə çıxarılması ilk növbədə informasiya mübadiləsinin xarici ölkələrdən asılılığının aradan qaldırılması və informasiya təhlükəsizliyinin təmin edilməsi, eyni zamanda ölkədə yeni iqtisadi sahələr üzrə mövcud insan ehtiyatları və intellektual potensialın inkişaf etdirilməsi, elm tutumlu yeni layihələrin həyata keçirilməsi və nəticə etibarilə innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılması istiqamətində aparılan işlər arasında öz xüsusi və strateji əhəmiyyəti ilə seçilir.

**Azərbaycanın ilk peyki olan «Azerspace-1» telekommunikasiya peyki 7 fevral 2013-cü il tarixində orbitə buraxılmışdır.** «Azerspace-1» peyki 46 dərəcə Şərq uzunluq dairəsində, geostasionar orbitdə yerləşir və Avropa, Afrika, Mərkəzi Asiya, Qafqaz ölkələri və Yaxın Şərq regionunu əhatə edir. «Azerspace-1» peykinin orbitdə istismar müddəti ən az 15 il təşkil edəcəkdir.

«Azerspace-1» peykinin orbitə çıxarılması Azərbaycan Respublikası üçün bir sıra üstünlüklər vəd edir:

**Ümumi üstünlüklər:**

- iqtisadiyyatın şaxələndirilməsi və yeni sənaye sahələrinin inkişafı;
- informasiya mübadiləsinin xarici ölkələrdən asılılığının aradan qaldırılması və informasiya təhlükəsizliyinin təmin edilməsi;
- yeni iqtisadi sahələr üzrə mövcud insan ehtiyatları və intellektual potensialın inkişaf etdirilməsi, elm tutumlu yeni layihələrin həyata keçirilməsi;
- nəticə etibarilə innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılması;
- Azərbaycanın regional və beynəlxalq nüfuzunun genişləndirilməsi;
- Azərbaycanın İKT üzrə regional mərkəzə çevrilməsi ölkə iqtisadiyyatının telekommunikasiya xidmətlərinə olan ehtiyacının ödənilməsinin təmin edilməsi və telekommunikasiya infrastrukturun inkişaf etdirilməsi;
- teleradio yayım və rabitə xidmətlərinin göstərilməsi, hökumət və korporativ müştərilərin tələblərinə cavab verən yüksək etibarlı rabitə platformaları;
- ölkənin ən ucqar yaşayış məntəqələrində belə internetə qoşulmanın, elektron dövlət, təhsil, səhiyyə və digər xidmətlərin həyata keçirilməsininin təmin edilməsi;
- ölkənin mümkün informasiya blokadası riskindən qorunması və informasiya müharibəsində Azərbaycanın mövqelərinin möhkəmlənməsi;
- telekommunikasiya peyk xidmətlərinə görə xarici ölkələrə ödənilən maliyyə axınının Azərbaycan iqtisadiyyatına yönəldilməsi və peyk tutumlarının xaricə satılması.

**Spesifik üstünlüklər:**

- peyk rabitəsinin əhəmiyyəti. (Alternativlik rabitə üçün vacib məqamdır və ölkəmizdə hazırkı rabitə infrastrukturuna yeganə alternativ olaraq peyk rabitəsinin əhəmiyyəti böyükdür. Azərbaycan kimi dağlıq ərazilərdə yerləşən ölkələrdə yüksək keyfiyyətli və nisbətən daha ucuz başa gələn rabitə əlaqəsinin təmin edilməsi üçün peyk rabitəsinin əhəmiyyəti böyükdür);
- peykin istismara verilməsi bütün ölkə ərazisinin keyfiyyətli və sürətli internet xidmətləri ilə təmin edilməsinə əlavə təkan verəcəkdir;
- peykin istismara verilməsi nəticəsində xərclərin azalması ilə əlaqədar rabitə xidməti tariflərinin mümkün azalması müşahidə olunacaqdır;
- peyk ölkə ərazisində rəqəmli televiziya yayımının daha yüksək keyfiyyətlə təşkilini mümkün edəcək, yüksək keyfiyyətli televiziya yayımının təşkilinə dəstək olacaqdır;
- peyk ən ucqar məntəqələri belə əhatə etməklə, dövlət ilə vətəndaşlar arasında maneəsiz qarşılıqlı əlaqəni təmin edən müasir rabitə və idarəetmə sisteminin yaradılması və

"Elektron hökumət"in daha üstün keyfiyyətlə təşkili üçün vacib infrastruktur olacaqdır;

– peyk rabitəsi ölkəmizdə məsafədən (distant) təhsil və e-səhiyyə xidmətlərinin təşkilinə əlavə dəstək verəcəkdir;

– peyk həmçinin mürəkkəb geoloji və coğrafi mövqeyə malik ölkə ərazisində təbii fəlakətlərin nəticələrinin aradan qaldırılmasına və fövqəladə hadisələrin daha səmərəli idarə edilməsinə töhfə verəcəkdir.



# X FƏSİL

## Ekoloji sahədə milli təhlükəsizliyin təmin olunması

1. **Azərbaycan Respublikasının geocoğrafi mövqeyi və onun xüsusiyyətləri**
2. **Ekoloji təhlükəsizlik anlayışı və ekoloji sahədə milli təhlükəsizliyin təmin olunması tədbirləri**
3. **Azərbaycan Respublikasında ekoloji sahədə qanunvericilik və dövlət təşkilatlarının funksiyaları**
4. **Ekoloji təhlükəsizlik sahəsində beynəlxalq əməkdaşlıq və təcrübə**

## 1. Azərbaycan Respublikasının geocoğrafi mövqeyi və onun xüsusiyyətləri

Azərbaycanın iqlim şəraitinin müxtəlifliyi təbii mühitin ekoloji vəziyyətinə təsir edir. Ən vacib problemlərindən biri təbii mühitdə baş verən dəyişikliklərin respublika əhalisinin sağlamlığına göstərdiyi təsirdir. **Ən mühüm ekoloji məsələ ətraf mühitin irimiqyaslı çirklənməsi ilə (yanacaq yandırma nəticəsində karbon qazının atmosferə buraxılması, sənaye istehsalatı tullantıları ilə suyun və torpağın zəhərlənməsi) mübarizə aparmaqdır.**

Hal-hazırda dünya miqyasında təbii mühitdə proseslərin qlobal dəyişiklikləri, o cümlədən iqlimin istiləşməsi, atmosferin qaz tərkibinin pozulması, turşu tərkibli yağışların yağması, ozon təbəqəsinin nazilməsi, təbiətdə maddələr dövranının pozulması, kütləvi şəkildə meşələrin qırılması, torpaqların təbii münbitliyinin azalması və erroziyanın güclənməsi, səhralaşmanın genişlənməsi, planetin genofondunun azalması, təbii fəlakətlərin artması baş verməkdədir.

Azərbaycanda bu problemlər ərazinin coğrafi mövqeyinə, müxtəlif iqlim şəraitinə və kənd təsərrüfatı işlərinin aparılmasına görə xüsusi mürəkkəbliyi və çoxcəhətliliyi ilə fərqlənir. Bu gün respublikanın ekoloji vəziyyəti haqqında mükəmməl, ətraflı məlumatın alınması cəmiyyət və dövlət üçün son dərəcə vacibdir. Dünyada baş verən təbii-iqlim proseslərinin qarşılıqlı əlaqəsi Azərbaycanın da təbii-iqlim proseslərinə öz təsirini göstərir. Buna görə də dünyanın təbii mühitinin vəziyyəti Azərbaycanın ekoloji vəziyyətinə də təsir göstərir.

Atmosferin ümumi çirklənməsi bütövlükdə iqlimin dəyişməsinə, «istixana effekti»nin yaranmasına, bu isə qlobal istiləşməyə gətirib çıxarır. Son illərin tədqiqatlarına əsasən, Azərbaycanın düzənlik rayonlarında havanın temperaturunun əhəmiyyətli dərəcədə dəyişməsi müşahidə olunur.



Azərbaycan su təminatı səviyyəsinə görə dünyanın aztəminatlı regionuna daxildir. Hər 1 km əraziyə təqribən 100 000 m3, hər adambaşına isə ildə 950-1000 m3 su düşür. Təbii zonaların müxtəlifliyinə görə su ehtiyatları qeyri-bərabər paylanmışdır.

Xəzər dənizi dünyanın ən iri gölüdür, onun sahəsi 376 000 km, maksimal dərinliyi 1025 m, suyunun ümumi həcmi isə 77 min km-ə yaxındır. Xəzər dənizinin suları Rusiya, Qazaxıstan, Türkmənistan, İran və Azərbaycan sahillərini əhatə edir. Dənizin sahil xətlərinin ümumi uzunluğu 6380 km-dir, bunun 825-km-i Azərbaycan sahilləri təşkil edir. Xəzər dənizi bu dövlətlərin iqtisadi inkişafında çox mühüm rol oynayır.

Xəzər dənizinin şelf zonası və dibi, neft və qaz yataqları ilə zəngindir. Xəzər dənizinin sularında, xüsusən ona tökülən çayların mənsəblərində çoxlu qiymətli balıq növləri var. Su-gəmi nəqliyyatı dənizin sahillərindəki müxtəlif liman şəhərlərini bir-birinə yaxınlaşdırır. Xəzər dənizi yük daşınmasına görə dünya dənizləri arasında lider yerlərdən birini tutur.

Meşələr yerin bitki örtüyünün əsas tiplərindən biri olaraq mühit əmələgətirən önəmli amildir. Azərbaycan ərazisində ümumi ekoloji şərait onların vəziyyətindən çox asılıdır. Meşələrin ekoloji vəziyyətinin korlanması meşə ekosisteminin bir-birindən asılı olan komponentlərinin balans pozuntularına gətirib çıxarır.

Əhali müasir Azərbaycan Respublikasının ekologiyasında hakim mövqe tutur. İnsan – təbiət prinsipinin saxlanılması ekoloji mühitin vəziyyətinə və onun dəyişilməsinə olan təsirləri təyin edir. Bununla belə, əhali öz növbəsində təbii-ekoloji şəraitin gündən-günə artan dəyişikliklərini öz həyatında hiss edir.

Əhalinin sayı və sıxlığı təbii mühitə edilən təsirin dərəcəsini, ekoloji vəziyyətin demoqrafik əhəmiyyətini xarakterizə edir.

Əhalinin məskunlaşma və ərazi üzrə yerləşdirilmə sisteminin funksional xüsusiyyətləri onların xalq təsərrüfatındakı və ictimai həyatındakı rolunu müəyyən edir. İstehsalat, inzibati və ictimai-mədəni əhəmiyyətindən asılı olaraq, əhalinin məskunlaşmasının və ərazi sisteminin funksiyaları təbii mühitə edilən antropogen təsirlərin rejimi ilə üst-üstə düşür.

Şəhərlər təbii mühitə daha çox ekoloji təsir göstərir. Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Yevlax, Şirvan, Xankəndi və Naxçıvan kimi iri şəhərlərdə güclü antropogen təzyiqlər aşkar olunur.

Abşeron yarmadasının ərazisi, özünün sənaye infrastrukturu, yaşayış məntəqələrinin aqlomerasiyası ilə birlikdə ekoloji cəhətdən böhranlı vəziyyətdədir və biosferin əsas tərkib hissələrinin fəaliyyət qanunauyğunluğu olduqca pozulmuşdur. Meşələrin mövcudluğu, onların vəziyyəti və mühafizə edilməsi ekologiyanın ən mühüm məslələrindən biridir.

Biosferin antropogen yüklənməsini azaltmaq lazımdır. İnsan yaşamasına yararlı mühit o vaxt mövcud olur ki, həyat məkanının çox hissəsini təbii ekosistemlər tutsun.

Təbii mühitin ekoloji vəziyyəti əhali sağlamlığına birbaşa təsir göstərir. Təbii mühitin ekoloji vəziyyətinini pisləşməsi xəstəliklərin çoxalmasına və insan ömrünün qısalmasına səbəb olur. Əhalinin sağlamlığı dövlətin iqtisadi və ekoloji rifahının ən mühüm göstəricilərindən biridir.

## 2. Ekoloji təhlükəsizlik anlayışı və ekoloji sahədə milli təhlükəsizliyin təmin olunması tədbirləri

**Ekoloji təhlükəsizlik su hövzəsinin çirkləndirilməsinin qarşısının alınması, yaşıllıqların və bitki örtüyünün qorunub saxlanılması və artırılması, atmosferin müxtəlif tullantılarla zəhərlənməsinin qarşısının alınması, radioaktiv təhlükələrin aradan qaldırılması, heyvanat aləminin mühafizə olunması,**



**burada təbii artıma şərait yaradılması, şirin sulu çayların, bulaq və kəhrizlərin qorunub saxlanılması, insan və təbiət münasibətlərinin düzgün qurulması, ekoloji problemin həll olunmasında beynəlxalq təşkilatların gücündən istifadə etmək üçün müqavilələrin bağlanması, xarici sərmayələr qoyarkən, müəssisələr tikilərkən ekoloji təhlükəsizliyə diqqət verilməsi, ekoloji problemin həllində milli beynəlxalq səviyyəli elmi tədqiqat institutların modellərinin əlaqələndirilməsi tədbirləri nəticəsində yaranan şəraitdir.**

«Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası»nda ekoloji problemlər aşağıdakı kimi əks olunmuşdur: «Azərbaycan Respublikasındakı ekoloji problemlər Sovet İttifaqının enerji ehtiyatına olan tələbatının ödənilməsi məqsədi ilə əsasən Abşeron yarımadasında və Xəzər dənizində ekoloji nəticələr nəzərə alınmadan qeyri-təkmil üsullarla onilliklər ərzində aparılmış neft hasilatı ilə bağlıdır. Bundan əlavə, Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal olunmuş ərazilərində flora və faunanın kütləvi şəkildə məhv edilməsi, o cümlədən bu ərazilərdə genişmiqyaslı yanğınlar ölkə üçün ən böyük ekoloji problemlərdən birinə çevrilmişdir.

Azərbaycan Respublikasının şirin su ehtiyatlarının böyük həcminin qonşu ölkələrdə formalaşması və bu ölkələrin ərazilərində kimyəvi, radioaktiv və digər zərərli maddələrlə intensiv çirklənməyə məruz qalması əhalinin içməli su ilə təmin olunmasında problemlər yaradır. Bundan əlavə, Ermənistan ərazisində seysmik zonada yerləşən və texnoloji baxımdan köhnəlmiş Metsamor Atom Elektrik Stansiyası bütövlükdə region üçün təhlükə mənbəyidir. Ətraf mühitin çirklənməsi, münbit torpaqların deqradasiyası, təbii ehtiyatlardan qeyri-rasional istifadə, sənaye və məişət tullantılarının tələb olunan səviyyədə emal olunmaması ciddi problem mənbəyidir.

Ekoloji problemlər iqtisadi və sosial həyata mənfi təsir göstərir, ictimai sağlamlığa, cəmiyyətin maddi sərvətinə və dövlətin müvafiq qurumlarının fəaliyyətinə ciddi maneələr yaradır».

Hər bir müstəqil dövlət ekoloji təhlükəsizliyi təmin üçün ilk növbədə ekoloji təhlükəsizlik proqramı hazırlayır və həyata keçirir.

Ekoloji sahədə təhdidləri aradan qaldırmaq üçün təhdidlərin obyektinin və səbəbinin müəyyənləşdirilməsi, təhdidlərin aradan qaldırılmasının yol və vasitələrinin müəyyənləşdirilməsi dövlətin strateji vəzifəsidir.

Azərbaycan beynəlxalq ekologiya hüququnun prinsiplərini qəbul edərək onu yerinə yetirir.

Beynəlxalq **ekologiya hüququnun xüsusi prinsipləri** aşağıdakılardır:

– transsərhəd ekoloji zərərin yolverilməzliyi;

– təbii ehtiyatların ekoloji baxımdan əsaslandırılmış rasional ifadəsi;

– ətraf mühitin radioaktiv çirkləndirilməsinin yolverilməzliyi;

– dəniz mühitinin mühafizəsi;

– ətraf mühitin dəyişikliyə uğradan vasitələrdən hərbi və ya istənilən digər düşmən məqsədlərlə istifadə olunmasının qadağan edilməsi;

– milli yurisdiksiya hüdudlarından kənarda yerləşən ekoloji sistemlərə vurulmuş zərərə görə dövlətlərin beynəlxalq məsuliyyəti.

**Azərbaycan Respublikasının konstitusiyasında deyilir: «1. Hər kəsin ətraf mühitdə yaşamaq hüququ vardır. 2. Hər kəsin ətraf mühitin əsl vəziyyəti haqqında məlumat toplamaq və ekoloji hüquqpozma ilə əlaqədar onun sağlamlığına və əmlakına vurulmuş zərərin əvəzini almaq hüququ vardır».**

Azərbaycan Respublikasının nümayəndələri 1992-ci ildə BMT-nin Braziliyada Rio-de-Janeyro şəhərində keçirilən «Ətraf mühit və inkişaf» konfransında «İqlim dəyişmələri üzrə Konvensiya»nı imzalamış, bu konvensiya 1995-ci ildə Milli Məclis tərəfindən ratifitkasiya edilmişdir. Ölkəmiz



2000-ci ildə bu konvensiyanın həyata keçirilmə mexanizmini təyin edən Kioto Protokolunu (Yaponiyada) imzalamışdır.

Həyata keçirilən bu tədbirlərin əsas məqsədi iqlimin istiləşməsinə və «istixana effekti»nin yaranmasına səbəb olan atmosferə atılan sənaye tullantılarının miqdarının azaldılmasıdır.

**Ekoloji sahədə milli təhlükəsizliyin təmin olunması sahəsində ən mühüm tədbirlərdən biri ekosidin qarşısının alınmasıdır. Ekosid (ecocide) – bitki və heyvanat aləminin kütləvi surətdə məhv edilməsi, aimosferin və ya su sərvətlərinin zəhərlənməsi və ya ekoloji fəlakətlərə səbəb olan digər hərəkətlərə deyilir.**

Ekosidin ictimai təhlükəsi ondan ibarətdir ki, bu cinayət tərkibinin təsiri bitki və heyvanat aləminə, insanın həyatı və fəaliyyətinin təbii özülü olan ətraf təbii mühitə, ölkənin və cəmiyyətin davamlı sosial-iqtisadi inkişafına, xalqların genofondunun qorunmasına çox böyük ziyanlar vurur. Ekosidin **tərkib hissələri** aşağıdakılardır: **1) bitki aləmi, 2) heyvanat aləmi, 3) su sərvətləri, 4) atmosfer.**

Bitki və heyvanat aləminin kütləvi surətdə məhv edilməsi deyərkən insanın hər hansı bir hərəkəti nəticəsində bitki və heyvanat qruplarının yaşayışına son verilməsi başa düşülür. Kütləvi məhvetmə odur ki, bitki və heyvanat (aləminin) qruplarının çox geniş hissəsini əhatə edir. İnsan, heyvan və bitki orqanizmlərinin həyatı üçün təhlükəli olan kimyəvi, bioloji mənşəli və radioaktiv maddələrlə atmosferin və su sərvətlərinin zəhərlənməsi də ekosidin tərkib hissəsidir.

Ermənistan Respublikası Azərbaycana qarşı ekosid siyasəti aparmaqdadır. Məlumdur ki, 1988-ci ildən ermənilərin başladığı müharibə nəticəsində Azərbaycan torpaqlarının 20%-dən çoxu işğal edilmişdir. Azərbaycan ərazilərinin işğal edilməsi nəinki şəhər və kəndlərin dağılmasına, eyni zamanda bütövlükdə ekoloji tarazlığın pozulmasına səbəb olmuşdur. Bu ərazilər təbii sərvətləri, nadir flora və faunası ilə hər zaman seçilirdi. Bu gün qiymətli ağac növləri ermənilər tərəfindən intensiv kəsilərək xaricə satılmaqda, geniş sahədə meşələr məhv edilməkdədir. İnternet məlumatlarına

görə, Ermənistan Respublikasında son illərdə mebel istehsalı 8 dəfə artmışdır. Bu xammalın isə Azərbaycan meşə sərvətlərinin qırılması nəticəsində əldə edildiyi görülməkdədir. Qəddar düşmənlər tərəfindən hərbi əməliyyatlar zamanı müasir texnika, silah və sursatlardan istifadə edilməsi, səngər qazılması və s. bu ərazilərdəki münbit torpaqların korlanıb sıradan çıxmasına, biomüxtəlifliyin məhv olmasına və ekoloji tarazlığın pozulmasına gətirib çıxarmışdır. Müxtəlif kimya və mədən sənayesinin zəhərli tullantılarının Metsomor AES-in radioaktiv tullantılarının, iri sahələrinin sənaye sularının birbaşa Araz çayına axıdılması da buna misaldır.

**Azərbaycan Respublikasının ekoloji sahədə digər bir milli təhlükəsizlik məsələsi Xəzər dənizi ilə bağlıdır.** Xəzər dənizini çirkləndirən əsas mənbələr aşağıdakılardır: təmizlənməmiş sənaye məhsulları və kənd təsərrüfatı tullantıları, çay və dəniz gəmiçiliyi, quru və su sahillərdə qaz və neft buruqlarının istismarı, dəniz dibinin dərinləşdirilməsi işləri zamanı ikinci çirklənmə, atmosfer və su vasitəsilə uzaq zonalardan çirkli maddələrin gəlməsi. Qeyd etmək lazımdır ki, çaylar vasitəsilə hər il Xəzərə 40-45 km$^3$ çirkab daxil olur. Onun da 80%-i Volqa çayının payına düşür. Xəzər sularının çirklənməsində Kür və Ural çayları da az rol oynamır. Tbilisi, Rustavi şəhərlərinin və sənaye müəssisələrinin çirkab suları Kür çayı vasitəsilə Xəzərə daxil olur. Bununla yanaşı, dəniz neft yataqlarının istismarı və neft məhsullarının daşınması, dəniz nəqliyyatı da Xəzər sularını xeyli çirkləndirir.

Neft Daşları və Bakı buxtası akvatoriyaları çirklənmə dərəcəsinə görə «ölü zona» adlandırılan sahələrə aiddir. Bu sahələrin sularında neftin miqdarı 1,26 -3,83 mq/l-ə çatır. Sənaye və neft tullantıları nəticəsində suyun 20-25 sm üst qatında neft məhsullarının miqdarı ümumi çəkinin 67%-ni təşkil edir. Bakı buxtasının qruntu 3,5-5,7 m dərinlikdə neft məhsulları ilə doymuşdur. Təmizləyici qurğuların quraşdırılması və Xəzərə axıdılan sənaye, məişət tullantılarına nəzarət ətraf mühiti mühafizə proqramının başlıca istiqamətlərindən biridir.



**Hazırda Cənubi Qafqaz və o cümlədən Azərbaycan Respublikası üçün ən real təhlükə mənbəyi Ermənistan ərazisində fəaliyyət göstərən Metsamor Atom Elektrik stansiyasıdır.** Bu stansiya texnoloji cəhətdən köhnəlmiş sistem olub, müasir AES-lər kateqoriyasına daxil deyildir. Bu stansiyada texnoloji qəzaların başvermə ehtimalı yüksəkdir. Metsamor AES-in istehsal tullantılarının ləğv edilməsi üçün əlverişli poliqonun olmaması, Ermənistan ərazisində çox mürəkkəb sosial-iqtisadi və siyasi böhran vəziyyətinin olması, həmçinin seysmik cəhətdən riskli zonada yerləşməsi onun təhlükəlilik dərəcəsini daha da artırır.

8 iyun 1999-cu ildə Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdq edilmiş Ekoloji təhlükəsizlik haqqında Azərbaycan Respublikasının qanununda insanın və cəmiyyətin həyati vacib maraqlarının, ətraf mühitin ona antropogen və təbii təsirlər nəticəsində yaranan təhlükələrdən qorunmasının təmin edilməsi ekoloji təhlükəsizlik kimi xarakterizə olunur.

Həmin qanunun beşinci maddəsində insanın, cəmiyyətin və dövlətin təhlükəsizliyinin tərkib hissəsi olan **ekoloji təhlükəsizlik sahəsində dövlət siyasətinin əsas istiqamətləri** kimi aşağıdakılar göstərilmişdir:

- ölkənin inkişaf strategiyasının formalaşdırılmasında və həyata keçirilməsində ekoloji təhlükəsizliyin üstün qaydada təmin edilməsi;
- ekoloji təhlükəsizlyin ümumdünya, regional və yerli səviyyədə təmin etmək məqsədilə beynəlxalq əməkdaşlığın inkişafı;
- biosferin və onun bütün komponentlərinin qorunub saxlanılmasının insanların həyatı və fəaliyyəti üçün ekoloji cəhətdən təhlükəsiz şəraitin təminat sisteminin yaradılması;
- ölkənin ərazisində, o cümlədən Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində dövlət və yerli özünüidarəetmə orqanlarının uzlaşdırılan fəaliyyətinin təmin edilməsi;

– təhlükəli və fövqəladə ekoloji vəziyyətin qarşısının alınması, onun, gələcək nəsillərə təsir göstərə biləcək nəticələr də daxil olmaqla, aradan qaldırılması üzrə tədbirlərin hazırlanması və ardıcıl həyata keçirilməsi;

– ətraf mühitə təsir edən təsərrüfat və digər fəaliyyətin ekoloji təhlükəsizliyin təmin edilməsi mövqeyindən nizama salınması.

## 3. Azərbaycan Respublikasında ekoloji sahədə qanunvericilik və dövlət təşkilatlarının funksiyaları

Ekoloji sahədə qanunvericilik və tənzimləyici qaydalar, həmçinin bu sahədə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının hüquq sisteminin ayrılmaz tərkib hissəsidir.

**«Ətraf mühitin mühafizəsi haqqında» Qanun 1999-cu ildə qəbul olunub.** Qanunda təbiəti mühafizənin əsas prinsipləri, dövlətin, ictimai təşkilatların və vətəndaşların bu sahədə hüquq və vəzifələri göstərilmiş, təbiət istifadəçiləri tərəfindən ətraf mühitin, istehsalat monitorinqinin aparılması vəzifələri müəyyən edilmişdir. Həmçinin qanunda onun tələblərinin pozulmasına görə məsuliyyətin əsasları müəyyən edilmişdir.

Qanun aşağıdakı məsələlərə ünvanlanıb:

– dövlət, onun vətəndaşları, ictimai əlaqələr və yerli hakimiyyət orqanlarının hüquq və öhdəlikləri;

– təbii sərvətlərdən istifadə;

– monitorinq, standartlaşdırma və sənədləşdirmə;

– ətraf mühitin mühafizəsinin iqtisadi tənzimlənməsi;

– iqtisadi fəaliyyətlər üçün ekoloji tələbatlar;

– ekoloji təhsil, elmi axtarış, statistika və məlumat;

– ekoloji böhran və ekoloji cəhətdən təhlükəli zona;

– ətraf mühitin mühafizəsinə nəzarət;

– ekoloji auditin aparılması;



– ətraf mühit qanunvericiliyində pozuntu halları baş verən zaman öhdəliklər;

– beynəlxalq əməkdaşlıq.

«Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında» Qanun (2000-ci il) spesifik sahələrin mühafizə və istifadə olunmasını tənzimləyir və onların statusunu müəyyən edir. Neft-qaz kəşfiyyatı, yataqların istismarı, boru kəmərlərinin çəkilməsi və istismarı zamanı bu qanunun müddəalarını yerinə yetirilməsinə xüsusi diqqət yetirməlidirlər və bu obyektlərə heç bir fiziki və kimyəvi təsirlər olmamalıdır.

**«Ekoloji təhlükəsizlik haqqında» Qanuna (1999)** görə yerin təkindən istifadə edənlər yararsız hala salınmış torpaq sahələrini, təbii landşaftı və digər təbiət obyektlərini onların gələcək istifadəsi üçün yararlı vəziyyətə gətirilməsinə cavabdehdirlər.

**«Əhalinin radiasiya təhlükəsizliyi haqqında» Qanun (1997)** bu və ya digər istehsal obyektlərinin istismarı zamanı radiasiya təhlükəsizliyini təmin edən tələbləri müəyyən edir və onların təmin edilməsində dövlət siyasətinin əsas istiqamətlərini təyin edir, ionlaşdırıcı şüa mənbələri istifadə olunan sahələrdə işçilərin və əhalinin təhlükəsizliyini təmin edən ekoloji normativləri, həmçinin qəza hadisələri zamanı əhalinin səhhətinə, əmlakına və həyatına dəymiş ziyanın ödənilməsi üçün onların hüquqlarını müəyyən edir.

**«Sanitar-epidemioloji təhlükəsizlik haqqında» Qanun (1992)** vətəndaşların və dövlət nəzarət orqanlarının sanitar-epidemioloji təhlükəsizliyinin təmin olunması sahəsində hüquq və vəzifələrin, sanitar-gigiyenik normativlərin müəyyən edilməsinin əsas prinsiplərini müəyyən edir, obyektlərin və digər təsərrüfat fəaliyyətlərinin layihələşdirilməsi, tikintisi və istismarı zamanı qanunvericilikdə nəzərdə tutulmuş sanitar-epidemioloji təhlükəsizliyin tələblərini təyin edir. Bu qanuna və Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə görə sanitar norma və qaydaları pozanlar məsuliyyətə cəlb edilirlər.

**«Atmosfer havasının mühafizəsi haqqında» Qanunda (2001)** atmosferə fiziki və kimyəvi təsirlərin idarə edilməsi, atmosferə zərərli təsirlərin dövlət uçotunun aparılması, atmosfer havasının mühafizəsinə nəzarətin təmin edilməsi, atmosferin çirklənməsi ilə əlaqədar meydana çıxan mübahisəli məsələlərin həlli ilə əlaqədar hüquqi əsaslar müəyyən edir.

**«Torpaqların məhsuldarlığı haqqında» Qanuna (2000)** görə torpaq sahibləri, icarəçiləri və istifadəçiləri torpaqların bərpası işlərini apararkən torpaqların məhsuldar qatını, onun mühafizəsini təmin etməlidirlər. Qanuna görə məhsuldarlığını itirmiş torpaqların bərpası torpağın xüsusiyyətindən asılı olaraq 3, 3-5 və 5 ildən artıq olmayan dövr ərzində həyata keçirilməlidir.

Azərbaycan Respublikasında ətraf mühitin qorunmasına nəzarəti həyata keçirən mərkəzi dövlət orqanı **Ekologiya və Təbii Sərvətlər Nazirliyidir (ETSN).** Ətraf mühitin mühafizəsi üzrə qaydaların tətbiqinə, normalara və standartlara riayət olunmasına nəzarət ETSN-ə həvalə edilmişdir.

Torpaqlardan istifadənin tənzimlənməsini **Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi** nəzarət edir, daşınmaz əmlakın, o cümlədən torpaq mülkiyyətçilərinin qeydiyyatını Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti yerinə yetirir.

Neft və qaz məhsullarının satışına lisenziyaların verilməsini **Energetika Nazirliyi** yerinə yetirir.

**Fövqəladə Hallar Nazirliyi (FHN)** gözlənilməz təbii və sənaye qəzaları baş verən zaman onların idarə olunmasına cavabdeh təşkilatdır. FHN həmçinin tikintidə, dağ-mədən işlərində, sənayedə təhlükəsizlik qaydalarının tətbiqinə nəzarəti yerinə yetirən dövlət orqanıdır.

**Səhiyyə Nazirliyi** ölkə ərazisində sanitar - epidemioloji vəziyyəti nəzarətdə saxlayan dövlət orqanıdır. Nazirlik həmçinin istehsal sahələrində sağlamlığın qorunması qaydalarını tənzimləyir.

**Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi** ölkə ərazisində ölçü avadanlıqlarının uyğunluğu-



nu, keyfiyyətin və kəmiyyətin standartlarını təyin edir və bu sahələrdə dövlət siyasətini həyata keçirir.

**Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ)** Azərbaycan Respublikasının yanacaq-energetika kompleksinin əsas və ən iri vahidlərindən biridir. O istehsalat fəaliyyəti ilə yanaşı ekoloji məsələlərin həlli ilə bağlı xüsusi ekoloji siyasət də həyata keçirir. ARDNŞ aşağıdakı məsələlərin həllini öz **ekoloji siyasətində prioritet vəzifələr** hesab edir:

- ARDNŞ-nin Xəzər dənizində və quru ərazilərdə neft dağılmalarının ləğv edilməsi üzrə fəaliyyət planı;
- Neft dağılmalarının qarşısının alınması üçün istehsalat idarələrinin müasir texniki avadanlıqlarla təmin edilməsi;
- ARDNŞ-nə məxsus gəmilərdə formalaşan tullantı sularının, neft və neft məhsulları tullantılarının toplanması və sahildə zərərsizləşdirilməsi sisteminin təkmilləşdirilməsi;
- Neft dağılmalarına qarşı mübarizədə milli və regional əməkdaşlığın həyata keçirilməsi;
- ARDNŞ-nin Xəzər dənizindəki fəaliyyət zonalarında və onların ətrafında çirklənmənin müntəzəm monitorinqinin aparılması;
- Xəzər dənizinin ekologiyası və ətraf mühitinin mühafizəsi ilə məşğul olan təşkilatlarla elmi-texniki, fövqəladə hallarda isə operativ informasiya mübadiləsinin həyata keçirilməsi;
- Xəzər dənizinin ekologiyası və biomüxtəlifliyinin qorunması sahəsində regional və milli proqramlara, layihələrə dəstək verilməsi, onların həyata keçirilməsinə yardım edilməsi.

**Azərbaycan Milli Elmlər Akademiyası** tullantıların zərərsizləşdirilməsi, ekoloji risklərin modelləşdirilməsi, radioekoloji şəraitin qiymətləndirilməsi üzrə elmi-tədqiqatların aparılması, qiymətləndirmə metodlarının hazırlanması, ətraf mühitin vəziyyətinin xəritələşdirilməsi işlərini yerinə yetirir.

**Yerli və regional qeyri-hökumət təşkilatları** da ekoloji problemlərin həllinə öz töhfələrini verə bilərlər.

## 4. Ekoloji təhlükəsizlik sahəsində beynəlxalq əməkdaşlıq və təcrübə

Ölkənin ekoloji təhlükəsizliyi istiqamətində milli səviyyədə həyata keçirilən tədbirlər planetar miqyasda ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən davamlı istifadə məsələlərini tam həll edə bilmir. Əvvəla, milli hüquq təminatlarından kənarda olan sərvətlər dünya dövlətləri tərəfindən intensiv istismara məruz qalırlar. Digər tərəfdən, dövlətlər öz ərazilərində təsərrüfat və digər fəaliyyətlər göstərərək qonşu dövlətlərin ətraf təbii mühitinə ciddi ziyan vurur, ya da qonşu dövlətlərin ekoloji maraqlarını bu və ya digər formada pozurlar. Buna real misal olaraq Araz və Kür çaylarının Ermənistan və Gürcüstan tərəfindən həddən artıq yüksək çirkləndirilməsini göstərmək olar. Üçüncüsü, dövlətlər tərəfindən razılaşdırılmış beynəlxalq tədbirlərin həyata keçirilməsi milli miqyasda ölkənin ekologiyasının mühafizəsi məsələlərinin həllini daha effektiv edir.

Dünya ictimaiyyətini qlobal ekoloji problemlər daha çox narahat edir. Bunlar, əsasən, iqlim dəyişmələri, ozon qatının nazilməsi, turşulu yağışlar, səhralaşma, bioloji müxtəlifliyin getdikcə azalması əhali artımının yüksək tempi və təbii ehtiyatların getdikcə tükənməsi problemləridir. Ətraf mühitin beynəlxalq hüquq normaları əsasən, indiki və gələcək nəsillər naminə yerin təbii sərvətlərinin davamlı istifadə olunmasının və qlobal ekologiyanın zərərli təsirlərdən mühafizəsinin effektiv idarə olunmasına yönəlmişdir.

Milli dövlətlər (xüsusilə iqtisadiyyatın keçid dövrünü yaşayanlar) ətraf təbii mühitin mühafizəsi sahəsində iqtisadi imkanlar və problemlərin miqyası baxımından beynəlxalq yardım olmadan bir çox ekoloji problemləri müstəqil həll etmək imkanına malik deyildir. Bununla əlaqədar olaraq, son dövrlərdə bu sahədə bir sıra strukturlar və mexanizmlər yaradılmışdır. Bu strukturların əsas məqsədi ölkələrin inkişafında, milli və bəşəri miqyasda ekoloji və sosial problemlərin həllində onlara yardım etməkdən ibarətdir. Belə struktur və mexanizmlərin fəaliyyətinin əsas faydası hər şeydən əvvəl bu ölkələrin qlobal və regional problemlərin həllinə cəlb olunmasından ibarətdir.

Özünün statusu, missiyası, fəaliyyət dairəsindən asılı olaraq beynəlxalq təşkilatlar müxtəlif yardımlar etmək imkanlarına malikdirlər. Bunlar adətən maliyyə, texniki, informasiya, məsləhət və.s yardımlardan ibarətdir.

Müasir dövrün iqtisadi inteqrasiya şəraitində bütün təhlükəsizlik sahələri (hərbi, ekoloji, iqtisadi, sosial və s.) içərisində ekoloji təhlükəsizliyin təmin olunması problemi bu gün üçün aktual hesab edilir. Yer kürəsinin əhalisinin ekoloji təhlükəsizliyi yalnız beynəlxalq birliyin birgə səyi nəticəsində təmin oluna bilər. Deməli, problemin həll edilməsi üçün bütün dövlətlərin və xalqların birgə koordinasiya edilmiş fəaliyyəti gərəklidir.

Ölkələrin **ekoloji təhlükəsizliyinin beynəlxalq aspektləri** aşağıdakılardır:

- milli təbiətdən istifadə proqramlarının reallaşdırılması təcrübəsinin mübadiləsi;
- dövlətlərarası proqram və razılaşmaların yaradılması və fəaliyyət göstərməsi;
- ətraf təbii mühitin vəziyyətinə və qəbul olunmuş razılaşmaların yerinə yetirilməsinə nəzarət edən beynəlxalq idarə və təşkilatların yaradılması.

Ölkələrin ekoloji təhlükəsizliyi sahəsində beynəlxalq əməkdaşlıq prinsipləri BMT-nin 1972-ci ildə keçirilmiş Stokholm konfransında ekoloji təhlükəsizliyə həsr olunmuş bəyannamədə qısa və dürüst ifadə edilmişdir:

**1-ci prinsip (başlıca):** Hər bir dövlət müvafiq olaraq öz ərazisindəki ehtiyatlardan istifadə etmək hüququna malikdir. Ancaq onlar üzərlərində böyük məsuliyyət daşıyırlar ona görə ki, onların fəaliyyəti ölkənin milli ərazisindən kənarda yerləşən dövlətlərin ekoloji təhlükəsizliyinə zərər vurmamalıdır.

**2-ci prinsip:** Yerin təbii ehtiyatları, o cümlədən hava, su, torpaq, flora, fauna və xüsusilə də təbii ekosistemin xarakterik növləri insanlarm səmərəli planlaşdırma fəaliyyəti vasitəsilə indiki və gələcək nəsil və ondan zərurət yaranan vaxt istifadə olunması üçün qorunmalıdır.

**3-cü prinsip:** Bərpa olunmayan ehtiyatlardan elə istifadə olunmalıdır ki, gələcəkdə bu ehtiyatların tükənməsinin qarşısı alınsın və beynəlxalq məkanda bütün insanlar onların istifadəsindən yararlana bilsinlər.

Ölkənin ekoloji təhlükəsizliyinin təmin olunması sahəsində beynəlxalq qarşılıqlı təsir prinsipləri Ümumdünya Təbiət Xartiyası ilə tamamlanmış, BMT Baş Məclisi tərəfindən təqdir edilmiş və 28 oktyabr 1988-ci ildə çıxarılmış Qətnamədə təntənəli şəkildə elan edilmişdir. Bu **prinsiplər** aşağıdakılardır:

– bioloji ehtiyatlardan yalnız onların təbii özünübərpaetmə qabiliyyəti həddində istifadə olunmalıdır;

– torpaqların məhsuldarlığı, uzunmüddətli münbitliyinin saxlanması və üzvi maddələrin tərkib hissələrinə ayrılması, eroziya və hər hansı bir başqa özünüməhvetmənin qarşısının alınması tədbirləri sayəsində saxlanılır və yaxşılaşdırılır;

– təkrar istifadəsi mümkün olan ehtiyatlardan, su ehtiyatları da daxil olmaqla təkrarən istifadə olunur;

– birdəfəlik istifadə olunan və bərpa olunmayan ehtiyatların, ehtiyatların istismarının düzgün qaydaları müəyyənləşdirilməlidir;

– ölkədə ekoloji təhlükəsizliyi pozan radioaktiv və toksiki tullantıların atılmasına qarşı dövlət səviyyəsində xüsusi tədbirlər görülməlidir;

– ölkənin ekologiyasına ciddi,bərpası mümkün olmayan zərər vura biləcək fəaliyyətdən imtina edilməlidir.

– insanların fəaliyyəti nəticəsində tənəzzülə uğramış rayonlar,onların təbii potensialına uyğun olaraq bu rayonda yaşayan əhalinin rifah halı qorunmaqla yenidən qurulmalı əvvəlki vəziyyətə gətirilməlidir.



Ətraf mühitin mühafizəsi üzrə beynəlxalq əməkdaşlıq sahəsində BMT-nin səlahiyyətləri onun nizamnaməsinin müddəaları ilə müəyyən edilir. Ətraf mühitin mühafizəsi humanitar xarakterli qlobal problemdir. Bundan başqa o kompleks xarakter daşıyır və bir çox iqtisadi, sosial və mədəni aspektlərə malikdir. BMT-nin Nizamnaməsi ilə müəyyən edilən səlahiyyətlərdən nəinki onun ətraf mühitin mühafizəsi sahəsində dövlətlərin fəaliyyətini əlaqələndirmək, həmçinin bu sahədə BMT-nin müstəqil fəaliyyət göstərmək imkanları önə çıxır. Adı çəkilən Nizamnamənin təhlili göstərir ki, BMT-nin orqanları içərisində ətraf mühit sahəsində əməkdaşlığın təşkili **BMT-nin Baş Məclisinə və İqtisadi Sosial Şuraya** həvalə olunmuşdur. Nizamnamənin 60-cı maddəsində deyilir ki, beynəlxalq iqtisadi və sosial əməkdaşlıqla bağlı göstərilmiş funksiyaların icrasına görə məsuliyyət Baş Məclis və onun rəhbərliyi altında, bu məqsədlə müəyyən səlahiyyətlərə malik olan İqtisadi və Sosial Şuranın üzərinə qoyulur.

BMT Nizamnaməsinin 62-ci maddəsində göstərilir ki, İqtisadi və Sosial Şura iqtisadi, sosial, mədəni, təhsil, səhiyyə və s. sahələrdə beynəlxalq məsələlərə aid tədqiqatlar və məruzələr edə bilər və ya istənilən beynəlxalq məsələlərə aid Baş Məclis, Birləşmiş Millətlərin üzvlərinə və maraqlı ixtisaslaşdırılmış təsisatlara tövsiyələr edə bilər.

BMT-nin ixtisaslaşdırılmış qurumları xüsusi sahələrdə əməkdaşlığı həyata keçirən, BMT ilə İqtisadi və Sosial Şura xətti ilə yaradılan universal xarakterli dövlətlərarası təşkilatlardır. Lakin ətraf mühit sahəsində bu müəssisələrin hamısı fəaliyyət göstərmir. Həmçinin qeyd etmək lazımdır ki, yalnız ətraf mühit sahəsində fəaliyyət göstərən belə sırf müəssisə yoxdur. Bəzi ədəbiyyatlarda isə **Ətraf Mühit üzrə BMT Proqramı (YUNEP)** da ixtisaslaşdırılmış müəssisə kimi göstərilir.

İxtisaslaşdırılmış müəssisələrin ətraf mühit sahəsindəki səlahiyyətlərinə dair birbaşa və ya dolayı göstərişlərin olub-olmamasını müəyyən etmək üçün onların nizamnamə və digər təsis aktlarının bəzi müddəalarını nəzərə almaq məq-

sədə müvafiqdir. Məsələn, **Ümumdünya Səhiyyə Təşkilatının** Nizamnaməsinin I maddəsində göstərilir ki, bu təşkilatın əsas məqsədi bütün xalqların mümkün olan yüksək sağlamlıq səviyyəsinə nail olmaqdır. Preambuladan görünür ki, «sağlamlıq» termini əlverişli, tam, fiziki, mənəvi və sosial vəziyyəti ifadə edir. Belə bir münbit vəziyyətin yaradılmasına nail olmaq üçün əlverişli ətraf mühit olmalıdır. Belə ki, Ümumdünya Səhiyyə Təşkilatı qarşısına qoyduğu məqsədlərə çatmaq üçün, birinci növbədə, insanı əhatə edən mühitin sağlamlaşdırılması və lazımi keyfiyyətin saxlanılması üzrə zəruri tədbirlər həyata keçirilməlidir.

**Beynəlxalq Əmək Təşkilatının** Nizamnaməsi ilə müəyyən edilən məqsədlər və vəzifələr sırasında işləyən kişi, qadın, yeniyetmə və uşaqların əlverişli iş şəraitinin təmin edilməsi, başqa sözlə, əlverişli istehsalat mühitinin təmin edilməsi də daxildir. Belə bir mühitin yaradılması sahəsində ixtisaslaşdırılmış təşkilat olan BƏT-in həyata keçirdiyi tədbirlər onun fəaliyyətində ekoloji aspektlərin olduğunu göstərir.

**Beynəlxalq Dəniz Təşkilatının** təsis sənədlərində (onun yaradılması haqqında konvensiyada) bu təşkilatın «Dənizdə təhlükəsizlik və səmərəli gəmiçilik məsələlərində ən yüksək standartların» hazırlanmasında və qəbul edilməsindəki rolu xüsusi qeyd edilir. Təşkilatın fəaliyyətinin elə ilk dövrlərində müəyyən edildi ki, gəmiçiliklə bağlı mühüm fəaliyyət sahəsi Dünya okeanı kimi bir təbiət obyektinin neftlə çirklənməsinin qarşısının alınmasıdır.

**YUNESKO-nun** Nizamnaməsinin I maddəsində deyilir ki, təşkilat «sülh və təhlükəsizliyin möhkəmləndırilməsini, elm, təhsil və mədəniyyət vasitəsilə xalqların əməkdaşlığna kömək etməlidir». Belə ki, ətraf mühit sahəsində geniş beynəlxalq əməkdaşlıq beynəlxalq təhlükəsizlik və sülhün möhkəmləndirilməsi sahəsində kompleks tədbirlərin bir elementidir. Digər tərəfdən, sabit sülh və təhlükəsizlik olmadan ətraf mühıtin mühafizəsi mənasızdır.



Əlverişli ətraf mühit mövcudluğunun şərtlərindən biri də ətraf mühitdə baş verən proseslər haqqında, ekoloji qanunauyğunluqlar haqqında biliklərə yiyələnməkdir. Bunun üçün isə ən əlverişli mexanizm YUNESKO-dur. Nizamnamə ilə məyyən edilən təşkilatın məqsədləri sırasına «bilikləri saxlamaq, inkişaf etdirmək və yaymaq», həmçinin «əqli fəaliyyətin bütün sahələrində xalqların əməkdaşlığına» kömək etmək, «ümumi insanlıq irsinin saxlanması və mühafizəsi» qayğısına qalmaq və s. daxildir. Bundan başqa YUNESKO tərəfindən hazırlanan bir çox ekoloji mühit proqramları: «İnsan və biosfer», «Beynəlxalq hidroloji proqram», «Dünya okeanın öyrənilməsi proqramı» onun ətraf mühit sahəsindəki aktiv fəaliyyətini sübut edir.

**MAQATE-nin** ətraf mühitin mühafizəsi sahəsində səlahiyyətləri onun yüksək təhlükə mənbəyi olan atom enerjisindən istifadənin tənzim edilməsində iştirak etməsi faktı ilə müəyyən edilə bilər. «Bütün dünyada əlverişli vəziyyətin və sağlamlığın» saxlanması üçün MAQATE-nin nızamnamə funksiyasının mühüm komponentlərindən biri də ətraf mühitin radiaktiv tulantılarla zəhərlənməsinin qarşısını almaqdır.

MAQATE tərkibində də ətraf mühitin çirklənmədən qorunması üçün xüsusi orqan fəaliyyət göstərir. Burada səhiyyə şöbəsi, tullantıların tənzimlənməsi və texniki şöbəsi, dəniz radioaktivliyi üzrə beynəlxalq laboratoriya, nüvə təhlükəsizliyi və ətraf mühitin mühafizəsi şöbələri fəaliyyət göstərir.

**Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO)** nizamnamə məqsədlərinə kənd təsərüfatı məhsullarını təkmilləşdirmək yolu ilə xalqların həyat səviyyəsini yüksəltmək və yaxşılaşdırmaq daxildir. Belə ki, bunun səviyyəsi də kənd təsərrüfatı istehsalının əsaslandığı yer, su və s. təbii ehtiyatlardan istifadə ilə müəyyən edilir.

Təsadüfi deyil ki, Nizamnamənin I maddəsi «təbii ehtiyatların saxlanması» sahəsində həyata keçirilən milli və beynəlxalq tədbirlərə kömək etmək vəzifəsini müəyyən edir. Belə ki, bu təşkilatın fəaliyyətində mühüm yeri təbiəti mühafi-

zə xarakteri daşıyan və özündə torpaq, meşə, su və heyvanlardan səmərəli istifadə və mühafizə üzrə tədbirlər proqramları tutur.

**Ümumdünya Metereologiya Təşkilatının** İcraiyyə Komitəsinin tərkibinə ətraf mühitin mühafizəsi ilə məşğul olan aşağıdakı ekspert qrupları daxildir:

– ətraf mühitin çirkləndirilməsi məsələsi üzrə ekspert qrupu;

– iqlimin dəyişməsi, havanın dəyişməsi üzrə ekspert qrupu.

1972-ci il Stokholm konfransına hazırlıq mərhələsində ətraf mühit sahəsində beynəlxalq əməkdaşlıqda iştirak etmək üçün ətraf mühitin mühafizəsi məsələsi üzrə komitə təsis edilmişdir. Bundan başqa, YUNESKO-nun tərkibində 1975-ci ildə ətraf mühit sahəsində fəaliyyətin əlaqələndirilməsi üzrə beynəlxalq sektorlararası komitə təsis edildi.

Yuxarıda göstərildiyi kimi, ixtisaslaşdırılmış müəssisələrin ətraf mühit sahəsindəki fəaliyyətinin tərkib hissəsini ətraf mühitin mühafizəsi üzrə proqramlar təşkil edir. Aydındır ki, bu proqramlar BMT çərçivəsində əlaqələndirilir. Proqramlar xüsusiyyət və növündən asılı olmayaraq bir-birini tamamlayır. Eyni zamanda, əlaqələndirmə səviyyəsindən və iştirakçıların sayından asılı olaraq bu proqramlar ayrı-ayrı kateqoriyalara bölünür. 1972-ci il Stokholm konfransından sonra YUNEP-in yaradılması istiqamətində aparılan fəaliyyət bu müsbət nəticəni bir qədər artırdı. Son illərdə isə müəyyən bir ekoloji problemin həlli üçün ixtisaslaşdırılmış müəssisələrarası proqramlar daha çox tətbiq edilir. Bu isə ixtisaslaşdırılmış müəssisələrin bir-biri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərməsi ilə mümkündür.

1992-ci ildən başlayaraq BMT çərçivəsində qəbul edilmiş bir sıra konvensiyaların qəbul olunmasında YUNEP aktiv iştirak etmişdir (məsələn, «Bioloji Müxtəliflik haqqında Konvensiya»). 2000-ci ilin yanvarında Monrealda «Bio-



loji Müxtəliflik haqqında Konvensiya»ya Əlavə Protokol qəbul edilmişdir. Bundan başqa XXI əsrin başlanğıcında YUNEP tərəfindən xüsusi bir «Qlobal ekoloji perspektiv - 2000» qəbul edildi. Burada da dünyanın 850 mütəxəssisi və 30-dan çox ekoloji təşkilat iştirak edirdi.

YUNEP-in əsas məqsədi «ətraf mühitin mühafizəsi sahəsində beynəlxalq qanunvericiliyin inkişafı və təkmilləşdirilməsi», bir sözlə, beynəlxalq ekologiya hüququnun mütərəqqi məcəlləşdirilməsi və inkişafıdır. YUNEP-in müvafiq fəaliyyəti beynəlxalq hökumətlərarası təşkilatlarla yanaşı, qeyri-hökumət təşkilatlarının ekoloji fəaliyyət istiqamətlərinin koordinasiyasına yönəlib.

YUNEP-in təbiəti mühafizə fəaliyyətinin ən mühüm istiqamətləri aşağıdakılardır: ayrı-ayrı təbiət obyektlərinin mühafizəsi (dəniz mühitinin müdafiəsi, torpağın və şirin suyun qorunması); müxtəlif zərərli təsirlərlə mübarizə (dağılma, çirkləndirmə ilə mübarizə); təbii ehtiyatların səmərəli istifadəsi; ətraf mühitin vəziyyətinin müşahidəsi üzrə dəniz məlumat xidmətinin (monitorinqin) yaradılması; təbiəti mühafizə fəaliyyətinin beynəlxalq-hüquqi əsaslarının işlənib hazırlanması. Bundan əlavə, YUNEP-in qarşısında duran **strateji əhəmiyyətli və aktual məsələlər** sırasında aşağıdakıları sadalamaq olar:

– hüquq üzrə, o cümlədən hüquq elmi üzrə sistematik informasiya toplusunun təşkili və təminatı;

– beynəlxalq konvensiya və sazişlərin bağlanması, ratifikasiyası və yerinə yetirilməsinə kömək;

– ətraf mühitin qorunması və mühafizəsi sahəsində dövlətlərin məsuliyyəti haqqında prinsiplərin işlənib hazırlanması və inkşafını təşkil etmək;

– tədris proqramı və elmi-tədqiqat müəssisələrinin iş planına ətraf mühit hüququnun daxil edilməsinə kömək;

– ətraf mühitin mühafizəsi sahəsində milli qanunvericiliklərin müqayisəli tədqiqatının aparılmasını təşkil etmək;

– təbiəti mühafizə qanunvericiliklərinin işlənib hazırlanmasında inkişaf etməkdə olan ölkələrə texniki köməyin göstərilməsi və s.

Beləliklə, mühüm ekoloji problemlərin həllinin bir təşkilatdaxili həll edilməsi qeyri-mümkündür və ona görə də mühüm təşkilatlar çərçivəsində bu fəaliyyətin əlaqələndirilməsi çox zəruridir. Yeni minillik üçün ətraf mühitin mühafizəsi problemlərinin həlli ancaq birgə səylərlə mümkündür.



# XI FƏSİL

## Təhsil, elm, mədəniyyət və mənəviyyat sahələrində milli təhlükəsizliyin təmin olunması

1. Təhsil sahəsində milli təhlükəsizliyin təmin olunması
2. Elm sahəsində milli təhlükəsizliyin təmin olunması
3. Mədəniyyət və mənəviyyat sahələrində milli təhlükəsizliyin təmin olunması

## 1. Təhsil sahəsində milli təhlükəsizliyin təmin olunması

İctimai həyatın bütün sahələrində olduğu kimi milli təhlükəsizliyin təminatında da ölkənin təhsil siyasəti mühüm rol oynayır. Milli təhlükəsizlik məsələləri içərisində təhsil sahəsinin sabit inkişafının təmin edilməsi vacib şərtlərdəndir. **Təhsilin əsas məqsədi** demokratik, hüquqi və dünyəvi dövlət olan Azərbaycan Respublikası qarşısında öz məsuliyyət və cavabdehliyini dərk edən, xalqının azadlıq amalına və demokratiya ənənələrinə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvər, dövlətçilik prinsiplərinə və azərbaycançılıq ideyalarına sadiq, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirməkdən; milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik, təşəbbüs və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktiki biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabətə davamlı mütəxəssis kadr hazırlamaqdan; cəmiyyətin və dövlətin inkişafına xidmət edən sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mənimsənilməsini təmin etməkdən, gənc kadrları həyata və səmərəli əmək fəaliyyətinə hazırlamaqdan, ixtisasını daima artırmaq və fəal vətəndaş mövqeyi formalaşdırmaqdan ibarətdir. Bütün təhsil müəssisələri, təlim-tərbiyə prosesi ilə məşğul olan və təhsil xidmətləri göstərən digər qurumlar, təhsil fəaliyyətini və onun inkişafını təmin edən elmi-tədqiqat və informasiya mərkəzləri, layihə, istehsal, kliniki, ictimai-iaşə, tibbi-profilaktik və əczaçılıq strukturları, idman, istirahət və sağlamlıq kompleksləri, mədəni-maarif müəssisə və təşkilatları, kitabxanalar, yataqxana və digər infrastruktur obyektləri, təhsili idarəetmə orqanları və onların tabeliyində fəaliyyət göstərən



müəssisə və təşkilatlar, təhsil sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatları, assosiasiyalar, cəmiyyətlər, elmi-metodik şuralar və digər qurumlar təhsil sisteminə daxildir.

Təhsil sisteminin dünyəviliyinin qorunması, təlim-tərbiyə proseslərinin milli dövlətçiliyə sədaqət ruhunda həyata keçirilməsi, milli vətənpərvərliyin aşılanması, məktəblilər arasında pozucu qüvvələrin fəaliyyətinin qarşısının alınması əsas vəzifələrdir.

Təhsil sahəsini tənzimləyən təhsil haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, «Azərbaycan Respublikasının Təhsil haqqında» Qanunundan, təhsil sahəsinə aid olan digər normativ hüquqi aktlardan və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir. Təhsil qanunvericiliyinin **əsas məqsədi** təhsil sahəsində vətəndaşların konstitusiya hüququnun təmin edilməsindən və qorunmasından, icra strukturlarının, təhsil alanların və təhsil verənlərin, fiziki və hüquqi şəxslərin hüquq və vəzifələrinin düzgün müəyyən edilməsindən, onlar arasında münasibətlərin tənzimlənməsindən, təhsil sisteminin sərbəst fəaliyyəti və inkişafı üçün hüquqi təminatların yaradılmasından ibarətdir.

Azərbaycan Respublikasının 2009-cu ildə qəbul olunmuş «Təhsil haqqında» Qanununa görə təhsil sahəsində **dövlət siyasətinin əsas prinsipləri** aşağıdakılardır:

**Humanistlik** – milli və ümumbəşəri dəyərlərin, şəxsiyyətin azad inkişafının, insan hüquqları və azadlıqlarının, sağlamlığın və təhlükəsizliyin, ətraf mühitə və insanlara qayğı və hörmətin, dözümlülüyün prioritet kimi qəbul olunması;

**Demokratiklik** – təhsil alanların azad düşüncə ruhunda tərbiyə edilməsi, təhsilin dövlət-ictimai əsaslarla təşkilində və idarə edilməsində səlahiyyət və azadlıqların genişləndirilməsi, təhsil müəssisələrinin muxtariyyətinin artırılması;

**Bərabərlik** – bütün vətəndaşların bərabər şərtlər əsasında təhsil almasına imkanlar yaradılması və təhsil hüququnun təmin olunması;

**Millilik və dünyəvilik** – milli və ümumbəşəri dəyərlərin qorunması və onların dialektik vəhdətinin təmin edilməsi əsasında dünyəvi təhsil sisteminin yaradılması və inkişaf etdirilməsi;

**Keyfiyyətlilik** – təhsilin mövcud standartlara, normalara, sosial-iqtisadi tələblərə, şəxsiyyətin, cəmiyyətin və dövlətin maraqlarına uyğunluğu;

**Səmərəlilik** – təhsilin və elmi yaradıcılığın daim inkişaf edən, faydalı və son nəticəyə istiqamətlənən müasir metodlarla təşkili;

**Fasiləsizlik, vəhdətlik, daimilik** – mövcud təhsil standartları, tədris proqramları və planları əsasında təhsilin bir neçə səviyyədə əldə edilməsi imkanı, təhsilin ayrı-ayrı pillələri arasında sıx dialektik qarşılıqlı əlaqənin təmin olunması və onun insanın bütün həyatı boyu ardıcıl davam etməsi;

**Varislik** – təhsil sahəsində əldə olunmuş bilik və təcrübənin ardıcıl olaraq növbəti nəslə (dövrə) ötürülməsi;

**Liberallaşma** – təhsil sahəsinin və təhsil fəaliyyətinin açıqlığının genişləndirilməsi;

**İnteqrasiya** – milli təhsil sisteminin dünya təhsil sisteminə səmərəli formada qoşulması, uyğunlaşması və qovuşması əsasında inkişafı.

Azərbaycan Respublikasında dövlət hər bir vətəndaşın təhsil alması üçün müvafiq şəraitin yaradılmasına təminat verir və təhsilin hər hansı pilləsindən, səviyyəsindən və formasından məhrum edilməsinə yol vermir. Dövlət cinsindən, irqindən, dilindən, dinindən, siyasi əqidəsindən, milliyyətindən, sosial vəziyyətindən, mənşəyindən, sağlamlıq imkanlarından asılı olmayaraq, hər bir vətəndaşa təhsil almaq imkanı yaradılmasına və ayrı-seçkiliyə yol verilməməsinə təminat verir. Dövlət mülkiyyət formasından asılı olmayaraq, bütün təhsil müəssisələrinə işə qəbulda, vəzifələrə təyin olunmada və ya seçilmədə, əməyin stimullaşdırılmasında, təhsil müəssisələrinə qəbul olunmada, qəbul zamanı yüksək bal toplayanların təqaüdlə təmin edilməsində, ixtisasların seçilməsində, biliyin qiymətləndirilməsində, məzunların işlə təmin edilməsində, təhsilin növbəti pillədə davam etdirilməsində, ixtisasın artırılmasında və təhsil sahəsində digər məsələlərdə kişilər və qadınlar üçün bərabər imkanlar yaradılmasını təmin edir. Həmçinin, dövlət hər bir vətəndaşın icbari ümumi orta təhsil almaq hüququnu təmin edir.

Dövlət təhsil müəssisələrində hər bir təhsil alan pulsuz ümumi təhsil almaq hüququna malikdir. Dövlət orta ixtisas təhsilində və ali təhsilin hər bir səviyyəsində qanunvericiliyə uyğun olaraq təhsil alanların yalnız bir dəfə pulsuz təhsil almaq hüququnu təmin edir, əmək bazarının tələblərinə uyğun olaraq təhsil müəssisələrinə ixtisaslı kadr hazırlığı üçün dövlət sifarişləri verir və məzunların müvafiq işlə təmin olunmasına şərait yaradır. Maddi vəziyyətindən asılı olmayaraq, istedadlı şəxslərin təhsilini davam etdirməsinə təminat verir, sosial müdafiəyə ehtiyacı olanların təhsil almasına şərait yaradır. Dövlət milli təhsil ənənələrinin qorunmasına, inkişafına və innovasiyaların tətbiqinə təminat verir, xaricdə yaşayan azərbaycanlıların təhsili ilə bağlı xüsusi layihələr və proqramlar həyata keçirir.

Azərbaycan Respublikasında təhsil sahəsində dövlət standartları mövcuddur. Təhsil sahəsində dövlət standartları fərdin, cəmiyyətin, dövlətin tələbatına uyğun olaraq, elmi-pedaqoji prinsiplər əsasında hazırlanan və müəyyən dövr (5 ildən az olmayaraq) üçün vahid dövlət tələblərini əks etdirən ümumi normalar məcmusudur. Bu təhsil standartları təhsil sahəsində sınanmış mütərəqqi beynəlxalq meyarlar, milli və

ümumbəşəri dəyərlər nəzərə alınmaqla müəyyən edilir. Dövlət təhsil standartları və onların qüvvədə olma müddəti müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir və təhsilin məzmununu, idarə olunmasını, maddi-texniki və tədris bazasını, infrastrukturunu, təhsil verənlərin keyfiyyət göstəricilərini, hər bir təhsil pilləsində təhsil alanların bilik, bacarıq və vərdişlərinin səviyyəsini müəyyənləşdirir.

Bütün təhsil müəssisələrində təhsilin müvafiq dövlət standartlarına uyğun təşkili təmin olunur. Həmçinin, təhsil müəssisəsinin fəaliyyətinin, təhsilin səviyyəsinin və təhsil alanların nailiyyətlərinin qiymətləndirilməsində, akkreditasiyada və attestasiyada müvafiq dövlət təhsil standartları əsas götürülür. Bununla yanaşı, sağlamlıq imkanları məhdud şəxslərin təhsili üçün xüsusi dövlət standartları müəyyən edilir.

Təhsilin **məzmununa və təşkilinə dair ümumi tələblər** aşağıdakılardır:

– təhsil alanlarda müasir tələblərə və şəraitə uyğunlaşmaq, rəqabət qabiliyyətli olmaq, informasiya cəmiyyətində yaşayıb fəaliyyət göstərmək, ünsiyyət yaratmaq bacarığını formalaşdırmaq;

– öz üzərinə məsuliyyət götürmək, kollegial qərarların qəbulunda, demokratik təsisatların fəaliyyətində və inkişafında iştirak etmək keyfiyyətlərinə malik müstəqil, yaradıcı şəxsiyyət və vətəndaş formalaşdırmaq;

– təhsil alanların fasiləsiz təhsil almasını, daim yeniləşən, müasir standartlara uyğun gələn biliklərə və dünyagörüşünə yiyələnməsini, cəmiyyətin tələbatını daha səmərəli ödəməsini, şəxsiyyət kimi inkişaf etməsini və ömür boyu təhsilin hamı üçün açıq və bərabər imkanlı olmasını təmin etmək.

Təhsil sahəsində dövlətin **əsas vəzifələri** aşağıdakılardır:

– təhsil sahəsində vahid dövlət siyasətini müəyyənləşdirmək və onun həyata keçirilməsini təmin etmək;



– milli təhsil sisteminin inkişaf konsepsiyasını və əsas prioritetlərini müəyyən etmək;

– milli təhsil sisteminin inkişafı üçün müxtəlif istiqamətli dövlət proqramlarını təsdiq etmək və onların icrasına nəzarəti həyata keçirmək;

– kadr hazırlığının prioritetlərini və istiqamətlərini, yüksək dərəcəli elmi-pedaqoji kadr hazırlığı proqramlarını müəyyən etmək;

– təhsil sahəsində dövlət siyasətinin və dövlət proqramlarının həyata keçirilməsinin monitorinqini aparmaq;

– milli təhsil sisteminin dünya təhsil sisteminə inteqrasiyasını, beynəlxalq standartlara cavab verən təhsil şəraitinin və mühitinin yaradılmasını təmin etmək;

– təhsil sahəsinin inkişafına ayrılan dövlət büdcəsi vəsaitlərinin həcmini və dövlət təhsil qrantlarının məbləğini müəyyən etmək və dövlət təhsil müəssisələrinin maliyyələşdirilməsini həyata keçirmək;

– hər büdcə ili üzrə dövlət təhsil sisteminin maliyyələşdirilməsi məqsədilə hər bir təhsil alana (şagirdə, tələbəyə, doktoranta və s.) düşən təhsil xərclərinin miqdarını və maliyyə normativlərini müəyyən etmək;

– ilk peşə-ixtisas, ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu planını müəyyənləşdirmək.

Həmçinin dövlətin bu sahədə «Təhsil haqqında» Qanun ilə müəyyənləşdirilmiş digər çoxsaylı vəzifələri də mövcuddur.

## 2. Elm sahəsində milli təhlükəsizliyin təmin olunması

Elm sahəsində olan hər bir məsələyə milli təhlükəsizlik və ölkənin milli maraqlarının qorunması problemi olaraq yanaşıl-

malıdır. Çünki burada söhbət milli sərvətə dəyən zərərdən, ölkənin intellektual potensialının dağılması və nəticədə milli mənliyi təşkil edən etnik-mənəvi nüvənin zədələnməsi təhlükəsindən gedir.

İnkişaf etmiş dövlətlərin təcrübəsi göstərir ki, ölkənin elmi-texniki potensialının saxlanılması və inkişaf etdirilməsi ilk növbədə bilavasitə **iki amildən** asılıdır:

- elmi fəaliyyət sahəsində dövlət siyasəti;
- elmi fəaliyyətə dövlətin maliyyə dəstəyi.

Ümumilikdə elm sahəsində **milli təhlükəsizliyin təmin olunması tədbirləri** aşağıdakılardır:

- «beyin axını» prosesinin tənzimlənməsi;
- elmi kəşflərin təhlükəsizliyinin təmin olunması;
- intellektual potensialın daha da inkişaf etdirilməsi:
- ölkəyə lazımi kadrların axınının yönəldilməsi;
- hərbi təyinatlı mərkəzlərin informasiya təhlükəsizliyinin təmin olunması və s.

Azərbaycan Respublikası Prezidentinin 4 may 2009-cu il tarixli Sərəncamı ilə təsdiq edilmiş «2009-2015-ci illərdə Azərbaycan elminin Milli İnkişaf Strategiyası və həmin strategiyanın həyata keçirilməsi sahəsində Dövlət Proqramı» təsdiq edilmişdir. Strategiya Azərbaycan Respublikasında elmi qurumların strukturunun müəyyənləşdirilməsi, tədqiqatların müasir standartlar səviyyəsində aparılması və maliyyələşdirilməsi, ölkənin elmi kadr potensialının artırılması və onun sosial müdafiəsinin gücləndirilməsi, Azərbaycan elminin beynəlxalq elm məkanına inteqrasiyası, bütövlükdə elmin inkişaf etdirilməsi məqsədilə hazırlanmışdır.

Strategiyada islahatların aşağıdakı **istiqamətlərdə** aparılması nəzərdə tutulur:



- Azərbaycan Respublikasında fundamental tədqiqatların prioritetlərini ölkənin mühüm sosial-iqtisadi və ictimai-mədəni məsələlərinin həllinə uyğun müəyyənləşdirmək;
- fundamental elmlər üzrə tədqiqatları genişləndirmək;
- elm və texnika sahəsində idarəetmə sistemini təkmilləşdirmək;
- elmi-tədqiqat müəssisələrinin və bütövlükdə elmin maliyyələşdirilmə mexanizmlərini təkmilləşdirmək;
- elmi-texniki infrastrukturu modernləşdirmək;
- elmin normativ-hüquqi bazasını yaratmaq;
- yüksək ixtisaslı elmi kadrlar hazırlamaq;
- elmi məktəblərin qorunmasına və varisliyin təmin edilməsinə nail olmaq;
- elmin, təhsilin və istehsalın inteqrasiyasını təmin etmək;
- elmi işçilərin sosial vəziyyətini əsaslı şəkildə yaxşılaşdırmaq;
- elmin informasiya təminatını gücləndirmək;
- Azərbaycan elminin beynəlxalq elm məkanına inteqrasiyasını gücləndirmək;
- elmi tədqiqatların və innovasiya siyasətinin səmərəsini artırmaq;
- ölkəni texnoloji cəhətdən modernləşdirmək;
- elmi potensialın ölkənin milli təhlükəsizliyində fəal iştirakına nail olmaq;
- elmin inkişafı əsasında milli-mənəvi dəyərləri qorumaq;
- Azərbaycan xalqına məxsus milli-mənəvi dəyərlərlə bağlı istiqamətlərdə bir çox məsələləri yenidən azərbaycançılıq məfkurəsi mövqeyindən araşdırmaq;
- elmi potensialı ölkənin sosial-iqtisadi və mədəni-mənəvi inkişafına yönəltməkdir.

İctimai və humanitar elmlər sahəsində tədqiqatların elm sahəsində milli təhlükəsizliyin təminatında xüsusi yeri vardır. Bu sahədəki tədqiqatlar mühüm strateji vəzifələri həll etməli olduğundan daha mühüm əhəmiyyətə malikdir. Onlar aşağıdakı **sahələri** əhatə edir:

– xalqımıza məxsus milli-mənəvi dəyərlərlə bağlı istiqamətlərdə bir çox məsələlərin yenidən Azərbaycançılıq məfkurəsi mövqeyindən araşdırılması;

– milli-mənəvi dəyərlərin, Azərbaycan mədəniyyəti və tarixinin obyektiv, konseptual və kompleks şəkildə araşdırılması;

– ictimai və humanitar elm sahələrində keçmiş sovet metodologiyası ənənələrinin milli maraqlara uyğun yanaşmalarla, o cümlədən azərbaycançılıq fəlsəfəsi əsasında formalaşdırılmış yeni prinsiplərlə əvəzlənməsi;

– humanitar və ictimai elm sahələrinin birgə fəaliyyəti sayəsində azərbaycançılıq məfkurəsinin konseptual elmi əsaslarının işlənilməsi;

– sosial, siyasi, iqtisadi, mənəvi və ekoloji risklərin öyrənilməsi və qarşısının alınması üçün elmi əsasların hazırlanması;

– mədəni və mənəvi-əxlaqi aşınmaların proqnozlaşdırılması və qarşısının alınması üzrə elmi əsasların işlənib hazırlanması.

«Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası»nda **elmin inkişafı** məsələsi aşağıdakı kimi öz əksini tapmışdır: «Ölkənin davamlı inkişafı üçün adekvat sayda, yaxşı təhsil almış və təlim keçmiş peşəkar insan potensialını, həmçinin elmi-texniki tərəqqini təmin etmək zəruridir. Bu məqsədlə, Azərbaycan Respublikası elm və təhsil səviyyəsinin dünya standartlarına uyğunlaşdırılması, yeni texnologiyalardan istifadə üçün inkişaf etmiş ölkələrlə əməkdaşlıq əlaqələrini genişləndirir, beynəlxalq təcrübəni öyrənir və tətbiq edir. Azərbaycan Respublikası elmi potensialın qorunması və inkişafına dair dövlət siyasətinin uzunmüddətli proqramlarını hazırlayıb həyata keçirir».



## 3. Mədəniyyət və mənəviyyat sahələrində milli təhlükəsizliyin təmin olunması

İnteqrasiya prosesləri şəraitində ən aktual problemlərdən biri olan mədəni-mənəvi sahədə milli təhlükəsizliyin təmin olunması dedikdə, xalqın milli-mənəvi dəyərlərini, milli yaddaşını, adət-ənənələrini, milli mənlik şüurunu dağıdıcı təsirlərdən mühafizə etmək və inkişaf etdirmək başa düşülür. Bu sahədə təhlükəsizliyin təmin olunmasında prioritet sahə mədəniyyətin qloballaşması şəraitində milli mədəniyyətin özünəməxsusluğunun qorunub saxlanılmasıdır. Mənəvi dəyərlər müdafiə edilməsə, onlar yad təsirlərdən qorunmasa millətin və dövlətin gələcəyi haqqında düşünə belə bilmərik. Xalq mənəvi dəyərləri assimilyasiyaya uğrayanda o, şüursuz kütləyə çevrilir.

**Mədəniyyət siyasəti və mənəviyyatın qorunması məsələləri** «Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası»nda öz əksini tapmışdır: «Elm, təhsil, mədəniyyət və mənəviyyatın qorunması siyasəti Azərbaycan xalqının mədəni irsinin, maddi və mənəvi dəyərlərinin mühafizəsinə, onun mədəni tələbatlarının ödənilməsi vasitələrinin və elmi-texniki potensialının daxili və xarici təhdidlərdən qorunmasına, mütərəqqi daxili və beynəlxalq inkişafdan bəhrələnməsinə yönəlmişdir. Azərbaycan Respublikası ümumdünya mədəniyyətinin qloballaşması meyillərindən kənarda qalmamaq şərti ilə, milli mədəniyyətin özünəməxsusluğunu qoruyur və eyni zamanda, dünyanın mədəni nailiyyətlərindən milli mədəniyyətin tərəqqisində istifadə üçün imkanlar yaradır.

Azərbaycan Respublikası beynəlxalq öhdəliklərinə uyğun olaraq öz ərazisində tarixi və mədəni abidələrin qorunmasını təmin edir».

«Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası»nda haqlı olaraq **milli və dini tolerantlıq mühitinin qorunması** da milli təhlükəsizlik siyasətinin bir istiqaməti kimi götürülür. Konsepsiyada deyilir: «Azərbaycan Respublikası həmişə müxtəlif millətlərin və dinlərin sülh şəraitində birgə yaşayışına nümunə olmuşdur. Azərbaycan dövləti cəmiyyətin maraqlarından irəli gələn rasional milli siyasət kursunu, dini tolerantlıq mühitinin qoruması və inkişafını, bütün vətəndaşların qanun qarşısında bərabərliyi və qanunun aliliyini, demokratik hüquq və azadlıqların, həmçinin insanların bu hüquq və azadlıqlardan sərbəst istifadə imkanlarının təmin edilməsini müvafiq riskin real təhdidə çevrilməsinin qarşısının alınması və neytrallaşdırılmasının mühüm şərtləri qismində nəzərdən keçirir.

Hazırkı mərhələdə ölkədə bərqərar edilmiş milli və dini dözümlülük mühitinin qorunması və inkişafı dövlət qarşısında duran başlıca vəzifələrdən hesab olunur. Azərbaycan dövlətinin milli siyasət kursu konstitusiyanın əsas prinsiplərindən birinə əsaslanır: «Azərbaycan Respublikası bütün ölkə vətəndaşlarının ümumi və bölünməz vətənidir».

Ümummilli lider Heydər Əliyev elm və mədəniyyət sahəsinin inkişafında ziyalıların rolunun əsas olduğunu qeyd edirdi. Ümummilli lider Heydər Əliyev cəmiyyətdə alimin və ziyalının yerini də müəyyənləşdirir və onlara münasibətini açıq ifadə edirdi: **«Cəmiyyət böyükdür indi bizdə yeddi milyon əhali var. Bunlar hamısı bizim cəmiyyətdir. Amma xalqın içərisindən çıxan ziyalılar tək-tükdür. Bunlar kütləvi deyil. Ziyalı kütləvi ola bilməz. Alimdir, şairdir, bəstəkardır, rəssamdır, yazıçıdır, artistdir – bunlar fitri istedada malik olan**



**nadir adamlardır və öz mədəniyyəti, yaradıcılığı, fəaliyyətilə bizim cəmiyyətin mədəni səviyyəsini qaldırırlar. Biz öz hərəkətlərimizlə, öz münasibətimizlə, öz tədbirlərimizlə gərək ziyalının cəmiyyətdə rolunu qaldıraq. Bu adamları təhqir etmək, onlara hörmət etməmək son illərdə cəmiyyətimizdə olan əcayiblikdir. Biz bunlara son qoymalıyıq»... «Ziyalıların, mədəniyyət xadimlərinin, elm xadimlərinin cəmiyyətdə hörmətini qaldırmaq lazımdır. Çünki xalq həmişə öz ziyalıları, öz mədəniyyəti, öz elmi ilə tanınır. Şübhəsiz ki, xalqın tarixində sərkərdələrin də, siyasətçilərin də böyük rolu var. Ancaq xalq həmişə mədəniyyəti ilə, elmi ilə tanınıb və keçmiş tariximiz də bunu sübut edir».**

**Mədəniyyət geniş anlayış olmaqla, özündə siyasi mədəniyyəti, siyasi ənənə və adətləri, siyasi dəyərləri birləşdirir.** Ölkənin siyasi simvollarını da mənəvi-mədəni təhlükəsizlik sisteminə aid etmək mümkündür. Bu siyasi simvollar, rəmzlər dövlətin, millətin təcəssümü, mənəviyyatıdır. Təsadüfi deyildir ki, 1948-ci ildə Fransanın xarici işlər naziri Lamartin «Əgər siz məndən üçrəngli bayrağı alsanız...onda məndən Fransanın yarıgücünü almış olacaqsınız...» deyirdi.

Mədəni tərəqqi mədəni təhlükəsizliyin əsasında dayanır. Mədəni tərəqqi vasitəsi ilə mədəniyyət ənənələri bərpa və inkişaf etdirilir. Ümummilli proqramlar olmadan mədəni tərəqqiyə nail olmaq mümkün deyil. Mədəni təhlükəsizlik mədəniyyətin qorunması, saxlanılması, cəmiyyətin mənəvi birliyinin möhkəmləndirilməsi deməkdir.

Mədəni-mənəvi təhlükəsizliyin təmin edilməsində **xalqın dilinin qorunması** mühüm yer tutur. Ona görə də bu məsələ mühüm təhlükəsizlik məsələsi kimi həmişə aktualdır. Çünki dilini itirmiş xalq məhvə məhkumdur. Dil xalqın əsas atributlarından biridir. Xalqın digər xalqlar içərisində nüfuzunun formalaşmasının meyarlarından biri də dildir. Dil əldə

olunan insan təcrübəsinin toplanması, saxlanması və verilməsinin obyektiv formasıdır. Bu ictimai şüur hadisəsi insanları doğulandan qəbir evinə qədər müşayiət edir, onların bütün adət-ənənələrinin əsasında dayanır. Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir.

Azərbaycan dilinin inkişafı Azərbaycan xalqının postsovet məkanında özünü təsdiqi idi. Maraqlıdır ki, Azərbaycan dilinin dövlət dili olması məsələsi ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında hazırlanan və 1978-ci ildə qəbul edilən Azərbaycan SSR Konstitusiyasında da öz təsbitini tapmışdır. Ümummilli lider Heydər Əliyev göstərir ki, «**o illərdə Azərbaycan dilinin dövlət dili kimi konstitusiyaya salınması o qədər də asan məsələ deyildi. Çünki o illərdə vahid sovet ideologiyası var idi. Xalqımız əsrlər boyu böyük sınaqlardan, çətinliklərdən keçmiş, ancaq öz mənliyini, milliliyini, öz dilini itirməmişdir**».

Müstəqil Azərbaycanın 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Konstitusiyasında Azərbaycan dilinin Azərbaycan Respublikasının dövlət dili kimi təsbiti, Azərbaycan Respublikası Prezidentinin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 2001-ci il 18 iyun tarixli 506 nömrəli və "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" 2001-ci il 9 avqust tarixli 552 nömrəli fərmanları, eləcə də "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunu və dil siyasəti sahəsində normativ hüquqi aktlar, həmçinin digər tədbirlər Azərbaycanda dilçilik sahəsinin hüquqi əsaslarını və icra mexanizmini müəyyən etmişdir.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında" 2004-cü il 12 yanvar tarixli 55 nömrəli və "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 2004-cü il 12



yanvar tarixli 56 nömrəli sərəncamlarına əsasən latın qrafikalı yeni Azərbaycan əlifbası ilə dərsliklərin, elmi əsərlərin, lüğətlər və bədii ədəbiyyat nümunələrinin çap olunaraq istifadəyə verilməsi milli ədəbi dilin daha da zənginləşməsi ilə yanaşı, dilçiliyin əsaslı inkişafı baxımından da əhəmiyyətli olmuşdur.

"Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı" Azərbaycan Respublikası Prezidentinin 9 aprel 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmişdir. Dövlət Proqramının **məqsədi** Azərbaycan dilinin istifadəsinə və tədqiqinə dövlət qayğısının artırılmasını, Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsini, ölkədə dilçilik araşdırmalarının əsaslı surətdə yaxşılaşdırılmasını, dilçiliyin aparıcı istiqamətlərində fundamental və tətbiqi tədqiqatların inkişafına yönəldilmiş yaradıcılıq səylərinin birləşdirilməsini və dilçiliyin müasir cəmiyyətin aktual problemləri ilə əlaqələndirilməsini təmin etməkdir.

Dövlət Proqramının **əsas vəzifələri** aşağıdakılardır:

– Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun inkişafı, qorunması, elektron məkanda daha geniş istifadəsi və ölkədə dilçiliyin inkişaf etdirilməsi mexanizminin yaradılması;

– dilçilik sahəsində yüksəkixtisaslı kadrların hazırlanmasının təkmilləşdirilməsi;

– dünya dilçilik elminin müasir inkişaf meyillərini nəzərə almaqla, elmi tədqiqatların prioritet istiqamətlərinin müəyyənləşdirilməsi;

– dilçilik sahəsində dünyanın aparıcı elmi mərkəzləri ilə əməkdaşlığın inkişaf etdirilməsi;

– dilin inkişafı və tədrisi məsələlərinin uzlaşdırılması və təkmilləşdirilməsi;

– dilçi alimlərin müasir informasiya və kommunikasiya texnologiyalarının yaradılmasında iştirakının təmin edilməsi;

– dil (ədəbi dil) və mədəniyyət tarixinin daha əsaslı tədqiqini təmin etmək üçün qədim dillərin tarixinin öyrənilməsi;

– dilin inkişafını və ədəbi dil normalarının qorunmasını təmin edən qanunvericilik bazasının təkmilləşdirilməsi;

– dil və nitq mədəniyyətinin yüksəldilməsi;

– Azərbaycan dilinin lüğət tərkibinin və qrammatik normalarının sistemləşdirilməsi;

– Azərbaycanda dil situasiyalarının və dil əlaqələrinin öyrənilməsi.

Mədəni-mənəvi sahədə milli təhlükəsizliyin təmin olunmasında **milli yaddaşın qorunması** mühüm yer tutur. Milli yaddaş millətin varlığıdır. Öz keçmişini itirmiş millətin varlığı haqqında danışmaq belə yersizdir. Yaddaşını itirmiş insan cəmiyyətdə hansı vəziyyətdədirsə, milləti də o vəziyyətdə təsəvvür etmək lazımdır. Yaddaşı xalqın tarixi, onun varlığı boyu yaratdıqlarının və ya itirdiklərinin məcmusu kimi xarakterizə etmək olar. Ölkənin iqtisadiyyatına, informasiya sisteminə, hərbi strukturlarına yönələn təcavüzü xalqın yaddaşına edilən təcavüzlə müqayisədə daha tez aradan qaldırmaq olar. Milli yaddaşın qorunması xalqın xarici təsirlərə cavab vermək iqtidarının hansı səviyyədə olmasından daha çox asılıdır. Xarici təsirləri neytrallaşdıran elementlər kimi xalqın mənəvi bütövlüyünü, milli ideologiyanı, zəngin tarixi, vətəndaşların milli mənlik şüurunun yüksəkliyini göstərmək olar. Yaddaşın pozulmasına yönələn xarici təcavüzlər bütün sahələrdə həyata keçirilir. Bu xalqın musiqisini, adət-ənənələrini, dövlətçilik təcrübəsini, ümumiyyətlə mənəvi dəyərlər sahəsini əhatə edir.

Mədəni-mənəvi sahədə milli təhlükəsizliyin təmin olunması **dini sahəni** də əhatə edir. Din təkcə etiqad deyil, həm



də toplumu birləşdirən mədəniyyət, əxlaq, həyat və təfəkkür tərzidir. O dil, mədəniyyət, iqtisadiyyat, dövlətçilik və s. ilə birlikdə milləti, milli həmrəyliyi, milli birliyi yaradır və yaşadır. Dini mənəvi dəyərləri müxtəlif xarici təriqətlərdən, sektalardan qorumaq mədəni-mənəvi sahədə milli təhlükəsizliyin təmin olunmasında mühüm yer tutur. Ölkə qanunvericiliyinə, ictimai əxlaqa zidd xarici sektaların fəaliyyəti yolverilməzdir. Azərbaycan Respublikasının Konstitusiyasında hər hansı dini etiqad və əqidəyə məxsusluğun huquq pozuntusuna haqq qazandırmadığı təsbit olunmuşdur. Cəmiyyətdə bəzən dini fanatizmə gətirib çıxara bilən hallara da rast gəlinə bilər. Dini fanatizmin yaranması cəmiyyətin tərəqqisinə, dini dəyərlərin tərəqqiyə təkan verən amillərinin itirilməsinə gətirib çıxarır. Fanatizmin aradan qaldırılması həm cəmiyyətin, həm də dinin təhlükəsizliyini təmin edir. Buna görə də müstəqil Azərbaycanda dünyəvi dövlət qurulsa da, islami dəyərlər yüksək qiymətləndirilir. Digər dinlər kimi onun da öz sahiblərinə qaytarılması istiqamətində mühüm tədbirlər həyata keçirilir. Milli varlığımızda İslam dini dəyərlərinin rolunun artması ölkəmizin əhalisinin mənəvi müstəqilliyi və azadlığının mühüm təzahürüdür.

Cəmiyyətdə dini qarşıdurma hallarına yol verməmək üçün ilk növbədə hər bir dinə mənsub olan insanlar arasında bərabərhüquqluluq prinsipi gözlənilməlidir. Əks təqdirdə bu cəmiyyətdə vətəndaş qarşıdurmasına gətirib çıxara biləcək təhlükəli bir hal ala bilər və son nəticədə daxili sabitliyə mənfi təsir edə biləcək bir amilə çevrilər. Azərbaycan Respublikasında bütün dinlər bərabər hüquqa malikdir və bu dinlərə inanan insanlar dinc yanaşı fəaliyyət göstərirlər. Lakin bu sahəyə xarici təsirlər də mövcud ola bilər.

Ümumiyyətlə, dini missioner təşkilatların fəaliyyəti aşağıdakı **təhdidlərlə** səciyyəvi ola bilər:

– dini zəmində qarşıdurma yaradılması;

– pasifizmin təbliği ilə ölkənin müdafiə potensialına ziyan vurulması;

– maliyyə imkanlarından bəhrələnərək bir çox iqtisadi strukturlara təsir imkanları yaratmaq;

– etnik separatizm cəhdlərinin inkişafına kömək göstərilməsi və s.

Mədəni-mənəvi sahədə milli təhlükəsizliyin təmin olunmasında **xalqın musiqisinin, maddi mədəniyyət abidələrinin qorunması** xüsusi yer tutur. Milli musiqi xalqın yaddaşından süzülüb gələn, özündə onun tarixini, milli düşüncəsini yaşadan milli sərvətdir. Milli musiqinin yaşadılması xalqın varlığının, böyüklüyünün göstəricisidir. Milli musiqinin qorunması, onun maraqlı xarici qüvvələr tərəfindən özgəninkiləşdirilməsi və ümumiyyətlə məqsədli şəkildə yaddaşlardan silinməsi istiqamətində aparılan işlərin qarşısının alınması mənəvi-mədəni təhlükəsizlikdə prioritet istiqamətlərdən sayılır.

Bu sahədə digər problemlərdən biri tarixi maddi mədəniyyət abidələrinin qorunub saxlanmasıdır. Bu abidələr özündə dövrünün tarixini, həyatını yaşadır, onları müasir insanlara nümayiş etdirir. Maddi mədəniyyət abidələri vasitəsilə xalqın tarixi, onun milli yaddaşı əyani maddi sübutlarda yaşayır. Maddi mədəniyyət abidələrinin qorunması xalqın keçmişinin yaşadılması, onun tarixinə yönəldilən müxtəlif zərərli təsirlərin qarşısının alınması, xalqın öz milli mənliyini dərk etməsi və s. məqsədlər üçün mühüm əhəmiyyətə malikdir.

Mədəni-mənəvi sahədə milli təhlükəsizliyin təmin olunmasında ən mühüm yerlərdən birini də **ümumdünya mədəniyyətinin qloballaşması kontekstində milli mədəniyyətin özünəməxsusluğunun qorunub saxlanılması** tutur. Müasir dünya mədəniyyətinin müsbət cəhətlərini əxz etməklə milli mədəniyyət zənginləşir. Lakin elə cəhətlər var ki, onlar milli-mənəvi dəyərlərə təhlükə yaradır, milli mentaliteti zədələyir. Bu təsirlərin zərərsizləşdirilməsi, yad, pozucu ünsürlərin dilimizə, dinimizə, adət-ənənələrimizə, musiqimizə daxil olmasının qarşısının alınması üçün möhkəm, sabit mənəvi təhlükəsizlik sipəri yaradılmalıdır.



Mədəni-mənəvi sahədə milli təhlükəsizliyin təmin olunmasında **ailənin normal inkişafına nail olunması** da əsas yerlərdən birini tutur. Ailənin inkişafı, onun möhkəmlənməsi sosial və demoqrafik təhlükəsizlik məsələsidir. Lakin ailə məsələsi ilk növbədə mənəvi məsələdir. Ailənin inkişafı cəmiyyəti mənəvi cəhətdən daha da möhkəmləndirir, milli mənəvi dəyərlərin ötürülməsini təmin edir, cəmiyyət üçün layiqli vətəndaşların yetişməsinə şərait yaradır. Ailənin möhkəmlənməsi, boşanmaların sayının minumuma endirilməsi dövlət və cəmiyyət üçün prioritet vəzifədir. Çünki ailələrin dağılması təkcə iki nəfərin uğursuzluğu deyil, bu həmçinin cəmiyyət üçün gələcəkdə lazımi vətəndaş ola biləcək uşaqlar üçün çox ciddi problemlərin yaranmasıdır. Məhz bu baxımdan ailə əxlaqına qarşı yönəldilən təbliğatın qarşısını almaq həm dövlət, həm də ictimaiyyətin birgə işi olmalıdır.

Sovet imperiyası zorakılıq gücünə xalqın mentalitetini dəyişməyə, milli məfkurəni formalaşdıran elitanı məhv etməyə çalışırdı. Lakin bacarmadı, çünki milli mentalitet tarixi soykökdən, fəlsəfədən, mədəniyyətdən, əxlaqdan irəli gəlir. Milli mentaliteti özünüdərketmə, özünümühafizə, gələcəyə inam qoruyub saxlayır.

**Milli mədəniyyət dövlətçilik ənənəsini qoruyan, onu möhkəmləndirən əsas amildir.** Azərbaycanda tarixən yaşayan bütün etnik qrupların özünəməxsus mədəniyyətlərinin qorunub saxlanılmasına şərait yaradılır.

Mədəniyyət sahəsində dövlət siyasətinin **əsas vəzifələri** aşağıdakılardır:

– milli və dünya mədəniyyəti sərvətlərinin qovuşmasına kömək göstərilməsi;

– mədəniyyət sərvətlərinin qorunması və artırılması;

– mədəniyyət potensialının inkişafı;

– tarix və mədəniyyət abidələrinin qorunması və s.

Hər bir millət özünün tarixi-mədəni tipini yaradır. Tarixi mədəniyyət tipi xalqın siyasi birliyini formalaşdırır. Azərbaycan milli mədəniyyəti digər xalqların mədəniyyətlərindən bəhrələnmiş və eyni zamanda onlara güclü təsir göstərmişdir. XIX-XX əsrdə Azərbaycan milli mədəniyyətində qərb və şərq elementləri vəhdət halında inkişaf etmişdir və XXI əsrdə də bu proses davam edir.



# XII FƏSİL

## Beynəlxalq təhlükəsizlik

**1. Qlobal təhlükəsizlik**

**2. Regional təhlükəsizlik**

**3. Beynəlxalq təhlükəsizliyin yeni parametrləri**

**4. Beynəlxalq təhlükəsizliyin təminat sistemləri**

## 1. Qlobal təhlükəsizlik

Bəşəriyyətin bütün tarixi boyunca bu gün beynəlxalq təhlükəsizlik anlayışı ilə ifadə olunan məsələlərin müzakirəsi zamanı müharibə və sülh terminlərindən istifadə edilirdi. Beynəlxalq təhlükəsizlik termini aktiv dövriyyəyə Birinci Dünya müharibəsinin qurtarmasından sonra daxil olmağa başladı. Məhz bu zaman ilk dəfə olaraq müharibələrlə bağlı geniş beynəlxalq konsensus meydana çıxdı və qərara alındı ki, müharibələrin qarşısının alınmasında beynəlxalq səylər artırılmalıdır. Beynəlxalq təhlükəsizlik anlayışından Millətlər Liqasının sənədlərində, məsələn Avropa kollektiv təhlükəsizlik konsepsiyasının hazırlanması ilə əlaqədar istifadə edilməyə başlandı. Bir tərəfdən ondan sülhün ənənəvi anlayışlarının və ya müharibənin olmamasının sinonimi kimi istifadə edilirdi. Digər tərəfdən isə o özündə razılıqların əldə edilməsini, prinsiplərin hazırlanmasını, sülhün saxlanılması üçün şəraitin yaradılmasına köməklik göstərən, müharibəyə gətirib çıxara biləcək zəminlərin yaranmasına əks təsir göstərən institut və prosedurların yaradılmasını ehtiva edən daha geniş sahəni əhatə edirdi. Bu zəminlər özündə həm də müharibənin profilaktikasını da birləşdirirdi.

Beynəlxalq təhlükəsizlik məsələsi daha dağıdıcı olan İkinci Dünya müharibəsindən sonra daha da aktuallaşdı. Ən ümumi mənada beynəlxalq təhlükəsizliyin müasir anlamı BMT-nin yaradılması zamanı bu təşkilatın nizamnaməsinin birinci maddəsində qısaca ifadə edilmişdir və burada onun başlıca vəzifəsi belə müəyyən edilir: **«Beynəlxalq sülhə və təhlükəsizliyə tərəfdar olmaq və bu məqsədlə sülhə (bəşəriyyətə) olan təhlükənin dəf edilməsi, aradan götürülməsi və təcavüzkar aktlarının qarşısının alınması üçün effektiv kollektiv tədbirlərin hazırlanması, ədalət və beynəlxalq hüquq prinsiplərinə uyğun olaraq sülhün pozulmasına gətirib çıxara biləcək beynəlxalq mübahisələrin və ya vəziyyətlərin sülh vasitələri ilə tənzimlənməsi və ya həll edilməsi».**



Təhlükəsizlik və beynəlxalq təhlükəsizlik anlayışlarının 1940-cı illərin sonunda-1950-ci illərin əvvəllərində Birləşmiş Ştatlarda işlənməsi geniş vüsət aldı. Məhz bu dövrdə, xüsusilə yeni nüvə müstəvisində hərbi qarşıdurma problemi beynəlxalq münasibətlərin üstünlük təşkil edən sahəsinə çevrildiyi zaman, bu terminlə soyuq müharibə zamanı silahlara və konfliktlərə nəzarəti ifadə etməyə başladılar. Beynəlxalq təhlükəsizlik üzrə kurslar universitet proqramlarının ayrılmaz hissəsinə çevrildi. Bu sahə sayca sürətlə artan elm mərkəzlərinin tədqiqatlarının mərkəzi predmetinə çevrildi.

Təhlükəsizliyin geniş anlayışı ilə əhatə edilən daha bir sahə soyuq müharibə illərində hərbi-siyasi qarşıdurma şəraitində dövlətin və cəmiyyətin hərbi, iqtisadi, ideoloji və digər ehtiyatlarının səfərbərliyi üzrə fəaliyyət oldu. Qeyd etdiyimiz kimi 1947-ci ildə «Milli Təhlükəsizlik haqqında» Qanuna əsasən ABŞ-da keçirilən dövlət hakimiyyət orqanlarının radikal islahatı məhz bu məqsədi güdürdü. Buna əsasən Müdafiə Nazirliyi, Mərkəzi Kəşfiyyat İdarəsi, Maddi və İnsan Ehtiyatlarının Səfərbərliyi Üzrə İdarə, həm də ali-hərbi siyasi orqan Milli Təhlükəsizlik Şurası yaradıldı. Tezliklə beynəlxalq təhlükəsizlik anlayışı NATO-nun strukturlarında qəbul edildi, ali siyasət predmetinə, Avropada və dünyanın digər regionlarında beynəlxalq münasibətlər sahəsində tədqiqatların başlıca obyektinə çevrildi.

Uzun müddət Sovet İttifaqında beynəlxalq münasibətlər lüğətində sülh, müharibə, müdafiə terminləri kimi ənənəvi terminologiya saxlanılırdı, ancaq əslində söhbət təhlükəsizlik məfhumu ilə qeyd edilən elə həmin kompleks sahədən

gedirdi. Siyasi Büro, Sov. KP MK, Hərbi-sənaye Komissiyası, ABŞ-da Milli Təhlükəsizlik Şurasının yerinə yetirdiyi funksiyaları mahiyyətcə elə SSRİ-də yerinə yetirirdi.

Təhlükəsizlik və beynəlxalq təhlükəsizlik terminləri Qərblə olan əlaqələrin intensivləşməsi ilə tədricən sovet hərbi və siyasi lüğətinə daxil oldu. Bu ilk növbədə silahlara nəzarət sahəsində, sonra isə Avropada təhlükəsizlik və əməkdaşlıq üzrə müşavirənin qərarlarının hazırlanması, həyata keçirilməsi, reallaşdırılması çərçivələrində müvafiq problemlərin müzakirəsinə SSRİ-nin cəlb edilməsində də təzahür edirdi. SSRİ-də siyasi elmlər, beynəlxalq münasibətlərin nəzəriyyəsi və digər kateqoriyaların müzakirələri zamanı bu anlayış da elmi və praktiki dövriyyəyə daxil edilməyə başladı. **Təhlükəsizlik və beynəlxalq təhlükəsizlik anlayışları tam legitimliyini yenidənqurmanın gedişində, 1985-ci ildən sonra qazandı.** Yalnız SSRİ-nin dağılmasından sonra, Rusiya Federasiyasında Təhlükəsizlik Şurasının yaradılması, «Milli Təhlükəsizlik Konsepsiyası»nın və Qanunun qəbul edilməsi, milli və beynəlxalq təhlükəsizlik problemləri üzrə elmi nəşrlərin meydana gəlməsi ilə bu anlayışların istifadəsi daha geniş vüsət aldı.

Müasir beynəlxalq və milli təhlükəsizlik sferası istənilən dövlətin fəaliyyətinin ən mühüm sahələrindən biri kimi vətəndaş cəmiyyətinin diqqət mərkəzindədir və həmçinin elmi tədqiqatların predmeti kimi də çıxış edir. Bu da öz növbəsində nəinki mütəxəssislər, hətta vətəndaşların mümkün qədər geniş dairəsi tərəfindən milli və beynəlxalq təhlükəsizlik probleminə düşünülmüş yanaşmanı tələb edir. Məhz bu səbəblərə görə milli və beynəlxalq təhlükəsizlik problemləri təhsil institutlarının, nəinki mütəxəssislərə, həm də geniş ictimaiyyətə yönəlmiş nəşrlərinin tərkib hissəsi kimi çıxış edir.



Bu gün yeni termin olan **qlobal təhlükəsizlik** anlayışının siyasi terminologiyaya daxil edilməsi zərurəti haqqında daha çox danışılır. Bu onunla izah edilir ki, beynəlxalq təhlükəsizlik termini ilk növbədə dövlətlər arasında təhlükəsizlik sahəsindəki ənənəvi münasibətləri əhatə edirdi. Bugünkü qlobal qarşılıqlı əlaqə və qarşılıqlı asılılıq şəraitində dövlətlərlə yanaşı qeyri-dövlət aktorlarının daha aktiv fəaliyyət göstərməsi faktını nəzərə alaraq qeyd etməliyik ki, qlobal təhlükəsizlik haqqında söhbət gedərkən dövlətlərin, dövlətlər qrupunun, qeyri-dövlət aktorlarının maraqlarının təmin edilməsini nəzərdə tutmaq lazımdır. Dünyanın qloballaşması qlobal təhlükəsizliyin təmin edilməsi məsələsini qarşıya qoyur və qlobal təhlükəsizlik daha çox müxtəlif subyektli, bölünməz kimi təşəkkül tapır.

Sivilizasiyanın inkişafının müasir mərhələsində bəşəriyyətin qlobal təhlükəsizlik məsələsi və müasirlərin ona baxışları ciddi nəzərdən keçirilməlidir. Bu yanaşmaya qlobal miqyasda və regional səviyyədə beynəlxalq təhlükəsizliyin məzmunu və strukturu, həm də onun təmin edilməsinin mövcud sistemləri, insanın təbiətə dağıdıcı təsirlərinin mümkün faciəli nəticələri, qlobal ekoloji fəlakətin başlanğıcı, yer kürəsində bütün canlı orqanizmlərin mövcudluğuna planetar təhdidlərin artması, ölkələrin sabit sosial və iqtisadi inkişafının təmin edilməsi imkanları daxil ola bilər. Bəşəriyyətə təhdidləri müəyyən edən qlobal dəyişikliklərin mənbələrinin və amillərinin ətraflı analiz edilməsi dünyada qlobal təhlükəsizliyin təmin edilməsinin müasir konsepsiyasının əsas elementləridir.

Planetar miqyasda iqtisadiyyatın intensiv inkişafı, biosferanın ehtiyatlarının qlobal istehlakına, onların bərpası imkanlarının məhdudlaşmasına gətirib çıxardı və bu da Yer kürəsində bəşəriyyətin yaşaması üçün qlobal təhdidi

formalaşdırdı. Ona görə də qlobal təhlükəsizlik problemini üçüncü minillikdə bəşəriyyətin inkişafının müəyyənedici amillərdən biri kimi nəzərdən keçirmək zəruridir.

Qlobal ekoloji fəlakətin başlanması və inkişaf edən planetar təhdidlər, insanı əhatə edən təhlükələrdən və yaranan təhdidlərdən onun müdafiəsi üçün kompleks tədbirlərin həyata keçirilməsini prioritet vəzifə kimi qarşıya qoydu.

Qlobal təhlükəsizliyin müasir anlamı faktiki olaraq **dar** və **geniş** mənada başa düşülə bilər.

**Dar mənada**, qlobal təhlükəsizlik ancaq bəşəriyyətin ekoloji təhdiddən qorunması dərəcəsini xarakterizə edir, bu da indiki zamanda prioritet sayılır. Qlobal təhlükəsizliyin istifadə edilən məfhumunun dəqiq ifadəsi və qavranılmasının aydınlığı üçün ekoloji qlobal təhlükəsizlik terminindən istifadə edilir.

**Geniş mənada**, izah isə müxtəlif planetar təhdidlərdən kompleks müdafiənin analizi zamanı verilir və bu zaman isə "qlobal təhlükəsizlik" terminindən istifadə edilir. Bu halda ekoloji ilə yanaşı digər təhdidlər də nəzərə alınır: demoqrafik, iqtisadi, sosial, hərbi, informasiya, energetik, kimyəvi. Qlobal təhlükəsizliyin qəbul edilmiş tərifindən belə nəticə çıxır ki, milli təhlükəsizlik ancaq qlobal təhlükəsizliyin bir hissəsidir və bu dövlətlərarası qarşılıqlı münasibətlərin razılaşdırılmış beynəlxalq mexanizmlərini yaratmağı zəruri edir, bu isə öz növbəsində qlobal təhlükəsizliyin təmin edilməsi üzrə dünyanın bütün ölkələrinin qarşılıqlı hərəkətlərini razılaşdırmaq imkanı verir.

Qlobal təhlükəsizliyin qiymətləndirilməsi zamanı Yer planetində bəşəriyyətin mövcudluğunu təhlükə altına alan əsas planetar təhdidlər kompleksini diqqət mərkəzində saxlamaq lazımdır. Qlobal təhlükəsizliyin tədqiqi qloabal təhdidləri, həmçinin onların bir-biriləri ilə qarşılıqlı əlaqələrini



öyrənmək, bəşəriyyətə, biosferaya təsirinin müxtəlif zaman şəraitində və müxtəlif kombinasiyalarda reallaşması imkanlarını üzə çıxarmaq məqsədi daşıyır. Məsələn, soyuq müharibə dövründə, ABŞ-ın və SSRİ-nin qarşıdırması zamanı nüvə silahı surətlə artırılırdı və onun ehtiyatları elə ölçülərə yüksəlmişdi ki, onun tətbiqi Yerdə bütün canlıların dəfələrlə məhv edilməsini təmin edirdi. Bu proses bugün də davam etsə də, nüvə silahlarının keçirilmiş ixtisarları ona malik olan ölkələrin nüvə potensiallarını nisbətən azaltdı və bununla da planetdə qlobal təhlükəsizlik səviyyəsini xeyli artırdı. Amma dünyada ekoloji vəziyyətin pisləşdiyi yeni şəraitdə mövcud nüvə silahı qlobal təhlükəsizliyə olan əsas təhdidlərdən biridir. Çətin ekoloji şəraitdə onun tətbiqi ətraf mühitə daha güclü təsir göstərməklə, nəinki onun tətbiq edildiyi ölkələrdə, həm də qlobal miqyasda böyük zərərə səbəb ola bilər.

Qlobal təhlükəsizliyin obyektiv qiymətləndirilməsinin mühüm amilləri, yeni texnikanın, texnologiyaların və materialların yaradılması və realizə edilməsi, elmi və mühəndis hazırlamalarının proqnoz analizi, iqtisadiyyatın və istehsalatın inkişafının dəqiq qeydiyyatıdır. Məsələn, sivilizasiya üçün real təhdidlərdən birini biosferanın dağıdılmasına əhəmiyyətli təsir edən təbii ehtiyatların və enerjinin getdikcə daha artan istehlakı təşkil edir. Bu isə əhəmiyyətli dərəcədə təbii fəlakətlərə və ətraf mühitin vəziyyətinin pisləşməsinə gətirib çıxara bilər.

İnsanın iqtisadi və texnogen fəaliyyətinin və onun biosfera ilə qarşılıqlı əlaqəsinin, həmçinin, qlobal təhlükəsizlik baxımından planetar dəyişikliklərin analizi potensial olaraq biosferanın dağıdılmasına və bəşəriyyətin məhvinə gətirib çıxara bilən təhdidlərin sistemli tədqiqatı üçün zəruridir.

Qlobal təhlükəsizliyin və planetar dəyişikliklərin qarşılıqlı əlaqələrinin və ya onların yaratdığı təhdidlərin öyrənilməsi **aşağıdakılara** imkan verir:

– qlobal dəyişiklikləri təhlil etməklə, təhdidlərin mümkünlüyünü, genişliyini və təzahürünün mümkün vaxtını müəyyən etmək;

– fəlakətli nəticələrin xəbərdarlığı zamanı iqtisadi və texniki tədbirlər müəyyən etmək;

– QEF (qlobal ekoloji fəlakət)-in inkişafı haqda bəşəriyyətin xəbərdar edilməsinin yollarını müəyyən etmək;

– mənfi qlobal dəyişikliklərlə mübarizədə təcili və qətiyyətli tədbirləri işləyib hazırlamaq;

– bəşəriyyət üçün təhlükəsiz olan istiqamətdə qlobal dəyişikliklərin öz-özünə inkişafı üçün şərait yaratmaq;

– qlobal dəyişikliklərlə birgə mübarizə üzrə dünya ölkələrinin iqtisadi səylərinin inteqrasiyasına nail olmaq;

– qlobal dəyişikliklərə bəşəriyyətin, dövlətlərin, firmaların və şəxsiyyətlərin aktiv müqavimətini təmin edən davranış normalarını formalaşdırmaq;

– nəinki qlobal təhdidlərlə mübarizə üçün ixtisaslı mütəxəssislərin hazırlanmasını təmin edən, həm də fəlakətlərin xəbərdarlığı üçün öz peşəkar fəaliyyətində və məişətdə məsuliyyətli hərəkətlərə hər bir vətəndaşı hazırlayan təhsil sistemini yaratmaq;

– qlobal dəyişikliklərə əks-təsirin iqtisadi təminatı (ekoloji təmiz istehsalatların yaradılması, yığma, yenidən istehsal və tullantılardan istifadə edilmə sənayesinin inkişafı və s.);

– qlobal təhdidlərin xəbərdarlığı üzrə informasiya fəaliyyətinin iqtisadi təminatı;

– ətraf mühitin mühafizəsinin təmin edən elmi-texniki siyasətin, ekoloji təmiz sənaye texnologiyalarını təmin edən



iqtisadiyyatın bütün sahələrində təbiətdən regional istifadə sisteminin yaradılmasının reallaşdırılması;

– vətəndaşların peşəkar hazırlığım və mənəvi tərbiyəsini təmin edən elə təhsil sistemini yaratmaq ki, orada qlobal dəyişikliklərdən, insanın, cəmiyyətin, ölkənin, onların məskunlaşdığı mühitin təhlükəsizliyinin təminatının hüquqi, sosial-iqtisadi mexanizmləri aktiv formalaşdırılsın və göstərsin;

– yaşayış səviyyəsinin pisləşməsi və ətraf mühitin çirklənməsi ilə əlaqədar xəstəliklərin artmasının öyrənilməsi.

Qlobal təhlükəsizlik anlayışının aparılmış analizi **iqtisadi təhlükəsizlik, planetar təhdidlər və qlobal təhlükəsizlik** arasında dərin əlaqənin mövcudluğunu göstərir.

## 2. Regional təhlükəsizlik

Sosial-iqtisadi coğrafiyada, regional iqtisadiyyatda, dövlət və bələdiyyə idarəçiliyi nəzəriyyəsində «region» anlayışı dedikdə, müxtəlif vilayətlər nəzərdə tutulur.

Geniş mənada isə **region dedikdə, həm iqtisadi, həm də inzibati-ərazi rayonlarını, ölkəni və ya ölkələr qrupunu** başa düşmək olar. Siyasi regionalistika nöqteyi-nəzərindən bu tamamilə regionun uyğun şərhidir. Biz yaranmış sosial infrastrukturu və inkişafının xarakterik xüsusiyyətləri ilə bağlı olan ölkələrin yerləşdiyi müəyyən ərazi məkanını nəzərdən keçiririk. Tədqiqat üçün baza anlayışı kimi **region, milli maraq, təhlükəsizlik, təhdid** məfhumları müəyyən edilə bilər.

Müəlliflər **regional təhlükəsizlik** adı altında regionun dövlətlərinin həyati əhəmiyyətli maraqlarının müdafiəsi vəziyyətini başa düşürlər, bu da onların sabit inkişafını təmin edir. Regional təhlükəsizlik sosial-ərazi birliklərinin müna-

sibətlərində sülh vəziyyətinin olmasından kənarda başa düşülə bilməz. Mehriban qonşuluq münasibətləri onların təhlükəsiz mövcudluğunu və sabit inkişafını təmin edir. Regional təhlükəsizlik beynəlxalq təhlükəsizliyin müxtəlifliyi və qlobal təhlükəsizliyin tərkib hissəsi sayılır.

Regional və milli təhlükəsizliyin təmin edilməsi sisteminin **əsas məqsədi** milli maraqların müdafiəsi və regional təhlükəsizliyin təmin edilməsi sahəsində dövlətlərin siyasətinin və strategiyasının hazırlanması, qüvvələrin, ayrı-ayrı orqanların və vəzifəli şəxslərin konkret funksiyalarında onun reallaşdırılmasına imkan verən mexanizmin yaradılmasıdır. Ən ümumi görünüşdə regional təhlükəsizliyin təmin edilməsi sisteminin formalaşması regional təhdidlərə əks-təsir edir. Belə sistemin **parametrləri** aşağıdakılardır:

– tam həcmdə sistemin məqsədlərinin yerinə yetirilməsini təmin edən etibarlılıq;

– sistemin formalaşmasında və saxlanılmasında dövlətlərin qüvvə və vasitələrinin kifayət qədər olması;

– orqanların, qüvvələrin, vasitələrin, sistemin prinsiplərinin onun funksional təyinatına (məqsədlərinə) uyğunluğu.

Regional təhlükəsizliyin **komponentləri** aşağıdakılardır:

– dövlətlərin obyektiv tələbatlarının onların milli maraqlarında ifadə edilməsi;

– bütün regional birliyin mütərəqqi inkişafında və təhlükəsiz mövcudluğunda dərk edilmiş tələbatların reallaşdırılması və dövlətlərin milli maraqlarının balansı;

– bütün sferalarda əhəmiyyətli milli maraqların kooperasiyasını əks etdirən və onu qorumağa imkan verən bütöv və maddi şəraitin yaradılmasının yekunu kimi regional inteqrasiya;



– ölkələrin milli qanunvericiliklərinə uyğun olaraq yaradılan regional təhlükəsizliyin təmin edilməsi vasitələrinin və ehtiyatlarının ciddi səfərbərliyi;

– regional təhlükəsizliyin təmin edilməsi sisteminin məqsədlərinə çatması, milli və regional təhlükəsizlik obyektlərinin həyati əhəmiyyətli maraqlarının etibarlı müdafiə edilməsi və sistemin vəziyyətlərində pozitiv dəyişikliklərə təsir üçün müxtəlif orqanların vasitə və qüvvələrinin koordinasiyası;

– regional təhlükəsizliyin təmin edilməsində milli təhlükəsizliyin əsas subyektlərinin və obyektlərinin razılaşdırılmış qarşılıqlı əlaqəsi.

Beynəlxalq təhlükəsizliyin problemləri daha çox öz əksini regional təhlükəsizlik komplekslərində tapır. Amma onların müxtəlif regionlarda təzahürü eyni deyildir. Regional proseslərə aparıcı dövlətlərin xaricdən istiqamətləndirilən siyasəti təsir edir. Həmçinin bu və ya digər regionda başlıca olaraq konkret regiona xas olan lokal problemlər xüsusi əhəmiyyətə malikdir.

Tarix göstərir ki, dövlətlər arasında silahlı konfliktlərin ehtimalı onlar arasındakı məsafəylə ölçülür. Qloballaşma və elmi-texniki inqilab bu müddəanın əhəmiyyətini xeyli azaltdı, ancaq onu bütünlüklə ləğv etmədi. Həmsərhəd rayonlarda hərbi konfliktlər və ya onlardan gələn təhdidlər dövlətlər tərəfindən böyük narahatçılıqla qarşılanır və daha aktiv reaksiya tələb edir. Soyuq müharibə vaxtı iki super dövlətin dünyanın bütün regionlarında mövcudluğu və ya müdaxiləsi regional iştirakçıların sərbəstliyini məhdudlaşdırırdı. Aparıcı dövlətlərin regionun işlərinə müdaxiləsinin və ya onlarda iştirakının bugünkü sistemi əsasən yeni təhdidlərə müqavimət üçündür və hələ də əvvəlki intensivliyinə çatmamışdır.

**Hərbi-siyasi təhlükəsizlik nöqteyi-nəzərindən region dedikdə, təhlükəsizlik sferasındakı narahatlıqları sıx bağlı olan dövlətlər qrupu nəzərdə tutulur ki, artıq onların milli təhlükəsizliklərinə bir-birindən ayrılmış şəkildə baxmaq mümkün deyil.** Son vaxtlar iştirakçılara dövlətlərdən savayı qonşu dövlətlər qrupunun ərazisindəki iştirakçılar da qoşulur və onların davranışı bu qrupun təhlükəsizliyinə əhəmiyyətli təsir edir. Adətən təhlükəsizlik nöqteyi-nəzərindən regionların coğrafiyası möhkəmlənmiş beynəlxalq siyasi regionların coğrafiyası ilə üst-üstə düşür. **Beynəlxalq siyasi regionlar ümumi struktur olaraq ona daxil olan dövlətləri birləşdirən siyasi və iqtisadi qarşılıqlı əlaqələrin məcmusunu təşkil edir.**

Soyuq müharibə qurtardıqdan sonra regionların ənənəvi konfiqurasiyası bir qədər dəyişildi. Məsələn, əvvələr Yaxın Şərqin və Orta Şərqin ayrıca baxılan regionları təhlükəsizlik sferasında proseslərin ümumiliyi ilə, müasir şəraitdə Yaxın və Orta Şərqin vahid regionuna daxil olurlar. Analoji proseslər həm də Asiya-Sakit Okean regionunda da müşahidə edilir. Bəzi ölkələri hər hansı bir konkret regiona aid etmək çətindir. Məsələn, Türkiyə az və ya çox dərəcədə Avropa, Yaxın Şərq regionlarında baş verən təhlükəsizliyin spesifik proseslərinin təsirini özündə hiss edir. Buraya həm də Avrasiya, postsovet Şimal regionunun təsiri də daxildir. Analoji vəziyyətdə Əfqanıstan və Birma da yerləşir. Belə ölkələrin regional və qlobal təhlükəsizlik proseslərində xüsusiliyi vardır.

Bu gün beynəlxalq təhlükəsizliyin qlobal kompleksində təhdid tutumu nöqteyi-nəzərindən regionların əhəmiyyətinə yenidən baxılması baş verir. Əsrlər ərzində dünya konfliktlərinin başlıca mənbəyi və teatrı sayılan Avropa dünyanın ən sabit regionlarından birinə çevrilir. Bu gün konfliktliyin episentri Yaxın və Orta Şərq regionuna doğru yerini dəyişir



və burada **beynəlxalq təhlükəsizliyə yeni təhdidlər – terrorçuluq, KQS-nın yayılması, daxili silahlı konfliktlər** meydana çıxır. Asiya-Sakit Okean regionunda təhlükəsizlik sferasında proseslər yeni xüsusiyyətlər əldə edir. Cənubi Asiyada Hindistanın və Pakistanın nüvə silahına malik olması, Birləşmiş Ştatların Hindistanla daha sıx əlaqələrinin yaradılmasına yönəlmiş səylər nəticəsində vəziyyət dəyişir. Şimal-şərqi Asiyada ənənəvi yaralı nöqtələr Şimali Koreya və Tayvan yeni keyfiyyətlər əldə edirlər. Cənub-şərqi Asiyada Asiya-Sakit Okean regionunun digər subregionlarında olduğu kimi Çinin potensial qüdrətinin artımı, Yaponiyanın gələcək hərbi-siyasi kursuna nisbətən ABŞ-ın dəyişən strateji vəziyyətdə oynamaq istədiyi rol və s. amillər regionda qeyri-müəyyənliyi daha da artırır.

Müəyyən regionlarda təhlükəsizliyin yeni keyfiyyətlərinin formalaşdırılması prosesi yüksək dinamika və natamamlıqla fərqlənir və bura postsovet məkanı da daxildir. Postsovet məkanı termini ümumi (Baltikyanı 3 ölkəni çıxmaqla) ənənəni əks etdirir. Onu müşahidə etmək mümkündür ki, bu regionda hərbi-siyasi sahədə yeni, müxtəlif tendensiyalar yaranır, bir sıra yeni müstəqil dövlətlərin və onların subregional qruplarının hərbi-siyasi maraqlarının yaranması prosesləri gedir, regiona kənar dövlətlərin təsiri güclənir.

Bu regionu Avrasiya kimi ifadə etdikdə bu məzmunca daha adekvat olur. Ancaq burada da problemlər yaranır. Onlardan biri onun Avropa və Asiya-Sakit okean regionları ilə qarşılıqlı əlaqəsi və bölünmə xətlərinin müəyyən edilməsinə aiddir. İstisna edilmir ki, bu regionun bəzi ölkələri qonşu regionların təhlükəsizlik sisteminə qoşula bilər.

Afrika regionunda daxili silahlı konfliktlər və onların tənzimlənməsi təhlükəsizliyin mərkəzi problemi kimi hələ də

qalmaqdadır. Ancaq bu regionda baş verən proseslər əsasən lokal xarakterə malikdir və digər regionlardakı proseslərə, qlobal miqyasdakı təhlükəsizliyə nisbətən az dərəcədə təsir edir.

Latın Amerikası regionunda hərbi-siyasi vəziyyət əsasən sabit qalır və ənənəvi olaraq dünyada və digər regionlarda baş verən proseslərdən demək olar ki, ayrıca inkişaf edir.

**Regionlar həm də özündə regional təşkilatları, müqavilələri, razılıqları, silahlar üzərində nəzarət sahəsində rejimləri, etibar və qarşılıqlı kömək tədbirlərini və s. ehtiva edən regional təhlükəsizlik sisteminin formalaşdırılması və institutlaşma dərəcəsinə görə də fərqlənirlər.** Belə institutlaşmanın ən yüksək dərəcəsi Avropa və Latın Amerikası təhlükəsizlik sistemlərinə xasdır. Analoji sistem tədricən Avrasiya postsovet məkanında formalaşır, onun formalaşmasının zəmini isə Avropa İttifaqının səylərində müşahidə edilir. İnstitutlaşmanın daha az dərəcəsi Yaxın, Orta Şərq və ASR (Asiya-Sakit Okean) regionunda təhlükəsizlik prosesləri üçün xarakterikdir.

Aydındır ki, beynəlxalq təhlükəsizliyin yeni parametrlərini təyin edən yuxarıda sadalanmış bütün proseslər və faktorlar dəyişmələr mərhələsindədirlər. Beynəlxalq təhlükəsizlikdə onların xüsusi çəkisi eyni deyildir və həm də dəyişkəndir. Eyni zamanda əməkdaşlıq və konfliktlik tendensiyaları da mövcuddur.

## 3. Beynəlxalq təhlükəsizliyin yeni parametrləri

XX əsrin əvvəllərində beynəlxalq təhlükəsizlik sferasında dərin, tektonik xarakterli irəliləyişlər baş verir, onun təmin edilməsi isə yeni strateji təfəkkürü, yeni maddi texniki



bazanı, yeni hərbi-siyasi vasitələri və beynəlxalq təşkilati-hüquqi strukturu tələb edir.

Beynəlxalq təhlükəsizliyin müasir vəziyyətini tez-tez soyuq müharibənin qurtarmasından sonrakı təhlükəsizlik kimi müəyyən edirlər. Bu formula o aydın faktı vurğulayır ki, indiki beynəlxalq təhlükəsizlik prosesləri soyuq müharibə illərində fəaliyyət göstərən qanunlar üzrə inkişaf etmir. Bəs əvvəlki mərhələdə fəaliyyət göstərən beynəlxalq təhlükəsizlik sisteminin yerini tutan yeni sistemin qanunauyğunluqları hansılardır? Beynəlxalq təhlükəsizliyin meydana çıxmış yeni keyfiyyətinin başa düşülməsi üçün bugünkü vəziyyətin genezisinə kompleks yanaşma, onun kifayət qədər böyük mənzərəsinin, geniş və uzunmüddətli proseslərinin, əsas problemlərinin, iştirak edən tərəflərin maraqlarının üst-üstə düşmə və toqquşma sahələrinin, bu faktorların vəhdəti və qarşılıqlı asılılığında onların malik olduqları ehtiyatların qeyd edilməsi zəruridir.

Beynəlxalq təhlükəsizliyin səviyyəsi dünyadakı siyasi, iqtisadi, ideoloji qarşılıqlı əlaqələrin geniş mühitinin ayrılmaz tərkib hissəsi olaraq, bu mühitdəki prosesləri və hadisələri dəyişdirmək gücünə malikdir. Bugünkü dünya siyasətinin və beynəlxalq münasibətlərin baş verən yeni proseslərindən biri qloballaşma sayılır. Qloballaşma üçün dünyadakı qarşılıqlı əlaqələrin siyasi, iqtisadi, ideoloji və digər sahələrdə qarşılıqlı asılılığının keyfiyyətcə güclənməsi xarakterikdir. Bu özündə transsərhəd qarşılıqlı əlaqələrin rəngarəngliyini və miqyaslarını, cəmiyyətlərin daxili və xarici təşkilinə təsir edən qarşılıqlı asılılığın dərəcəsini ehtiva edir. Dünyanın vahid bütövlük kimi dərk edilməsi baş verir. Ölkələrin milli maraqlarında ümumi, qlobal maraqların xüsusi çəkisi artır. Eyni zamanda təhlükəsizliyin daxili və xarici aspektlərinin qarşılıqlı əlaqəsi güclənir. **Qloballaşma həm konstruk-**

**tiv, həm də destruktiv iştirakçıların beynəlxalq meydana daha geniş və enerjili çıxışı ilə müşayiət edilir.** Destruktiv iştirakçıların generasiya etdiyi təhdidlər ənənəvi iştirak edən tərəflərdən – dövlətlərdən gələn ənənəvi təhdidləri tamamlayır.

Digər əhəmiyyətli yeni fenomen isə dünyanın demokratikləşməsidir. 1970-ci illərin ortalarında başlayan və xüsusilə soyuq müharibənin qurtarmasından sonra yüksək dinamika əldə etmiş demokratikləşmənin III dalğası burjua demoktariyası ilə avtoritarizm arasında qüvvələr nisbətini keyfiyyətcə dəyişdi. Baxmayaraq ki, bəzi ölkələrdə demokratikləşmə prosesləri dondurulmuş və ya geriyə döndərilmişdir, bu geriyə çəkilmə digər ölkələr və regionlarda demokratikləşmə istiqamətində hərəkatla kompensasiya edilmişdir. Demokratikləşmənin III dalğası demək olar ki, tənəzzül əlamətləri olmadan müəyyən zirvəyə qalxdı.

Əgər ona əsaslansaq ki, burjua demokratiyaları bir-biriləri ilə mübarizə aparmırlar və ya çox nadir halda mübarizə aparırlar, onda burjua demokratiyasının qlobal zonasının genişləndirilməsi ona daxil olan həmin dövlətlər arasında sülh zonasının genişləndirilməsini bildirir. Bundan savayı qlobal qarşılıqlı bağlılıq və demokratiyanın xeyrinə qüvvələr nisbətinin dəyişdirilməsi şəraitində bir çox avtoritar dövlətlər demokratiyalarla münasibətləri dinc yanaşı yaşama prisiplərinə əsaslanaraq qurmağa üstünlük verirlər. Axırıncı onilliklərin praktikasının göstərdiyi kimi hərbi konfliktlərin zonası bəzi demokratik dövlətlərlə (əsasən ABŞ və onun aktiv müttəfiqləri) ayrı-ayrı radikal avtoritar rejimlərin (məsələn, S.Hüseyn vaxtı olan İraq, Miloşoviç vaxtı olan Yuqoslaviya, KXDR, İran) toqquşması ilə məhdudlaşır. Bununla yanaşı bir qayda olaraq demokratik birlik və hətta dünyanın bir hissəsi etiraf edir ki, belə rejimlər beynəlxalq təhlükəsizlik üçün təhlükə yaradırlar, amma onlara qarşı



silahlı qüvvənin tətbiq edilib-edilməməsi məsələsində bəzən fikir ayrılığı olur.

## 4. Beynəlxalq təhlükəsizliyin təminat sistemləri

Beynəlxalq birliyin ali maraqları, insan sivilizasiyasının yaşama maraqları beynəlxalq və hərbi-siyasi münasibətlərin bütün subyektlərinin ümidlərinə cavab verən beynəlxalq təhlükəsizliyin təminat (qlobal və regional) sisteminin formalaşdırılması zərurətini diqtə edir.

**Beynəlxalq təhlükəsizlik – beynəlxalq və hərbi-siyasi münasibətlərin elə vəziyyətidir ki, orada hər bir ölkənin milli təhlükəsizliyinin xarici aspekti təmin edilir, beynəlxalq və regional ziddiyyyətlərin həll edilməsi prosesində hərbi konfliktlərin və müharibələrin təhdidi praktiki olaraq istisna edilir.**

Hər bir dövlətin xarici və daxili siyasi fəaliyyətinin istiqamətləri ölkənin mövcud milli maraqları ilə, bu maraqlara olan təhdidlərlə və bu təhdidlərə qarşı müqavimətin zəruriliyi ilə əlaqəlidir. Bu triadanın (maraqlar, təhdidlər, əks-təsir) qarşılıqlı əlaqəsi və qarşılıqlı asılılığı milli təhlükəsizliyin fundamentidir və real və potensial təhdidlər şəraitində ölkənin milli maraqlarının müdafiəsinin vəziyyəti kimi başa düşülür.

Beynəlxalq təhlükəsizliyin təmin olunması sisteminin formaları müxtəlif ola bilər, bu da onların geosiyasi cəhətdən əhatəliyi, iştirakçı ölkələrin inkişaf səviyyəsi, meyilləri (siyasi, iqtisadi, hərbi və s.) ilə şərtlənir. Burada qlobal və regional təhlükəsizlik sistemlərinin rolu, beynəlxalq problemlərin həllinə onların təsiri müxtəlif ola bilər.

İndiki vaxta qədər **qlobal təhlükəsizlik sistemi BMT sayılır.** Bu suveren dövlətlərin ümumdünya təşkilatı olaraq

sülhün və təhlükəsizliyin saxlanılması məqsədilə onların könüllü birləşməsinin əsasında yaranan təsisatdır. BMT Nizamnaməsi və onun digər sənədləri **beynəlxalq təhlükəsizliyin aşağıdakı əsas prinsiplərini** özündə ehtiva edir:

– beynəlxalq sülhü və təhlükəsizliyi qoruyub saxlamaq;

– sülh üçün yaranan təhdidlərin qarşısını alıb, onları aradan qaldırmaq, təcavüz hərəkətlərini boğmaq:

– əmin-amanlığın pozulmasına gətirib çıxara biləcək beynəlxalq mübahisələri dinc yollarla tənzimləmək və ya həll etmək (beynəlxalq münaqişələrin sülh yolu ilə həll edilməsi);

– xalqların hüquq bərabərliyi və müqəddəratını təyin etmək prisipinə hörmət əsasında onlar arasında dostluq münasibətlərini inkişaf etdirmək;

– iqtisadi, sosial, mədəni və humanitar xarakterli beynəlxalq problemlərin həllinə mötədil mövqedən yanaşmaq;

– insan hüquqlarına, irqindən, cinsindən, dilindən və dinindən asılı olmayaraq hamı üçün əsas azadlıqlara hörmətlə yanaşmaqla beynəlxalq əməkdaşlıq əlaqələri yaratmaq;

– dövlətlərin bu məqsədlərə çatmaq yolunda tədbirlərini əlaqələndirmək.

BMT Nizamnaməsinə uyğun olaraq beynəlxalq sülhün və əmin-amanlığın qorunmasında əsas məsuliyyət **BMT Təhlükəsizlik Şurasının** üzərindədir.

BMT Təhlükəsizlik Şurası Birləşmiş Millətlər Təşkilatının 6 başlıca orqanından biridir. BMT Nizamnaməsinə uyğun olaraq (23-32 maddələr), BMT Təhlükəsizlik Şurası sülhü və beynəlxalq təhlükəsizliyi qoruyub saxlamaq üçün məsuliyyət daşıyır. Təhlükəsizlik Şurası BMT üzvləri adından çıxış edir, üzvlər də Təhlükəsizlik Şurasının qərarlarına tabe olmağa və onları yerinə yetirməyə razılıq verirlər. Təhlükəsizlik Şurası BMT-nin sülh üçün yaranan hər bir təhlükəni müəyyən edib araşdıran, beynəlxalq sülhün və təhlükəsizliyin saxlanılması və bərpa olunması üçün tədbirlər görülməsi barədə tövsiyələr verən yeganə orqanıdır. Yalnız Təhlükəsizlik Şurasının tövsiyələrini əsas götürməklə, BMT-nin Baş Məclisi yeni üzvlərin BMT-yə qəbulu, BMT üzvlüyündən xaric olunması, BMT üzvlərinin hüquq və imtiyazlarının dayandırılması barədə qərarlar çıxara bilər.



Təhlükəsizlik Şurası daimi fəaliyyət göstərir, özü üçün prosedura qaydaları müəyyən edir, müvafiq funksiyaları yerinə yetirmək üçün yardımçı orqanlar təsis edə bilir. Təhlükəsizlik Şurasının hər üzvü 1 səsə malikdir. Təhlükəsizlik Şurasının prosedura üzrə qərarları şuranın 9 üzvü ona səs verdikdə qəbul olunur. Konkret desək, qərarlar o vaxt qəbul olunur ki, Təhlükəsizlik Şurasının 9 üzvü, o cümlədən onun bütün daimi üzvləri – Rusiya, ABŞ, Böyük Britaniya, Fransa və Çin bu qərarların lehinə səs vermiş olsun. 1966-cı ildən Təhlükəsizlik Şurası BMT-nin 15 üzvündən (buna qədər 11 olub), o cümlədən 5 daimi və 10 qeyri-daimi üzvündən təşkil olunur və qeyri-daimi üzvlər BMT Baş Məclisi tərəfindən 2 il müddətinə seçilir. Təhlükəsizlik Şurasının qeyri-daimi üzvləri aşağıdakı kvota üzrə seçilirlər: Şərqi Avropa – 1, Asiya və Afrika – 5, Latın Amerikası – 2, Qərbi Avropa və s. dövlətlər – 2.

BMT daxilən sərt beynəlxalq hüquqi planda təsis edilmiş struktura malik, öz qətnaməsinin icrasını tələb edən və yerinə yetirilməsinə nəzarət edən təşkilatdır (hətta hərb və digər güc sanksiyalarının tətbiqi ilə). Amma BMT-nin müxtəlif hadisələrə münasibəti onun qoyulmuş məsələlərə adekvatlığını şübhə altına alır. Ona görə istisna deyildir ki, BMT perspektivdə beynəlxalq təhlükəsizlik qarantı statusundan məhrum edilə bilər.

Qlobal təhlükəsizliyin bütün digər sistemlərini bəzi düzəlişlərlə regional sistemlərə aid etmək olar. Burada hərbi və siyasi planda əsas yer maraqların və təhdidlərin nisbi ümumiliyi ilə birləşmiş dövlətlərin (ittifaqların) bloklarına məxsusdur. Bu maraqlar siyasi, iqtisadi və hərbi fəaliyyətin koordinasiyasını nəzərdə tutur.

Regional təhlükəsizlik sistemlərinə etnomədəni yaxınlıq, iqtisadi və ekoloji maraqların ümumiliyinə əsaslanan dövlətlərin müxtəlif növ təşkilatlarını da aid etmək olar. Beynəlxalq təhlükəsizliyin bu sistemləri öz daxili strukturu və beynəlxalq hüquqi statusuna görə olduqca mürəkkəbdir.

Beynəlxalq təhlükəsizliyin təmin edilməsində daha mühüm rolu daxili sərt struktura hərbi-siyasi və iqtisadi planlara, koordinasiya və nəzarət orqanlarına malik dövlətlərarası sistemlər oynayırlar. Burada onun iştirakçılarının «xüsusi siyasi, iqtisadi və hərbi çəkisi» mühüm rol oynayır. **İndiki zamanda Avropada bu təşkilatlara NATO-nu (1949-cu ildən) və bəzi düzəlişlərlə Avropa İttifaqını (1994-cü ilə qədər Avropa birliyi)** aid etmək olar.

Beynəlxalq regional təhlükəsizlik sistemlərinin xalis Avropa formasına **Avropada təhlükəsizlik və əməkdaşlıq üzrə təşkilat – ATƏT** aiddir. O beynəlxalq təhlükəsizliyin müxtəlif aspektləri üzrə müxtəlif səviyyələrdə keçirilən müzakirələr prosesini, məsləhətlər sistemini özündə əhatə edir.

Beynəlxalq hüquqi rəsmiləşdirmə səylərinə, daimi komissiyaların, komitələrin və digər uyğun orqanların mövcudluğuna baxmayaraq, ATƏT-i beynəlxalq təhlükəsizliyin sərt növlü sistemlərinə aid etmək olmaz, çünki o müvafiq nəzarət və məcburetmə strukturlarına malik deyil. Lakin ATƏT-i Avropa təhlükəsizliyinin daha strukturlaşmış və hüquqi səlahiyyəti olan orqana çevirmək tendensiyası yaranmışdır.



Regional təhlükəsizlik sistemləri dünyanın müxtəlif regionlarında yaranmışdır. Onlara aiddirlər: **Amerika dövlətləri təşkilatı - ADT; Ərəb dövlətlərinin liqası – ƏDL, Cənub-şərqi Asiyada – ASEAN və s.**

Regional təhlükəsizliyin təmin edilməsində mühüm elementlər roluna hələ də dünyanın ayrı-ayrı rayonlarında mövcud olan hərbi-siyasi bloklar iddia edirlər. Məsələn, II Dünya müharibəsinin qurtarmasından sonra dövlətlərin hərbi bloklaşma siyasətinin miqyaslarının artması və onların qütbləşməsi üçün həlledici impuls Şimali Atlantika müqaviləsinin təşkilatının – **NATO-nun yaradılması** oldu.

Lakin bir çox təşkilatlar özlərinin elan edilmiş beynəlxalq hüquqi statusuna və iddialarına baxmayaraq, regionların təhlükəsizliyi nöqteyi-nəzərindən gözlənilən rolu oynamırlar.

Postsovet məkanında bu rolu SSRİ-nin keçmiş respublikalarının bazasında formalaşmış **Müstəqil Dövlətlər Birliyi – MDB** oynamaq istəyirdi. Amma ötən illər ərzində MDB hüdudlarında vahid iqtisadi, elmi-texnoloji məkanın, sərhədlərin qorunması sisteminin və s. formalaşması haqqında qərarların qəbul edilməsinə baxmayaraq, bir sıra səbəblərə görə o cümlədən də, MDB-nin bəzi ölkələrinin xüsusi mövqeyinə görə əməkdaşlıq prosesləri bəyan edilmiş məqsədlərdən uzaqdır.

Bir qayda olaraq beynəlxalq təhlükəsizlik orqanının kollektiv siyasətinin müəyyən edilməsində lider ölkənin rolu xüsusi əhəmiyyətə malikdir. Lider ölkə ilk növbədə öz milli təhlükəsizliyinin təmin edilməsinə can atır, ona görə də beynəlxalq ittifaqın siyasətinin istiqaməti beynəlxalq və milli təhlükəsizliyin bütün sahələrində öz liderinin milli maraqlarına cavab verir.

SSRİ dağıldıqdan sonra yeganə hərbi superdövlət və iqtisadi güc mərkəzinə (Qərbi Avropanın birləşən dövlətləri

və Yaponiya ilə yanaşı) çevrilən ABŞ-ın milli maraqlarına bu nöqteyi-nəzərdən yanaşsaq, açıq aydın olar ki, Vaşinqton öz milli maraqlarının və milli təhlükəsizliyinin təmin edilməsi üçün ölkənin beynəlxalq təhlükəsizlik sistemlərində iştirakına xüsusi əhəmiyyət verir.

ABŞ-ın 1994-1998-ci illərdə müdafiə sahəsində direktivindən göründüyü kimi ABŞ keçmiş Sovet İttifaqının ərazisində vaxtilə SSRİ-dən gələn təhdidlərə analoji olaraq yeni təhdidləri təmsil edən yeni rəqibin yaranmasının qarşısını almağa cəhd edir, yəni Rusiyada keçmiş SSRİ-nin hərbi qüdrətinin dirçəlməsinə imkan verməmək istəyindədir. Burada əsas rol ABŞ-ın müxtəlif regional hərbi-siyasi idtifaqlarda olan iştirakına ayrılır və bu da ona (ABŞ-a) qlobal geosiyasi nəzarəti təmin etməyə imkan verir.

Bu məqsədlə ABŞ öz həyati əhəmiyyətli maraqları sferasına keçmiş SSRİ-nin bir çox regionlarını, Pribaltikanı, Qafqazı, Orta Asiya dövlətlərini daxil edir, Şərqi Avropanın keçmiş sosialist ölkələrinin NATO-ya qəbul edilməsi ilə NATO-nun sərhədlərinin bütün qüvvəsi ilə Rusiyaya yaxınlaşdırılmasına can atır.

ABŞ-ın Rusiyaya ehtiyatlı münasibəti müasir texnologiyalar sahəsində əməkdaşlıq etmək arzusunda olmamasında, vəd edilmiş geniş iqtisadi və maliyyə köməyinin yerinə yetirilməsindən yayınmada, kəskin surətdə artmış kəşfiyyat fəaliyyətinin aktivliyində və s. özünü göstərir.

Dost ölkələrlə əməkdaşlığın əldə edilməsini ABŞ-ın rəhbərliyi birbaşa olaraq beynəlxalq təşkilatlarda özünün aparıcı iştirakı və bu təşkilatlar üzrə digər partnyorlarla öz münasibətlərinin balanslaşdırılması ilə əlaqələndirir.

**2001-ci ilin 11 sentyabr hadisələrindən** sonra ABŞ beynəlxalq terrorçuluqla mübarizə çərçivəsində antiterror



tədbirlərinin həyata keçirilməsində Rusiya və digər ölkələrlə əməkdaşlığa getdi.

Təhlükəsiz dünyanın yaranmasının təmin edilməsini ABŞ rəhbərliyi sabit regional balansların saxlanılması və müxtəlif regionlarda hər hansı bir dövlətin üstünlük təşkil etməsinə yol verilməməsi ilə nail olmaq niyyətindədir. Bu isə ABŞ-ın regional hərbi-siyasi təşkilatlarda iştirakının nəinki Avropada, həm də Yaxın və Orta Şərqdə, hətta Asiya-Sakit Okean regionunda da olması ilə əlaqəlidir.

ABŞ-ın iqtisadi təhlükəsizliyi xarici bazarlara və xammal mənbələrinə azad daxilolma ilə təmin edilir, bu da bir çox hallarda onun regional iqtisadi təşkilatlarda iştirakından asılıdır.

Öz ekoloji təhlükəsizliyini ABŞ beynəlxalq səylərlə təmin etməyi planlaşdırır, amma informasiya təhlükəsizliyinin təmin edilməsində böyük rol müttəfiq ölkələrin informasiya orqanları ilə qarşılıqlı əlaqəsinə ayrılır.

Beləliklə, siyasi, iqtisadi, texnoloji və hərbi sferalarda öz liderliyinin saxlanılmasına çalışan ABŞ-ın milli təhlükəsizlik strategiyası ölkənin müxtəlif növ beynəlxalq təşkilatlarda iştirakına böyük əhəmiyyət verir. Bu ABŞ-a imkan verir ki, bir çox beynəlxalq təşkilatlarda liderlik roluna malik olaraq, bütün sferalarda öz milli təhlükəsizliyini təmin etsin. Həmçinin indiki zamanda qlobal güc mərkəzi kimi öz subyektiv məqsədlərini kollektiv maraqlara çevirsin.

Qərb ölkələrinin hökumət dairələrinin Mərkəzi və Şərqi Avropada hərbi-siyasi vəziyyətin öz-özünə meydana çıxan və qabaqcadan proqnozlaşdırılmayan inkişafından narahatlığı, onları Avropa təhlükəsizliyinin yeni modellərinin axtarışına sövq edir. NATO-nun hərbi-siyasi rəhbərliyinin bu bloku Avropa təhlükəsizlik sisteminin əsasına çevirmək məqsədi müşahidə edilir. Eyni vaxtda Rusiyanın Av-

ropadan sıxışdırılması ilə Mərkəzi və Şərqi Avropa ölkələrinin, o cümlədən də keçmiş SSRİ respublikalarının Avropa strukturlarına daxil edilməsi kimi proseslər baş verir.

Rusiya isə geostrateji məkanı ilə bilavasitə kontakta malik olan regional təhlükəsizlik sistemlərində çevik iştirakını məqsədəuyğun hesab edir və həmçinin, Rusiya Çinlə, Hindistanla, Asiya-Sakit Okean regionunun bir sıra digər ölkələri ilə əlaqələrin möhkəmləndirilməsi istiqamətində tədbirlər görməkdədir.



# XIII FƏSİL

## Ümummilli lider Heydər Əliyevin Azərbaycanın milli təhlükəsizlik sisteminin formalaşması və inkişafında rolu

1. **Ümummilli lider Heydər Əliyevin fəaliyyətinin ümumi səciyyəsi**
2. **Ümummilli lider Heydər Əliyev Azərbaycanın daxili təhlükəsizliyinin təminatçısı kimi**
3. **Ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikasının xarici təhlükəsizliyinin təmin olunmasında rolu**

## 1. Ümummilli lider Heydər Əliyevin fəaliyyətinin ümumi səciyyəsi

**Azərbaycan xalqının XX əsrin ortalarından XXI əsrin əvvəllərinə qədərki tarixi Heydər Əliyevin siyasi fəaliyyəti və şəxsiyyətilə, onun 30 ildən artıq bir müddət ərzində öz xalqının, doğma yurdunun gələcəyi naminə həyata keçirdiyi böyük quruculuq işləri ilə qırılmaz surətdə bağlıdır.** Bütün varlığı ilə öz xalqına, torpağına bağlı olan bu dahi şəxsiyyət bir-birinə zidd iki sistemdə fəaliyyət göstərsə də ən çətin tarixi dövrlərdə və təqiblər şəraitində belə, doğma Azərbaycanının çiçəklənməsinə və xalqının intellektual səviyyəsinin, elmi potensialının və maddi rifahının yüksəlməsinə xidmət etmişdir.

Yaşanılmış tarix bir daha göstərdi ki, Heydər Əliyev XX yüzilliyin son dərəcə mürəkkəb və ziddiyyətli tarixi şəraitində xalqımızın yetirdiyi ən dahi siyasətçisi, öz yurdunun, doğma torpağının misilsiz təəssübkeşidir. Bütün bunlarla yanaşı, o, müasir dünyanın ən qüdrətli tarixi simaları sırasına yüksəlmiş fenomenal şəxsiyyət və müstəqil Azərbaycanın qurucusudur.

Məlumdur ki, azad, müstəqil dövlət halında yaşamaq hər bir xalqın milli mənəvi haqqı və səlahiyyətidir. Bu haqqı və səlahiyyəti bizə qaytaran, Azərbaycanın tarixi dövlətçilik ənənələrinin bərpası istiqamətində əlindən gələni əsirgəməyən, dövlətçiliyin möhkəmləndirilməsində, müdafiə və mühafizəsində əvəzsiz xidmətləri olan ümummilli lider Heydər Əliyevdir. Ona görə də qədirbilən xalqımız ilk növbədə öz dahi oğluna – Heydər Əliyevə minnətdardır. Hər bir azərbaycanlıya aydındır ki, əgər xalqın təkidli tələbi ilə Heydər Əliyev kimi qüdrətli bir şəxsiyyət yenidən hakimiyyətə gəlməsəydi, müstəqilliyimizi qoruyub saxlaya bilməyəcək və onu itirəcəkdik!



Ümummilli lider Heydər Əliyevin qalib gücü onda idi ki, onun atdığı hər bir addımın arxasında millət və xalq, eyni zamanda onların milli maraqları dayanırdı. Bu maraqların təminatı zamanı o, ayrı-ayrı dövlətlərin dəstəyindən daha çox xalqına söykənirdi. Heydər Əliyevin liderlik fəaliyyətini səciyyələndirən əsas xarakterik xüsusiyyət də ondan ibarətdir ki, o, istər sovet dövründə, istərsə də müstəqil Azərbaycan Respublikasının Prezidenti olduğu illərdə bütün çətinliklərə və təzyiqlərə baxmayaraq, başqası tərəfindən idarə olunmamış, daima özü idarə etmişdir. Heydər Əliyevin siyasi fəaliyyətində ən ümdə cəhət də məhz budur.

Hələ XX əsrin 40-cı illərindən Azərbaycanın təhlükəsizlik orqanlarında fəaliyyətə başlayan Heydər Əliyev son dərəcə ağır maneələri və çətinlikləri dəf edərək Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsinə qədər yüksəldi. Onun xidmətləri sayəsində əməliyyat işlərinin yalnız statistik göstəricilərində deyil, keyfiyyətində və məzmununda da mühüm dəyişikliklər oldu. Onlarla əməliyyat tədbirləri və əməliyyat oyunları həyata keçirildi. Keçirilmiş əməliyyat tədbirləri Moskvanın diqqətini cəlb etdiyindən Heydər Əliyev İttifaqın bir çox yerlərində mühazirələr oxudu və əməliyyat işinin metodlarını izah etdi. Onun rəhbərliyi altında keçirilmiş bəzi əməliyyat oyunları təhlükəsizlik orqanlarının xüsusi məktəblərində nümunəvi işlər kimi tədris edildi.

O, olduqca gərgin, səmərəli və çox çətin şəraitdə göstərdiyi məqsədyönlü fəaliyyəti nəticəsində 1920-1940-cı illərdə xalqımızın mütəfəkkir şəxsiyyətlərinə qarşı yönəlmiş repressiyalarda yaxından iştirak edən əməkdaşların təhlükəsizlik orqanlarından təmizlənməsi sahəsində çox cəsarətli addımlar atdı.

Təhlükəsizlik orqanlarında milli kadrların yetişdirilməsi və yerləşdirilməsi işinə 50-ci illərdən başlayan milli öndərimiz sonrakı illərdə də bu siyasi kursu davam etdirdi. Təəssüf ki, təmizləmə və azərbaycanlılaşdırma prosesinin ağrılarını Heydər Əliyev öz taleyində və tərcümeyi-halında da yaşadı. Vaxtı ilə baş-başa verərək Azərbaycanın milli, mənəvi-əxlaqi dəyər və sərvətləri ilə yanaşı mütəfəkkir şəxsiyyətlərini də məhv edən mürtəce qüvvələr Heydər Əliyevin bu cəsarətli addımlarına qarşı çıxaraq 1955-ci ildə onun şöbə rəisi vəzifəsindən azad edilməsinə nail oldular.

Bu barədə ümummilli lider Heydər Əliyev deyirdi: «**Nə qədər çətinliklər çəkdim ki, 30-cu illərdən qalmış və Azərbaycana xəyanət etmiş insanlardan bu orqanları xilas edək və yeni gənc nəsli buraya cəlb edək, orqanlarda sağlamlaşma işi aparaq. Bu çətin oldu. O qədər çətin oldu ki, mənə qarşı fitnələr etdilər, vəzifədən çıxartdılar. Lakin bir-iki ildən sonra məni yenə də vəzifəyə təyin etdilər, məcbur oldular ki, təyin etsinlər... Mən o zaman cəsarətli addımlar atdım, xalqımızın milli maraqlarına zidd hərəkətlər edən bir neçə zabitin cinayətkar olduqlarına görə həbs edilməsinə, cəzalandırılmasına, işdən çıxarılmasına nail oldum**».

Azərbaycan xüsusi xidmət orqanlarının azərbaycanlılaşdırılmasını böyük uğur hesab edən ümummilli lider Heydər Əliyev 1999-cu ildə Milli Təhlükəsizlik Nazirliyinin 80-ci ildönümü münasibəti ilə Milli Opera və Balet Teatrında keçirilən iclasda deyirdi: «**Mən hesab edirəm ki, Azərbaycanda təhlükəsizlik təşkilatının milliləşdirilməsi prosesi bu təşkilatın Azərbaycana vurduğu zərərə baxmayaraq, bizim əldə etdiyimiz ən böyük nailiyyət idi, təşkilat milliləşdikcə onun fəaliyyətinin istiqamətini də Azərbaycanın milli mənafelərinə daha çox uyğun aparmaq mümkün olurdu**».



Azərbaycan xüsusi xidmət orqanlarında milliyyətcə azərbaycanlı olan kadrların yerləşdirilməsi prosesi sonrakı illərdə, hətta ümummilli lider Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi olanda da davam etmişdir.

O zaman ümummilli lider Heydər Əliyev xalqımızın milli əhval-ruhiyyəli ziyalılarını təqiblərdən qorudu və bununla da milli oyanışımızın əsasını qoydu. Bu proses ümummilli lider Heydər Əliyevin siyasi rəhbərliyi dövründə daha da gücləndi.

Ümummilli lider Heydər Əliyev 1969-cu ildə siyasi hakimiyyətə gəldiyi ilk gündən bir neçə cəsarətli addımı ilə yadda qaldı. Birincisi, Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçilən kimi ilk mübarizəsi əsassız erməni iddialarının qarşısını almaq oldu. Belə ki, «mərkəzin təzyiqi ilə Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti 1969-cu il 7 may tarixli qərarı ilə sərhəd rayonlarında 2 min hektardan çox Azərbaycan torpağının Ermənistana verilməsi haqqında hələ 1938-ci il mayın 5-də qəbul olunmuş qərarı təsdiq etdi. Lakin az sonra Azərbaycan rəhbərliyinə gəlmiş Heydər Əliyev bu qərarın icrasına yol vermədi». Daha doğrusu, Heydər Əliyev sovetlər dövründə mümkün olmayanı mümkün etdi. Heydər Əliyev çıxışlarının birində göstərirdi ki, mən arayış verə bilərəm ki, siyasi hakimiyyətdə olduğum 1969-cu ilin 14 iyulundan 1982-ci ilin dekabrına qədərki dövrdə Azərbaycan ərazisindən bir qarış da olsun Ermənistana torpaq verilməyib.

İkincisi, Heydər Əliyev 1969-cu ilin avqust plenumunda böyük iradə nümayiş etdirərək SSRİ-də danışılması yasaqlanan, lakin mövcud olan rüşvətxorluq və korrupsiyadan ətraflı bəhs açdı. Onun bu çıxışından Moskva narazı qalsa

da, o böyük qətiyyət göstərərək öz mövqeyini israrla müdafiə etdi.

Üçüncüsü, o, siyasi xadim kimi ilk dəfə 1969-cu ildə Azərbaycan Dövlət Universitetinin 50 illiyi ilə əlaqədar keçirilmiş təntənəli yığıncaqda protokol qaydalarını pozaraq bütün SSRİ üçün elan olunmuş «Lenin dili»ndə deyil, doğma ana dilində - Azərbaycan dilində çıxış etdi. Heydər Əliyevin sonrakı illərdə yeritdiyi «dil siyasəti»nin əsası da bu illərdə qoyuldu.

Bunlar bir daha göstərdi ki, Azərbaycanın yeni rəhbəri mövcud çətinlikləri aradan qaldırmağa qadir və rejimin qoyduğu qadağa sərhədlərini ustalıqla «pozmağı» bacaran, xalqının maraqlarını düşünən, müstəqil siyasət yeritmək qüdrətinə malik olan yeni tipli liderdir.

Mübaliğəsiz demək olar ki, Heydər Əliyevin siyasi rəhbərliyi dövründə Azərbaycan SSR SSRİ tərkibində olduğu bütün tarixi dövr ərzində, özünün ən yüksək inkişaf zirvəsinə qalxdı. Heydər Əliyevin çox dərindən ölçülüb-biçilmiş, işıqlı gələcəyə istiqamətlənmiş müdrik və cəsarətli fəaliyyəti nəticəsində Azərbaycan bütün Sovet İttifaqında ən qabaqcıl sənaye və kənd təsərrüfatı respublikasına çevrildi. Respublikanın bir çox yerlərində zavod və fabriklər inşa edildi, mikrorayonlar salındı.

Onun gərgin mübarizəsi nəticəsində **1978-ci ildə Azərbaycan Sovet Sosialist Respublikasının Konstitusiyasında ilk dəfə olaraq Azərbaycan dili dövlət dili kimi öz təsbitini tapdı.** Heydər Əliyevin təşəbbüsü ilə ilk dəfə müstəqil Dilçilik İnstitutu, Bakı Dövlət Universitetində Türkologiya kafedrası yaradıldı və Türkologiya jurnalı çap edildi. Türkdilli xalqlarla Azərbaycan arasında ədəbi-mədəni və siyasi əlaqələr daha da möhkəmləndi. Türkiyənin bir çox dövlət xadimləri Azərbaycanda səfərdə oldular.



Milli kadr hazırlığı ən yüksək zirvəyə qalxdı. Təhsil, elm, mədəniyyət və incəsənət sahəsində xeyli nailiyyətlər əldə olundu. Xalqın maariflənməsi məsələsinə xüsusi diqqət yetirildi, Azərbaycan dilli məktəblərin sayı xeyli artdı və onların avadanlıqlarla təchizatı gücləndirildi. Gənclərin İttifaqın müxtəlif bölgələrində təhsil almaları üçün ideal şərait yaradıldı. Şübhəsiz ki, bütün bunlar milli özünüdərkin güclənməsində və milli şüurun formalaşmasında mühüm rol oynadı.

Qədim tarixi və mədəniyyət abidələrimizin qorunması, adət-ənənələrimizin bərpası milli mənəvi dəyərlərin mühafizə olunmasına və ümumbəşəri dəyərlərlə bərabərhüquqlu inkişafına səbəb oldu.

Azərbaycan ziyalılarının əsərləri Moskvada və digər yerlərdə nəşr olundu. Bir çox yazıçılar SSRİ Yazıçılar və Jurnalistlər İttifaqının üzvü seçildi. Azərbaycanın musiqisi və mədəniyyəti İttifaq miqyasında tanındı. Bəzi müğənnilərimizə SSRİ-nin xalq artisti fəxri adları verildi. Azərbaycanın elm xadimlərinin səsi müxtəlif yerlərdən gəldi, fundamental elmlərin yaradılması üçün imkanlar genişləndi. Müstəqil söz demək qüdrətinə malik olan alim və ziyalılar imperiyanın təqib və təzyiqlərindən qorunmaq üçün Heydər Əliyevin simasında özlərinə güclü dəstək qazandılar. Azərbaycanın beynəlxalq aləmdə nüfuzu xeyli artdı və xalqımızın ictimai-siyasi həyatında intibah prosesinin əsası qoyuldu. Beləliklə də, uzaqgörən və daim millətinin gələcəyini düşünən böyük dövlət xadimi öz xalqını həyatın bütün sahələrində müstəqil yaşamağa hazırladı. Bir sözlə, ötən əsrin 70-80-ci illərində Heydər Əliyevin rəhbərliyi və himayəsi altında Azərbaycan hərtərəfli inkişaf etdi. **Ən başlıcası isə Heydər Əliyev 1969-1982-ci illərdə xalqla siyasi rəhbərlik arasında uzun illərdən**

**bəri mövcud olan uçurumu aradan qaldırdı və xalqın birliyinə nail oldu.**

**Heydər Əliyevin respublikada əldə etdiyi bu nailiyyətlər Moskvanın diqqətini cəlb etdiyinə görə onu 1982-ci ildə SSRİ rəhbərliyində Siyasi Büronun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə irəli çəkdi.** Yüksək vəzifəyə irəli çəkilən Heydər Əliyev qısa bir müddətdə Sovet İttifaqının ən ağır sahələrinin (nəqliyyat, elm, təhsil, səhiyyə və s.) idarə edilməsində böyük uğurlara nail oldu və bütün SSRİ-də nüfuz qazandı. Heydər Əliyevin belə bir mötəbər vəzifəyə təyin edilməsi və qarşıya qoyulmuş tapşırıqları layiqincə yerinə yetirməsi dünya siyasətçilərinin və mətbuatının nəzər diqqətini çəkdi. Onun böyük siyasi xadim olduğunu və dünyada tanındığını SSRİ rəhbərləri də etiraf etdi və ən güclü siyasi xadim kimi baş katib vəzifəsinin ona layiq olduğunu bildirdilər. Ona görə də, İttifaq rəhbərləri, xüsusilə M.Qorbaçov Heydər Əliyevi özlərinə ciddi rəqib hesab edirdilər. Bundan başqa, «Böyük Ermənistan» xülyasına daim əngəl olan bir şəxsin Kremlin siyasi elitasında təmsil olunması erməniləri də çox narahat edirdi. Ermənilər bütün varlıqları ilə çalışırdılar ki, Kremldə əyləşmiş böyük «türk paşası» adlandırdıqları ulu öndəri hakimiyyətdən uzaqlaşdırsınlar və antiazərbaycan siyasətlərini asanlıqla həyata keçirə bilsinlər. Belə bir şəraitdə fəaliyyət göstərməsinə baxmayaraq, Heydər Əliyev sovet rəhbərliyində olarkən doğma Vətənini həmişə diqqət mərkəzində saxlamış və onun problemlərinin həllinə nail olmuş və inkişafına hər cür qayğı göstərmişdir. Xalqımızın böyük oğlu o zaman, həm də, Dağlıq Qarabağı Azərbaycandan qoparıb almağa çalışan erməni millətçilərinin qarşısında qüdrətli maneə, keçilməz sədd idi. Məhz buna görə də 1987-ci ildə Heydər Əliyev siyasi rəhbərlikdən uzaqlaşdırıldı. Heydər Əliyev vəzifədən uzaqlaşdırıldıqdan sonra ermənilərin beynəlxalq aləmdə təklənmiş Azərbaycana qarşı təcavüzü daha da gücləndi. Bir qədər sonra erməni-rus ittifaqının birgə hazırladığı və həyata keçirdiyi «20 Yanvar» faciəsi baş verdi.



**1990-cı il yanvarın 21-də özünün və ailəsinin həyatını təhlükə qarşısında qoyaraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlib doğma millətinə başsağlığı verən, Bakıda kütləvi qırğın törədənlərin cəzalandırılmasını tələb edən, xalqa qarşı törədilmiş bu hərbi təcavüzü pisləyən Heydər Əliyev əslində, doğma xalqının qurtuluş mübarizəsinin, eləcə də istiqlal savaşının önünə keçdi.** Akademik Ramiz Mehdiyevin sözləri ilə desək «1990-cı ilin 20 Yanvar hadisələri Heydər Əliyevi aktiv siyasi fəaliyyətə qaytardı. Lakin artıq bu fəaliyyət öz siyasi məzmununa görə sovet sisteminin məcrasından kənara çıxırdı. Partiya-dövlət vəzifəsi olmayan insan keçmiş SSRİ-də siyasi fəaliyyətlə məşğul ola bilməzdi. Buna, sadəcə olaraq, yol verilmirdi, əzəldən sərt qadağa qoyulmuşdu. 20 Yanvar faciəsi ilə əlaqədar onun siyasi bəyanatı təkcə Azərbaycanda deyil, həm də müəyyən mənada keçmiş SSRİ-də yeni siyasi eranın başlanğıcı oldu».

Yeni siyasi eranın başlandığını görməyən keçmiş SSRİ-nin və Azərbaycanın o zamankı rəhbərliyi Heydər Əliyevin Vətən, xalq naminə verdiyi bəyanatlarına reaksiyasız qalmır, onu ittiham etmək və nüfuzdan salmaq üçün kampaniyalar təşkil edirdilər.

Heydər Əliyevin Vətənə qayıdışından narahat olan Azərbaycan rəhbərliyinin təzyiqlərinə baxmayaraq, o, 1990-cı il iyulun 20-də Bakıya gəldi və həmin il də Azərbaycan Ali Sovetinə deputat seçildi. Həmin dövr Azərbaycanın tarixində ən ağır fəlakət illəri, «olum ya ölüm» dövrü idi. Moskvanın dirijor çubuğunun hərəkət istiqamətlərinə uyğunlaşan, heç bir idarəçilik bacarığı olmayan «siyasi

rəhbərlər» məmləkəti dağılıb məhv olmaq təhlükəsi ilə üz-üzə qoymuşdular.

**Azərbaycanın siyasi tarixində özünə parlaq iz qoymuş bu böyük şəxsiyyətin Naxçıvanda yenidən siyasi hakimiyyətə qayıdışı Naxçıvandan başlanan müstəqillik yolunun bütün Azərbaycan siyasi mühitində aparıcı qüvvəyə çevrilməsinə, milli dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxartdı.** Azərbaycanın üçrəngli bayrağı ilk dəfə olaraq Heydər Əliyevin sədrliyi ilə keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclas salonunda qaldırıldı. Keçmiş sovetlər birliyinin hələ mövcud olduğu bir şəraitdə cəsarətli addım atılaraq Naxçıvan MR-in adından «Sovet Sosialist» sözləri götürüldü.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyalarında muxtar respublikanın dövlət rəmzləri haqqında məsələ də geniş və ciddi müzakirə obyektinə çevrildi. Sessiya Azərbaycan Xalq Cümhuriyyətinin rəmzi olan üçrəngli dövlət bayrağının bərpa edilməsi və onun Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul olunmasını təsbit etdi.

Heydər Əliyevin apardığı siyasət nəticəsində sovet qoşun hissələri və sərhəd dəstələri onlara məxsus silah-sursatın, hərbi texnikanın və əmlakın bütünlüklə Naxçıvanda saxlanması şərti ilə bu torpağı tərk etdilər. Onların bazasında ilk sərhəd dəstəsi və milli ordu hissələri yaradıldı. Vaxtı ilə dağıdılmış Naxçıvanla İran arasındakı sərhəd zolağı yenidən bərpa edildi və etibarlı qorundu.

Məlumdur ki, Azərbaycanın bir çox bölgələri kimi Naxçıvan da erməni təcavüzünə məruz qaldı. Lakin Heydər Əliyevin siyasi təcrübəsi və fədakarlığı nəticəsində əhali səfərbər edildi, eyni zamanda vaxtı ilə bağlanmış Kars müqaviləsi yenidən gündəliyə gətirildi və Naxçıvan torpağı erməni təcavüzündən yaxa qurtara bildi.



Azərbaycanın mühafizəkar kommunist rəhbərliyi Naxçıvan Muxtar Respublikasında gedən prosesləri separatçılıq kimi qiymətləndirir, rəsmi mətbuatda, televiziyada antinaxçıvan təbliğatını genişləndirir və Naxçıvana təzyiqləri artırırdı. Ümummilli lider məhz həmin ağır və məşəqqətli günlərdə dönə-dönə deyirdi: «Mən həyatımdan keçərəm, lakin Naxçıvanı Azərbaycandan ayırmaram».

**1993-cü ilin iyun günlərində müstəqil Azərbaycan dövlətinin məhv olmaq təhlükəsi yarandıqda xalqımız qəti hərəkət edərək dövlətimizin idarə olunmasını Heydər Əliyevə etibar etdi. Beləliklə, Heydər Əliyev ikinci dəfə Azərbaycana rəhbərlik etməyə başladı.** Onun Azərbaycanın rəhbərliyinə qayıdışı 1993-cü il iyunun 15-də oldu. Həmin gün o, Azərbaycan Respublikası parlamentindəki çıxışında ölkəmizdə yaranmış ağır vəziyyəti dərindən təhlil etdi. Heydər Əliyev 4 iyun hadisələrindən ikinci dəfə qan tökmədən çıxmağın, yaranmış insidentin aradan qaldırılmasının xalqın birliyi ilə mümkünlüyünü göstərdi və eyni zamanda bildirdi ki, demokratik inkişaf yoluna qədəm qoymuş müstəqil Azərbaycan dünya dövlətləri ilə hərtərəfli normal münasibətlər qurmalıdır.

Heydər Əliyevin Azərbaycan rəhbərliyinə yenidən qayıdışı xalqımızın istiqlal mübarizəsində və müstəqilliyimizin möhkəmləndirilməsində ən mühüm hadisə oldu. **Öz xilaskarını yenidən siyasi kürsüdə görən qədirbilən xalqımız 15 iyun gününü «Qurtuluş» günü kimi bayram etdi.** Beləliklə, xalqımızın tarixində yeni bir mərhələ başlandı. Bir neçə aydan sonra Heydər Əliyev ümumxalq səsverməsi nəticəsində Azərbaycan Respublikasının Prezidenti seçildi.

Heydər Əliyevin siyasi hakimiyyətə yenidən qayıtması ilə Azərbaycan dövləti məhv olmaqdan xilas edildi. Azərbaycanın parçalanıb əyalətlərə bölünmək təhlükəsi aradan qalxdı. Heydər Əliyev ölkəmizə rəhbərliyə qayıdan kimi, dərhal, bir neçə son dərəcə ağıllı və cəsarətli tədbirlər gördü. Respublikadakı vətəndaş müharibəsi təhlükəsini aradan qaldırdı. Azərbaycanda anarxiya və hərc-mərcliyə, hakimiyyət boşluğuna son qoydu, xalqın fəal köməyi ilə etnik münaqişələri yatırdı. Məhz ümummilli liderin qətiyyəti ilə Azərbaycanın daxilində olan bütün qanunsuz silahlı dəstələr ləğv edildi, xarici pozucu qüvvələrin terror-təxribat aksiyalarının, təhdidlərinin qarşısı inamla alındı, dövlət quruculuğu işinin uğurla aparılmasına əsaslı zəmin və şərait yaradıldı.

Ümummilli lider Heydər Əliyevin gərgin əməyi sayəsində Azərbaycan xalqının başına gətirilən müsibətlərə - 20 Yanvar və Xocalı faciələrinə siyasi qiymət verildi. O, müstəqil Azərbaycanın dövlətçilik ənənələrinə sədaqətlə xidmət edən milli ordu formalaşdırdı. Geosiyasi vəziyyəti düzgün qiymətləndirən Heydər Əliyev cəbhədə atəşkəsə nail oldu. Təcavüzkar Ermənistanın Azərbaycana qarşı ədalətsiz müharibəsində atəşkəs dövrü başlandı.

Böyük öndərin gərgin zəhməti nəticəsində azad sahibkarlığın inkişafı və iqtisadi müstəqillik dövlət siyasətinin əsasını təşkil etdi. Ümummilli lider böyük dövlətlərin iştirakı ilə «Əsrin müqaviləsi»ni imzaladı, Bakı-Tbilisi-Ceyhan neft ixracı kəmərinin inşasını reallaşdırdı, «Böyük ipək yolu» nəqliyyat dəhlizini yenidən bərpa etdi və Azərbaycanı dünya üçün daha mühüm coğrafi-siyasi məkana çevirdi. Azərbaycan dünyada sülhün və əmin-amanlığın təəssübkeşi və tərəfdarı kimi tanındı.



Ümummilli liderin uğurlu daxili və xarici siyasəti nəticəsində demokratik prinsiplərə söykənən konstitusiya yaradıldı, ölkədə qanunverici, icra və məhkəmə hakimiyyəti təsbit edildi. Müasir demokratik siyasi sistem formalaşdı, respublikamızda ilk dəfə demokratik seçki təcrübəsinin əsası qoyuldu, insanların hüqüq və azadlıqlarına təminat yaradıldı, siyasi plüralizm və vətəndaş həmrəyliyi bərqərar oldu. Azərbaycan dünyanın bir çox dövlətləri ilə bütün sahələrdə bərabərhüquqlu əsasda əməkdaşlığa cəlb edildi, ölkəmiz beynəlxalq aləmdə demokratik, hüquqi, dünyəvi dövlət kimi tanındı. Heydər Əliyev Azərbaycan diasporunu yaratdı, dünya azərbaycanlılarının həmrəyliyinə nail oldu, xalqımızı vahid məfkurə - Azərbaycançılıq ideologiyası ətrafında birləşdirə bildi.

Milli öndərimizin qayğısı, diqqəti, eləcə də yeritdiyi müdrik siyasət və atdığı cəsarətli addımlar nəticəsində Azərbaycanın milli təhlükəsizlik orqanlarının fəaliyyət istiqamətləri müəyyənləşdirildi, təhlükəsizlik sisteminin əsasları yaradıldı. Millətə, dövlətə və dövlətçiliyə, bütövlükdə isə milli maraqlara sədaqət təhlükəsizlik orqanlarının əsas qayəsinə, amalına çevrildi.

Dünyanın siyasi xadimləri arasında öz üslubu, öz dəsti-xətti ilə tanınan və seçilən Heydər Əliyevin yeritdiyi uğurlu siyasətinin mərkəzində sülh, əmin-amanlıq, demokratiya və qloballaşma dayanırdı. Ümummilli lider Heydər Əliyev göstərirdi ki, **«Əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz... Bizim böyük məsuliyyətimiz var. Biz müstəqil Azərbaycan dövləti yaradırıq və onu elə yaratmalıyıq ki, daim yaşasın, heç bir qüvvə onu heç vaxt, heç bir yana əyə bilməsin,**

**heç bir böyük dövlət gəlib bizim, Azərbaycan xalqının milli azadlığını, müstəqilliyini əlindən ala bilməsin».**

İmperiyadan asılılığın nə demək olduğunu yaxşı bilən Heydər Əliyev «**Azərbaycan xalqının müstəqillikdən böyük sərvəti yoxdur**» - deyəndə özünün və xalqının ali məqsədini bir daha ifadə edirdi. O, Azərbaycan vətəndaşlarına müraciətlə bildirirdi ki, **«Kim müxalifətdə durursa dursun, ancaq Vətəninə, xalqına, mənəviyyatına müxalifətdə durmasın»**. Vətənə və xalqa qarşı müxalifətdə olmaq milli birliyə yox, xəyanətə aparıb çıxarır. Xəyanət olan yerdə isə müstəqillik və dövlətçilik xarici qüvvələrin təsiri ilə deyil, içdən, daxildən çürüyür və məhv olur.

**Heydər Əliyev özündən sonra müstəqilliyimizin qarantı ola biləcək siyasi varis məsələsini də həll etdi. Bu varis ümummilli liderimizin siyasi kursunu ləyaqətlə davam etdirən, Azərbaycanın nüfuzunu dünya dövlətləri arasında daha da möhkəmləndirən İlham Əliyevdir. Çox qısa bir zamanda Prezident İlham Əliyevin apardığı məqsədyönlü siyasət nəticəsində dünya birliyində Ermənistan təcavüzkar bir dövlət kimi tanındı. Demokratik dövlət quruculuğu prosesində, idarəetmə sistemində ciddi irəliləyişlər baş verdi, insan hüquq və azadlıqlarının qorunması, əhalinin sosial müdafiəsi istiqamətində mühüm addımlar atıldı, ölkəmiz iqtisadi göstəriciləri ilə dünya dövlətlərinin diqqətini cəlb etdi və regionda lider dövlətə çevrildi. Azərbaycanın müstəqil dövlət kimi beynəlxalq aləmdə siyasi-iqtisadi, hərbi və s. əlaqələri daha da genişləndi. Ümummilli liderdən miras qalan daxili sabitlik daha da möhkəmləndi. Fərəhli haldır ki, bu gün dövlət başçısının yeritdiyi uğurlu siyasət nəticəsində «Regionların sosial-iqtisadi inkişaf proqramı» uğurla həyata keçirilir, işsizliyə son qoyulur. Şübhəsiz ki, bütün bunlar Heydər Əliyevin siyasi kursunun qələbəsi və təntənəsidir.**



## 2. Ümummilli lider Heydər Əliyev Azərbaycanın daxili təhlükəsizliyinin təminatçısı kimi

Azərbaycan Respublikasının 1991-ci ildə siyasi müstəqillik əldə etməsi və demokratik dövlət quruculuğu yoluna qədəm qoyması totalitar sovet rejimindən qalmış ictimai-siyasi problemlərin, erməni separatizmi və Ermənistanın Azərbaycana hərbi təcavüzünün, beynəlxalq aləmdən təcrid olma, kəskin daxili siyasi qarşıdurma və vətəndaş müharibəsinin, dövlət çevrilişi cəhdlərinin və digər ağır siyasi, sosial-iqtisadi problemlər, eləcə də onların nəticələrini aradan qaldırmaq məcburiyyətində qaldı.

**Bu gün biz tam əminliklə Azərbaycanda müstəqil, demokratik, hüquqi dövlət quruculuğu prosesinin yalnız 1993-cü ildən, yəni Heydər Əliyevin yenidən hakimiyyətə qayıdaraq ölkə Prezidenti seçilməsindən sonra başlanıldığını qeyd edə bilərik.** Məhz bundan sonra ölkədə qanunçuluğun möhkəmləndirilməsi, sosial-psixoloji gərginliyin tədricən aradan qaldırılması, cəmiyyətdə baş verən proseslərin həqiqi demokratik məcraya keçirilməsi, müstəqil dövlətin siyasi və hüquqi əsaslarının möhkəmləndirilməsi sahəsində mühüm tədbirlər görülməyə başlanıldı. Bu tədbirlərin əsasında isə ilk növbədə dövlətin mövcudluğunun başlıca şərti olan onun milli təhlükəsizliyinin təminatı dururdu.

**Müasir dövrdə Azərbaycan Respublikasının milli təhlükəsizlik orqanlarının qarşısında duran başlıca vəzifə Azərbaycan Respublikasının suverenliyinə, konstitusiya quruluşuna, iqtisadi, müdafiə və elmi-texniki potensialına, digər həyati əhəmiyyətli maraqlarına qarşı xarici dövlətlərin xüsusi xidmət orqanlarının və təşkilatlarının, cinayətkar qrupların və**

**ayrı-ayrı şəxslərin kəşfiyyat və digər təxribat pozuculuq fəaliyyətinin qarşısını almaqdan ibarətdir.**

1993-cü ildə hakimiyyətə qayıdışından sonra Heydər Əliyevin daxili təhlükəsizliyin təminatı istiqamətində həyata keçirdiyi siyasət kursunun **iki mərkəzi elementini – ictimai-siyasi sabitliyin bərpa olunması və ölkə iqtisadiyyatının dirçəlişi** istiqamətində reallaşdırılan fəaliyyət təşkil etdi.

Ölkədə ictimai-siyasi sabitliyin bərpa olunmasının ümumiyyətlə, milli təhlükəsizliyin təminatındakı rolu ondan ibarətdir ki, yalnız bu halda şəxsiyyətin, cəmiyyətin və dövlətin normal fəaliyyətinin təşkili mümkündür. Çünki yalnız ictimai-siyasi sabitliyə nail olmaqla qanunların işləməsini, sosial, iqtisadi və siyasi sferada yeni dövrün tələblərindən irəli gələn islahatların həyata keçirilməsini, xarici kapitalın ölkə iqtisadiyyatına cəlb olunmasını, Azərbaycanın dünya birliyinə inteqrasiyasına hazırlığını təmin etmək mümkündür.

Başqa sözlə, ictimai-siyasi sabitliyin təmin olunması əsasən dövlətin öz vəzifələrinin səmərəli həyata keçirməsi imkanlarından asılı olur. Öz növbəsində ölkə daxilində ictimai-siyasi sabitliyin təmin olunmasına təsir göstərən bir sıra amillər mövcuddur.

Daxili siyasi sabitliyə təsir edən əsas amillərdən biri kimi siyasi sistemin böhranı qəbul olunur. Siyasi sistem o zaman böhranla üzləşir ki, cəmiyyətdə meydana çıxan ziddiyyətləri tənzimləmək üçün onun tərəfindən hazırlanan üsullar müsbət nəticə vermir. Başqa sözlə funksionallığını itirən ictimai-siyasi sistem öz sabitliyinin əsaslarını da itirmiş olur. Azərbaycanın müstəqilliyinin ilk illərində siyasi böhranla üzləşməsi ölkədəki siyasi sabitliyə mənfi təsir göstərən əsas amillərdən biri olmuşdur. Suverenlik qazandıqdan sonra dövlətçiliyin möhkəmləndirilməsi üçün geniş perspektivlər və imkanlar açılsa da, ölkənin hakimiyyət strukturlarının və



bir çox siyasi qüvvələrin yaranmış vəziyyəti düzgün qiymətləndirməməsi, əlverişli imkanlardan səmərəli istifadə edilməməsi, ümummilli maraqlara ayrı-ayrı qrupların şəxsi maraqları prizmasından yanaşılması, siyasi sistemin subyektlərinin öz üzərlərinə düşən funksiyaları lazımi səviyyədə yerinə yetirməməsi daxili ictimai-siyasi vəziyyəti gərginləşdirməklə ölkənin beynəlxalq mövqelərini zəiflətdi. Beləliklə, gənc suveren dövlətin inkişafı yolunda maneələr yarandı. Bununla əlaqədar olaraq ümummilli lider Heydər Əliyev qeyd edirdi ki, bu dövrdə ölkədə daxili vəziyyət günü-gündən pisləşir, respublikada nəinki siyasi, iqtisadi sosial islahatlar aparılmır, demokratik hüquqi dövlət quruculuğu həyata keçirilmirdi, əksinə, atılan bütün addımlar cəmiyyəti sonu görünməyən uçuruma doğru sürükləyirdi. Respublikada yaranmış ictimai-siyasi xaos, anarxiya, «dövlət reketçiliyi», zorakılıq ənənələri nəticə etibarı ilə milli və vətəndaş qarşıdurmasının kəskinləşməsinə, hakimiyyətin tam iflasına gətirib çıxardı.

**Ümummilli lider Heydər Əliyevin xidməti nəticəsində 1995-ci ildə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyası ilə vətəndaşların hüquq və azadlıqlarının – fikir və söz azadlığı, sərbəst toplaşmaq azadlığı, seçki hüququ, cəmiyyətin və dövlətin siyasi həyatında, dövlətin idarə olunmasıqda iştirak etmək hüququ, birləşmək hüququ təmin olunmuşdur.** Sadalanan amillər bir tərəfdən siyasi böhran şəraitinin, hakimiyyət boşluğunun aradan qaldırılmasında mühüm rol oynamışsa, digər tərəfdən də ölkənin ərazi bütövlüyünə, dövlətçiliyinə qəsd edən separatçı qüvvələrin, cinayətkar ünsürlərin zərərsizləşdirilməsinə xidmət etmişdir. Başqa sözlə, vətəndaşların siyasi fəaliyyətinin hüquqi əsaslarını təmin edən norma və mexanizmlərin yaradılması bu istiqamətdə onların fəaliyyətini hüquqi standartlara uyğunlaşdır-

maqla yanaşı, həm də bu standartlardan kənar halları müəyyən etdi ki, bu amil də dövlətin müvafiq proseslərdə iştirakını və konkret təsir imkanlarını dəqiqləşdirdi. Heydər Əliyev müstəqil Azərbaycan Respublikasının ilk milli Konstitusiyasını Azərbaycanda dövlət quruculuğu prosesinin əsası adlandırmışdır.

Ölkədaxili təhlükəsizliyin təmin olunmasının başlıca şərtlərindən biri də hərbi çevriliş cəhdləri və vətəndaş müharibəsi təhlükəsinin qarşısının alınmasıdır. Yenicə müstəqillik qazanmış respublika bu kimi hallarla 1992-ci ilin may 1993-cü ilin iyun və avqust, 1994-cü ilin oktyabr, 1995-ci ilin mart ayında üzləşmişdir. Ölkənin siyasi sabitliyinə əngəl ola biləcək çox mühüm amillərdən biri kimi qiymətləndirilən vətəndaş müharibəsi cəmiyyətdə siyasi vasitələrin köməyi ilə daxili sabitliyin bərpa edilməməsi halında yaranır. Azərbaycan Respublikası da 1993-cü ilin iyun ayında vətəndaş müharibəsi nəticəsində müstəqilliyini itirmək təhlükəsi ilə üzləşmişdi. Bu dövrdə Azərbaycanda kəskin şəkildə hakimiyyət dəyişikliyinə ehtiyac duyulurdu. Ölkədaxili və xarici antiazərbaycan qüvvələrinin qəsdlərindən, vətəndaş müharibəsindən, torpaqlarımızın bir-birinin arıdnca işğal edilməsindən və nəhayət müstəqil dövlətçiliyin məhvindən, Azərbaycanın parçalanmasından xilas edilməli idi. Bütün bu vəzifələrin həyata keçirilməsinə yalnız 1993-cü ilin iyun ayında Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra nail olundu. Bu xarici dövlətlər aparılan səhv siyasət nəticəsində Azərbaycan əleyhinə ciddi təxribat-pozuculuq aksiyaları həyata keçirirdilər. Bu dövrdən başlayaraq ilk növbədə ölkədə hakimiyyət boşluğu aradan qaldırıldı, respublikanın müxtəlif bölgələrində baş qaldırmış separatçı qüvvələr zərərsizləşdirildi, vətəndaş müharibəsi təhlükəsinin qarşısı alındı. Ayrı-ayrı şəxslərə və siyasi qruplaşmalara xidmət edən silahlı birləşmələr ləğv edilməyə başlandı, Azərbaycanın dövlətçiliyinə, müstəqilliyinə və ərazi bütövlüyünə qəsd edən cinayətkar subyektlər cəmiyyətdən təcrid edildi. Gəncədəki gərginlik ocağının iyul ayında söndürülməsi ilə ölkədə ictimai-siyasi sabitliyin bərpası istiqamətində ilk mühüm addım atılmış oldu. Bundan sonra dövlətçilik üçün həmin ilin yayında digər bir təhlükə respublikanın cənub bölgəsində separatçı qüvvələrin fəaliyyətinin qarşısının alınmasını qeyd etmək lazımdır. 1994-cü il sentyabr ayının 20-də «Əsrin müqaviləsi» imzalandıqdan sonra bu müqaviləyə qarşı çıxan daxili və xarici qüvvələrin təzyiqləri get-gedə artmağa başladı. Bu qüvvələr öz fəaliyyətlərini ilkin olaraq ölkə daxilində ictimai-siyasi vəziyyətin gərginləşdirilməsi və silahlı yolla dövlət çevrilişi etməklə hakimiyyətin ələ alınması istiqamətində həyata keçirirdilər. Bu baxımdan sentyabr ayının 29-da xüsusi idarənin rəisi Ş.Rəhimovun və parlamentin sədr müavini A.Cəlilovun qətlə yetirilməsi, oktyabr ayında isə ölkədə növbəti dövlət çevrilişi cəhdləri qeyd olunmalıdır. Azərbaycan Respublikasında silahlı yolla sonuncu dövlət çevrilişi cəhdi 1995-ci ilin mart ayında həyata keçirilmişdir. Bu gün demokratik dövlət quruculuğunun əsaslarını yaratmağa çalışan Azərbaycan Respublikasında əldə olunmuş ən mühüm nailiyyətlərdən biri də 90-cı illərin əvvəllərindən formalaşmış mənfi tendensiyaya-silahlı qüvvələrdən istifadə etməklə, zor tətbiqi yolu ilə hakimiyyətə gəlmək təcrübəsinə son qoyulmuşdur.

**Azərbaycan Respublikasını həm daxili ictimai-siyasi vəziyyətinə, həm də ümumiyyətlə milli təhlükəsizliyinə ən əsas təhlükə Ermənistan-Azərbaycan münaqişəsidir.** 1988-ci ildən etibarən bir tərəfdən sovet rəhbərliyinin dəstəyindən, digər tərəfdən öz daxilimizdə olan qüvvələrin antimilli fəaliyyətindən istifadə edən erməni separatçıları tarixi Azərbaycan tor-

paqlarına olan iddialarını praktiki baxımdan təmin etməyə başladılar. **Bununla əlaqədar olaraq Heydər Əliyev qeyd etmişdir ki, əgər Dağlıq Qarabağ faciəsinin bir qütbündə erməni separatçıları, erməni terroru, Azərbaycana qarşı torpaq iddiaları durursa, digər qütbündə, - nə qədər acı olsa da bunu etiraf etmək lazımdır – bizim bəzi siyasətçilərimizin səriştəsizliyi, hakimiyyət hərisliyi, hədsiz-hüdudsuz şəxsi ambisiyaları durur.**

Qeyd etmək lazımdır ki, hazırki şəraitdə bu münaqişə nəinki daxili ictimai-siyasi vəziyyətin, həmçinin regional sabitliyin və təhlükəsizliyin bərqərar olunmasına maneədir. Ermənistan Respublikasının Azərbaycana qarşı hərbi təcavüzü və yeritdiyi separatçı siyasəti nəticəsində həm işğal olunmuş ərazilər üzərində suveren hüquqlarımızın, həm də beynəlxalq hüququn fundamental prinsipləri hesab olunan-dövlətlərin ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı, güc tətbiq etməmək və güclə hədələməmək, mübahisələrin sülh yolu ilə tənzimlənməsi prinsipləri pozulmuşdur. Ermənistan Respublikasının bu fəaliyyəti faktiki olaraq təcavüzkar separatizmin dövlət səviyyəsində dəstəklənməsi kimi nəzərdən keçirilməlidir. Bu gün təcavüzkar erməni separatizmi nəticəsində Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağ ərazisi beynəlxalq hüququn işləmədiyi, müvafiq olaraq beynəlxalq birliyin nəzarətindən kənar zonaya çevrilmişdir. Azərbaycanın torpaqlarının 20%-in işğalı və nəticədə bir milyondan çox soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətində olması, onların ağır şəraitdə yaşaması ölkə daxilində əhalinin ümumi sosial vəziyyətinə də öz mənfi təsirini göstərir. 1994-cü ilin may ayından etibarən cəbhə bölgəsində atəşkəsin mövcud olmasına baxmayaraq müharibənin başa çatmaması ictimai-siyasi vəziyyətin bərqərar olmasında bu amilin mühüm əhəmiyyətə malik olduğu fikrini bil-



dirməyə əsas verir. Baxmayaraq ki, Heydər Əliyevin səyi nəticəsində, cəbhə bölgəsində atəşkəs əldə olunmuşdur, bu müddət ərzində Ermənistan Respublikasının dövlətimizə qarşı ölkəmizdə ictimai-siyasi sabitliyin və daxili təhlükəsizliyin pozulmasına yönəlmiş fəaliyyəti davam etdirilməkdədir. Hələ 1994-cü il mart ayında Rusiya Federasiyasının Dağıstan Respublikası ərazisində fəaliyyət göstərən «Sadval» terrorçu-separatçı təşkilatı tərəfindən Bakı metro stansiyalarının birində həyata keçirilən terror aksiyasının bilavasitə erməni xüsusi xidmət orqanları tərəfindən təşkil edildiyi sübut olunmuşdur. Məlum olmuşdur ki, bu təşkilatın nümayəndələri özlərinin təxribat məqsədli təlimlərini hətta Ermənistanın Nairi və Arzni rayonlarında yerləşən bazalarda keçmişlər. Bu yeganə fakt deyildir. Belə ki, 2000-ci ilin əvvəllərindən etibarən Azərbaycanın şimal-qərb rayonlarda separatçılıq aktlarına başlamaq məqsədi ilə bir qrup fəallaşmağa başlamışdı. Hətta onlar tərəfindən bu ərazilərdə sabitliyin pozulması məqsədini güdən bir sıra aksiyalar da həyata keçirilmişdi. Həmin cinayətin istintaqı zamanı bu qrupun fəallarının yenə də Ermənistan xüsusi xidmət orqanları ilə əlaqədə olması faktı öz təsdiqini tapmışdır.

Azərbaycanın yerləşdiyi geosiyasi məkan hər zaman beynəlxalq güc mərkəzlərinin və regional dövlətlərin maraq dairəsində olmuşdur. Ölkəmizin həm əlverişli iqtisadi-coğrafi mövqeyi, həm də malik olduğu təbii sərvətləri bu maraqlar üçün əsas stimul rolunu oynayır. Bu baxımdan Azərbaycanın həmin dövlətlərin nəzarəti altına salınmasının bir vasitəsi də ölkədaxili ictimai-siyasi vəziyyətə bu dövlətlərin təsir göstərməsi cəhdləridir. Azərbaycanda ictimai-siyasi sabitliyin pozulmasında təqsirləndirilən və bu cinayətlərdə iştirakı sübut olunan şəxslərin bir çoxunun xarici dövlətlərin xüsusi xidmət orqanları ilə əməkdaşlığı bu faktı əyani şəkil-

də göstərdi. Lakin son dövrlər dövlətimiz tərəfindən həyata keçirilən tədbirlərin nəticəsində müvafiq meyillərə son qoyulmuşdur. Ümummilli lider Heydər Əliyevin də qeyd etdiyi kimi: «**... xaricdəki və ölkə daxilindəki pozucu qüvvələr Azərbaycan Respublikasında ictimai-siyasi sabitliyi pozmaq, iqtisadi islahatların həyata keçirilməsinə və ölkəyə xarici kapitalın axınının təmin olunmasına mane olmaq məqsədi ilə digər təxribat əməllərinə, hətta ölkə başçısına qarşı terror aktlarına da əl atdılar. Həyata keçirilən məqsədyönlü və qəti tədbirlər nəticəsində bütün bu cəhdlərin qarşısı alındı**».

Məhz ictimai-siyasi sabitliyin yaranması və Azərbaycanın daxilində olan bütün qanunsuz silahlı dəstələrin ləğv olunması cinayətkar qrupların fəaliyyətinə son qoyulması Azərbaycanda dövlət quruculuğu işinin uğurla aparılmasına şərait yaratdı. Ölkədə dövlət quruculuğu prosesinin əsasını ölkə iqtisadiyyatının potensialının bərpa olunması və yeni, bazar münasibətlərinə əsaslanan iqtisadi sistemə keçidin təmin olunması üçün islahatların həyata keçirilməsi təşkil edirdi.

Hər bir dövlətin milli təhlükəsizliyinin «onurğa sütununu» onun iqtisadi təhlükəsizliyi təşkil edir. İqtisadi təhlükəsizliyin təmin olunması dövlətin suverenliyinin və müstəqilliyinin əsas şərtlərindən biri hesab olunur. Dövlətin hərtərəfli dinamik inkişafı ilk növbədə onun iqtisadiyyatının səviyyəsindən asılıdır. Bu səbəbdəndir ki, ölkə iqtisadiyyatında baş verən böhranlar əhalinin sosial rifah səviyyəsinin zəifləməsinə təsir göstərməklə hakimiyyət orqanlarına qarşı inamsızlıq, dözümsüzlük hallarının yaranmasına gətirib çıxarır.

1993-cü ildən Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra sistemli surətdə müəyyənləşdirilən və həyata keçirilən bazar iqtisadiyyatına keçid kursu-müxtəlif mülkiyyət növlərinə əsaslanan iqtisadi sistemin yaradılması, azad sahibkarlığın inkişafına dövlət təminatının verilməsi, iqtisadiyyatın rəqabət prinsipləri əsasında inkişaf etdirilməsi, iqtisadi münasibətlərdə inhisarçılığın qarşısının alınması, əhalinin sosial rifahının yaxşılaşdırılması və iqtisadi müstəqilliyinin təmin olunması istiqamətində dövlət siyasəti kimi qəbul edildi.



Azərbaycan Respublikasının **milli təhlükəsizliyinin və onun iqtisadi sahədə maraqlarının təmin olunması** dövlət siyasətinin prioritet istiqamətini təşkil edir. Keçən əsrin 90-cı illərinin ikinci yarısından etibarən bu istiqamətdə reallaşdırılan dövlət siyasətinin xarici aspekti – Azərbaycanın beynəlxalq birliyə iqtisadi inteqrasiyasının həyata keçməsi üçün əlverişli şəraitin yaradılması və Azərbaycan məhsullarının dünya bazarlarına çıxarılmasının təmin olunmasından ibarətdir. Bu vəzifələrin həyata keçməsi ilk növbədə ölkə iqtisadiyyatının öz iqtisadi rəqabətə hazırlığı səviyyəsindən asılıdır. Xarici ticarətin liberallaşması şəraitində və dünya bazarlarında rəqabətin gücləndiyi bir vaxtda milli sahibkarların maraqlarının müdafiəsinin təmin olunmasından ibarətdir. Bu vəzifələrin həyata keçməsi ilk növbədə ölkə iqtisadiyyatının beynəlxalq iqtisadi rəqabətə hazırlığı səviyyəsindən asılıdır. Xarici ticarətin liberallaşması şəraitində və dünya bazarlarında rəqabətin gücləndiyi bir vaxtda milli sahibkarların maraqlarının müdafiəsinin təmin olunması xüsusi əhəmiyyət kəsb edir. Hazırki dövrdə bu məsələ Azərbaycan dövlətinin xüsusi diqqət yetirdiyi sahələrdən biridir. 2002-ci ildə ümummilli lider Heydər Əliyevin ölkədə fəaliyyət göstərən yerli və xarici sahibkarlarla görüşləri, sahibkarların fəaliyyət mühitinin yaxşılaşdırılmasına xidmət edən fərmanların imzalanması, sahibkarlar şurasının yaradılması haqqında qəbul etdiyi qərar bu diqqətin əyani təzahürüdür.

İqtisadi siyasət kontekstində digər mühüm məsələ tarazlaşdırılmış maliyyə-kredit siyasətinin həyata keçirilməsidir. Bu siyasətin əsas məqsədini isə Azərbaycan Respublikasının xarici kreditlərdən asılılığının azaldılması və onun beynəlxalq iqtisadi-maliyyə təşkilatlarında mövqelərinin gücləndirilməsindən ibarət olmalıdır. Azərbaycan Respublikasının milli təhlükəsizliyin daxili iqtisadi sferada təminatının əsas istiqamətlərinə – iqtisadi sahədə islahatların hüquqi təminatı və Azərbaycan Respublikasının müvafiq sahədə qanunvericiliyinin həyata keçirilməsinin səmərəli mexanizmlərinin işlənilib hazırlanması, iqtisadi böhran halları ilə üzləşməmək üçün mütəmadi şəkildə tələb olunan tədbirlərin həyata keçirilməsi, daxili istehsalat məhsullarının rəqabət qabiliyyətlərinin saxlanılması və artırılması, əhalinin sosial rifah halının qaldırılması və s. daxildir. Ölkədə yüksək səmərəli və sosial yönümlü bazar iqtisadiyyatına keçid mərhələlərlə istehsalın təşkilinin optimal mexanizmlərinin işlənib hazırlanması, əmtəənin və xidmətin paylanılması formalaşdırılması vasitəsi ilə həyata keçirilməlidir.

Azərbaycanın nəinki iqtisadi təhlükəsizliyinin, ümumiyyətlə, milli təhlükəsizliyinin təminatında neft strategiyasının rolu böyükdür. Strateji baxımdan neft strategiyası XXI əsr Azərbaycan Respublikasının bütün infrastrukturlarını əhatə edən əsas xətlərdən birini təşkil edir. Ölkənin həm daxili, həm də xarici siyasətinin əsasında neft amilinin dominantlıq etməsi, bütövlükdə milli təhlükəsizliyinin təmin olunmasında neft strategiyasının üstün rolunu şərtləndirir. **Ümummilli lider Heydər Əliyev qeyd etmişdir ki, ümumiyyətlə, Azərbaycanın neft strategiyası və bu sahədə həyata keçirilən tədbirlər nəinki mühüm sosial-iqtisadi, həm də böyük siyasi əhəmiyyət kəsb edir.** Bu da Azərbaycan dövlətinin beynəlxalq aləmdə nüfuzunun artmasına və dövlət müstəqilliyinin möhkəmlənməsinə əyani sübutdur.



Beləliklə, Azərbaycanın dünya bazarına çıxışı, beynəlxalq aləmə inteqrasiyası, müstəqilliyinin və suverenliyinin qorunub-saxlanılması, ölkəyə edilən təzyiqlərin qarşısını alan və ya onları minimuma endirən beynəlxalq himayə mexanizminin yaradılması bir çox digər amillərlə yanaşı ilk növbədə hərtərəfli düşünülmüş, dərin elmi əsaslara malik olan və milli maraqlara söykənən neft strategiyasının qurulmasından asılıdır. Dövlətlər məhz iqtisadi cəhətdən qüvvətlənərək özlərinin siyasi ambisiyalarını daha uğurla ortaya qoya bilirlər. Heç təsadüfi deyildir ki, müasir dövrdə dünyada qlobal siyasi münasibətlərdə dominantlıq edən dövlətlər ilk növbədə iqtisadi baxımdan qüdrətli olan dövlətlərdir. O ki, qaldı təhlükəsizlik aspektinə qeyd etməliyik ki, artıq qlobal strateji əhəmiyyət daşıyan Bakı-Tbilisi-Ceyhan ixrac boru kəmərinin təhlükəsizliyi xüsusi mühafizə qüvvələri tərəfindən təmin olunur. Bakı-Tbilisi-Ceyhan iqtisadi baxımdan iri maliyyə tutumlu layihə olduğundan onun reallaşması üçün vəsait ayırmış tərəflər sərmayələrinin təhlükəsiz mühitdə fəaliyyətində maraqlıdırlar. Bu da uyğun olaraq həmin tərəflərin bu layihənin reallaşmasında bilavasitə iştirak edən dövlətlərin təhlükəsizliyində maraqlı olması deməkdir. Azərbaycanın neft strategiyasına böyük miqdarda sərmayə qoyan dünyanın iri neft şirkətləri və onların ölkəmizdəki maraqlarını müdafiə edən müvafiq aparıcı dünya dövlətləri Azərbaycanda sabit mühitin yaradılmasında maraqlıdırlar. Bunun üçün onlar Azərbaycanda demokratiyanın inkişaf etdirilməsinə, hüquqi dövlətin qurulmasına, insan hüquqlarına riayət olunmasına çalışırlar. Müstəqillik qazandıqdan sonra bunları strateji inkişafının prioritet istiqamətləri kimi müəyyən etmiş Azərbaycan üçün bu hal olduqca əlveriş-

lidir. Belə ki, Azərbaycan bir tərəfdən bu ölkələrin çoxillik təcrübəsindən yararlana bilər, digər tərəfdən islahatların aparılması üçün böyük maliyyə vəsaitləri ala bilər. Bu baxımdan neft strategiyasında ifadə olunan xarici, ilk növbədə isə qərb kapitalının ölkəyə cəlb edilməsi məsələsi strateji baxımdan, atılmış müvəffəqiyyətli addımdır.

Həmçinin dünyanın aparıcı analitikləri düzgün qurulmuş neft strategiyası sahəsində Azərbaycanın yaxın gələcəkdə borc alan dövlətdən borc verən iri maliyyə mərkəzinə çevriləcəyini proqnozlaşdırır.

Azərbaycan iqtisadiyyatının dünya iqtisadi sisteminə inteqrasiyasında və onun bu sistemdə iqtisadi təcrid olunmasına yol verilməməsində ölkənin neft strategiyasının rolu böyükdür. Bu məsələdə Azərbaycan Respublikasının tutduğu siyasəti ölkə Prezidenti Heydər Əliyev ABŞ-a rəsmi işgüzar səfəri gedişində açıqlamışdır. O demişdir: **«Bizim təhlükəsizliyimizin əsas qarantiyası xarici kapitalın intensiv şəkildə ölkə iqtisadiyyatındakı iştirakından ibarətdir».**

Ölkənin iqtisadi təhlükəsizliyinin mühüm problemlərindən biri, neft və ondan gələn gəlirlərin ölkədə regionlar arasında sosial-iqtisadi bərabərsizliyin aradan qaldırılmasında istifadə olunmasıdır. Belə vəziyyətdə Azərbaycanda sərmayə və sosial siyasətinin uzlaşdırılması həddən artıq vacib məsələdir. Ölkədə bu sahədə atılmış ilk addım ümummilli lider Heydər Əliyevin qərarı ilə Dövlət Neft Fondunun yaradılması olmuşdur. Bu Fondun başlıca vəzifəsi neftdən gələn gəlirlərin toplanması və səmərəli şəkildə istifadə edilməsindən ibarətdir.

Daxili təhlükəsizliyin mühüm göstəricilərindən biri əhalinin həyat səviyyəsidir. Məlumdur ki, SSRİ dağıldıqdan sonra yeni müstəqil dövlətlərdə bu göstərici kəskin şəkildə aşağı düşmüşdür. Azərbaycanın iqtisadi strategiyasında bu



məsələ xüsusi əhəmiyyət kəsb edir. Neft o zaman əsl milli sərvətə çevrilir ki, o, ölkənin hər bir vətəndaşının, hər bir ailənin həyat səviyyəsini yüksəltməyə yönəldir. Son illərdə bu istiqamətdə böyük səylər göstərilmişdir ki, bunların da nəticəsində əhalinin pul gəlirləri, əməkhaqqının artırılması, yeni iş yerlərinin açılması meyli sabit xarakter almışdır.

## 3. Ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikasının xarici təhlükəsizliyinin təmin olunmasında rolu

Müasir dövrdə beynəlxalq münasibətlərin dinamikası qloballaşma prosesinin və dövlətlərin bir-birindən qarşılıqlı asılılıq səviyyəsinin artması ilə səciyyələnir. Dövlətlər artıq əvvəlkitək problemlərin həllində yalnız özlərinin fərdi ehtiyatlarına arxalana bilmirlər. Qloballaşma prosesi beynəlxalq münasibətlərin subyektləri üçün yeni imkanlar yaratsa da, bir cəhət diqqətdən yayınmamalıdır ki, yaranmış yeni imkanlardan yalnız ümumi rifah naminə çalışan qüvvələr deyil, həmçinin beynəlxalq cinayət sisteminin müxtəlif elementləri də öz məqsədlərinin təmin olunması üçün istifadə edirlər. Bu cəhət həm ümumiyyətlə beynəlxalq təhlükəsizlik, həm də ayrılıqda hər bir dövlətin milli təhlükəsizliyi üçün ciddi təhdid təşkil edir. Bu hallara qarşı mübarizənin səmərəliliyi dövlətlərin müvafiq istiqamətdə yüksək səviyyəli əməkdaşlığının təşkil olunmasını tələb edir. Bu əməkdaşlığın formalarından biri kimi beynəlxalq təhlükəsizlik sistemlərində dövlətlərin iştirakı qeyd oluna bilər. Qloballaşmanın müasir şərtləri altında hər hansı bir dövlətin öz təhlükəsizliyini müvafiq beynəlxalq təhlükəsizlik sistemlərindən kənarda təmin etməsi qeyri-mümkündür. Bu mənada bizim

beynəlxalq təhlükəsizlik sistemlərində iştirakımız-ümumiyyətlə, dövlətimiz dünya birliyinə inteqrasiyanın mühüm tərkib elementi kimi nəzərdən keçirməlidir. Ümummilli lider Heydər Əliyev respublikaya rəhbərliyi dövründə Azərbaycanın beynəlxalq təhlükəsizlik sistemlərində iştirakına ciddi diqqət yetirmişdir.

Ölkəmizin **xarici siyasət xəttinin müəyyənləşdirilməsi və həyata keçirilməsi** ilə bağlı çox mürəkkəb bir prosesin başlanğıcı qoyuldu. Keçmiş SSRİ, ümumiyyətlə, sosialist düşərgəsi məkanında yeni müstəqillik qazanmış bir çox dövlətlərdən fərqli olaraq Azərbaycanda bu proses bir sıra obyektiv və subyektiv çətinliklərlə müşayiət olunurdu. Bu baxımdan ölkəmizdə dövlətçiliyin və onun əsas komponentlərindən olan xarici siyasət fəaliyyətinin gücləndirilməsi ilə bağlı dövlət başçımızın üzərinə çox məsuliyyətli və çətin bir missiya düşmüşdü. Belə ki, ölkəmizin xarici siyasət xəttinin formalaşması prosesi bir neçə il geriyə atılmışdı. Buna səbəb bir tərəfdən müstəqillik qazandığı ilk günlərdən Azərbaycana qarşı Ermənistanın təcavüzü, xarici qüvvələrin Azərbaycana göstərdiyi təzyiqlər idisə, digər tərəfdən ölkəmizdə zorla hakimiyyətə gəlmiş qüvvələrin naşılığı, siyasi savadsızlığı, beynəlxalq aləmdə gedən prosesləri düzgün qiymətləndirə bilməməsi idi.

Ümummilli liderin xarici siyasət strategiyasında önəm verdiyi məsələlərdən biri Ermənistanın ölkəmizə təcavüzü ilə bağlı beynəlxalq aləmdə mövcud olan **informasiya blokadasının yarılması** idi. Güclü erməni lobbisi Azərbaycanda ayrı-ayrı qüvvələrin hakimiyyət uğrunda mübarizəsi nəticəsində əmələ gəlmiş informasiya vakumundan istifadə edərək, Qərb ictimaiyyətində Ermənistanın ölkəmizə nəinki heç bir təcavüz etmədiyi, hətta Azərbaycanda ermənilərə qarşı genosid siyasətinin həyata keçirildiyi barədə yanlış təsəvvür



yaratmağa nail olmuşdu. Azərbaycanda yenidən hakimiyyətə gəldiyi ilk günlərdən Heydər Əliyev ölkə daxilində çox ağır problemlərin həlli ilə bağlı gərgin fəaliyyət göstərməklə yanaşı, qısa bir zaman ərzində dünyanın xeyli sayda dövlət və hökumət başçıları, nüfuzlu siyasətçiləri ilə keçirdiyi görüşlər, mötəbər beynəlxalq təşkilatların tribunalarından etdiyi çıxışlar, dünyanın aparıcı kütləvi informasiya vasitələrinə verdiyi geniş müsahibələr nəticəsində erməni lobbisinin ölkəmizi saldığı informasiya blokadasını yarmağa nail oldu.

**Ümummilli lider Heydər Əliyevin səyi ilə Azərbaycanın beynəlxalq təşkilatlara, Avroatlantik strukturlara inteqrasiya prosesi sürətləndi, çox az müddət ərzində ölkəmizin regional və beynəlxalq təşkilatlarda fəal iştirakı, həmin təşkilatların nüfuzlu üzv dövlətlərindən birinə çevrilməsi istiqamətində böyük işlər görüldü.** Bu sahədə ümummilli liderin qarşıya qoyduğu əsas vəzifələrindən biri yalnız beynləxalq təşkilatlara üzv olmaqla kifayətlənməyərək, həmin təşkilatlarda Azərbaycanın digər üzv dövlətlərlə qarşılıqlı fayda əsasında ikitərəfli və çoxtərəfli əməkdaşlığının həyata keçirilməsindən ibarət idi. Avroatlantik strukturlara sürətlə inteqrasiya olunmağa, Avropa təhlükəsizlik sistemində fəal iştirak etməyə başlayan Azərbaycan geostrateji baxımdan yerləşdiyi regionun ən perspektivli dövlətlərindən birinə çevrildi. Ölkəmiz bir çox regional təşkilatların fəaliyyətində çox yaxından iştirak etməyə başladı.

Dünya dövlətləri ilə xarici siyasət əlaqələri hüquq bərabərliyi və qarşılıqlı fayda prinsipləri əsasında quruldu. Bu prinsiplərin həyata keçirilməsinin əsas nəticəsi ondan ibarət oldu ki, erməni lobbisinin təsiri altında fəaliyyət göstərən və ya Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi və inkişaf etdirilməsində maraqlı olmayan ayrı-ayrı xarici qüvvələr Azərbaycanla təzyiq dilində danışmağın, öl-

kəmizə qarşı yaradılan süni təhlükələr nəticəsində hakimiyyətin xalqımızın maraqlarına zidd olan hansısa addımı atacağının mümkünsüz olduğunu başa düşdülər.

Ümummilli liderin digər bir xidməti də **ikitərəfli və çoxtərəfli münasibətlərdə tarazlaşdırılmış siyasətin həyata keçirilməsi** idi. Azərbaycanın həm tarixi inkişaf yolu, həm də geostrateji mövqeyi baxımından ölkəmiz üçün böyük önəm daşıyan bu amil 1994-cü ildən başlayaraq cənab Heydər Əliyevin müəyyənləşdirdiyi və həyata keçirdiyi xarici siyasət xəttinin əsas prinsiplərindən birini təşkil etmişdir. 1990-cı illərin əvvəllərində bir tərəfdən ölkədə hakimiyyətdə olan və xarici siyasət barədə çox zəif təsəvvürə malik ayrı-ayrı siyasətbazların kobud səhvləri, heç bir reallığa əsaslanmayan bəyanatları və dövlət maraqlarına zidd başqa fəaliyyətləri, digər tərəfdən isə erməni lobbisinin və ermənipərəst qüvvələrin bu səhvlərdən istifadə edərək göstərdiyi səylər nəticəsində ölkəmizin həm regionda, həm də daha geniş coğrafi məkanda yerləşən ayrı-ayrı dövlətlərlə xarici əlaqələrində böyük tarazsızlıq yaranmışdı.

Ümummilli lider Heydər Əliyevin zəngin siyasi təcrübəsi, bölgədə və ümumiyyətlə, dünyada gedən siyasi proseslərə qlobal mövqedən yanaşması nəinki bu tarazsızlığın qısa müddət ərzində qaldırılmasına, hətta Azərbaycana qarşı açıq-aşkar soyuq münasibət göstərən **ölkələrlə də əlaqələrin normallaşdırılması və inkişaf etdirilməsinə** gətirib çıxardı. Azərbaycan həm din, dil və mədəni köklər baxımından yaxın olduğu, həm də bu baxımdan yaxın olmadığı dövlətlərlə normal, bərabər hüquqlu, qarşılıqlı faydalı münasibətlər qurmağa nail oldu. Dünyanın fövqəldövləti olan ABŞ-la strateji əməkdaşlıq səviyyəsində əlaqələr yaradıldı. Avropanın, ümumiyyətlə, dünyanın aparıcı dövlətlərindən sayılan Böyük Britaniya, Fransa, Yaponiya, İtaliya və s. Dövlətlərlə, ölkəmizin yerləşdiyi çox həssas regionun ayrı-ayrı ölkələri ilə, o cümlədən Rusiya və İranla əlaqələr bütün sahələrdə sürətlə inkişaf etməyə başladı. Beləliklə, xarici siyasət sahəsində tarazlaşdırılmış münasibətlərin qurulması nəticəsində Azərbaycanın beynəlxalq aləmdə mövqeyi xeyli dərəcədə möhkəmləndi.



Ümummilli lider Azərbaycan Respublikasının xarici siyasətində iqtisadi amilin rolunu gücləndirdi. Aydındır ki, xarici əlaqələrin qurulmasında iqtisadi amil də çox mühüm rol oynayır və hər bir ölkənin xarici siyasəti onun daxili siyasətinin davamını təşkil edir. Sözsüz ki, iqtisadiyyatın zəif inkişafı və daxili qeyri-sabitlik ölkənin xarici siyasətinə çox mənfi təsir göstərir. Hər hansı bir ölkənin zəngin təbii sərvətlərə malik olması da hələ onun iqtisadi inkişafının, beynəlxalq iqtisadi əlaqələrinin təmin olunması demək deyildir. 1994-cü ildən başlayaraq cənab Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda iqtisadi inkişafın təməli qoyuldu və ən əsası, iqtisadiyyata xarici investisiyaların cəlb olunması istiqamətində böyük işlər həyata keçirildi.

Yuxarıda qeyd etdiyim kimi, ölkədə çox mütərəqqi dəyişikliklərin başlanğıcı 1994-cü ildə dünyanın aparıcı neft şirkətləri ilə imzalanmış «Əsrin müqaviləsi» ilə qoyuldu. **«Əsrin müqaviləsi»nin imzalanması ölkəmiz üçün təkcə iqtisadi deyil, həm də böyük siyasi önəm daşıyırdı.** Bu, dünya birliyinin, dünyanın aparıcı dövlətlərinin Azərbaycandakı ictimai-siyasi sabitliyə, ölkənin gələcəyinə olan böyük inamının təzahürü idi.

Tarixi reallıqları, zəmanəmizin gerçəkliklərini, çağdaş dünyada baş verən qlobal və regional hadisələri düzgün qiymətləndirən ümummilli lider Heydər Əliyevin xarici siyasət kursunda **«Vətəndə sülh, bölgədə sülh, dünyada sülh!»** konsepsiyası mühüm yer tutur. Həmin konsepsiya əsasında hə-

yata keçirdiyi qlobal tədbirlər sayəsində Heydər Əliyev «Ümumqafqaz evinin ağsaqqalı» kimi nəinki Qafqazda, eləcə də bütün dünyada tanınmış və şöhrət qazanmışdır. Bu mənada tanınmış dövlət və siyasi xadim Ramazan Abdulatipovun belə bir fikri ilə tam razıyıq ki, **«Heydər Əliyevin Qafqaz tarixindəki rolunu əlli ildən sonra anlamaq və dərk etmək mümkün olacaq. Heydər Əliyev tarixi şəxsiyyət, Qafqazın fəxridir. Sovet dövründə də fəxri olmuşdur. İndi də fəxridir... Heydər Əliyevin müdrikliyi, onun siyasi istedadı elə ancaq Azərbaycana xeyir gətirmir, bütün Qafqazın sərvətinə çevrilmişdir... Belə nəhəng lider yalnız təkcə Azərbaycana deyil, bütün Qafqaza və onun hüdudlarından kənarlara da lazımdır...».**

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin iqtisadi və mədəni inteqrasiya barədə dediyi aşağıdakı müdrik sözlər tarixi təcrübəni düzgün qiymətləndirmənin parlaq nəticəsidir. O deyirdi: **«Heç bir ölkə, ən böyük bir ölkə də yalnız öz çərçivəsində iqtisadiyyatını lazımi səviyyədə inkişaf etdirə bilməz... Dünya iqtisadiyyatına inteqrasiya, iqtisadi sahədə ölkələrin bir-biri ilə əməkdaşlığı hər bir dövlət üçün mənfəətlidir və ümumiyyətlə, dünyada daha da yüksəltmək üçün bu, yeganə bir yoldur...».**

İnteqrasiya barədə bu fikirlər Azərbaycan Respublikasının bu sahədə dövlət siyasətinin əsas prinsiplərini əks etdirir.

Bu baxımdan Qafqazda və dünyada sülhün alovlu təbliğatçısı olan ümummilli lider Heydər Əliyevin **«Biz istəyirik həqiqətən Avropada təhlükəsizlik, sülh, əmin-amanlıq olsun, eyni zamanda öz problemimizin həllini, yəni Qafqazda əmin-amanlıq, sülhün olmasını istəyirik»** və ya **«... Azərbaycanda, bütün Qafqaz regionunda və bütün dünyada sülhün bərqərar olması bizim ən ümdə arzumuzdur. Azərbaycan sülhsevər ölkə olaraq bütün dövlətlərlə və xalqlarla, əlalxüsus öz qonşuları ilə qarşılıqlı anlaşma, mehriban qonşuluq və əməkdaşlıq şəraitində yaşamaq istəyir»** müdrik çağırışının reallaşması üçün, sülh və inteqrasiya prosesinin sürətlənməsi məqsədilə hazırlanmış və hazırda reallaşmaqda olan bir sıra beynəlxalq layihələr Azərbaycan, Gürcüstan və digər Qafqaz dövlətləri, eləcə də regionun digər ölkələri, Şərq və Qərb dövlətləri arasında əməkdaşlığa, böyük gələcəyi olan perspektivlərə hesablanmışdır. Belə ki, «Böyük İpək Yolu»nun bərpası, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin – «TRASEKA» proqramının həyata keçirilməsi, Xəzərin enerji ehtiyatlarından birgə istifadəyə dair «Əsrin müqaviləsi» (24 sentyabr 1994) ünvanı almış neft kontraktlarının, «Bakı-Tibilisi-Ceyhan» əsas ixrac neft kəməri, «Bakı-Tibilisi-Ərzurum» qaz kəməri layihələrinin əsas məqsədi Qafqazın, o cümlədən Azərbaycanın, Gürcüstanın milli təhlükəsizliyi, xalqımızın rifahı ilə yanaşı, region ölkələrinin, ilk növbədə Qafqaz ölkələrinin iqtisadi və mədəni inteqrasiyası, regional əməkdaşlığı sürətləndirməklə, sülhün, əmin-amanlığın, sabitliyin möhkəmlənməsinə birbaşa xidmət edir. XXI əsrdə dünyanın bir çox dövlətlərini, o sıradan Qafqazı vahid iqtisadi məkanda birləşdirmək, Qafqazın Asiya ilə Avropa arasında iqtisadi və mədəni körpü rolunu həyata keçirmək bu proqramların ana xəttini, leytmotivini təşkil edir.

Regional təhlükəsizlik sisteminin ünsürlərindən biri olan ATƏT-lə əməkdaşlıq ümummilli liderin xüsusi önəm verdiyi məsələlərdən biri idi. Azərbaycanın dünya birliyinə inteqrasiyasında, xüsusən bu birliyin üzvləri ilə siyasi münasibətlərin qurulmasında, beynəlxalq sistemin aparıcı subyektləri ilə çoxtərəfli əlaqələrin inkişaf etdirilməsində bu təşkilat mühüm rol oynayır. Dünya birliyində siyasi-hərbi inteqrasiyanı özünün xarici siyasətindən prioritet istiqamət-

lərindən biri kimi müəyyən edən Azərbaycan 1992-ci ilin 20 yanvarından ATƏT-ə tam hüquqlu üzv kimi qəbul olundu.

Azərbaycanın milli təhlükəsizliyin təminatında ATƏT-lə əməkdaşlığın əsas rolu məhz bu təşkilatın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə beynəlxalq səviyyədə məşğul olan əsas səlahiyyətli subyekt olmasındadır. Nəzərə alsaq ki, Ermənistan-Azərbaycan münaqişəsi hazırkı şəraitdə Azərbaycan Respublikasının milli təhlükəsizliyi üçün əsas problemdir, o zaman ölkəmizin ATƏT-lə əlaqələrinin əhəmiyyəti aydın olar. Digər tərəfdən müasir dünyada dövlətlər milli təhlükəsizliyin təminatında beynəlxalq himayə mexanimzlərindən geniş istifadə etməyə üstünlük verirlər. Nəzərə alsaq ki, ATƏT öz məqsədlərində təhlükəsizliklə bağlı məsələləri daha çox diqqət mərkəzinə çəkir, belə olan halda Azərbaycan Respublikası da müstəqilliyini yeni qazanan bir dövlət kimi özünün milli təhlükəsizlik siyasətinin həyata keçirilməsində ATƏT-lə münasibətlərdən mühüm fayda əldə edə bilər. ATƏT-lə münasibətlərdə təhlükəsizlik aspektinin digər tərəfi dövlətimizin avroatlantika təhlükəsizlik məkanına inteqrasiyasındadır. XX əsrin son rübündə məhz ATƏT ikiqütblü dünyanın təhlükəsizlik sisteminin əsas elementi kimi nəzərdən keçirilirdi. Baxmayaraq ki, ATƏT-in son illər bu kontekstdə mövqelərinin zəifləməsi müşahidə olunmaqdadır, hər halda bu təşkilat dövlətlərin təhlükəsizlik məsələləri ilə əlaqədar dövlətlərin müraciət etdiyi mərkəz funksiyasını hələ də saxlamaqdadır.

Azərbaycan Respublikasının beynəlxalq birliyə siyasi-hərbi inteqrasiyasında və ümumiyyətlə, ölkəmizin beynəlxalq təhlükəsizlik sistemlərində iştirakının təmin olunmasında onun NATO ilə əməkdaşlığı müstəsna əhəmiyyətə malikdir. Ümummilli lider Heydər Əliyev 2002-ci ilin noyabr ayında NATO dövlət və hökumət başçılarının Praqa Sammitində təşkilatın ölkənin xarici siyasətində tutduğu mövqeyini belə dəyərləndirmişdir: **«Azərbaycan NATO ilə tərəfdaşlığı gələcək Avroatlantika təhlükəsizlik sisteminin əsası kimi qiymətləndirərək, Alyans ilə inteqrasiya tərəfdaşlığa və intensiv ikitərəfli dialoqa səy göstərir».**

NATO ilə əlaqələrin perspektiv inkişafının mümkünlüyünü anlayan Azərbaycan Respublikası 1994-cü il may ayında SNT proqramına qoşulmuşdur. Proqrama qoşulmaq üçün sənədlərin imzalanma mərasimində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev bəyanatla çıxış etmişdir: **«...bu əməkdaşlıq həm Azərbaycanın qərb demokratiyasına qovuşması, həm də NATO ilə əməkdaşlıq edərək regionda vəziyyəti sabitləşdirməyə, müharibəni dayandırmağa, Azərbaycan və Ermənistan arasında sülh və mehriban qonşuluq yaratmağa yönəldilmiş əlavə yollar axtarmaq baxımından bizdən ötrü çox mühümdür».**

Siyasətdə varislik vacib məsələdir. Bu həmçinin xarici siyasətə də aiddir. Ölkənin inkişafını təmin etmək üçün həm siyasi xətt müəyyənləşdirilməli, həm də bu xətt ardıcıl olaraq həyata keçirilməlidir. Müstəqil dövlətçiliyimizin banisi, ümummilli liderimiz Heydər Əliyev böyük siyasətə qayıdıb yenidən Azərbaycana rəhbərlik etdikdən sonra dövlətin daxili və xarici siyasətinin üstün istiqamətlərini müəyyənləşdirmiş, strateji planda xalqımızın firavan gələcəyini təmin edən siyasi xətt işləyib hazırlanmışdır.

**Ümummilli liderin xarici siyasət xətti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.**

Azərbaycanın xarici siyasətinin əsas məqsədlərindən biri Ermənistanın ölkəmizə hərbi təcavüzü ilə bağlı həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq, işğalçının təcavüzkar planlarını ifşa etmək və təcavüzün nəticələrini aradan qaldırıb dövlətimizin ərazi bütövlüyünü bərpa etmək, ümumiy-

yətlə, münaqişənin ədalətli həllinə nail olmaq üçün beynəlxalq birliyin dəstəyini qazanmaqdır.

Dövlət başçısı Ermənistanın işğalçılıq siyasətini ifşa edərək demişdir: «**Ermənilərin münaqişə ilə bağlı öz iddiaları vardır. Sadəcə onlara şərh verim ki, sizdə tam təsəvvür yaransın, yalnız bir tərəfin dediklərini eşitməyəsiniz. Onların iddiası belədir ki, Dağlıq Qarabağda yaşayan ermənilərin öz müqəddəratını təyin etmək hüquqları var. Öz müqəddəratını təyin etmək insanlara verilmiş çox mühüm hüquqdur. Biz hamımız ona hörmətlə yanaşırıq. Ermənilər artıq öz məqəddəratlarını təyin etmişlər, onların Ermənistan dövləti var. Bu o deməkdir ki, bir millət kimi ermənilər artıq bu hüquqdan istifadə etmişlər. Təsəvvür edin ki, hər bir yerdə öz müqəddəratlarını həll edəcəyi halda nə baş verər?! Bu nə deməkdir? Bu o deməkdirmi ki, milli azlıqların yaşadığı hər bir yerdə separatizm olmalıdır? Məgər bu o deməkdir ki, milli azlıq yaşadığı hər bir ərazidə öz müstəqil dövlətini qura bilər? Əlbəttə ki yox!**»

Digər bir çıxışında Prezident İlham Əliyev demişdir: **«Bəzən yalançı görüntü yaratmağa çalışırlar ki, Ermənistan Azərbaycanla əməkdaşlıq etmək istəyir. Azərbaycan isə yox. Bu, doğrudur. Amma bunun səbəbləri var. Azərbaycanın ərazisi işğal olunub. Əlbəttə ki, biz torpaqlarımızı işğal etmiş ölkə ilə əməkdaşlıq edə bilmərik. Təsəvvür edin ki, ölkəniz işğal olunub və işğalçılar sizə təklif edirlər ki, gəlin əməkdaşlığa başlayaq. Bu, ciddi söhbət deyil, ona görə də Dağlıq Qarabağ münaqişəsi həll olunmayanadək Azərbaycan heç vaxt Ermənistanla əməkdaşlıq etməyəcəkdir».**

Bu gün Avropa təşkilatlarında aparılan məqsədyönlü fəaliyyətin nəticəsi olaraq ermənilərin mövqeyi zəifləməkdədir. Onların iddialarını artıq ciddi qəbul etmirlər. Müstəqil dövlətin ərazisi hesabına Dağlıq Qarabağdakı erməni



azlığının öz müqəddəratını təyin etmək hüququnu təmin etmək üçün ermənilərin irəli sürdüyü «dəlillər»in puçluğu tədricən dünya ictimaiyyətinə də məlum olur.

Başqa sözlə, tədricən olsa da, xalqımızın haqq işi dünyada dəstək qazanmaqdadır. Bunun üçün Azərbaycan diplomatiyası fəallığını daim artırır. İndiyədək dəstək umduğumuz bəzi qardaş və dost ölkələr belə bu və ya digər səbəbdən Ermənistan-Azərbaycan münaqişəsinə birmənalı münasibət bildirməkdən çəkinirdi. Söhbət, ilk növbədə, Mərkəzi Asiya dövlətlərindən gedir. Artıq vəziyyət dəyişir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstana və Özbəkistana səfərlərinin nəticəsi kimi bu qardaş ölkələrin qəti mövqeyi ilə tanış oldu. Qazaxıstan Prezidenti Nursultan Nazarbayev dövlətimizin başçısının Astanaya rəsmi səfərindən sonra bəyan etdi: «Qazaxıstanın mövqeyi bundan ibarətdir ki, ərazi bütövlüyü toxunulmazdır və mövcud sərhədlər təsdiq olunmuşdur. Özü də bu fikir MDB-nin ilk sənədlərində də və bütün beynəlxalq sənədlərdə də öz əksini tapıb. Odur ki, biz davakar separatizmin hər cür təzahürünün əleyhinəyik, ərazi bütövlüyü prinsipinə tərəfdarıq». Özbəkistan Prezidenti İslam Kərimovun mövqeyi isə daha konkretdir: «Problemin həllində ilk vacib məsələ Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasıdır. Bəlkə də, bu bəyanat hansısa ölkənin xoşuna gəlməyə bilər. İlk növbədə işğal edilmiş ərazilər azad olunmalıdır. Bundan sonra dəmir yolları və kommunikasiya xətləri açılmalıdır. Ermənistan da bu məsələdən narahat olmalıdır. O, işğal etdiyi əraziləri azad etməlidir. Qaçqınlar öz yurd-yuvalarına qayıtmalıdır. Bütün bunlardan sonra Qarabağın statusu ilə bağlı danışıqlar aparıla bilər».

Ermənistanın hərbi təcavüzünün nəticələrinin aradan qaldırılması sahəsində diplomatik səylərlə yanaşı, Azərbay-

can Respublikasının xarici siyasəti digər istiqamətləri də diqqətdə saxlayır. Ayrı-ayrı ölkələrlə, ilk növbədə qonşu və dost dövlətlərlə əlaqələrin möhkəmləndirilməsi, dünya birliyinə inteqrasiyanın gücləndirilməsinə yönəlmiş fəaliyyət davam edir. Bütün bunlar Azərbaycan Respublikasının beynəlxalq aləmdə nüfuzunu artırır, onun dünya dövlətləri arasında mövqeyini möhkəmləndirir.



# İSTİFADƏ EDİLMİŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT

## I. Mənbələr

### Azərbaycan dilində

1. Azərbaycan Respublikasının Konstitusiyası. 1995.

2. «Azərbaycan 2020: Gələcəyə baxış inkişaf Konsepsiyası».

3. «Azərbaycan Respublikasının İnkişafı Naminə İnformasiya və Kommunikasiya Texnologiyaları Üzrə Milli Strategiya» (2003-2012-ci illər üçün).

4. «Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair milli Strategiya» (2014-2020-ci illər üçün).

5. «Azərbaycan Respublikasının Dəniz Təhlükəsizliyi Strategiyası». 11 sentyabr 2013.

6. «Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya». 2007.

7. «Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı». 2004.

8. «Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan)».

9. Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı. 2013.

10. «Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı». 2009.

11. «Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı». 2004.

12. «Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı» (2008-2012-ci illər).
13. «Azərbaycan Respublikasının Dövlət Miqrasiya Proqramı" (2006-2008-ci illər üçün). 2006.
14. «Azərbaycan Respublikasının Dövlət Miqrasiya İdarəetmə Siyasəti Konsepsiyası». 2004.
15. «Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyası». 1999.
16. BMT-nin İqlim dəyişmələri üzrə çərçivə Konvensiyasına əlavə olan Kioto Protokolu. 1997.
17. «Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi haqqında» Əsasnamə. 2004.
18. «Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası». 2007.
19. Azərbaycan Respublikasının hərbi doktrinası. 2010.
20. «Biometrik informasiya haqqında» Azərbaycan Respublikasının Qanunu. 13 iyun 2008-ci il.
21. «Ekoloji təhlükəsizlik haqqında» Azərbaycan Respublikası Qanunu. 04 avqust 1999-cu il.
22. «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikasının Qanunu. 09 mart 2004-cü il.
23. «Elektron ticarət haqqında» Azərbaycan Respublikasının Qanunu. 10 may 2005-ci il.
24. «Atmosfer havasının mühafizəsi haqqında» Azərbaycan Respublikası Qanunu. 2001-ci il.
25. «Ətraf mühitin mühafizəsi haqqında» Azərbaycan Respublikası Qanunu. 1999-cu il.
26. «Ətraf mühitə dair informasiya almaq haqqında» Azərbaycan Respublikasının Qanunu. 12 fevral 2002-ci il.



27. «İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında» Azərbaycan Respublikasının Qanunu. 03 aprel 1998-ci il.
28. «İnformasiya azadlığı haqqında» Azərbaycan Respublikasının Qanunu. 01 yanvar 2005-ci il.
29. «İnformasiya əldə etmək haqqında» Azərbaycan Respublikasının Qanunu. 30 sentyabr 2005-ci il.
30. «Kütləvi informasiya vasitələri haqqında» Azərbaycan Respublikasının Qanunu. 07 dekabr 1999-cu il.
31. «Kəşfiyyat və əks kəşfiyyat fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu. 2004.
32. «Kibercinayətkarlıq haqqında» Konvensiyanın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu. 30 sentyabr 2009-cu il.
33. «Məlumat azadlığı haqqında» Azərbaycan Respublikasının Qanunu. 19 iyun 1998.
34. «Milli təhlükəsizlik haqqında» Azərbaycan Respublikasının qanunu. 2004.
35. «Televiziya və radio yayımı haqqında» Azərbaycan Respublikasının Qanunu. 25 iyun 2002-ci il.
36. «Telekommunikasiya haqqında» Azərbaycan Respublikasının Qanunu. 14 iyun 2005-ci il.
37. Əliyev H. Müstəqillik yollarında. I cild, Bakı: Azərbaycan. 1997.
38. Əliyev H. Müstəqillik yollarında. II cild, Bakı: Azərbaycan. 1997.
39. Əliyev H. Müstəqillik yollarında. III cild, Bakı: Azərbaycan. 1997.
40. Əliyev H. Müstəqillik yollarında. IV cild, Bakı: Azərbaycan. 1997.
41. Əliyev H. Müstəqilliyimiz əbədidir. V cild, Bakı: Azərnəşr. 1998.

42. Əliyev H. Müstəqilliyimiz əbədidir. VI cild, Bakı: Azərnəşr. 1998.

43. Əliyev H. Müstəqilliyimiz əbədidir. VII cild, Bakı: Azərnəşr. 1998.

44. Dövlət sirrinin mühafizəsi üzrə normativ hüquqi aktlar. Bakı: Vətən nəşriyyatı, 2005.

45. Milli təhlükəsizlik orqanlarının yaradılmasının 80 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində respublika Prezidenti, ali baş komandan Heydər Əliyevin nitqi. «Azərbaycan» qəzeti, 28 mart 1999-cu il.

46. Milli Təhlükəsizlik Nazirliyində idman-sağlamlıq kompleksinin istifadəyə verilməsi mərasimində Azərbaycan Respublikasının Prezidenti, ali baş komandan Heydər Əliyevin nitqi. «Azərbaycan» qəzeti, 18 may 2000-ci il.

47. Milli Təhlükəsizlik Nazirliyinin bir qrup əməkdaşına orden və medallarının təqdim edilməsi mərasimində Azərbaycan Prezidenti İlham Əliyevin yekun nitqi. «Azərbaycan» qəzeti, 17 mart 2005-ci il.

48. Milli Təhlükəsizlik Nazirliyinin Heydər Əliyev adına Akademiyasına Döyüş bayrağının təqdim olunması mərasimində Azərbaycan Respublikasının Prezidenti, ali baş komandan İlham Əliyevin nitqi. «Azərbaycan» qəzeti, 28 mart 2006-cı il.

49. Milli Təhlükəsizlik Nazirliyinin Heydər Əliyev adına Akademiyasına Döyüş bayrağının təqdim olunması mərasimində, Azərbaycan Respublikası milli təhlükəsizlik naziri Eldar Mahmudovun çıxışı. «Azərbaycan» qəzeti, 28 mart 2006-cı il.

### Rus dilində

50. Закон Республики Казахстан "О национальной безопасности Республики Казахстан", от 26 июня 1998 г.



№ 233-1 (внесены изменения в соответствии с Законом РК от 28.04.2000 г. № 45-П)

51. Концепция информационный безапосности Республики Казахстан. Одобрена Указом Президента Республики Казахстан от 10 октября 2006 года.

52. Концепция национальной безопосности Республики Беларусь.

53. Концепция национальная безопосности Российский Федерации. Утверждена Указом Президента РФ от 17 декабря 1997 года. № 1300.

54. Концепция национальная безопосности Украины.

## II. Kitablar

### Azərbaycan dilində

55. Azərbaycan Respublikası. Ekoloji atlas. Bakı, 2009.

56. Abbasbəyli A., Nəcəfov E. Beynəlxalq münasibətlər nəzəriyyəsi. Bakı, 2007.

57. Diplomatiya. Ensiklopedik lüğət. Bakı: Diplomat nəşriyyatı, 2005.

58. Əfəndiyev M.Ə. Siyasi elmin problemləri. Bakı: Siyasət nəşriyyatı, 1998.

59. Əlizadə M.İ. Heydər Əliyev inamı və idrakı. Bakı: Bakı Univerisiteti nəşriyyatı, 2006.

60. Əhmədov N.S., Səfərov R.S. Kütləvi qırğın silahlarından müdafiə vasitələri və üsulları. Bakı, BAHDM-nin nəşriyyatı, 1999.

61. Həsənov. Ə. Geosiyasət. 2010.

62. Həsənov. Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. 2005.

63. Həsənov. Ə. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasəti. 2011.

64. Hüseynova İ. Müstəqilliyimizin təminatçısı (Məqalələr, çıxışlar, müsahibələr, rəylər...). Bakı: Təhsil, 2003.

65. Xalqa, vətənə, dövlətə sədaqət. Bakı, 1997.

66. Xəlilov S.S. Lider. Dövlət. Cəmiyyət. Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 2001.

67. Xəlilov S.S. Şərq və Qərb. Ümumbəşəri ideala doğru. Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 2004.

68. Qasımov A. Taleyi tarixə dönən şəxsiyyət. Bakı:, Təhsil, 2004.

69. Qasımlı M. Heydər Əliyev – istiqlala gedən yol (1969-1987-ci illər). Bakı, 2006.

70. Qocatürk U. Atatürk. Bakı: Elm, 1991.

71. Mehdiyev R. Azərbaycanın inkişaf dialektikası Bakı: Azərbaycan Milli Ensiklopediyası Nəşriyyatı, 2000.

72. Məmmədov N.M., Bərxudarov M.İ. İqtisadi təhlükəsizlik. Bakı: İqtisad Universiteti nəşriyyatı, 2006.

73. Musayev H. Beynəlxalq terrorçuluğa qarşı mübarizədə xüsusi xidmət orqanlarının fəaliyyətinin prinsip və xüsusiyyətləri. Bakı, Çaşıoğlu, 2009.

74. Piriyev A.M. Siyasi strategiya və milli təhlükəsizlik problemi. Bakı: 2002.

75. Sosiologiya: Dərslik / F.Q. Vahidovun redaktəsi ilə. Bakı: Təknur, 2005.

76. Şirəliyev H.İ., Əhmədov Ə.C. Politologiya. Dərslik. Bakı: Təbib nəşriyyatı, 1997.

**Rus dilində**

77. Бжезинский З. Великая шахматная доска. М., Международные отношения, 1998.



78. Богомолов. В.А. Экономическая безапосность. М., Юнити-Дана, 2006.

79. Возжеников А.В. Парадигма национальной безопасности реформирующейся России. М., ЭДАС ПАК, 2000.

80. Гаджиев К.С. Геополитика Кавказа. М., Международные отношения, 2003.

81. Дугин А. Основы геополитики. М., Издательство МГУ, 1999.

82. Зеркин Д.П. Основы политологии. Ростов-на-Дону., Феникс, 1997.

83. Метелэв С.А Национальная безопасность приоритеты развития России. М., ЮНИТИ-ДАНА: Закон и право, 2006.

84. Нартов Н.А. Геополитика. М., ЮНИТИ-ДАНА, Единство, 2002.

85. Проскурин С.А. Национальная безопасность страны: сущность, структура, пути укрепления М., 1991.

86. Раджабли А. Теория национальной безопасности. Баку, БСУ, 2005.

87. Региональная безопасность. Геополитические и геоэкономические аспекты (теория и практика): Монография. под обш. ред. А.В Возженикова. М., Изд-во РАГС, 2006.

88. Рыбалкин Н.Н. Философия безопасности. Учебное пособье М., Московский психолого-социальный институт, 2006.

89. Стрелцов А.А. Обецпечение информационной безопасности. Теоретические и методологические основы. М., МЦНО, 2002.

90. Уфимцев Ю.С., Ерофеев Е.А и др. Информационная безопасность России. М., Экзамен, 2003.

91. Хасанов У.А. Региональная безопасность и национальные интересы (Центральноазиатский регион) М., 2004.

92. Эйвазов Д.А. Безапосность Кавказа и стабильность развития Азербайджанской Республики. Баку, Нурлан, 2004.

93. Экономическая и национальная безопасность Учебник. Под ред. Е.А. Олейникова М., Экзамен, 2004.

94. Ярочкин В.И. Секьюритология. Наука о безопасности жизне деятельности. М., Ось-89, 2000.

95. Кулагин В.М Международная безопасность. М., Аспект Пресс, 2006.

## III. Dövri mətbuat

### Azərbaycan dilində

96. Əliyev Q. Müasir reallıqlarımız fəlsəfi müstəvidə: nəzəri irsimizə yeni töhfə. «Respublika» qəzeti, 2008, 29 yanvar.

97. Hacızadə E. Milli neft strategiyasının imperativləri. Strateji təhlil, № 3, 2011.

98. Heydərov F. Heydər Əliyevin şah əsəri müstəqil Azərbaycan // Dirçəliş XXI əsr, № 110-111, 2007.

99. Hüseynov Ə. Hüquqi dövlət quruculuğunun banisi. «Azərbaycan» qəzeti, 2008, 4 may.

100. Hüseynova İ. Siyasi kurs: Davamlılıq konsepsiyası // Dirçəliş XXI əsr, № 110-111, 2007.

101. İsmayılova V. Qloballaşma dövründə azərbaycanlı «Mən»-i getdikcə daha nüfuz qazanır. «Azərbaycan» qəzeti, 2004, 25 iyul.

102. Qarayev Y. Milli «mən» şüuru və etnik yaddaş-Azərbaycançılıq // Dirçəliş XXI əsr, № 94-95, 2005.

103. Mahmudov E. Prezident İlham Əliyevin siyasi kursu milli təhlükəsizliyimizin qarantıdır. «Azərbaycan» qəzeti, 2006, 15 noyabr.



104. Mehdiyev R. Demokratiya dövlət və cəmiyyətin inkişafının prioriteti kimi. «Respublika» qəzeti, 2005, 24 may.

105. Mehdiyev R. Heydər Əliyevin banisi olduğu müstəqil Azərbaycan dövləti Prezident İlham Əliyevin rəhbərliyi altında daha da möhkəmləndi və inkişaf etdi // Dirçəliş XXI əsr, № 116-117, 2007.

106. Mehdiyev R. Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti. «Azərbaycan» qəzeti, 17 yanvar 2008-ci il.

107. Şəmsizadə N. Heydər Əliyev və Azərbaycançılıq. «Azərbaycan» qəzeti, 4 may 2008-ci il.

108. Tağıyev Ə. Milli təhlükəsizlik ilə milli ideyanın qarşılıqlı əlaqəsi məsələsinə dair // Sosial-siyasi problemlər, X buraxılış, Bakı: ADPU-nun nəşriyyatı, 2004.

109. Tağıyev R. Transmilli mütəşəkkil cinayətkarlıqla mübarizədə uğurlu mərhələ. «Azərbaycan» qəzeti, № 40 (4557), 23 fevral 2007-ci il.

110. Usubov R. İnsan hüquq və azadlıqlarının müdafiəsi möhkəm əllərdədir. «Respublika» qəzeti, 7 may 2008-ci il.

111. Vəliyev X. Xidmətlər fövqündə dayanan xidmət. «Respublika» qəzeti, 1 may 2008-ci il.

112. Yusifov M. Azərbaycançılıq ideyalarına və milli-mənəvi dəyərlərə sədaqət. «Respublika» qəzeti, 26 oktyabr 2004-cü il.

**Cəlal QASIMOV**
**Nicat NAĞIYEV**

# MİLLİ TƏHLÜKƏSİZLİYİN ƏSASLARI

***(dərslik)***

**Bakı – 2015**

***Nəşriyyat redaktoru:***

**Sevinc QOCAYEVA**

***Kompüter dizaynı və qrafikası:***

**İsmayıl İMANOV**

Yığılmağa verilib: 15.01.2015. Çapa imzalanıb: 03.02.2015.
Fiziki çap vərəqi 25,5. Nəşrin formatı 60x84 $^{1}/_{16}$.
Sifariş 2511. Tiraj 300.

MTN Maddi-texniki Təminat Baş İdarəsinin
Nəşriyyat-Poliqrafiya Mərkəzində
nəşrə hazırlanmış və ofset üsulu ilə çap edilmişdir.